# NUR TƏFSİRİ

## DOQQUZUNCU CİLD

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: HACI ARZU**

بسم الله الرحمن الرحیم


**نام کتاب:...................................................تفسیر نور (جلد-9)**
**مؤلف:..........................................................محسن قرائتی**
**مترجم:..............................................................حاج آرزو**
**ناشر:........................................................................ .فائز**
**تاریخ چاپ:...............................................................1386**
**نوبت چاپ:..................................................................اول**
**تیراژ:.......................................................................2000**

**Kitabın adı:..................Nur təfsiri (doqquzuncu cild)**
**Müəllif:....................................................Möhsün Qəraəti**
**Tərcümə edən:..............................................................H. Arzu**
**Nəşr edən:.......................................................................Faiz**
**Çap tarixi:......................................................................2007**
**Çap növbəsi:...........................................................Birinci**
**Tiraj:...............................................................................2000**

Əziz və diqqətli oxucu! Quran təfsiri tərcüməsinin nə dərəcədə əhəmiyyətli və incə iş olduğunu anlasaq da, nöqsanlar-dan qaça bilmədik. “Həyy” və “qəyyum” kimi yüzlərcə mirvari tə’birini bəsit şəkil-də tərcümə etmək zorunda qaldıq. Gələ-cəkdə bu ilahi işdə yardımçı olacağı-nızı düşünürük. Bizə ünvanlayacağınız qeydlər növbəti nəşrlərdə nəzərə alı-nacaq.

*Dua istəyi ilə tərcüməçi*

*RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ*

**Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!**

## *ÖN SÖZ*

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## *HƏMKARLAR*

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## *İMTİYAZLAR*

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.

2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.

3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və Qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmilləşməsi üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

***MÖHSÜN QƏRAƏTİ***

## *AYƏTULLAH HACI SEYYİD MEHDİ RUHANİDƏN BİR NEÇƏ XOŞ SÖZ*

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini öz şəxsi, çox vaxt isə yanlış əqidələrinin sübutu üçün əsas gətirirlər.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;
5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "Səqəleyn"dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

1 "Maidə" 13.
2 "Sad" 29.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Həmin təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Həmin şərhlərdə müəllifin "bildirişlər" adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) "Səhifeye-səccadiyyə" kitabında Quranın xətm duasında buyurur: "Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil."

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

***09 RƏBİUS-SANİ, 1414***

***MEHDİ HÜSEYNİ RUHANİ***

### *MÜƏLLİFDƏN*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə “Nur təfsirini” diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və “Təfsiri-rahnüma”, “Nüxbətut-təfsir” kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər Qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma Qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

***MÖHSÜN QƏRAƏTİ***

### *BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM*

# "QƏSƏS" SURƏSİ

### *(28-Cİ SURƏ, 88 AYƏ)*

### *İyirminci cüz,*

## *"QƏSƏS" SURƏSİNİN SİMASI*

Hicrətdən öncə Məkkədə nazil olmuş bu surə 88 ayədən ibarətdir. Surənin 25-ci ayəsindəki "qəsəs" sözü ilə əlaqədar olaraq surə belə adlandırılmışdır. "Qəsəs" dedikdə "sərgüzəştin bəyanı" mənası başa düşülür.

Surənin 3-46-cı ayələrində həzrət Musa (ə) və Fironun macərası ətraflı şəkildə bəyan olunur, son ayələrində Qarun haqqında danışılır, xeyir əməl sahibi olan səbir əhlinin və günahkar insanların taleyinə nəzər salınır.

Qurani-kərimin 34 surəsində həzrət Musa və Fironun macərasına işarə olunsa da, yalnız bu surədə həzrət Musanın (ə) dünyaya gəlişi, uşaqlığı, gəncliyi, izdivacı, peyğəmbərliyi, allahpərəstliyə dəvəti, bir sözlə, həyatının bütün yönümləri işıqlandırılmışdır.[1]

---

[1] "Təfsiri-fi zilalil-Quran".

﴿بسم الله الرحمن الرحيم﴾

**"Rəhman və rəhim Allahın adı ilə"**

***AYƏ 1, 2:***

﴿طسم * تِلْكَ آيَاتُ الْكِتَابِ الْمُبِينِ﴾

**"Ta, sin, mim; bunlar açıq-aşkar kitabın ayələridir."**

***AYƏ 3:***

﴿نَتْلُوا عَلَيْكَ مِن نَّبَإِ مُوسَى وَفِرْعَوْنَ بِالْحَقِّ لِقَوْمٍ يُؤْمِنُونَ﴾

**"Biz iman gətirən bir qövm üçün Musa və Fironun əhvalatlarından bir hissəsini olduğu kimi sənə oxuyuruq."**

**Bildirişlər**

1. İslamın əbədi möcüzəsi olan Quran sadə ərəb əlifbası hərflərindən təşkil olunmuşdur. Əgər onu insan sözü sayırsınızsa, siz də mislini bəyan edin.
2. Quran aydın, şəffaf və anlaşılan bir kitabdır.
3. Keçmiş sərgüzəştlərin bəyanı ilahi sünnələrin tarixi qanunauyğunluğunu göstərir. Əgər tarixin hesab-kitabı, qanunauyğunluğu olmasaydı, biz ondan bu günkü həyatımız üçün istifadə edə bilməzdik.
4. Tarixi nəql edərkən mühüm və ibrətamiz sətirlərə xüsusi diqqət yetirək. ("Nəbə" dedikdə mühüm xəbər nəzərdə tutulur.)
5. Peyğəmbərlərin zalım hakimlər və sitəmkarlarla mübarizəsi möminlər üçün nümunədir.
6. Quran əhvalatları xurafat, təxəyyül, artıq söhbət deyil.
7. Əhvalatların bəyanında Quranın məqsədi möminlərin hidayəti, doğru yola yönəldilməsidir.
8. Hidayətin ilkin şərti qabilliyyət, imandır.

***AYƏ 4:***

﴿إِنَّ فِرْعَوْنَ عَلَا فِي الْأَرْضِ وَجَعَلَ أَهْلَهَا شِيَعًا يَسْتَضْعِفُ طَائِفَةً مِّنْهُمْ يُذَبِّحُ أَبْنَاءهُمْ وَيَسْتَحْيِي نِسَاءهُمْ إِنَّهُ كَانَ مِنَ الْمُفْسِدِينَ﴾

**"Həqiqətən, Firon məmləkətdə (Misirdə) azğınlıq edib, oranın əhlini firqələrə bölmüşdü. Onlardan bir dəstəsini zəiflətmiş, oğlanlarının başını kəsmiş, qadınlarını (kənizlik üçün) diri saxlamışdı. Doğrudan da, o, fəsad törədənlərdən idi."**

**Nöqtələr**

“Şiə” sözü əslində bir şeyin ardınca getmək, tabe olmaq mənasını bildirir. Amma hər hansı bir toplumda adətən bəziləri bəzilərinə tabe olduğundan bu söz güruh, dəstə mənasını da bildirir.

“Nisa" sözü “qadınlar” mənasında işlənir. Amma bu ayədə “oğlanlar” sözü ilə yanaşı işləndiyindən uyğun söz “qızlar” mənasını da ifadə edə bilər.

“Firon” dedikdə konkret bir şəxs yox, Misir padşahları nəzərdə tutulur. Necə ki, “kəsra” sözü İran, “qeysər” sözü Rum padşahlarına işarədir.[1]

**Bildirişlər**

1. Peyğəmbərlərin zühur və besət dövründə cəmiyyətin vəziyyətini, əhval-ruhiyyəsini bilmək zəruridir.
2. Quruluşlarla tanışlıq üçün fərdləri yox, onların əməllərini araşdırmaq mühümdür. (Fironun adı onun azğın əməllərinə görə qeyd olunur.)
3. Təkəbbür və itaətsizlik fəsad və günah üçün zəmindir.
4. İmperialistlərin xalq üzərində ən bariz hakimiyyət vasitəsi araya təfriqə salmaqdır. (Nə qədər ki, xalq arasında birlik var, zalım rəhbərlər gücsüzdürlər və bir iş görə bilməzlər.)
5. Təfriqə zillətin qəbulu üçün müqəddimədir. Xalq öncə dəstələrə parçalanır, sonra zəifliyə sürüklənir.
6. Məmurların qanunsuz əməlləri hakimin də ayağına yazılır. Bu ayələrdə ətrafındakıların cinayətləri Firona da aid edilir.
7. Allah qətldən öncə təfriqə məsələsini qeyd edir. Ola bilsin ki, təfriqə qətl üçün zəmindir və ya qətldən də ağırdır.
8. Cinayətə görə ona sövq edən siyasətçi və rəhbər də səbəbkar və günahkar sayılır.
9. Təfriqə yaradanlar fəsad törədənlərdəndir.

Bəli, hakimi təkəbbürlü, xalqı parçalanmış, fəalları hədələnən, qazancı kübarların cibində olan cəmiyyət fironçu və bütpərəst cəmiyyətdir.

***AYƏ 5:***

﴿وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ﴾

[1] “Luğətnameyi-Dehxuda”.

**“Biz yer üzündə zəifliyə düçar olmuşlara minnət qoyub, onları (yer üzünə) rəhbər və varis etmək istəmişik.”**

**Nöqtələr**

Ayədəki “minnət” sözü verilən neməti dilə gətirmək yox, böyük və dəyərli nemət mənasını bildirir. Qarşı tərəfi alçaltmaq məqsədi ilə verdiyini dilə gətirmək, şübhəsiz, pis işdir.

Şübhəsiz ki, bir işin gerçəkləşməsi ilə bağlı Allahın qərarı varsa, həmin iş hökmən həyata keçəcək və heç bir maneə onun qarşısını kəsə bilməz. Qurani-kərimdə buyurulur: “Həqiqətən, bir şeyin olmasını istədiyi zaman Allah yalnız “ol” deyər və həmin şey dərhal olar.”[1]

Bütün nemətlər Allah tərəfindəndirsə də, bəndələr istənilən bir nemətə görə Ona borcludurlarsa da, Allah bir neçə nemət haqqında minnət təbirini işlədir. Görünür, bu nemətlər daha böyük əhəmiyyətə malikdir. İslam, peyğəmbərlik, hidayət (doğru yola yönəlmə), möminlərin hakimiyyəti qeyd olunan nemətlərdəndir.[2]

Çoxsaylı rəvayətlərdə həzrət Mehdi (ə) və onun dünyanın sonunda hakimiyyəti uyğun ayənin ən yetərli nümunəsi kimi təqdim olunur.[3]

Zəiflədilmişlərin yer üzünə hakimiyyət məsələsi Quranda müxtəlif təbirlərlə qeyd olunmuşdur:

a) “Allah iman gətirib saleh işlər görənlərə yer üzündə xilafət vəd etmişdir.”[4]

b) “Qədim sitəmkar qövmləri həlak etdikdən sonra sizi yer üzünə canişin qərar verərik.”[5]

v) “Saleh bəndələr yer üzünün varisləridir.”[6]

q) “Biz zəif salınmışları yer üzünün şərq və qərbinə varis edərik.”[7]

e) “Biz sitəmkarları məhv edər, sonra sizi yer üzünə sakin qərar verərik.”[8]

Hazırkı ayədə “müstəzəf” deyərkən imperializm tərəfindən zəifliyə sürüklənmişlər nəzərdə tutulur. Belə ki, özü özünü zəifliyə düçar edən insan “müstəzəf” sayılmır.

**Bildirişlər**

1. Müstəzəflərin dünyaya hakimiyyəti və məzlumların himayəsi Allahın istək və iradəsidir.
2. Nəfsinə qulluq edən zalım hökumətdə fəal qüvvələr zəifliyə sürüklənir.
3. Gələcək müstəzəflərindir.
4. İmamət də besət kimi Allahın minnət qoyub xalqa əta etdiyi xüsusi bir nemətdir.

---

[1] “Yasin”, 58.
[2] “Nisa", 94, “Ali-İmran”, 164, “Hucurat”, 17; hazırkı ayə.
[3] “Təfsire-kənzud-dəqaiq”.
[4] “Nur “, 55.
[5] “Yunus”, 12, 13.
[6] “Ənbiya”, 105.
[7] Əraf”, 137.
[8] “İbrahim”, 13, 14.

***AYƏ 6:***

﴿وَنُمَكِّنَ لَهُمْ فِي الْأَرْضِ وَنُرِي فِرْعَوْنَ وَهَامَانَ وَجُنُودَهُمَا مِنْهُم مَّا كَانُوا يَحْذَرُونَ﴾

**“(İstədik ki,) onlara yer üzündə qüdrət və imkan verək, onlar tərəfindən Firon, Haman və onların qoşunlarına qorxduqları şeyi göstərək.”**

**Bildirişlər**

1. Müstəzəflər (yer üzərində zəifliyə düçar edilmişlər) məyus olmasınlar, Allah onlara da qüdrət verər.
2. Zalım hakimlərin əsl cəzası axirətə aid olsa da, onlar dünyada da Allahın qəhr-qəzəbindən amanda qalmazlar.
3. Allah kafirləri möminlərin əli ilə zəlil edər.
4. Düşmən nə qədər güclü olsa da, möminlərdən qorxur.

***AYƏ 7:***

﴿وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ﴾

**“Biz Musanın anasına ilham etdik ki, ona süd ver, (fironçulardan) qorxduğun vaxt onu dəryaya at, qorxma və qəmgin olma. Biz onu sənə qaytarar və peyğəmbərlərdən qərar verərik.”**

***AYƏ 8:***

﴿فَالْتَقَطَهُ آلُ فِرْعَوْنَ لِيَكُونَ لَهُمْ عَدُوًّا وَحَزَنًا إِنَّ فِرْعَوْنَ وَهَامَانَ وَجُنُودَهُمَا كَانُوا خَاطِئِينَ﴾

**“(Çox çəkmədi ki) fironçular onu (görüb sudan) çıxardılar. Halbuki (Musa) sonda onlara düşmən kəsiləcək, dərd-qəm olacaqdı. Həqiqətən, Firon, haman və onların qoşunları xatakar idilər.”**

**Nöqtələr**

Firona xəbər verilmişdi ki, bu il dünyaya gələcək bir uşaq böyüyüb onu xar edəcək. Firon yeni doğulan bütün körpələrin öldürülməsini əmr etdi. Amma Musa (ə) dünyaya gələndə Allah onun anasına ilham etdi ki, uşağa süd verib, bir sandığa qoysun və dəryaya atsın.

Bu ayədə həzrət Musanın (ə) anasına iki əmr, iki qadağa, iki müjdə ünvanlanmışdır: süd ver, dənizə at, qorxma, qəmgin olma; Biz onu sənə qaytararıq, peyğəmbərlərdən qərar verərik.

Təhlükə ehtimalından yaranan hiss “xof”, qəti nigarançılıqdan yaranan hiss “hüzn” adlanır.[1]

Ayədə “dərya” deyərkən Misirdəki böyük Nil çayı nəzərdə tutulmuşdur. Fironun sarayı bu əzəmətli çayın sahilində yerləşirdi. Allah insanı onun düşmənininin əli ilə də xilas edə bilər.

*Mənim qoruyanım baxmaz su, oda,*
*Şüşəni qoruyar daş arasında.*

**Bildirişlər**

1. Allah çətinliklər və çıxılmaz vəziyyətlərdə möminlərin ən üstün yol göstərəni və himayədarıdır.
2. Qadına da Allah tərəfindən ilham oluna bilər.
3. Qeybi yardımlarla maddi vasitələrdən faydalanma arasında ziddiyyət yoxdur. Körpəyə süd verib onu sandığa qoymaq Allaha təvəkkülə zidd deyil.
4. Heç bir şəraitdə körpəni ana südündən məhrum etmək olmaz.
5. İlahi göstərişlərdə ilk baxışdan anlaşılmayan sirlər ola bilər.
6. İlahi qanunların icrasında heç nədən qorxmayaq, hansısa məsələ bizi narahat etməsin. (Musanın (ə) anası iki şeyə görə nigaran idi: o həm övladının ölümündən qorxur, həm də ondan ayrılığa görə narahat olurdu. Allah (növbəti ayələrdə açıqlandığı kimi) hər iki nigarançılığı ən gözəl şəkildə aradan qaldırdı.)
7. Allah yolunda qurban verilmiş şey ən gözəl şəkildə geri qaytarılar. (Musanın (ə) anası Allahın əmri ilə övladını dəryaya atdı. Allah da Öz növbəsində onu anasına qaytarıb peyğəmbərlik məqamına ucaltdı.)
8. Allah istədiyi şəxsi qeybi xəbərlərdən agah edər.
9. Firon Musanın (ə) dəryadan qurtuluşu üçün vasitə oldu, sonda onun əli ilə həmin dəryada batdı. (Bəli, Allah əlli-ayaqlı insanın batdığı dəryada “əlsiz-ayaqsız” körpəni qoruya bilər.)
10. Allahın iradəsi qarşısında insanın istəyi əhəmiyyətsizdir. Firon güman edirdi ki, ona hədiyyə verilib. Amma Allah onun düşmənini elə ağuşundaca böyütmək qərarına gəlmişdi.
11. Firon, onun vəziri və qoşunu plan cızıb hərəkət etdi. Amma Allahın tədbiri bütün planları puça çıxardı.
12. Planı cızan, müşavir, əmr edən və əmri yerinə yetirən şəxslər hamılıqla günaha şərikdirlər.

***AYƏ 9:***

﴿وَقَالَتِ امْرَأَتُ فِرْعَوْنَ قُرَّتُ عَيْنٍ لِّي وَلَكَ لَا تَقْتُلُوهُ عَسَى أَن يَنفَعَنَا أَوْ نَتَّخِذَهُ وَلَدًا وَهُمْ لَا يَشْعُرُونَ﴾

[1] “Təfsirül-mizan”.

**“Fironun zövcəsi (körpəni öldürmək istədiklərini hiss edib Firona xitabən) dedi: “Onu öldürməyin, o mənim də, sənin də gözümüzün işığıdır. Ola bilsin ki, bizə bir faydası dəyə, ya da onu övladlığa götürək.” Amma onlar anlamırdılar (ki, ağuşlarında kimi böyüdürlər).”**

**Nöqtələr**

Həzrət Musanın (ə) həyatında bir neçə qadın aparıcı rol oynamışdır: Musanın (ə) anası, Musanın (ə) bacısı, Fironun zövcəsi, Musanın zövcəsi. Bu ayədə körpənin qətlinə Fironun zövcəsinin mane olduğu bəyan edilir.

**Bildirişlər**

1. Qadınların ictimai işlərdə təsirli rolu var. (Fironun zövcəsi onun fikrini dəyişdi, Fironun səltənət və sərvəti ona mane olmadı.)

2. Düzgün və kəskin təkliflərlə azğın planların qarşısını alaq. Firon öz qərarını açıqlamamış onun zövcəsi məsələnin həlli üçün düzgün yol göstərdi.

3. Təkliflərin bəyanında qəlbəyatımlı sözlərdən istifadə edək.

4. Bütün qəlblər Allahın əlindədir. Allah Fironun qəlbi kimi daş qəlbləri də yumşalda bilər.

5. Pis işlərə öncə mülayimliklə cavab verək. Sonra növbə əmr və qadağanındır.

6. Dil ilə pisliyin qarşısını almaq çox təsirlidir və bunu yaddan çıxarmayaq. (Fironun zövcəsi bir kəlmə ilə Musanın (ə) qətlinin qarşısını aldı. Necə ki, Yusifin qardaşlarından biri bir sözlə Yusifin ölümünün qarşısını ala bildi.)

7. Zalım rəhbərlər ən adi insani hisslərdən məhrumdurlar və bu barədə xatırlamaya ehtiyaclıdırlar.

8. Əmr və qadağanın faydalarından danışaq ki, insanlar asanlıqla qəbul etsinlər.

9. Zalım rejimlərdə qanunlar hisslər və şəxsi mənafelər əsasında tənzimlənir. (Yeni doğulmuş oğlanların qətli göstərişi Fironun şəxsi mənafeyinə əsaslanırdı. Suyun gətirdiyi körpənin gələcəkdə fayda verə biləcəyinə ümid həmin qanunun ləğvinə səbəb oldu.)

10. Bəzi insanlar zahirdə göylə getsələr də, batində öz daxili ehtiyaclarına əsirdirlər. Tanrılıq iddiasında olan Firon nəhayət qəbul edir ki, suyun gətirdiyi bir körpə onun üçün faydalı ola bilər.

11. Fironun oğlan övladı yox idi. Buna görə də suyun gətirdiyi körpəni qəbul etməklə öz acizliyini daha çox anladı.

12. Bəzən qeybi bir xətt insanlar arasında məhəbbət yaranmasına səbəb olur və kimsə bunu hiss etmir.

***AYƏ 10:***

﴿وَأَصْبَحَ فُؤَادُ أُمِّ مُوسَى فَارِغًا إِن كَادَتْ لَتُبْدِي بِهِ لَوْلَا أَن رَّبَطْنَا عَلَى قَلْبِهَا لِتَكُونَ مِنَ الْمُؤْمِنِينَ﴾

**“Musanın anasının qəlbində bir boşluq əmələ gəldi, iman gətirən halda qalsın deyə qəlbini möhkəmlətməsəydik, həqiqətən, ola bilsin ki, (ah-nalə çəkib bu sirri) aşkarlayacaqdı.”**

***AYƏ 11:***

﴿وَقَالَتْ لِأُخْتِهِ قُصِّيهِ فَبَصُرَتْ بِهِ عَن جُنُبٍ وَهُمْ لَا يَشْعُرُونَ﴾

**“(Musanın anası) onun bacısına dedi: “(Musanın qoyulduğu sandığı) izlə.” O da uzaqdan izləyirdi. Halbuki (düşmənlər) bunu başa düşmürdülər.”**

**Nöqtələr**

Onuncu ayə “Əl-mizan” təfsirində əvvəlki və sonrakı ayələrin gedişinə əsasən belə mənalandırılmışdır: “Musanın (ə) anasının qəlbi Allahın ilhamı vasitəsi ilə aramlaşdı, onun qorxusu çəkildi. Əgər ilahi vəd olmasaydı, ağır iztirabdan o sirri açardı.”

Musanın (ə) anası övladını sandığa qoyub dəryaya atdıqdan sonra Musanın (ə) bacısına göstəriş verdi ki, sandığı izləsin. O da məmurların gözündən yayınaraq sandıq sudan çıxarılanadək onu izlədi. Əmin oldu ki, Fironun məmurları körpəyə süd vermək üçün dayə axtarırlar. Musa (ə) isə heç bir dayənin südünü qəbul etmirdi. Nəhayət, Musanın (ə) bacısı öz anasını dayəliyə təklif etməklə işini başa çatdırdı.

**Bildirişlər**

1. İnsanın sirri açması onun süstlüyünü və imanının zəifliyini göstərir.
2. Qəlblərin aramlığı Allahın əlindədir.
3. Aram qəlb iman nişanələrindəndir.
4. Allah üçün insanın kişi və ya qadın olması yox, onun imanı mühümdür.
5. Qadınlar və qızlar da ictimai məsələlərdə zəruri tədbirlərdən istifadə etməlidirlər.
6. Bir insanda həssaslıq doğurası işi başqalarına tapşırmaq daha yaxşıdır. Musanın (ə) əhvalatı anasını çox həyəcanlandırırdı və sirr açıla bilərdi.
7. Allaha təvəkkül etmək məsələyə biganəliyi göstərmir. Musanın anası imanlı olsa da qızına tapşırır ki, hadisələri izləsin.
8. Sitəmkar rejimlərə münasibətdə təqib və izləmə zəruridir.
9. Sirri açmamaq üçün özünü heç nə olmamış kimi göstərmək vacibdir. (Musanın (ə) bacısı sandığı çox məxfi şəkildə izləyirdi ki, düşməndə şübhə oyatmasın.)
10. Mömin düşmənin gözünü oğurlayıb verilmiş tapşırığı yerinə yetirir.

***AYƏ 12:***

﴿وَحَرَّمْنَا عَلَيْهِ الْمَرَاضِعَ مِن قَبْلُ فَقَالَتْ هَلْ أَدُلُّكُمْ عَلَى أَهْلِ بَيْتٍ يَكْفُلُونَهُ لَكُمْ وَهُمْ لَهُ نَاصِحُونَ﴾

**“Biz qabaqca süd verən qadınları ona qadağan etdik. (Musanın bacısı məmurların dayə axtardığını görüb) dedi: “İstəyirsinizmi, sizə bir ailə göstərim ki, sizdən ötrü ona hamiliyi qəbul etsin və ona xeyirxah olsun?”**

**Nöqtələr**

“Məraziə” dedikdə süd verən qadın, dayə mənası anlaşılır.

**Bildirişlər**

1. Əgər Allah istəməsə, Firon səltənəti kimi böyük bir qurum da bir körpəni qida ilə təmin etməkdə aciz qalar.
2. Körpənin süd əmməsi kimi sadə işlər də Allahın iradəsindən asılıdır. Əgər Allah istəməsə, heç bir iş baş tutmaz.
3. Körpə üçün süd anası tapmaq, onu dayəyə tapşırmağın uzun keçmişi var.
4. Təkəbbürlü insanın başı daşa dəydikdən sonra başqalarının, hətta tanınmayan bir fərdin məsləhətini asanlıqla qəbul edir.
5. Həssaslıq yaradan məsələ ilə bağlı təkliflərimizi adi şəkildə bəyan edək.
6. Düşmən qarşısında zirək olmaq lazımdır. (Musanın (ə) bacısı dayə təklifi verərkən anasının adını çəkmədi.)
7. Körpə təkcə qidaya yox, həm də ailəyə, məhəbbət ocağına ehtiyaclıdır. Buna görə də Musanın bacısı təkcə körpənin qidalanmasından yox, ona hərtərəfli himayədən danışdı.
8. Təkliflərimizi elə bir formada bəyan edək ki, qarşı tərəf bunu öz xeyirinə bilsin.
9. Xeyirxahlıq və məhəbbətlə müşayiət olunan himayədarlıq dəyərlidir.

***AYƏ 13:***

﴿فَرَدَدْنَاهُ إِلَى أُمِّهِ كَيْ تَقَرَّ عَيْنُهَا وَلَا تَحْزَنَ وَلِتَعْلَمَ أَنَّ وَعْدَ اللَّهِ حَقٌّ وَلَكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ﴾

**“Biz onu anasına qaytardıq ki, gözünə işıq olsun, qəm yeməsin, ilahi vədin həqiqətən haqq olduğunu bilsin. Amma xalqın çoxu bilməz.”**

**Nöqtələr**

Bəzən insanın kimliyi onun üçün maneə olur. Məsələn, bu macərada Musanın (ə) anası dayə adı ilə övladına süd vermək təklifini qəbul etdi. Çünki özünü körpənin anası kimi tanıtdırsaydı, bu təqdimat övladının qətlinə və özünün əziyyətə düşməsinə səbəb olardı.

**Bildirişlər**

1. İlahi vədlər dəyişməzdir. 7-ci ayədə Allah vəd etdi ki, körpəni anasına qaytaracaq. Bu ayədə isə verilən vədin yerinə yetirildiyi bəyan olunur.
2. Körpə ananın gözünün işığıdır.
3. Haqq əhli üçün ad-ünvan yox, məqsədlər mühümdür. Musanın (ə) anası dayə adı ilə qəbul olunsa da öz körpəsinə qovuşdu. Mühüm məsələ necə təqdim olunmaq yox, körpənin qayıdışı idi.
4. Ana övlada dərindən bağlı olduğu üçün onun həyatında daha çox rol oynayır. (Hazırda Musanın (ə) atasının adı çəkilmir.)
5. Sonda çətinliklər başa çatası, ayrılıq vüsalla tamamlanasıdır. (Uzun müddət nigarançılıq və qəm-qüssədən sonra Allah Musanı (ə) anasına qaytardı.)

6. Allah istəsə bir şəxs iki müxalif qrup üçün ümid yeri olar. (Fironun və Musanın (ə) ailəsi.)

7. Həm şadlıq, həm də qəm-qüssənin insanın necə görməsinə təsiri var. "Yusuf" surəsinin 84-cü ayəsində oxuyuruq ki, həzrət Yusifin (ə) ayrılığı həzrət Yəqubun (ə) gözlərinin kor olmasına səbəb oldu.

8. Allaha imanın mərhələləri və dərəcələri var. Musanın (ə) anası mömin bir xanım idi. Amma mömin də yəqin və dərin elm mərhələsinə çatmalıdır.

9. Bəzi hadisələrin fəlsəfəsi ilahi vədlərin kerçəkliyini dərk etməkdir.

10. İnsanların əksəri zahirə uyur və onlarda Allahın hikmətli sirlərini, tədbirlərini dərk etmək gücü yoxdur.

***AYƏ 14:***

﴿وَلَمَّا بَلَغَ أَشُدَّهُ وَاسْتَوَى آتَيْنَاهُ حُكْمًا وَعِلْمًا وَكَذَلِكَ نَجْزِي الْمُحْسِنِينَ﴾

**"Musa (ə) güclənib kamilləşdiyi vaxt ona hikmət və elm əta etdik. Biz xeyir əməl sahiblərini bu sayaq mükafatlandırarıq."**

**Nöqtələr**

"Əşuddə" sözü "güclənmək", "istəva" sözü "kamilləşmə" mənasını bildirir.

"Hukmən və ilmən" təbirləri Qurani-məciddə üç dəfə qeyd olunmuşdur. Hər dəfə də, "hukm" sözü "elm" sözündən əvvəl işlənir. "Hukm" dedikdə düzgün anlamaq, düzgün mühakimə gücü mənası, "ilm" dedikdə agahlıq və məlumata malik olmaq mənası anlaşılır.

**Bildirişlər**

1. Məsuliyyətin qəbulu üçün ilkin şərt fiziki baxımdan yetkinlikdir.
2. Həqiqi yetkinlik (büluğ) isə təkcə fiziki durumla yox, həm də düşüncənin kamilliyi ilə müəyyənləşir.
3. İlahi vədlər dəyişməzdir.
4. İlahi lütflərin nazil olması üçün münasib şərait lazımdır.
5. Hikmət elmdən öndə gəlir.
6. Xeyir əməl sahiblərinə lütf ilahi sünnə, qaydadır.
7. Xeyir əməl sahiblərinin mükafatı təkcə axirətə aid deyil. (Ehsanına görə Musa (ə)Allah tərəfindən hikmət və elmlə mükafatlandırıldı.)

***AYƏ 15:***

﴿وَدَخَلَ الْمَدِينَةَ عَلَى حِينِ غَفْلَةٍ مِّنْ أَهْلِهَا فَوَجَدَ فِيهَا رَجُلَيْنِ يَقْتَتِلَانِ هَذَا مِن شِيعَتِهِ
وَهَذَا مِنْ عَدُوِّهِ فَاسْتَغَاثَهُ الَّذِي مِن شِيعَتِهِ عَلَى الَّذِي مِنْ عَدُوِّهِ فَوَكَزَهُ مُوسَى فَقَضَى عَلَيْهِ
قَالَ هَذَا مِنْ عَمَلِ الشَّيْطَانِ إِنَّهُ عَدُوٌّ مُّضِلٌّ مُّبِينٌ﴾

**“Musa şəhərə daxil oldu. Xalq onun gəlişindən xəbərsiz idi. Orada bir-biri ilə vuruşan iki şəxslə rastlaşdı. Onlardan biri tərəfdarlarından, digəri düşmənlərindən idi. Musanın (ə) tərəfdarı olan şəxs ondan düşməninə qarşı kömək istədi. Musa (ə) bir yumruq vurub onun işini bitirdi. (Düşmən bir yumruqla öldürüldü.) Musa (bu hadisəyə görə təəssüf edib) dedi: “Bu, şeytan işlərindən idi. Həqiqətən, o, haqdan azdıran aşkar bir düşməndir.”**

**Nöqtələr**

Belə görünür ki, həzrət Musa (ə) peyğəmbərlikdən öncə şəhərdən kənarda yaşayırmış. Bunun iki səbəbi ola bilər: Musa ya inqilabi hərəkatına görə şəhərdən kənarda yaşayırmış, ya da onun böyüyüb boya-başa çatdığı saray şəhərdən xaricdə imiş.

**Sual:** Əgər Allahın peyğəmbərləri məsumdurlarsa, Musanın adam öldürməsi necə izah olunur?

**Cavab:** Həzrət Musa (ə) “bu, şeytan əməllərindəndir” deyərkən öz işini yox, iki nəfərin savaşını nəzərdə tuturdu. Yəni həmin iki şəxsin vuruşması şeytan işidir.

Həzrət Musanın (ə) kimisə öldürmək fikri yox idi. O yalnız vəzifəsinə əməl edib bir möminin müdafiəsinə qalxmışdı. Bu səbəbdən də Allah-təala Musanı (ə) məzəmmət etmir. Qurani-kərimdə buyurulur: “Sən fironçulardan birini öldürüb pərişan oldun. Biz səni pərişanlıqdan qurtararıq.”[1]

**Bildirişlər**

1.Cəmiyyətin islahı üçün ayağa qalxanlar bəzən ad və ünvanını bildirmədən, qeyri-rəsmi şəkildə xalq arasına çıxmalıdırlar.

2. Həzrət Musanın (ə) peyğəmbərlikdən öncə də tərəfdarları vardı.

3. Musa (ə) Fironun sarayında boya-başa çatsa da, məhrum xalq düşüncə və şəxsiyyətinə görə onu özünə himayəçi və rəhbər sayırdı.

4. Məzlumları müdafiə və himayə etmək övliyaların qaydasıdır.

5. Peyğəmbərlər qeyrətli, alicənab olmuş, məzlumlara nəvaziş göstərib zülmə qarşı çıxmışlar.

6. İlahi insanlar zəruri hallarda düşmənlə vuruşmuş, zora əl atmışlar.

***AYƏ 16:***

﴿قَالَ رَبِّ إِنِّي ظَلَمْتُ نَفْسِي فَاغْفِرْ لِي فَغَفَرَ لَهُ إِنَّهُ هُوَ الْغَفُورُ الرَّحِيمُ﴾

**“(Musa) dedi: “Pərvərdigara! Həqiqətən, mən özümə sitəm qılmışam, məni bağışla.” (Allah) onu bağışladı. Həqiqətən, O, bağışlayan və mehribandır.”**

**Nöqtələr**

**Sual:** Peyğəmbərlik məqamına yüksəlmiş bir şəxsin “özümə sitəm qıldım” deməsi necə izah olunur?

**Cavab:** Burada “özümə sitəm” dedikdə peyğəmbərlik məqamına zidd olan günah yox, bilmədən qətlə aparan ictimai durum nəzərdə tutulur. Allah-təala həzrət Musanın

---

[1] “Taha”, 40.

(ə) “muxləs” məqamında olduğunu bildirir.[1] Belə bir məqama çatan insan günaha yol vermir. Şeytan etiraf edir ki, onun müxləslərə nüfuz gücü yoxdur.[2]

**Bildirişlər**

1. Duada Allahı mübarək “Rəbb” adı ilə çağıraq.
2. İnsan günaha bilməyərəkdən yol versə də, bu günahın təbii sonluqlarından qəflətdə qalmamalıdır. (Musa bir mömini xilas etmək üçün səhnəyə daxil oldu. O kimisə öldürmək məqsədində deyildi və günahkar sayılmırdı. Amma bu iş onun vəziyyətini çətinləşdirdi. Əslində bu hadisə bir bəla idi.)
3. Saleh insanlar bilmədən yol verdikləri büdrəmələrə görə də dərhal tövbə edir və həmin büdrəmənin acı nəticələrini aradan qaldırmağa çalışırlar. (Həzrət Musa (ə) öz istiğfarı ilə Allahdan bir neçə şey dilədi: Öz əməlinin ictimai zərərlərinin və gələcəklə bağlı nigarançılıqların aradan qaldırılması, fironçuların intiqam üçün qurduqları planların dəfi.)
4. Peyğəmbərlərin duası qəbuldur.

### *AYƏ 17:*

﴿قَالَ رَبِّ بِمَا أَنْعَمْتَ عَلَيَّ فَلَنْ أَكُونَ ظَهِيرًا لِّلْمُجْرِمِينَ﴾

**“(Sonra Musa (ə)) dedi: “Pərvərdigara! Mənə ruzi etdiyin nemətə xatir heç vaxt günahkarlara arxa olmayacağam.”**

**Nöqtələr**

Ola bilsin ki, nemət dedikdə ilahi əfv və bəxşiş nəzərdə tutulmuşdur.

**Bildirişlər**

1. Fiziki güc ilahi nemətlərdəndir. (Musa (ə) bir yumruqla kafiri öldürəcək gücə malik idi.)
2. Başqalarına sitəmdən çəkinmək ilahi nemətlərə görə şükürdür.

***Öz gücünə görə şükr edən insan***
***Yıxılan zəifin tutar qolundan.***

3. Günahkarlarla həmkarlıq da günahdır. (Rəvayətlərə əsasən, başqalarının günahı ilə razılaşmaq da günah sayılır.)

[1] “Məryəm”, 51.
[2] “Sad”, 82, 83.

### *AYƏ 18:*

﴿فَأَصْبَحَ فِي الْمَدِينَةِ خَائِفًا يَتَرَقَّبُ فَإِذَا الَّذِي اسْتَنصَرَهُ بِالْأَمْسِ يَسْتَصْرِخُهُ قَالَ لَهُ مُوسَى إِنَّكَ لَغَوِيٌّ مُّبِينٌ﴾

**"(Bu qətldən sonra Musa) şəhərdə nigaran və qorxu içində gəzirdi. Qəfildən (gördü ki,) ötən gün ondan kömək istəyən şəxs yenə fəryad çəkib onu çağırır! Həzrət Musa (ə) dedi: "Həqiqətən, sən aşkar azğınlıq içindəsən! "**

**Bildirişlər**

1. Hər qorxu məzəmmət olunmur. İnsanın məqsədə çatmamaq və ya arzularına düşmənin mane ola bilməsi qorxusu bəyənilmiş qorxudur.
2. Gördüyümüz işlərin və çıxardığımız qərarların doğuracağı reaksiyalara qarşı diqqətli olaq.
3. Musa (ə) Fironun sarayında yaşasa da xalqla rabitəsi vardı və haqpərəst şəxs kimi tanınırdı.
4. Təqiyyə (əqidəni gizlətmək) lazım gələn yerdə gündə bir qovğa qoparmaq olmaz. Zəruri təqiyyəyə əməl etməmək günah sayılır.
5. Diqqətsiz tərəfdarları məzəmmət etmək lazımdır. Qrup təəssübü ilə onların xətasına göz yummaq olmaz.

### *AYƏ 19:*

﴿فَلَمَّا أَنْ أَرَادَ أَن يَبْطِشَ بِالَّذِي هُوَ عَدُوٌّ لَّهُمَا قَالَ يَا مُوسَى أَتُرِيدُ أَن تَقْتُلَنِي كَمَا قَتَلْتَ نَفْسًا بِالْأَمْسِ إِن تُرِيدُ إِلَّا أَن تَكُونَ جَبَّارًا فِي الْأَرْضِ وَمَا تُرِيدُ أَن تَكُونَ مِنَ الْمُصْلِحِينَ﴾

**"Elə ki, (Musa) hər ikisinin düşməni olan şəxsə hücum etmək istədi, (həmin şəxs) dedi: "Ey Musa! Dünən birini öldürmək istədiyin kimi məni də qətlə yetirmək istəyirsən? Sənin yer üzündə zor göstərməkdən başqa məqsədin yoxdur və islah edənlərdən olmaq istəmirsən."**

**Nöqtələr**

"Bətş" dedikdə şiddət və qüdrətlə müşayiət olunan qəzəb nəzərdə tutulur.

**Bildirişlər**

1. Dostların xilaf işinin tənqidi onlardan uzaqlaşmağa və onların haqqını müdafiə etməməyə səbəb olmamalıdır. (Həzrət Musa (ə) ötən ayədə bildirildiyi kimi öz tərəfdarını tənqid etdisə də, yenə də onu himayə etmək fikrindən daşınmadı.)
2. Bəzən moizə kifayət etmir, güc göstərmək də lazım gəlir.
3. İstibdad rejimində məsum körpələri bilərəkdən qətlə yetirən Firon tanrı sayılır. Amma öldürmək məqsədi olmadan kafir düşmənə bir zərbə vuran Musa zalım kimi qəbul edilir.

***AYƏ 20:***

﴿وَجَاء رَجُلٌ مِّنْ أَقْصَى الْمَدِينَةِ يَسْعَى قَالَ يَا مُوسَى إِنَّ الْمَلَأَ يَأْتَمِرُونَ بِكَ لِيَقْتُلُوكَ فَاخْرُجْ إِنِّي لَكَ مِنَ النَّاصِحِينَ﴾

**“(Bu arada) bir kişi şəhərin ən uzaq nöqtəsindən tələsik gəlib dedi: “Ey Musa! Həqiqətən, qövm başçıları səni öldürmək üçün məsləhətləşirlər. (Dərhal buradan) xaric ol. Şübhəsiz, mən sənin xeyirxahlarındanam.”**

***AYƏ 21:***

﴿فَخَرَجَ مِنْهَا خَائِفًا يَتَرَقَّبُ قَالَ رَبِّ نَجِّنِي مِنَ الْقَوْمِ الظَّالِمِينَ﴾

**“(Musa) nigaran və qorxmuş halda şəhərdən xaric oldu. O dedi: Pərvərdigara! Məni bu sitəmkar qövmün əlindən xilas et.”**

**Nöqtələr**

Bu ayədəki “rəcul” sözü Firon ailəsindəki möminə işarədir və Quranın surələrindən biri bu münasibətlə “mumin” adlandırılmışdır. Bu şəxs öz imanını gizlədərək təqiyyə libasında Musaya kömək edirdi.

**Bildirişlər**

1. Həzrət Musanın (ə) Fironun sarayında tərəfdarı vardı.
2. Zalıma istənilən bir şəkildə yardım haramdır. Amma iman əhlinə kömək üçün zalım dövlət aparatına daxil olmaq mümkündür. (İmam Kazimin (ə) yaxınlarından olan Əli ibn Yəqtin məhz iman əhlinə yardım üçün Abbasilər hökumətinə qatılmışdı.)
3. Zalım hakimlər öz təhlükəsizliklərinə xatir xalq arasında, şəhərin mərkəzində yaşamırlar.
4. Həqiqi rəhbərlər və ictimai xadimləri qorumaq üçün var gücümüzlə çalışaq.
5. Bəzən xəbərin vaxtında çatdırılması, işdə sürət bir millətin taleyini dəyişir. (Ola bilsin ki, həmin şəxs Musanı (ə) xəbərdar etməsəydi, məmurlar onu ələ keçirib öldürərdilər.)
6. Musa (ə) kimi inqilabi bir şəxs küfr cəbhəsi və onun başçılarını çox narahat edir.
7. Zalım hakimlərin tərəfdarları da onların günahlarına şərikdirlər.
8. Xainlərin qurğularını və planlarını ifşa etmək vacibdir.
9. Cəmiyyəti islah etmək fikrində olanlar daim hicrətə və sürgünə hazır olmalıdır.
10. Can yandıranların xəbərdarlıqlarını dəyərləndirək və onların nəsihətlərini qəbul edək.
11. Düşmənin bir addımlığında dayanmaq hünər deyil.
12. Peyğəmbərlərin həyatı adətən hicrət və çətinliklərlə ötüşmüşdür.
13. Səy və təlaşımızı artıraq, amma nəticəni Allahdan istəyək.
14. Dua təlaş və hərəkətlə müşayiət olunmalıdır.
15. İlahi rəhbərlər bütün hallarda Allahdan yardım diləyirlər.[1]

---

[1] “Qəsəs”, 16, “Qəsəs”, 17, 24.

### *AYƏ 22:*

﴿وَلَمَّا تَوَجَّهَ تِلْقَاء مَدْيَنَ قَالَ عَسَى رَبِّي أَن يَهْدِيَنِي سَوَاء السَّبِيلِ﴾

**“(Musa) Mədyənə üz tutub dedi: “Ümid edirəm ki, Rəbbim məni doğru yola hidayət edəcək.”**

**Nöqtələr**

“Mədyən” Şamın cənubu, hicazın şimalında, Təbuk yaxınlığında bir şəhərdir. Bu şəhər Musanın (ə) dövründə Firon hökumətinə tabe deyildi.

**Bildirişlər**

1. Hərəkət, hicrət, fərqli taktikalardan istifadə inqilabın zərurətlərindəndir.
2. Öncə hərəkət, sonra dua və ümid!
3. Daim ən yaxın və ən üstün yollar axtarışında olaq.
4. Ümidvarlıq bütün hallarda yaxşıdır.
5. Eniş-yoxuşlar insanların tərbiyəsində ilahi bir sünnədir.
6. İşə Allahdan yardım diləməklə başlayaq.
7. Azğınlıq və yersiz qərarlar üçün münasib olan istibdad mühitlərində hidayət yolu axtaraq.

### *AYƏ 23:*

﴿وَلَمَّا وَرَدَ مَاء مَدْيَنَ وَجَدَ عَلَيْهِ أُمَّةً مِّنَ النَّاسِ يَسْقُونَ وَوَجَدَ مِن دُونِهِمُ امْرَأتَيْنِ تَذُودَانِ قَالَ مَا خَطْبُكُمَا قَالَتَا لَا نَسْقِي حَتَّى يُصْدِرَ الرِّعَاء وَأَبُونَا شَيْخٌ كَبِيرٌ﴾

**“Musa Mədyən suyuna (quyusuna) çatdığı vaxt su içməyə məşğul olan bir dəstə adam gördü. Onların yanında (qoyunlara) nəzarət edən iki qadın vardı. (Musa) dedi: “Məqsədiniz nədir?” Dedilər: “Biz (qarşıdurma olmasın deyə qoyunlarımıza) su vermirik ki, bütün çobanlar çıxıb getsin. (Ona görə buradayıq ki,) atamız yaşlı bir kişidir.”**

### *AYƏ 24:*

﴿فَسَقَى لَهُمَا ثُمَّ تَوَلَّى إِلَى الظِّلِّ فَقَالَ رَبِّ إِنِّي لِمَا أَنزَلْتَ إِلَيَّ مِنْ خَيْرٍ فَقِيرٌ﴾

**“(Musa qoyunlara) onlara xatir su verdi. Sonra kölgəyə çəkilib dedi: “Pərvərdigara! Həqiqətən, Sən göndərdiyin hər bir xeyirə ehtiyaclıyam.”**

**Nöqtələr**

“Təzudani” sözü “qadağan etmək”, “qarşısını almaq” mənasını bildirir.

Bu ayədə “vəcədə” sözü iki dəfə təkrarlanır və iki fərqli baxışı göstərir. Halbuki kişilər və qadınlar yanaşı dayandıqda bir baxışla müşahidə olunur.

**Bildirişlər**

1. İstənilən bir su hövzəsi milli sərvətdir və şəxsi mülk ola bilməz.
2. Qadınların həya və zəifliyindən sui-istifadə etməyək. Əgər qanun və himayə yanaşı olmasa, bir çox kişilər qadınların hüquqlarını tapdayarlar.

3. Kişi və qadın arasında həya pərdəsi bir dəyərdir və Şüeybin qızları bu qaydanı gözləyirdi.

4. Öz mövqeyimizdən sui-istifadə etməyək. (Həmin iki qız Şüeyb peyğəmbərin qızları idi. Amma atalarına xatir qabağa buraxılmalarını istəmədilər.)

5. Allah peyğəmbərinin qızları çobanlıq edər, amma zillətə boyun əyməz.

6. Çobanlıq bir çox ilahi peyğəmbərlərin peşəsi olub. Qızlar bildirir ki, əgər atamız qoca olmasaydı, özü çobanlıq edərdi.

7. Şəxsi problemlərimiz bizi haqlı insanlara himayədarlıqdan çəkindirməsin. (Həyatı təhlükədə olan Musa (ə) ondan yardım istəyənə kömək əlini uzatdı.)

8. Qadınlara himayədarlıq insani bir dəyərdir.

9. Zəruri hallarda kişi ilə qadın söhbət edə bilər.

10. Naməhrəmlərlə danışarkən söhbətin uzanmamasına çalışaq.

11. Ətrafımızda baş verənlərə biganə qalmayaq.

12. Qadın müəyyən şərtlərlə evdən kənarda işləyə bilər. Həmin şərtlərlə tanış olaq: qadın iş yerində tənha qalmasın, kişilərlə qaynayıb-qarışmasın, ailədə iş qabiliyyətli kişi olmamış olsun.

13. Şübhə doğuran vəziyyətlərə düşdükdə şübhəni özümüzdən uzaqlaşdıraq.

14. Ailə başçısı iş qabiliyyətini itirdiyi vaxt bütün övladlar, hətta qız övladları ruzi əldə etməyə məsuldurlar.

15. Başqalarına kömək əli uzadarkən şərt qoymayaq, dərhal addım ataq. Həzrət Musa (ə) həmin iki qızın məntiqi dəlilini eşitdikdən sonra heç bir sorğu-sualsız, yubanmadan onlara kömək əli uzatdı.

16. Xalqa səmimi və təmənnasız xidmət edək, problemlərimizin həllini Allahdan diləyək. (Musa həmin iki qızın qoyunlarına su verdi, amma aclığını aradan qaldırmaq üçün onlardan yox, Allahdan kömək istədi.)

17. Bütün ehtiyaclarımızı Allahdan istəyək.

18. Duada Allahın nə verməli olduğunu müəyyənləşdirməyək. (Həzrət Musa (ə) ac da olsa, Allahdan təam istəmədi.)

*AYƏ 25:*

﴿فَجَاءَتْهُ إِحْدَاهُمَا تَمْشِي عَلَى اسْتِحْيَاءٍ قَالَتْ إِنَّ أَبِي يَدْعُوكَ لِيَجْزِيَكَ أَجْرَ مَا سَقَيْتَ لَنَا فَلَمَّا جَاءَهُ وَقَصَّ عَلَيْهِ الْقَصَصَ قَالَ لَا تَخَفْ نَجَوْتَ مِنَ الْقَوْمِ الظَّالِمِينَ﴾

**"(Çox keçmədi ki,) həmin iki nəfərdən biri həya və iffətlə yaxınlaşıb dedi: "Həqiqətən, atam bizə su gətirməyinin muzdunu vermək üçün sizi dəvət edir." Musa qoca atanın (həzrət Şüeybin) yanına gəlib, ona öz əhvalatını danışdı. O (Şüeyb) dedi: "Qorxma, sən sitəmkar qövmün əlindən qurtuldun."**

**Bildirişlər**

1. İşçinin haqqını yubandırmadan ödəyin.

2. Qadın evdən kənarda həya və iffəti gözləməlidir. (Quranda bildirilir ki, həya qadın üçün ən üstün kamillikdir.)
3. Dəvət edərkən kişi kişini, qadın qadını dəvət etsin.
4. Dəvətsiz qonaq olmayaq.
5. Zalım hakimin əlindən qaçan şəxs Allah peyğəmbərinə qonaq olur.
6. Ata öz övladlarının rəftarından xəbərdar olmalı, onların hərəkətlərinə münasib reaksiya göstərməlidir. (Şüeyb (ə) qızlarının həmişəkindən tez gəldiyini görüb bunun səbəbini soruşdu və Musaya (ə) təşəkkür etmək qərarına gəldi.)
7. Qərib insana nəvaziş göstərmək peyğəmbərlərin bariz sifətlərindəndir.
8. Xalqın xidmətlərini lazımınca dəyərləndirək.
9. Allahın razılığını nəzərdə tutmaq başqalarına təşəkkür etməklə zidd deyil. (Həzrət Musa (ə) Allahın razılığı üçün çalışırdı, amma həzrət Şüeyb (ə) ona muzd ödəyib zəhmətlərinə görə təşəkkür etdi.)
10. Hadisələri mütəxəssislərə, analitiklərə, təfsir əhlinə nəql edək.
11. İman əhli sonda nicat tapasıdır.
12. Peyğəmbərlərin duası qəbuldur. Bir gün əvvəl zalımların əlindən qurtuluş diləyən Musa (ə) bu gün nicat tapdığını eşidirdi.[1]
13. Allah övliyalarının yanında olmaq bir növ əmin-amanlıq, arxayınlıqdır.

### *AYƏ 26:*

﴿قَالَتْ إِحْدَاهُمَا يَا أَبَتِ اسْتَأْجِرْهُ إِنَّ خَيْرَ مَنِ اسْتَأْجَرْتَ الْقَوِيُّ الْأَمِينُ﴾

**"Həmin iki nəfərdən (qızlardan) biri dedi: "Ey ata! Onu işə götür, çünki seçəcəyin ən üstün şəxs güclü və etibarlı olmalıdır."**

**Nöqtələr**

İmam Riza (ə) buyurur: "Həzrət Şüeyb (ə) qızından soruşdu: "Bu şəxsin etibarlı olduğunu haradan bilirsən?" Qız dedi: "Sizin dəvətinizi ona çatdıranda dedi ki, arxamca gəl mənə yol göstər. O mənim qamətimi görmək istəmədi."[2]

**Bildirişlər**

1. Ailədə qızların da məntiq və hikmət əsasında təklif irəli sürmək haqqı var.
2. Valideynlə övladlar arasında xoş münasibət, ailədə söz azadlığı dəyər sayılır.
3. Bütün ailə üzvləri təklif irəli sürə bilər, amma son qərar ailə başçısınındır.
4. İffətli qadınlar mənzildən xaricdə az görünməyə çalışırlar. (Evdən bayırda çətin işləri kişilər görməlidirlər.)
5. İşləmək qəbahət deyil. Allahın övliyaları da işləmişlər.
6. Seçim aparарkən ən üstün şəxsləri nəzərdən qaçırmayaq.
7. Seçim üçün iki keyfiyyət nəzərə alınmalıdır: Bacarıq (ixtisas) və əmanətdarlıq (etibar).

---
[1] "Qəsəs", 21.
[2] "Bihar", c. 13, s. 44.

8. İnsanın bacarığını və əmanətdarlığını adi şəraitdə, onun diqqətini cəlb etmədən qiymətləndirmək lazımdır. (Çoxları sünilik, yaltaqlıq və riyakarlıqla əsil xarakterlərini gizlədirlər. Amma həzrət Musa (ə) təbii bir vəziyyətdə himayədarlığı və iffəti ilə özünü tanıtdırdı.)

## *İŞ VƏ FƏHLƏLİK*

–Allah insanlardan yer üzünün abadlaşdırılmasını istəmişdir. Bu isə zəhmətsiz başa gəlmir.[1]

–Quranda çox geniş mənaya malik saleh əmələ istinad olunur.

–Allahın peyğəmbərləri əkinçi, çoban, dərzi, dülgər olmuşlar.

–İslamda iş ibadət sayılır və cihad kimi tanıtdırılır.[2]

–Dua dərhal qəbul olunmur.

–İş cisim və ruhun tərbiyə vasitəsidir. Boş vaxtdan səmərəli istifadə fəsad və fitnəyə mane olur, iqtisadi dirçəliş, elmi ixtiralar, izzət və ehtiyaclılara yardımla nəticələnir.

–Qurani-kərimdə yerin insanlar üçün ram edildiyi və insanların çalışmaqla ruzi əldə edə biləcəyi bəyan olunur.

– İslam fiziki işə hörmətlə yanaşır və tapşırır ki, fəhlənin zəhmət haqqı yubandırılmasın, təyin olunmuş miqdardan bir qədər artıq ödənsin, zəhmətkeş insana hörmət göstərilsin. Əkinçinin nəzərinə çatdırılır ki, onun bir ağacı suvarması müqabilində susuz möminə su verməyin mükafatı nəzərdə tutulur.

–Həzrət Əli (ə) təyin etdiyi valiyə tapşırır ki, əkinçiləri incitməsin, onlardan vergi alarkən vəziyyətlərini nəzərə alsın.

–Zehni işlərin də böyük dəyəri var. Bir saat faydalı düşüncə saatlarla ibadətdən üstündür.

–İşdə tənbəllik və səhlənkarlıq məzəmmət olunur. Həzrət Peyğəmbər (s) buyurur: "Allah istəyir ki, insan əlindəki işi ən gözəl şəkildə yerinə yetirsin."

–Quranda buyurulur ki, mühüm bir işi başa vurduqdan sonra digər bir mühüm işə başla.[3]

Bəli, işsizlik düşkünlük və tənbəllik səbəbi, şeytanın nüfuzu və günahın artımı üçün bir fürsətdir.

–İslam iş üçün vaxt müəyyənləşdirmişdir və istirahət vaxtı işləyənləri müqəssir sayır.[4]

–İmam Riza (ə) buyurur: "Mömin şəxs öz vaxtını dörd hissəyə bölməlidir: iş vaxtı, ibadət vaxtı, ləzzət (istirahət) vaxtı, dostlar və ictimai işlər üçün ayrılmış vaxt. Belə etməyən şəxs həris ünsürə çevrilir və hərisin ünvanına yönəlmiş məzəmmətlər ona da aid olur."

–İslam işin kəmiyyətinə yox, keyfiyyətinə xüsusi diqqət yetirir.[5]

---

[1] "Hud", 61.
[2] "Vəsail", c. 12, s. 43.
[3] "İnşirah", c 7.
[4] "Bəqərə", 65.
[5] "Hud", 7.

–İstənilən bir halda İslam işi əhəmiyyətli sayır. Hədisdə oxuyuruq: “Allah çox yatan və işsiz qalan insanı düşmən sayır.”[1] İmam Baqir (ə) buyurur: “Dünya işində tənbəllik edən insan axirət işində daha tənbəldir.”[2]

–Hədisdə oxuyuruq: Fəqir və işsiz bir şəxs Peyğəmbərin (s) yanına gəlib ondan yardım istədi. Həzrət buyurdu: “Kimin evində balta var?” Bir nəfər gedib balta gətirdi. Peyğəmbər (s) kənarındakı ağac parçasını baltaya saplayıb həmin şəxsə verdi və buyurdu: “Bu sənin üçün iş aləti! Çalışmaq isə özündən!” Həzrətin bu rəftarından məlum olur ki, peyğəmbərlər xalqın dolanışığı barədə də düşünmüşlər. Cəmiyyətin ən adi fərdi rəhbərlə görüşə bilər. Cəmiyyətdə həmkarlığa ehtiyac var (biri balta gətirir, digəri baltaya sap tapır, həmkarlıq edilir və şəxsən Peyğəmbər (s) özü balta hazırlayır). Yoxsulluqla mübarizə üçün işçi qüvvəyə istehsal vasitəsi verilməlidir.

***AYƏ 27:***

﴿قَالَ إِنِّي أُرِيدُ أَنْ أُنكِحَكَ إِحْدَى ابْنَتَيَّ هَاتَيْنِ عَلَى أَن تَأْجُرَنِي ثَمَانِيَ حِجَجٍ فَإِنْ أَتْمَمْتَ عَشْرًا فَمِنْ عِندِكَ وَمَا أُرِيدُ أَنْ أَشُقَّ عَلَيْكَ سَتَجِدُنِي إِن شَاء اللَّهُ مِنَ الصَّالِحِينَ﴾

**“(Həzrət Şüeyb Musaya) dedi: “Mən iki qızımdan birini sənə ərə vermək istəyirəm. Bir şərtlə ki, səkkiz il mənim üçün işləyəsən. Əgər on ilə çatdırmaqla tamamlasan, bu sənin öz işindir. Sənin üçün çətinlik yaratmaq istəmirəm. Allahın istəyi ilə tez bir zamanda mənim salehlərdən olduğumu görəcəksən.”**

**Nöqtələr**

Biz bütün işlərimizə ilahi rəng verə bilərik.[3] Üzümüzü yuyuruqsa dəstəmaz da alaq, oturmaq istəyiriksə peyğəmbər kimi üzü qibləyə oturaq, diplom üçün yox, Allahın razılığı üçün elm öyrənək. Zövcəmizə libas alanda bunu dini bayramlara, Qədir bayramına və ya həzrət Zəhranın (s) mövlud gününə salaq. Övladımıza hədiyyə vermək istədikdə, mənəvi kamala çatmaq münasibəti ilə verək. Necə ki, hazırkı ayədə “səkkiz il” əvəzinə “səkkiz həcc” təbirindən istifadə olunur.

**Bildirişlər**

1. Bir iş alicənablıq və zəiflərə nəvazişlə yerinə yetirilərsə onun mənəvi mükafatından əlavə, dünyəvi mükafatı da olar. (Az öncə canı təhlükədə olan Musa (ə) bir qədər sonra ailə və iş sahibi olur.)
2. İzdivacın (evlənmənin) qaydalarını peyğəmbərlərdən öyrənək. (Qızın mənzilində necə olmaq, atanın yanında necə danışmaq?)
3. İzdivacdan öncə yeznəni tanımaq zəruridir. (Musa (ə) öz əhvalatını olduğu kimi danışdı. Şüeyb Musaya (ə) inandı, yalnız bundan sonra qızı ilə evlənməyi təklif etdi.)
4. Əgər bir gəncin bacarığına, etibarına, işgüzarlığına əmin olsaq, onun imkansız və evsiz olmasını izdivaca maneə saymayaq.
5. Qız atasının izdivac təklifi qəbahət deyil.

---

[1] “Vəsail”, c. 12, s. 37.
[2] “Vəsail”, c. 12, s. 37.
[3] “Bəqərə”, 138.

6. Əvvəlcə böyük, sonra kiçik qızı ərə vermək zəruri olmaya da bilər. (Həzrət Şüeyb Musaya (ə) böyük qızını yox, iki qızından birini təklif etdi.)

7. Ata izdivac məsələsində qızları arasında fərq qoymamalıdır.

8. Elçilik zamanı oğlan və qız bir yerdə ola bilər.

9. Cinsi istəklərə ciddi yanaşaq. Hətta peyğəmbərin evində sağlam mühiti qorumaq üçün öncə izdivac məsələsinə baxılır, sonra kimsə işə götürülür.

10. İzdivacda mehriyyə var.

11. Mehriyyənin mal və sərvət olması zəruri deyil. (Həzrət Şüeyb Musaya (ə) dedi: "Səkkiz il mənim üçün işləsən, qızımı sənə ərə verərəm." İslam şəriətində təqlid mərcəyinin fitvalarına əsaslanılır.)

12. Müqavilə vaxtını dini ölçülərlə müəyyənləşdirək. ("Səkkiz il" əvəzinə"səkkiz həcc "təbiri işlədilir.)

13. Mənəvi anların, "əyyamullah"ın əziz tutulması təbliğ yollarından biridir.

14. Mehriyyə və icarə haqqı barədə razılaşmalar peyğəmbərlik məqamına zidd deyil.

15. Əvvəlki dinlərdə də həcc mərasimi olmuşdur.

16. Mehriyyə barədə danışılarkən qız atası ən az miqdarla kifayətlənməli, artıq mehriyyə ödənib-ödənməməsini kürəkənin ixtiyarına verməlidir. Həzrət Şüeyb Musaya dedi: "Əgər səkkiz ili on ilə tamamlasan, bu sənin ixtiyarındadır."

17. Mehriyyə təyin edərkən kürəkən üçün çətinlik yaratmayın.

18. Qız atası izdivac məsələsində çətinlik yaratmamalı, kürəkənin imkanını nəzərə almalıdır.

19. Tabeçiliyində olanlarla sərt davrananlar saleh sayılmırlar.

20. Kürəkən təzə qohumlarından arxayın olmalıdır.

21. Allahdan yardım istəmədən və "inşaəllah" demədən vəd verməyək.

22. Ailə quran tərəflər arasında qarşılıqlı etimad zəruridir.

## *İZDİVACIN ƏHƏMİYYƏTİ*

Rəvayətdə oxuyuruq: İzdivac dinin yarısının qorunma səbəbidir. Ailəli insanın iki rəkət namazı subay şəxsin 70 rəkət namazından üstündür. Evli insanların yuxusu subay insanların oyaq qalıb oruc tutmasından üstündür.[1] Bəli, izdivacı yoxsulluq səbəbi sayanlardan fərqli olaraq, İslam Peyğəmbəri (s) buyurur: "İzdivac ruzini artırır." Başqa bir məqamda həzrət buyurur: "Yoxsulluq qorxusundan izdivacı tərk edən şəxs bizdən deyil və Allaha qarşı bədgüman olmuşdur."[2] Rəvayətlərdən birində oxuyuruq: "Din qardaşlarının izdivacı üçün addım atan şəxs Qiyamət günü Allahın xüsusi lütfündən faydalanar.[3]

Quran ailə qurmağı və izdivaca səy göstərməyi ciddi tapşırır.[4] Evlənərkən yoxsulluqdan qorxmamaq tövsiyə olunur. Bildirilir ki, evlənmək istəyən insanın əli boş olduqda Allah Öz fəzl və kərəmi ilə onun ehtiyacını təmin edər.[5] İzdivac aramlıq

[1] "Mizanul-hikmə".
[2] "Mizanul-hikmə".
[3] "Kafi", c. 5, s. 331.
[4] "Nur", 32.
[5] "Nur", 32.

vasitəsidir.[1] İzdivac vasitəsi ilə qohumlar bir-birinə yaxınlaşır, qəlblərdə mehribanlıq yaranır, pak bir nəslin tərbiyəsi üçün zəmin hazırlanır, insanlarda qarşılıqlı yardım ruhiyyəsi güclənir.[2]

Rəvayətdə oxuyuruq: Evlənmək üçün tələsin, ərə getmək vaxtı çatmış qız yetişmiş meyvə kimidir. Əgər ağacdan dərilməsə, çürüyüb gedər.[3]

### *HƏYAT YOLDAŞI SEÇİMİ*

İnsanlar həyat yoldaşı seçimində adətən bir neçə meyardan faydalanırlar: sərvət, gözəllik, əsil-nəsil. Hədisdə oxuyuruq: "Həyat yoldaşı seçimində onun əqidə və təfəkkürünü əsas götür.[4] Digər bir hədisdə oxuyuruq: "Çox olar ki, gözəllik fəlakətə, sərvət tüğyana səbəb olar."[5]

Allahın rəsulu (s) buyurur: "Dinini və əmanətdarlığını bəyəndiyiniz bir şəxs qızınıza elçi gəldikdə ona rədd cavabı verməyin, yoxsa böyük fitnə-fəsada düçar olarsınız."[6] Bir şəxs İmam Hüseynlə (ə) öz qızının izdivacı barədə məsləhətləşirdi. Həzrət buyurdu: "Təqvalı (Allahdan qorxan) kürəkən seç. Beləsi qızını sevərsə, sevdiyi üçün əziz tutar, sevməzsə təqvasına xatir ona zülm etməz."[7] Rəvayətdə oxuyuruq: "Spirtli içki içənlərə, pis əxlaqlı və qeyri-sağlam düşüncəli şəxslərə, günahkar ailədə böyüyənlərə qız verməyin.[8]

Bir daha qeyd edək ki, izdivac iki növdür: daimi və müvəqqəti. Hər iki izdivacla bağlı Quran və rəvayətlərdə göstərişlər verilmişdir. Təəssüf ki, daimi izdivac bəzi məntiqsiz adət-ənənələrə, qız və oğlan evinin yersiz tələblərinə, uzun-uzadı arzulara görə keçilməz səddə dönmüşdür. Müvəqqəti izdivac isə o qədər pis qəbul olunmuşdur ki, insanlar ondan imtina edib günaha üz tuturlar.

### *AYƏ 28:*

﴿قَالَ ذَٰلِكَ بَيْنِي وَبَيْنَكَ أَيَّمَا الْأَجَلَيْنِ قَضَيْتُ فَلَا عُدْوَانَ عَلَيَّ وَاللَّهُ عَلَىٰ مَا نَقُولُ وَكِيلٌ﴾

**"(Musa Şüeybin təklifini qəbul edib) dedi: "Bu (razılıq) mənimlə sənin aranda bərqərar oldu. Bu iki müddətdən hansını başa vursam, mənə sitəm qılınmayacaq. Allah danışdıqlarımıza vəkildir."**

**Nöqtələr**

"Bu iki müddətdən hansını başa vursam" təbiri iki cür mənalandırıla bilər: Nəzərdə tutula bilər ki, qızın mehriyyəsi istər səkkiz il olsun, istər on il, heç biri mənə zülm deyil; bu da nəzərdə tutula bilər ki, bu iki müddətdən hər hansı biri başa çatsa, sizin

---

[1] "Rum", 21.
[2] "Mizanul-hikmə".
[3] "Mizanul-hikmə".
[4] "Kənzul-ummal", h. 46602.
[5] "Mizanul-hikmə".
[6] "Bihar", c. 103, s. 372.
[7] "Məkarimul-əxlaq", c. 1, s. 446.
[8] "Mizanul-hikmə".

yanınızdan gedə bilərəm və kimsə mənə mane olmamalıdır. Başqa sözlə, müqavilədəki müddəti yanınızda qalıram, sonrasını özüm bilərəm.

**Bildirişlər**

1. Boşanmadan (talaqdan) fərqli olaraq, izdivac əqdində şahidlərə ehtiyac yoxdur.
2. Müqavilələrdə özümüz üçün hüquqlar nəzərdə tutaq, çıxış yolları saxlayaq.
3. Allaha iman müqavilənin sağlamlığını sığortalayır.

***AYƏ 29:***

﴿فَلَمَّا قَضَى مُوسَى الْأَجَلَ وَسَارَ بِأَهْلِهِ آنَسَ مِن جَانِبِ الطُّورِ نَارًا قَالَ لِأَهْلِهِ امْكُثُوا إِنِّي آنَسْتُ نَارًا لَّعَلِّي آتِيكُم مِّنْهَا بِخَبَرٍ أَوْ جَذْوَةٍ مِنَ النَّارِ لَعَلَّكُمْ تَصْطَلُونَ﴾

**“Musa (ə) elə ki müddəti başa çatdırdı, ailəsini götürüb yola düşdü. Tur (dağı) tərəfdə bir od gördü. Ailəsinə dedi: “Siz qalın, həqiqətən, mən bir od görmüşəm. Bəlkə, ondan bir xəbər tutam, ya sizin üçün bir miqdar od gətirəm ki, qızınasınız.”**

**Nöqtələr**

“Anəstu” dedikdə aramlıq yaradan müşahidə mənası anlaşılır. “Cəzvə” sözü “parça, hissə”, “təstəlunə” sözü odla qızınmaq mənasını bildirir.

Həzrət Musa (ə) öz zövcəsinə cəm formada müraciət edir. Ola bilsin ki, həzrət Musa (ə) ötən 10 ildə övlad sahibi olmuşdu.

Hazırkı ayədəki və “Taha” surəsinin 10-cu ayəsindəki təbirlərdən aydın olur ki, həzrət Musa (ə) qaranlıq və soyuq bir gecədə hərəkət edirdi, eləcə də, yolu itirmişdi.

**Bildirişlər**

1. Mömin insan qəbul etdiyi şərtə və bağladığı müqaviləyə vəfalı olur.
2. Ailə-övlad hicrətə və vəzifənin yerinə yetirilməsinə mane olmamalıdır. Ailə başçısı da ailəni tənha buraxmamalı, onlarla birlikdə olmalıdır.
3. Ailəmizi təhlükə duyulan yerə aparmayaq. Uzaqdan görünən od hələ ki, Musaya (ə) şübhəli gəlirdi. Ona görə ailəsindən yerində qalmasını istəyib, özü tənha od arxasınca getdi.
4. Bir işin həyata keçməsinə əmin deyiliksə, qəti vəd verməyək. (“Bəlkə” sözü əminlik olmadığını göstərir.)
5. Kişi ailə-övladın ehtiyaclarını ödəməyə borcludur.
6. Ali irfan məqamına çatmaq üçün ailə-övladdan kənarlaşmaq lazım deyil. İnsan adi, təbii və sadə bir həyat tərzi ilə irfanın ən ali dərəcələrinə çata bilər.

***AYƏ 30:***

﴿فَلَمَّا أَتَاهَا نُودِي مِن شَاطِئِ الْوَادِي الْأَيْمَنِ فِي الْبُقْعَةِ الْمُبَارَكَةِ مِنَ الشَّجَرَةِ أَن يَا مُوسَى إِنِّي أَنَا اللَّهُ رَبُّ الْعَالَمِينَ﴾

**“Elə ki, (Musa) onun (odun) yanına gəldi, vadinin sağ tərəfindən, həmin mübarək məntəqədəki bir ağacdan nida gəldi: “Ey Musa! Həqiqətən, Mən Allah, aləmlərin Rəbbiyəm.”**

**Nöqtələr**

“Şati” sözü “tərəf”, vadi sözü “dərə” mənasını bildirir. “Buqə” dedikdə ətrafındakı torpaqlardan fərqlənən yer nəzərdə tutulur.[1]

Allah istədiyi vaxt vəhy göndərir. O, qəlblərə ilham verib, insanlara mələk nazil edə bilər, hətta ağacın köksündən Öz peyğəmbəri ilə danışar.

“Şura” surəsinin 51-ci ayəsində oxuyuruq: “Allah heç bir bəşər övladı ilə danışmaz. Ya vəhy göndərər, ya pərdə arxasından nida edər, ya da mələk endirər.”

**Bildirişlər**

1. Bəzi məkanların müqəddəsliyi var.
2. Təəccüb doğuran məsələlər üzərində daha təkidlə dayanmaq lazımdır. (Ağacdan ilk dəfə səs eşitdiyi vaxt təəccüb edən Musaya (ə) təkidlə müraciət olunur.)
3. Tanımayana özümüzü tanıtdıraq. Addan əlavə müəyyən xüsusiyyətlərimizi də sadalayaq.
4. Allah Öz istəyinin icrası üçün insanların düşüncə və baxışını xüsusi bir yönümdə hazırlayır. Musa (ə) od əldə etmək və qızınmaq məqsədi ilə yola çıxsa da Allahın başqa bir məqsədi vardı.

***AYƏ 31:***

﴿وَأَنْ أَلْقِ عَصَاكَ فَلَمَّا رَآهَا تَهْتَزُّ كَأَنَّهَا جَانٌّ وَلَّى مُدْبِرًا وَلَمْ يُعَقِّبْ يَا مُوسَى أَقْبِلْ وَلَا تَخَفْ إِنَّكَ مِنَ الْآمِنِينَ﴾

**“(Səndən istəyirik ki,) əsanı atasan! (Musa əsanı atıb qəfildən) gördü ki, o (əsa) cəld və kiçik ilan kimi atılıb-düşür. Üz çevirib qaçdı, arxaya da baxmadı! (Ona nida olundu ki,) ey Musa! Yaxın gəl və qorxma. Həqiqətən, sən amandasan.”**

**Bildirişlər**

1. Allah hər şeydən möcüzə yarada bilər.
2. Ciddi tapşırıqların icrası üçün öncədən təkrara ehtiyac var. (Həzrət Musa (ə) möcüzəni öncə özü görməli idi. Yalnız bundan sonra onu başqalarının hüzurunda təkrarlaya bilərdi.)
3. Peyğəmbərlər də digər insanlar kimi bəzi hadisələrdən həyəcanlanıb qorxmuşlar.

***AYƏ 32:***

﴿اسْلُكْ يَدَكَ فِي جَيْبِكَ تَخْرُجْ بَيْضَاء مِنْ غَيْرِ سُوءٍ وَاضْمُمْ إِلَيْكَ جَنَاحَكَ مِنَ الرَّهْبِ فَذَانِكَ بُرْهَانَانِ مِن رَّبِّكَ إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ إِنَّهُمْ كَانُوا قَوْمًا فَاسِقِينَ﴾

[1] “Təfsirul-mizan”.

**“(Ey Musa! İndi) əlini qoynuna apar. (Görəcəksən ki,) o (əlin) heç bir xəstəlik, nöqsan və eyb olmadan bəyaz və parlaq halda xaric oldu. Qorxunun çəkilməsi üçün qolunu qatla. Bu (iki möcüzə) Rəbbin tərəfindən Firon və onun əyanları üçün iki dəlildir. Həqiqətən, onlar fasiq bir qövm olublar.”**

*AYƏ 33:*

﴿قَالَ رَبِّ إِنِّي قَتَلْتُ مِنْهُمْ نَفْسًا فَأَخَافُ أَن يَقْتُلُونِ﴾

**“(Musa) dedi: “Pərvərdigara! Həqiqətən, mən onlardan birini öldürmüşəm. Qorxuram ki, məni qətlə yetirələr.”**

**Nöqtələr**

“Vəzmum iləykə cənahəkə minər-rəhbi” cümləsi belə anlaşıla bilər ki, qorxuya düşdüyün vaxt (əllərini yuxarı qaldıranların əksinə olaraq) əllərini sinənin üstünə qoy və ya qoynuna sal; digər bir yanaşmaya əsasən, qəti qərara gəlib addım at.[1]

Tövratda deyilir: Musa əlini qoynuna aparan vaxt əlinə xəstəlik düşdü və əli qar kimi ağardı.[2] Amma Quran Musanın (ə) əlində yaranmış ağlığı xəstəliklə izah etmir. Bu bəyazlıq ilahi qüdrət nişanəsi sayılır. Bu hadisə bir dəlil olaraq şəkk-şübhə və azğınlıq yolunu bağlayır.

**Bildirişlər**

1. Qəhr-qəzəb göstəricisi ilə yanaşı lütf göstəricisi də lazımdır. (Qorxulu ilanla yanaşı parlaq bir ələ ehtiyac var.)
2. İlahi möcüzələrdə nöqsan və pislik yoxdur.
3. Doğru yola çağırış məntiqi və ilahi əsasa malik olmalıdır.
4. Əsanın ilan olması, əlin ağarması təşviq və tənbeh, xəbər, xəbərdarlıq və müjdə nişanəsidir. Bu iki yönüm tərbiyənin əsas ünsürlərindəndir.
5. Cəmiyyəti islah etmək üçün fitnə-fəsadın kökünə əl atmaq lazımdır.
6. Qisas qanununun uzun tarixi var.
7. Məsuliyyəti qəbul edərkən maneələri bəyan edib dəyərləndirək.

*AYƏ 34:*

﴿وَأَخِي هَارُونُ هُوَ أَفْصَحُ مِنِّي لِسَانًا فَأَرْسِلْهُ مَعِيَ رِدْءًا يُصَدِّقُنِي إِنِّي أَخَافُ أَن يُكَذِّبُونِ﴾

**“Bəyanda məndən fəsahətli qardaşım Harunu kömək üçün mənimlə göndər, məni təsdiq etsin. Həqiqətən, təkzib olunacağımdan qorxuram.”**

---

[1] “Təfsire-əl-mizan”.

[2] Tövrat, “sifri-xüruc”, bab 4, cümlə 6.

*AYƏ 35:*

﴿قَالَ سَنَشُدُّ عَضُدَكَ بِأَخِيكَ وَنَجْعَلُ لَكُمَا سُلْطَانًا فَلَا يَصِلُونَ إِلَيْكُمَا بِآيَاتِنَا أَنتُمَا وَمَنِ اتَّبَعَكُمَا الْغَالِبُونَ﴾

**“(Allah) buyurdu: “(Nigaran olma,) Biz sənin qolunu qardaşınla möhkəmləndirəcək, sizin üçün üstünlük və hökm qərar verəcəyik. Ayələrimizin bərəkəti ilə sizə üstün gələ bilməyəcəklər. Siz və sizə tabe olan hər kəs qalib gələcək.”**

**Nöqtələr**

Həzrət Musanın (ə) böyük qardaşı Harun (ə) (“harun”) sözünün lüğət mənası “dağ sakini” və ya “qasiddir”) Bəni-İsrail peyğəmbərlərindən olmuşdur və Quranda onun haqqında xoş sözlər deyilir.

Həzrət Musa (ə) öhdəsinə düşən vəzifənin icrasında iki şeydən qorxurdu: öncəki qətlə görə qisas və haqqın təkzibi.

Ağır məsuliyyətlər tapşırarkən insan hər yönümdən öyrənilməlidir. Harun həzrət Musadan (ə) yaşca böyük, bəyanca fəsahətli olsa da, əsas məsuliyyət daha ləyaqətli olan Musanın (ə) üzərinə düşürdü.

Təbliğ, əmr be məruf və nəhy əz münkər bəzən iki nəfər tərəfindən həyata keçirilməlidir. Əmr be məruf və nəhy əz münkərdə (yaxşılığa əmr və pisliyə qadağada) əsas mehvər qarşı tərəfə təsirdir. Əgər işarə təsir edirsə işarə etmək, fəryad təsir edirsə fəryad qoparmaq lazımdır. Əgər müraciət, nümayiş, tətil, toplantı, hədə və təşviq təsir edərsə, bu yollara əl atılmalıdır. Fəsadın qarşısı qəlb, dil, əməl, istənilən bir vasitə ilə alınmalıdır. Əgər təkrar təsirli olarsa, əmr və qadağa təkrarlanmalıdır.

**Bildirişlər**

1. Başqalarının hansısa kamilliklərini etiraf etmək özü də bir kamillikdir. Həzrət Musa (ə) “ülul-əzm” (böyük) peyğəmbərlərdən olsa da, qardaşının hansısa yönümlərdən üstünlüyünü etiraf etdi.
2. Rəvan bəyan, fəsahətli danışıq diqqətin cəlb olunmasında və təbliğdə təsirli amillərdəndir.
3. Haqqın təbliğində ən üstün insanlardan istifadə edək.
4. Hər qüvvədən öz yerində istifadə edək. (Harunun fəsahətli bəyanı vardı. Tapşırılmış işin həyata keçməsində belə bir danışıq əsas rol oynayır. Ona görə də həzrət Musa (ə) Harunu özü üçün yoldaş istədi.)
5. Zəruri deyil ki, məsullar hərtərəfli kamilliyə malik olsunlar. Onların ictimai nüfuz baxımından ləyaqətli olması yetər. (Əsas məsuliyyət Musanın (ə) üzərinə düşsə də, bəzi cəhətlərdən Harun daha qüvvəli idi.)
6. Bəzən çətinliyi aradan qaldırmaq üçün təklif verib layiqli şəxsi göstərmək lazım gəlir.
7. Gələcəklə bağlı narahatlıq adi qorxudan fərqlənir.
8. İlahi missiyanın həyata keçməsi üçün ikinci şəxsi də Allah özü təyin etməlidir. Biz bu əqidədəyik ki, peyğəmbərin canişini də Allah tərəfindən təyin olunur.

9. Yaxınların iman və himayəsi təbliğatçını gücləndirir, onun ətrafa təsirini daha da çoxaldır.

10. Peyğəmbərlərin dua və istəyi qəbuldur. Həzrət Musa (ə) Harunu (ə) köməkçi istədi, Allah da onun duasını qəbul etdi.

11. Ən üstün qardaşlıq haqqın təsdiqində qardaşlıq, Allah yolunda bir-birinə arxa olmaqdır.

12. Peyğəmbərlər ilahi ayələr sayəsində qabiliyyətə çatırlar.

13. Peyğəmbərlərin də əminliyə ehtiyacları var. Allah Musa (ə), Harun (ə) və onların ardıcıllarına qələbə vəd etdi və bununla onlara ümid verdi.

*AYƏ 36:*

﴿فَلَمَّا جَاءَهُم مُّوسَى بِآيَاتِنَا بَيِّنَاتٍ قَالُوا مَا هَذَا إِلَّا سِحْرٌ مُّفْتَرًى وَمَا سَمِعْنَا بِهَذَا فِي آبَائِنَا الْأَوَّلِينَ﴾

**“Musa aydın ayələrlə onların sorağına gəldiyi vaxt dedilər: “Bu, qurama sehrdən başqa bir şey deyil. Biz ata-babalarımızdan belə şeylər eşitməmişik.”**

**Bildirişlər**

1. Zalımların saleh insanlara qarşı ən böyük silahları böhtandır.

2. İlahi peyğəmbərlərin təlimləri keçmiş adət-ənənələrə tabe deyil.

3. Əqidələrin qəbulunda ata-babaların yolu yox, məntiq və dəlil meyardır. (İrəli sürülmüş baxışın tarixdə müşahidə olunmaması onun yanlışlığını göstərmir.)

4. Bəzi insanlar aşkar məntiqi qaranlıq keçmişə fəda edirlər.

*AYƏ 37:*

﴿وَقَالَ مُوسَى رَبِّي أَعْلَمُ بِمَن جَاءَ بِالْهُدَى مِنْ عِندِهِ وَمَن تَكُونُ لَهُ عَاقِبَةُ الدَّارِ إِنَّهُ لَا يُفْلِحُ الظَّالِمُونَ﴾

**“Musa (fironçuların təkzibi qarşısında) dedi: “Mənim Rəbbim Onun tərəfindən gələnləri daha yaxşı tanıyır. (Yaxşı bilir ki,) xeyir aqibət kimin üçündür. Həqiqətən, sitəmkarlar nicat tapmayacaqlar.”**

**Nöqtələr**

Ötən ayədə bildirildi ki, fironçular ilahi möcüzələri qətiyyətlə sehr adlandırıb ata-babalarından bu barədə eşitmədiklərini bildirdilər. Bu ayədə isə həzrət Musa (ə) onlara kinayə ilə buyurur: “Siz yalan deyirsiniz. Çünki məndən öncə həzrət Yusif (ə) babalarınızın hidayət çırağını əlinə alıb İbrahim dinini möhkəmləndirdi.”

**Bildirişlər**

1. Möcüzələri sehr adlandıran kafirlərin təkzibləri qarşısında Allaha təvəkkül etmək lazımdır.
2. Puç iddiaları ilahi şüarlarla susduraq.
3. Allah heç bir dəstəni rəhbərsiz və bələdçisiz buraxmamışdır.
4. Hidayət olunanlar xoş aqibətə çatasıdırlar.
5. Peyğəmbərin proqramlarında məada diqqət öndə gəlir.
6. Peyğəmbərləri sehrbaz adlandıranlar pis aqibətli sitəmkarlardırlar.

*AYƏ 38:*

﴿وَقَالَ فِرْعَوْنُ يَا أَيُّهَا الْمَلَأُ مَا عَلِمْتُ لَكُم مِّنْ إِلَهٍ غَيْرِي فَأَوْقِدْ لِي يَا هَامَانُ عَلَى الطِّينِ فَاجْعَل لِّي صَرْحًا لَّعَلِّي أَطَّلِعُ إِلَى إِلَهِ مُوسَى وَإِنِّي لَأَظُنُّهُ مِنَ الْكَاذِبِينَ﴾

**“Firon dedi: “Ey qövm başçıları! Mən sizin üçün özümdən başqa bir məbud tanımıram. Ey Haman! Mənə gil üçün bir ocaq qala (kərpic bişir) və uca bir qüllə tik. Ola bilsin ki, (yuxarı qalxıb) Musanın (ə) Allahına yetişəm. Həqiqətən, mən onu yalan danışanlardan sayıram.”**

**Nöqtələr**

“Sərh” dedikdə uca tikili nəzərdə tutulur. Ayədən məlum olur ki, qədim Misirdə həm kərpic bişirən kürələr, həm də qüllə tikmək bacarığı var imiş.

**Bildirişlər**

1. Təkəbbürlü ruhiyyə haqqın qəbuluna mane olur. Firon dedi ki, sizin üçün özümdən başqa tanrı tanımıram.
2. Təkəbbürlü zalımlar öz əqidə və düşüncələrini başqalarına zorla qəbul etdirirlər.
3. Təkəbbürlü başçıların şüarı budur: Mənim tanımadığım şey mövcud deyildir!”
4. Allahı gözlə görmək istəyi fironsayağı bir təfəkkürdür.
5. Araşdırma aparmaq görüntüsü ilə qüdrəti nümayiş etdirmək, avamları aldatmaq və ictimai rəyi çaşdırmaq təkəbbürlü başçıların qaydalarındandır.
6. Təkəbbürlü başçılar özlərini hər sahədə aparıcı sayırlar. (Firon istənilən bir münasibətlə özünü irəli verirdi.)

*AYƏ 39:*

﴿وَاسْتَكْبَرَ هُوَ وَجُنُودُهُ فِي الْأَرْضِ بِغَيْرِ الْحَقِّ وَظَنُّوا أَنَّهُمْ إِلَيْنَا لَا يُرْجَعُونَ﴾

**“O (Firon) və onun əsgərləri yer üzündə haqsız yerə təkəbbür göstərir, düşünürdülər ki, Bizə doğru qaytarılmayacaqlar.”**

## *MÜSTƏBİDLİK VƏ MÜSTƏBİD (TƏKƏBBÜR ÜZƏRİNDƏ QURULMUŞ HAKİMİYYƏT VƏ TƏKƏBBÜRLÜ HAKİM).*

–Tarix boyu bütün münasibətlərdə özünü, öz şəxsiyyətini, öz rəyini mehvər qərar verən məğrur və təkəbbürlü insanlar olmuşdur. Surədə Fironun dilindən deyilir: “Mən sizin üçün özümdən başqa bir məbud tanımıram.” Sehrbazlar Musaya (ə) iman gətirən vaxt Firon dedi: “Məndən icazəsiz Musaya (ə) iman gətirdiniz?!” Firon umur ki, kimsə ondan icazəsiz hansısa əqidəyə yiyələnməsin. Bu gün də özünü dünya siyasətində və iqtisadiyyatında mehvər bilən fironlar və super güclər vardır.

–Təkəbbürlü hakimlər bəzən öz güclərini nümayiş etdirmək üçün fərdləri, ayrı-ayrı dəstələri, bütöv bir ölkəni məhv edir və ya məntiqsiz yerə lütf göstərirlər. Necə ki, Nəmrud qarşısında birini dayandırıb Həzrət İbrahimə dedi: “Bu kişinin həyatı və ölümü mənim əlimdədir. İstədiyimi öldürür, istədiyimi zindandan azad edirəm.”

–Təkəbbürlü hakimlər bəzən öz ixtiyarlarında olan imkan və sərvəti gözə soxurlar. Firon deyirdi: “Məgər Misir hakimiyyəti mənim deyilmi?! Yoxsa görmürsünüzmü ki, o çaylar mənim sarayımın altından axır?!”

–Təkəbbürlü hakimlər bəzən qorxudaraq xalqı təslim edirlər. Firon Musaya iman gətirmiş sehirbazlara dedi: “Mən sizin əl-ayağınızı çarpaz surətdə kəsərəm.”

–Təkəbbürlü hakimlər manevr və özününümayişlə sadəlövh xalqı aldadırlar. Qarun küçə-bazardan elə bir formada ötüb keçirdi ki, dünyapərəstlər ona həsəd aparıb deyirdilər: “Kaş, Qarunun malik olduğu şeylər bizdə də olaydı.”

–Təkəbbürlü hakimlər bəzən tamahsılandırmaqla düşüncələri satın alırlar. Firon sehrbazlara dedi: Əgər Musanı (ə) hörmətdən salsanız sizə böyük mükafat verər, sizi özümə yaxınlardan edərəm.”

–Təkəbbürlü hakimlər bəzən öz səfərləri ilə qəlblərə lərzə salırlar. Quran buyurur: “Kafirlərin şəhərlərdə gəzintisi səni aldatmasın.”

–Təkəbbürlü hakimlər bəzən ətrafdakıları təhqir etməklə psixoloji müharibə aparırlar. Onlar peyğəmbərin ətrafındakı insanlara böhtan atır, onları avara adlandırırlar.

–Zalım hakimlər bəzən uca və geniş qəsrlər tikməklə qəlbləri oğurlamaq istəyirlər. Firon vəziri Hamana dedi: “Mənim üçün elə bir qüllə ucalt ki, onunla yuxarı qalxıb Musanın Allahını görüm!”

Həqiqətən də, Quran təkəbbürlü başçıların xarakterini, çirkin əməl və rəftarlarını dövrümüzə tətbiq olunacaq şəkildə dəqiq açıqlayır və belə bir açıqlama Quranın aktuallığını göstərir.

**Bildirişlər**

1. İnsanlar hakimlərin dininə tabe olurlar.
2. Quran tərif və tənqiddə haqqa əsaslanır.
3. Dünyanın ötəriliyini yaddan çıxarıb özünü əbədi saymaq insanda təkəbbür ruhiyyəsi yaradır.
4. Məad və Qiyamət sorğusuna etiqadsızlıq və diqqətsizlik təkəbbür ruhiyyəsində formalaşma üçün zəmindir.

*AYƏ 40:*

﴿فَأَخَذْنَاهُ وَجُنُودَهُ فَنَبَذْنَاهُمْ فِي الْيَمِّ فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الظَّالِمِينَ﴾

**“Biz onu və döyüşçülərini (qəhr-qəzəbimizlə) yaxaladıq və dəryaya atdıq. Bax gör sitəmkarların sonu necə olur?!”**

**Nöqtələr**

Bu ayədə Firon və onun qoşunu haqqında yerdən götürülüb dənizə atılan əhəmiyyətsiz bir şey kimi danışılır. Bu yanaşma bütün qüdrətlərin ilahi qüdrət və qəhr-qəzəb qarşısında heç nə olduğunu göstərir.

“Nəbz” dedikdə dəyərsiz və cüzi bir şeyi kənara atmaq mənası anlaşılır.

**Bildirişlər**

1. Allahın cəzaları təkcə axirətə aid deyil. (Firon elə bu dünyadaca qərq edildi.)
2. Sitəmkar şəxsin köməkçiləri onun taleyinə şərikdirlər.
3. Təkəbbürlü başçıların sonu zillət və əzabdır.
4. Fəsadın kökünü kəsmək üçün bütün bulaşıq şeylər məhv edilməlidir.
5. Tarixi hadisələrə ibrət gözü ilə baxaq.
6. Sitəmkarların müştərək taleyi vardır. (Pis aqibət təkcə Firona yox, bütün sitəmkarlara aid edilir.)
7. Əsas məsələ ötəri görüntülər yox, işin sonudur.

*AYƏ 41:*

﴿وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَدْعُونَ إِلَى النَّارِ وَيَوْمَ الْقِيَامَةِ لَا يُنصَرُونَ﴾

**“Onları (fironçuları) oda dəvət edən başçılar qərar verdik. (Əlbəttə) Qiyamət günü onlara yardım göstərilməz.”**

*AYƏ 42:*

﴿وَأَتْبَعْنَاهُمْ فِي هَذِهِ الدُّنْيَا لَعْنَةً وَيَوْمَ الْقِيَامَةِ هُم مِّنَ الْمَقْبُوحِينَ﴾

**“Dünyada onları lənətlə yola saldıq, Qiyamət günü isə üzü qaralardan olarlar.”**

**Nöqtələr**

Qurani-məcid həm hidayət və nur rəhbərlərini, həm də zəlalət və oda aparanları “əimmə” (“başçılar”) sözü ilə yad edir.[1] Bəli, Qiyamət günü hər bir fərd dünyada seçdiyi başçı ilə ilahi ədalət məhkəməsində sorğuya gətirilər.[2] Firon da həmin başçılardan biri kimi öz qövmünü cəhənnəmə daxil edər.[3]

**Bildirişlər**

1. İstibdad ruhiyyəsi insanı cəhənnəm əhlinə rəhbər edir.

---

[1] “Ənbiya”, 73.
[2] “İsra”, 71.
[3] “Hud”, 98.

2. Cəmiyyətin ideoloji və mənəvi durumunun formalaşmasında hakimiyyətin rolunu nəzərdən qaçırmaq olmaz.
3. Təkəbbürlü başçıların təbliğatı əslində cəhənnəmə dəvətdən ibarətdir.
4. Bu gün ətrafındakı çoxluqla öyünən müstəbidlər Qiyamətdə köməksiz qalacaq.
5. İlahi cəzalar təkcə axirətə aid deyil.
6. Xalqın lənəti ilahi qəzəb göstəricisidir. Dua və yaxşı ad ilahi lütf nişanəsidir.[1]
7. Zalım məhv olduqdan sonra da onu lənətləmək lazımdır.
8. Dünyadakı qara əməllər insanı axirətdə üzüqara edir.

*AYƏ 43:*

﴿وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ مِن بَعْدِ مَا أَهْلَكْنَا الْقُرُونَ الْأُولَى بَصَائِرَ لِلنَّاسِ وَهُدًى وَرَحْمَةً لَّعَلَّهُمْ يَتَذَكَّرُونَ﴾

**“Ötən nəsilləri məhv etdikdən sonra xalqa bəsirət, hidayət və rəhmət olsun deyə Musaya (ə) kitab (Tövrat) əta etdik. Ola bilsin ki, öyüd götürələr.”**

“Bəsair” sözü baxış, agahlıq mənasını bildirən “bəsirət” sözünün cəm formasıdır. “Əbsar sözü göz mənasını bildirən “bəsər” sözünün cəmidir.

**Bildirişlər**

1. Zalım hakimlərin məhvi ilə salehlər üçün zəmin yaranır.
2. Zalım hakimlərin sonu fəlakət və yoxluqdur.
3. Dindarlıq bəsirətə əsaslanmalıdır.
4. Kitablar və peyğəmbərlər ilahi rəhmət əsasında göndərilirlər.
5. Səmavi kitablar bəsirət və hidayət amilidir.
6. İnsan bəsirət əldə edənədək doğru yolu tapmır. Doğru yolu tapmadan ilahi rəhmət əldə etmək mümkünsüzdür.
7. Din bəşər fitrətinin tərkib hissəsidir. Səmavi kitablar insan fitrətini cilalayır.
8. Səmavi kitablar və peyğəmbərlər göndərilsə də insanlardan bir qismi haqqı qəbul etmir.

*AYƏ 44:*

﴿وَمَا كُنتَ بِجَانِبِ الْغَرْبِيِّ إِذْ قَضَيْنَا إِلَى مُوسَى الْأَمْرَ وَمَا كُنتَ مِنَ الشَّاهِدِينَ﴾

**“Musaya fərman (peyğəmbərlik) verdiyimiz vaxt sən (Tur dağından) qərb tərəfdə yox idin və şahidlərdən deyildin.”**

**Nöqtələr**

Keçmiş qövmlərin tarixini mütaliə etməklə bir növ onların həyatını yaşamaq olur. Əlbəttə ki, fiziki baxımdan keçmişə qayıtmaq olmaz. Həzrət Əli (ə) oğlu imam Həsənə (ə) buyurur: “Mən keçmişdəkilərin həyatını yaşamasam da, onların yaşayışını və

[1] “Şuəra”, 84.

nişanələrini mütaliə edib düşünməklə sanki onlardan biri olub onlarla yanaşı ömür sürmüşəm.[1]”

Bu və bundan sonrakı ayələrdə “Ma kuntə” təbiri dörd dəfə təkrar olunmuşdur. Bu təbir Qurandakı tarixi məlumatların qeybdən qaynaqlandığını göstərir.

**Bildirişlər**

1. Həzrət Musanın (ə) peyğəmbərlik macərasının həmin dövrdə yaşamamış peyğəmbərin dilindən son xırdalıqlarınadək bəyanı Quranın həqiqət və möcüzə olmasını göstərir.

2. Quranın nəql etdiyi bəzi əhvalatları şahidlərin nəqlinə yox, qeybi xəbərlərə əsaslanır.

3. Tövrat Tur dağının qərb hissəsində nazil olmuşdur.

*AYƏ 45:*

﴿وَلَكِنَّا أَنشَأْنَا قُرُونًا فَتَطَاوَلَ عَلَيْهِمُ الْعُمُرُ وَمَا كُنتَ ثَاوِيًا فِي أَهْلِ مَدْيَنَ تَتْلُو عَلَيْهِمْ آيَاتِنَا
وَلَكِنَّا كُنَّا مُرْسِلِينَ﴾

**“Amma Biz (qövmləri) müxtəlif əsrlərdə xəlq etdik. Onlar uzun illər ömür sürdülər. (Peyğəmbərləri unutdular və Biz səni səmavi kitabla onlara doğru göndərdik.) Sən Mədyən əhli arasında olmamışdın ki, (onların vəziyyətindən xəbər tutub) ayələrimizi (Məkkə əhlinə) oxuyasan. Amma hidayət üçün fərdləri göndərmək Bizim sünnəmizdir.”**

**Nöqtələr**

“Saviyən” sözü məskun, yerləşmiş mənasını bildirir. Eyni kökdən (“səva”) olan “məsva” sözü məkan, qərargah mənasında işlənir.

**Bildirişlər**

1. Bəşəriyyət tarixin bütün dönəmlərində ilahi maarifə ehtiyaclıdır.

2. Zaman ötdükcə öncəki peyğəmbərlərin əsərləri solğunlaşmış, İslam Peyğəmbərinin (s) gəlişi üçün zəmin yaranmışdı.

3. Peyğəmbərlərin besəti (göndərişi) ilahi sünnədir.

*AYƏ 46:*

﴿وَمَا كُنتَ بِجَانِبِ الطُّورِ إِذْ نَادَيْنَا وَلَكِن رَّحْمَةً مِّن رَّبِّكَ لِتُنذِرَ قَوْمًا مَّا أَتَاهُم مِّن نَّذِيرٍ مِّن
قَبْلِكَ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ﴾

**“Biz (Musaya) nida etdiyimiz vaxt sən Tur dağı kənarında deyildin. Amma (keçmişlərlə bağlı məlumat) səndən öncə xəbərdarlıq edəni olmayan qövmə xəbərdarlıq etməyin üçün Rəbbin tərəfindən bir rəhmətdir. Ola bilsin ki, onlar anlayalar.”**

[1] “Nəhcül-bəlağə”, m. 31.

**Bildirişlər**

1. Vəhy aləmi ilə rabitədə olmayan peyğəmbər adi insanlar kimi qeybi biliklərdən xəbərsizdir.

2. (Cəhl və elm, acizlik və qüdrət, fəqirlik və sərvət, naqislik və kamal arasında) müqayisə insanın özünü və öz Allahını tanıması üçün açardır.

3. Quranın bütün xatırlatmaları vəhydən qaynaqlanır.

4. Quranın həqiqi və ibrətamiz əhvalatlarının bəyanı tərbiyə və agahlıq üçün vasitədir.

5. Xalqa xəbərdarlıq ilahi rəhmət cilvəsidir.

6. Qafil fərdlərin hidayətində qorxutma və xəbərdarlıq səmərəlidir. (Peyğəmbərlərin risalətində həm müjdə, həm də xəbərdarlıq nəzərdə tutulur. Amma qafillərə qorxutma daha çox təsir göstərdiyindən Quran bu məsələyə daha çox diqqət ayırır.)

7. İnsanlar yol və əqidə seçimində azad buraxılmışlar. Onlar peyğəmbərin dəvətini qəbul etməyə məcbur edilmir.

8. İnsanlar öz fitrətləri vasitəsi ilə bəzi məsələlərdən xəbərdardırlar. Amma unutqanlığın qarşısını almaq üçün xəbərdarlığa ehtiyac var.

***AYƏ 47:***

﴿وَلَوْلَا أَن تُصِيبَهُم مُّصِيبَةٌ بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ فَيَقُولُوا رَبَّنَا لَوْلَا أَرْسَلْتَ إِلَيْنَا رَسُولًا فَنَتَّبِعَ آيَاتِكَ وَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ﴾

**“Onlara öz əməlləri ucbatından bir müsibət üz verdikdə “Pərvərdigara, nə üçün bizə peyğəmbər göndərmədin ki, ayələrinə itaət edib iman gətirənlərdən olaq” deməsəydilər (Biz heç vaxt peyğəmbər göndərməzdik.)”**

**Nöqtələr**

Ötən ayədə peyğəmbərlərin xəbərdarlıq məqsədi ilə gəldikləri bildirildi. Bu ayədə isə höccətin tamamlanmasından, yetərli dəlillər gətirilməsindən, bəhanə və üzr yollarının bağlanmasından danışılır.

Ayənin məfhumu bundan ibarətdir: kafirlər deyirlər ki, peyğəmbərimiz olmadığından biz müsibətə düçar olduq, əgər peyğəmbərimiz olsaydı günaha yol verməzdik. Allah onların cavabında buyurur ki, Biz höccəti tamamlamaq, bəhanə yolunu bağlamaq üçün onlara peyğəmbərlər göndərdik.

**Bildirişlər**

1. Bir çox müsibətlərin və acı hadisələrin səbəbi öz əməllərimizdir. Şübhəsiz, yaxşı və pis əməllərin elə bu dünyada da öz təsiri var.

2. Allaha iman və peyğəmbərlərə itaət müsibətlərdən qurtuluş rəmzidir.

3. Ağıl, elm və fitrət bəs etmir, vəhyə də ehtiyac vardır.

4. Xəbərdarlıqsız cəza qəbahətdir. (Peyğəmbərlərin besəti son xəbərdarlıqdır. Bundan sonra kimsə deyə bilməz ki, xəbərimiz olmayıb, bilmədən günaha batmışıq.)

5. Ardıcıllıq və itaət gerçək iman nişanəsidir.

*AYƏ 48:*

﴿فَلَمَّا جَاءهُمُ الْحَقُّ مِنْ عِندِنَا قَالُوا لَوْلَا أُوتِيَ مِثْلَ مَا أُوتِيَ مُوسَى أَوَلَمْ يَكْفُرُوا بِمَا أُوتِيَ مُوسَى مِن قَبْلُ قَالُوا سِحْرَانِ تَظَاهَرَا وَقَالُوا إِنَّا بِكُلٍّ كَافِرُونَ﴾

**“Nə vaxt Bizim tərəfimizdən haqq (ayələr) bəyan olundusa, dedilər: “Nə üçün (bu peyğəmbərə) verilənlər həzrət Musaya (ə) verilənlərə oxşamır?! (Nə üçün əsanın əjdahaya dönməsi kimi bir möcüzə və Tövrat kimi göz qabağında olan bir kitab yoxdur?) Yoxsa əvvəllər Musaya (ə) verilənləri inkar etmirdilər? Deyirdilər: “(Tövrat və Quran) bir-birinə arxa duran sehrlərdir.” Deyirdilər ki, həqiqətən, biz bütün bunları inkar edirik.”**

**Nöqtələr**

Ayədəki “sehrani təzahəra” cümləsinin növbəti ayəyə əsasən Quran və Tövrata işarə olduğu ehtimal edilir.

**Bildirişlər**

1. Peyğəmbərin risaləti və Quran haqdır.
2. Haqqı inkar edənlər onu araşdırmaq əvəzinə əsassız yerə müqayisələr aparır, batil mövqe tuturlar.
3. Qəlbi daşlaşmış insanlar yeni və məntiqi sözü qəbul edə bilmirlər.
4. Peyğəmbərlərə ünvanlanmış ən məşhur böhtanlardan biri sehr-cadudur. (Bəhanəçi kafirlər iddia edirdilər ki, Quran və Tövrat bir-birinə arxa dayanan iki sehrdir.)
5. Düşmənlər öz inkarlarına yol açmaq üçün məntiq və haqq sözə kölgə salırlar.

*AYƏ 49:*

﴿قُلْ فَأْتُوا بِكِتَابٍ مِّنْ عِندِ اللَّهِ هُوَ أَهْدَى مِنْهُمَا أَتَّبِعْهُ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“(Ey peyğəmbər! Onlara) de ki, (bir halda ki, hər iki kitabı inkar edirsiniz,) doğru deyirsinizsə, Rəbbiniz tərəfindən bu iki kitabdan daha çox doğru yolu göstərənini gətirin və mən ona tabe olum.”**

**Bildirişlər**

1. Kafirlərin hədyanlarına münasib cavab vermək lazımdır.
2. Bəzən haqqın isbatı üçün ciddi mübarizə aparıb qarşı tərəfi susdurmaq lazım gəlir.
3. Təkcə məzəmmət bəs etmir, təklif irəli sürmək də lazımdır.
4. Peyğəmbərlərin imtiyazlarından biri kitab və ya möcüzə göstərilməsində mübarizəyə çağırışdır.
5. Quran və əsl Tövrat bəşəriyyətin hidayəti üçün ən üstün səmavi kitablardır.
6. Küfrə qarşı mübarizədə ilahi din ardıcılları bir-birinə hami olmalıdır. Bəli, bütün səmavi kitabları inkar edənlərə qarşı mübarizədə Quran və Tövrat bir-birinə arxadır.
7. Din rəhbərləri müxaliflərə ən üstün və ən məntiqi şəkildə cavab verməlidir.

8. Seçimdə meyar ən üstün olana itaətdir.
9. Tərbiyəçi, dost və kitab seçimində onların doğru yola çağırışı meyardır.
10. İnsan Quran və Tövratdan üstün kitab gətirməkdə acizdir.

### *AYƏ 50:*

﴿فَإِن لَّمْ يَسْتَجِيبُوا لَكَ فَاعْلَمْ أَنَّمَا يَتَّبِعُونَ أَهْوَاءهُمْ وَمَنْ أَضَلُّ مِمَّنِ اتَّبَعَ هَوَاهُ بِغَيْرِ هُدًى مِّنَ اللَّهِ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**"Əgər səni qəbul etməsələr, bil ki, onlar öz nəfs istəkləri ardınca gedirlər. İlahi hidayət və göstərişsiz nəfs istəklərinə tabe olanlardan da azğını kimdir?! Həqiqətən, Allah sitəmkar qövmü hidayət etməz."**

**Nöqtələr**

İnsanın üç mənəvi düşməni olduğu bildirilir: Dünya cilvələri, nəfs istəkləri və şeytan vəsvəsələri. Dünya və onun cilvələri bir tərəfə hərəkətlə qapını açan, digər tərəfə hərəkətlə onu bağlayan açara bənzəyir. Yəni ondan həm yaxşı, həm də pis yolda faydalanmaq olar. Şeytan vəsvəsələri təsirli olsa da kimsəni günaha məcbur etmir. bundan əlavə, şeytanın Allah övliyalarının qəlbinə nüfuz edib hakim olmaq imkanı yoxdur. Amma insanın ən qatı düşməni onun nəfs istəkləridir.[1]

**Bildirişlər**

1. Nəfs istəkləri bəzən (təbliğatlar, bağlılıqlar, qatqılar və əksəriyyətin tərəfdarlığı ilə) elə cilvələnir ki, onu tanımaq üçün bəsirət və diqqətə ehtiyac olur.
2. Hidayət, doğru yola meyl olmayan yerdə nəfs istəkləri hakimdir.
3. Haqqı inkar edənlər və nəfsə uyanlar xalqın ən azğın zümrəsidir.
4. Həqiqi hidayət sonsuz elm və hikmətdən qaynaqlanan hidayətdir.
5. Nəfs istəklərinə uymaq zülmdür və nəfsə uyanlar ilahi hidayətdən uzaqdır.

### *AYƏ 51:*

﴿وَلَقَدْ وَصَّلْنَا لَهُمُ الْقَوْلَ لَعَلَّهُمْ يَتَذَكَّرُونَ﴾

**"Biz ardıcıl şəkildə onlara danışdıq (Quran ayələri nazil etdik). Ola bilsin ki, öyüd götürüb anlayalar."**

### *AYƏ 52:*

﴿الَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ مِن قَبْلِهِ هُم بِهِ يُؤْمِنُونَ﴾

---

[1] "Təfsire-ətyəbul-bəyan",

**“Bundan (Qurandan) öncə kitab verdiyimiz (bəzi) şəxslər ona iman gətirərlər.”**

**Nöqtələr**

“Vəsl” sözündən olan “vəssəlna” sözü əlaqələndirmək mənasını bildirir. Əlaqələndirmə dedikdə ya xatırlatmaların ardıcıllığı, ya da məsələlərin həmahəngliyi nəzərdə tutulur.

İnsanların hidayəti Allahın sünnələrindəndir və bir an olsun belə dayandırılmaz.[1] Bu hidayət ilahi ayələr, peyğəmbərlər, canişinlər və din alimləri vasitəsi ilə davam edir. Bir məntəqədə ilahi hidayətə əl çatmadıqda oradan bir dəstəsi köç edib dərin dini biliyə yiyələnməli və öz xalqını məlumatlandırmalıdır.[2]

**Bildirişlər**

1. Tərbiyə prosesində tədrici, addımbaaddım, təkrar və çeşidli xatırlatmalara ehtiyac var. (Bəli, bir neçə müxtəsər xatırlatma ilə islah və tərbiyəyə ümid etmək olmaz.)
2. Quran ayələrində bir növ həmcəhətlik və bağlılıq vardır.
3. Bütün ilahi ayələr, səmavi kitablar və dini rəhbərlər eyni bir söz və məqsəd izləyirlər.
4. İnsan unutqan varlıqdır. Onun xatırlatmaya ehtiyacı vardır.
5. Həqiqi kitab əhli İslamla tanış olduqda iman gətirir.

***AYƏ 53:***

﴿وَإِذَا يُتْلَى عَلَيْهِمْ قَالُوا آمَنَّا بِهِ إِنَّهُ الْحَقُّ مِن رَّبِّنَا إِنَّا كُنَّا مِن قَبْلِهِ مُسْلِمِينَ﴾

**“Onlara (Quran) oxunan zaman deyərlər: “Biz ona iman gətirdik. Doğrudan da, o, Rəbbimiz tərəfindən bir həqiqətdir. Biz ondan öncə də müsəlman, təslim əhli idik.”**

***AYƏ 54:***

﴿أُوْلَئِكَ يُؤْتَوْنَ أَجْرَهُم مَّرَّتَيْنِ بِمَا صَبَرُوا وَيَدْرَؤُونَ بِالْحَسَنَةِ السَّيِّئَةَ وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ﴾

**“Onlara səbirlərinə xatir ikiqat mükafat verilər. (Onlar ki,) pisliyi yaxşılıqla dəf edər, verdiyimiz ruzidən (digərlərinə) paylayarlar!”**

**Bildirişlər**

1. Haqtələblər həqiqət sorağındadırlar. Onlar üçün haqqı deyənin kimliyi, irqi, milləti, dili fərq etməz.
2. Ruh pak olsa, insan haqqı eşitməklə iman gətirər. (Əksinə, qəbul üçün zəmin yoxsa, ardıcıl tilavət də imana ümid vermir.)
3. İlahi mərifət və biliyə əsaslanan iman dəyərlidir.
4. İnsanların ilahi lütflərdən faydalanmasında şərtlər və zəminlər fərqlidir.
5. Haqqın qəbulu üçün çeşidli tənqidlər və problemlər qarşısında səbir etmək lazım gəlir.

---

[1] “Ləyl”, 12.

[2] “Tövbə”, 122.

6. İnsanda xarakterə çevrilmiş əfv və infaq dəyərlidir. (Bəli, ardıcıl şəkildə ətrafdakıları bağışlayıb əta edən möminlər tərifə layiqdirlər.)

7. Ruzinin Allah tərəfindən olduğunu bilsək infaq etmək asanlaşar.

8. İnsan təkcə malından yox, həm də elmindən, gücündən, hörmətindən infaq edə bilər.

### *AYƏ 55:*

﴿وَإِذَا سَمِعُوا اللَّغْوَ أَعْرَضُوا عَنْهُ وَقَالُوا لَنَا أَعْمَالُنَا وَلَكُمْ أَعْمَالُكُمْ سَلَامٌ عَلَيْكُمْ لَا نَبْتَغِي الْجَاهِلِينَ﴾

**“Cəfəngiyyat eşitdikləri vaxt ondan üz çevirib deyərlər: “Bizim əməllərimiz bizim, sizin əməlləriniz sizin olsun. Salam olsun sizə, biz cahillərə doğru getmirik.”**

**Nöqtələr**

Allah ötən ayədə onun yolunda səbir edən, pisliyə yaxşılıqla cavab verən, malından bağışlayan insanlara iki qat artıq mükafat vəd etdi. Bu ayədə səbr və xoş münasibətin bir nümunəsinə işarə olunur.

“Ləğv” dedikdə həm söz, həm də əməldə özünü büruzə verən cəfəngiyyat nəzərdə tutulur. Möminlər bu sifətdən çəkinməyə çağırılmışlar. Behiştin imtiyazlarından biri də budur ki, orada mənasız iş və mənasız söz yoxdur.[1]

“Müdara” dedikdə güc çatan yerdə onu tətbiq etməmək nəzərdə tutulur. Məsələn, ata öz övladı ilə sərt davrana biləcəyi halda ona mülayim yanaşır. “Müdahinə” dedikdə isə gücsüzlükdən doğan yaltaqlıq nəzərdə tutulur. Məsələn, bir çox ölkə başçıları şücaətləri olmadığından super güclərin əlində oyuncağa çevrilirlər. Peyğəmbərlər və övliyalar xalqla müdara etmiş, kafirlər qarşısında isə sərt mövqe tutmuşlar.

**Bildirişlər**

1. Həqiqi mömin nəinki faydasız məclislərə qatılmır, faydasız sözlərə qulaq asmır, hətta boş söz eşitdikdə reaksiya göstərir.

2. Mənasız söz və işlərə etinasızlıq və bu hallardan uzaqlıq səbir nümunələrindəndir.

3. Danışarkən, dinləyərkən, baxarkən, ünsiyyətdə olarkən “ləğvdən”, boş şeylərdən, zərərdən çəkinmək bütün ilahi dinlərdə mədh olunmuşdur. (Yuxarıdakı ayə kitab əhlindən olan bir zümrəni vəsf edir.)

4. Nəhy əz münkərin (pisliyə qadağanın) ümumi qaydalarından biri pis işlərdən çəkinməkdir. (Cəfəngiyyata cəfəngiyyatla cavab verməyək.)

5. İnsan eşitdiklərinə görə məsuliyyət daşıyır.

6. Qətiyyət, sazişdən uzaqlıq həqiqi iman nişanəsidir.

7. Əməlin xeyir və zərəri insanın özünə qayıdır.

8. İnsan hörmətlə uzaqlaşmalıdır.

9. Uzaqlaşarkən ləğv əhlinə xəbərdarlıq etmək də lazımdır.

10. Ləğv, boş iş və söz cəhalət meyvəsi, boş yerə danışan isə cahildir.

---

[1] “Tur”, 23.

*AYƏ 56:*

﴿إِنَّكَ لَا تَهْدِي مَنْ أَحْبَبْتَ وَلَكِنَّ اللَّهَ يَهْدِي مَن يَشَاء وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ﴾

**"(Ey peyğəmbər!) Həqiqətən, sən istədiyin kəsi hidayət edə bilməzsən. İstədiyini hidayət edə bilən Allahdır və O, doğru yolu tapanları daha yaxşı tanıyır."**

**Nöqtələr**

Ayədə əziz İslam Peyğəmbərinə (s) təsəlli verilir. Bu məzmun digər ayələrdə müxtəlif təbirlərlə təkrarlanmışdır. Məsələn "Yusuf" surəsinin 103-cü ayəsində buyurulur: "Ey peyğəmbər! Onların hidayətinə nə qədər həris olsan da yenə onların əksəri iman gətirməz." "Bəqərə" surəsinin 272-ci ayəsində oxuyuruq: "Xalqın doğru yola gəlişi sənin öhdəndə deyil. Allah istədiyini hidayət edir."

"Dürrül-Mənsur" təfsirinin beşinci cildində nəql olunur ki, Həzrət Əlinin (ə) atası Əbu-Talib vəfat edərkən əziz Peyğəmbər (s) onun yanına gəlib İslama dəvət etdi; amma Əbu-Talib bu təklifi qəbul etmədi və hazırkı ayə nazil oldu. Biz hazırkı ayənin nazil olma şəninə toxunmadan Əbu-Talibin iman gətirməsi haqqında bir qədər danışaq. Dəyərli "Əl-Ğədir" kitabının müəllifi Əllamə Əmini həmin kitabın səkkizinci cildinin 19-cu səhifəsində uyğun rəvayətləri saxta sayaraq rədd edir. Alim tarixi mənbələrə əsaslanaraq bildirir ki, bu qəbildən olan rəvayətlər Əbu-Talib dünyasını dəyişən zaman ya südəmər körpə olmuş və ya Əbu-Hüreyrə kimi hələ İslamı qəbul etməmiş şəxslər tərəfindən nəql olunmuşdur. Uyğun cildin 330-410-cu səhifələrində həzrət Əbu-Talibin İslamı qəbul etməsini sübuta yetirən dəlillər sadalanır. Həzrətin özündən yüzlərlə şerlər, onlarla xatirələr, eləcə də, Peyğəmbər (s) Əhli-beytindən 40 hədis zikr olunur. Bütün bunlar həzrət Əbu-Talibin Allaha və Onun rəsuluna (s) olan imanını təsdiqləyir. Bu dəlillərdən bəzilərini nəzərdən keçirək:

1. Peyğəmbər (s) və məsum imamların Əbu-Talibin imanını təsdiqləyən buyruqları;
2. Əbu-Talib dünyasını dəyişən zaman əziz Peyğəmbərin (s) qəm-qüssəsi;
3. Əbu-Talib dəfn olunan zaman Peyğəmbərin (s) minbərdəki duası;
4. Peyğəmbər (s) buyurur ki, mən valideynimin və əmim Əbu-Talibin Qiyamət şəfaətçisiyəm;
5. İslam Peyğəmbərinin (s) Bəni-Haşim tərəfindən himayəsi ilə bağlı vəsiyyətnamə;
6. Əbu-Talibin öz zövcəsi və oğlu Cəfərə Peyğəmbərin (s) himayəsi ilə bağlı tövsiyəsi, onun İslam və namaza diqqəti;
7. Təhlükəli gecələrdə Əbu-Talibin Peyğəmbərlə (s) oğlu Əlinin (ə) yataqlarını dəyişməklə onu təhlükədən qurtarması;
8. Müsəlmanlığına heç bir şəkk-şübhə olmayan Fatimə binti Əsədin Əbu-Taliblə ər-arvadlığı. Əgər Əbu-Talib müsəlman olmasaydı, müsəlman qadınla həyat qurmamalı idi;
9. Əbu-Talibin müsəlmanlığını təsdiqləyən çoxsaylı şerləri.

Əlbəttə, unutmamalıyıq ki, həzrət Əlinin (ə) atası olmasını düşmənlər Əbu-Talibə heç vaxt bağışlamamışlar! Onlar bu məqsədlə pul xərcləmiş, saxta rəvayətlər hazırlamış və bu yolla Əlinin (ə) atası Əbu-Taliblə Müaviyənin atası Əbu-Süfyan arasında oxşarlıq yaratmağa çalışmışlar. Guya hər iki şəxs öncə müşrik olmuşdur!

**Bildirişlər**

1. Peyğəmbərlərin vəzifəsi ilahi göstərişləri bəyan edib yol göstərməkdir. Xalqın bu göstərişləri qəbul edib-etməməsinin peyğəmbərlər üçün heç bir zərər-ziyanı yoxdur.

2. Peyğəmbərlər yolunu azanların hidayəti üçün çox çalışmışlar.

3. Hidayət yalnız pak və hazırlıqlı qəlblərin layiq olduğu ilahi işdir.

4. Allah hikmət və elm əsasında qərar çıxarır.

*AYƏ 57:*

﴾وَقَالُوا إِن نَّتَّبِعِ الْهُدَى مَعَكَ نُتَخَطَّفْ مِنْ أَرْضِنَا أَوَلَمْ نُمَكِّن لَّهُمْ حَرَمًا آمِنًا يُجْبَى إِلَيْهِ ثَمَرَاتُ كُلِّ شَيْءٍ رِزْقًا مِن لَّدُنَّا وَلَكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ﴿

**“(Məkkə kafirləri) dedilər: “Əgər biz sənin əlinlə doğru yolu qəbul etsək yurd-yuvamızdan çıxarılacağıq.” Məgər Biz onları tərəfimizdən ruzi olaraq hər bəhrənin nazil olduğu əmin-aman yerdə qərar vermədikmi?! Amma onların çoxu bilməz!”**

**Nöqtələr**

Məkkə müşriklərindən bir qrupu İslam Peyğəmbərinə (s) bildirdi ki, əgər səninlə birlikdə hidayəti qəbul etsək tez bir zamanda ev-eşiyimizdən qovulub avara qalarıq. Allah üç cavabla onların bəhanələrini rədd etdi: Əvvəla, həmin ayədə işarə olundu ki, Məkkəni əmin-aman və bol ruzili edən Allah yenə də Öz nemətini davam etdirə bilər. İkincisi, sonrakı ayədə bildirilir ki, əmin-amanlığı və mənafeyinizi qorumaq istədiyiniz bir zaman nə üçün Allahın qəzəbi barədə düşünmürsünüz? Üçüncüsü, həmin surənin 6-cı ayəsində bildirilir ki, dünya malına görə iman gətirməməyə dəyərmi? Bilin ki, Allahın yanında olan daha üstün və daha etibarlıdır. Deməli, iman gətirməməyə heç bir bəhanə qalmır!

**Bildirişlər**

1. Din təkcə əqidə deyil, onun əməli proqramları da var.

2. Düşmənləri narahat edən təkcə doğru yol yox, həm də həqiqi rəhbərlikdir.

3. İman gətirmək üçün agahlıqla yanaşı cürətə də ehtiyac var. (Bəli, bəziləri İslamın haqq olmasını bilsələr də, şəxsi mənafelərini qorumaq üçün boyun qaçırırlar.)

4. İnsanda vətən sevgisi var.

5. Allahın lütflərini xatırlamaqla nemətləri əldən vermək qorxusunu uzaqlaşdıraq. (Bəli, nemətləri xatırlamaq təvəkkül və nigarançılıqların aradan qalxma amilidir.)

6. Sağlamlıq, rövnəq, iqtisadi inkişaf cəmiyyətdəki əmin-amanlıqdan asılıdır.

7. Allah evində (Məkkədə) əmin-amanlıq və ruzi kimi iki nemətə zəmanət verilmişdir.

8. Çoxları imanın rifah və asayişdən üstün olduğunu anlamır.

*AYƏ 58:*

﴿وَكَمْ أَهْلَكْنَا مِن قَرْيَةٍ بَطِرَتْ مَعِيشَتَهَا فَتِلْكَ مَسَاكِنُهُمْ لَمْ تُسْكَن مِّن بَعْدِهِمْ إِلَّا قَلِيلًا وَكُنَّا نَحْنُ الْوَارِثِينَ﴾

**"Həyatda tüğyan qopardıqları üçün məhv etdiyimiz məntəqələr nə çox! Sonralar kiçik bir hissəsi məskunlaşan onların evləridir, Biz onların varisləriyik."**

**Nöqtələr**

"Bətir" dedikdə tüğyan, sərvət və rifah çoxluğundan doğan məstlik nəzərdə tutulur.

Ötən ayədə oxuduq ki, bir qrup əziz İslam Peyğəmbərindən (s) soruşdu: "Əgər biz sənə iman gətirsək Məkkə kafirləri bizi avara qoyar." Allah-təala buyurdu: "Məkkəni əmin-aman və bol ruzili edən güc, iman gətirdikdən sonra da sizə olan nemətlərini hifz edə bilər." Bu ayədə isə Allah-təala buyurur ki, Biz bir çox şəhərləri nemət və rifahdan doğan məstliyə görə məhv etdik, bunu unutmayın. Əgər rifah və var-dövlətinizə görə iman gətirmirsinizsə, Allahın qəhr-qəzəbi qarşısında nə edəcəksiniz?!

"Fətilkə məsakinuhum" dedikdə ya Ad qövmünün Əhqafdakı, ya da Səmud qövmünün Sədumdakı xaraba qalmış məskənləri nəzərdə tutulur. Hicaz tacirləri bu xarabalıqların yanından ötüb-keçər, uyğun səhnələri öz gözləri ilə görərdilər.

**Bildirişlər**

1. Sərvət və rifah nəinki insanı xoşbəxt etmir, hətta bəzən onu tüğyan və məhvədoğru aparır.
2. Fərdlərin və cəmiyyətin taleyi insanların öz əməllərindən asılıdır.
3. İmansız varlıları məhv etmək Allahın sünnələrindəndir.
4. Ötən fəlakətlərin qalıqları gələcək nəsillər üçün təsirli öyüddür. (Qədim xarabalıqların müşahidəsi tərbiyəvi proqramlardandır.)
5. Sərvətli insanlar öz mallarını dünyada qoyub gedəsidirlər. Əgər belədirsə, onda əbədi xoşbəxtliyi müvəqqəti dünya malına dəyişməyək.

*AYƏ 59:*

﴿وَمَا كَانَ رَبُّكَ مُهْلِكَ الْقُرَى حَتَّى يَبْعَثَ فِي أُمِّهَا رَسُولًا يَتْلُو عَلَيْهِمْ آيَاتِنَا وَمَا كُنَّا مُهْلِكِي الْقُرَى إِلَّا وَأَهْلُهَا ظَالِمُونَ﴾

**"Rəbbin aralarında ayələrimizi onlara oxuyan peyğəmbər seçməmiş yerləri məhv etməz. Əhalisi zülmə uğramamış heç bir abadlığı həlak etmədik."**

**Bildirişlər**

1. Peyğəmbərlərin ən mühüm vəzifələrindən biri xalqa ilahi ayələrin tilavəti, oxunmasıdır.
2. Məkkə İslamın dünyaya gəldiyi şəhərdir.[1]

[1] "Ümmül-qura".

3. Sitəmkar cəmiyyətləri ilahi qəhr-qəzəb gözləyir.

4. Xəbərdarlıq başa çatmamış Allah tərəfindən əzab nazil olmaz.

5. İlahi qəhr-qəzəb Allahın tərbiyə üsullarındandır.

6. Təbliğ üçün izdihamlı mərkəzlər və şəhərlər seçilməlidir. (Ayə təbliğatda seçilmiş yerin rolunu göstərir.)

7. Peyğəmbərlərin dəvətinə müsbət cavab verilməməsi zülmdür.

8. Sitəmkarların dünyadaca məhvi ilahi sünnə və proqramlardandır.

### *AYƏ 60:*

﴿وَمَا أُوتِيتُم مِّن شَيْءٍ فَمَتَاعُ الْحَيَاةِ الدُّنْيَا وَزِينَتُهَا وَمَا عِندَ اللَّهِ خَيْرٌ وَأَبْقَى أَفَلَا تَعْقِلُونَ﴾

**“Sizə verilən yalnız dünya həyatından (fani və ötəri) bəhrə və onun zinətidir. Hansı ki, Allahın yanında olan daha üstün və daha etibarlıdır. Yoxsa düşünmürsünüz?!”**

**Nöqtələr**

Əslində ayə Məkkə kafirlərinə ünvanlanmış üçüncü cavabdır. Onlar iman gətirəcəkləri təqdirdə dünya həyatlarının puça çıxacağını bildirirdilər. Ayədə bəyan olunur ki, imandan qaçmaqla əlinizdə saxlamaq istədiyiniz var-dövlət dəyərsiz və fanidir. Allahın yanında olan isə, şübhəsiz, üstün və qalarlıdır.

**Bildirişlər**

1. İxtiyarınıza verilmiş var-dövləti və imkanları öz zəhmətlərinizin bəhrəsi saymayın. Nəyiniz varsa Allah tərəfindəndir.

2. Dünya nemətləri məhduddur. Allahın mükafatı isə qədərsiz və ağlasığmazdır.

3. Əgər iman yolunda dünyanızı əldən versəniz, sonsuz və əbədi nemətlər əldə edəcəksiniz.

4. Əbədini faniyə, xalis ləzzəti zəhər qatqılı şirinliyə dəyişən insan doğrudan da aqil deyildir.

### *DÜNYAYA QURAN PRİZMASINDAN BİR BAXIŞ*

Qurani-məciddə dünya və dünya həyatı müxtəlif təbirlərlə yad edilir, insanlara diqqətli olmaq tapşırılır. Uyğun təbirləri nəzərdən keçirək: Dünya ötəridir[1]; dünya oyuncaqdır[2]; dünya cüzi və əhəmiyyətsizdir[3]; dünya həyatı aldanış və qəflət səbəbidir[4]; dünya həyatı kafirlər üçün cilvələnmişdir.[5]; var-dövlət və övlad dünya zinətidir[6]; dünya kimsə üçün açılmayan qönçədir[7]; nə üçün dünyanı axirətə satırsınız[8]; nə üçün

[1] “Nisa", 94.
[2] “Ənam”, 32.
[3] “Tövbə”, 38.
[4] “Ali-İmran”, 185.
[5] “Bəqərə”, 212.
[6] “Kəhf”, 46.
[7] “Taha”, 131.
[8] “Bəqərə”, 86.

fani və məhdud dünya sizi razı salır[1]; nə üçün kiçik və ötəri dünya sizi şad edir[2]; nə üçün dünyanı axirətdən üstün tutursunuz[3]; nə üçün dünyaya sahib olanlar sizi heyran qoyur[4]; nə üçün təkcə dünya haqqında düşünürsünüz[5]; dünyapərəstlər bilmirmi ki, onların yeri cəhənnəmdir[6].

Şübhəsiz, bütün bu xəbərdarlıqlar dünyagir insanlara ünvanlanıb. Ayə və rəvayətlərdə ədalət və insaf çərçivəsində dünyadan bəhrələnənlər yox, dünyapərəstlər, axirətini satanlar, qəflətdə qalanlar, məst olanlar, yoxsulların haqqını verməyənlər nəzərdə tutulur. Uyğun məzəmmətlər kamillik sorağınca gedən, axirətdən xəbərsiz qalmayan, məhrumların haqqını ödəyən, dünya işlərində zülmə yol verməyən insanlara aid deyil. İlahi çərçivədən çıxmayan var-dövlət və dünya fəzl və rəhmətdir.

***AYƏ 61:***

﴿أَفَمَن وَعَدْنَاهُ وَعْدًا حَسَنًا فَهُوَ لَاقِيهِ كَمَن مَّتَّعْنَاهُ مَتَاعَ الْحَيَاةِ الدُّنْيَا ثُمَّ هُوَ يَوْمَ الْقِيَامَةِ مِنَ الْمُحْضَرِينَ﴾

**“Xeyir vəd verdiyimiz və onu görəcək kəs dünya həyatından bəhrə verdiyimiz, sonra Qiyamət günü (cəza üçün) gətiriləcək kəs kimidirmi?!”**

**Nöqtələr**

Öncəki ayələrin davamında hazırkı ayə dünya həyatını hifz etmək üçün küfrdə qalanları nəzərdə tutur.

Bu ayədə iman və saleh əməl əhlinə verilən vəd Quranın müxtəlif ayələrində bəyan olunmuşdur.[7]

Əziz Peyğəmbərin (s) müxalifləri ilkin İslam dövründə rifah içində yaşayan varlı şəxslər idi.

**Bildirişlər**

1. İlahi vədlər, axirət mükafatları həm böyükdür, həm də gözəl.
2. İlahi vədlər qətidir.
3. Müqayisə üsulu təbliğ-tərbiyədə ən üstün üsullardandır. (İlahi vəd verilən kəslər başqaları ilə müqayisə olunası deyil.)
4. Dünya nemətlərindən bəhrələnmə tövfiqi də Allahın əlindədir.
5. Dünyada rifah içində olmaq axirət səadəti nişanəsi deyil.
6. Dünyadan bəhrələnmənin hesab-kitabı var. Həzrət Əli (ə) buyurur: “Dünya halalının hesabı, dünya haramının cəzası var.”

---

1 “Tövbə”, 38.
2 “Rəd”, 26.
3 “İbrahim”, 3.
4 “Hicr”, 88.
5 “Nəcm”, 29.
6 “Naziat”, 38.
7 Məsələn: “Maidə”, 9.

7. Qəflət içində olan ləzzətin zəliledici axirət cəzası var. Bəli, sonu od olan ləzzətin faydası yoxdur.

*AYƏ 62:*

﴿وَيَوْمَ يُنَادِيهِمْ فَيَقُولُ أَيْنَ شُرَكَائِيَ الَّذِينَ كُنتُمْ تَزْعُمُونَ﴾

**“(Allah) onlara nida edən gün deyər: “Mənə qoşduğunuz şəriklər haradadır?!”**

*AYƏ 63:*

﴿قَالَ الَّذِينَ حَقَّ عَلَيْهِمُ الْقَوْلُ رَبَّنَا هَؤُلَاء الَّذِينَ أَغْوَيْنَا أَغْوَيْنَاهُمْ كَمَا غَوَيْنَا تَبَرَّأْنَا إِلَيْكَ مَا كَانُوا إِيَّانَا يَعْبُدُونَ﴾

**“Əzab hökmü alanlar deyər: “Pərvərdigara! Bunlar bizim doğru yoldan azdırdıqlarımızdır. Özümüz azdığımız kimi onları da azdırdıq. (İndi isə) onlardan üz döndərib sənə üz tuturuq. (Bunlar əslində) bizə pərəstiş etmirdilər (sadəcə nəfs istəkləri ardınca gedirdilər.)”**

*AYƏ 64:*

﴿وَقِيلَ ادْعُوا شُرَكَاءكُمْ فَدَعَوْهُمْ فَلَمْ يَسْتَجِيبُوا لَهُمْ وَرَأَوُا الْعَذَابَ لَوْ أَنَّهُمْ كَانُوا يَهْتَدُونَ﴾

**“(Həmin vaxt müşriklərə) deyilər: “Allaha şərik bildiyiniz məbudları çağırın. Onları çağırarlar, amma cavab almazlar. (Bu vaxt) İlahi əzaba düçar olarlar. (Arzu edərlər ki,) kaş, hidayət olaydıq.”**

**Nöqtələr**

Qiyamətin qopması ilə təəccüblü və çeşidli hadisələr baş verər. Ayədə onlardan bəzilərinə işarə olunur. Bu səhnələrdən birində müşriklərə məzəmmət dolu suallar yağar. Digər səhnədə yalançı məbudlar onlara pərəstiş edənlərdən üz döndərər. Üçüncü səhnədə yolunu azanlar şeytanı qınayar, şeytan isə onların cavabında deyər: “Məni məzəmmət etməyin, özünüzü qınayın.[1] Qiyamətdə günahkar öz günahını başqasının boynuna atar. Qarşı tərəf isə onun özünü ittiham edər.[2]

Bəzi məbudların, o cümlədən həzrət İsa (ə), ilahi mələklərin heç bir təqsiri yoxdur. Amma şeytansifətlər, zalım hakimlər, dini həqiqi yolundan çıxaran alimlər təqsirkardırlar və qəti şəkildə cəzalandırılacaqlar.

**Bildirişlər**

1. Qiyamət səhnələrini unutmayaq.
2. Qiyamət mühakiməsi göz qabağında, aşkardır.
3. Elə iş görməyək ki, Qiyamətdə onun cavabını verməkdə aciz qalaq.
4. Şirk, Allahdan qeyri istənilən bir şeyə güvənmək xülya və ilğımdır.
5. Dünyada əziz sayılan məbudlar axirətin zəlilləri, məhkum olunmuşlarıdır.

---

[1] “İbrahim”, 22.

[2] “Saffat”, 30.

6. İnsanları Allahdan yayındırıb özünə doğru çağıran istənilən bir kəs hökmən əzaba düçar olar.

7. Allahdan qeyrisinə pərəstiş batildir.

8. Aldanmışlar başqalarını da aldatmağa çalışarlar.

9. İnsanlar yol seçimində azad buraxılmışlar. Onların azğın yol seçmələri də mümkündür.

10. Qeyri-ilahi məbudlar bir gün öz pərəstişkarlarına lənət yağdırarlar.

11. Şirkin mahiyyəti azğın nəfs istəklərinə pərəstişdən ibarətdir.

12. Yalançı məbudlar ehtiyaclı olduğunuz gün nalələrinizə cavab verməyəcəklər. (Dünyada Allahdan qeyrisinə bağlanmaq Qiyamətdə ehtiyac duyulan yardımdan məhrum qalmaqdır.)

13. Qiyamət peşmançılıq, həsrət günüdür.

*AYƏ 65:*

﴿وَيَوْمَ يُنَادِيهِمْ فَيَقُولُ مَاذَا أَجَبْتُمُ الْمُرْسَلِينَ﴾

**“(Yada salın) o gün ki, (Allah) onlara nida edər, deyər: “Peyğəmbərə (və Mənim mələklərimə) nə cavab verdiniz?”**

*AYƏ 66:*

﴿فَعَمِيَتْ عَلَيْهِمُ الْأَنبَاء يَوْمَئِذٍ فَهُمْ لَا يَتَسَاءلُونَ﴾

**“Həmin gün bütün xəbərlər (və başqalarından alına biləcək cavablar) onlara gizli qalar. Onlar bir-birlərindən heç bir sual soruşmazlar.”**

*AYƏ 67:*

﴿فَأَمَّا مَن تَابَ وَآمَنَ وَعَمِلَ صَالِحًا فَعَسَى أَن يَكُونَ مِنَ الْمُفْلِحِينَ﴾

**“Amma tövbə edib iman gətirən və saleh işlər görən kəs ümid var ki, nicat tapanlardan olsun.”**

**Nöqtələr**

Əgər ötən ayədə tövhid haqqında soruşulurdusa, bu ayələrdə nübuvvət məsələsinə işarə olunur.

**Bildirişlər**

1. Peyğəmbərlərin dəvəti qarşısında hamımız məsuluq.

2. Qiyamətdə məlumat yolları bağlanır və hamı çarəsiz vəziyyətdə qalır.

3. Qiyamətdə insanlar ədalət mühakiməsində cavab vermək üçün kiminləsə məsləhətləşə bilmirlər.

4. İslamda çıxılmaz vəziyyət yoxdur. Qayıdış və tövbə yolu hamı üçün açıqdır.

5. Təkcə qəlbdə peşman olmaq tövbə sayılmır, gerçək iman və saleh əməl də zəruridir.

6. Kimsəyə bütün şərtləri ödəməklə tövbə etmək zəmanəti verilməmişdir. İnsan hər an qorxu və ümid arasında olmalıdır. (“Əsa” sözü ümid mənasını bildirir. Yəni tövbə, iman və saleh əməl vasitəsi ilə qurtuluşa ümid etmək olar.)

*AYƏ 68:*

﴿وَرَبُّكَ يَخْلُقُ مَا يَشَاءُ وَيَخْتَارُ مَا كَانَ لَهُمُ الْخِيَرَةُ سُبْحَانَ اللَّهِ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

**“Rəbbin istədiyini yaradır, seçir. Onların (Allah qarşısında) seçim hüququ yoxdur. Allah pak-pakizədir, Ona şərik qoşanlardan üstündür.”**

*AYƏ 69:*

﴿وَرَبُّكَ يَعْلَمُ مَا تُكِنُّ صُدُورُهُمْ وَمَا يُعْلِنُونَ﴾

**“Rəbbin onların öz qəlblərində gizli saxladıqlarını və aşkarladıqlarını bilir.”**

*AYƏ 70:*

﴿وَهُوَ اللَّهُ لَا إِلَهَ إِلَّا هُوَ لَهُ الْحَمْدُ فِي الْأُولَى وَالْآخِرَةِ وَلَهُ الْحُكْمُ وَإِلَيْهِ تُرْجَعُونَ﴾

**“O Allahdır, Ondan başqa məbud yoxdur. Sitayiş dünya və axirətdə Ona məxsusdur. Hakimiyyət təkcə Onundur və Ona doğru qaytarılarsınız.”**

**Bildirişlər**

1. Mütləq qüdrət Allaha məxsusdur.
2. Varlığın yaranışı (təkvin) və həyat qanunları (təşri) Allahın əlindədir.
3. Səmavi rəhbər seçimi insanların yox, Allahın əlindədir.
4. Yalnız varlıq aləmini yaradan kəs qanun tənzimləmək haqqına malikdir.
5. Allah qanunları müqabilində bəşər qanunlarını qəbul edən insan əslində Allaha şərik qəbul etmişdir.
6. Ondan savay məbud yoxdur və sitayişlər Ona məxsusdur.
7. Yaratmaq və seçim Allahın işi olsa da, O batil, mənasız iş görmür.

*AYƏ 71:*

﴿قُلْ أَرَأَيْتُمْ إِن جَعَلَ اللَّهُ عَلَيْكُمُ اللَّيْلَ سَرْمَدًا إِلَى يَوْمِ الْقِيَامَةِ مَنْ إِلَهٌ غَيْرُ اللَّهِ يَأْتِيكُم بِضِيَاء أَفَلَا تَسْمَعُونَ﴾

**“De ki, düşünürsünüzmü, əgər Allah gecəni Qiyamət gününədək davam etdirərsə, Allahdan savay hansı məbud sizə işıq gətirər? Yoxsa eşitmirsiniz?”**

**Nöqtələr**

“Sərməd” sözü daim, həmişəlik mənasını bildirir.

Ayənin məzmununa, yəni söhbətin gecədən getməsinə münasib olaraq “yoxsa eşitmirsiniz” soruşulur. Çünki gecələr insanın gözləri görmür, amma qulaqları eşidir. Amma növbəti ayədə söhbət gündüzdən getdiyi üçün “yoxsa görmürsünüz” soruşulur.

Nemətlərin puça çıxması və ya dəyişməsi ilə bağlı düşüncə Allahı tanımaq yollarındandır. Şübhəsiz, gecə və gündüzün yerdəyişməsi Allahın böyük nemətlərindən və nişanələrindəndir.

**Bildirişlər**

1. Həqiqəti müxaliflərə sübut etmək qaydasını Allahdan öyrənək.
2. Ən üstün Allahşünaslıq nişanəsi hamının, hər yerdə və hər zaman əli çatan nişanədir.
3. Quran üslublarından biri insanı silkələyən sualların ünvanlanmasıdır.
4. Yerin hərəkəti, gecə-gündüzün yaranması Allahın iradəsindən asılıdır.
5. Təbiət ən gözəl tablo, ilahi mərifət kitabıdır.
6. Əqidə məsələlərində təqlid etmək olmaz.
7. Təbliğdə qarşı tərəfin vicdanından kömək alaq.

***AYƏ 72:***

﴿قُلْ أَرَأَيْتُمْ إِن جَعَلَ اللَّهُ عَلَيْكُمُ النَّهَارَ سَرْمَدًا إِلَى يَوْمِ الْقِيَامَةِ مَنْ إِلَهٌ غَيْرُ اللَّهِ يَأْتِيكُم بِلَيْلٍ تَسْكُنُونَ فِيهِ أَفَلَا تُبْصِرُونَ﴾

**“De ki, deyin görüm, əgər Allah gündüzü Qiyamət gününədək davam etdirsə Ondan savay hansı məbud sizin üçün gecə gətirər və aramlıq taparsınız? Yoxsa baxmırsınız?”**

**Bildirişlər**

1. Varlıq aləminə hakim nizam Allah tərəfindəndir və əgər Allah istəsə onu başqa nizamla əvəz edər.
2. Allahın qüdrəti bütün hadisələrə eyni dərəcədə hakimdir.
3. Gecə istirahət üçündür və insan istirahətə möhtacdır.
4. Bəsirətsiz insanlar məzəmmətə layiqdirlər.
5. Şirk bəsirətsizliyi göstərir.

***AYƏ 73:***

﴿وَمِن رَّحْمَتِهِ جَعَلَ لَكُمُ اللَّيْلَ وَالنَّهَارَ لِتَسْكُنُوا فِيهِ وَلِتَبْتَغُوا مِن فَضْلِهِ وَلَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“Allah mərhəmət göstərib sizin üçün gecə-gündüzü müəyyənləşdirdi ki, onda aramlıq tapasınız. Onun fəzlindən (öz ruzinizi) axtarasınız. Bəlkə şükür edəsiniz.”**

**Nöqtələr**

Quran ayələrində həmişə gecə gündüzdən öncə zikr olunur. Yerin zatən qaranlıq olması bunun səbəbi ola bilər. Nur isə günəşdən şöləl追nib yerə nazil olur.

**Bildirişlər**

1. Yaranış və nemətlərin ətası Allahın ehtiyacı və ya bizim tələbimiz deyil. Bütün bunlar Allahın bəxşişidir, Onun rəhman olmasından qaynaqlanır.

2. Gecə istirahəti sabahkı təlaşlar üçün müqəddimədir.

3. Allah bağışlayandır, amma insan çalışmalıdır.

4. Gecə istirahət, gündüz isə iş üçündür.

5. Zirəklikdən danışmayaq, əldə etdiklərimiz Allahın fəzlidir.

6. Maddi nemətlər şükür və mənəvi mərtəbələrin əldə edilməsində müqəddimə olmalıdır.

7. İlahi təkamül, Allah dərgahına yaxınlıq və şükür üçün vasitə olan dünya məzəmmət olunmur.

*AYƏ 74:*

﴿وَيَوْمَ يُنَادِيهِمْ فَيَقُولُ أَيْنَ شُرَكَائِيَ الَّذِينَ كُنتُمْ تَزْعُمُونَ﴾

**"(Xatırlayın) o gün ki, (Allah) onlara nida edib deyər: "Mənə şərik saydıqlarınız haradadır?!"**

**Nöqtələr**

Bu ayə hazırkı surənin 62-ci ayəsini xatırladır.

**Bildirişlər**

1. Müşriklərin Qiyamətdə hüzur səhnəsi yada salınası bir səhnədir.

2. Allaha şərik qoşanlar cavab verməyə hazırlaşsınlar! (İnsan öz düşüncəsinə və meyllərinə görə məsuliyyət daşıyır.)

3. Qiyamət günü məbudların puça çıxacağı və müşriklərin çarəsiz qalacağı bir gündür.

4. Bütün məbudlar təsirsizliyinə və bütün müşriklər cavab tapmayacağına görə eynidir.

5. Qiyamət məhkəməsinin qazisi Allahın müqəddəs zatıdır.

6. Qiyamətdə Allahdan başqa kimsənin qüdrəti yoxdur.

7. Allahın şəriki yoxdur. Ona şərik qoşulanlar xülya və ilğımdan başqa bir şey deyil.

*AYƏ 75:*

﴿وَنَزَعْنَا مِن كُلِّ أُمَّةٍ شَهِيدًا فَقُلْنَا هَاتُوا بُرْهَانَكُمْ فَعَلِمُوا أَنَّ الْحَقَّ لِلَّهِ وَضَلَّ عَنْهُم مَّا كَانُوا يَفْتَرُونَ﴾

**“(Həmin gün) hər ümmətdən şahid ayırıb (müşriklərə) deyərik: “Dəlilinizi gətirin!” Anlayarlar ki, haqq yalnız Allaha məxsusdur və uydurduqları yalanlar əllərindən çıxıb məhv olmuşdur.”**

**Nöqtələr**

Qiyamətin çoxsaylı dayanacaqları var. Bir dayanacaqda insanın dodaqlarına möhür vurular və bədən üzvləri şəhadət verər.[1] Digər dayanacaqlarda isə insan danışa bilər.[2] Dayanacaqlardan birində insanla danışmaqdan imtina olunar.[3] Digər bir dayanacaqda Allah ona xitab edər.[4]

Bəziləri bu ayə əsasında ehtimal edirlər ki, Allah hər bir müşrik qrupdan ləyaqətli bir fərdi şahid olaraq ayıracaq və ondan soruşacaq: “Sizin şirkinizin səbəbi nə idi?” Amma İmam Baqirdən (ə) nəql olunmuş bir rəvayətə əsasən, hər bir dövrdə insanların əməllərindən xəbərdar məsum şəxs (peyğəmbər və ya peyğəmbər canişini) var. Bu şəxs Qiyamətdə xalqın əməllərinə şahid kimi dindirilər.

**Bildirişlər**

1. Qiyamətdə xalqın özündən olan şahidlər dindirilər.
2. Qiyamət gününün mühakiməsi hamının gözü qarşısında aparılar.
3. Öz əqidə və düşüncələrimizi möhkəm dəlillər əsasında tənzimləyək. Şirk üçün axirətdə heç bir dəlil, bəhanə və alıcı yoxdur.
4. Müşriklərin məntiq və dəlili yoxdur.
5. Yalnız dünyada həqiqəti pərdələmək olar. Axirətdə pərdələr çəkilir və həqiqət zahir olur.
6. Günahkarlar Qiyamətdə öz əməllərini inkar etmək fikrində olsalar da yetərli şahidlər onları öz yerlərində oturdar.
7. Batil aradan gedəsidir.

***AYƏ 76:***

﴿إِنَّ قَارُونَ كَانَ مِن قَوْمِ مُوسَى فَبَغَى عَلَيْهِمْ وَآتَيْنَاهُ مِنَ الْكُنُوزِ مَا إِنَّ مَفَاتِحَهُ لَتَنُوءُ
بِالْعُصْبَةِ أُولِي الْقُوَّةِ إِذْ قَالَ لَهُ قَوْمُهُ لَا تَفْرَحْ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْفَرِحِينَ﴾

**“Həqiqətən, Qarun Musa qövmündən idi və onlara zülm edirdi. Biz ona o qədər xəzinə vermişdik ki, bu xəzinənin açarlarını daşımaq böyük bir dəstəyə çətin olmuşdu. Bir gün qövmü ona dedi: “Qürrələnib şadlanma, şübhəsiz, Allah qürrələnib şadlananları sevməz.”**

**Nöqtələr**

“Məcməul-bəyan” təfsirində belə bir hədis nəql olunur: Qarun həzrət Musanın (ə) xalası oğlu idi. O öz biliyi ilə seçilir, Tövrat oxumaqda xüsusi məharət göstərirdi. Qarun öncə həzrət Musa (ə) münacat üçün Tur dağına gedərkən onu qoruyan 70 nəfərdən biri

---

[1] “Fussilət”, 20.
[2] “Saffat”, 24.
[3] “Bəqərə”, 174.
[4] Hazırkı ayə.

idi. Amma sonralar çoxlu var-dövlət əldə etdi və müxalifət bayrağı qaldırıb sonda Allahın qəzəbinə gəldi.

Həzrət Musa (ə) öz mübarizə dövründə üç fəsad mehvəri ilə savaşa qalxmışdı: Fironun başçılıq etdiyi zor mehvəri, Qarunun simasında özünü göstərən sərvət mehvəri, Samirinin rəhbərlik etdiyi fırıldaqçılıq mehvəri. Başqa sözlə, həzrət Musa (ə) zor, zər və hiylə kimi düşmənlərlə üzbəüz dayanmışdı.

**Bildirişlər**

1. Tarixi hadisələrin nəqli gələcək nəsillər üçün ibrət səbəbidir.
2. İnsanın müsbət keçmişi onun gələcəkdə yaxşı olacağına təminat vermir. Müsbət keçmiş bugünkü büdrəmələrə göz yummaq üçün əsas ola bilməz.
3. Peyğəmbərlə qohumluq təklikdə müvəffəqiyyət və qurtuluş amili deyil.
4. Qohumlarının azğınlığı mömin və saleh insanların məqamını əskiltməməlidir.
5. Hesabsız sərvət qüdrət vasitəsi, qüdrət isə təcavüzkarlıq və əyyaşlıq amilidir.
6. Sərvət bizi məğrur və məst etməsin.
7. Sərmayədarları pis əməllərdən çəkindirmək hətta məhrum təbəqəyə zəruridir.
8. Başını itirmiş, məst insanlar ilahi məhəbbətdən məhrumdurlar. (Bəli, var-dövlət sahibi olmaq Allaha yaxınlığı göstərmir.)

*AYƏ 77:*

﴿وَابْتَغِ فِيمَا آتَاكَ اللَّهُ الدَّارَ الْآخِرَةَ وَلَا تَنسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا وَأَحْسِن كَمَا أَحْسَنَ اللَّهُ إِلَيْكَ وَلَا تَبْغِ الْفَسَادَ فِي الْأَرْضِ إِنَّ اللَّهَ لَا يُحِبُّ الْمُفْسِدِينَ﴾

**“(Ey Qarun!) Allahın sənə verdiyindən axirət evi soraqla və (eyni zamanda) bu dünyadan faydalanmağı unutma. Allah sənə ehsan etdiyi kimi sən də ehsan et. Yer üzündə fəsad törətmək fikrində olma, Allah fəsad əhlini sevməz.”**

**Nöqtələr**

Həzrət Əli (ə) “dünyadan bəhrələnməyi unutma” cümləsi haqqında buyurur: “Yəni sağlamlıqdan, gücdən, fürsətdən, gənclikdən axirətin üçün istifadə et.”[1]

Bu ayədə bir neçə tərbiyəvi göstərişə işarə olunmuşdur: Dünyadan bəhrələnməklə yanaşı axirətə diqqət, Allahın insana lütfünü nəzərə almaqla başqalarına ehsan, Allahın fəsad əhlini sevməməsini nəzərə almaqla fəsaddan uzaqlıq.

**Bildirişlər**

1. Dünya axirət üçün əkinəcəkdir. (Qaruna deyildi ki, bu imkanlardan axirət evini hazırla.)
2. Varlıların sərvəti Allaha məxsusdur.
3. Axirət üçün ciddi çalışmaq lazımdır. Əlbəttə, dünyanı da unutmaq olmaz.
4. Var-dövlət axirət səadəti üçün vasitə ola bilər.
5. Varlılara moizə etmək bəyənilmiş işdir.
6. Hər kəs zəruri ehtiyacını ödədikdən sonra artıq qalanı axirətə sərf etsin.
7. Moizə edərkən təbii ehtiyacları da nəzərə alaq.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

8. Hesabsız sərvətin də bəhrəsi məhduddur. Bu dünyadan hər insanın müəyyən qisməti var.

9. Axirət başqalarına ehsanla istənilir.

10. Başqalarını ehsan etməyə çağırarkən onlara Allahın ehsanını xatırlatmaq səmərəlidir.

11. İmansız sərmayədarlardan fəsad gözlənilir.

***AYƏ 78:***

﴿قَالَ إِنَّمَا أُوتِيتُهُ عَلَى عِلْمٍ عِندِي أَوَلَمْ يَعْلَمْ أَنَّ اللَّهَ قَدْ أَهْلَكَ مِن قَبْلِهِ مِنَ الْقُرُونِ مَنْ هُوَ أَشَدُّ مِنْهُ قُوَّةً وَأَكْثَرُ جَمْعًا وَلَا يُسْأَلُ عَن ذُنُوبِهِمُ الْمُجْرِمُونَ﴾

**“(Qarun cavab olaraq) dedi: “Həqiqətən, bu (var-dövlət) biliyimə görə mənə verilib.” O bilmirdimi ki, Allah ondan öncə nəsillər arasında ondan daha güclü və varlı olanları həlak edib və (həmin vaxt) günahkarların günahları haqqında da soruşulmaz?!”**

**Nöqtələr**

**Sual:** Axı Quranda oxuyuruq ki, Qiyamətdə hamı, hər şey, hər halda, hər yerdə, sorğuya çəkilər.[1] Bəs nə üçün bu ayədə günahkarların sorğuya çəkilməyəcəyi bəyan olunur?

**Cavab:** Hər kəsin və hər şeyin sorğuya çəkiləcəyini bildirən ayələr Qiyamətə aiddir. Amma bu ayənin sonunda Qiyamətdən yox, ilahi əzabın dünyada nazil olduğu andan danışılır. Həmin an sual-cavab üçün fürsət qalmaz.

**Bildirişlər**

1. İnsanın öz elmi ilə öyünməsi bəzən onu o qədər məst edir ki, artıq heç kimin və heç nəyin rolunu qəbul etmir.

2. Öz elmi ilə öyünmək Qarun əxlaqındandır.

3. Sərvət və qüdrəti elm və təlaşımızın məhsulu yox, ilahi ehsan bilək. (İnsanlar Qaruna dedilər ki, sənə sərvət verən Allahdır. Qarun isə etiraz etdi ki, elmim əsasında sərvət əldə etmişəm.)

4. Tarixlə tanışlıq ən üstün ibrət dərsidir.

5. Azğınları tar-mar etmək ilahi sünnələrdəndir. (İnsanın qüdrət və sərvəti ilahi qəzəbin qarşısını almır.)

6. Qüdrət və sərvət insanı xoşbəxt etmir.

7. Nə qədər güclü və varlı olsan da, səndən güclüsü və varlısı vardır.

8. Xəbərdarlıq: İlahi qəzəb yetişən məqamda sual-cavab, səbəb soruşmaq üçün fürsət qalmır.

[1] Əraf”, 6; “Nəhl”, 93; “Bəqərə”, 284; “Loğman”, 16.

*AYƏ 79:*

﴿فَخَرَجَ عَلَى قَوْمِهِ فِي زِينَتِهِ قَالَ الَّذِينَ يُرِيدُونَ الْحَيَاةَ الدُّنيَا يَا لَيْتَ لَنَا مِثْلَ مَا أُوتِيَ قَارُونُ إِنَّهُ لَذُو حَظٍّ عَظِيمٍ﴾

**“(Bir gün Qarun) bütün zinətləri ilə bəzənib qövmünün qarşısına çıxdı. (Bu səhnəni görüb) dünya həyatı istəyində olanlar dedilər: “Kaş Qaruna veriləndən bizə də veriləydi. Şübhəsiz, o çox böyük kama çatıb.”**

**Bildirişlər**

1. Qüdrət və var-dövlət qafil insanların əlində lovğalıq, özünü nümayiş və dəbdəbə səbəbidir.
2. Var-dövləti gözə soxmaq Qarun sifətidir.
3. Qarunsifətlər özlərini başqalarından üstün sayırlar.
4. Hakimlərin kübarlığı xalqın əqidəsini dəyişə bilər.
5. Dünyanın zahiri gözəlliyi dar düşüncəli insanlar üçün bir tələdir.
6. Qarun olmaq arzusu düşüncəsiz dünyapərəstlərin arzusudur.

*AYƏ 80:*

﴿وَقَالَ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَيْلَكُمْ ثَوَابُ اللَّهِ خَيْرٌ لِّمَنْ آمَنَ وَعَمِلَ صَالِحًا وَلَا يُلَقَّاهَا إِلَّا الصَّابِرُونَ﴾

**“(Amma) elm və agahlıq verilənlər dedilər: “Vay olsun sizə! İman gətirib saleh işlər görənlər üçün Allahın mükafatı (var-dövlətdən) daha üstündür. (Əlbəttə) yalnız səbirlilər onu əldə edəcəklər.”**

**Nöqtələr**

Qarun özünü alim bilir, mal-mülkünü elm vasitəsi ilə əldə etdiyini düşünürdü. Amma Allah ayədə buyurur ki, həqiqi elm sərvət toplamaqla bir araya sığmır.

**Bildirişlər**

1. Dünyaya əsir olanlar məzəmmətə layiqdirlər.
2. Dünyaya əsir olanlarla baş-başa gəldikləri üçün Allah Bəni-İsrail övladlarını mədh edir.
3. Həqiqi elm insanı axirətə, təqvaya və saleh əmələ sövq edir.
4. Həqiqi alim dünyapərəstləri alçaldır və dünya bər-bəzəyi onu cəzb etmir.
5. Alimlər xalqı dünya məhəbbətindən çəkindirməlidirlər.

6. İnsana bir şeyi qadağan etdikdə imkan həddində ona başqa bir şey təklif etmək lazımdır.

7. İman və saleh əməl davamlı olduqda insanı xoşbəxt edir.

***AYƏ 81:***

﴿فَخَسَفْنَا بِهِ وَبِدَارِهِ الْأَرْضَ فَمَا كَانَ لَهُ مِن فِئَةٍ يَنصُرُونَهُ مِن دُونِ اللَّهِ وَمَا كَانَ مِنَ الْمُنتَصِرِينَ﴾

**“Biz onu və onun evini yerə batırdıq və Allahın qəzəbi qarşısında ona yardım göstərəcək bir dəstə tapılmadı. Özü də özünü müdafiə edə bilmədi.”**

**Nöqtələr**

İnsan iki xətlə hərəkət edə bilər: meraca aparan yüksəliş xətti və yerə batıran tənəzzül xətti ilə.

**Bildirişlər**

1. Zülmün sonu həlak olmaqdır.
2. Yer bəzən Allahın qəzəb əmrini yerinə yetirir.
3. Sərvət toplamağın sonu xəsislik, qürur və həlak olmaqdır.
4. Sərvət qurtuluş vasitəsi deyildir.

***AYƏ 82:***

﴿وَأَصْبَحَ الَّذِينَ تَمَنَّوْا مَكَانَهُ بِالْأَمْسِ يَقُولُونَ وَيْكَأَنَّ اللَّهَ يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَوْلَا أَن مَّنَّ اللَّهُ عَلَيْنَا لَخَسَفَ بِنَا وَيْكَأَنَّهُ لَا يُفْلِحُ الْكَافِرُونَ﴾

**“Onun (Qarunun) dünənki vəziyyətini özü üçün arzulayanlar (onun həlak olduğunu görüb) deyirdilər: “Vay (olsun bizə!) Allah Öz bəndələrindən istədiyinin ruzisini artırar, istədiyinin ruzisini əskildər. Əgər Allah minnət qoymasaydı, bizi də yerin təkinə çəkərdi. Vay! Görünür kafirlər nicat tapmırlar.”**

**Bildirişlər**

1. Hər hansı məsələ ilə bağlı tələsik mühakimə yürütməyək. (Dünən Qaruna həsəd aparanlar bu gün onun imkanlarına malik olmadıqları üçün sevinirlər.)
2. Varlılar kimi qürrəli və qafil olmağı heç vaxt arzulamayaq.
3. Başqalarında olan var-dövləti arzulamaq əvəzinə Allahın verdikləri ilə kifayətlənək.
4. Bir çox arzular insanın xeyirinə deyildir.
5. Bəzən duanın qəbul olmaması, arzunun həyata keçməməsi Allahın ən böyük lütfü və minnəti olur.
6. Hadisələr fitrətlərin oyanmasına, baxışların dəyişməsinə, yanlış istəklərdən daşınmağa səbəb olur.
7. Allah tərəfindən və Allah üçün olduğu qəbul edilməyən sərvət insanı küfrə aparır.

*AYƏ 83:*

﴿تِلْكَ الدَّارُ الْآخِرَةُ نَجْعَلُهَا لِلَّذِينَ لَا يُرِيدُونَ عُلُوًّا فِي الْأَرْضِ وَلَا فَسَادًا وَالْعَاقِبَةُ لِلْمُتَّقِينَ﴾

**“Biz axirət evini (axirət səadətini) yer üzündə üstünlük soraqlamayan və fəsad törətməyənlər üçün qərar vermişik. (Xeyir) aqibət təqvalılarındır.”**

**Nöqtələr**

Bu ayə bir növ Qarun əhvalatının qətnaməsidir. Bəyan olunur ki, istənilən bir şəkildə var-dövlət toplamaq və üstünlük soraqlamaq insanı dünya və axirətdə bədbəxt edir. Rəvayətdə nəql olunur ki, Həzrət Əli (ə) bu ayəni tacirlər üçün oxuyarmış.[1] İslam cümhuriyyətinin banisi rəhmətlik İmam (r.ə.) da Qum elmi hövzəsində tədris etdiyi əxlaq dərslərinin sonunda həmin ayəni tələbələrin nəzərinə çatdırarmış.

Hədisdə oxuyuruq ki, ayaqqabısının bağına görə özünü başqasından üstün sayan kəs “yer üzündə üstünlük soraqlayanlardandır.” Çoxları ev tikərkən, minik alarkən, libas seçərkən, danışarkən, evlənərkən, övladına ad qoyarkən yenilik yaratmaqla xalqın diqqətini cəlb etmək istəyir. Rəvayətlərə əsasən, bu qəbil insanlar yer üzündə üstünlük soraqlayanlardandır və behiştdən məhrumdurlar.

**Bildirişlər**

1. Axirət evi yetərincə böyükdür.
2. İstənilən şəkildə üstünlük axtarmaq qadağandır.
3. Üstünlük istəyi fəsad qaynağıdır.
4. Başqalarından üstün görünmək və seçilmək istəməyənlər pəhrizkardır.

*AYƏ 84:*

﴿مَن جَاء بِالْحَسَنَةِ فَلَهُ خَيْرٌ مِّنْهَا وَمَن جَاء بِالسَّيِّئَةِ فَلَا يُجْزَى الَّذِينَ عَمِلُوا السَّيِّئَاتِ إِلَّا مَا كَانُوا يَعْمَلُونَ﴾

**“Yaxşı əməllə gələn üçün daha üstün mükafat olacaq. Pis əməllə gələnlər isə əməlləri qədər cəzalandırılacaqlar.”**

**Bildirişlər**

1. İstənilən şəxsin istənilən ölçüdə xeyir işi məqbuldur və bəyənilmişdir.
2. Yaxşı iş görməkdən də mühümü onu Qiyamətədək puça çıxarmamaqdır. (Çoxları öz yaxşı əməlini günah, minnət qoymaq, təkəbbür və ya başqalarını təhqir vasitəsi ilə məhv edir.)
3. İnsanlar həyat yolu seçməkdə azad buraxılıblar.
4. Hətta danışıqda öncə yaxşılıqlardan başlayaq.

[1] “Təfsire-Məcməül-bəyan”. “Təfsire-Ruhul-bəyan”.

5. İlahi lütf nizamında yaxşılıqların mükafatı həmin yaxşılıqlardan daha böyükdür. Xeyir məqsəd həyata keçməyib sadəcə fikir olaraq qalsa da belədir. Pis iş isə yalnız həyata keçdikdən sonra və öz ölçüsündə cəzalandırılır.

6. Başqalarının ən kiçik xeyir əməlini də unutmayaq. Pis əməl yalnız təkrarlandıqda cəzaya əl ataq.

7. Allah yaxşılıqlar müqabilində mükafatı Öz fəzli sayırsa, pis əməl sahiblərini cəzalandırarkən ədaləti əsasında rəftar edir.

*AYƏ 85:*

﴿إِنَّ الَّذِي فَرَضَ عَلَيْكَ الْقُرْآنَ لَرَادُّكَ إِلَى مَعَادٍ قُل رَّبِّي أَعْلَمُ مَن جَاء بِالْهُدَى وَمَنْ هُوَ فِي ضَلَالٍ مُّبِينٍ﴾

**“Quranı (ona əməl etməyi) sənə vacib edən kəs səni hökmən vəd yerinə qaytaracaq. De ki, Rəbbim kimin doğru yolda və kimin aşkar azğınlıqda olduğunu daha yaxşı bilir.”**

**Nöqtələr**

7-ci ayədə deyildi ki, övladını dəryaya atmağı Allah Musanın (ə) anasına ilham buyurdu. Ona bildirildi ki, narahat olmasın, övladı hifz olunacaq. Bu ayədə Allah İslam Peyğəmbərinə (s) vəd edir ki, onu doğulduğu yerə qaytaracaq. Bəli, Musanı (ə) anasına qaytaran qüdrət sahibi səni də (hicrətdən sonra) Məkkəyə qaytaracaq.

“Məad” sözünün hansı məna daşıdığı və onun hansı nümunələrinin olması ilə bağlı fərqli fikirlər var. Bəziləri bu sözün peyğəmbərin dünyaya gəldiyi Məkkəyə işarə olduğunu bildirir. Onların nəzərincə, bu ayə qeybi bir xəbərdir. Peyğəmbərin nəzərinə çatdırılır ki, bir gün Məkkə sənin əlinlə fəth olunacaq və oraya qayıdacaqsan. Bəziləri də bu sözün Peyğəmbərin (s) şəfaət məqamına işarə olduğunu bildirir. Başqa bir qrup uyğun sözü Qiyamət və behişt mənasında təfsir edir. Amma rəvayətlərdə bu ayədəki “məad” sözünün İslam Peyğəmbərinin (s) dünyaya qayıdışına (“ricət”) işarə olduğu bildirilir. Ayə və rəvayətlər əsasında belə bir qənaətə gəlirik ki, “məad” sözü “ricət” mənasında işlənmişdir. Yəni Allah Qiyamətdən öncə övliyalarından bir qismini dünyaya qaytaracaq.

**Bildirişlər**

1. Quranın açıqlanması kafirlərin itaətsizliyinə və peyğəmbərin hicrətinə səbəb oldu. Amma Quranı göndərən Allah peyğəmbəri ikinci dəfə öz vətəninə qaytarası idi.

2. Quranın tilavəti, təbliği və onun göstərişlərinə əməl etmək hamıdan öncə Peyğəmbərin (s) özünə vacib idi.

3. Quranın vacib sayılması onun əhəmiyyətini və uca məqamını göstərir.

4. Allah yolunda hicrət edən insan öz vətəninə izzətlə qayıdacaq. (Rəhmətlik İmam (r.ə.) uzun illər hicrətdən sonra izzətli dönüşü deyilənlərə nümunə ola bilər.)

5. Danışan məqamda öncə müsbət nöqtələri qeyd edək.

### *AYƏ 86:*

﴿وَمَا كُنتَ تَرْجُوا أَن يُلْقَى إِلَيْكَ الْكِتَابُ إِلَّا رَحْمَةً مِّن رَّبِّكَ فَلَا تَكُونَنَّ ظَهِيرًا لِّلْكَافِرِينَ﴾

**“Sənə Kitab veriləcəyinə ümid etmirdin. Bu, Rəbbin tərəfindən yalnız bir rəhmətdir. Beləsə, (ona şükür olaraq) heç vaxt kafirlərə arxa durma.”**

**Nöqtələr**

Bu ayələrdə həzrət Musa (ə) və həzrət Məhəmməd (s) arasındakı oxşarlıqlar nəzərə çarpır:

1. Həzrət Musa (ə) od əldə etmək ümidi ilə hərəkət etdi və nura yetişdi. İslam Peyğəmbəri (s) də ibadət məqsədi ilə Hira mağarasına üz tutdu və orada səmavi vəhylə tanış oldu.

2. 17-ci ayədə həzrət Musa (ə) izhar etdi ki, Pərvərdigara, mənə lütfünə görə heç vaxt günahkarlara yardımçı olmayacağam. Bu ayədə isə Allah İslam Peyğəmbərinə (s) buyurur ki, sənə verilən ilahi kitaba görə heç vaxt kafirlərə arxa durma.

**Bildirişlər**

1. Misilsiz ruhi paklıq və bəndəlik kamalına malik olan peyğəmbərlər də vəhy ümidində olmamışlar. Bəli, vəhy ilahi bir rəhmətdir.

2. Peyğəmbərlərin besəti və səmavi kitabların nazil olması Allahın rübubiyyət şənindəndir.

3. Kafirlərə arxa çevirmək və onlara yardımçı olmamaq o qədər mühümdür ki, bu rəftarlar vəhy müqabilində şükür sayılır.

4. Küfrə istənilən şəkildə himayədarlıq və günahkara arxa durmaq qadağandır.

### *AYƏ 87:*

﴿وَلَا يَصُدُّنَّكَ عَنْ آيَاتِ اللَّهِ بَعْدَ إِذْ أُنزِلَتْ إِلَيْكَ وَادْعُ إِلَى رَبِّكَ وَلَا تَكُونَنَّ مِنَ
الْمُشْرِكِينَ﴾

**“İlahi ayələr sənə nazil olduqdan sonra (ayıq ol, kafirlərin vəsvəsə və hədələri) səni (təbliğ və əməldən) çəkindirməsin. (Ardıcıl olaraq ətrafdakıları Rəbbinə doğru dəvət et və heç vaxt müşriklərdən olma.”**

**Nöqtələr**

Besətin (peyğəmbərin gəlişinin) mərhələləri var: Vəhyin qəbulu, kafirlərdən üz çevirmək, işdə sabitlik, başqalarının dəvəti, əqidə və əməldə ixlas (səmimiyyət).

Tövhidə diqqət, şirkə və küfrə arxa çevirmək o qədər mühümdür ki, Allah hazırkı ayələrdə bu barədə peyğəmbərə təkrar-təkrar xəbərdarlıq edir.

**Bildirişlər**

1. Vəhyin bəyanında səhlənkarlıq bir növ küfrü gücləndirməkdir.
2. Düşmənlərin hətta peyğəmbərə qarşı qurğuları var.
3. Səmavi rəhbərlərin də ilahi xatırlatmaya ehtiyacı var.
4. Risalət izzət və qətiyyətlə müşayiət olunmalıdır.
5. Elm və agahlıq insanın məsuliyyətini ağırlaşdırır.

6. Yalnız qətiyyətli və nüfuz altına düşməyən insanlar haqqa dəvətdə müvəffəq olurlar.

7. Dəvət xalisanə olmalı, dəvət edən insan yalnız Allahın razılığı üçün çalışmalıdır. Bəli, başqalarının münasibətinə görə haqqa dəvətdən çəkinən insan şirk cəbhəsinə qatılır.

8. İnsan özünə yox, Allaha doğru çağırmalıdır.

9. Şirkin aradan qaldırılması, küfrlə mübarizə peyğəmbər fəaliyyətlərinin sərlövhəsi, Allahın çox ciddi təkidlərindəndir.

***AYƏ 88:***

﴿وَلَا تَدْعُ مَعَ اللَّهِ إِلَهًا آخَرَ لَا إِلَهَ إِلَّا هُوَ كُلُّ شَيْءٍ هَالِكٌ إِلَّا وَجْهَهُ لَهُ الْحُكْمُ وَإِلَيْهِ تُرْجَعُونَ﴾

**“(Heç vaxt) məbud olaraq başqasını “Allah” deyə çağırma, Ondan başqa məbud yoxdur. İlahi vəchdən (rəngdən) başqa hər şey məhv olasıdır, hökm (yalnız) Onundur. Hər şey ona doğru qayıdasıdır.”**

**Nöqtələr**

Vəhhabi firqəsi bildirir ki, Allahdan qeyrisini çağıranlar müşrikdir. Onlar “Cin” surəsinin 18-ci ayəsini dəlil göstərirlər. Vəhhabilərin nəzərincə, Allah övliyalarını vasitə seçərək çağıranlar müşrikdirlər. Amma hazırkı ayə şərh verir ki, Allahdan qeyrisini məbud olaraq çağıranlar müşrik sayılır. Şübhəsiz ki, şiələr övliyaları məbud yox, Allah yanında hörmətli bəndə kimi çağırırlar. Söhbət peyğəmbərlər və ilahi övliyalar kimi hörmətli insanlardan gedir. Allah yanında hörmətli övliyaları bütpərəstlərin hörmətli saydığı bütlərdən fərqləndirmək lazımdır.

Bu ayədə şirkin aradan qaldırılması müxtəlif təbirlərlə zəruri sayılır: Başqasını məbud olaraq “Allah” deyə çağırmayın; Allahdan savay məbud yoxdur; Allahdan savay hər şey məhv olasıdır; hakimiyyət yalnız Ona məxsusdur; yalnız Ona doğru qaytarılarsınız.

Səudiyyə Ərəbistanı kralı hər il qurban bayramı günü müxtəlif məzhəb alimlərini qonaq çağırır. Qurban bayramlarından birində tanınmış Livan alimi seyyid Şərəfuddin Cəbəl Amili kralın qonağı olur. Seyid Şərəfüddin məclisə daxil olduğu vaxt dəri üzlüklü Quranı şaha təqdim edir. Şah Quranı alıb öpür. Seyyid deyir: “Siz müşrik oldunuz!” Şah narahat olur və izahat istəyir. Seyyid deyir: “Siz heyvan dərisini öpdünüz və heyvan dərisinə ehtiram şirkdir!” Şah deyir: ”Mən hər dərini öpmürəm. Ayaqqabım da dəridəndir. Amma mən heç vaxt onu öpməmişəm. Bu dərini ona görə öpdüm ki, onunla Quran üzlənib.” Əllamə deyir: “Mən də hər dəmiri öpmürəm. Yalnız peyğəmbər və məsum imamların qəbrini əhatəyə almış çərçivənin dəmirlərini öpürəm.”

Bəli, şirk odur ki, biz kimisə və ya nəyisə Allah qarşısında qaldırıb, onu müstəqil qüdrət sahibi bilək. Şiələr isə övliyaların qüdrətini ilahi qüdrətə bağlı sayır. Onlar müvəhhid insanları tanıtdırmaq üçün qəbirləri üzərində məqbərə tikirlər. Xalqın nəzərinə çatdırılır ki, burada dəfn olunan şəxs Allah yolunda şəhid olub, tövhidə qurban

gedib. Yəni məqbərə məscidlə bir səviyyəyə qaldırılan mərkəz yox, tövhid fəryadının ucaldığı yer sayılır.

İmam Rza (ə) buyurur: “Vəchullah” dedikdə Allahın peyğəmbəri və onun yer üzündəki höccətləri nəzərdə tutulur. İnsanlar onlar vasitəsi ilə Allaha və dinə yaxınlaşırlar.[1] “Nüdbə” duasında Həzrət Mehdini (ə) “vəchullah” sayan cümlələr bəyan olunmuşdur.

**Bildirişlər**

1. Həqiqi müvəhhid, təkallahçı insan bütün başqa məbudlardan, super güclərdən, şöhrətlərdən və şeytanlardan azaddır.
2. Həzrət İbrahim kimi rəftar edib ötəri şeylərə bağlanmayaq və onlara əsir olmayaq.[2]
3. Hakimiyyət Allaha məxsusdur.
4. Həqiqi məbudun bir neçə xüsusiyyəti olmalıdır: Ölməzlik, varlıq aləminə hakimlik, hər şeyin Ona doğru qayıdışı.
5. Ölüm yoxluq deyil, ilkə qayıdışdır.

**Dua**

Pərvərdigara! Bizə Quran tilavətinin, ayələri düşünməyin və onlardan öyüd götürməyin şirinliyini daddır!

Pərvərdigara! Qəlbimizi Quran nuru ilə işıqlandır, vücudumuzu nurani et!

Pərvərdigara! Rəftar və danışığımızı Qurandan, əziz Peyğəmbər (s) və onun məsum Əhli-beytinin həyat yolu və sünnəsindən qaynaqlandır! Amin, ya Rəbbəl-aləmin!

---

[1] “Tövhidi-Səduq”, s. 117.

[2] “Ənam”, 76.

# “ƏNKƏBUT” SURƏSİ

***(29-CU SURƏ, 69 AYƏ)***

***İyirmi, iyirmi birinci cüzlər***

## ***“ƏNKƏBUT” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 69 ayədən ibarətdir. Bu surədə də “Bəqərə”, “Fil”, “Nəml”, “Nəhl” surələrində olduğu kimi canlılardan danışıldığı üçün surəyə əlaqədar ad verilmişdir. Onun 41-ci ayəsində şirk binası hörümçək toru kimi davamsız tanıtdırıldığından surə “Ənkəbut” (“hörümçək”) adlandırılmışdır.

Surədə bir neçə mövzuya toxunulur: İman, insanın vəzifəsi, ilahi sınaq, bəzi peyğəmbərlərin tarixi, xoşagəlməz mücadilənin və Allahdan qeyrisinə güvənməyin qadağası.

﴿بسم الله الرحمن الرحيم﴾

**“Rəhman və rəhim Allahın adı ilə”**

***AYƏ 1, 2:***

﴿الم * أَحَسِبَ النَّاسُ أَن يُتْرَكُوا أَن يَقُولُوا آمَنَّا وَهُمْ لَا يُفْتَنُونَ﴾

**“Əlif, lam, mim; yoxsa insanlar güman edirlər ki, “iman gətirdik” deməklə azad buraxılacaq və sınağa çəkilməyəcəklər?!”**

***AYƏ 3:***

﴿وَلَقَدْ فَتَنَّا الَّذِينَ مِن قَبْلِهِمْ فَلَيَعْلَمَنَّ اللَّهُ الَّذِينَ صَدَقُوا وَلَيَعْلَمَنَّ الْكَاذِبِينَ﴾

**“Hansı ki, heç şübhəsiz, onlardan əvvəlkiləri sınağa çəkdik ki, Allah doğru danışanları və yalançıları müəyyənləşdirsin.”**

**Nöqtələr**

“Fətənə” dedikdə tərkibini saflaşdırmaq üçün qızılı əritmək mənası anlaşılır. Çətinliklər zamanı insanın gizli xüsusiyyətləri üzə çıxdığından uyğun hadisələr və sınaqlar “fətənə” adlandırılmışdır.

**Bildirişlər**

1. İman təkcə dildə təslimçiliklə sübuta yetmir, sınaqlardan da çıxmaq lazımdır. (İddia kafi deyil, əməlləri görüb mühakimə yürütmək lazımdır.)

***Dil ilə özünü öysə də insan,***
***Əməldə tanınır həqiqi iman.***

2. Sınaq tarix boyu davam etmiş ilahi sünnədir.
3. Hadisələri təsadüfi saymayaq, hər bir hadisə bizim üçün sınaqdır.
4. Tarix və keçmişdə baş vermiş hadisələrlə tanışlıq insanları qarşıdakı hadisələrə hazırlayır.
5. İlahi sınaqlarda məqsəd Allahın əzəli elminin gerçəkləşməsi, həqiqi möminlərin seçilməsi, daxili istedadların çiçəklənməsi və işə düşməsidir.

*AYƏ 4:*

﴿أَمْ حَسِبَ الَّذِينَ يَعْمَلُونَ السَّيِّئَاتِ أَن يَسْبِقُونَا سَاء مَا يَحْكُمُونَ﴾

**“Yoxsa pis iş görənlər Bizi qabaqlayacaqlarını (əzabımızdan yayınacaqlarını) güman edirlər? Necə də pis mühakimə yürüdürlər!”**

*AYƏ 5:*

﴿مَن كَانَ يَرْجُو لِقَاء اللَّهِ فَإِنَّ أَجَلَ اللَّهِ لَآتٍ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**“Allahla görüşə ümid edən kəs (bilir ki,) şübhəsiz, Allahın müəyyənləşdirdiyi əcəl yetişəsidir. Odur eşidən və bilən.”**

**Nöqtələr**

Həzrət Əli (ə) buyurur: “Ayədəki “liqaullah” təbiri Qiyamət gününə işarədir.”[1]

**Bildirişlər**

1. Günah və onun təkrarı insanın baxışlarına təsir göstərir, onu xülyapərəst edir.
2. Təxəyyülə aludəçiliyimizi ölüm və məad xatirəsi ilə müalicə edək. Möminlər sınaq meydanında olduqlarını unutmamalı, günahkarlar fürsətlərin başa çatacağını bilməlidirlər. Şübhəsiz, Allahın mərhəmət və qəzəbi onların sorağına gələsidir.
3. İman iddiasında olanlar ilahi sınaqdan, günahkarlar intiqamdan qurtula bilməzlər. (Həddi aşanlar elə düşünürlər ki, Allah onları yaxalaya bilməz.)
4. Batil düşüncə və gümanları məhkum etmək lazımdır.
5. Allah həm imanla bağlı iddialarımızı eşidir, həm də düşüncə və ruhiyyəmizdən xəbərdardır.

*AYƏ 6:*

﴿وَمَن جَاهَدَ فَإِنَّمَا يُجَاهِدُ لِنَفْسِهِ إِنَّ اللَّهَ لَغَنِيٌّ عَنِ الْعَالَمِينَ﴾

**“Çalışan özü üçün çalışır. Çünki Allah aləmlərə möhtac deyil.”**

**Nöqtələr**

Ayədə cihad deyərkən təkcə düşmənlərlə qılınc savaşı yox, istənilən bir təlaş nəzərdə tutulur. İnsanın özünütərbiyə yolunda təlaşları, başqa sözlə, nəfslə cihad, şeytan vəsvəsələri ilə mübarizə, xarici düşmənlə savaş bu qəbildəndir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “Tövhidi-Səduq”, s. 267.

**Bildirişlər**

1. Allah bizim təlaşlarımıza möhtac deyil.

> ***Allah yaratmadı fayda götürə,***
> ***Yaratdı insanı haqqa yetirə.***

2. İnsanları müsbət təlaşlara sövq etmək üçün onların daxili meyillərindən, eləcə də özünə məhəbbətindən istifadə edək. (İnsan fitrətən fayda sorağındadır.)

3. Allahın ehtiyacsızlığı həqiqi və qətidir. (İnsanın ehtiyacsız olduğunu bildirməsi isə özü bir ehtiyacdır.)

4. Allah həm insanlardan, həm mələklərdən, həm də digər mövcudlardan ehtiyacsızdır.

*AYƏ 7:*

﴿وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَنُكَفِّرَنَّ عَنْهُمْ سَيِّئَاتِهِمْ وَلَنَجْزِيَنَّهُمْ أَحْسَنَ الَّذِي كَانُوا يَعْمَلُونَ﴾

**"İman gətirib saleh işlər görənlərin büdrəmələrini hökmən örtərik. Şübhəsiz, onlara gördükləri işdən üstün mükafat verərik."**

**Nöqtələr**

Ötən ayədən və hazırkı ayədən göründüyü kimi imam və saleh əməl cihadın ən üstün nümunələrindəndir.

**Bildirişlər**

1. İnsan ilahi mükafat əldə etmək üçün iman və saleh əmələ ehtiyaclıdır.

2. Möminlər büdrəmə və günahdan sığortalanmayıblar.

3. İlahi mükafat təkcə keçmiş günahların bağışlanması yox, həm də ən üstün mükafatlar əldə olunmasıdır.

4. İnsan öz günahlarını yuduqdan sonra ona mükafat verilir.

*AYƏ 8:*

﴿وَوَصَّيْنَا الْإِنسَانَ بِوَالِدَيْهِ حُسْنًا وَإِن جَاهَدَاكَ لِتُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا إِلَيَّ مَرْجِعُكُمْ فَأُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**"İnsana tövsiyə etdik ki, ata-anasına yaxşılıq etsin. Əgər o iki nəfər bilmədiyin bir şeyi Mənə şərik qərar verməyə çalışsa onlara tabe olma. Son qayıdışınız Mənə doğrudur. Sizi gördüyünüz işlərdən (bu işlərin mahiyyətindən) agah edəcəyəm."**

**Bildirişlər**

1. Valideynə yaxşılıq təkcə dini yox, həm də insanlıq vəzifəsidir.
2. İnsan qeyd-şərtsiz valideynə ehsan və yaxşılıq etməlidir. (Valideyn kafir və müşrik olsa belə ona ehsan etmək övlada vacibdir.)
3. Azğın valideyn öz övladını da çaşdırmağa çalışır.
4. Başqalarının hörmətindən sui-istifadə etməyək. (Valideyn övladının hörmətindən istifadə edib onu şirkə dəvət etməməlidir.)
5. Övladların düzgün düşüncə seçiminə qüdrətləri olmalıdır.
6. Şirkin elmi dəlilləri yoxdur.
7. Tövhid və şirk məsələsində kimsə ilə sazişə getməyək.
8. Valideynə ehsan mütləq vacibdir. Amma valideynin şirkə çağırışına itaət olunmamalıdır.
9. Məada iman ilahi tövsiyələrin icrası üçün zəmanətdir.
10. Allah insanların bütün işlərindən agahdır.

***AYƏ 9:***

﴿وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَنُدْخِلَنَّهُمْ فِي الصَّالِحِينَ﴾

**"İman gətirib saleh işlər görənləri, şübhəsiz, salehlər cərgəsinə qatarıq."**

**Nöqtələr**

Ayədə möminlər deyərkən (ötən ayəni nəzərə alsaq) valideyn tərəfindən şirkə dəvət olunmuş övladlar nəzərdə tutulur. Onlar müqavimət göstərib imanlarını qorumaq üçün evdən çıxsalar Allah ata-anadan ayrılığın əvəzini Qiyamət günü verəsi, onları salehlər cərgəsinə qatasıdır.[1]

Əvvəlki iki ayədə bəyan olundu ki, iman və saleh əməlin əvəzi günahların örtülməsi və gözəl mükafatdır. Bu ayədə isə iman və saleh əməl sahiblərinin salehlər zümrəsinə qatılacağı bildirilir. Başqa bir ayədə həzrət İbrahim (ə) və həzrət Yusifin (ə) salehlər cərgəsinə qatılmaqla bağlı duaları bəyan olunur.[2]

**Bildirişlər**

1. İman əməldən ayrı deyil.
2. Təkcə xeyir əməl insanı salehlər cərgəsinə qatmır. Yalnız Allaha imandan qaynaqlanan xeyir əməl uyğun təsirə malikdir.

---

[1] "Təfsire-Əl-mizan".
[2] "Yusuf", 101; "Şuəra", 83.

*AYƏ 10:*

﴿وَمِنَ النَّاسِ مَن يَقُولُ آمَنَّا بِاللَّهِ فَإِذَا أُوذِيَ فِي اللَّهِ جَعَلَ فِتْنَةَ النَّاسِ كَعَذَابِ اللَّهِ وَلَئِن جَاء نَصْرٌ مِّن رَّبِّكَ لَيَقُولُنَّ إِنَّا كُنَّا مَعَكُمْ أَوَلَيْسَ اللَّهُ بِأَعْلَمَ بِمَا فِي صُدُورِ الْعَالَمِينَ﴾

**"İnsanlardan bəziləri deyir: "Allaha iman gətirdik." Elə ki, Allah yolunda əziyyət görürlər, xalq tərəfindən olan bu əziyyəti Allahın əziyyəti sayırlar. Amma Rəbbin tərəfindən kömək və qələbə yetişdikdə təkidlə deyirlər: "Biz sizinlə idik." Yoxsa Allah aləmdəkilərin qəlblərindən ötəni hamıdan yaxşı bilmir?!"**

**Nöqtələr**

"Aləmin" dedikdə zahirən bütün şüurlu varlıqlar, cinlər, mələklər və insanlar nəzərdə tutulur.[1]

Bu surənin 1-ci ayəsində oxuduq ki, sınağa çəkilmədən, təkcə iman gətirdiyinizi izhar etməklə sizi qəbul edəcəyimizi düşünməyin. Bu ayədə isə sınaq nümunələrindən biri bəyan olunur.

**Bildirişlər**

1. Bəziləri yalnız dildə imandan dəm vururlar, qəlblərində isə imandan əsər-əlamət yoxdur.
2. İnsan bəzən iman gətirdiyi üçün ətrafdakıların əzab-əziyyətinə məruz qalır. Bu halda dözmək lazımdır.
3. Mömin insan müqavimətli, münafiq isə dözümsüzdür.[2]
4. Həqiqi iman çətinliklər zamanı məlum olur. Həzrət Əli (ə) buyurur: "Eniş-yoxuşlarda, çeşidli durumlarda insanın içi aşkarlanır."[3]
5. Münafiq fürsət axtarır. Möminlər qalib gəldikdə o özünü möminlərə tərəf verir, üstünlük qazanmaq üçün səy göstərir.
6. Maska taxmağın və xəlvəti iş görməyin heç bir səmərəsi yoxdur. Allah hamının içindən xəbərdardır.

*AYƏ 11:*

﴿وَلَيَعْلَمَنَّ اللَّهُ الَّذِينَ آمَنُوا وَلَيَعْلَمَنَّ الْمُنَافِقِينَ﴾

**"Şübhəsiz, Allah iman gətirənləri də, münafiqləri də tanıyır."**

---

[1] "Təfsire-Əl-mizan".
[2] "İbrahim", 12.
[3] "Nəhcül-bəlağə", h. 217.

**Nöqtələr**

Əvvəlki ayədə qeyd olundu ki, münafiqlər israr göstərərək möminlərlə bir cəbhədə olduqlarını bildirirdilər. Bu ayədə isə Allah hamını tanıdığını nəzərə çatdırır.

Allah mömin və münafiqləri dərindən tanısa da, sınağa çəkməklə onları bir-birindən ayırır.[1]

**Bildirişlər**

1. Allahın hər şeydən xəbərdarlığına iman insanı nifaqdan çəkindirir.
2. Həqiqi və saxta möminləri yalnız Allah tanıyır.

***AYƏ 12:***

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا لِلَّذِينَ آمَنُوا اتَّبِعُوا سَبِيلَنَا وَلْنَحْمِلْ خَطَايَاكُمْ وَمَا هُم بِحَامِلِينَ مِنْ خَطَايَاهُم مِّن شَيْءٍ إِنَّهُمْ لَكَاذِبُونَ﴾

**"Kafir olanlar iman gətirənlərə dedilər: "Bizim yolumuzla gəlin, (əgər günaha batsanız) sizin günahlarınızı öhdəmizə götürərik. Halbuki onların günahlarından öhdələrinə götürən deyildirlər. Şübhəsiz, onlar yalan danışanlardır."**

**Nöqtələr**

Azğınlar başqalarını pis işə sövq etmək üçün "günahı bizim boynumuza" deyirlər. Halbuki kimsə bir başqasının günahını öz boynuna götürə bilməz.

Xalqın imanını əlindən almaq istəyən kafirlər[2] öz planlarını bir neçə mərhələdə həyata keçirirlər:

a) Onlar möminlərə əziyyət verməklə iman yolunda maneə yaradırlar.[3]

b) Müharibə alovu qalayırlar.[4]

v) Deyirlər ki, ardımızca gəlin, bu halda əziyyət çəkməzsiniz və bütün günahlarınızı öz öhdəmizə götürürük;

q) Yuxarıdakı hiylələr baş tutmadıqda sazişə girməyə cəhd göstərirlər.[5]

**Bildirişlər**

1. Düşmənlər sizdən əl çəkəsi deyil və öz hədəflərini təbliğ edirlər. (Müsəlmanlar kafirlər tərəfindən həm fiziki baxımdan sıxıntıya salınır, həm də ideoloji, təbliğati və psixoloji hücuma məruz qalırdılar.)
2. Küfrə qayıdış böyük günahdır. Kafirlər "bu günah bizim boynumuza" deyirdilər.

---

[1] "Təfsire-Əl-mizan".
[2] "Bəqərə", 109.
[3] "Həcc", 25; Əraf", 45.
[4] "Bəqərə", 217.
[5] "Qələm", 9.

3. İslam dünyagörüşünə əsasən, kimsə kimsənin yükünü çəkmir.[1] Amma bu məsələyə başqa ideologiyaların münasibəti fərqlidir. Məsələn, kilsə öz ardıcıllarının günahını öz öhdəsinə götürür.

4. Kafirlərin və şeytanın vədləri puç və əsassızdır. (Şeytan da insana küfr göstərişi verir. Amma insan küfrə yol verdikdən sonra onu tənha buraxır.)[2]

### *AYƏ 13:*

﴿وَلَيَحْمِلُنَّ أَثْقَالَهُمْ وَأَثْقَالًا مَّعَ أَثْقَالِهِمْ وَلَيُسْأَلُنَّ يَوْمَ الْقِيَامَةِ عَمَّا كَانُوا يَفْتَرُونَ﴾

**“Şübhəsiz, onlar həm öz yüklərini, həm də başqa yükləri öz yükləri ilə birlikdə çiyinlərinə alasıdırlar. Hökmən Qiyamət günü toxuduqları yalanlara görə sorğuya çəkiləcəklər.”**

**Nöqtələr**

**Sual:** Ötən ayədə hərənin öz günah yükünü çəkəcəyi bildirildi. Bu ayədə isə yoldan azdıran şəxslərin əlavə yüklənəcəyi bildirilir. Burada ziddiyyət yoxdurmu?

**Cavab:** Əvvəlki ayədə müsəlmanlara yalan vəd verən kafirin cavabı bəyan olundu. Bildirildi ki, hər kəs öz günahına cavabdehdir. Bu ayədə isə başqa məna nəzərdə tutulur: Yolunu azan insan gördüyü işin məsuliyyətini daşıyır. Azdıran şəxs isə həm öz günahına, həm də azdırdığı şəxsin günahına cavabdehdir. Onun cavabdehliyi azdırdığı şəxsin günah yükünü azaltmır.

“Dürrül-Mənsur” və “Nümunə” təfsirlərində çoxsaylı rəvayətlərdə bəyan olunur ki, bir şəxs başqaları üçün xeyir və ya şər yolu açsa, həmin yola üz tutanlarla yanaşı əvəz alar. Xeyir yol açanlar mükafatlandırılar, şər yol açanlar cəzalandırılar.

**Bildirişlər**

1. İnsanları doğru yoldan azdıranlar onlarla yanaşı cəzalandırılırlar.
2. Başqalarına günah yolu açmaq insanın kürəyinə ağır yük çatır.
3. Günah yükü ağırdır.
4. Yalan və iftira kafirlərin adətidir.

### *AYƏ 14:*

﴿وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ فَلَبِثَ فِيهِمْ أَلْفَ سَنَةٍ إِلَّا خَمْسِينَ عَامًا فَأَخَذَهُمُ الطُّوفَانُ وَهُمْ ظَالِمُونَ﴾

**“Həqiqətən, Nuhu qövmünə doğru göndərdik. Min ildən əlli il əskik onların arasında qaldı. (Amma çox az adam onun sözünü eşitdi.) Sitəmə uğradıqları halda tufan onları yaxaladı.”**

---

[1] “Ənam”, 164.

[2] “Həşr”, 16.

## *AYƏ 15:*

﴿فَأَنجَيْنَاهُ وَأَصْحَابَ السَّفِينَةِ وَجَعَلْنَاهَا آيَةً لِّلْعَالَمِينَ﴾

**"Onu və gəmidəkiləri xilas etdik. Bunu (bu macəranı) aləmlər üçün nişanə (ibrət) qərar verdik."**

**Nöqtələr**

Surənin əvvəlində oxuduq ki, Allah iman iddiasında olanları sınağa çəkir. Bu ayədən başlayaraq həzrət Nuh (ə), İbrahim (ə), Lut (ə), Şüeyb (ə), Hud (ə), Saleh (ə) və Musanın (ə) əhvalatları, ötən ümmətlərin sınaq nümunələri nəql olunur.

Yalnız həzrət Nuhun (ə) peyğəmbərlik dövrü Quranda bəyan olunmuşdur. 950-illik bu risalət tufana qədər davam etmişdir. Həzrət Nuhun (ə) tufandan sonra nə qədər yaşaması və nə qədər peyğəmbərlik etməsi qeyd olunmur.

**Bildirişlər**

1. Təbliğ zamanı yaxşı olar ki, öncə ümumi məlumat verilsin, sonra nümunələr bəyan olunsun.
2. Quran keçmiş qövmlərin tarixi ilə tanışlığa diqqət yetirir. (Öncəki peyğəmbərlərin tarixini bəyan etməklə əziz Peyğəmbərə (s) təsəlli verilir.)
3. Peyğəmbərlər xalq arasında olmuşlar. (Xalqdan üz döndərən peyğəmbər tənbeh olunur. Necə ki, həzrət Yunis (ə) xalqdan uzaqlaşdığı üçün dəniz nəhənginin (balina) qarnına düşdü.[1]
4. Quran insan ömrünün uzunluğunu bəyan etməklə bu işi mümkün sayır.
5. Əgər xalqda qəbul üçün istedad və hazırlıq olmasa min illik təbliğatın da səmərəsi yoxdur.
6. Tərbiyə və təbliğdə səbir və ardıcıllığa ehtiyac var. Ayə Nuhun (ə) möhkəmliyini və xalqın inadkarlığını qeyd edir.
7. Rəqəmləri dəqiq nəql edək.
8. Peyğəmbərlərin bildirişlərinə diqqətsizlik zülmdür. Zülm Allah qəzəbinin açarıdır.
9. Peyğəmbərlər və onların ardıcılları ilahi qəhr-qəzəbdən amandadırlar.
10. Nuhun (ə) ömrünün uzunluğu, gəminin hazırlanması və yer üzünün suya qərq olması Allah əmri əsasında baş tutdu.
11. Allahın yardımı insanı səy və təlaşdan çəkindirməməlidir. Həzrət Nuh (ə) və onun tərəfdarları böyük zəhmətlərlə gəmi hazırladılar.
12. Bəzi fərdlər və hadisələr zaman və məkanın fövqündədir. (Yəni bir möcüzədir.)

[1] "Saffat", 142.

*AYƏ 16:*

﴿وَإِبْرَاهِيمَ إِذْ قَالَ لِقَوْمِهِ اعْبُدُوا اللَّهَ وَاتَّقُوهُ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**“(Yada sal,) İbrahim bir zaman öz qövmünə dedi: “Allaha pərəstiş edin, Ondan qorxun. Əgər anlasanız, bu (iş) sizin üçün daha yaxşıdır.”**

**Nöqtələr**

Həzrət İbrahim (ə) Nuhdan sonra məbus olmuş ikinci “ülul-əzm” (böyük, şəriət sahibi olan) peyğəmbərdir.

**Bildirişlər**

1. Təbliğə öz yaxınlarımızdan başlayaq.
2. Tövhid və təqva peyğəmbər proqramlarının sərlövhəsidir.
3. Təqvasız ibadət səmərəsizdir.
4. Xeyirə çatmaq Allahpərəstlik və təqvadan asılıdır.
5. Tövhid və təqva əvəzinə büt və fəsad sorağınca gedənlər doğrudan da cahildir. (Təqvasız alim cahildirlər.)
6. Elm və tərəqqi ilə bəndəlik və təqva yolunu tapmaq olar.

*AYƏ 17:*

﴿إِنَّمَا تَعْبُدُونَ مِن دُونِ اللَّهِ أَوْثَانًا وَتَخْلُقُونَ إِفْكًا إِنَّ الَّذِينَ تَعْبُدُونَ مِن دُونِ اللَّهِ
لَا يَمْلِكُونَ لَكُمْ رِزْقًا فَابْتَغُوا عِندَ اللَّهِ الرِّزْقَ وَاعْبُدُوهُ وَاشْكُرُوا لَهُ إِلَيْهِ تُرْجَعُونَ﴾

**“Həqiqətən, siz Allah əvəzinə bütlərə pərəstiş edir, yalan toxuyursunuz. Həqiqətən, Allah əvəzinə pərəstiş etdikləriniz sizə ruzi verən deyildirlər. Ruzini Allahın yanında axtarın. Ona pərəstiş edin və şükrünü yerinə yetirin ki, Ona doğru qaytarılarsınız.”**

**Nöqtələr**

Ötən ayədə həzrət İbrahim (ə) insanları ibadət və itaətə dəvət etdi. Bu ayədə isə Allahdan qeyrisinə ibadət puç və səmərəsiz sayılır. Ayənin sonunda bir daha Allaha ibadət məsələsi üzərində dayanılır.

Şirk və bütpərəstliyin heç bir dəlili və məntiqi yoxdur. Çünki bütlər cansız cisimlərdir, bütpərəstlər tərəfindən düzəldilmiş və pərəstişkarlarına heç bir faydaları yoxdur.

Bu ayədə həzrət İbrahim (ə) müşriklərə üç dəfə müraciət edir. Bu nöqtə o həzrətin azğınlarla birbaşa ünsiyyətdə olduğunu göstərir.

**Bildirişlər**

1. Əyri yolu tutanlar öz işlərinə don geyindirirlər.
2. Allahdan qeyrisinə pərəstiş səbəblərindən biri də ruzi əldə etməkdir.

3. Allahdan qeyrilərində ruzi vermək gücü yoxdur. Onlar ruzi vermək istəsələr də bacarmazlar.

4. Doğru yola çağırış və təbliğdə bir baxışın batilliyini sübut etdikdən sonra doğru yolu göstərin.

5. Allahdan qeyrilərindən ümidlərini üzməyənlər Allaha üz tutmurlar.

6. Ruzi verən Allahdır, amma insan da çalışmalıdır.

7. Öncə maddi ehtiyacları ödəmək, sonra xalqı doğru yola çağırmaq lazımdır.

8. Ruzi mənbəyi Allahın yanındadır.

9. Yalnız qüdrət sahibi ibadətə layiqdir.

10. Qiyamət ilahi əmrlərin icrasına zəmanət verir.

*AYƏ 18:*

﴿وَإِن تُكَذِّبُوا فَقَدْ كَذَّبَ أُمَمٌ مِّن قَبْلِكُمْ وَمَا عَلَى الرَّسُولِ إِلَّا الْبَلَاغُ الْمُبِينُ﴾

**“Əgər (məni) təkzib etsəniz (təəcüblü olmaz). Çünki sizdən əvvəlki ümmətlər də (öz peyğəmbərlərini) təkzib etdilər. Peyğəmbərin işi yalnız aşkar təbliğdir.”**

*AYƏ 19:*

﴿أَوَلَمْ يَرَوْا كَيْفَ يُبْدِئُ اللَّهُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ إِنَّ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرٌ﴾

**“Allahın yaranışa necə başladığını və sonra onu geri qaytaracağını görmədinizmi? Əlbəttə, bu, Allah üçün asandır.”**

**Nöqtələr**

Hazırkı iki ayədə dinlər arasındakı üç müştərək prinsipə işarə olunmuşdur: Tövhid, nübuvvət (peyğəmbərlik), məad (ölümdən sonrakı həyat).

**Bildirişlər**

1. Bütün peyğəmbərlərin müxalifləri olmuşdur. Demək, düşmənlərin müxalifətindən qorxmamalıyıq.

2. Tarixi hadisələr arasında oxşarlıq var və onlar təkrarlana bilər.

3. Tarixlə tanışlıq insan üçün bir növ təsəllidir.

4. Müxaliflərin təkzibi təbliğə mane olmamalıdır.

5. Xalq əqidə seçimində azaddır və peyğəmbər onları məcbur edə bilməz.

***Mən haqqı söylədim, indi özün bil***
***Ya bir öyüd götür, ya şərə əyil.***

6. Haqqa çağırış və təbliğ aydın və gözəl olmalıdır.

7. Suallarla qafillərin fitrətini oyadaq.

8. İslam düşüncə dinidir və hamını düşünməyə çağırır.

9. Varlıq aləmi ilahi qüdrətin nümayiş səhnəsidir. Bu səhnədə həyat və ölüm bir-birini əvəz edir.

10. Varlıq aləmi davamsızdır. Sonda qayıdış Allaha doğrudur.

11. Yaranışa etiqad məada etiqada səbəb olur. Allah qüdrətindən xəbərsizlik məadın inkarı ilə nəticələnir.

12. Yaratmaq, öldürmək və yenidən diriltmək Allahın daimi işidir.

13. İlkin yaranış və Qiyamətdə təkrar oyanış Allah üçün asandır, Onun bir istəyi bəs edər.

*AYƏ 20:*

﴿قُلْ سِيرُوا فِي الْأَرْضِ فَانظُرُوا كَيْفَ بَدَأَ الْخَلْقَ ثُمَّ اللَّهُ يُنشِئُ النَّشْأَةَ الْآخِرَةَ إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“De ki, yer üzündə gəzin, Allahın yaranışa necə başladığını görün. Sonra Allah axirət həyatını yaradar. Həqiqətən, Allah hər işə qadirdir.”**

**Bildirişlər**

1. Dünya səyahəti, gəzinti, təbiət və tanışlıq məqsədli müşahidələr bir vəzifə və dəyərdir.

2. Təbiətin qoynunda gəzinti insanı düşüncəyə vadar edir.

3. Yaranış haqqında dəqiq mütaliə etməklə şəkk-şübhədən çıxıb Allahı daha yaxşı tanıya bilərik.

4. Məad üçün ən üstün dəlil Allahın ilk dəfə mövcudları yarada bilməsidir.

*AYƏ 21:*

﴿يُعَذِّبُ مَن يَشَاء وَيَرْحَمُ مَن يَشَاء وَإِلَيْهِ تُقْلَبُونَ﴾

**“(Allah) istədiyinə əzab verir, istədiyini Öz mərhəmətinə qovuşdurur. Ona doğru qaytarılarsınız.”**

*AYƏ 22:*

﴿وَمَا أَنتُم بِمُعْجِزِينَ فِي الْأَرْضِ وَلَا فِي السَّمَاء وَمَا لَكُم مِّن دُونِ اللَّهِ مِن وَلِيٍّ وَلَا نَصِيرٍ﴾

**“Nə yerdə, nə də göydə heç vaxt Allahı aciz qoya bilməzsiniz, sizin üçün Allahdan savay hami və yardımçı yoxdur.”**

**Nöqtələr**

Öncə mərhəmətdən, sonra əzabdan danışmaq Quranın tərbiyə üsullarındandır. Amma bu ayədə kafirlərin təkzibindən danışıldığı üçün öncə əzab, sonra rəhmət yada salınır.

Qurani-kərimdə harada Allahın istək və iradəsindən danışılırsa hikmət və ədalətə əsaslanılır. Çünki Allahın iradəsi hikmətdən uzaq deyil.

"Məcməul-bəyan" təfsirində oxuyuruq: "Vəliyy" dedikdə əl açmamış kömək edən, "nəsir" dedikdə əl açdıqda kömək edən şəxs nəzərdə tutulur. Kafirlər hər iki sifətdən məhrumdurlar.

**Bildirişlər**

1. Din düşmənləri heç bir tədbir və təlaşla Allahın iradəsinə qalib gəlib Onun qəzəbindən qurtula bilməzlər.

2. Şirki aradan qaldırmaq üçün müəyyən təsəvvürləri rədd etmək lazımdır. Kafirlər və din düşmənlərinə deyilir ki, nə özünüz bir iş görə bilərsiniz, nə də başqalarının əlindən bir iş gələr.

*AYƏ 23:*

﴿وَالَّذِينَ كَفَرُوا بِآيَاتِ اللَّهِ وَلِقَائِهِ أُوْلَئِكَ يَئِسُوا مِن رَّحْمَتِي وَأُوْلَئِكَ لَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**"Allahın ayələrini və Onunla görüşü inkar edənlər Mənim rəhmətimdən məyusdurlar. Onlar üçün ağrılı əzab var."**

**Bildirişlər**

1. Yalnız kafirlər Allahın geniş rəhmətindən ümidsizdirlər.[1]

*AYƏ 24:*

﴿فَمَا كَانَ جَوَابَ قَوْمِهِ إِلَّا أَن قَالُوا اقْتُلُوهُ أَوْ حَرِّقُوهُ فَأَنجَاهُ اللَّهُ مِنَ النَّارِ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ﴾

**"(İbrahimin) qövmünün cavabı yalnız bu oldu: "Onu öldürün, ya da yandırın." Amma Allah onu oddan qorudu. Həqiqətən, bu işdə iman gətirənlər üçün nişanələr var."**

**Nöqtələr**

Kafirlər və nəmrudçular İbrahimin (ə) haqq ayini ilə mübarizə üçün onu öldürmək qərarına gəldilər. Bu məqsədlə böyük bir tonqal qalayıb həzrət İbrahimi mancanaqla əzəmətli alovun qoynuna atdılar. Amma Allah odu gülüstana çevirib həzrət İbrahimə (ə) nicat verdi.

[1] "Yusuf", 87.

**Bildirişlər**

1. Kafirlərin məntiqi yoxdur. Onların məntiqi edam və işgəncədir.

2. Kafirlərin üslubu ayrı olsa da məqsədləri eynidir.

3. Peyğəmbərlər Allahın himayəsindədirlər.

4. Allahın iradəsi bütün iradələrə, vasitələrə, səbəblərə və dünya qanunlarına qalibdir.

5. Bir möminin kafir qövmə qələbəsi, kafirlərin ən iti qurğularının puça çıxması, odun gülüstana çevrilməsi Allahın ayələrindəndir.

6. Tarixdən ibrət götürmək üçün sağlam fitrət və pak ruha ehtiyac var. Bəli, iman insanın bəsirətinə və baxışına təsir göstərir.

***AYƏ 25:***

﴿وَقَالَ إِنَّمَا اتَّخَذْتُم مِّن دُونِ اللَّهِ أَوْثَانًا مَّوَدَّةَ بَيْنِكُمْ فِي الْحَيَاةِ الدُّنْيَا ثُمَّ يَوْمَ الْقِيَامَةِ يَكْفُرُ بَعْضُكُم بِبَعْضٍ وَيَلْعَنُ بَعْضُكُم بَعْضًا وَمَأْوَاكُمُ النَّارُ وَمَا لَكُم مِّن نَّاصِرِينَ﴾

**"(İbrahim) dedi: "Allah əvəzinə sizi dünya həyatına bağlayan bütləri seçdiniz. Amma Qiyamət günü bəziləriniz bəzilərinizi inkar edər, bəziləriniz bəzilərinizi lənətləyərsiniz. Yeriniz oddur və sizin üçün bir yardımçı tapılmaz."**

**Nöqtələr**

Bütpərəst qəbilələrdə bütlər mehvər idi. Hər qəbilənin öz bütü vardı. Məsələn, Qüreyşin bütü "Uzza", Səqifin bütü "Lat", Ous və Xəzrəcin bütü "Mənat" adlanırdı. Bütlər qəbilələrin öz ata-babaları ilə əlaqələri üçün bir vasitə idilər.

17-ci ayədə oxuduq ki, İbrahim (ə) odla hədələnməzdən öncə qövmünə buyurdu: "Siz Allah əvəzinə bütlərə pərəstiş edirsiniz." Oddan qurtulduqdan sonra isə daha qətiyyətlə buyurdu: "Siz Allah əvəzinə sizi dünyaya bağlayan bütləri seçmisiniz." Göründüyü kimi, İbrahimin oda atılması onun əzmini qırmadı və həzrət dəvətindən əl çəkmədi.

İmam Sadiq (ə) öz yaxınlarından birinə buyurdu: "Hansı dəstə bir rəhbərə iqtida edərsə, Qiyamət günü bu rəhbərlə ardıcılları arasında lənət mübadiləsi olar. Yalnız siz - peyğəmbər əhli-beyti xəttində olanlar - istisnasınız."[1]

Bəzən düşmənin planlarına sarsıdıcı cavab vermək lazım gəlir. Ötən ayədə oxuduq ki, İbrahimi oda atmaq istəyən kafirlərə Allah belə cavab verdi: "Sizin əbədi yeriniz oddur." Bəli, bəzən torpaq atana daşla cavab vermək lazım gəlir.

**Bildirişlər**

1. Qəlb bağlılıqları insanın inanclarına və əqidələrinə çox təsir göstərir.

---

[1] "Təfsire-Nurus-səqəleyn". "Kafi", c. 8, s. 146.

2. Qeyri-ilahi dostluqlar müvəqqətidir və sonda düşmənçiliyə çevrilir.
3. Yol seçərkən gələcəyi nəzərə alaq.
4. Qeyri-ilahi dostluqların Qiyamətdə heç bir səmərəsi yoxdur.

*AYƏ 26:*

﴿فَآمَنَ لَهُ لُوطٌ وَقَالَ إِنِّي مُهَاجِرٌ إِلَى رَبِّي إِنَّهُ هُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Lut ona (İbrahimə) iman gətirdi və dedi: “Həqiqətən, mən Rəbbimə doğru hərəkətdəyəm, O, qüvvət və hikmət sahibidir.”**

**Nöqtələr**

Əksər təfsirçilər bildirirlər ki, “mühacir” dedikdə həzrət İbrahim (ə) nəzərdə tutulmuşdur. Çünki digər bir ayədə həzrət buyurur: “Mən Rəbbimə doğru gedirəm.”[1] Bəziləri isə həzrət Lutun (ə) nəzərdə tutulduğunu bildirirlər.

**Bildirişlər**

1. Peyğəmbərlər bir-birlərinə iman gətirmişlər. Əlbəttə, burada İbrahimin (ə) tənhalığı da önə çəkilir.
2. Bir dövrdə bir neçə peyğəmbər ola bilər. Amma rəhbərlik onlardan yalnız birinin öhdəsinə düşür.
3. Həzrət Lutun (ə) iman gətirməsi bir növ İbrahimə (ə) himayədarlığının elanı idi.
4. Məqsədli hicrət təkamül və tərbiyə vasitəsidir.
5. İlahi insanlar zaman və məkana, fərd və ya qrupa bağlı olmurlar.
6. Allahın lütfünü yada salmaqla özümüzdə hicrət ruhiyyəsini gücləndirək. (Qüvvət sahibi olan Allaha bağlılıq insandakı qürbət hissini aradan qaldırır.)

*AYƏ 27:*

﴿وَوَهَبْنَا لَهُ إِسْحاقَ وَيَعْقُوبَ وَجَعَلْنَا فِي ذُرِّيَّتِهِ النُّبُوَّةَ وَالْكِتَابَ وَآتَيْنَاهُ أَجْرَهُ فِي الدُّنْيَا وَإِنَّهُ فِي الْآخِرَةِ لَمِنَ الصَّالِحِينَ﴾

**“Ona İshaq və Yaqubu əta etdik. Övladları arasında peyğəmbər və kitab qərar verdik. Onun mükafatını dünyada əta etdik. Şübhəsiz, o, axirətdə salehlərdəndir.”**

**Nöqtələr**

“Əcr” sözü həm dünya, həm də axirət mükafatı mənasında işlədilir, “ücrət” sözü isə yalnız dünyəvi mükafat mənasını bildirir.[2]

Həzrət İbrahimin bütün ixlas, təlaş və hicrəti müqabilində dörd mükafatın adı çəkilir: Pak övladlar, nəslində peyğəmbərlik məqamı, dünyada yaxşı ad, axirətdə izzət.

---
[1] “Saffat”, 99.
[2] “Təfsire-Əl-mizan”.

Həzrət Yaqub, Yusif, Harun, Musa, Süleyman, Zəkəriyya, Yəhya, İsa həzrət İshaqın nəslindən olmuşlar. İslam Peyğəmbəri (s) isə İsmailin nəslindəndir. Beləliklə, həzrət İbrahimdən sonrakı bütün ülul-əzm peyğəmbərlər onun nəslindəndir.

Nəmrud tərəfdarlarının qaladığı tonqaldan qurtuluş, qəlblərin Məkkəyə doğru cazibəsi, həcc mərasimində İbrahimlə bağlı xatirələrin təzələnməsi, şeyxül-ənbiya məqamına yüksəliş, pak nəsil həzrət İbrahimə dünyada əta olunmuş ilahi lütflərdəndir.

Salehlik və salehlərin zümrəsinə qatılmaq peyğəmbərlərin arzu etdiyi bir məqamdır. Bunu həzrət Yusif də, Süleyman da, Şüeyb də, İbrahim də arzulamışdır.[1] Bu ayədə həzrət İbrahimə salehlərdən olacağı vəd edilir.

**Bildirişlər**

1. Saleh övlad ilahi bəxşişdir.
2. Allah üçün görülən işin mükafatı olduğunu xalqa elan edək ki, insanlarda həvəs yaransın.
3. İlahi lütfə çatmağın bünövrəsi ixlasdır.
4. İnsan üçün nəvə də övlad kimi ilahi bəxşişlərdəndir.[2]
5. Atanın xalisanə xidmətlərinin və yaxşılıqlarının mükafatı onun nəslində özünü göstərir. Əlbəttə ki, övladların da ləyaqəti şərtdir.[3]
6. Hicrət edənlərin mükafatı məhdud deyil.
7. Heç bir peyğəmbərin nəsli həzrət İbrahimin nəsli qədər artmamışdır.
8. Dini rəhbərlik Allah tərəfindən təyin olunmalıdır.
9. İnsan dünya və axirəti birlikdə qazana bilər.

### *AYƏ 28:*

﴿وَلُوطًا إِذْ قَالَ لِقَوْمِهِ إِنَّكُمْ لَتَأْتُونَ الْفَاحِشَةَ مَا سَبَقَكُم بِهَا مِنْ أَحَدٍ مِّنَ الْعَالَمِينَ﴾

**“(Yada sal,) Lut bir zaman öz qövmünə dedi: “Həqiqətən, siz özünüzdən öncə heç bir bəşər övladının görmədiyi çirkin bir iş görürsünüz.”**

**Nöqtələr**

“Fahişə” sözü pisliyi aşkarda olan çirkin əməl və ya söz mənasını bildirir. Lut qövmü arasında həmcinsbazlıq rəvac tapdığından Quran “fahişə” sözünü işlədir.

---

[1] “Yusuf”, 101; “Nəml”, 19; “Qəsəs”, 27; “Şuəra”, 83.
[2] “Hud”, 71.
[3] “Bəqərə”, 124.

**Bildirişlər**

1. Dini rəhbərlər cəmiyyətin ümumi fəsadlarına, nizamsızlıqlarına və təhlükələrə qarşı diqqətli olmalı, onları aradan qaldırmaq üçün çalışmalıdırlar. (Həzrət Lut öz dövrünün məşhur günahı ilə bağlı xəbərdarlıq etdi.)

2. Hər yeniliyi dəyər saymaq olmaz. (Yeni günah insani dəyərlərə ziddir.)

*AYƏ 29:*

﴿أَئِنَّكُمْ لَتَأْتُونَ الرِّجَالَ وَتَقْطَعُونَ السَّبِيلَ وَتَأْتُونَ فِي نَادِيكُمُ الْمُنكَرَ فَمَا كَانَ جَوَابَ قَوْمِهِ إِلَّا أَن قَالُوا ائْتِنَا بِعَذَابِ اللَّهِ إِن كُنتَ مِنَ الصَّادِقِينَ﴾

**«Siz kişilərin sorağınca gedir, (izdivacda təbii) yolu kəsir və öz məclislərinizdə (açıq-aşkar) çirkin işlər görürsünüz? Qövmü cavab olaraq yalnız bunu dedi: "Əgər doğru danışanlardansansa, Allahın əzabını bizə göstər."»**

*AYƏ 30:*

﴿قَالَ رَبِّ انصُرْنِي عَلَى الْقَوْمِ الْمُفْسِدِينَ﴾

**"(Lut) dedi: "Pərvərdigara! Məni günahkar qövmə qalib et."**

**Nöqtələr**

"Nadi" dedikdə ümumi məclis nəzərdə tutulur. Təfsirlərdə bildirilir ki, Lut qövmü əxlaq baxımından tam süqut etmiş, fəsad və günahda qərq olmuşdu. Belə ki, onlar ümumi məclisdə bir-birləri ilə ədəbsiz danışır, qumar oynayır, göz qabağında soyunur, yoldan ötənlərə daş atır, xalqın gözü qarşısında müsafirlərlə həmcinsbazlıq edib onların mallarını əllərindən alırdılar.

Əzab istəyi başqa peyğəmbərlərin qövmləri tərəfindən də bəyan olunmuşdur. Nuh və Ad qövmü, Səmud qövmü, eləcə də İslam Peyğəmbərinin (s) dövründə bir dəstə peyğəmbərdən əzab tələb edirdi.[1]

"Yolun kəsilməsi" dedikdə qarət və ya həmcinsbazlıq məqsədi ilə insanların qarşısını kəsmək də nəzərdə tutula bilər.

**Bildirişlər**

1. Şəhvət hissini təmin etmək üçün təbii və şəri yol olduğu halda insanların həmcinsbazlığa meyli təəccüb doğurur.

2. Bir günahın geniş yayılması nəhy əz münkər (pisliyə qadağa) vəzifəsini aradan qaldırmır.

3. Əxlaqi fəsad insanı əqidə fəsadına sürükləyir. (Əxlaqi dəyərlərə biganəlik həzrət Lutun peyğəmbərliyinə şübhəyə səbəb oldu.)

4. Allah cinsi ehtiyacın təmini üçün insanı çıxılmaz vəziyyətə salmamış, təbii yol qoymuşdur.

---

[1] "Hud", 32; Əraf", 70; "Ənfal", 32.

5. Aşkar günah ən çirkin günahdır.

6. Ümumi əmin-amanlıq və həya-abır möhtərəm saxlanmalı, hifz olunmalıdır.

7. Aşkar günahın sonu həmişəlik rüsvayçılıqdır. (Lut qövmü qısa bir müddət günaha batmışdı. Amma onlara əsrlərdir ki, bu qövm bədnamdır.)

8. Sədaqət və doğruçuluq azğınların da nəzərində müsbət səciyyədir.

9. Həmcinsbazlıq çirkin və günah işdir. Həmcinsbazlıq edən şəxs yer üzündə fəsad törədənlərdən sayılır.

10. İnsanın tənhalığı onun pisliyə qadağa qoymasına mane olmur. Həzrət Lut (ə) tənha olsa da azğınların qarşısında dayanıb Allahdan yardım istədi.

11. Daim fəsad əhlinə qələbə haqqında düşünməliyik. Heç vəchlə onların hakimiyyətini qəbul etmək olmaz.

***AYƏ 31:***

﴿وَلَمَّا جَاءتْ رُسُلُنَا إِبْرَاهِيمَ بِالْبُشْرَى قَالُوا إِنَّا مُهْلِكُو أَهْلِ هَذِهِ الْقَرْيَةِ إِنَّ أَهْلَهَا كَانُوا ظَالِمِينَ﴾

**“Bizim elçilərimiz İbrahimə müjdə gətirib dedilər: “Biz bu məntəqə əhlini məhv edənlərik. Çünki onlar sitəmkarlardır.”**

**Nöqtələr**

Həzrət Lutun fəsad əhlinə qələbə ilə bağlı duası qəbul oldu. Allah onların üzərinə əzab mələklərini göndərdi.

Lut qövmünün yaşadığı məntəqə Sədum adlanırdı və həzrət İbrahimin yaşadığı məntəqənin yaxınlığında yerləşirdi.

Həzrət İbrahim və onun zövcəsi Sara 100 yaş hüdudunda ikən Allah onları övladla (İshaqla) müjdələdi.[1]

İmam Səccad (ə) “Səhifeyi-Səccadiyyə” kitabında hər biri xüsusi məsuliyyət daşıyan mələklərin adını çəkir. Amma həzrət İbrahimin yanına gəlmiş mələklərin bir neçə məqsədi var: Onlar həzrət İbrahimi övladla müjdələməli, Lut qövmünün əzabını elan etməli, ilahi əzabı həyata keçirməli idilər.

**Bildirişlər**

1. İşdə mərhələlik prinsipinə əməl olunmalıdır. (Lut qövmünü məhv etmək əmri almış mələklər öncə ülul-əzm, şəriət sahibi olan həzrət İbrahimi, sonra İbrahim dininin təbliğatçısı olan Lutu xəbərdar etməli idilər.)

2. Saleh bəndələrin duası qəbuldur.

3. Mələklər ilahi mərhəmət və qəhr-qəzəb məmurlarıdır.

4. Həmcinsbazlıq günahı şəhvətpərəst və azğın bir cəmiyyət tərəfindən həyata keçirilirdi. Amma Allahın qəhr-qəzəbi nazil olanda bütün məntəqə əhli həlak oldu. Ola bilsin ki, yersiz sükut səbəbindən bütün əhali zalım adlandırıldı.

5. Zülm insanı məhvə doğru aparır.

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

*AYƏ 32:*

﴿قَالَ إِنَّ فِيهَا لُوطًا قَالُوا نَحْنُ أَعْلَمُ بِمَن فِيهَا لَنُنَجِّيَنَّهُ وَأَهْلَهُ إِلَّا امْرَأَتَهُ كَانَتْ مِنَ الْغَابِرِينَ﴾

**“(İbrahim) dedi: “Bu məntəqədə Lut da var.” Mələklər dedilər: “(Qorxma,) biz burada olanlardan xəbərdarıq. Hökmən onu və ailəsini xilas edərik. Yalnız zövcəsindən başqa! O, (əzabımızda) qalanlardandır.”**

**Nöqtələr**

Hazırkı ayə və “Zariyat” surəsinin 36-cı ayəsindən (“Biz imanlı bir ailədən savay kimsəni mömin görmədik”) məlum olur ki, yalnız həzrət Lut və övladları mömin imişlər. Hətta Lutun zövcəsi əzaba düçar oldu.

“Hud” surəsinin 74-cü ayəsindən aydın olur ki, həzrət İbrahim Lut qövmünə əzab nazil olmamasını istəyirmiş. Amma bu istək qəbul olmamış və belə cavab verilmişdi: “O fikrindən daşın.”[1]

**Bildirişlər**

1. Cəmiyyətdə övliyaların varlığı ilahi qəzəbin qarşısını alır.
2. Peyğəmbərlər və onların ardıcılları ilahi qəhr-qəzəbdən amandadırlar.
3. Mələklər bütün insanları (tək-tək) tanıyırlar.
4. Bəzən ilahi insanlar ən ağır qürbət hissi yaşayırlar. (Həzrət Luta yalnız övladları iman gətirmişdi!)
5. Ata-ana arasında ziddiyyət yaranarkən övladlar haqq yolu seçə bilərlər. (Lutun övladları atalarının yolunu analarının yolundan üstün tutdular.)
6. Qadın müstəqil şəxsiyyətə malikdir, o, ərin, ailədəki iqtisadi və ideoloji ab-havanın təsiri altına düşməyə də bilər.
7. Ailə bağlılığı yox, paklıq qurtuluş rəmzidir. (Lutun zövcəsi ailə rabitəsi ilə ona bağlı olsa da pak deyildi.)
8. İnsanlıq meyarı şan-şöhrət yox, iman və əməldir. (Peyğəmbər zövcəsi olmaq bəs etmir, peyğəmbərə itaət dəyər sayılır.)
9. Peyğəmbərlərin zövcələri məsum deyildilər. (Hətta İslam Peyğəmbərinin (s) zövcələri arasında yalnız bəziləri xüsusi ilahi lütfdən faydalanırdı.[2]

*AYƏ 33:*

﴿وَلَمَّا أَن جَاءَتْ رُسُلُنَا لُوطًا سِيءَ بِهِمْ وَضَاقَ بِهِمْ ذَرْعًا وَقَالُوا لَا تَخَفْ وَلَا تَحْزَنْ إِنَّا مُنَجُّوكَ وَأَهْلَكَ إِلَّا امْرَأَتَكَ كَانَتْ مِنَ الْغَابِرِينَ﴾

[1] “Hud”, 74- 76.
[2] “Əhzab”, 29.

**“Mələklərimiz Lutun yanına gəldikləri vaxt onların gəlişi Lutun halını pisləşdirdi və əli hər yerdən üzüldü. (Mələklər) dedilər: “Nə qorx, nə də qəmlən. Biz səni və ailəni xilas edərik. Yalnız (əzabda) qalanlardan olan zövcəndən savay!”**

**Nöqtələr**

“Siə” dedikdə halın pisləşməsi nəzərdə tutulur. Ola bilsin ki, həzrət Lutu azğınların mələklərə təcavüz edəcəyi fikri qorxudurdu. Bu da ola bilər ki, qövmünün sorağına gəlmiş ilahi əzab Lutu narahat edirdi.

“Zəra” sözü əlin dirsəkdən barmaqlaradək olan hissəsini bildirir. “Əlin qısalması” (hər yerdən üzülməsi) dedikdə isə çarəsizlik nəzərdə tutulur. Çünki qolu qısa insanlar bir çox işləri görməkdə acizdirlər. Çarəsiz vəziyyətə düşüb əlindən bir iş gəlməyən insan haqqında “əli qısalıb” ifadəsi işlədilir.[1]

“La təxəf” əmri qarşıdakı mümkün hadisə və çətinliklərlə bağlı nigarançılığı, “la təhzən” əmri ötən hadisələrlə bağlı qəm-qüssəni nəzərdə tutur.

**Bildirişlər**

1. Günahkar cəmiyyətdə ilahi insanlar sıxıntıda olur, hətta ailələrini və qonaqlarını qorumaqla bağlı nigarançılıq keçirirlər.
2. Fəsadın bütün cəmiyyəti bürüməsi bizi biganələşdirməməlidir. (Dini qeyrət iman şərtidir.)
3. Bir çox nigarançılıqları yaradan gələcəkdən xəbərsizlikdir.
4. Daxili nigarançılıqlar insanın çöhrəsində özünü büruzə verir. Mələklər həzrət Nuhun simasından onun nigarançılığını hiss etdilər.
5. Möminlərə haqq və arxayınlaşdırıcı vədlər verməklə onları iztirabdan qurtaraq.
6. Həqiqətləri bəyan edərkən öncə müsbət nöqtələri qeyd edək.
7. Allah Öz övliyalarını hifz edir.
8. İnsanı bədbəxtlikdən xilas edən ailə bağlılığı yox, iman və saleh əməldir.
9. Qadının müstəqil şəxsiyyəti var, o, ailənin ideoloji və iqtisadi prinsiplərinə qarşı çıxa bilir.
10. Pis yol göstərən də günahkardır. (Lutun zövcəsi qonaqların gəldiyini azğınlara xəbər verdi.)

***AYƏ 34:***

﴿إِنَّا مُنزِلُونَ عَلَى أَهْلِ هَذِهِ الْقَرْيَةِ رِجْزًا مِّنَ السَّمَاءِ بِمَا كَانُوا يَفْسُقُونَ﴾

**“Həqiqətən, Biz bu məntəqə əhlinə günahlarına görə göydən əzab endirəcəyik.”**

[1] “Məcməul-Bəhreyn”.

*AYƏ 35:*

﴿وَلَقَد تَّرَكْنَا مِنْهَا آيَةً بَيِّنَةً لِّقَوْمٍ يَعْقِلُونَ﴾

**"Düşünənlər üçün (qəzəbə gəlmiş) həmin məntəqədən aydın nişanə saxladıq."**

**Nöqtələr**

"Qəryə" dedikdə Sədum məntəqəsi nəzərdə tutulur. Lut qövmü bu böyük cəmiyyətli məntəqədə yaşayırdı.

"Fisq" dedikdə itaətdən çıxmaq nəzərdə tutulur. Şirk və küfr də fisq sayılır.

**Bildirişlər**

1. Çirkin əməlin sonu Allahın qəzəbidir.
2. Səmadan həm ilahi rəhmət, həm də qəhr-qəzəb nazil olur.
3. İnsanın əməlləri təbiət aləminə təsir göstərir. Yaxşı əməl nemət, pis əməl isə əzab səbəbidir.[1] Günahlar nəzərdə tutulan nemətləri əzaba çevirir.
4. Günahın təkrarı ilahi qəzəbə səbəb olur.
5. Bəzən qədim xarabalıqları qorumaq, bərpa etmək lazım gəlir.
6. Quran tarixi fəlsəfə və keçmiş qövmlərlə tanışlığa əhəmiyyət verir.
7. Xarabalıqlardan da ibrət götürmək olar.
8. İbrət götürmək üçün diqqət və düşüncəyə ehtiyac var. Qafil insanlar səthi bir baxışla həqiqətləri dərk edib ibrət götürə bilməz.
9. Ağıl və düşüncə hidayət və ibrət şərtidir.

*AYƏ 36:*

﴿وَإِلَى مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا فَقَالَ يَا قَوْمِ اعْبُدُوا اللَّهَ وَارْجُوا الْيَوْمَ الْآخِرَ وَلَا تَعْثَوْا فِي الْأَرْضِ مُفْسِدِينَ﴾

**"Mədyənə doğru qardaşları Şüeybi (peyğəmbərlik üçün göndərdik); o dedi: "Ey mənim qövmüm! Allaha pərəstiş edin, Qiyamət gününə ümidvar olun və yer üzündə fəsad törətməyin."**

**Nöqtələr**

"Mədyən" İordaniyanın cənub-qərbində yerləşirdi və bu gün həmin yer "Məan" adı ilə tanınır.

"Təsəv" dedikdə fəsad törədilməsi nəzərdə tutulur.

Həzrət Şüeyb iki qəbiləyə yol göstərməyə məsul idi: sonradan səmadan enən səslə məhv edilən Mədyən səhabələri, şimşəkli buludların qaranlığına bürünmüş Əykə səhabələri.[2]

---

[1] Əraf", 96.

[2] "Təfsire-Ətyəbul-bəyan",

**Bildirişlər**

1. Xalq üçün düşüncə, iman və əxlaq atası sayılan peyğəmbərlər insanlarla qardaşcasına rəftar edirdilər.

2. Allaha doğru dəvət edərkən insani hisləri yaddan çıxarmayaq.

3. Tövhid və məad peyğəmbər dəvətinin sərlövhəsidir.

4. Allaha bəndəlik və yaranışla məada iman fəsaddan uzaqlıq üçün zəmindir.

5. İnsanlar məsum deyil, bəzən büdrəməyə yol verir, günaha batırlar. Qəbul olunmayan isə bilərəkdən, qərəzlə və inadkarlıqla yol verilən büdrəmələrdir.

*AYƏ 37:*

﴾فَكَذَّبُوهُ فَأَخَذَتْهُمُ الرَّجْفَةُ فَأَصْبَحُوا فِي دَارِهِمْ جَاثِمِينَ﴿

**"Belə ki, Şüeybi təkzib etdilər və zəlzələ onları ağuşuna aldı. Sübh çağı evlərində üzü üstə düşüb qaldılar."**

**Nöqtələr**

"Rəcfə" dedikdə yerin titrəyişi nəzərdə tutulur. Əqidə və ruhiyyəni titrədən xəbərlər və söhbətlər isə "əracif" adlanır. Bu sayaq sözlər danışan və dinləyən insanlar "Murcifun" adlanırlar.

"Casimin" dedikdə diz üstə oturmaq nəzərdə tutulur. Sanki əzaba düçar olanlar zəlzələdən oyanıb yarı qalxmış ikən əcəl onları yaxaladı.

**Bildirişlər**

1. Peyğəmbərlərin təkzibi Allah qəzəbi üçün zəmindir.

2. Allah qəzəbindən qaçıb-qurtulmağa gücü olmayan insan haqqı necə təkzib edir?!

*AYƏ 38:*

﴾وَعَادًا وَثَمُودَ وَقَد تَّبَيَّنَ لَكُم مِّن مَّسَاكِنِهِمْ وَزَيَّنَ لَهُمُ الشَّيْطَانُ أَعْمَالَهُمْ فَصَدَّهُمْ عَنِ السَّبِيلِ وَكَانُوا مُسْتَبْصِرِينَ﴿

**"Ad və Səmudu da (məhv etdik); şəksiz, onların bəzi məskənləri (xarabalıqlar) sizə aşkardır; şeytan əməllərini onların gözündə bəzədi və onları yoldan çıxardı. Halbuki (haqqı batildən seçmək üçün) bəsirətləri vardı."**

**Bildirişlər**

1. Xalqın ibrət götürməsi üçün keçmişin bəzi qalıqlarını qorumaq lazımdır.

2. İnsanın öz pis işlərini yaxşı sayması şeytanın tələsidir. (Qürur, özünəpərəstiş, var-dövlətlə öyünmək şeytani təlqin nümunələrindəndir.)

3. Haqdan sapınmanın başqa bir amili zəhərli təbliğat və yayındırmalardır.

4. İnsan fitrətən gözəllik vurğunudur. Şeytan insanın bu meylindən istifadə edib pislikləri bəzəyir.

5. Bəsirətli və agah insanlar üçün də şeytana aldanma təhlükəsi var.

6. Allah dəlil-sübutsuz heç bir qövmü cəzalandırmır.

7. İnsanlar fitrət, ağıl və peyğəmbər təlimləri yolu ilə agahlıq əldə edirlər. Amma şeytan da bekar dayanmayıb.

*AYƏ 39:*

﴿وَقَارُونَ وَفِرْعَوْنَ وَهَامَانَ وَلَقَدْ جَاءهُم مُّوسَى بِالْبَيِّنَاتِ فَاسْتَكْبَرُوا فِي الْأَرْضِ وَمَا كَانُوا سَابِقِينَ﴾

**“Qarun, Firon və Hamanı (da məhv etdik); doğrudan da, Musa aşkar dəlillərlə onların sorağına gəldi. (Amma) onlar yer üzündə təkəbbür göstərib azğınlıq etdilər. (Bununla belə) (Allahdan) qabağa keçə bilmədilər.”**

**Bildirişlər**

1. Təkəbbürlülərin sonu fənadır. Onların acı aqibəti ibrət dərsidir.

2. Xəbərdarlığı başa çatdırıb cəzalandırmaq Allahın sünnəsidir.

3. Təkəbbürlü qüvvələrin müxtəlif cilvələri var: Qarun dünyapərəstlik, Firon və Haman qüdrətpərəstlik nümunəsi idi. Amma onlar haqqa qarşı tüğyan qoparmaqda, azğınlıq və inadkarlıqda şərik idilər.

4. Zər və zor ilahi qüdrət qarşısında aciz və təsirsizdir.

*AYƏ 40:*

﴿فَكُلًّا أَخَذْنَا بِذَنبِهِ فَمِنْهُم مَّنْ أَرْسَلْنَا عَلَيْهِ حَاصِبًا وَمِنْهُم مَّنْ أَخَذَتْهُ الصَّيْحَةُ وَمِنْهُم مَّنْ خَسَفْنَا بِهِ الْأَرْضَ وَمِنْهُم مَّنْ أَغْرَقْنَا وَمَا كَانَ اللَّهُ لِيَظْلِمَهُمْ وَلَكِن كَانُوا أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Onların hər birini günahına (görə əzaba) düçar etdik. Onlardan bəzilərinin üzərinə çınqıllı möhkəm külək əsdirdik, bəzilərini səmadan gələn dəhşətli səs yaxaladı, bəzilərini yerə batırdıq, bəzilərini qərq etdik. Allah onlara zülm etmədi, lakin özləri özlərinə sitəm qıldılar.”**

**Nöqtələr**

“Hasib” dedikdə çınqıl və ya dolu ilə müşayiət olunan tufan, “xəsəf” dedikdə yerə batırılma nəzərdə tutulur.

Ad qövmü tufan, Səmud qövmü səmadan gələn dəhşətli səs, Qarun yerə gömülmə, Firon və Haman suda qərqolma vasitəsi ilə məhv edildi. Bəli, bəzən Allah təbii vasitələrlə cəzalandırır.

**Bildirişlər**

1. Təbliğ zamanı mövzular və nümunələr bəyan olunduqdan sonra qruplaşdırma və sıralama aparmaq faydalı və təsirlidir.

2. Hər bir qövm öz günahına münasib cəzalandırılır.

3. Cəzalar bütünlüklə Qiyamətə saxlanılmır. (Bəzi qövmlər elə bu dünyadaca cəzalandırılır.)

4. Allahın verdiyi möhlət bizi qürrələndirməsin, günahın sonu cəzadır.

5. Allah müxtəlif cəzalar verməyə qadirdir.

6. Allahın qəhr-qəzəbi ədalətə əsaslanır.

7. Hər kəsin taleyi onun əməllərindən asılıdır.

8. İnsan haqq qarşısında təkəbbür göstərməklə özünə zülm edir.

9. Zülmdən də pisi onu davam etdirməkdir.

***AYƏ 41:***

﴿مَثَلُ الَّذِينَ اتَّخَذُوا مِن دُونِ اللَّهِ أَوْلِيَاء كَمَثَلِ الْعَنكَبُوتِ اتَّخَذَتْ بَيْتًا وَإِنَّ أَوْهَنَ الْبُيُوتِ لَبَيْتُ الْعَنكَبُوتِ لَوْ كَانُوا يَعْلَمُونَ﴾

**“Allahdan qeyrisini özünə himayəçi seçənlər tor quran hörümçəyə bənzəyirlər. Əgər bilsəydiniz, şübhəsiz, evlər arasında ən zəifi hörümçək evidir.”**

**Nöqtələr**

Hazırkı ayə münasibəti ilə surə “Ənkəbut” (hörümçək) adlandırılmışdır.

Əflatunun dilindən nəql olunur ki, milçək ən həris həşaratdır, o, qarnını doyurmaq üçün turşunun, şirninin, çirkabın və yaranın üzərinə qonur. Hörümçək isə bir küncə çəkilib qənaət edir. Maraqlıdır ki, Allah ən fəal və ən həris həşaratı ən guşənişin həşarata yem etmişdir. Milçək öz ayağı ilə hörümçəyin sorağına gedir. Hörümçək öz torları ilə milçəyi ovlayır.

**Bildirişlər**

1. Təlim-tərbiyədə ən təsirli yollardan biri məsəllərdən istifadə etməkdir. Bütün dövrlərdə və məkanlarda hamının tanış olduğu həqiqətlər misal çəkmək üçün daha yararlıdır.

2. Şirk nizamı hörümçək yuvası kimi kövrək və davamsızdır.

3. Hörümçək tərk olunmuş yerlərdə yuva qurur. Şirk də Allahdan uzaqlaşmış ruhlara təsir göstərir.

4. Hörümçək yuvasının təkcə adı evdir. Yalançı məbudların da təkcə adı var.

5. Hörümçək öz aləmində güman edir ki, onun evi var və bu ev hadisələr qarşısında tab gətirə bilər. Müşrik də bu sayaq əsassız düşünür.

6. İlahi vilayətin (hakimiyyətin) möhkəm bünövrəsi və dəmir binası var.[1] Qeyri-ilahi vilayətlər isə olduqca kövrəkdir.

7. Bəzən maraqlar, təxəyyüllər və dostluqlar haqqın dərkinə mane olur. Müəyyən bağlılıqlar insanı kar və kor edir.

8. Müşriklər cəhalət və nadanlıq üzündən Allahdan qeyrisinə üz tuturlar.

---

[1] “Səff”, 4.

*AYƏ 42:*

﴿إِنَّ اللَّهَ يَعْلَمُ مَا يَدْعُونَ مِن دُونِهِ مِن شَيْءٍ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Həqiqətən, Allah Ondan savay çağırılanların hamısını bilir. O, qüvvət və hikmət sahibidir.”**

*AYƏ 43:*

﴿وَتِلْكَ الْأَمْثَالُ نَضْرِبُهَا لِلنَّاسِ وَمَا يَعْقِلُهَا إِلَّا الْعَالِمُونَ﴾

**“Bu məsəllər insanlar üçün çəkilir. Amma alimlər və agahlardan savay onu dərk edən yoxdur.”**

**Bildirişlər**

1. İnsanın qeyri-ilahi meyilləri Allaha məlumdur. Özümüzü sorğuya hazırlayaq.
2. Şirk Allah elmi əsasında hörümçək yuvasına bənzədilir.
3. Hörümçək yuvası kimi kövrək olan yalançı məbudlara istinad etməkdənsə, qüvvətli və yenilməz Allaha sığınaq.
4. Bizim başqalarına üz tutmağımızın Allaha heç bir zərəri yoxdur.
5. Allahın qüdrəti hikmətə əsaslanır. (Bu qüdrət məntiqsiz və hikmətdən uzaq qüdrət deyil.)
6. Quranın məsəlləri dərin mənaya malikdir. Sadə xalqla yanaşı alimlər də bu dərinliyə varmalıdırlar.
7. Allah Quranın dəqiq nöqtələrini anlamaq üçün insanları elmə həvəsləndirir.

*AYƏ 44:*

﴿خَلَقَ اللَّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ بِالْحَقِّ إِنَّ فِي ذَلِكَ لَآيَةً لِّلْمُؤْمِنِينَ﴾

**“Allah göyləri və yeri haqq olaraq yaratdı. Həqiqətən, bu yaranışda iman əhli üçün qəti nişanələr var.”**

**Nöqtələr**

Allahdan savay nə varsa hörümçək yuvası kimi kövrək, davamsız və fanidir. Amma Allah həm alimdir, həm qüvvət və hikmət sahibidir, həm də varlıq aləminin yaradıcısıdır.

**Bildirişlər**

1. Varlıq aləmi məqsədli yaradılıb. Biz də bu aləmə məqsədlə nəzər salmalıyıq.
2. Materialistlər təbiət hadisələri qarşısında donub qalır, Allahpərəstlər isə bu hadisələri adlayıb ilahi mərifət əldə edirlər.

3. İman varlıq həqiqətlərinin dərk olunma şərtlərindəndir.

***AYƏ 45:***

﴿اتْلُ مَا أُوحِيَ إِلَيْكَ مِنَ الْكِتَابِ وَأَقِمِ الصَّلَاةَ إِنَّ الصَّلَاةَ تَنْهَى عَنِ الْفَحْشَاء
وَالْمُنكَرِ وَلَذِكْرُ اللَّهِ أَكْبَرُ وَاللَّهُ يَعْلَمُ مَا تَصْنَعُونَ﴾

**“Kitabdan (səmavi Qurandan) sənə vəhy olunanı oxu və namazı bərpa et. Həqiqətən, namaz (insanı) günah və çirkin işlərdən uzaqlaşdırır. Əlbəttə, Allahın zikri ucadır və Allah gördüyünüz işlərdən xəbərdardır.”**

**Nöqtələr**

Bu ayədə Allah Öz peyğəmbərinə Quran tilavəti və namazı yanaşı şəkildə əmr edir. Çünki Quran və namaz iki güc mənbəyidir. Peyğəmbərini ağır məsuliyyətdən[1] xəbərdar edən Allah buyurur: “Bu ağır məsuliyyəti yerinə yetirmək üçün iki mənbədən güc al: Quran tilavəti və gecə namazı.”[2] Quran və namaz digər ayələrdə də yanaşı zikr olunmuşdur.[3]

“Allah zikri böyükdür, ucadır” cümləsi bir neçə cür mənalandırılmışdır:

a) Namaz Allahın ən böyük zikridir. “Taha” surəsinin 14-cü ayəsində namaz Allahın zikri sayılır.

b) Allahın zikri (və qəlb iştirakı) namazın zahirindən ucadır.

v) Allah zikri insan üçün bütün digər işlərdən üstündür.

q) Allah zikri günah və çirkin işlərin qarşısının alınmasında bütün vasitələrdən güclüdür.

d) Allahın sizi yada salması sizin Onu yada salmağınızdan daha böyükdür. (Əlbəttə, bu məna “Bəqərə” surəsinin 152-ci ayəsi ilə bağlı nəql olunmuş rəvayətlərdən alınır.[4])

Əziz Peyğəmbərə (s) dedilər: “Filankəs həm namaz qılır, həm də xilaf iş görür.” Həzrət buyurdu: “Nəhayət bir gün namaz onu xilas edəcək.”[5]

İmam Sadiq (ə) buyurur: “Namazının qəbul olub-olmadığını bilmək istəyən şəxs namazın onu günah və çirkin işdən ayırıb-ayırmadığına nəzər salsın.” Sonra imam buyurur: “Namaz insanı çirkin işlərdən uzaqlaşdırdığı qədər qəbuldur.”[6]

**Bildirişlər**

1. Quranı təkcə oxuyub-öyrənmək, onun məhfumları ilə tanış olmaq bəs etmir, Quran göstərişlərinə əməl etmək lazımdır.

2. Quran və namaz tərbiyəvi proqramların başlanğıcında gəlir.

---

[1] “Muzzəmmil”, 5.
[2] “Muzzəmmil”, 4, 6.
[3] “Fatir”, 29; Əraf”, 170.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Təfsire-Məcməül-bəyan”.
[6] “Təfsire-Məcməül-bəyan”.

3. Peyğəmbər xalqla Quran tilavəti və ilahi göstərişlərin bəyanı ilə, Allah-təala ilə isə ibadət və namaz yolu ilə rabitə saxlayır.

4. Təbliğ və haqqa çağırışda dini göstərişlərin hikmət və təsirlərini bəyan edək.

5. Allah qarşısında namazın xüsusi əzəməti və yeri var.

6. Namazın fərd və cəmiyyəti islah etməsi ehtimal yox, dəqiq məlumatdır.

7. Əgər namaz insanı günah və çirkin işlərdən uzaqlaşdırmırsa, bu namazın qəbuluna şəkk var.

8. Yaxşı və bəyənilmiş işlərin yayılması təbii şəkildə pis işlərin genişlənməsinə mane olur.

9. Allahın elmi Onun göstərişlərinin düzgün icrasına zamindir.

10. Namazda bir çox sirlər və rəmzlər, yaradıcılıqlar və zövqlər mövcuddur.

### *NAMAZ VƏ ÇİRKİN İŞLƏRİN QARŞISININ ALINMASI*

**Sual:** Namaz fərd və cəmiyyəti günah və çirkin işlərdən necə ayırır?

**Cavab:**

1. Bütün çirkin işlərin kökü qəflətdir. Allah-təala Əraf" surəsinin 179-cu ayəsində qafil insanı heyvandan da alçaq sayır. Namaz Allah zikri və insanı oyadan ən güclü vasitə olduğundan pis işlər üçün zəmini də aradan qaldırır.

2. Namazın bərpası və ilahi rəngə boyanma şeytani rəngin qarşısını alır. Ağ libas geyinən insan heç vaxt çirkin yerə daxil olmaq istəmir.

3. Namazla yanaşı adətən zəkat tövsiyə olunur. Zəkat insanı xəsislikdən, məhrumlara diqqətsizlikdən uzaqlaşdırır, cəmiyyəti günaha aparan yoxsulluqdan azad edir.

4. Namazın bir sıra hökmləri və göstərişləri var. Onların hər biri insanı bir çox günahlardan uzaqlaşdırır. Məsələn:

–Namaz qılınan məkanın və namaz qılanın libasının halal olması şərti; bu şərt insanı başqalarının hüquqlarına təcavüzdən uzaqlaşdırır.

–Dəstəmaz suyunun, məkanın, libasın və namaz qılanın bədəninin paklıq şərti; bu şərt insanı bulaşıqlıqdan uzaqlaşdırır.

–İxlas, səmimiyyət şərti; bu şərt insanı şirk və riyadan uzaqlaşdırır.

–Qiblə şərti; bu şərt insanı qeyri-müəyyənlikdən, haraya gəldi üz tutmaqdan saxlayır.

–Rüku və səcdə insanı təkəbbür sifətindən uzaqlaşdırır.

–Namazda münasib libasa diqqət insanı çılpaqlıqdan və iffətsizlikdən qoruyur.

–Camaat namazında imamın ədalətinə diqqət insanların günah və xətadan uzaqlığına səbəb olur.

–Cəmiyyət namazı insanı yersiz guşənişinlikdən xilas edir.

–Cəmiyyət namazının hökmləri və şərtləri; bu şərtlər bir çox dəyərləri canlandırır: xəlqilik, rəhbərdən önə keçməmək, cəmiyyətdən geri qalmamaq, cəmiyyət imamının haqq sözü qarşısında sükut, nizam-intizam, təqvalı insanların dəyərləndirilməsi, təfriqədən uzaqlıq, irqi və milli ayrı seçkiliklərdən

uzaqlıq, fərqli siyasi baxışa dözüm, bu şərtlərin istənilən birinin ödənməsi zəruri olan səhnədə iştirak.

–Hər namazda "Həmd" surəsinin oxunması insanın aləmlərin Rəbbi ilə rabitəsini, Allah qarşısında təşəkkür və təvazönü, Allaha təvəkkül və Ondan yardım dilənməsini, məada diqqət və onun xatırlanmasını, məsum rəhbərlərlə və ilahi övliyalarla yaxınlığı, azğın rəhbərlərdən uzaqlığı, insanın cəmiyyətlə əlaqəsini önə çəkir. Bu məsələlərin istənilən birinə diqqətsizlik ya günahdır, ya da böyük günaha zəmin yaradır.

## İYİRMİ BİRİNCİ CÜZ

### *AYƏ 46:*

﴿وَلَا تُجَادِلُوا أَهْلَ الْكِتَابِ إِلَّا بِالَّتِي هِيَ أَحْسَنُ إِلَّا الَّذِينَ ظَلَمُوا مِنْهُمْ وَقُولُوا
آمَنَّا بِالَّذِي أُنزِلَ إِلَيْنَا وَأُنزِلَ إِلَيْكُمْ وَإِلَٰهُنَا وَإِلَٰهُكُمْ وَاحِدٌ وَنَحْنُ لَهُ مُسْلِمُونَ﴾

**"Kitab əhli ilə yalnız ən gözəl şəkildə mücadilə edin. Yalnız onların sitəmkarları istisnadır. (Onlara) deyin: "Bizə və sizə nazil olana iman gətirmişik, bizim və sizin Allahınız birdir, biz Ona təslimik."**

**Nöqtələr**

"Cidal" sözünün lüğətdə mənası bir-birinin üzərinə şığımaqdır. İki tərəfin bir-birinə qalib gəlmək məqsədi ilə sözləşməsi cidal adlanır. Tənədən, istehzadan, söyüşdən və təhqirdən uzaq söhbət "gözəl cidal" sayılır. Belə cidalda tərəflər dəlillər gətirir, məhəbbət göstərir və islah məqsədində olurlar. Cidal tövsiyəsindən sonra "deyin" göstərişinin verilməsi bu ayənin "gözəl cidal" nümunəsi olduğunu göstərir.

İmam Sadiq (ə) "Yasin" surəsinin son ayələrini gözəl cidal nümunəsi kimi tanıtdırır: Bir şəxs çürümüş sümüyü ovub dedi: "Kimdir bunu diriləndən?!" Quran cavab verdi ki, öncə ona ruh verən yenə onu diriləndər.[1]

**Bildirişlər**

1. Qeyri-müsəlmanla da ən gözəl şəkildə danışmaq lazımdır.
2. Mahiyyəti, üslubu və gedişində istifadə edilən sözlər gözəl olan cidal məqbuldur.
3. İslam məktəblər, mədəniyyətlər və ümmətlər arasında fikir mübadiləsini və düzgün danışıqları qəbul edir.
4. Qarşı tərəfi tanıyaq və hər qrupla münasib şəkildə danışaq. Çünki sitəmkarlar üçün məntiq, söhbət və mülayimliyin heç bir dəyəri yoxdur.

[1] "Təfsire-Nurus-səqəleyn".

5. İslamın bütün müxaliflərini sitəmkar saymaq olmaz.
6. Danışıqda əqidəni izhar etdikdən sonra müştərək tərəfləri qeyd edək.
7. İman təklikdə bəs etmir, təslimçilik və itaət də lazımdır.

*AYƏ 47:*

﴿وَكَذَلِكَ أَنزَلْنَا إِلَيْكَ الْكِتَابَ فَالَّذِينَ آتَيْنَاهُمُ الْكِتَابَ يُؤْمِنُونَ بِهِ وَمِنْ هَؤُلَاء مَن يُؤْمِنُ بِهِ وَمَا يَجْحَدُ بِآيَاتِنَا إِلَّا الْكَافِرُونَ﴾

**“Beləcə sənə kitab nazil etdik. Səmavi kitab verdiklərimiz (onların bəziləri) ona iman gətirər. Bu (müşrik) insanlardan da ona iman gətirən olar. Kafirlərdən savay ayələrimizi inkar edən olmaz.”**

**Nöqtələr**

“Cuhud” dedikdə qəlbə yatan bir şeyin inkarı və ya qəlbə yatmayan bir şeyin qəbulu başa düşülür.

**Bildirişlər**

1. Quran öncəki dinlərin ardıcıllarını bütünlüklə İslama dəvət edir.
2. İnsanlar arasında haqqa çağırışı qəbul etməyənlər olsa da, ilahi çağırış qəti və zəruridir.
3. Quranla tanış olub onu qəbul etməyənlər bir növ küfrə batmışlar.

*AYƏ 48:*

﴿وَمَا كُنتَ تَتْلُوا مِن قَبْلِهِ مِن كِتَابٍ وَلَا تَخُطُّهُ بِيَمِينِكَ إِذًا لَّارْتَابَ الْمُبْطِلُونَ﴾

**“Sən bundan (Quran nazil olmamışdan) öncə heç bir kitab oxumamışdın və onu (Quranı) öz əlinlə yazmamısan. Məbada, səni batil saymaq fikrində olanlar şəkk-şübhəyə düşələr.”**

**Bildirişlər**

1. Öz yazıb-oxumağımızla qürrələnməyək. Bəzən Allahın iradəsi ilə yazıb-oxumağı bacarmayan bir şəxs bəşər mədəniyyətini dəyişir.

***Yazıb-oxumamış o əziz insan***
***Yüz-yüz müdərrisi eylədi heyran.***

2. Quranın haqq olduğunu göstərən dəlillərdən biri İslam Peyğəmbərinin (s) yazıb-oxumağı bacarmamasıdır.
3. Müxaliflərin sui-istifadə və bəhanəçiliyinin qarşısını almaq zəruridir.
4. Yazıb-oxumağı bacarmayan (“ummiyy”) peyğəmbərə Quranın nazil olması xalqa xəbərdarlığın tamamlanması yollarındandır.
5. Haqqı buraxıb şəkk-şübhə zəmini soraqlamaq insanın xəstəlik nişanəsidir.

*AYƏ 49:*

﴿بَلْ هُوَ آيَاتٌ بَيِّنَاتٌ فِي صُدُورِ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَمَا يَجْحَدُ بِآيَاتِنَا إِلَّا الظَّالِمُونَ﴾

**"O (Quran), mərifət verilmiş kəslərin sinəsində yerləşdirilmiş aydın ayələrdir. Ayələrimizi sitəmkarlardan başqası inkar etməz."**

**Nöqtələr**

47-ci ayədə ilahi ayələrin yalnız kafirlər tərəfindən inkar olunduğu bildirildi. Bu ayədə isə yalnız zalımlarda bu münasibətin mövcudluğu bəyan olunur. Belə məlum olur ki, küfr zülmün və ya əksinə, zülm küfrün bir növüdür.

Təfsir kitablarında nəql olunmuş 20-dən çox hədisdə "elm əta olunmuş" təbirinin məsum imamlara aid olduğu bildirilir.

**Bildirişlər**

1. Quranın bəzi ayələri mütəşabeh (izahata ehtiyaclı) olsa da, əksər ayələr aydın və anlaşılandır.
2. Aşkar ilahi ayələrin qəbulu gerçək elmin nişanəsidir.
3. İnsan öz məqsədinə çatmaq üçün çalışmağa vəzifəli olsa da, elm Allahın hədiyyəsidir.
4. Quran ayələri elm əhlinin qəlbinə yatır. Bu zümrədən olanlar Quranın gerçəkliyini bütün vücudları ilə dərk edirlər.
5. İdeoloji zülm və yersiz inkar zülmün aşkar nümunəsidir.
6. İnsanın anladığı bir şeyi inkar etməsi bir növ zülmdür.

*AYƏ 50:*

﴿وَقَالُوا لَوْلَا أُنزِلَ عَلَيْهِ آيَاتٌ مِّن رَّبِّهِ قُلْ إِنَّمَا الْآيَاتُ عِندَ اللَّهِ وَإِنَّمَا أَنَا نَذِيرٌ مُّبِينٌ﴾

**"Dedilər: "Nə üçün ona Rəbbi tərəfindən (Musanın əsası kimi) bir möcüzə nazil olmur?" De ki, möcüzə yalnız Allahın yanındadır (Onun göstərişi ilə baş verir). Mən yalnız aşkar xəbərdarlıq edənəm."**

**Nöqtələr**

İnsanlar əziz Peyğəmbərdən (s) Musanın (ə) əsası, bəyaz əl kimi maddi möcüzələr istəyirdilər. Amma hər bir möcüzə baş verdiyi dövrə münasib şəkildə olur. Bu səbəbdən də İslam Peyğəmbərinin (s) möcüzəsi söz, kəlam idi. Görəsən Quran kimi bir möcüzə olan yerdə başqa bir möcüzə istəmək naşükürlük deyilmi?

**Bildirişlər**

1. İnadkar insanların bəhanəçiliyi sona yetəsi deyil. (Onlar müxtəlif möcüzələr görür, amma yenə də başqa möcüzə istəyirlər.)

2. Peyğəmbər bəhanə axtaranlara qarşı çıxır, onlara cavab verirdi. Çünki möcüzə bəhanəçilər üçün oyuncaq yox, ilahi bir işdir.

3. İnsanı qəflətdən oyatmaq üçün ona xəbərdarlıq edib qorxutmaq müjdələyib ümid verməkdən daha təsirlidir.

4. Peyğəmbərlərin xəbərdarlıqları kinayəli və eyhamlı yox, aşkar və şəffafdır.

*AYƏ 51:*

﴿أَوَلَمْ يَكْفِهِمْ أَنَّا أَنزَلْنَا عَلَيْكَ الْكِتَابَ يُتْلَى عَلَيْهِمْ إِنَّ فِي ذَلِكَ لَرَحْمَةً وَذِكْرَى لِقَوْمٍ يُؤْمِنُونَ﴾

**“Onlar üçün tilavət edəsən deyə sənə (səmavi) Kitab nazil etməyimiz onları qane etmirmi? Həqiqətən, bu Kitabda iman gətirən qövm üçün mərhəmət və qəti xəbərdarlıq var.”**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, kafirlər Peyğəmbərdən (s) həzrət Musa və İsanın möcüzələri kimi möcüzə istəyirdilər. Hazırkı ayə onlara cavab verir.

**Bildirişlər**

1. Quran əhatəli və kamil bir kitabdır. Bu kitabda bütün mənəvi ehtiyaclara bir növ cavab verilmiş və bu ehtiyaclar təmin olunmuşdur.

2. Həm Peyğəmbər (s), həm də onun kitabı aləmlər üçün rəhmətdir.[1]

3. Quran bir mərhəmət, eyni zamanda qəflətdən uzaqlıq səbəbidir.

4. Rəhmətə çatmaq və ilahi xəbərdarlıqların qəbulu üçün iman şərtdir.

*AYƏ 52:*

﴿قُلْ كَفَى بِاللَّهِ بَيْنِي وَبَيْنَكُمْ شَهِيدًا يَعْلَمُ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَالَّذِينَ آمَنُوا بِالْبَاطِلِ وَكَفَرُوا بِاللَّهِ أُوْلَئِكَ هُمُ الْخَاسِرُونَ﴾

[1] “Ənbiya”, 107.

**“De ki, mənimlə sizin aranızda Allahın şahidliyi yetər. O, göylərdə və yerdə olanı bilir. (Haqqı qoyub) batilə iman gətirənlər və Allahı inkar edənlər həmin ziyankarlardır.”**

**Nöqtələr**

Bu ayə ilə İslam Peyğəmbərinə (s) təsəlli verilir, inadkar və höcətkeş bəhanəçilər hədələnir. Çünki peyğəmbərlə kafirlər arasında Allah şahiddir və O hər şeyin hesabını aparır.

**Bildirişlər**

1. Qarşı tərəf irəli sürülən dəlilləri qəbul etmirsə, söhbəti kəsin və onu Allaha tapşırın.
2. Allah Quranı nazil etməklə və öncəki səmavi kitablarda Peyğəmbərin (s) gəlişi ilə bağlı müjdə verməklə onun sədaqətini təsdiqləmiş və şəhadət vermişdir.
3. Allah hər şeydən xəbərdardır. Beləsə inadkarlıq və bəhanənin nə faydası?!
4. İman və mənəviyyatı boşlayıb, Allahdan qeyrisinə bağlanmaq, küfr və batilə yaxınlaşmaq gerçək zərərlə sonuclanır.
5. Kafirlər əsil ziyankarlardır.

*AYƏ 53:*

﴿وَيَسْتَعْجِلُونَكَ بِالْعَذَابِ وَلَوْلَا أَجَلٌ مُّسَمًّى لَجَاءهُمُ الْعَذَابُ وَلَيَأْتِيَنَّهُم بَغْتَةً وَهُمْ لَا يَشْعُرُونَ﴾

**“Onlar səndən tələsərək əzab istəyirlər. Əgər müəyyən möhlət (müəyyənləşmiş) olmasaydı, hökmən əzab onların sorağına gələrdi. (Amma bilsinlər ki,) əzab onları xəbərsiz olduqları halda qəfil yaxalayacaq.”**

*AYƏ 54:*

﴿يَسْتَعْجِلُونَكَ بِالْعَذَابِ وَإِنَّ جَهَنَّمَ لَمُحِيطَةٌ بِالْكَافِرِينَ﴾

**“Onlar səndən dərhal əzab istəyirlər. Hansı ki, cəhənnəm kafirləri bürüyəsidir.”**

**Nöqtələr**

Quranda dəfələrlə bəyan olunur ki, əzabla hədələnən kafirlər inanmadıqlarından və ya istehza edərək bu əzabın tezləşməsini istəyirdilər. Onların bu tələskənliyi bütün hallarda məzəmmət olunur.

İlahi əzab və qəhr-qəzəbin təxirə düşməsinin bir sıra bərəkətləri var: Bu təxir tövbə üçün fürsətdir, bu arada azğın kişilərdən saleh övladlar dünyaya gəlir, insanların dindarlıq və müqaviməti sınağa çəkilir.

**Bildirişlər**

1. Allahın lütf və ya qəzəbi hikmətə əsaslanır, hesablanmışdır və proqram üzrə həyata keçir. Kiminsə tələsməsi nəzərdə tutulanları dəyişə bilməz.

2. İnsan düşüncə baxımından o qədər süqut edir ki, məhvə razı olur, amma haqqı qəbul etmir.

3. Dünyanın işləri hesablanmış və müəyyənləşdirilmiş zaman bölgüsü əsasında həyata keçir.

4. İlahi qəzəb qəfil olduğundan daimi hazırlıq lazımdır.

5. Allahın qəhr-qəzəbini öncədən müəyyənləşdirmək olmaz.

6. Kafirlər inamsızlıqdan və ya istehza olaraq təcili əzab istəsələr də, bilməlidirlər ki, cəhənnəm hökmən bütün kafirləri əhatə edəsidir.

*AYƏ 55:*

﴿يَوْمَ يَغْشَاهُمُ الْعَذَابُ مِن فَوْقِهِمْ وَمِن تَحْتِ أَرْجُلِهِمْ وَيَقُولُ ذُوقُوا مَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Bir gün (gələr) ki, əzab onları başlarının üzərindən və ayaqlarının altından bürüyər. (Həmin gün Allah) buyurar: “Gördüyünüz işləri (acılığı ilə) dadın.”**

**Bildirişlər**

1. Cəhənnəm əzabı əhatəlidir.

2. Cəhənnəm əzabı öz əməllərimizin təcəssümüdür.

3. İnsan öz taleyinə məsuldur.

4. Cəhənnəm əzabını əhatəli edən pis əməllərimizin davamlı olmasıdır.

*AYƏ 56:*

﴿يَا عِبَادِيَ الَّذِينَ آمَنُوا إِنَّ أَرْضِي وَاسِعَةٌ فَإِيَّايَ فَاعْبُدُونِ﴾

**“Ey iman gətirmiş bəndələrim! Həqiqətən, Mənim yerim genişdir. Beləsə, yalnız Mənə pərəstiş edin.”**

**Nöqtələr**

İslam insanlardan bir qrupuna hicrəti vacib etmişdir. Küfr və azğınlığın hakim olduğu yerlərdə sıxıntı və zülmə məruz qalanlar öz qurtuluşlarını hicrətdə görərlərsə, bu addımı atmalıdırlar. Amma insanın daxilindən və xaricdən qaynaqlanan bir sıra vəsvəsələr bu vəzifənin həyata keçirilməsinə mane olur. Növbəti ayələrdə bu vəsvəsələr nəzərdən keçiriləcək:

–Ölüm təhlükəsi; insan düşünür ki, əgər hicrət etsə, ölümlə üzləşə bilər. Növbəti ayədə buyurulur ki, harada olsanız ölümü dadacaqsınız.

–Vətənə bağlılıq; insan üçün vətəndən ayrılmaq çətindir. Bu bağlılıq onu hicrətlə bağlı şübhələrə salır. 58-ci ayədə bildirilir ki, hicrət edənlərə dünyadakı məskənləri əvəzinə behişt məskənləri mükafat verilər.

–Hicrətin çətinlikləri; bu çətinliklər iman əhlinin hicrətinə mane olur. 59-cu ayədə buyurulur ki, bu çətinliyi səbir və Allaha təvəkküllə həll etmək lazımdır.

–Dolanışıq ehtiyaclarının təmini; hicrət etmək istəyən insan düşünə bilər ki, hicrət onu gündəlik gəlirdən, ruzidən məhrum edə bilər. 60-cı ayədə bildirilir ki, ruzi verən Allahdır, o hətta ruzi daşımağa gücü olmayanlara ruzi verir. Halbuki hicrət edənlər çalışıb səy göstərə bilər.

Hicrət insanda ixlas üçün zəmin yaradır. İnsan fərdə, firqəyə, məntəqəyə, qəbiləyə, dolanışıq imkanlarına bağlılıq səbəbindən hicrət etmədikdə bu bağlılıqlar insanı ixlaslı olmağa qoymur. Hicrət etməklə mənfi bağlılıqlardan qurtulan insan üçün ən üstün ixlas zəmini yaranır.

İmam Baqir (ə) uyğun ayə ilə bağlı buyurur: “Günahkar hakimə tabe olmayın. Dininizə zərbə vurulacağından qorxduqda hicrət edin.”[1]

**Bildirişlər**

1. Hicrət ağrılarına dözmək üçün Allahın sevgili nidasını, hicrət edənlərə xüsusi diqqətini yadda saxlayaq.

2. Hicrət üçün məskən seçərkən ibadət tövfiqini, Allahın yardımını əsas götürək.

3. Allaha davamlı şəkildə bəndəlik etmək lazımdır. (Uca iman mərtəbələrinə çatmaq üçün bəndəliyi davam etdirin.)

4. İman sayəsində baş tutan hicrət dəyərlidir.

5. Səfər məqsədli olmalıdır.

6. Dinimizi qorumaq və azğın hakimlərdən qurtuluş üçün hicrət edək.

7. Məntəqəyə bağlılıqdan qurtuluş bir çox mənfi bağlılıqlardan qurtuluşun və Allaha bağlılığın müqəddiməsidir.

8. Məntəqəyə bağlılıq səbəbindən yolunu azanların üzrü qəbul deyil. Çünki yer üzündə dini vəzifələri yerinə yetirmək üçün həmişə münasib fəza var.

### *AYƏ 57:*

﴿كُلُّ نَفْسٍ ذَائِقَةُ الْمَوْتِ ثُمَّ إِلَيْنَا تُرْجَعُونَ﴾

**“Hər bir nəfs ölümü dadasıdır; sonra Bizə doğru qaytarılarsınız.”**

**Nöqtələr**

Bu ayə hicrətdə ölüm məsələsini önə çəkən əvvəlki ayə ilə bağlı ola bilər. Cavab verilir ki, hicrət zəruri olan zaman ölümdən qorxmayın. Çünki ölüm hamı üçün labüddür. Amma ölüm işin sonu deyil, Bizə doğru qayıdışdır və Biz hicrətin, hicrətdə ölümün mükafatını sizə əta edəcəyik; eləcə də sizi hicrətə

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

məcbur edənlər cəzalandırılacaq. Ola bilsin ki, bu mükafat və cəza bir müddət sonra gerçəkləşsin.

**Bildirişlər**

1. Ölüm hamı üçündür, kimsə istisna olunmayıb.
2.Ölüm yoxluq yox, dəyişiklikdir.
3. Ölüm son yox, ilkə qayıdışdır.

*AYƏ 58:*

﴿وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَنُبَوِّئَنَّهُم مِّنَ الْجَنَّةِ غُرَفًا تَجْرِي مِن تَحْتِهَا الْأَنْهَارُ خَالِدِينَ فِيهَا نِعْمَ أَجْرُ الْعَامِلِينَ﴾

**"İman gətirib saleh işlər görənləri hökmən altından çaylar axan behişt məskənlərində yerləşdirərik; həmişə orada qalarlar; əməl edənlərin mükafatı necə də gözəldir!"**

**Nöqtələr**

Ola bilsin ki, bu ayə hicrəti saleh əməl nümunəsi sayan 56-cı ayəyə işarədir. Yəni Allah müqəddəs hədəflər naminə vətənini tərk edənləri axirət məskənləri ilə təmin edər.

"Təbəvv" dedikdə daimi məskən mənası anlaşılır. "Ğurəfə" dedikdə hündür yer nəzərdə tutulur.

"Əssalihat" dedikdə hər növ yaxşı iş görən toplum nəzərdə tutulur.

**Bildirişlər**

1. Saleh işlər imanla müşayiət edildikdə dəyərli olur.
2. Behiştə daxil olmaq üçün iman və saleh əməl şərt sayılır.
3. Allah möminlərin behiştə daxil olacağına zamindir.
4. Behişt yüksəklikləri çox alidir.
5. Behişt arxları daim cərəyandadır.
6. Behişt və onun nemətlərini əldə etmək üçün əməl əsas şərtdir.

*AYƏ 59:*

﴿الَّذِينَ صَبَرُوا وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ﴾

**"(Saleh möminlər) o kəslərdir ki, (çətinliklər qarşısında) səbirlə dayanıb Rəblərinə təvəkkül edirlər."**

*AYƏ 60:*

﴿وَكَأَيِّن مِن دَابَّةٍ لَا تَحْمِلُ رِزْقَهَا اللَّهُ يَرْزُقُهَا وَإِيَّاكُمْ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**"Öz ruzisini əldə edə bilməyən canlılar çoxdur. Onlara və sizə ruzi verən Allahdır, Allah eşidən və biləndir."**

**Nöqtələr**

"Təhmilu" dedikdə öhdəyə götürmək mənası nəzərdə tutulur. Ruzi əldə etmək dedikdə gələcək üçün ehtiyat toplamaq nəzərdə tutula bilər.

56-cı ayədə hicrət göstərişi verildi. Bu ayədə isə buyurulur ki, Allah yolunda hicrət edənlər ruzi və dolanışığa görə narahat olmasınlar. Zəif canlılara ruzi verən Allah sizin də ruzinizi verəcəkdir.

**Bildirişlər**

1. Səbir və təvəkkül saleh əməlin iki aydın nümunəsidir.
2. Allahın rübubiyyəti (hər şeyi idarə etməsi) Ona təvəkkül üçün zəmindir.
3. Psixoloji təzyiqlər və həyat çətinlikləri salehlərin yolunda maneədir. Bu maneələri səbir və təvəkküllə adlamaq lazımdır.
4. Müvəffəqiyyət və xoşbəxtliyin dörd rəmzi var: İman, əməl, səbir və vəsvəsələr zamanı Allaha təvəkkül.
5. İnsan öz qüvvəsi həddində çalışıb səy göstərməklə Allaha təvəkkül etməlidir. (Yəni iman gətirib saleh işlər görənlər öncə imkanları həddində çalışır, qarşıdakı təhlükələr və gözlənilməyən hadisələr müqabilində Allaha təvəkkül edirlər.)
6. Allaha iman və təvəkkül hissini gücləndirmək üçün Onun digər mövcudlara olan lütfünü yada salaq.
7. Ruzi qazanmaq təkcə səy və təlaşdan asılı deyil.
8. Allah həm zəif canlılara, həm də sağlam insanlara ruzi verməyə qadirdir.
9. Allahın elm və agahlığı mövcudların ruzi ilə təminatına zəmanət verir.

### *AYƏ 61:*

﴿وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ لَيَقُولُنَّ اللَّهُ فَأَنَّى يُؤْفَكُونَ﴾

**"Əgər onlardan (müşriklərdən) göyləri və yeri kimin yaratdığını, günəşi və ayı kimin ram etdiyini soruşsan, hökmən "Allah" deyə cavab verəcəklər. Bəs haraya üz çevirirlər?"**

**Nöqtələr**

"İfk" dedikdə bir şeyin həqiqi simasını dəyişmək nəzərdə tutulur. Yəni bilərəkdən həqiqəti dəyişmək!

"Günəş və ayın ram edilməsi" dedikdə onların bizə faydalı orbitlərdə saxlanılması nəzərdə tutulur.[1]

**Bildirişlər**

1. Varlığın yaranışı ilə bağlı suallar ünvanlamaqla həm yatmış vicdanları oyadaq, həm də insanların iman və əqidəsindən xəbərdar olaq.

---

[1] "Təfsire-rahnoma".

2. Əqidə ilə bağlı söhbətlərdə aydın və anlaşılan nümunələrdən istifadə edək. (Səma, yer, günəş və ay bu qəbildəndir.)

3. Müşriklər Allahı varlıq aləminin yaradıcısı kimi tanıyır, amma talelərində başqalarının da rol oynadığını düşünürdülər.

4. İnsanda haqqa meyl fitridir. Müşriklər fitrətə zidd gedərək öz yollarını dəyişirlər. "Yufəkun sözü məchul formada işləndiyindən, belə anlaşılır ki, nəzərdə tutulan şəxslər xarici təlqinlər səbəbindən doğru yoldan azmışlar.

*AYƏ 62:*

﴿اللَّهُ يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ إِنَّ اللَّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**"Allah bəndələrindən istədiyinə ruzini artırar və ya əskildər. Həqiqətən, Allah hər şeydən agahdır."**

**Nöqtələr**

Allah fərdlərin ruzisini elm, hikmət və digər meyarlar əsasında artırıb-əskildir. Hədisdə oxuyuruq: Bəzilərinin ruzisinin artması onların xeyrinədir. Onlar kasıblığa düşdükdə yollarını azırlar. Əksinə, başqa bir qrupun xeyiri onların yoxsulluğundadır. Onlar varlandıqda fəsada sürüklənirlər.[1]

**Bildirişlər**

1. Ruzi təsadüfi olaraq artıb-əskilmir.

2. Bizim vəzifəmiz çalışmaqdır. Nə qədər qazanacağımız isə bizdən asılı deyildir.

3. Allahın istək və iradəsi Onun elm və agahlığına əsaslanır.

*AYƏ 63:*

﴿وَلَئِن سَأَلْتَهُم مَّن نَّزَّلَ مِنَ السَّمَاء مَاء فَأَحْيَا بِهِ الْأَرْضَ مِن بَعْدِ مَوْتِهَا لَيَقُولُنَّ اللَّهُ قُلِ الْحَمْدُ لِلَّهِ بَلْ أَكْثَرُهُمْ لَا يَعْقِلُونَ﴾

**"Əgər onlardan (müşriklərdən) soruşsan ki, torpaq öldükdən sonra onu diriləndən suyu səmadan kim endirir, hökmən "Allah" deyə cavab verərlər. De ki, sitayiş Allaha məxsusdur. Amma onların çoxu düşünməz."**

**Nöqtələr**

Peyğəmbərin həmd oxumasının səbəbi kafirlərə xəbərdarlığın başa çatması ilə əlaqədar ola bilər. Əgər kafirlər dilləri ilə Allahın xaliqliyini iqrar etdilərsə, şükür olsun Allaha ki, xəbərdarlıq başa çatdı.

**Bildirişlər**

1. Sual ünvanlanması düşüncələri, mədəniyyətləri və əqidələri yaxınlaşdırma vasitəsidir.

---

[1] "Təfsire-Ətyəbul-bəyan",

2. Azğınları özbaşına buraxmayaq, müxtəlif elmi üsullarla onlara müraciət edək.

3. Su torpaq üçün həyat qaynağıdır.

4. Otsuz torpaq ölüdür.

5. Quranın hidayət üsulu təbii və hiss olunan hadisələri nəzərə çatdırmaqdır.

6. Allahşünaslıq fitridir. Azğınların fitrətini bürümüş günah və azğınlıq tozu təmizlənərsə onların etiraf etdiyini görərsiniz.

7. Şükür olunası böyük nemətlərdən biri iman və fitrət nurudur.

8. Fitrət nuru düşüncə ilə inkişaf etdikdə insana nicat verə bilir.

9. Mühakimələrimizdə çoxluğu meyar saymayaq. Çox vaxt azlıq haqlı, çoxluq isə haqsız olur.

10. Düşüncəsiz işlər məzəmmətə layiqdir.

### *AYƏ 64:*

﴿وَمَا هَذِهِ الْحَيَاةُ الدُّنْيَا إِلَّا لَهْوٌ وَلَعِبٌ وَإِنَّ الدَّارَ الْآخِرَةَ لَهِيَ الْحَيَوَانُ لَوْ كَانُوا يَعْلَمُونَ﴾

**“Bu dünya həyatı əyləncə və oyundan başqa şey deyil. Əgər bilsələr, həqiqi həyat həmin axirət evidir.”**

**Nöqtələr**

“İnsanı əsil məqsəddən yayındıran əyləncələr “ləhv” adlanır. Oyun kimi vaxt aparan məqsədsiz işlərə isə “ləib” deyilir.[1]

“Hazihid-dünya” təbiri dünyanın əhəmiyyətsizliyini, “ləhiyəl-həyəvan” təbiri axirətin əzəmətini göstərir.

**Sual:** Əgər Quran özü yer üzünün abadlaşdırılması üçün təlaşı, yer üzündə səyahəti, təbiətdən faydalanmanı, ailə-övlad sahibi olmağı, qazanc əldə etməyi tövsiyə edirsə, nə üçün bu ayədə dünya əyləncə və oyun sayılır?

**Cavab:** Müqəddəs məqsədlərə çatmaq üçün nəzərdə tutulmuş qaydalar əsasında dünya həyatından faydalanmaq əslində axirət üçün çalışmaqdır. Ayədə məzəmmət olunan isə müqəddəs məqsədlərdən və dini ölçülərdən uzaq bir həyatdır.

**Bildirişlər**

1. Dünya məqsədlidir və hikmət əsasında yaradılmışdır. Amma axirətdən qəflətdə qalıb dünyapərəstliyə uğramaq ağılsızlıqdır.

2. Xalqı razı salmaq məqsədi ilə daim susmaq düzgün deyil. Bəzən fəryad çəkməklə qafilləri oyatmaq lazımdır.

3. Təbliğdə pis işlərə qadağa qoyduğunuz vaxt onların yerinə yaxşı işlər təklif edin.

---

[1] “Mufrədati-Rağib”.

4. Həqiqi həyat axirət həyatıdır.
5. İnsanlar axirət həqiqətini anlasaydılar dünyaya əsir olmazdılar.

*AYƏ 65:*

﴿فَإِذَا رَكِبُوا فِي الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ إِذَا هُمْ يُشْرِكُونَ﴾

**"Onlar gəmiyə mindikləri vaxt səmimi qəlbdən Allahı çağırır, (Allah) onları quruya çatdırıb xilas etdiyi vaxt yenə şirkə uğrayırlar."**

**Nöqtələr**

**Sual:** Materialistlər bildirirlər ki, imanın kökü təbiət hadisələri qarşısında duyulan qorxudur. Onlar qorxunu dinin kökü sayırlar. Onların nəzərincə, qorxmuş insan uşaqlıqda anasına, böyüdükdə tanrı saydığı bir qüvvəyə sığınır. Ayədə də oxşar fikirlə rastlaşırıq: İnsanlardan bəziləri təhlükə hiss etdiyi vaxt Allahı çağırır. Bu ayə materialistlərin fikrini təsdiqləmirmi?

**Cavab:** Ayədə buyurulur ki, qorxu zamanı Allahın yada salınması qorxudan yaranır. Yəni söhbət Allahdan yox, Allahın yada salınmasından gedir. Məsələn, biz itlə qarşılaşdığımız vaxt təhlükə hiss edib daşa əl atırıq. Amma bu o demək deyil ki, daş iti qovmaq üçün yaradılıb. Əzəli bir qüdrətə inam fitridir. Sadəcə hadisələr zamanı insan bu qüdrəti yada salır.

**Bildirişlər**

1. Qorxu fitrət üzərindən qəflət tozunu silir və bəndəlik fitrəti oyanır.
2. İman mövsümi və müvəqqəti olmamalıdır.
3. Məkan və zaman Quran misallarını gücdən salmır. Gəmi tarix boyu mövcud olmuş bir nəqliyyat vasitəsidir.
4. İxlasdan da mühümü bu halı qorumaqdır.
5. Xalisanə dua qəbuldur.
6. Çətinliklərdən qurtuluş şirk yox, şükür üçün bir yoldur.

*AYƏ 66:*

﴿لِيَكْفُرُوا بِمَا آتَيْنَاهُمْ وَلِيَتَمَتَّعُوا فَسَوْفَ يَعْلَمُونَ﴾

**“(Qoy) onlara verdiyimizə görə nankorluq etsinlər və (ötəri ləzzətlərdən) faydalansınlar. Amma tezliklə anlayacaqlar.”**

**Nöqtələr**

“Yəkfuru” sözü nemət qarşısında nankorluq mənasını bildirir. Çünki həmin sözdən sonra gələn “atəynahum” sözü nemət verilməsinə işarədir.

**Bildirişlər**

1. Şirk bir növ nankorluq və naşükürlükdür.
2. Həm saleh, həm də qeyri-saleh insanlar dünya həyatından faydalana bilər.
3. Nankorluqla ləzzət almaqdan şadlanmayın, bu işin sonu ağrılıdır.
4. Tərbiyə prosesində hədəyə də ehtiyac var.

***AYƏ 67:***

﴿أَوَلَمْ يَرَوْا أَنَّا جَعَلْنَا حَرَمًا آمِنًا وَيُتَخَطَّفُ النَّاسُ مِنْ حَوْلِهِمْ أَفَبِالْبَاطِلِ يُؤْمِنُونَ وَبِنِعْمَةِ اللَّهِ يَكْفُرُونَ﴾

**“Görmədilərmi ki, ətrafda insanlar oğurlanan bir vaxt əmin-aman bir yer qərar verdik?! Yoxsa batilə iman gətirib Allahın nemətlərini inkar edirlər?”**

**Bildirişlər**

1. İnsanları Allah yoluna dəvət üsullarından biri onlara ilahi nemətləri xatırlatmaqdır.
2. Ətrafdakıların düşdüyü təhlükəli vəziyyəti xatırlatmaq əmin-amanlığı insanın nəzərində böyüdür.
3. Əmin-amanlıq ibadət üçün zəmindir.[1] Amma bir qrup insan bunun qədrini bilmir, küfrə üz tutur.

***AYƏ 68:***

﴿وَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا أَوْ كَذَّبَ بِالْحَقِّ لَمَّا جَاءهُ أَلَيْسَ فِي جَهَنَّمَ مَثْوًى لِّلْكَافِرِينَ﴾

**“Allaha iftira yaxan və ya haqq sorağınca gəldiyi vaxt onu təkzib edən kəsdən də sitəmkarı kimdir?! Yoxsa kafirlər üçün cəhənnəmdə yer ayrılmayıb?”**

**Bildirişlər**

1. Vəhyi artırıb-əskiltmədən qəbul etmək lazımdır. Dinə bir şey artırmaq iftira və ən pis zülmdür.

---

[1] “Qüreyş”, 3, 4.

2. Ən pis zülm ideoloji zülmdür. Bu zülm insanın haqq qarşısında təslimçiliyinə zərbə vurur.

3. Xəbərdarlıq başa çatdıqdan sonra ilahi əzab nazil olur.

***AYƏ 69:***

﴿وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا وَإِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ﴾

**“Bizim yolumuzda cihad edənlərə Öz (yaxınlıq) yollarımızı göstərəcəyik. Həqiqətən, Allah xeyir əməl sahibləri ilədir.”**

**Bildirişlər**

1. Allahın xüsusi hidayətinə nail olmaq üçün çalışmaq lazımdır. İlk addımı insan özü atmalıdır.[1]

2. Bəzən bir addım və bir anlıq səmimi təlaş insanı hidayətə, əbədi qurtuluşa çatdırır.

3. Müdiriyyət və rəhbərlikdə ilk andan bütün işin aydınlaşması zəruri deyil. İlk ilahi addım atıldıqdan sonra qeybi hidayətlər görünür.

4. Təlaşlara dəyər verən xalislikdir.

5. Allaha yaxınlıq yolları məhdud deyildir.

6. Allahın vədlərinə əmin olaq.

7. Haqq yolda təlaş və ixlas xeyir əməl nişanəsidir.

8. Zəif bəndənin qadir Allahla yaxın olması bütün problemlərin həll olmasıdır. İmam Hüseyn (ə) “Ərəfə” duasında oxuyur: “Səni tapanın nəyi yoxdur?! Səni itirənin nəyi var?!

9. Allah həm yaxınlıq yolunu göstərir, həm də məqsədə çatanadək əlimizdən tutur.

---

[1] “Muhəmməd”, 7.

# “RUM” SURƏSİ

## *(30-CU SURƏ, 60 AYƏ)*

### *İyirmi birinci cüz*

### *“RUM” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 60 ayədən ibarətdir. Bir çox başqa Məkkə surələri kimi bu surənin də əsas mövzusunu yaranış və məad mövzuları, iman və küfr əhlinin bu barədə söhbətləri təşkil edir. Surə rumlular və iranlılar arasında müharibəni öncədən xəbər verməklə başlayır. Bu səbəbdən onu “Rum” adlandırmışlar.

Surədəki ayələrin böyük bir hissəsində göylərdə və yerdə olan ilahi nemətlərdən, bitkilər və heyvanlar arasında zövciyyətdən (cütlükdən), insanın torpaqdan yaradılması və qadın-kişi münasibətlərindən, gündüzün təlaş, gecənin istirahət üçün olmasından, yağışdan və küləkdən, torpağın ölüb-dirilməsindən danışılır.

**Rəhman və rəhim Allahın adı ilə**

﴿بسم الله الرحمن الرحيم﴾

*AYƏ 1, 2:*

﴿الم غُلِبَتِ الرُّومُ﴾

**“Əlif, lam, mim; rumlular (iranlılara) məğlub oldular.”**

*AYƏ 3:*

﴿فِي أَدْنَى الْأَرْضِ وَهُم مِّن بَعْدِ غَلَبِهِمْ سَيَغْلِبُونَ﴾

**“(Bu məğlubiyyət) ən yaxın yerdə (baş verdi). Amma onlar məğlub olduqdan sonra yaxın gələcəkdə qalib gələcəklər.”**

*AYƏ 4:*

﴿فِي بِضْعِ سِنِينَ لِلَّهِ الْأَمْرُ مِن قَبْلُ وَمِن بَعْدُ وَيَوْمَئِذٍ يَفْرَحُ الْمُؤْمِنُونَ﴾

**“(Bu qələbə) bir neçə il ərzində (baş tutacaq). Qələbə və məğlubiyyətdən əvvəl də, ondan sonra da iş yalnız Allahın əlindədir. Həmin gün möminlər xoşhal olacaq.”**

*AYƏ 5:*

﴿بِنَصْرِ اللَّهِ يَنصُرُ مَن يَشَاء وَهُوَ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Allah istədiyinə Öz yardımı ilə əl tutur. O, qüvvət sahibi və mehribandır.”**

**Nöqtələr**

“Bizə” dedikdə tikə, parça, hissə mənaları anlaşılır. Əziz Peyğəmbər (s) buyurur: “Fatimə mənim ciyərparəmdir.”[1] Bəzən “bizə dedikdə (üç ildən doqquz ilədək) zaman kəsiyi nəzərdə tutulur.

**Sual:** Rumluların iranlılara qələbəsinin müsəlmanlara nə aidiyyatı var idi?

**Cavab:** İslam Peyğəmbəri (s) İran və Rum padşahlarına məktub yazıb onları İslam dininə dəvət etdi. İran şahı Xosrov Pərviz Peyğəmbərin (s) məktubunu tikələyib bir kənara atdı, amma Rum qeysəri uyğun məktubu hörmətlə qəbul etdi. Müsəlmanlar Peyğəmbərin (s) məktubuna hörmətlə yanaşmış rumluların qələbə çalmasını arzulayırdılar. Amma rumlular məğlub oldular və bu məğlubiyyət müsəlmanları narahat etdi. Allah bu ayələri nazil etməklə

[1] “Vəsail”, c. 20, s. 67.

müsəlmanları müjdələdi ki, rumlular məğlub olsalar da, yaxın gələcəkdə qalib gələsidirlər. Bəli, bu qələbə möminləri sevindirəsi idi.[1]

Bəli, imanlı cəmiyyət təkcə özünə qapılıb qalmamalı, başqa millətlərin qarşısına çıxan acılı-şirinli hadisələrə qarşı əks-əməl göstərməlidir.

**Bildirişlər**

1. Gələcəklə bağlı doğru-dürüst məlumatlar verməsi Quranın möcüzə olması nişanələrindəndir. (Rumlular iranlılara məğlub oldular. Amma Quran öncədən xəbər verir ki, yaxın gələcəkdə rumlular qələbə çalasıdırlar. Necə deyilmişdisə, elə də oldu.)
2. Bir məğlubiyyət sizi məyus etməsin.
3. Qələbə və məğlubiyyətlərdə tövhid prinsipi yaddan çıxmasın.
4. Həm qələbə, həm də fərdi güc Allahdandır.
5. Allahın bəxş etdiyi izzət və rəhmət ilahi qələbə rəmzidir.

*AYƏ 6:*

﴿وَعْدَ اللَّهِ لَا يُخْلِفُ اللَّهُ وَعْدَهُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ﴾

**"(Bu qələbə) ilahi bir vəddir. Allah Öz vədinə xilaf çıxmır. Amma insanların çoxu bilməz."**

**Bildirişlər**

1. İlahi vədlərin gerçəkləşməsindən xalqı imana çağırarkən istifadə edin.
2. Vədəxilaflıq ya acizlik, ya cəhalət, ya da peşmanlıq əlamətidir. Allah bütün bu sifətlərdən pakdır.
3. Vədəxilaflıq pis səciyyədir. Amma əzab vədinin geri götürülməsi bir növ rəhmətdir.
4. Bir çox insanlar Allahın Öz vədini yerinə yetirəcəyinə şübhə ilə yanaşırlar.
5. Çoxluq meyar deyil. Əsas məsələ bilik, iman və məsuliyyətdir.

*AYƏ 7:*

﴿يَعْلَمُونَ ظَاهِرًا مِّنَ الْحَيَاةِ الدُّنْيَا وَهُمْ عَنِ الْآخِرَةِ هُمْ غَافِلُونَ﴾

**"(İnsanlar) dünya həyatının yalnız zahirini görürlər və axirətdən xəbərsizdirlər."**

**Bildirişlər**

1. Darbaxışlılıq, mahiyyətə varmamaq bir növ cəhalətdir.
2. İnsan zahirlə kifayətlənib qafil qalmamalı, dərindən mütaliə edib mahiyyətə varmalıdır.
3. Dünya pis deyil, axirətdən xəbərsizlik pisdir.

[1] "Təfsire-Nurus-səqəleyn".

4. Axirət barədə düşünmədən maddi dünyanın zahiri ilə kifayətlənmək məzəmmət olunur.

5. Dünyanın zahiri və batini var. Axirət bu dünyanın batinidir.

6. Dünyanın zahirinə diqqət axirətdən xəbərsizliyə səbəb olur.

*AYƏ 8:*

﴿أَوَلَمْ يَتَفَكَّرُوا فِي أَنفُسِهِمْ مَا خَلَقَ اللَّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا إِلَّا
بِالْحَقِّ وَأَجَلٍ مُّسَمًّى وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ بِلِقَاءِ رَبِّهِمْ لَكَافِرُونَ﴾

**“Onlar öz varlıqları haqqında düşünmürlərmi?! Allah göyləri və yeri, onlar arasında olanı yalnız haqq əsasında müəyyən müddət üçün yaratmışdır. Şübhəsiz, insanların çoxu özlərinin Rəbbi ilə (Qiyamətdə) görüşü inkar edir.”**

**Bildirişlər**

1. Qəflət xəstəliyinin əlacı təfəkkürdür.

2. Hay-küydən və mənfi təsirlərdən uzaq, ağıl və fitrətə əsaslanan təfəkkür faydalıdır.

3. Yaranış həm məqsədlidir, həm də onun üçün zaman bölgüsü var.

4. Dünya müəyyən müddətdən artıq davam edəsi deyil.

5. Sağlam düşüncənin sonu varlıq və axirətin məqsədli və gerçək olmasına iman, düşüncəsizliyin sonu axirət aləminin inkarıdır.

*AYƏ 9:*

﴿أَوَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَيَنظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلِهِمْ كَانُوا أَشَدَّ
مِنْهُمْ قُوَّةً وَأَثَارُوا الْأَرْضَ وَعَمَرُوهَا أَكْثَرَ مِمَّا عَمَرُوهَا وَجَاءَتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ
فَمَا كَانَ اللَّهُ لِيَظْلِمَهُمْ وَلَكِن كَانُوا أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Onlar özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmək üçün yer üzünü gəzmədilərmi? Onlar bunlardan güclü idilər. Torpağın altını üstünə çevirmiş, bunlar abad etdiyindən daha çox abad etmişdilər. Onların peyğəmbərləri aşkar dəlillərlə soraqlarına gəldi. (Amma onlar inkar edib Allahın qəzəbinə düçar oldular.) Beləcə, Allah onlara zülm etmədi, onlar özləri özlərinə sitəm qıldılar.”**

**Nöqtələr**

İmam Sadiq (ə) “əvələm yəsiru fil-ərz” cümləsi ilə bağlı buyurmuşdur: “Nəzərdə tutulan keçmiş qövmlərin Qurandakı tarixini nəzərdən keçirməkdir.”[1]

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

Həzrət Əli (ə) tarixlə tanışlığın zəruriliyini övladının nəzərinə çatdıraraq buyurur: “Uzun ömür sürməsəm də, keçmişdəkilərin tarixi ilə o qədər tanışam ki, sanki tarix uzunluqda ömrüm var.”[1]

**Bildirişlər**

1. Tarixin öyrənilməsi, başqalarının təcrübələrindən istifadə mərifət yollarındandır və bu yolun tərki məzəmmət olunur.

2. Tarix və tarix fəlsəfəsi ilə tanışlıq, keçmiş qövmlərin başına gələnləri mütaliə etmək insanı səthi baxışdan xilas edir.

3. Tarixi təbəddülatlar sabit qanunlara əsaslanır. Keçmişdən bu gün və sabah üçün ibrət götürmək olar.

4. Müşahidə və gəzinti insanın diqqətini artırmalı, onu qəflətdən xilas etməlidir.

5. Keçmiş qövmlərin gündəlik həyatını yox, tale və aqibətini araşdırın.

6. İslamdan öncə böyük mədəniyyətlər və hakimiyyətlər gəlib-getmişdir.

7. Allahın qəzəbi gələn yerdə heç bir qövm və qüdrət tab gətirmir.

8. Böyük qüdrətlərin acı aqibəti insanı qürurdan uzaqlaşdırır.

9. Səadət və xoşbəxtlik başlıca olaraq güc və abadlıqdan yox, iman və peyğəmbərlərə itaətdən asılıdır.

10. Güc və sərvətə aldanış insanın peyğəmbərlərə iman gətirməsinə mane olur.

11. Təbliğ və tərbiyədə aydın üsullardan və dəlillərdən istifadə edək.

12. Allah ədalətli və mehribandır. Keçmiş qövmlər isə öz düşüncə və əməlləri səbəbindən həlak olmuşlar.

13. Peyğəmbər göstərişlərinə itaətsizlik insanın özünə qarşı zülmüdür və əzabla sonuclanır.

### *AYƏ 10:*

﴿ثُمَّ كَانَ عَاقِبَةَ الَّذِينَ أَسَاؤُوا السُّوأَى أَن كَذَّبُوا بِآيَاتِ اللَّهِ وَكَانُوا بِهَا يَسْتَهْزِؤُون﴾

**“Çirkin işlər görənlər sonda Allahın ayələrini təkzib etdilər. Onu daim məsxərəyə qoyurdular.”**

---

[1] “Nəhcül-bəlağə”, namə 31.

**Bildirişlər**

1. Təkzib edib məsxərəyə qoyanlar əzabdan başqa bir şey qazanmadılar.

2. İnsan mərhələ-mərhələ süqut edir: öncə günah, sonra təkzib, daha sonra istehza.

*AYƏ 11.*

﴿اللَّهُ يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ ثُمَّ إِلَيْهِ تُرْجَعُونَ﴾

**“Allah yaranışa başlayır, sonra onu təzələyir. Həmin vaxt Ona doğru qaytarılarsınız.”**

*AYƏ 12:*

﴿وَيَوْمَ تَقُومُ السَّاعَةُ يُبْلِسُ الْمُجْرِمُونَ﴾

**“Qiyamət bərpa olan gün günahkarlar məyus və qəmgin olarlar.”**

*AYƏ 13:*

﴿وَلَمْ يَكُن لَّهُم مِّن شُرَكَائِهِمْ شُفَعَاء وَكَانُوا بِشُرَكَائِهِمْ كَافِرِينَ﴾

**“(Qoşduqları) şəriklərdən onlara şəfaətçi olmayacaq. Onlar (həmin gün) öz şəriklərini inkar edərlər.”**

**Nöqtələr**

“Yublisu” dedikdə dərin məyusluqdan yaranmış qəm-qüssə mənası nəzərdə tutulur. “İblis” sözü də eyni kökdəndir.

**Bildirişlər**

1. Dəlil göstərərkən göz qabağında olanları dərk olunası məsələlər üçün dəlil göstərək. İlkin yaranış növbəti yaranışlara iqtidarın dəlilidir.

2. Allaha doğru qayıdış və Qiyamət sorğusu məcburidir.

3. Azğınların bugünkü şadlığına baxmayın, qarşıda onları dərdli günlər gözləyir.

4. Uydurma şəfaətlərə arxayın olmayaq.

5. Qiyamətdə saxta məhəbbətlər kin-küdurətə, küfr və lənətə çevrilər.

*AYƏ 14:*

﴿وَيَوْمَ تَقُومُ السَّاعَةُ يَوْمَئِذٍ يَتَفَرَّقُونَ﴾

**“Qiyamət bərpa olunan gün (insanlar) bir-birlərindən ayrılarlar.”**

*AYƏ 15:*

﴿فَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فَهُمْ فِي رَوْضَةٍ يُحْبَرُونَ﴾

**“İman gətirib saleh işlər görənlər (behiştdəki) bir bağda şadlanacaq.”**

**Nöqtələr**

Bol suyu və ağacları olan bağ “rövzə” adlanır.

“Hibr” sözündən olan “yuhbərun” sözü əlaməti çöhrədə görünən şadlıq mənasını bildirir.

**Bildirişlər**

1. Qiyamətdə paklar çirkinlərdən ayrılar. (Qiyamət günü həm toplanış, həm də ayrılıq günüdür.[1])

2. Qiyamət qeyri-ilahi bağlılıqların və dostluqların sona çatdığı gündür.

3. Saleh əməl, xeyir işlərlə müşayiət olunan iman dəyərlidir.

4. İman və niyyət əməldən daha mühümdür.

5. İman və saleh əməl qurtuluş və behiştə giriş üçün şərtdir.

***AYƏ 16:***

﴿وَأَمَّا الَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآيَاتِنَا وَلِقَاءِ الْآخِرَةِ فَأُوْلَئِكَ فِي الْعَذَابِ مُحْضَرُونَ﴾

**“Küfrə uğrayıb ayələrimizi və axirət görüşünü inkar edənlər əzabda saxlanılanlardır.”**

***AYƏ 17:***

﴿فَسُبْحَانَ اللَّهِ حِينَ تُمْسُونَ وَحِينَ تُصْبِحُونَ﴾

**“Gecəyə daxil olan və sübhə çıxan vaxtlar Allahın paklığını zikr edin.”**

***AYƏ 18:***

﴿وَلَهُ الْحَمْدُ فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَعَشِيًّا وَحِينَ تُظْهِرُونَ﴾

**“Göylərdə və yerdə gecə vaxtı və günorta həmd-səna Ona məxsusdur.”**

**Nöqtələr**

Bəzilərinin nəzərincə, bu ayələr sübh, günorta və axşam qılınan beş namaza işarədir.

“Fəsubhanəllahi” və “ləhul-həmdu” cümlələri Allahın pak sayılması və Ona həmd-səna deyilməsi üçün göstəriş ola bilər.

**Bildirişlər**

1. Yaxşıların və pislərin aqibətini bəyan etməklə ətrafdakıları yaxşılığa təşviq edib pislikdən çəkindirək.

2. İlahi ayələrin və Qiyamətin təkzibi insandakı küfr və inadkarlıqdan qaynaqlanır.

3. İnsanın taleyi onun öz əməllərindən asılıdır.

---

[1] “Şura”, 7; “Saffat”, 21.

4. Beş namaz zamanı Allahın müqəddəs zatı da "sübhanəllah", demişdir.

5. Günün müəyyən vaxtları Allahın zikri üçün daha münasibdir.

6. Allahın bütün eyblərdən pak sayılması Ona həmd-sənadan öndə gəlir. (Yəni əvvəlcə "sübhanəllah" sonra "əlhəmdulillah".)

7. Təsbih ("sübhanəllah") və həmd hər yerdə və hər zaman dəyərlidir.

### *AYƏ 19:*

﴿يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَيُخْرِجُ الْمَيِّتَ مِنَ الْحَيِّ وَيُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا وَكَذَلِكَ تُخْرَجُونَ﴾

**"Dirini ölüdən, ölünü diridən çıxarır, öldükdən sonra torpağı dirildir. Siz də (qiyamət günü) bu sayaq xaric edilərsiniz."**

**Nöqtələr**

Dirinin ölüdən, ölünün diridən çıxarılması məsələsi ilə bağlı təfsirlərdə bir çox açıqlamalar verilmişdir. O cümlədən: insanın nütfədən, nütfənin insandan yaranması; kafir valideyndən mömin övlad və mömin valideyndən kafir övlad ərsəyə gəlməsi... Bütün bunlar Allahın mütləq qüdrətindən danışır, Qiyamətin bərpasına və mövcudların ayağa qaldırılmasına Onun qadir olduğunu göstərir.

**Bildirişlər**

1. Məada (ölümdən sonrakı həyata) şübhə etməyin. Çünki öldürüb-diriltmək Allah üçün adi bir işdir.

### *AYƏ 20:*

﴿وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ إِذَا أَنتُم بَشَرٌ تَنتَشِرُونَ﴾

**"Sizi torpaqdan yaratması, sonra bəşər olaraq hər tərəfə səpələnməyiniz Allahın nişanələrindəndir."**

**Nöqtələr**

"Və min ayatihi" ("Onun nişanələrindəndir") təbiri Quranda 11 dəfə istifadə olunmuşdur. Hazırkı surədə bu təbirlə 7 dəfə rastlaşırıq.

Ötən ayədə dirinin ölüdən, ölünün diridən çıxarılması məsələsi və ümumi örtülü surətdə bəyan olunur. Bu ayə isə həmin ümumi bəyanatın bir nümunəsidir.

**Bildirişlər**

1. Allahşünaslıq üçün ən yaxşı yol yaranış haqqında düşünməkdir.

2. Allahın nişanələrini sayıb qurtarmaq olmaz. Deyilənlər bu nişanələrdən kiçik bir hissədir.

3. Yaranmışlar arasında insanın xüsusi yeri var. (Allahın qüdrət nişanələrindən danışılarkən insandan başlanılır.)

4. İnsanın özünü tanıması onun Allahı tanıması üçün müqəddimədir.

5. Bütün insanların cövhəri torpaqdır. (Yersiz lovğalıqları kənara qoyaq.)

6. Torpaqda hiss və hərəkət yoxdur. İnsandakı hissiyyat və hərəkət isə Allahın qüdrət və əzəmətini göstərir.

***AYƏ 21:***

﴿وَمِنْ آيَاتِهِ أَنْ خَلَقَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجًا لِّتَسْكُنُوا إِلَيْهَا وَجَعَلَ بَيْنَكُم مَّوَدَّةً وَرَحْمَةً إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَتَفَكَّرُونَ﴾

**“Sizin üçün «yanlarında rahatlıq tapasınız» deyə öz cinsinizdən zövcələr xəlq etməsi, sizinlə onlar arasında dərin məhəbbət və mərhəmət yaratması Onun (Allahın) nişanələrindəndir. Şübhəsiz, bunda (bu ilahi nemətdə) düşünən qövm üçün qəti nişanələr var.”**

**Nöqtələr**

Allahın yada salınması qəlb və ruha aramlıq verir.[1] Zövcə isə cisim və əsəblərin aramlıq səbəbidir.[2]

**Bildirişlər**

1. Varlıq aləmi məqsədli yaradılıb.

2. Qadın və kişi eyni bir (növdən) cinsdəndir. (Qadını əskik bir varlıq sayan bəzi ideologiyaların ziddinə olaraq İslam onu kişi ilə bərabər dəyərləndirir.)

3. Həyat yoldaşı insan üçün iztirab yox, rahatlıq səbəbi olmalıdır.

4. İzdivacda məqsəd təkcə cinsi ehtiyacların təmini yox, həm də fiziki və ruhi aramlıq əldə olunmasıdır.

5. Həyat yoldaşının rolu qarşı tərəfin aramlığını təmin etməkdən ibarətdir.

6. Məhəbbət ilahi bir hədiyyədir və var-dövlət, gözəlliklə əldə olunmur.

7. İstənilən bir vasitə ilə ailə məhəbbətinə zərbə vuran kəs Allah yolundan çıxmış, şeytan yolunu tutmuşdur.

8. Ər-arvad münasibətləri sevgi və mərhəmət üzərində qurulmalıdır.

9. Məhəbbət və mərhəmət bir-birinə uyuşan səciyyələrdir. (Məhəbbətsiz mərhəmət soyuqluqla müşayiət olunur, mərhəmətsiz məhəbbət uzun sürmür.)

10. İzdivacın müsbət rolunu yalnız düşüncə sahibləri anlayır.

***AYƏ 22:***

﴿وَمِنْ آيَاتِهِ خَلْقُ السَّمَاوَاتِ وَالْأَرْضِ وَاخْتِلَافُ أَلْسِنَتِكُمْ وَأَلْوَانِكُمْ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّلْعَالِمِينَ﴾

[1] “Rəd”, 28.

[2] “Rum”, 21.

**“Göylərin və yerin yaranışı, dilləriniz və rəngləriniz arasındakı fərq ilahi nişanələrdəndir. Həqiqətən, bu işdə alimlər üçün qəti nişanələr var.”**

**Bildirişlər**

1. Göylərin və yerin yaranışı Allahın sonsuz qüdrət nişanələrindəndir.
2. Millətlər və dillər arasındakı fərq Allahı tanımaq üçün bir yoldur.
3. Hər bir dilin öz dəyəri və önəmi var. Dili dəyişmək kamillik və zərurət sayılmır. (Hansısa milləti və ya dili təhqir etməyə kimsənin haqqı yoxdur.)
4. Bütün insanların eyni görkəmdə və rəngdə olması Allahın yaradıcılığı ilə uyuşmur.
5. Elmli və düşüncəli insanlar rənglər və dillər arasındakı fərqlər vasitəsi ilə Allahı tanıyırlar. Cahil üçün isə rəng və dil təhqir vasitəsidir.

*AYƏ 23:*

﴿وَمِنْ آيَاتِهِ مَنَامُكُم بِاللَّيْلِ وَالنَّهَارِ وَابْتِغَاؤُكُم مِّن فَضْلِهِ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَسْمَعُونَ﴾

**“Gecə və gündüz yatmağınız və Allahın fəzli üçün çalışmağınız ilahi nişanələrdəndir. Həqiqətən, bu işdə (həqiqəti) eşidənlər üçün qəti nişanələr var.”**

**Bildirişlər**

1. İlahi nemətlərə diqqətsizlik göstərməyək. Yuxu da böyük ilahi nemətdir.
2. Yuxu təlaş üçün müqəddimədir.
3. Ruzi qazanmaq üçün təlaş bəyənilmiş işdir və Allahın nişanələrindəndir.
4. Yatmaq üçün əsasən gecə nəzərdə tutulub. Gündüz isə cüzi istirahət üçün yatmaq olar.
5. Allahın fəzli genişdir. Bununla belə, bu fəzli əldə etmək üçün çalışmalıyıq.
6. Əldə etdiyimiz nemətlər sadəcə haqqımız yox, ilahi lütf və fəzldir.

*AYƏ 24:*

﴿وَمِنْ آيَاتِهِ يُرِيكُمُ الْبَرْقَ خَوْفًا وَطَمَعًا وَيُنَزِّلُ مِنَ السَّمَاء مَاء فَيُحْيِي بِهِ الْأَرْضَ بَعْدَ مَوْتِهَا إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّقَوْمٍ يَعْقِلُونَ﴾

**“Qorxu və ümid səbəbi olan şimşəyi sizə göstərməsi, torpaq öldükdən sonra onu diriləndən suyun səmadan nazil edilməsi ilahi nişanələrdəndir. Həqiqətən, düşünən qövm üçün bu işdə qəti nişanələr var.”**

**Nöqtələr**

Bu və bundan öncəki ayələrdə dörd təbirlə rastlaşılıb: “Yətəfəkkərunə” (düşünürlər), “lil alimin” (alimlər üçün), “yəsməunə” (eşidirlər), “yəqilun” (ağılları kəsir). Bu dörd təbirin həyata keçməsi üçün dörd təbii mərhələ bəyan olunur: İnsan başlanğıcda düşünür; sonra anlayır və alim olur, agah olan şəxs deyilənləri diqqətlə dinləyib qiymətləndirir; dərindən dinlədikdən sonra ağılı kəsir.

**Bildirişlər**

1. Ümid və qorxu yanaşı olduqda səmərə verir.
2. Şimşək, yağıntı, torpağın yaşıl örtüyə bürünməsi təsadüfi deyil, dəqiq bir proqrama əsaslanır.
3. Kainatın nizamı səbəb və vasitələr prinsipi əsasında qurulmuşdur.
4. Payız və yağıntı, bahar və otların cücərməsi Allahın qüdrət nişanələrindəndir.
5. Allahşünaslıq elm, düşüncə və ağıla əsaslanmalıdır.

*AYƏ 25:*

﴿وَمِنْ آيَاتِهِ أَن تَقُومَ السَّمَاء وَالْأَرْضُ بِأَمْرِهِ ثُمَّ إِذَا دَعَاكُمْ دَعْوَةً مِّنَ الْأَرْضِ إِذَا أَنتُمْ تَخْرُجُونَ﴾

**“Göy və yerin Allahın əmri ilə bərpa olması ilahi nişanələrdəndir. Nə vaxt sizi torpaqdan çıxmağa çağırsa, dərhal (qəbirdən) xaric olarsınız (Qiyamət səhnəsinə çıxarsınız).”**

**Nöqtələr**

Bu ayələrdə həm insanın torpaqdan yaranması, həm ölümü, həm də qəbirdən xaric olması Allahın qüdrət nişanələrindən sayılır.

Allah bu və bundan öncəki beş ayədə 15 dəfə xalqa xitab edir, Öz nemətlərini sadalayır. Bu, təbliğ üslublarından biridir.

**Bildirişlər**

1. Varlıq nizamının sabitliyi nə təsadüfidir, nə də bir başqası tərəfindən təmin olunur. Bu sabitlik yalnız Allahın iradəsinə bağlıdır.
2. Axirət dünyası Allahın iradə və dəvəti ilə gerçəkləşir.
3. Allah rəsulunun dəvəti ölünü dirildir.[1] Görün ilahi dəvətdə nə təsir var!
4. Yaranışa iman axirətə iman üçün müqəddimədir. Varlıq nizamını quran kəs sizi də öləndən sonra dirildər.
5. Məad cismanidir.
6. Məad tədricən yox, birdəfəyə həyata keçər.

[1] “Bəqərə”, 260.

*AYƏ 26:*

﴿وَلَهُ مَن فِي السَّمَاوَاتِ وَالْأَرْضِ كُلٌّ لَّهُ قَانِتُونَ﴾

**“Göylərdə və yerdə olan Ona məxsusdur, hamı Ona tabedir.”**

*AYƏ 27:*

﴿وَهُوَ الَّذِي يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ وَهُوَ أَهْوَنُ عَلَيْهِ وَلَهُ الْمَثَلُ الْأَعْلَى فِي السَّمَاوَاتِ وَالْأَرْضِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Yaranışa başlayıb sonra bu yaranışı təzələyən Odur. Bu iş Onun üçün (ilkin yaranışdan) daha asandır. Göylərdə və yerdəki ən üstün qüdrət Ona məxsusdur. O, yenilməz və hikmət sahibidir.”**

**Nöqtələr**

“Göylərdə olan” dedikdə ya Allah əmrinə tabe mələklər, ya da bəşəriyyət tərəfindən hələ ki tanınmamış başqa şüurlu mövcudlar nəzərdə tutulur.

**Bildirişlər**

1. İlahi dünyagörüşündə bütün varlıq aləmi agahlıq və mütiliklə Allah-təalaya təslim olub baş əyir.
2. Allah bütün baxımlardan - malikiyyətdə, məbudluqda, yaratmaqda və kamillikdə vahid və misilsizdir.
3. İbtidai yaranışa diqqət məadla tanışlığın açarıdır.
4. Xalqın düşüncə səviyyəsində danışın. (Allah üçün bütün işlərin asanlığı aydın olsa da, O bunu qeyd etməyi zəruri bilir.)
5. Allahın sifətləri insanın təsəvvürünün, qələminin və bəyanının fövqündədir.
6. Heç kimi və heç nəyi Allahla müqayisə etməyin.
7. Məad ilahi hikmət və qüdrətin tələbidir.

*AYƏ 28:*

﴿ضَرَبَ لَكُم مَّثَلًا مِنْ أَنفُسِكُمْ هَل لَّكُم مِّن مَّا مَلَكَتْ أَيْمَانُكُم مِّن شُرَكَاء فِي مَا رَزَقْنَاكُمْ فَأَنتُمْ فِيهِ سَوَاء تَخَافُونَهُمْ كَخِيفَتِكُمْ أَنفُسَكُمْ كَذَلِكَ نُفَصِّلُ الْآيَاتِ لِقَوْمٍ يَعْقِلُونَ﴾

**“Allah sizin üçün özünüzdən bir misal çəkmişdir: Sizə ruzi etdiyimiz qullarınızı şərik qəbul edirsinizmi ki, onlar ruzidə sizinlə bərabər olsunlar? Bir-birinizdən qorxduğunuz kimi qullarınızdan qorxursunuzmu?! (Bir tikə çörəyə qullarınızla şərik olmaq istəmirsinizsə, ruhsuz bütləri Allaha necə**

**şərik edirsiniz?!) Biz Öz ayələrimizi düşünən qövm üçün bu sayaq şərh edirik.”**

**Bildirişlər**

1. Misallardan istifadə təbliğ və tərbiyə üsullarındandır.
2. Özümüzə rəva bilmədiyimizi başqası üçün də rəva bilməyək.
3. Vicdanınızı hakim seçib düşünün: Sizə oxşar insanları “xidmətçinizdir” deyə özünüzə şərik etmirsiniz. Bəs nə üçün Allaha oxşarı olmayanları Ona şərik seçirsiniz?! Bir anlıq olsun şərikə dözümünüz yoxdursa, nə üçün Allaha daimi şərik qəbul edirsiniz?! Öz ruzinizə şərik qəbul etmirsinizsə, nə üçün yaranışda Allaha şərik seçirsiniz?! Özünüzə oxşar insanlarla şəriklikdən qaçırsınızsa, nə üçün daşı və ağacı Allahın işinə qatırsınız?! Heç bir şeyiniz olmadığı halda şərik istəmirsinizsə, nə üçün daş və ağacı varlıq aləmini yaradan və Ona malik olan Allaha şərik qərar verirsiniz?!
4. Şəriklik narahatlıq gətirir.

*AYƏ 29:*

﴿بَلِ اتَّبَعَ الَّذِينَ ظَلَمُوا أَهْوَاءهُم بِغَيْرِ عِلْمٍ فَمَن يَهْدِي مَنْ أَضَلَّ اللَّهُ وَمَا لَهُم مِّن نَّاصِرِينَ﴾

**“Bəli, zülm edənlər bilmədən öz nəfs istəklərinə tabe oldular. Allahın azdırdığını kim hidayət edə bilər?! Onlar üçün heç bir yardımçı yoxdur.”**

**Bildirişlər**

1. Müşriklər düşünmədən özlərinə zülm edirlər.
2. Müşrikin öz mövqeyinin sübutu üçün heç bir elmi dəlili yoxdur. Onun azğınlığı daxili istəklərdən qaynaqlanır.
3. Şirk insanın özünə zülmüdür.
4. İnsanın meyilləri çeşidlidir.
5. Allah elm və düşüncəni qoyub nəfsə tabe olanları azdırır.
6. Müşrikin bir neçə əlaməti var: sitəmkarlıq, məntiqsizlik, azğınlıq, təklik (köməksizlik).
7. Nəfs istəyinə tabe olan azğınların hidayətinə heç bir ümid yoxdur.
8. Nəfsə tabe olan azğınlar bir gün qərib və tənha qalasıdırlar.

*AYƏ 30:*

﴿فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا فِطْرَةَ اللَّهِ الَّتِي فَطَرَ النَّاسَ عَلَيْهَا لَا تَبْدِيلَ لِخَلْقِ اللَّهِ ذَلِكَ الدِّينُ الْقَيِّمُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ﴾

**“Haqqa rəğbətlə bu dinə üz tut. (Bu,) ilahi fitrətdir, Allah insanları onun əsasında yaratmışdır. İlahi yaranış dəyişilməzdir. Budur sabit din! Amma insanların çoxu bilməz.”**

**Nöqtələr**

Ötən ayələrdə oxuduq ki, bütün varlıq aləmi Allahın qarşısında mütidir. Başlanğıc, varlığın idarəsi, izzət və hikmət Ona məxsusdur. Şirk xülya və zülmdən başqa bir şey deyil. Ayədə əmr olunur ki, xalisanə halda üzünü dinə tut.

“Fitrət” sözünün lüğətdə mənası xilqət, yoxluğun aradan qaldırılması, bir mövcudun yaradılmasıdır. Allah insanı haqqa meyilli və batilə ikrahlı yaratmışdır. Necə ki, ana fitri olaraq övladına bağlıdır.

Rəvayətlərə əsasən “əqim vəchəkə liddini” cümləsi namazın bərpasını, qiblə və İslama diqqəti, ixlas və tövhidi nəzərdə tutur.[1]

**Bildirişlər**

1. Cəmiyyətin dini rəhbəri öncə tam haqpərəst olduğunu sübut etməlidir. Yalnız bundan sonra başqalarını doğru yola çağıra bilər.
2. İnsan zatən dinpərəst və haqpərəstdir.
3. Bəziləri iddia edirlər ki, insan boş bir qab kimidir, bu qabı adət-ənənələr, haqq və ya batil düşüncələr doldurur. Guya insan yaşadığı siyasi, iqtisadi, ictimai sferadan rəng alır. Amma İslam bildirir ki, Allah haqq və haqpərəstliyi insanın fitrətinə tanıtdırmışdır.
4. Dinin fitri olması o demək deyil ki, insan din yolunda çalışmamalıdır.
5. Azğınlıq insanı sonradan tapır. Haqq dinə meyl insanın fitrətində mövcuddur.
6. Fitri din sabit və davamlıdır.
7. Təbiət və şəriət qanunları bir-birinə uyğundur.
8. Din yolunda hərəkət elə fitrət yolunda hərəkətdir.
9. İnsanın fitri istedadları artıb-azala bilər, amma birdəfəlik yox olmaz.
10. İnsanın daxilində qoyulmuş haqpərəstlik meyilləri zaman və məkanın təsiri ilə aradan qalxmır.
11. İnsan fitrətində kökü olmayan siyasi, iqtisadi, ictimai, irqi və milli meyillər davamsızdır.
12. İslam yeganə sabit dindir.

***AYƏ 31:***

﴿مُنِيبِينَ إِلَيْهِ وَاتَّقُوهُ وَأَقِيمُوا الصَّلَاةَ وَلَا تَكُونُوا مِنَ الْمُشْرِكِينَ﴾

**“(Siz də həmin fitrət əsasında) Ona üz tutun, Ondan qorxun, namazı bərpa edin və müşriklərdən olmayın.”**

---

[1] “Təfsire-rahnoma”.

*AYƏ 32:*

﴿مِنَ الَّذِينَ فَرَّقُوا دِينَهُمْ وَكَانُوا شِيَعًا كُلُّ حِزْبٍ بِمَا لَدَيْهِمْ فَرِحُونَ﴾

**“Dinini parçalayıb, firqələrə bölünmüş kəslərdən (olmayın,) hər firqə öz dininə görə sevinməkdədir.”**

**Nöqtələr**

“Munibinə” dedikdə təkrar və sabit müraciət mənası nəzərdə tutulur.

Ötən ayədə Peyğəmbərə (s) “bu dinə üz tut” buyuruldu. Bu ayədə isə bütün xalqa Allaha üz tutmaq əmr olunur.

**Bildirişlər**

1. Dinə fitri və daxili meylinizi minacat, dua, təqva və namazla gücləndirin.
2. Təqva və namaz fitrət yönümündədir.
3. Tövbə və yalvarış günaha arxa çevirmək və vacib göstərişləri yerinə yetirməklə müşayiət olunmalıdır.
4. İnsan tövbə, təqva və namaz sayəsində şirk və təfriqədən uzaqlaşmaq üçün güc əldə edir.
5. Məzhəbi təfriqələrə qatılmaqla yerinə yetirilən fərdi ibadət səmərəsizdir.
6. Namazın bərpası insandakı təqva ruhunun təcəllasıdır.
7. Şirk dedikdə təkcə günəşə, aya və ya bütə pərəstiş etmək nəzərdə tutulmur. Allah evində təfriqə salan istənilən bir şəxs müşrikdir.
8. Müşriklər insanlar arasında dini təfriqə salmaq əzmindədirlər.
9. Dini çəkişmələr və təfriqələr insan fitrətinin, tövbə ruhunun, təqva və namaza rəğbətin çiçəklənməsinə mane olur.
10. Bəzən dəstəbazlıq və mövcud haldan razılıq bizi haqdan uzaqlaşdırır.

*AYƏ 33:*

﴿وَإِذَا مَسَّ النَّاسَ ضُرٌّ دَعَوْا رَبَّهُم مُّنِيبِينَ إِلَيْهِ ثُمَّ إِذَا أَذَاقَهُم مِّنْهُ رَحْمَةً إِذَا فَرِيقٌ مِّنْهُم بِرَبِّهِمْ يُشْرِكُونَ﴾

**“İnsanlara bir zərər toxunduqda tövbə edərək öz Rəblərini çağırar, Ona doğru qayıdarlar. Amma Allah Öz tərəfindən bir rəhmət daddıran kimi onlardan bir dəstəsi öz Rəbbinə şərik qoşar.”**

**Bildirişlər**

1. Düşdüyümüz zərərlər özümüzdən, gördüyümüz mərhəmətlər Allahdandır.
2. Bəziləri yalnız çətinlik və müsibət zamanı Allahı çağırır. Halbuki mömin insan bütün hallarda Allahı zikr etməlidir.
3. Çətinliklər qəflət tozunu apardığı vaxt insanın Allaha üz tutması Allahpərəstlik meylinin fitri olduğunu göstərir.

4. İnsan tutumsuz və zəifdir. Azca zərər gördükdə fəryad qoparır, ilahi mərhəməti daddıqda yuxuya gedir.

5. Rifah qəflət üçün zəmindir.

6. İnsanlardan bir hissəsi naşükürdür. (Onlar mərhəmət gördükdə şükür etmək əvəzinə şərik qoşurlar.)

7. Çıxılmaz vəziyyətə düşənin (“muztərr”) duası qəbuldur.

8. İnsan həyatı acılı-şirinlidir.

***AYƏ 34:***

﴿لِيَكْفُرُوا بِمَا آتَيْنَاهُمْ فَتَمَتَّعُوا فَسَوْفَ تَعْلَمُونَ﴾

**“Sonda onlara əta etdiklərimizə görə nankorluq edərlər. Hələ kam alın, tezliklə (küfr və nankorluğun nəticəsini) biləcəksiniz.”**

***AYƏ 35:***

﴿أَمْ أَنزَلْنَا عَلَيْهِمْ سُلْطَانًا فَهُوَ يَتَكَلَّمُ بِمَا كَانُوا بِهِ يُشْرِكُونَ﴾

**“Onlara möhkəm bir dəlil nazil etmişikmi? Elə bir dəlil ki, onların şirkini təsdiqləsin?!”**

**Bildirişlər**

1. Şirk küfr və nankorluğa doğru bir addımdır. Şirkə qayıdış bir növ nankorluqdur.

2. Azğınlara möhlət vermək ilahi proqram və sünnələrdəndir.

3. Haqqa çağırış və tərbiyədə bəzən hədə və məzəmmət zəruri olur.

***İşıqlı yollardan qaçır zülmətə,***
***Qoy dağdan uçulub düşsün zillətə.***

4. Ən sərt şəkildə hədələyərkən belə məntiqi yaddan çıxartmayaq.

5. Allah tərəfindən təsdiqlənmiş əqidə haqq və məqbul sayılır.

6. Şirk dəlildən, müşrik məntiqdən məhrumdur.

7. Dəlil-sübut dəqiq və aydın olmalıdır.

8. İstənilən bir şəxsin diqqəti Allahdan qeyrisinə yönələ bilər. Bu diqqətin davamlı olması təhlükəlidir.

***AYƏ 36:***

﴿وَإِذَا أَذَقْنَا النَّاسَ رَحْمَةً فَرِحُوا بِهَا وَإِن تُصِبْهُمْ سَيِّئَةٌ بِمَا قَدَّمَتْ أَيْدِيهِمْ إِذَا هُمْ يَقْنَطُونَ﴾

**“Nə vaxt insanlara bir rəhmət daddırırıqsa şadlanarlar, keçmişdəki qazanclarına görə bir çətinliyə düşdükdə dərhal məyus olurlar.”**

**Bildirişlər**

1. İnsan şəxsiyyəti hadisələrdən təsirlənə bilər.

2. Mərhəmət Allahdan, çətinliklər isə özümüzdəndir.

3. Allahdan uzaq insan puç və tutumsuzdur. Kiçik bir nemət onu məst edir, xırda bir acılıq onu məyus edir. Allah insanlardan elə bir tutum istəyir ki, nemət əldə etdikdə özlərindən çıxmasınlar, neməti əldən verdikdə məyus olmasınlar.[1]

4. İnsanlar istənilən bir halda Allahın mərhəmətindən bəhrələnirlər. Çətinliklər isə olmaya da bilər.

*AYƏ 37:*

﴿أَوَلَمْ يَرَوْا أَنَّ اللَّهَ يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء وَيَقْدِرُ إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ يُؤْمِنُونَ﴾

**“Görmədinizmi ki, Allah istədiyi kəsin ruzisini (hikmət əsasında) artırar və ya əskildər?! Əlbəttə, bu işdə iman gətirənlər üçün qəti nişanələr var.”**

**Nöqtələr**

“Yəqdiru” sözü həm ölçü götürmək, həm də ciddi yanaşmaq mənasını bildirir. Bu ayədə isə uyğun söz “yəbsutu” sözü ilə yanaşı işləndiyindən sıxıntı mənasını bildirir.

**Bildirişlər**

1. Ruzinin Allahın əlində olmasına diqqət insanı ümidsizlikdən qurtarır.

2. İnsan ruzi qazanmaq üçün çalışmalıdır. Amma unutmaq olmaz ki, bütün bunlar Allahın əlindədir.

3. Əksər ayələrdə ruzinin bolluğu onun azlığından öncə zikr olunur. Bu, ilahi mərhəmətin genişliyini göstərir.

4. Əgər ruzini artırıb-əskiltmək Allahın əlindədirsə, nə üçün bu qədər hərislik göstərilsin?!

5. Ruzi əldə etdikdə öz zirəkliyinizlə öyünməyin.

6. Yalnız iman əhli ruzinin Allah əlində olmasından ibrət götürür. (Qafil insanlar isə hər şeyə səthi baxırlar.)

*AYƏ 38:*

﴿فَآتِ ذَا الْقُرْبَى حَقَّهُ وَالْمِسْكِينَ وَابْنَ السَّبِيلِ ذَلِكَ خَيْرٌ لِّلَّذِينَ يُرِيدُونَ وَجْهَ اللَّهِ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

---

[1] “Hədid”, 23.

**“(Bir halda ki, ruzi Allahın əlindədir,) qohumun, miskinin, yolda qalanın haqqını ver. Allahın razılığını soraqlayanlar üçün bu (infaq) daha yaxşıdır. Onlar həmin nicat tapanlardır.”**

**Nöqtələr**

Rəvayətdə deyilir ki, bu ayə nazil olanda əziz Peyğəmbər (s) Fədək bağını həzrət Zəhraya (ə) bağışladı.[1]

Ayə Peyğəmbərə (s) xitabən buyurulsa da, bütün insanlara ünvanlanmışdır.

“Vəchəllah” dedikdə xalisanə infaq nəzərdə tutulur. Əhli-beytin (ə) infaqından danışan ayədə də bu təbirlə rastlaşırıq.[2]

**Bildirişlər**

1. Mövcud mal-mülkün sahibi Allahdır. Əgər belədirsə, məsrəf yerlərini də Allah təyin etməlidir.
2. İnfaq və yardım edərkən öncə yaxınları nəzərə alın.
3. Qohumların insan və onun mülkü üzərində haqqı var. Bəli, qohumluq vəzifələr yaradır.
4. Dini göstərişlər təbii istəklərə uyğundur. Yoxsul qohumlara əl tutmaq insanın daxili tələbidir.
5. Məhrumların varlıların malında haqqı var. Onların haqqını ödəyərkən bunu dilə gətirib minnət qoymayın.
6. İslam müstəzəfləri (çarəsiz vəziyyətə salınmışları) himayəyə götürür və İslam hakimi müsəlman cəmiyyətindəki yoxsulluğu aradan qaldırmağa borcludur. (Bu əsasla bir hakim olaraq İslam Peyğəmbərinə (s) xitab edilir.)
7. Hətta bir müddət çətinliyə düşmüş varlılara belə himayə göstərmək lazımdır.
8. Var-dövlət toplamaq yox, insanların vacib haqlarını ödəmək dəyər sayılır.
9. Var-dövlət insanı Allaha yaxınlaşdıra bilər.
10. İslamdakı infaqı başqa infaqlardan fərqləndirən Allaha yaxınlıq məqsədidir.
11. Əmr be məruf (yaxşılığa əmr) təşviqlə müşayiət olunmalıdır.
12. İnsanın qurtuluşu onun xalisanə (təmənnasız) əməlindən asılıdır.

***AYƏ 39:***

﴿وَمَا آتَيْتُم مِّن رِّبًا لِّيَرْبُوَ فِي أَمْوَالِ النَّاسِ فَلَا يَرْبُو عِندَ اللَّهِ وَمَا آتَيْتُم مِّن زَكَاةٍ تُرِيدُونَ وَجْهَ اللَّهِ فَأُوْلَئِكَ هُمُ الْمُضْعِفُونَ﴾

**“(Sələmçi) insanların malı artsın deyə sələm olaraq verdikləriniz Allah yanında artası deyil. Zəkat olaraq ödəyib müqabilində Allahın razılığını dilədiyiniz isə qat-qat artasıdır.”**

---

[1] “Təfsire-Məcməül-bəyan”, “Təfsire-Nurus-səqəleyn”.

[2] “İnsan”, 9.

**Bildirişlər**

1. Pulun qədəri yox, insanın məqsədi mühümdür.

2. Sələmdən əldə olunan irəliləyiş yalan və zahiri bir irəliləyişdir.

3. İslamın üstünlüyü ondadır ki, yoxsulluğu aradan qaldırmaqla yanaşı, onlara yardım edənlər üçün mənəvi yüksəliş nəzərdə tutur.

4. İxlasa (Allahdan qeyrilərindən təmənnasızlığa) diqqət ciddi bir məsələdir və qəti bəyan olunmalıdır. Çünki ilahi məqsədsiz təlaş dəyərsizdir.

5. Səmimi qəlbdən (xalisanə) zəkat ödəmək artım və inkişaf səbəbidir.

6. Mömin fayda və zərəri müəyyənləşdirərkən dünya və axirəti, fərd və cəmiyyəti, cisim və ruhu yanaşı nəzərə almalıdır. (Dünyəvi baxımdan zəkat ödəmək sərvəti azaldır. Amma yoxsulluğun aradan qaldırılması baxımından dünyaya əsirlikdən qurtarıb axirət azuqəsi toplamaq zəkat verənin xeyrinədir.)

7. İxlas insanın məqamını ucaldır və onu yüksək bir nöqtəyə qaldırır.

***AYƏ 40:***

﴿اللَّهُ الَّذِي خَلَقَكُمْ ثُمَّ رَزَقَكُمْ ثُمَّ يُمِيتُكُمْ ثُمَّ يُحْيِيكُمْ هَلْ مِن شُرَكَائِكُم مَّن يَفْعَلُ
مِن ذَلِكُم مِّن شَيْءٍ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

**“Sizi yaradıb sonra ruzi verən, ardınca öldürüb sonra dirildən həmin Allahdır. Allaha qoşduğunuz şəriklərdən eləsi varmı ki, bu işlərdən bir zərrəsini həyata keçirsin?! Allah pakdır və ona şərik qoşduqlarınızdan üstündür.”**

**Nöqtələr**

Bu ayədə dörd ilahi sifətə işarə olunmuşdur və bəndəlik üçün onlardan hər biri təklikdə bəs edər. İnsanın yaranışı Allaha bəndəliyi zəruri edən müstəqil bir dəlildir.[1] Bəndəliyimiz üçün digər bir dəlil Allahın ruzi yetirməsidir.[2] Allahın insanı öldürüb sonra diriltməsi Ona təslim olmaq üçün növbəti dəlildir.

**Bildirişlər**

1. Ölüm və həyat, keçmiş və gələcək, ehtiyaclı olduğumuz ruzi Allahın əlindədir.

2. Keçmişdə baş verənlər gələcək işlərdə Allahın qüdrətini sübuta yetirən dəlildir. (Yaratmaq, ruzi vermək, öldürmək Allahın qüdrət nişanələridir və bu nişanələr Allahın yenidən diriltməyə qadir olduğunu göstərir.)

3. Təlim və təbliğdə müqayisə üsulu ən üstün üsullardandır.

4. Suallar ünvanlamaqla yatmış vicdanları oyadın.

---

[1] “Bəqərə”, 21.

[2] “Qüreyş”, 3, 4.

5. Qeyri-ilahi güclərin müstəqilliyi yoxdur, onlar ən kiçik mövcudu da yaratmağa acizdirlər.

6. Heç bir vasitə və səbəbi, müqəddimə və şəraiti Allaha şərik qoşmayaq.

7. Şirk Allahın məqamını alçaltmaqdır. İnsan Allahı pak və hər növ şərikdən üstün bilməlidir.

8. Şirk istənilən bir ad və formada batil və məhkumdur.

*AYƏ 41:*

﴿ظَهَرَ الْفَسَادُ فِي الْبَرِّ وَالْبَحْرِ بِمَا كَسَبَتْ أَيْدِي النَّاسِ لِيُذِيقَهُم بَعْضَ الَّذِي عَمِلُوا لَعَلَّهُمْ يَرْجِعُونَ﴾

**“İnsanların pis əməllərinə görə quruda və dəryada fəsad yaranar. (Allah) bununla onların bəzi əməllərinin cəzasını daddırar. Ola bilsin ki, (doğru yola) qayıdalar.”**

**Nöqtələr**

İmam Sadiq (ə) buyurur: “Quruda və suda yaşayan canlıların həyatı yağışdan asılıdır. Yağış yağmasa quruda və suda fəsad yaranar. İnsanların günahı artdıqda yağış nazil olmaz.”[1]

“Şura” surəsinin 30-cu ayəsində oxuyuruq: “Düçar olduğunuz hər bir müsibətin səbəbi öz əməllərinizdir. Amma bilin ki, Allah Öz rəhmət və lütfü ilə bir çox günahlarınızdan keçir.” (Əgər bütün pis əməllərinizin cəzasını versə, yer üzündə bir nəfər də qalmaz.) İnsanın dünyada üzləşdiyi bəzi çətinliklər onun üçün nəzərdə tutulmuş cəzanın bir hissəsidir.

**Bildirişlər**

1. Şirk yer üzündə fəsada səbəb olur.

2. İnsanın əməllərinin təbiətə təsiri var. İnsanın pis əməlləri səbəbindən suda və torpaqda fayda qalmır, xoşagəlməz hadisələr baş verir.

3. Təbiətdəki fəsadların səbəbi insanın çirkin əməlləridir.

4. Bəzi cəzalar Qiyamətə saxlanılmır. Elə bu dünyadaca həyata keçir.

5. Məqsəd xəbərdarlıq və islah olduqda cüzi tənbeh bəs edir.

6. Bəzi günahların cəzasını daddırmaqda məqsəd insanın tövbə və qayıdışıdır. (Bəlalardan ibrət götürək.)

*AYƏ 42:*

﴿قُلْ سِيرُوا فِي الْأَرْضِ فَانظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلُ كَانَ أَكْثَرُهُم مُّشْرِكِينَ﴾

[1] “Təfsire-rahnoma”.

**“De ki, yer üzündə gəzin, sizdən öncə əksəriyyəti müşrik olanların aqibətinə baxın.”**

**Bildirişlər**

1. Məqsədli səyahət İslam tərəfindən tövsiyə olunur.
2. İbrətamiz əsərləri gələcək üçün qorumaq zəruridir.
3. Tarix elm və mərifət mənbələrindəndir. Tarixin öyrənilməsi və keçmişdə baş vermiş hadisələrdən bəhrələnmək gələcək üçün çıraqdır.
4. Tarixə hakim sünnə və qanunlar sabitdir. (Dünənin hadisələrini öyrənməklə bu günün yolunu müəyyənləşdirmək olar.)
5. Əksəriyyəti yolunu azmış cəmiyyət ilahi qəzəbə düçar olasıdır. Azsaylı xeyirxahların varlığı bu qəzəbin qarşısını almaz. (Bir məntəqədə xalqın əksəriyyəti fəsada düçar olmuşsa, cihad və ya həmin yerdən hicrət zəruridir.)

***AYƏ 43:***

﴿فَأَقِمْ وَجْهَكَ لِلدِّينِ الْقَيِّمِ مِن قَبْلِ أَن يَأْتِيَ يَوْمٌ لَّا مَرَدَّ لَهُ مِنَ اللَّهِ يَوْمَئِذٍ يَصَّدَّعُونَ﴾

**“(Bir halda ki, şirkin sonunun bədbəxtlik olduğunu bildin,) Allah qəzəbindən qurtulmaq mümkün olmayan gün gəlməmiş dəyişməz dinə iman gətir. Həmin gün insanlar bir-birindən ayrılar.”**

**Nöqtələr**

“Yəssəddəunə” dedikdə bölünmək, dağlışmaq mənaları nəzərdə tutulur. Ayədə mömin insanların azğın insanlardan ayrılacağı, hərənin bir tərəfə üz tutacağı günə işarə olunur.

**Bildirişlər**

1. Həm din möhkəm və məntiqli, həm dindar ciddi və aşiq olmalıdır.
2. Dinə diqqət ikinci dərəcəli sayılmamalı, bütün işlərdə və tamam varlıqla həyata keçməlidir.
3. İslam dini bütün fərdi və ictimai faydaları nəzərdə tutur.
4. Fürsətlərdən bəhrələnək.
5. Qiyamət təhlükələrini nəzərə alsaq dindarlığımız ciddiləşər.
6. Bütün işlərdə dini meyarlara istinad Qiyamətdə qurtuluş səbəbidir.

***AYƏ 44:***

﴿مَن كَفَرَ فَعَلَيْهِ كُفْرُهُ وَمَنْ عَمِلَ صَالِحًا فَلِأَنفُسِهِمْ يَمْهَدُونَ﴾

**“Küfr edənin küfrü onun özünə ziyandır. Saleh işlər görənlər (əbədi səadəti) özləri üçün hazırlayırlar.”**

*AYƏ 45:*

﴿لِيَجْزِيَ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ مِن فَضْلِهِ إِنَّهُ لَا يُحِبُّ الْكَافِرِينَ﴾

**“(Nəticədə Allah) iman gətirib saleh işlər görənlərə Öz fəzlindən mükafat versin. (Eləcə də kafirləri məhrum qoysun, çünki) O, kafirləri sevməz.”**

**Nöqtələr**

Ötən ayədə buyuruldu ki, Qiyamətdə insanlar parçalanıb müxtəlif firqələrə bölünərlər. Bu ayədə uyğun parçalanmaya izahat verilir: iman əhli və küfr əhli hər biri öz mükafat və cəzasına çatar.

“Yəmhədunə” dedikdə istirahət üçün hazırlanmış yer nəzərdə tutulur. Hazırkı ayədə uyğun söz zəmin yaratmaq mənasını ifadə edir.

**Bildirişlər**

1. İnsan azad buraxılıb, iman və ya küfr yolunu özü seçir.
2. Həm təşviq, həm də tənbeh zəruridir.
3. İnsanların küfr və ya imanının Allaha heç bir təsiri yoxdur.

***Dünya asi olub küfrə uğrasa,***
***Allahın mülkündən əskilməz nəsə.***

4. İman və saleh əməl sizi qürrələndirməsin. Çünki istənilən bir nemət Allahın fəzlindəndir.
5. İnsan heç bir pis iş görməyib, təkcə küfr etsə, bu onu bədbəxtçiliyə aparar. İman isə təklikdə bəs etmir, saleh əmələ də ehtiyac var.
6. Qiyamətdə Allahın fəzlindən yalnız iman və saleh əməl sahibləri faydalanar.
7. Behiştə getmək üçün təkcə iman bəs etmir, saleh əmələ də ehtiyac var.

*AYƏ 46:*

﴿وَمِنْ آيَاتِهِ أَن يُرْسِلَ الرِّيَاحَ مُبَشِّرَاتٍ وَلِيُذِيقَكُم مِّن رَّحْمَتِهِ وَلِتَجْرِيَ الْفُلْكُ بِأَمْرِهِ وَلِتَبْتَغُوا مِن فَضْلِهِ وَلَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“(Yağışla) müjdə versin deyə küləklər göndərməsi, rəhmətindən sizə daddırması, gəmiləri əmri ilə hərəkətə gətirməsi ilahi nişanələrdəndir. Onun fəzlində (ruzi) soraqlayın. Ola bilsin ki, şükür edəsiniz.”**

**Nöqtələr**

"Rih" dedikdə sərt və zərərli, "riyah" dedikdə faydalı küləklər nəzərdə tutulur. Nəql olunur ki, əziz Peyğəmbər (s) bəzən külək əsən vaxt dua edərdi: "Pərvərdigara! Bu küləyi faydalı buyur, zərərli etmə."[1]

Küləyin müəyyən faydaları var: buludları hərəkətə gətirməsi, buludları bir-birinə sıxması, isti və soyuğun tarazlaşdırılması, havanın təmizlənməsi, insana oksigen, bitkilərə karbon çatdırılması, bitkilərin mayalanması və bəhrə verməsi, gəmilərin hərəkəti, enerji istehsalı, toxumların ətrafa səpələnməsi...

**Bildirişlər**

1. Təsadüfi heç nə yoxdur. Hətta küləklər hikmət sahibi olan Allahın iradəsinə tabedir.
2. Küləkdən əldə etdiyimiz faydalar ilahi ayə və mərhəmətin bir hissəsidir.
3. Gəminin hərəkəti sükançıdan yox, Allahdan asılıdır! Təbiət qanunlarını tənzimləməklə gəminin su üzərində hərəkətini təmin edən Allahdır.
4. Halal ruzi üçün çalışmaq Quranın tapşırığıdır.
5. Bizə əhəmiyyətsiz görünsə belə külək də şükür olunası nemətlərdəndir.

### *AYƏ 47:*

﴿وَلَقَدْ أَرْسَلْنَا مِن قَبْلِكَ رُسُلًا إِلَى قَوْمِهِمْ فَجَاؤُوهُم بِالْبَيِّنَاتِ فَانتَقَمْنَا مِنَ الَّذِينَ أَجْرَمُوا وَكَانَ حَقًّا عَلَيْنَا نَصْرُ الْمُؤْمِنِينَ﴾

**"Əlbəttə, Biz səndən öncə qövmlərinə doğru peyğəmbərlər göndərdik. Onlar insanlar üçün aşkar dəlillər gətirdilər. Bəziləri iman gətirdi, bəziləri küfrə uğradı. Günaha yol verənlərdən intiqam aldıq. (Möminlərə yardım göstərdik,) möminlərə kömək öhdəmizdə olan bir haqdır."**

**Nöqtələr**

Bu ayədə dörd proqram və ilahi sünnə bəyan olunmuşdur: Peyğəmbərlərin göndərilməsi sünnəsi, peyğəmbərlərin möcüzəyə malik olması sünnəsi, günahkarların cəzalandırılması, möminlərə yardım.

---

[1] "Təfsiri-kəşşaf". "Təfsire-əl-munir".

Möminlərə yardım məsələsi Quranda təkrar-təkrar bəyan olunmuşdur.[1]

İslam Peyğəmbəri (s) son peyğəmbər olduğundan "səndən öncəki" təbiri Quranda dəfələrlə işlədilmişdir. Amma heç bir ayədə "səndən sonrakı" təbiri ilə rastlaşmırıq.

**Bildirişlər**

1. Tarixlə tanışlıq insan üçün təsəllidir.
2. Öncə ideoloji iş və doğru yola çağırış, sonra günahkarlarla hesab!
3. Peyğəmbər müxalifləri məhkum və məğlub günahkarlardır.
4. Günahkardan intiqam alınması möminlərə yardım nümunələrindəndir.
5. Sonda möminlərin qələbəsi qəti ilahi vəddir. (Möminlər zahirdə şəhid olsalar da, əsil məqsədlərinə çatırlar.)
6. Allahın insana borcu olmasa da, O, möminlərə yardımı Özü üçün zəruri sayır.

***AYƏ 48:***

﴿اللَّهُ الَّذِي يُرْسِلُ الرِّيَاحَ فَتُثِيرُ سَحَابًا فَيَبْسُطُهُ فِي السَّمَاءِ كَيْفَ يَشَاءُ وَيَجْعَلُهُ كِسَفًا فَتَرَى الْوَدْقَ يَخْرُجُ مِنْ خِلَالِهِ فَإِذَا أَصَابَ بِهِ مَن يَشَاءُ مِنْ عِبَادِهِ إِذَا هُمْ يَسْتَبْشِرُونَ﴾

**"Küləkləri göndərən, buludları hərəkətə gətirən, onları göydə istədiyi şəkildə yayan və parça-parça edən kəs Allahdır. Onun (buludun) qatlarından yağış xaric olduğunu görürsən. Onu (yağışı) bəndələrindən istədiyinə çatdırar və onlar dərhal fərəhlənərlər."**

**Nöqtələr**

"Kisfə" sözünün cəm forması olan "kisəf" sözü parçalar mənasını bildirir. Burada bulud parçaları nəzərdə tutulmuşdur.

"Vədq" dedikdə həm kiçik zərrələr, həm də yağış dəstələri nəzərdə tutula bilər.

**Bildirişlər**

1. Təbiət hadisələri Allahın qüdrət, hikmət və tədbir nişanələridir.
2. Allahın iradəsi təbii vasitələrlə həyata keçir.
3. Buludların yaranmasında soyuq və isti küləklərin rolu var.
4. Yağış üçün zəmin yaranması küləyin faydalarındandır.
5. Buludların hərəkəti və yağışın nazil olması Allahın istək və iradəsindən asılıdır.

---

[1] "Muhəmməd", 7; "Ənkəbut", 69; "Ğafir", 51; Əraf", 128.

*AYƏ 49:*

﴿وَإِن كَانُوا مِن قَبْلِ أَن يُنَزَّلَ عَلَيْهِم مِّن قَبْلِهِ لَمُبْلِسِينَ﴾

**“Hərçənd onlara (yağış) nazil olanadək məyus idilər.”**

*AYƏ 50:*

﴿فَانظُرْ إِلَى آثَارِ رَحْمَتِ اللَّهِ كَيْفَ يُحْيِي الْأَرْضَ بَعْدَ مَوْتِهَا إِنَّ ذَلِكَ لَمُحْيِي الْمَوْتَى وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Allahın rəhmət əsərlərinə bax, torpağı öldükdən sonra necə diriltdiyini gör. Həqiqətən, Allahdır ölüləri dirildən və O hər şeyə qadirdir.”**

**Bildirişlər**

1. Çətinliklər və ümidsizliklər nemətlərin ləzzətini qat-qat artırır.

***Çeşmə başındakı anlasın çətin***
***Sudan dadan təşnələrin ləzzətin.***

2. Yağış ilahi rəhmətdir.

3. Yağış və torpağın yenidən dirçəlişi Qiyamətin bərpa nişanələrindəndir. Ölüm və həyat səhnəsi daim gözlərimizin önündədir. Ovucdakı su dəryanın bir nümunəsidir.

*AYƏ 51:*

﴿وَلَئِنْ أَرْسَلْنَا رِيحًا فَرَأَوْهُ مُصْفَرًّا لَّظَلُّوا مِن بَعْدِهِ يَكْفُرُونَ﴾

**“Əgər (bəlalı) bir külək göndərsək və (insanlar çəmənliyi) saralmış görsələr, bunun ardınca küfr edəcəklər.”**

*AYƏ 52:*

﴿فَإِنَّكَ لَا تُسْمِعُ الْمَوْتَى وَلَا تُسْمِعُ الصُّمَّ الدُّعَاء إِذَا وَلَّوْا مُدْبِرِينَ﴾

**“(Onların qəlbi ölmüşdür,) sən ölülərə eşitdirə və bu dəvətə arxa çevirib gedən karların qulağına çatdıra bilməzsən.”**

**Bildirişlər**

1. Xəstəlik törədən küləklər təsadüfi deyil.

2. Zərərli küləklər faydalı küləklərdən azdır.

3. Bəzən insan acı bir hadisə ilə rastlaşdıqda tövhid (təkallahlıq) mədarından xaric olur və küfrə qatılır. (Bəzən bir zərərli külək şadlığı aradan qaldırıb qəm-qüssəyə çevirir.)

4. Haqqa çağırış və təbliğdə çağırışçının kamilliyi, çağırış üslubu və deyilənlərin mahiyyəti kafi deyil. Müsbət sonluq üçün qarşı tərəfin qabiliyyətli olması da şərtdir.

5. Qulaqları eşitməyən insan bəzən qarşısındakı şəxsin dodaqlarının hərəkətini izləyib nəsə anlayır. Amma bu kar insan danışan şəxsə arxa çevirdikdə işarələrdən də xəbərsiz qalır. Haqqa arxa çevirənlər bu qəbildəndirlər.

6. İnsanın inadkarlıqla və ardıcıl şəkildə haqqa arxa çevirməsi təhlükəlidir.

*AYƏ 53:*

﴿وَمَا أَنتَ بِهَادِي الْعُمْيِ عَن ضَلَالَتِهِمْ إِن تُسْمِعُ إِلَّا مَن يُؤْمِنُ بِآيَاتِنَا فَهُم مُّسْلِمُونَ﴾

**“Sən korları azğınlıqlarından çəkindirən deyilsən. Yalnız ayələrimizə iman gətirib, təslim əhli olanlar sənin sözlərini dinləyərlər.”**

**Bildirişlər**

1. Peyğəmbərlərin vəzifəsi xalqı doğru yola zorla sürükləmək yox, sadəcə çağırışdır.

2. İnsanlar məhdud şəkildə haqqı qəbul edirlər.

3. Haqq qarşısında təslimçilik ruhiyyəsi mənəvi faydalar üçün zəmin yaradır.

***Şoran torpaq sünbül cücərdə bilməz,***
***Şoranlıqda toxum ərsəyə gəlməz.***

4. İman təklikdə bəs etmir, təslimçilik də lazımdır.

*AYƏ 54:*

﴿اللَّهُ الَّذِي خَلَقَكُم مِّن ضَعْفٍ ثُمَّ جَعَلَ مِن بَعْدِ ضَعْفٍ قُوَّةً ثُمَّ جَعَلَ مِن بَعْدِ قُوَّةٍ ضَعْفًا وَشَيْبَةً يَخْلُقُ مَا يَشَاء وَهُوَ الْعَلِيمُ الْقَدِيرُ﴾

**“Sizi zəif olaraq yaradan, zəiflikdən sonra qüvvət verən, qüdrətə çatdırdıqdan sonra qocaldan kəs Allahdır. O, istədiyini yaradar. Odur elm və qüdrət sahibi!”**

**Bildirişlər**

1. İnsan ilkin mərhələdə zəifliyə məhkumdur.

2. İlkin yaranış mərhələsinə diqqət insanı oyadır və şükrə vadar edir.

3. Zəiflik və qocalıq Allahın hikmətli proqramlarındandır və bu vəziyyətlərdən şikayətlənməyin.

4. İnsanın zəif və qüdrətli olduğu mərhələlər hikmətli proqram əsasında müəyyənləşdirilmişdir.

5. İnsan dünyaya gələndə də, sonda da zəifdir. Qüdrətli günlərimizin qədrini bilək. Uşaqlıq dövrünün zəifliyi ötüb keçir, qocalıq dövrünün zəifliyi isə şiddətlənir.

6. Əvvəldə və sonda zəifliyə məhkum olan insan bir neçə günlük gücü ilə öyünməməlidir.

7. Əgər görən gözümüz olsa, bütün varlıq aləmi oxunası kitabdır.

8. Yaranmışın zəifliyi yaradanın zəifliyini göstərmir.

*AYƏ 55:*

﴿وَيَوْمَ تَقُومُ السَّاعَةُ يُقْسِمُ الْمُجْرِمُونَ مَا لَبِثُوا غَيْرَ سَاعَةٍ كَذَلِكَ كَانُوا يُؤْفَكُونَ﴾

**“Qiyamət bərpa olan gün günahkarlar and içərlər ki, bir saatdan artıq yubanmamışlar. (Onlar dünyada da) bu sayaq (haqdan) üz döndərirdilər.”**

**Nöqtələr**

Müəyyən bir zaman kəsiyinə “saət” deyilir. Qiyamətin “saət” adlandırılmasının səbəbi onun sürətlə bərpa olması və ya əməllərin sürətlə hesaba alınmasıdır.[1]

**Bildirişlər**

1. Dünyada yalan anda adət etmiş insan Qiyamətdə də bu işə əl atar.

2. Günahkarlar Qiyamətdə bəhanə gətirərlər ki, dünyada iman üçün fürsət tapmayıblar.

3. Bir çox büdrəmələrin və azğınlıqların səbəbi yalandır. Yəni insan çeşidli yalanlarla ardıcıl şəkildə azğınlığa sürüklənir.

*AYƏ 56:*

﴿وَقَالَ الَّذِينَ أُوتُوا الْعِلْمَ وَالْإِيمَانَ لَقَدْ لَبِثْتُمْ فِي كِتَابِ اللَّهِ إِلَى يَوْمِ الْبَعْثِ فَهَذَا
يَوْمُ الْبَعْثِ وَلَكِنَّكُمْ كُنتُمْ لَا تَعْلَمُونَ﴾

**“Elm və iman verilən kəslər (günahkarlara) deyərlər: “Şübhəsiz, Allah Kitabına uyğun olaraq, siz Qiyamət gününədək (bərzəxdə) qalmısınız. Bu, oyanış günüdür, amma siz bilmirdiniz.”**

**Nöqtələr**

Bu ayədə möminlər günahkarların ötən ayədə bəyan olunmuş sözlərinə cavab verirlər. Onlar dünya ömürlərinin və ya bərzəxin qısalığından danışırlar. İman əhli isə bildirir ki, siz Allah hökmünə uyğun olaraq dünyada və bərzəxdə yaşamısınız və boş yerə bəhanə gətirirsiniz.

---

[1] “Təfsiri-nümunə”.

İmandan öncə elmin zikr olunmasının səbəbi bu ola bilər ki, elm imanın əsasıdır.

**Bildirişlər**

1. Qiyamətdə günahkarlarla möminlər arasında söhbət olar.
2. Elm və imanın hətta Qiyamətdə müsbət təsirləri görünər. (Mömin alimlər Qiyamətdə də şübhələri aradan qaldırarlar.)
3. Elm və iman insanlara əta olunmuş iki ilahi hədiyyədir.
4. Öz elm və imanımızı ilahi tövfiq bilək və qürrələnməyək.
5. Dünya və bərzəxin davam müddəti öncədən qeyd olunmamışdır.

*AYƏ 57:*

﴿فَيَوْمَئِذٍ لَّا يَنفَعُ الَّذِينَ ظَلَمُوا مَعْذِرَتُهُمْ وَلَا هُمْ يُسْتَعْتَبُونَ﴾

**“Belə bir gündə sitəm qılanların üzrü faydasızdır və tövbələri də qəbul olunmaz.”**

**Nöqtələr**

”Utbə” sözündən olan “yustətəbun” sözü narahatlıq mənasını bildirir. Bu sözün “istitab” forması tövbə və pisliklərin aradan qaldırılması mənasını ifadə edir.

Qiyamətdə günahkarlara üzr istəmək icazəsi verilməz.[1] Üzr istəmək imkanı verilsəydi belə, onların üzrü qəbul olunmazdı.

**Bildirişlər**

1. İnsanın taleyi və Qiyamətdəki vəziyyəti onun əməllərindən asılıdır.
2. Zülm insanı ilahi lütflərdən məhrum edir.
3. Tövbə və üzrün yalnız dünyada səmərəsi var. Qiyamətdə qılınan tövbə faydasızdır.

*AYƏ 58:*

﴿وَلَقَدْ ضَرَبْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ وَلَئِن جِئْتَهُم بِآيَةٍ لَيَقُولَنَّ الَّذِينَ كَفَرُوا إِنْ أَنتُمْ إِلَّا مُبْطِلُونَ﴾

**“Şübhəsiz, bu Quranda insanlar üçün hər növ məsəl çəkdik. Əgər onlar üçün nişanə və möcüzə göstərsən, kafirlər hökmən deyəcəklər: “Sizin işiniz batildən başqa şey deyil. (Bunlar sehr-cadudur.)”**

**Bildirişlər**

1. Quran bütün bəşəriyyətə müraciət edir.

[1] “Mursəlat”, 36.

2. Quran haqqa çağırış və hidayət kitabıdır. Qarşı tərəfi anlatmaq üçün ən yaxşı üsul məsəl çəkməkdir. Ona görə Allah müxtəlif mövzularda məsəllər çəkir.

3. Quranın bəyanatları xəbərdarlığı başa çatdırır (höccət tamamlanır). Haqqı anlayan üçün heç bir üzr yeri qalmır.

4. İnadkar kafirlər heç bir dəlil və sübutu qəbul etmirlər.

5. Kafirlərin və düşmənlərin məqsəd və danışıqlarını öncədən görmək lazımdır.

6. Kafirlərin inadkarlıq və qabalığı bizə dərs olmalıdır və haqq yolda müqavimət göstərməliyik.

7. Küfr və inadkarlıq yolunu tutan insan batili haqq sayır, haqqı batil!

8. Kafirlər əllərində dəlil olmadığından haqqı təhqir etməyə çalışırlar.

9. Kafirlər nəinki haqqı qəbul etmir, hətta onu batil sayırlar.

10. Kafirlər təkcə İslam Peyğəmbərini (s) yox, bütün peyğəmbərləri və möminləri batil sayırlar. (Möcüzə gətirən İslam Peyğəmbəri (s) olsa da, kafirlər toplumu nəzərdə tutur, bütün peyğəmbərləri və möminləri batil tanıyırlar.)

### *AYƏ 59:*

﴿كَذَلِكَ يَطْبَعُ اللَّهُ عَلَى قُلُوبِ الَّذِينَ لَا يَعْلَمُونَ﴾

**“Allah mərifətsiz insanların qəlbini bu sayaq möhürləyir.”**

**Nöqtələr**

“La yələmun” dedikdə həqiqəti bilmək istəməyənlər nəzərdə tutulur. Ötən ayədə oxuduq ki, Peyğəmbər (s) möcüzə göstərdikdə onlar inadkarlıqla bu möcüzəni batil sayırlar. Bəli, özünü cahilliyə vuranlar Allahın qəzəbinə gəlirlər. Deyilənlər xəbərsiz və qərəzsiz insanlara aid deyildir.

**Bildirişlər**

1. İnadkarlığın cəzası doğru yoldan məhrumluqdur.
2. Cahillərin qəlbinin möhürlənməsi ilahi bir sünnədir.
3. Qəlbi daşlıq üçün insan özü zəmin yaradır.

### *AYƏ 60:*

﴿فَاصْبِرْ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ وَلَا يَسْتَخِفَّنَّكَ الَّذِينَ لَا يُوقِنُونَ﴾

**“Səbir yolunu tut, həqiqətən, Allahın (sənə yardımla bağlı) vədi haqdır. Yəqinliyi olmayanlar səni səbatsızlığa vadar etməsinlər.”**

**Nöqtələr**

“Rum” surəsi qələbə haqqında məlumat verməklə başladı və haqpərəstlərə ilahi yardım vədi ilə başa çatdı.

**Bildirişlər**

1. Din rəhbərləri səbirli olmalıdırlər.
2. İlahi vədlərə iman insanı səbirli edir.

3. Dinsiz insanların vəsvəsələri bizi öz fikrimizdən daşındırmamalıdır.

4. İlahi lütf və xəbərdarlıq olmasa, peyğəmbərlər də büdrəyərlər.

5. Düşmənin qurğularından biri haqq rəhbərlərini tərəddüdə salmaqdır.

6. Rəhbəri zəiflətmək və alçaltmaq fikrində olanlar haqq yola əmin deyildirlər.

7. Səbri olmayan səbatsızlığa uğrayar.

# “LOĞMAN” SURƏSİ

### *(31-Cİ SURƏ, 34 AYƏ)*

### *İyirmi birinci cüz*

### *“LOĞMAN” SURƏSİNİN SİMASI*

34 ayədən ibarət olan bu surə Məkkədə nazil olmuşdur və onun ayələrində (ümumiyyətlə Quranda) iki yerdə Loğmanın adı çəkildiyindən surə “Loğman” adlandırılmışdır. “Loğman” surəsi “əlif, lam, mim” müqəttəə hərfləri ilə başlamış altı surədən biridir.

“Loğman” surəsindəki mövzuları növbəti şəkildə xülasələşdirmək olar:

1. Bəşəriyyətin hidayətində Quranın əzəmət və əhəmiyyətinin bəyanı;
2. Xeyir iş görənlər və təkəbbürlülər ünvanı ilə insanların bölgüsü, onlardan hər birinin taleyi;
3. Quranda cazibə qanunu və nəbatətdə cütlük kimi bəzi elmi möcüzələrin bəyanı;
4. Loğmanın öz oğluna hikmətli nəsihət və moizələri;
5. Yaranış və məada imanın dəlilləri;
6. Ölüm vaxtı və Qiyamətin bərpası kimi Allaha məxsus elmlərin bəyanı.

﴿بسم الله الرحمن الرحيم﴾

**"Rəhman və rəhim Allahın adı ilə"**

***AYƏ 1, 2:***

﴿الم * تِلْكَ آيَاتُ الْكِتَابِ الْحَكِيمِ﴾

**"Əlif, lam, mim; bu, (başdan-başa) hikmətli olan kitabın ayələridir."**

***AYƏ 3:***

﴿هُدًى وَرَحْمَةً لِّلْمُحْسِنِينَ﴾

**"(Bu kitab) xeyir əməl sahibləri üçün hidayət və rəhmətdir."**

***AYƏ 4:***

﴿الَّذِينَ يُقِيمُونَ الصَّلَاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُم بِالْآخِرَةِ هُمْ يُوقِنُونَ﴾

**"O kəslər ki, namazı bərpa edər, zəkat ödəyərlər. Yalnız onlar axirətə əmindirlər."**

**Nöqtələr**

Müqəttəə hərflərlə başlamış 29 surədən 24-də müqəttəə hərflərin ardınca Quranın əzəməti bəyan olunur. Bildirilir ki, Quran sizin ixtiyarınızda qoyulmuş həmin əlifba hərflərindən tərtib olunmuşdur. Amma kimsə bunun kimisini tərtib etməyə acizdir.

İstisnasız olaraq bütün yazıçılar yazdığı kitabı nöqsansız saymır və mümkün nöqsanlara görə oxuculardan üzr istəyirlər. Adətən müəlliflər oxucuların təklifləri və tənqidləri ilə tanış olmaq istəyirlər. Yalnız Allah Öz kitabı haqqında qətiyyətlə buyurur ki, Quran hikmətlə dolu bir kitabdır, onun bütün ayələri əsaslıdır. Quranda heç bir nöqsan olmadığı qeyd edilir.

Namaz bütün mənəvi kamilliklərin kompleksidir. Paklıq, Quran tilavəti, tövhid, nübuvvət, vilayətin etirafı, zikr və dua, salam, qiyam, rüku, səcdələr, haqqa diqqət namazda əks olunmuş kamilliklərdir. Zəkat isə bütün maddi çətinliklərin aradan qaldırılması üçün müəyyənləşmişdir. Quranda "zəkat" məfhumu fiqhdəkindən daha əhatəli mənaya malikdir. Quranda zəkat dedikdə təkcə fiqhdəki zəkat yox, bütün maddi yardımlar nəzərdə tutulur.

Allah-təala bir yerdə Quranı təqvalıların hidayət səbəbi[1], digər bir yerdə möminlər üçün hidayət səbəbi və müjdə[2], bu surədə isə xeyir əməl sahibləri

---

[1] "Bəqərə", 2.

[2] "Nəml", 2.

üçün hidayət və rəhmət səbəbi sayır. Deməlk, Quran üç mərhələlik təkamülü nəzərdə tutur: hidayət, müjdə və rəhmət.[1]

**Bildirişlər**

1. Haqqa çağırış və hidayət hikmətə əsaslanmalıdır.
2. Quran eynən hidayət və rəhmətdir - bu baxımdan Quranda heç bir nöqsan yoxdur. (Əgər “filankəs şəkərdir” deyirlərsə, bu o deməkdir ki, nəzərdə tutulan şəxsin vücudu, hərəkətləri, sözü və baxışı bütünlüklə şirindir.)
3. Haqqa çağırış və hidayət zəhmət və məhəbbətlə müşayiət olunmalıdır.
4. Xeyir əməl sahiblərində haqqı qəbul etmək üçün hazırlıq var.
5. Namaz və zəkat bir-birindən ayrılası deyil.
6. Namazın bərpası və zəkat ödənməsi xarakterə çevrilməlidir.
7. İslam kompleks din olduğundan onun göstərişləri də kompleks və hərtərəflidir. Namaz bədənə, zəkat mala, yəqinlik qəlbə aid olan vəzifədir.
8. Allahla rabitə (namaz) və xalqla əlaqə (zəkat) Qiyamətə imanla müşayiət olunduqda dəyər tapır.
9. Xeyir əməl sahibi olan insan həm iqtisadi məsələlərə, həm də mənəvi məsələlərə qarşı diqqətlidir.

***AYƏ 5:***

﴿أُوْلَئِكَ عَلَى هُدًى مِّن رَّبِّهِمْ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

**“Onlar Rəbləri tərəfindən hidayət olunmuşlar və nicat tapan da onlardır.”**

**Nöqtələr**

Son üç ayədən məlum olur ki, qurtuluş ilahi tövfiq və hidayət sayəsində əldə olunur. Əlbəttə ki, bu istiqamətdə də mübarizə və təlaşa ehtiyac var. Çünki başqa bir ayədə buyurulur ki, təlaş və cihad edənlərə doğru yol göstərildi və hiqiqətən Allah xeyir əməl sahibləri ilədir.[2]

**Bildirişlər**

1. Xeyir əməl sahibləri ilahi hidayətdən bəhrələnirlər.
2. Hidayət rübubiyyət şənindəndir.
3. Allahın lütfü xeyir işlər üçün tövfiqdir.
4. Namazın bərpası və zəkat ödənməsi Quran tərəfindən hidayət üçün zəmin yaradır.
5. Qurtuluş yalnız namaz və zəkat əhlinə, axirətə yəqinliyi olanlara aiddir.

---

[1] “Təfsiri-nümunə”.

[2] “Ənkəbut”, 69.

## *AYƏ 6:*

﴿وَمِنَ النَّاسِ مَن يَشْتَرِي لَهْوَ الْحَدِيثِ لِيُضِلَّ عَن سَبِيلِ اللَّهِ بِغَيْرِ عِلْمٍ وَيَتَّخِذَهَا هُزُوًا أُولَئِكَ لَهُمْ عَذَابٌ مُّهِينٌ﴾

**“İnsanların bəzisi heç bir elm olmadan Allah yolundan döndərmək və onu məsxərəyə qoymaq üçün boş və başqatıcı sözləri satın alırlar. Onlar üçün zəliledici əzab var.”**

**Nöqtələr**

“Ləhv” dedikdə insanı mühüm məqsəddən uzaqlaşdıran şey nəzərdə tutulur. “Ləhvəl-hədis” təbiri insanı haqdan uzaqlaşdıran boş söz mənasını ifadə edir. İnsanı fəsad və günaha sürükləyən xurafi hekayələr bu qəbildəndir. Bu azğınlığı doğuran bəzən danışılan sözün məzmunu, bəzən də avaz kimi əlavələrdir.[1]

Hicazdan İrana səfər etmiş Nəzr ibn Haris adlı bir şəxs Rüstəm və İsfəndiyarın macəraları kimi İran əfsanələrini öyrənib ərəblərə nəql edirdi. O deyirdi: “Əgər Məhəmməd (s) sizə Ad və Səmudun əhvalatını danışırsa, mən də əcəm xəbərlərini nəql edirəm.” Ayə nazil oldu və bu şəxsin işi azdırıcı sayıldı.

Bəzi təfsirçilər uyğun ayənin nazil olma şəni haqqında deyirlər: Bəziləri əylənmək üçün xanəndə kənizlər alırdılar. Onlar bu yolla xalqın Quran dinləməsinə maneə yaradırdılar. Bu qəbildən olan insanları məzəmmət üçün hazırkı ayə nazil oldu.[2]

Bu ayə əsas azdırıcı amillərdən olan batil sözə işarə edir. Quranın digər ayələrində başqa azdırıcı amillərə toxunulmuşdur. Məsələn: bəzən təhqir və ya hədə ilə xalqı doğru yoldan azdıran azğın başçılar[3]; öz vəsvəsələri ilə insanı azdıran şeytan[4]; öz elm və hünərindən sui-istifadə edərək xalqı çaşdıran alim və sənətkar[5]; öz güc və sərvətindən istifadə etməklə xalqı doğru yoldan azdıran qüdrət və sərvət sahibləri[6]; xalqın başını qatıb onları haqq yoldan yayındıran natiqlər və xanəndələr.

**Bildirişlər**

1. Haqq əleyhinə mübarizəyə sərmayə qoyulması uzun tarixə malikdir.
2. Haqq qarşısında dayanan istənilən bir şey puç (“ləhv”) və kamal yolunda maneədir. (Peyğəmbərin (s) bəxşiş hikmətinə arxa çevirib mənasız sözləri satın alanlar insanı təəccübləndirir!)
3. Allah yoluna müxaliflərin savaşı məntiq və hikmət yox, boş və əsassız sözlərdir.

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsiri-nümunə”.
[3] “Zuxruf”, 54; “Şuəra”, 29.
[4] “Nisa", 60.
[5] “Taha”, 85.
[6] “Əzab”, 67.

4. Baş qatan mənasız vasitələr almaq və insanı kamillikdən yayındıran işlər cəhalət və nadanlıq nişanəsidir.

5. Cəzanın əmələ uyğun olması ilahi ədalət nişanəsidir. Haqqı məsxərəyə qoymaqla ona qarşı çıxanların əzabı alçaldıcı və zəliledicidir.

Batil söz və məclislərdən uzaqlıq və şəhvəti alovlandıran musiqilər, ahənglər haramdır. Əksər fəqihlərin nəzərincə, bu səciyyələrə malik olmayan musiqini dinləmək olar. İmam Baqir (ə) buyurur: "Ğina (günah məclisə aid olan və şəhvəti alovlandıran musiqi) müqabilində od vəd edilmiş günahlardandır." Sonra həzrət hazırkı ayəni tilavət etmişdir.[1] Bu səbəbdən ğina kəbirə günahlardan sayılır. Hansı günaha görə Quranda əzab vəd edilirsə, həmin günah kəbirə günahdır. Qurani-kərimdə oxuyuruq: "Batil sözdən çəkinin."[2]

İmam Sadiq (ə) bildirir ki, ayədəki "batil söz" təbiri xanəndəlik və ğinaya aiddir. İmam Sadiq (ə) və İmam Rizadan (ə) nəql olunur ki, "Loğman" surəsindəki "ləhvəl-hədis" təbiri üçün nümunələrdən biri də ğinadır.

Rəvayətlərdə oxuyuruq: "Ğina insandakı nifaq ruhunu gücləndirir, yoxsulluq və bədbəxtlik gətirir; xanəndə qadınlar, onlara muzd verənlər, həmin pulu xərcləyənlər lənətlənmişdir; ğina olan ev ölüm və ağrılı müsibətlərdən amanda deyil, orada dua qəbul olunmaz, oraya mələklər enməz."[3]

## *ĞİNANIN MƏNFİ TƏSİRLƏRİ*

1. Ğinanın o qədər böyük mənfi təsirləri var ki, hətta çirkab içində olan Bəni-Üməyyə başçılarından biri belə etiraf edir: "Ğina həyanı azaldıb şəhvəti artırır, şəxsiyyəti məhv edir, şərab nə edirsə, ğina da həmin işləri görür."

Əgər bir qrup insan şərab, heroin, morfin vasitəsi ilə xülya bir həyata qatılıb biganələşirsə, bir başqaları batil və şəhvət doğuran musiqilər dinləməklə qeyrətlərini əldən verir, heç nəyin fərqinə varılmayan dünyaya qədəm qoyurlar.

2. Allahdan xəbərsizlik (qəflət) vəzifədən, məhrumlardan, gələcəkdən, imkan və istedadlardan, düşmənlərdən, nəfs və şeytandan xəbərsizlikdir. Günün insanı elm və texnologiyanın bir bu qədər inkişafına baxmayaraq qəflətdən qaynaqlanan atəşdə yanmaqdadır. Bəli, Allahdan qəflət insanı heyvan səviyyəsinə, hətta ondan da aşağı endirir.[4] Dünyanın bugünkü imperialist qüvvələri gənc nəslin başını qatmaq, onu yuxuya vermək üçün bütün imkanlardan, o cümlədən azdırıcı musiqilərdən, hər növ texniki vasitədən istifadə edirlər.

3. Əsəb sistemini həyəcanlandırıb harın vəziyyətə gətirən batil musiqilərin zərəri kimsəyə qaranlıq deyil. Müxtəlif ədəbiyyatlarda musiqinin insan psixologiyasına və əsəb sisteminə öldürücü təsiri, musiqi ifaçılarının pis aqibəti

---

[1] "Kafi", c. 6, s. 431.
[2] "Həcc", 30.
[3] "Mizanul-hikmə".
[4] Əraf", 179.

və müxtəlif əsəb xəstəliklərinə düçar olması, qəfil keçinmələr və qəlb xəstəlikləri açıqlanmışdır.[1]

### *ƏZİZ OXUCU!*

Allah dünyanı insan, insanı təkamül və mənəvi yüksəliş üçün yaratdı. Allah varlıq aləmini bizim üçün ram etdi, işlərimizin idarəsi üçün mələklər müəyyənləşdirdi. Bəşəriyyətin hidayəti üçün peyğəmbərlər və övliyalar göndərdi. Allah elçiləri şəhadət şərbətini içənədək uyğun məqsədə doğru irəlilədilər. Allah mələklərə insan qarşısında səcdə əmri verdi. İnsana ilahi ruh üfürüldü, o ən gözəl surət və xarakterdə yaradıldı. İnsana sonsuz təkamül qabiliyyəti əta olundu. İnsan ağıl, fitrət və növbənöv istedadlarla təchiz edildi. Allah yalnız insanı yaratdıqdan sonra Özünə "afərin" söylədi.[2]

Varlıq çələnginin bu misilsiz çiçəyi bir belə maddi və mənəvi imtiyazlara malik olduğu halda özünü kiminsə ixtiyarına verə bilərmi? İmam Kazim (ə) buyurur: "Hansı sədaya qulaq asırsansa, həmin sədanın qulusan." Heyf deyilmi ki, yaranmışların şərəflisi özünü batil bir xanəndəyə qul etsin?!

Eşitdiyiniz hər səsi lentə köçürmək istəyərsinizmi? Əlbəttə ki, yox! Bəs nə üçün ətrafdakı bütün səslər bizim beyin lentimizə köçürülməlidir?! Ömür, düşüncə, beyin doğru yolda istifadə etməli olduğumuz ilahi əmanətlərdir. Bu nemətlərdən hər hansı birini qeyri-ilahi yolda sərf etmiş olsaq, həmin əmanətə xəyanət edirik və Qiyamətdə cavab verəsiyik.

Quran aydın şəkildə buyurur ki, insanın qulaqları da, gözü də, qəlbi də sorğuya çəkilər.[3] Bəli, insan öz gözünü, qulağını və qəlbini qorumağa borcludur. O razı olmamalıdır ki, ətrafdakı istənilən bir səs ona yol tapsın. Hədisdə bildirilir ki, qəlb Allaha məxsus hərəmdir, bu hərəmə Allahdan qeyrisini buraxmayın.[4]

İztirabları aradan qaldırıb təravət əldə etmək üçün İslam dini münasib və sağlam yollar təqdim edir. İnsan səyahətə, idmana, üzgüçülüyə və başqa çeşidli və faydalı işlərə dəvət olunur. Yaxınlarla görüşlər, elmi söhbətlər, təcrübə mübadilələri, ən başlıcası varlıq aləminin Rəbbi ilə rabitə və Onun zikri qəlblərə aramlıq verir. Axı nə üçün özümüzü sonu zillət və odla bitən ləzzətlərə fəda edək?! Həzrət Əli (ə) buyurur: "Sonu cəhənnəm olan ləzzətlər xeyirsizdir."[5] Həzrət digər bir məqamda buyurur: "Günah yolla ləzzət axtaran insan Allah tərəfindən alçaldılar."[6]

---

[1] "Təfsiri-nümunə", c. 17, s. 19-27.
[2] "Muminun", 14.
[3] "İsra", 36.
[4] "Bihar", c. 67, s. 25.
[5] "Divani-imam Əli (ə), s. 204.
[6] "Ğurərul-hikəm", 3565.

*AYƏ 7:*

﴿وَإِذَا تُتْلَى عَلَيْهِ آيَاتُنَا وَلَّى مُسْتَكْبِرًا كَأَن لَّمْ يَسْمَعْهَا كَأَنَّ فِي أُذُنَيْهِ وَقْرًا فَبَشِّرْهُ بِعَذَابٍ أَلِيمٍ﴾

**“Ayələrimiz ona oxunan vaxt eşitmirmiş və qulaqlarında ağırlıq varmış kimi təkəbbürlə üz çevirər. Onu dərdli əzabla müjdələ.”**

**Nöqtələr**

“Vəqr” dedikdə ağırlıq mənası anlaşılır. Şəxsiyyətli və ağır təbiətli insanlar bu mənada vüqarlı adlandırılırlar.

Ayədən məlum olur ki, təkəbbürlü insanlar haqq sözü hətta eşitməyə belə hazır deyillər. Əslində isə insan dinləməli, düşünməli və məntiqi əsası olmayan çağırışları qəbul etməməlidir.

**Bildirişlər**

1. Boş və azdırıcı söhbətləri dinləmək insanı haqqın qəbulu üçün hazırlıqdan məhrum edir.
2. Bəziləri ən pak və iti dillərdən eşitdikləri ayələrə də təslim olmurlar.
3. Təkəbbür ruhiyyəsi haqqın qəbuluna mane olur.
4. Haqqı dinləməmək təkəbbür göstəricisidir.
5. Batil sözə maraqlı insan Quran dinləmək istəməz.
6. Təkəbbür əhli alçalmağa layiqdir.
7. Quranın təbliğ və tərbiyə üsullarından biri misallardan istifadədir.
8. Haqqı qəbul etməyən insan hər iki qulağı ağır eşidən insan kimidir.

*AYƏ 8:*

﴿إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُمْ جَنَّاتُ النَّعِيمِ﴾

**“Həqiqətən, iman gətirib saleh iş görənlər üçün nemət dolu bağlar var.”**

*AYƏ 9:*

﴿خَالِدِينَ فِيهَا وَعْدَ اللَّهِ حَقًّا وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Orada əbədidirlər, Allahın vədi haqdır. Odur yenilməz və hikmət sahibi!”**

**Nöqtələr**

Ötən ayələrdə bildirildi ki, bəziləri boş və azdırıcı sözlərlə haqq ardıcıllarını yoldan çıxarmaq istəyirlər. Onlar təkəbbürlü ruhiyyə və səmavi ayələri dinləməməklə möminləri məsxərəyə qoyurlar. Allah-təala bu ayədə möminləri nemət dolu bağlarla müjdələyir.

**Bildirişlər**

1. Behişt iman və saleh əməl sahiblərinə məxsusdur.

2. Təkəbbürlü azğınların təhqir və məsxərələri ilahi vəd və müjdələrlə aradan qaldırılar.

3. İlahi lütflərdən bəhrələnmək üçün saleh əməllə müşayiət olunan iman şərtdir.

4. Müxaliflərin təkəbbür və etirazı ötəri, iman əhlinin mükafatı isə əbədidir.

5. İlahi vəd və mükafatlara inanaq, ciddi yanaşaq.

6. Allahın qüdrət və hikməti Onun vədlərinə zəmanət verir.

7. Allahın qüdrət və yenilməzliyi ilahi hikmət əsasında həyata keçir. (Bəli, bu gün bir çox qüdrət sahiblərinin işi hikmətdən uzaqdır.)

### *AYƏ 10:*

﴿خَلَقَ السَّمَاوَاتِ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا وَأَلْقَى فِي الْأَرْضِ رَوَاسِيَ أَن تَمِيدَ بِكُمْ وَبَثَّ فِيهَا مِن كُلِّ دَابَّةٍ وَأَنزَلْنَا مِنَ السَّمَاءِ مَاءً فَأَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍ كَرِيمٍ﴾

**“(Allah) göyləri görə bilməyəcəyiniz sütunlarla yaratdı. Yer sizi titrətməsin deyə dağlar qərar verdi və onda hər növ canlı yaydı. Səmadan yağış endirdik və yerdə (növbənöv bitkilərdən) gözəl, dəyərli, cütlər cücərtdik.”**

**Nöqtələr**

Mövcudları müxtəlif cəhətlərdən nəzərdən keçirmək mümkün olsa da, adətən hər bir varlığın müəyyən cəhətdən üstünlükləri var. Bu ayədə göylərin və yerin səciyyələrindən, onların asılı vəziyyətdə qalmasından və görünməyən sütunlarla möhkəmləndirilməsindən danışılır. Dağların mühüm xüsusiyyəti onların yer üzündə sabitlik yaratmasıdır. Heyvanların mühüm cəhəti onların növbənövlüyü və yer üzündə yayılması, bitkilərin mühüm səciyyəsi onlar arasındakı cütlük və onların çox dəyərli olmasıdır.

Bu ayədə Quranın elmi möcüzələrindən müəyyən nümunələr göstərilir. Həmin dövrdə insanlarda onlar barədə ibtidai təsəvvür belə yox idi. Bu nümunələrdən biri göy cisimlərini asılı vəziyyətdə saxlayan və gözə görünməyən sütunlardır. Kürələrin öz orbitində fırlanmasını təmin edən cazibə və mərkəzdənqaçma qüvvəsi kimi iki qüvvədir. Dağların yeri titrəyişdən qoruması və bitkilər arasındakı cütlük ayədəki növbəti möcüzə nümunələrindəndir.

**Bildirişlər**

1. Bir şeyi görməmək həmin şeyin mövcud olmamasını göstərmir. (Göylərin sütunu var, amma biz onu görmürük.)

2. Həyat üçün hər şeydən öncə sabitlik və aramlıq lazımdır.

3. Yer üzünə hakim nizam insan üçün nəzərdə tutulub.

4. Ehtiyac duyulan mənbələrin bütün yer üzündə mövcudluğu ilahi lütflərdəndir.

5. Su çox böyük və əhəmiyyətli nemətdir. Bir çox mövcudların ərsəyə gəlib böyüməsi üçün su zəruridir.

6. Bitkilərə, yaşıllıqlara, təbiətə qarşı diqqətli olaq. Allah Quranda bütün bunları "kərim" adlandırır.

*AYƏ 11:*

﴿هَذَا خَلْقُ اللَّهِ فَأَرُونِي مَاذَا خَلَقَ الَّذِينَ مِن دُونِهِ بَلِ الظَّالِمُونَ فِي ضَلَالٍ مُّبِينٍ﴾

**"Bu, Allahın yaratdığıdır. Ondan qeyrilərinin nə yaratdığını Mənə göstərin. Bəli, sitəmkarlar aşkar azğınlıq içindədirlər."**

**Bildirişlər**

1. Danışıq və mübahisədə gözlə görünən nümunələrdən istifadə edək.

2. Öncə haqq yolu göstərək, sonra müxalifləri məzəmmət edib, onlarla mübarizəyə qalxaq.

3. Allahşünaslıq yollarından biri ilahi qüdrətlə digər qüdrətləri müqayisə etməkdir.

4. Təkcə iddiaya qulaq asmayaq, deyilənlərə dəlil tələb edək.

5. Haqq qarşısında inadkarlıq zülmdür. (Bütün bu əsərləri gördükləri halda Allah və haqq yola qarşı çıxırlar.)

6. Qeyri-ilahi yol soraqlayanlar həm azğın, həm də zalımdırlar.

7. Şirkin yanlışlığı kimsəyə qaranlıq deyildir.

*AYƏ 12:*

﴿وَلَقَدْ آتَيْنَا لُقْمَانَ الْحِكْمَةَ أَنِ اشْكُرْ لِلَّهِ وَمَن يَشْكُرْ فَإِنَّمَا يَشْكُرُ لِنَفْسِهِ وَمَن كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ حَمِيدٌ﴾

**"Biz Loğmana hikmət verdik (və dedik ki,) Allaha şükür et. Şükür edən doğrudan da özü üçün şükür edir. Hər kəs nankorluq etsə (bilin ki, Allaha zərər yetirmir, çünki) şübhəsiz, Allah ehtiyacsızdır və həmd olunmuşdur."**

**Bildirişlər**

1. Hikmət qazanılmır, Allah tərəfindən əta olunur. (Əlbəttə ki, bundan ötəri müqəddimə hazırlamaq insanın borcudur.)

2. Xüsusi nemətə görə xüsusi şükür lazımdır. Allah İslam Peyğəmbərinə (s) əta etdiyi Kövsərə görə ondan xüsusi şükür istəyir.[1]

3. Həzrət Musaya (ə) peyğəmbərlikdən sonra verilən ilk göstəriş namaz oldu. Loğmana hikmət verildikdən sonra ilkin əmr onun şükür etməsi idi.

4. Allah nemətləri müqabilində şükür insanın özü üçün faydalıdır.[2]

5. Yalnız istənilən bir bəladan uzaq var-dövlət dəyərlidir.

6. İnsanlar Allaha həmd etsələr də, etməsələr də Allah həmd olunmuşdur.

## *HƏKİM (HİKMƏT SAHİBİ) LOĞMANIN SİMASI*

"Əl-mizan" təfsirində cənab Loğman haqqında deyilənlərdən bir qismini yada salaq: Əziz Peyğəmbər (s) buyurmuşdur: "Loğman peyğəmbər deyildi. Amma çox düşünən və Allaha gerçəkdən iman gətirmiş bir bəndə idi. O, Allahı sevirdi, Allah da onu. Allah ona hikmət əta etmişdi." İmam Sadiq (ə) buyurur: "Loğman var-dövlət, gözəllik və ya qohum-əqrəbaya xatir hikmət qazanmamışdı. O, təqvalı, həssas, həyalı və canıyanan bir şəxs idi. İki nəfər arasında dava-dalaş düşdükdə Loğman onları barışdırardı. Loğman alimlərlə ünsiyyətdə çox olar, öz nəfs istəkləri ilə mübarizə aparardı..."[3]

Loğman uzun ömür sürmüşdü. O həzrət Davudun müasiri olmuş, həzrət Əyyubun yaxınlarından sayılmışdı. Loğmana hikmət, ya da hökm sahibi olmaq ixtiyarı verildikdə o, hikməti seçmişdi. Loğmandan soruşurlar: "Bu məqama necə çatdın?" Loğman deyir: "Əmanətə vəfa qıldım, sədaqətli oldum, mənə aid olmayan işlərlə bağlı susdum."[4] İmam Sadiq (ə) buyurur: "Loğman öz dövrünün səmavi rəhbərini tanımışdır."[5]

Allah Loğmana səmavi kitab verməmişsə də, kitab qədər dəyərli hikmət əta etmişdir. Bir gün mövlası Loğmana göstəriş verir ki, qoyunun ən üstün üzvünü ona gətirsin. Loğman qoyunun dilini gətirir. Növbəti gün mövlası Loğmandan ən pis üzvü istəyir. Loğman yenə də dil gətirir. Səbəbini isə belə izah edir: "Əgər dil haqq yolda hərəkət etsə bədənin ən yaxşı üzvü olar. Əks-təqdirdə, bədənin ən pis üzvü dildir."[6]

Allahın, Allah rəsulunun, məsum imamların başqalarına nəsihət verərkən Loğmanın sözlərini dilə gətirməsi onun əzəmətini göstərir.

## *LOĞMANIN NƏSİHƏTLƏRİ*

–Əgər uşaq vaxtı özünü ədəbləndirsən, yaşa dolduqda bundan bəhrələnərsən.

–Süstlük və tənbəllikdən çəkin. Ömrünün bir hissəsini elmə sərf et, inadkar şəxslərlə danışıb höcətləşmə.

---

[1] "Kovsər", 1, 2.

[2] "İbrahim", 7.

[3] "Təfsire-Əl-mizan".

[4] "Təfsire-Məcməül-bəyan".

[5] "Təfsire-Nurus-səqəleyn".

[6] "Təfsiri-Kəşşaf".

–Fəqihlərlə mübahisə etmə, günahkarla dost olma. Günahkarı özünə qardaş seçmə, ittiham olunanlarla yaxınlıq etmə.

–Yalnız Allahdan qorx və ümidini Ona bağla. Qəlbində Allah qorxusu və Allaha ümid bərabər olsun.

–Dünyaya güvənmə, ona könül vermə. Dünyaya bir körpü kimi bax.

–Bil ki, Qiyamətdə səndən dörd şey haqqında soruşular: gəncliyi hansı yolda sərf etməyin barədə, ömrünü nəyə xərcləməyin barədə, var-dövləti hansı yolla əldə etməyin haqqında, var-dövlətini hansı yolda xərcləməyin barədə.

–Xalqın əlində olana göz dikmə, hamı ilə xoş keçin.

–Səfər yoldaşlarınla tez-tez məsləhətləş və azuqəni onlar arasında bölüşdür.

–Əgər səninlə məsləhətləşsələr, səmimiyyətlə canıyananlıq göstər. Əgər səndən kömək və ya borc istəsələr əliaçıq ol. Özündən yaşlını dinlə.

–Namazını əvvəl vaxtda qıl, ən çətin şəraitlərdə cəmiyyət namazını tərk etmə.[1]

–Namazda qəlbini hifz et.

–Yemək yeyərkən hülqumunu hifz et.

–Xalq arasında dilini gözlə.

–Heç vaxt Allah və ölümü yaddan çıxarma. Başqalarına etdiyin ehsanı və ya sənə edilən pisliyi unut.[2]

## *HİKMƏT MƏRİFƏT VƏ İTAƏTDİR*

Hikmət ilahi mərifət sayəsində ərsəyə gələn baxışdır. İnsan varlığın sirləri haqqında düşünüb haqqa çatmaqla, təqva yolu ilə hikmət əldə edə bilər. İmam Baqir (ə) buyurur: “Hikmət dedikdə dərin anlaq və mərifət nəzərdə tutulur. Belə bir mərifət insanı Allaha bəndəliyə sövq edir, səmavi rəhbərə bağlayır, böyük günahlardan uzaqlaşdırır.” İmam Sadiq (ə) buyurur: “Allaha itaət hikmətin zirvəsidir.”[3]

Rağib bu sözü mənalandırarkən deyir: “Hikmət elm və ağıl vasitəsi ilə haqqa çatmaqdır.”[4] Həzrət Peyğəmbər (s) buyurur: “Mən hikmət sarayı, Əli onun qapısıdır. Hikmət istəyən bu yolla daxil olmalıdır.[5]”

Çoxsaylı rəvayətlərdə Əhli-beyt (ə) hikmət qapısı, hikmət açarı kimi tanıtdırılır.[6]

## *HİKMƏTİN DƏYƏRİ*

Peyğəmbərlərin vəzifələrindən biri kitab və hikmət öyrətməkdir.[7]

---

[1] “Təfsire-kənzud-dəqaiq”.
[2] “Təfsire-Ruhul-bəyan”.
[3] “Əmaliyi-Səduq”, s. 487.
[4] “Mufrədat”.
[5] “Əl-Ümdə”, s. 295.
[6] “Bihar”, c. 23, s. 244.
[7] “Bəqərə”, 129; “Ali-İmran”, 164; “Cumuə”, 2.

Hikmət səmavi kitabın mislidir. Hikmət verilən kəsə böyük xeyir əta olunmuşdur.[1] Rəvayətlərə əsasən hikmət insanın canında yerləşən və əsərləri danışıqda, rəftarda özünü göstərən bir nur kimidir.[2]

Hikmət baxış və bəsirətdir. Əgər yoxsul bir şəxs hikmətə çatsa, bu hikmət onu cəmiyyətdə varlılardan sevimli edər. Hikmət yaşı az olanı qocalardan yuxarıya qaldırar.[3] Hikmət möminin itkisidir.[4] İnsana ciddi şəkildə tapşırılır ki, hikmət əldə etsin: dəyərli cəvahir zir-zibil arasından götürüldüyü tək, hikmət də düşmən əlində olsa belə tələb edilməlidir.[5]

Hikmətə çatmış insan səthi və ötəri məsələlər üzərində yubanmır, onun diqqəti işin aqibətinə yönəlir. O özündən yuxarılarla höcətləşmir, özündən aşağıdakıları alçaltmır. Hikmətə çatan insan elm və agahlıq olmadan danışmır, danışıq və rəftarında ziddiyyət görünmür. Belələri ilahi nemətləri zay etmir. Boş işlər ardınca getmir. Onlar insanları özlərini sevdikləri kimi sevir, özlərinə rəva bilmədiklərini başqalarına rəva bilmirlər. Hikmətə çatanlar heç vaxt xalqa kələk gəlmirlər.

## *HİKMƏT NECƏ ƏLDƏ OLUNUR?*

Hikmət Allahın xalis bəndələrə (müxlislərə) lütf etdiyi hədiyyədir. Çoxsaylı rəvayətlərdə oxuyuruq: "Allah hikmət çeşmələrini 40 gün ixlasla iş görənlərin qəlbindən dilinə axıdır.[6] Digər bir hədisdə oxuyuruq: "Allah dünyada zahid olan, bər-bəzəyə aldanmayan insanın canında hikmət qərar verər.[7]" Dili qorumaq, qarın və şəhvətə nəzarət etmək, əmanətdarlıq, təvazö, faydasız məsələləri boşlamaq hikmətin yaranması üçün zəminlərdir.[8]

## *HİKMƏT NÜMUNƏLƏRİ*

Allah-təala "İsra" surəsinin 22–38-ci ayələrində müəyyən göstərişlər verərək sonda buyurur: "Bu əmr və qadağalar Rəbbinin sənə vəhy etdiyi hikmətlərdir." Uyğun göstərişlər bunlardır: Təkallahçı olmaq və şirkdən uzaqlıq, xüsusi ilə valideynə qoca yaşlarında ehsan və hörmət, mehriban danışıq, məhəbbətlə müşayiət olunan təvazö, xeyirli dua, Allahın övliyalarına, yoxsullara və yolda qalmışlara ilahi haqların ödənməsi, israfdan uzaqlıq, orta məsrəf, nəsil kəsməkdən və qeyri-şəri cinsi əlaqələrdən çəkinmək, yetimin malına toxunmamaq, xalqın haqqını əda etmək, əskik satmamaq, elm və agahlıq olmadan bir iş görməmək, təkəbbürlə yeriməmək. Sonra buyurulur ki, bu tapşırıqlar ilahi hikmət nümunələridir.

---

[1] "Bəqərə", 269.
[2] "Bihar", c. 14, s. 316.
[3] "Bihar", c. 67, s. 458.
[4] "Nəhcül-bəlağə", hikmət 80.
[5] "Bihar", c. 2, s. 97-99.
[6] "Camiul-əxbari-Səduq", s. 94.
[7] "Bihar", c. 73, s. 48.
[8] "Mizanul-hikmə".

*AYƏ 13:*

﴿وَإِذْ قَالَ لُقْمَانُ لِابْنِهِ وَهُوَ يَعِظُهُ يَا بُنَيَّ لَا تُشْرِكْ بِاللَّهِ إِنَّ الشِّرْكَ لَظُلْمٌ عَظِيمٌ﴾

**“(Yada sal,) bir zaman Loğman oğluna moizə edərkən dedi: “Oğlum! Allaha şərik qoşma. Çünki şirk, şübhəsiz, böyük bir sitəmdir!”**

**Nöqtələr**

Haqqa dəvət yollarından biri də moizədir. Heç kimi moizədən ehtiyacsız deyildir. Quranın adlarından biri də moizəd[1] Hədis kitablarında moizə ilə bağlı xüsusi fəsillə rastlaşırıq.

Bəzi rəvayətlərdə deyilir: bəzən Peyğəmbər (s) Cəbrailə buyururdu: “Məni moizə et.”[2] Həzrət Əli (ə) bəzən öz ətrafındakılara buyurardı: “Məni moizə edin, çünki bilməkdə olmayan bir təsir eşitməkdə var.”[3]

**Bildirişlər**

1. Övlad tərbiyəsinin üsullarını böyüklərdən öyrənək.
2. Moizə zamanı öncə dinləyicinin diqqətini cəlb edək.
3. Moizə hikmət əsasında olmalıdır.
4. Övlad nəsihətə ehtiyaclıdır. Övladlarımızdan xəbərsiz qalmayaq.
5. Təbliğə öz yaxınlarımızdan başlayaq.
6. Övlad tərbiyəsində ən düzgün yollardan biri övladla səmimi söhbətdir.
7. Atanın övlad qarşısındakı vəzifələrindən biri moizədir.
8. Gənclərlə məzəmmət yox, moizə dilində danışmaq lazımdır.
9. Moizə məhəbbət və mərhəmətlə müşayiət olunmalıdır.
10. Moizənin təsir şərtlərindən biri qarşı tərəfin şəxsiyyətinə hörmətdir.
11. Haqqa çağırış və moizədə əsas məsələləri önə çəkək.
12. Hikmətin ən mühüm və ən başlıca yönümü tövhiddir.
13. Şirk ən böyük təhlükə, ən mühüm məsələdir. Allah üçün bütün dünya əhəmiyyətsiz bir şey, şirk isə böyük zülmdür.[4] Yəni insan bütün dünyanı almaq müqabilində belə şirkə yol verməməlidir.
14. Öz moizələrimizi dəlil və məntiqlə bəyan edək.

## *ŞİRKİN MƏNASI*

Şirkin olduqca geniş mənası var. Uyğun sözün ən bariz mənası bütpərəstlikdir. Belə bir şirk fəqihlərin fətvasına əsasən insanın dindən çıxmasına səbəb olur. Şirkin digər bir mənası Allahdan qeyrilərinə və ya azğın nəfs istəklərinə sözsüz itaətdir. Quran buyurur ki, həqiqətən, hər ümmətə

---

[1] “Yunus”, 57.
[2] “Məvaizi-Səduq”, s. 92.
[3] “Şəhid Mütəhhəri”, “10 söhbət”, s. 224.
[4] “Nisa", 77.

peyğəmbər göndərdik ki, Allaha ibadət edib zalım başçılardan üz çevirəsiniz.[1] Digər bir ayədə oxuyuruq: "Nəfsini özünə tanrı seçəni görmədinmi?!"[2]

"Dunillah" və "dunihi" təbirləri Quranda yüz dəfədən artıq işlədilmişdir. Bu sözlər Allahdan qeyrisinə pərəstişi nəzərdə tutur. Allahdan qeyrisinin göstərişlərinə əməl edən möminlər də tövhid mehvərindən çıxırlar.[3] Yəni Allahdan başqa güvənc yeri olan möminlərin əksəri həm də müşrikdirlər. Rəvayətdə deyilir ki, bu sayaq şirk qarışqanın qaranlıq gecədə qara daş üstə hərəkətindən də məxfidir. Yəni şirk təkcə bütpərəstlik deyil. Allah yönümündə olmayan qüdrət və mala, məqam və qəbiləyə bağlılıq şirkdir.

## *ŞİRKİN TƏSİRLƏRİ*

1. Əməllərin puça çıxması: Şirk insanın yaxşı əməllərini puça çıxarır. Necə ki, od yaşıl ağacı məhv edir. Quran Peyğəmbərə (s) xitabən buyurur ki, müşrik olsan, bütün əməllərin puça çıxar.[4]

2. İztirab və nigarançılıq: Təkallahçı bəndənin məqsədi bir olan Allahı razı salmaqdır. Amma Allahdan qeyrilərini razı salmaq istəyən şəxs daim iztirabda olur. Çünki Allahdan qeyriləri saysız-hesabsızdır və onların hər birinin öz istəyi var. Həzrət Yusif (ə) zindanda öz müşrik yoldaşlarına buyurdu: "Bir neçə rəhbər üstündür, yoxsa bir olan Allah?!"[5]

Quran buyurur ki, Allahdan uzaqlaşan insan havadan buraxılan və quşlara yem olan kəs kimidir. Belə bir insanın hər zərrəsi bir yerə düşür.[6]

Bəli, tövhid və Allaha xalis bəndəlik insanı məhv olmaqdan, hər kəsə bağlanmaqdan, onun-bunun başına fırlanmaqdan, möhtac insanlara ümid bağlamaqdan, yaltaqlıq və qorxudan hifz edən möhkəm bir qaladır. Hədisdə oxuyuruq: "Tövhid möhkəm bir qaladır, bu qalaya daxil olan şəxs Allahın əzabından amanda qalacaq.[7]"

3. İxtilaf və təfriqə: Tövhid cəmiyyətində hər şeyin mehvəri Allahdır. Bu cəmiyyətdə rəhbəri, qanunu və yolu Allah təyin edir. Hamı yeganə mehvər ətrafında hərəkət edir. Müşrik cəmiyyətdə isə çoxsaylı hakimlər, qanunlar və yollar mövcuddur. Xalq arasında ixtilaf və təfriqə var. Quran buyurur ki, müşriklərdən, təfriqə salanlardan olmayın.[8]

4. Qiyamətdə zillət: Quran buyurur ki, vahid Allahla yanaşı digər məbud seçməyin, yoxsa cəhənnəmə atılarsınız."[9]

---

[1] "Nəhl", 36.
[2] "Casiyə", 23.
[3] "Yusuf", 105.
[4] "Zumər", 65.
[5] "Yusuf", 39.
[6] "Həcc", 31.
[7] "Bihar", c. 49, s. 127.
[8] "Rum", 32.
[9] "İsra", 38.

## *ŞİRKİN NİŞANƏLƏRİ*

Şirk nişanələrindən biri ilahi qanunlar qarşısında bəhanə gətirilməsidir. Quran bu bəhanələrdən bəzilərini yada salır:

–Əgər Peyğəmbər sizin zövqünüzə uyğun olmayan qanun gətirdisə, təkəbbürmü etməlisiniz?![1]

–Cihad göstərişi gələn zaman deyirlər ki, nə üçün bizə savaş göstərişi verdiniz?[2]

–Bəni-İsraildən bir dəstə üçün təam gələn vaxt dedilər ki, nə üçün bu təam...?[3]

–Allah bir misal çəkdikdə deyirlər ki, nə üçün bu misal...?[4]

Şirkin nişanələrindən biri də qohumlara, var-dövlətə, vəzifəyə arxalanmaqdır. Ayələrdən birində bildirilir ki, əgər atalar, övladlar, qardaşlar, zövcələr, qohumlar, var-dövlət, ticarət, məskən sizin üçün Allah, Onun rəsulu və cihaddan əzizdirsə, qəzəb intizarında olun.[5]

Şirk o qədər təhlükəlidir ki, dörd dəfə tövhid ilə yanaşı valideynə ehsan etməyi tapşıran Quran, övlada Allahdan qeyrisinə doğru çağıran valideynə itaət etməməyi əmr edir.[6]

## *ŞİRK AMİLLƏRİ*

İnsanlar bəzən qüdrət sorağında başqalarına üz tuturlar. Quran buyurur ki, insanlar hətta bir milçək yaratmağa belə qadir deyillər.[7] Bəzən də bir tikə çörəyə görə insanlar o yan-bu yana üz tuturlar.[8] Bəzən də başqalarına üz tutmağın səbəbi izzət əldə etmək olur.[9] Bəzən də insanlar çətinlikdən qurtulmaq üçün kiməsə yaxınlaşırlar.[10] Başqa bir ayədə buyurulur ki, Allah əvəzinə sorağına getdikləriniz sizin kimi bəndələrdir.[11] Bəyan olunur ki, nə üçün ən üstün yaradanı qoyub, başqalarına üz tutursunuz?[12]

## *ŞİRKLƏ MÜBARİZƏ*

Bütün peyğəmbərlərin ilkin vəzifəsi və məqsədi şirklə mübarizə, insanları Allaha xalis bəndəliyə dəvət etməkdir.[13] Şirkdən savay bütün günahlar

---

[1] "Bəqərə", 87.
[2] "Nisa", 77.
[3] "Bəqərə", 61.
[4] "Bəqərə", 26.
[5] "Tövbə", 24.
[6] "Ənkəbut", 8; "Loğman", 15.
[7] "Həcc", 73.
[8] "Ənkəbut", 17.
[9] "Nisa", 139.
[10] "İsra", 56.
[11] Əraf", 194.
[12] "Saffat", 135.
[13] "Nəhl", 36.

bağışlana bilər.[1] Peyğəmbərlərə əmr olunub ki, müxtəlif növ şirklərə arxa çevirsinlər.[2] Qismən olsa belə, Allaha şərik qoşmaq qadağandır. Bir işin 99 faizi Allaha xatir, 1 faizi Allahdan qeyrisinə xatir olarsa, bütün iş batildir.[3] Nəinki bütlər və zalım hakimlər, hətta peyğəmbər və övliyalar da Allaha şərik qoşulmamalıdır. Allah-təala həzrət İsaya (ə) buyurur ki, xalq sənin sözünləmi səni və ananı Allaha şərik qoşdu?[4]

Allaha şərik qoşulması iftira, böhtan, böyük günahdır.[5]

Şirk o qədər mənfurdur ki, Allah-təala buyurur: "Peyğəmbər və möminlər yaxın qohumları olsa belə müşriklərin bağışlanmasını diləməməlidirlər."[6]

İslam dəlil və məntiq əsasında şirklə mübarizəyə qalxır. Buyurulur: "Allahdan qeyrisi nə yaradıb ki, ona bağlanırsınız?!"[7] Axı sizin ölüm və həyatınız kimin əlindədir? Sizi izzətə çatdıran, zillətə salan kimdir?

Bəli, sonsuz qüdrət və elm sahibi olan Allahdan uzaqlaşıb çarəsiz fərdlər və əşyalara üz tutmaq bəşəriyyətə ən böyük zülmdür. Cansız cisimlərə və zəif insanlara əsir olmaq, özün kimi acizlərdən kömək istəmək düşüncəsizlikdir. Quranda keçmişə aid əhvalatların nəql olunması səbəblərindən biri şirkin kökünü qazmaqdır.

### *AYƏ 14:*

﴿وَوَصَّيْنَا الْإِنسَانَ بِوَالِدَيْهِ حَمَلَتْهُ أُمُّهُ وَهْنًا عَلَى وَهْنٍ وَفِصَالُهُ فِي عَامَيْنِ أَنِ اشْكُرْ لِي وَلِوَالِدَيْكَ إِلَيَّ الْمَصِيرُ﴾

**"Biz insana ata-anası ilə bağlı nəsihət verdik. Anası hər gün zəifləşən vəziyyətdə onu gəzdirdi. Süddən ayrılması iki il çəkər. (Ona tapşırdıq ki,) Mənə, ata-anana təşəkkür et, qayıdış yalnız Mənə doğrudur."**

**Nöqtələr**

"Vəhn" dedikdə fiziki zəiflik nəzərdə tutulur. Necə ki, "təvhin" şəxsiyyəti alçaltmaq mənasını bildirir.

Ehsan infaqdan daha geniş məna daşıyır. İstənilən bir məhəbbət və xidmət ehsan sayılır. İnfaq isə yalnız maddi yardımlara aiddir. Qurani-kərimdə valideynə ehsan tövhidlə yanaşı zikr edilir.[8]

Haqqında danışılan ayədə öncə valideynə yaxşılıq tapşırılır. Sonra ananın hamiləlik dövrünə işarə olunur. Bu yolla insanın əxlaqi vicdanını oyatmağa

1 "Nisa", 48, 116.
2 "Hud", 54.
3 "Nisa", 36.
4 "Maidə", 116.
5 "Nisa", 48.
6 "Tövbə", 113.
7 "Fatir", 40.
8 "İsra", 23.

cəhd edilir. Ona xatırladılır ki, keçmişdəkiləri unutmasın. İnsan daim xatırlamalıdır ki, anası onu özü ilə gəzdirmiş, öz canından qidalandırmışdır. Ana övladına xatir yuxusundan və yeməyindən keçmişdir. Belə bir zəhməti çəkməyə kimsə razı olmazdı. Ananın haqları daha çox təhlükəyə məruz qaldığından və ya o daha böyük haqlara malik olduğundan Allah tərəfindən xüsusi şəkildə tapşırılır.

Valideyn və övladın qarşılıqlı hüquqları var. Ötən ayədə atanın övlada nəsihəti bəyan olundu. Bu ayədə isə övladın ata-anaya ehsanından danışılır.

**Bildirişlər**

1. İstər Allah tərəfindən olsun, istər Allah bəndəsi tərəfindən, haqq sözə tabe olaq.
2. Bütün insanlar çatdıqları məqamdan asılı olmayaraq valideynə borcludurlar.
3. Valideynə hörmət təkcə islami yox, həm də insani bir haqdır. Valideyn kafir olsa belə ona ehsan etmək lazımdır.
4. Daha çox zəhmət çəkənə daha çox qədirdanlıq edilməlidir. Onun adı ayrıca zikr olunmalıdır.
5. Ümumi göstərişlərdə ümumi dəlillər göstərilməlidir. (Bütün bəşəriyyətə üz tutulduğundan hamı üçün aydın olan hamiləlik mövzusu yada salınır.)
6. Bir iş kiminsə təbii vəzifəsidir deyə ona təşəkkür və ehsandan çəkinməyək. (Hamiləlik təbii bir işdir, amma ana qarşısında qədirdanlıq zəruridir.)
7. Keçmişləri yada salaq ki, qədirdanlıq ruhiyyəsi canlansın.
8. Hamiləlik və süd vermə dövrü ana qarşısında vəzifələr yaradan və övlad şəxsiyyətinin formalaşdığı ən mühüm dövrdür.
9. Uşağı tam iki il sonra süddən ayırmaq vacib deyil. Bu iş iki il ərzində həyata keçirilə bilər.
10. Vəzifənin icrası yolunda çətinliyə dözmək fövqəladə hüquqlar yaradır. Zəiflik və yorğunluğa baxmayaraq öhdəsinə məsuliyyət götürən şəxsin daha çox haqqı var.
11. Valideynə təşəkkür Allah qarşısında böyük dəyərə malikdir. Allaha şükür etdikdən sonra valideynə təşəkkür məsələsi önə çəkilir.
12. Hamının dönüşü Allaha doğrudur. Belə isə, valideynə qarşı nankorluqdan qorxaq.
13. Qiyamətə iman saleh əməl, o cümlədən valideynə ehsan üçün stimuldur.
14. Allahın haqqı valideynin haqqından irəlidir. Valideynə təşəkkür və ehsan bizə Allahı unutdurmasın.

## *VALİDEYNƏ EHSAN*

“Bəqərə” surəsinin 83-cü, “Nisa" surəsinin 36-cı, “Ənam” surəsinin 151-ci, “İsra” surəsinin 23-cü ayələrində valideynə ehsan etmək tapşırılır. “Loğman” surəsində isə valideynə ehsan ilahi tövsiyə kimi bəyan olunur. Quranın müxtəlif

ayələrində valideynə təşəkkür Allaha təşəkkürlə yanaşı bəyan olunur. Bəzən isə ananın üzücü zəhmətləri nəzərə çatdırılır.

Valideynin məqamı o qədər ucadır ki, növbəti ayədə hətta insanı şirkə sürükləyən valideynlə pis rəftar etməmək tapşırılır. Yəni övlad valideynə itaət etməməli olduğu halda belə onu tənha buraxmamalıdır. Bəli, valideynə hörmət dini yox, insani bir vəzifədir. Bu hüquq müvəqqəti xarakter daşımır, həmişəlikdir.

Rəvayətlərdə bildirilir ki, valideynə bütün hallarda ehsan etmək lazımdır. İstər yaxşı, istər pis, istər sağ, istər dünyasını dəyişmiş valideynə ehsan zəruridir. Peyğəmbər (s) öz süd bacısına süd qardaşından daha çox ehtiram göstərirdi. Bunun səbəbini soruşduqda həzrət buyurdu: "Çünki bu xanım valideyninə daha çox hörmət edirdi."[1]

Quranda oxuyuruq ki, həm həzrət Yəhya (ə), həm də həzrət İsaya (ə) öz analarına ehtiram göstərmək əmr olunmuşdu.[2] Əziz Peyğəmbər (s) buyurmuşdur: "İlkin vaxtda qılınan namazdan sonra ən yaxşı iş valideynə ehtiramdır."[3] Kərbəlada bir şəxs şəhid olmuşdu. Onun oğlu imamın köməyinə gəldiyi vaxt imam buyurdu: "Qayıt, anan ər dağı görüb, ola bilsin ki, oğul dağına dözməyə." Cavan dedi: "Məni meydana anam göndərib."[4]

### *"VALİDEYN" SÖZÜNÜN GENİŞ MƏNASI*

İslam leksikonunda səmavi rəhbər, müəllim, tərbiyəçi və həyat yoldaşının atası da ata adlandırılır. Hzərət Peyğəmbər (s) ölüm yatağında olduğu günlər Həzrət Əliyə (ə) buyurdu: "Xalq arasına çıx və uca səslə de: Lənət olsun ağ valideyn şəxsə! Lənət olsun mövlasından qaçan bəndəyə! Lənət olsun fəhlənin haqqını verməyən kəsə!"

Həzrət Əli (ə) xalq arasına çıxıb həzrətin buyruqlarını bəyan etdi. Səhabələrdən bəziləri bu məsələyə sadə yanaşıb soruşdular: "Biz bu barədə əvvəllər də eşitmişik, deyilənlər təzə söz deyil." Xalqın deyilənlərə ciddi yanaşmadığını görən Peyğəmbər (s) Həzrət Əlini (ə) növbəti dəfə belə bir tapşırıqla göndərdi: "Ağ valideyn dedikdə səmavi rəhbərə qarşı çıxanları nəzərdə tuturam. Ya Əli! Mən və sən bu ümmətin atalarıyıq. Bizə itaət etməyən üzümüzə ağ olur. Mən və sən bu xalqın mövlasıyıq. Bizdən qaçan Allahın qəzəbinə gələr. Mən və sən bu xalqın hidayəti üçün çalışırıq. Haqqı ödəməyənlər Allahın lənətinə gələr." Nəql olunan əhvalatdan aydın olur ki, valideynə ehsan və itaət aydın bir mövzu olsa da, İslam leksikonunda onun daha geniş mənası var.

---

[1] "Kafi", c. 2. s. 161.

[2] "Məryəm", 14, 32.

[3] "Mizanul-hikmə".

[4] "Əyanuş-şiə", c. 1, s. 607.

## *ALLAHA ŞÜKÜR*

Allah bəndələrin ibadət və təşəkkürünə möhtac deyil. Quran dəfələrlə qeyd edir ki, Allah sizdən ehtiyacsızdır.[1] Amma Allaha diqqət bizim özümüzü izzətə çatdırır, yüksəldir. Necə ki, günəş insanlara yox, insanlar günəşə ehtiyaclıdırlar. Əgər evimizi üzü günəşə tiksək, bundan özümüz faydalanasıyıq.

Allah-təala Quranda peyğəmbərləri müəyyən səciyyələrinə görə mədh edir. Bu səciyyələrdən biri də onlardakı şükür ruhiyyəsidir. Məsələn, həzrət Nuh (ə) həyat yoldaşının, oğlunun və xalqın vəfasızlığı müqabilində səbir və dözüm göstərərək şükür etdiyindən Allah onu "şakir" adlandırır.[2] Allah Quranda əksəriyyətin nankorluğundan dəfələrlə şikayətlənmişdir.

Əlbəttə şükür tövfiqini Allahın Özündən istəməliyik. Necə ki, həzrət Süleyman (ə) uyğun istəklə Allaha üz tutdu.[3] Biz adətən hər gün istifadə etdiyimiz nemətlərə diqqət yetirir, bir çox başqa nemətlərdən xəbərsiz qalırıq. İnsan ata-babalar və varislər vasitəsi ilə əldə etdiyi nemətlərdən, hər an ondan uzaqlaşdırılan minlərlə bəladan, Allah və Onun övliyalarına iman kimi mənəvi lütflərdən və ya küfr və günaha nifrət nemətindən qəflətdə qalır.[4]

Qeyd olunanlardan əlavə, məsumlardan nəql olunmuş bəzi dualar ilahi nemətlərə diqqət və bu nemətlər müqabilində şükürdür. Bu dualar insandakı şükür ruhiyyəsini canlandırıb gücləndirir. Nemətlər qarşısında şükür bəzən dillə, bəzən əməllə gerçəkləşir.

Hədisdə oxuyuruq: "İlahi nemətləri yada saldıqda şükür olaraq səcdə edin. Hətta süvari haldasınızsa, atdan düşüb səcdə qılın. Atdan düşmək çətin olduqda, ya həmin vəziyyətdə səcdə qılın, ya da əlinizə səcdə edib nemətlərin şükrünü yerinə yetirin.[5]"

## *ƏMƏLDƏ ŞÜKÜR NÜMUNƏLƏRİ*

1. Namaz Allaha şükürün ən üstün nümunəsidir. Allah Öz peyğəmbərinə buyurur ki, sənə Kövsər, böyük xeyir verdiyimiz üçün şükür olaraq namaz qıl.[6]

2. Oruc: İlahi peyğəmbərlər Allahın nemətlərinə şükür olaraq oruc tuturdular.[7]

3. Xalqa xidmət: Quranda buyurulur ki, əgər savadsız bir şəxs savadlı bir şəxsdən nəsə yazmasını istəsə, həmin şəxs boyun qaçırmasın, öz elminin şükrünü yerinə yetirərək onun dediyini yazsın.[8] Savadsız üçün məktub yazmaq xalqa xidmət olduğundan bir növ savad müqabilində şükür sayılır.

---

[1] "Nəml", 40; "Loğman", 12; "Zumər", 7.
[2] "İsra", 3.
[3] "Nəml", 19.
[4] "Hucurat", 7.
[5] "Kafi", "şükür" babı, hədis 25.
[6] "Kövsər", 1, 2.
[7] "Vəsail", c. 10, s. 446.
[8] "Bəqərə", 282.

4. Qənaət: Əziz Peyğəmbər (s) buyurur: "Qane ol ki, insanların ən çox şükür edəni sayılasan."[1]

5. Yetimə nəvaziş: Allah Öz Peyğəmbərinə (s) buyurur ki, yetim olduğun vaxt sənə nəvaziş göstərməyimizin şükrü olaraq yetimləri özündən uzaqlaşdırma.[2]

6. Məhrumlara və ehtiyaclılara yardım: Allah Öz peyğəmbərinə buyurur ki, ehtiyaclı olduğun vaxt səni imkana çatdırmağımızın şükrü olaraq sənə üz tutmuş yoxsulu özündən uzaqlaşdırma.[3]

7. Xalqa təşəkkür: Allah Öz peyğəmbərinə buyurur ki, zəkat verənlərə təşəkkür və təşviq ünvanında onlara salam göndər. Çünki sənin salamın onlar üçün rahatlıqdır.[4] İnsanlara təşəkkür Allaha təşəkkürdür. Rəvayətdə bildirilir ki, Allahın bəndələrinə təşəkkür edən kəs Allaha təşəkkür etmişdir.[5]

Həyatın acılıqlarına görə də şükür lazımdır.

Quranda buyurulur ki, bir çox xoşlamadığınız şeylər əslində sizin xeyrinizədir.[6] Əgər bilsək ki, başqalarının daha çox problemi var, problemlər bizim diqqətimizi Allaha yönəldir, çətinliklər bizi təkəbbürdən uzaqlaşdırır və qəlbimizi yumşaldır, çətinliklər bizə yoxsulları xatırladır, problemləri aradan qaldırmaq üçün yenilik axtarıb təkmilləşirik, itki həmin nemətin dəyərini yada salır, qarşıya çıxan çətinliklər günahlarımızın kəffarəsidir, çətinliklərə görə axirət mükafatları nəzərdə tutulur, problemlər "qiyamətə hazırlaş" xəbərdarlığıdır, çətinliklər vaxtı öz səbrimizi qiymətləndirir, əsil dostları tanıyırıq, qarşılaşdığımız çətinliklərdən də dərdli çətinliklər var, bütün bu acılıqlarda şirinlik olduğunu anlayarıq.

Bəli, uşaq üçün xurma şirin, istiot isə acıdır. Amma daha çox məlumatlı olan valideyn üçün həm xurmada, həm də istiotda bir dad var. Həzrət Əli (ə) Ühüd savaşında buyurdu: "Cəbhədə iştirak şükür ediləsi işlərdəndir."[7] Həzrət Əlinin (ə) qızı Zeynəb (ə) Bəni-Üməyyə cinayətkarlarının rişxəndlərinə belə cavab verdi: "Kərbəlada gözəllikdən başqa bir şey görmədim."[8]

Övliyalardan birinə "Allaha şükür et" dedilər. O belə cavab verdi: "Mən ona şükür etməkdə acizəm." Xitab olundu ki, "şükür etməyə acizəm" etirafı ən üstün şükürdür.

***Nemətlər ələnir göydən hər zaman,***
***Layiqincə şükrü varmı bacaran?!***

---

[1] "Mustədrək", c. 11, h. 12676.
[2] "Zuha", 9.
[3] "Zuha", 10.
[4] "Tövbə", 102.
[5] "Üyunul-əxbar", c. 2, s. 24.
[6] "Bəqərə", 316.
[7] "Nəhcül-bəlağə", x. 156.
[8] "Bihar", c. 45, s. 116.

*Gücünü anlayan həqiqi bəndə*
*Üzr istəyib deyir “hal yoxdur məndə.”*

*AYƏ 15:*

﴿وَإِن جَاهَدَاكَ عَلى أَن تُشْرِكَ بِي مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ فَلَا تُطِعْهُمَا وَصَاحِبْهُمَا فِي الدُّنْيَا مَعْرُوفًا وَاتَّبِعْ سَبِيلَ مَنْ أَنَابَ إِلَيَّ ثُمَّ إِلَيَّ مَرْجِعُكُمْ فَأُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Əgər o iki nəfər (ata-ana) bilmədiyin bir şeyi Mənə şərik qoşmağın üçün çalışsalar onlara itaət etmə. Amma dünyada onlarla xoşrəftar ol. Mənə doğru (tövbə edib) qayıdan kəsin yolunu tut. Qayıdışınız Mənə doğrudur, sizi gördüyünüz işlərdən xəbərdar edərəm.”**

**Nöqtələr**

Quranda üç növ itaətdən danışılır: Allaha, peyğəmbərə və əmr sahiblərinə mütləq itaət[1]; kafirlərə, münafiqlərə, fəsad əhlinə, günahkarlara və zalımlara mütləq itaətsizlik[2]; valideynə şərti itaət; yəni onun xeyir çağırışlarına itaət, şirkə çağırışına itaətsizlik!

**Bildirişlər**

1. İnsan fitri olaraq tövhidə meyillidir. Ətrafdakılar onu şirkə sürükləməyə çalışır.
2. Ümumi mövzuları bəyan etməklə yanaşı açıqlamalar da verək. (Valideynə itaət əmri verilərkən mümkün istisnalar da qeyd olunur.)
3. Şirkin heç bir elmi məntiqi yoxdur.
4. Kor-koranə təqlid qadağandır.
5. Allahın haqqı bütün haqlardan, o cümlədən valideynin haqqından müqəddəmdir.
6. Bir yolu qadağan etdikdə, başqa bir yol göstərək.
7. Büdrəmə ehtimalı olan yerdə valideynə itaət edilməməlidir. Amma adi həyat tərzi hifz edilməlidir.
8. Təsir altına düşməmək şərti ilə qeyri-müsəlmanlarla dinc– yanaşı yaşayış caizdir.
9. Yaxşı iş heç vaxt tərk olunmamalıdır.
10. Ömürün sonunadək valideynlə yaxşı rəftar etmək zəruridir.
11. İlahi insanlar nümunə olmağa layiqdirlər.

---

[1] “Nisa", 59.
[2] “Əhzab”, 1; “İnsan”, 24; “Sad”, 26.

12. Bəzən əqidə seçimi və ailədə rəftar arasında fərq qoymaq lazım gəlir. Adi həyatda valideynə hörmət göstərilməli, həyat yolunda paklar və salehlər nümunə götürülməlidirlər.

13. Məada iman işlərin islahına və Allah yoluna tabeçiliyə zəmanət verir.

14. Qiyamət insanların Allah hüzurunda dayanacağı səhnədir.

*AYƏ 16:*

﴿يَا بُنَيَّ إِنَّهَا إِن تَكُ مِثْقَالَ حَبَّةٍ مِّنْ خَرْدَلٍ فَتَكُن فِي صَخْرَةٍ أَوْ فِي السَّمَاوَاتِ أَوْ فِي الْأَرْضِ يَأْتِ بِهَا اللَّهُ إِنَّ اللَّهَ لَطِيفٌ خَبِيرٌ﴾

**“Ey oğlum! Əgər (sənin əməlin) xardal dənəsi ağırlıqda olsa, daşın köksündə, göylərdə və ya yerdə gizlənsə, Allah onu (Qiyamətdə hesab üçün) hazır edər. Çünki Allah dəqiq və agahdır.”**

**Nöqtələr**

Xardal kiçik qara dənələri olan bitkidir. Xardal dənəsi kiçikliyi göstərmək üçün məsəl çəkilir.

**Bildirişlər**

1. Övladı ilahi elm və qüdrətlə tanış etmək hikmət nişanəsidir.
2. Moizədə hər tövsiyədən öncə qarşı tərəfin adını təkrarlayaq.
3. Qiyamətdə əməllərin hesabına iman dünyada insanın islah səbəbidir.
4. Kamil dəyərləndirmə və nəzarətdə ən kiçik işlər də nəzərə alınmalıdır.
5. Kiçiklik, uzaqlıq və xəlvətə çəkilmək Allahın elminə təsirsizdir.
6. Allah hər şeydən xəbərdar və hər şeyə qadirdir.
7. İnsanın əməlləri bu dünyada puç olub getmir.
8. Allah dəqiq hesab aparır, çünki, O lətifdir.

*AYƏ 17:*

﴿يَا بُنَيَّ أَقِمِ الصَّلَاةَ وَأْمُرْ بِالْمَعْرُوفِ وَانْهَ عَنِ الْمُنكَرِ وَاصْبِرْ عَلَى مَا أَصَابَكَ إِنَّ ذَلِكَ مِنْ عَزْمِ الْأُمُورِ﴾

**“Oğlum! Namazı bərpa et, yaxşılığa çağır, pisliyə qadağa qoy (əmr be məruf və nəhy əz münkər et), üzləşdiyin çətinliklərə müqavimət göstər. Bu (səbir) vacib və mühüm işlərdəndir.”**

**Nöqtələr**

Ayədə “əzm” dedikdə, ya Allahın uyğun işlərin həyata keçirilməsindəki qəti iradəsi, ya da insanın bu işlərdə qəti qərara gəlməsi nəzərdə tutulur.

Quranda 28 dəfə namazla yanaşı zəkat zikr olunmuşsa da, burada namazla birlikdə əmr be məruf (yaxşılığa çağırış) yada salınır. Ayədə sərvəti olmayan oğula müraciət edildiyindən zəkat tapşırığı zəruri sayılmaya bilər.

Həzrət Əli (ə) buyurur: “Yaxşılığa çağırış və pisliyə qadağa yolunda üzləşdiyin çətinliklərə səbir et.”[1]

Bəzən müsibətlər, bəzən vəzifənin ağırlığı, bəzən günah qarşısında səbir etmək lazım gəlir.[2] Həzrət Yusif (ə) zindanda deyir: “Pərvərdigara! Zindan mənim üçün dəvət olunduğum günaha batmaqdan daha yaxşıdır.”[3]

**Bildirişlər**

1. Övladı namaza dəvət etmək valideynin vəzifələrindəndir.
2. Şirkdən çəkinməklə batinimizi paklaşdıraq, namazla ruhumuzu cilalamağa başlayaq.
3. Əmr be məruf və namaz təkcə İslama aid vacib əmrlərdən deyil. (İslamdan öncə də Loğman namaz tövsiyəsi verirdi.)
4. Övladlarınızı namaz tövsiyəsi ilə möminliyə, əmr be məruf və nəhy əz münkər yolu ilə ictimailiyə sövq edin.
5. Övladlarımızın agahlığını yaxşı və pis işləri tanıyacaq həddə çatdıraq.
6. Yaranış və məada diqqətdən sonra ən mühüm əməl namazdır.
7. Cəmiyyəti doğru yola çağırıb onu pislikdən çəkindirmək istəyən şəxs namaz vasitəsi ilə özünü cilalamalı və imanla sirab etməlidir.
8. Övladlarımızı yaxşılığa çağıran və pisliyə qadağa qoyan insanlar kimi tərbiyə edək.
9. Öncə yaxşılığa çağırış, sonra pisliyə qadağa! Cəmiyyətdə xeyir işlərin rövnəqlənməsi bir çox pis əməllərin qarşısını alır.
10. Doğru yolda olmaq bəs etmir, başqalarını da bu yola dəvət etmək lazımdır.[4]
11. Dinin təbliğində, əmr və qadağalarda səbirli və qəlbi geniş olmalıyıq. Pisliyə qadağa qoyan insan hökmən günahkarların zəhərli sözlərini dadasıdır. Məbada bu halda geri çəkilək.
12. Hikmət əldə etmiş ata övladının çətinliyə düşməsini qəbul edir, amma əqidə məktəbinə zərbə vurulması ilə razılaşmır.
13. Əmr be məruf və nəhy əz munkər (yaxşılığa çağırış və pisliyə qadağa) mühüm məsələlərdəndir. İnsanın bu yolda səbir etməsi dəyərlidir.

### *NAMAZ HAQQINDA*

Namaz və əmr be mərufa çağırış münasibəti ilə bu iki vəzifə haqqında müxtəsər şəkildə danışaq:

–Namaz insanla Allah arasında ən sadə, ən dərin və ən gözəl rabitədir. Bu ibadət bütün səmavi dinlərdə mövcuddur.

–Namaz yeganə ibadətdir ki, ondan öncə ən xoş səsli bir nəfərin yüksək yerə qalxıb uca səslə “tələsin namaza, tələsin əməllərin ən xeyirlisinə” deməsi

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Bəqərə”, 154, 155.
[3] “Yusuf”, 33, 90.
[4] “Əsr”, 3.

tapşırılmışdır. “Azan” adlandırılmış bu çağırış sükutu aradan qaldırır, xalis islami düşüncələri elan etməklə qafilləri oyadır.

–Namaz o qədər mühümdür ki, həzrət İbrahim (ə) öz zövcə və övladını otsuz-susuz səhrada qoymasını (Həcc mərasimi ilə yox) namazın bərpası ilə əlaqələndirir.

–İmam Hüseyn (ə) aşura günü günorta çağı iki rəkət namaz üçün sinəsini düşmən oxlarına sipər etdi.

–Quran həzrət İbrahim (ə) və İsmailə (ə) göstəriş verir ki, Məscidül-həramı namaz qılanlar üçün hazırlasınlar. Bəli, namaz o qədər mühümdür ki, həzrət Zəkəriyya (ə), Məryəm (ə), İbrahim (ə) və İsmail (ə) namazın bərpa olduğu məsciddə xidmətçi dayanırlar.

–Namaz bütün digər əməllərin qəbulu üçün açardır. Həzrət Əli (ə) öz valisinə buyurur: “Vaxtının ən gözəlini namaz üçün ayır. Agah ol ki, bütün əməllərin namaz sayəsində qəbul olar.[1]”

–Quranın əksər surələrində, “Bəqərə” kimi böyük surələrdən tutmuş “Kövsər” kimi kiçik surələrdə namazdan danışılır.

–İnsan doğulanda qulağa azan və iqamə deyilən gündən qəbristanlıqda ona meyit namazı qılınan günədək namaz cilvələnir.

–Həm zəlzələ və qorxu yaradan küləklər zamanı, həm ay və günəş tutulan zaman “ayat” namazı adlı namaz vacib olur. Hətta yağış istəyi ilə yağış namazı qılınır.

–Namaz insanı bir çox pis və çirkin işlərdən uzaqlaşdırır.[2]

Namazda nəzərə çarpan kamilliklərdən bəzilərini nəzərdən keçirək:

–Misvak çəkmək (dişi fırçalamaq), dəstəmaz, qüsl, bədən və libasın təmizliyi ilə paklığa riayət olunur.

–Azan vasitəsi ilə insan cəsarət dərsi alır, fəryad çəkməyi öyrənir.

–Cəmiyyət namazından səhnədə iştirak öyrənilir.

–Cəmiyyət namazında ədalətli imam seçməklə ədalətə diqqət yetirilir.

–Birinci cərgədə dayananlardan dəyərlərə və kamilliyə diqqət əldə olunur.

–Müsəlmanlar öz qiblələrinə üz tutmaqla müstəqillik dərsi alırlar. Bəli, yəhudilərin öz qibləsi, məsihilərin də öz qibləri var. Müsəlmanlar müstəqil olmalıdırlar. Buna görə də Quranın göstərişi ilə Kəbə müsəlmanlar üçün qiblə seçilir. Bununla da onların müstəqil yönə üz tutması təmin olunur.

–Paltarda bir qırıq qəsbi sapın olmasının namazı batil etməsi, diqqəti başqalarının hüquqlarına yönəldir.

–“Məsum imamların vilayətini qəbul etmədən qılınan namaz qəbul deyil” rəvayətindən siyasi baxışlar formalaşır.

–Cəmiyyət namazının nizamlı cərgələri diqqəti nizam-intizama, Kərbəla türbəti diqqəti şəhidlərə, məscidin təmizliyi ilə bağlı göstərişlər diqqəti sağlamlığa yönəldir.

---

[1] “Nəhcül-bəlağə”, namə, 27.

[2] “Ənkəbut”, 45.

–Namaz boyu Allaha diqqət aşılanır. “Maliki yəvmiddin” diqqəti məada, “ihdinəs-siratəl-mustəqim” diqqəti yol seçiminə, “siratəlləzinə ənəmtə ələyhim” diqqəti yaxşı yoldaşlara, “ğəyril-məğzubi ələyhim vələzzalin” diqqəti qəzəbə düçar olmuşlara, təşəhhüd diqqəti Peyğəmbər (s) və onun Əhli-beytinə (ə), salam diqqəti paklara və salehlərə yönəldir.

–Spirtli içki içənin qırx gün namazının qəbul olmaması sağlam və pak qidalanma məsələsini önə çəkir.

–Namazda ən yaxşı libaslarda, ətirlənmiş vəziyyətdə iştirakın tövsiyəsi diqqəti zahiri səliqə-sahmana yönəldir.

–Aralarında kin-küdurət olan ər-arvadın namazının qəbul olmaması barədə hədis diqqəti ailədə mehribanlığa yönəldir.

Deyilənlər namazda bizə aşılanan təsirlərin bir qismi idi. Mərhum İmam buyurur ki, namaz insan tərbiyə edən bir müəssisədir.

## *ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR (YAXŞILIĞA ÇAĞIRIŞ VƏ PİSLİYƏ QADAĞA)*

“Əmr be məruf” dedikdə yaxşılıqların tövsiyəsi, “nəhy əz münkər” dedikdə pisliklərin qarşısının alınması nəzərdə tutulur. Loğmanın öz övladına əmr be məruf və nəhy əz münkər göstərişi verməsi bu vəzifələrin yaşdan asılı olmamasını göstərir.

Yaxşılığa çağırış əqidə məktəbinə eşq nişanəsidir. Xalqa məhəbbət, cəmiyyətin sağlamlığına maraq, söz azadlığı, dini qeyrət, səmimi dostluq rabitələri, pak fitrət, ümumi nəzarət, ictimai fəallıq əmr be məruf nişanələrindəndir.

Yaxşılığa çağırış və pisliyə qadağa xeyir əməl sahiblərini təşviq edir, cahil insanları oyadır, pis işlərin qarşısını alır, bir növ ictimai asayiş yaradır. Quran buyurur ki, “siz müsəlmanlar ən üstün ümmətsiniz. Çünki yaxşılığa çağırır, pisliyə qadağa qoyursunuz.[1]”

Həzrət Əli (ə) buyurur: “Yaxşılığa çağırış və pisliyə qadağa hamının xeyrinədir.”[2] Digər bir hədisdə oxuyuruq: Pis işlərin qarşısını almayan insan yolda yaralıya kömək göstərməyib onun ölümünə səbəb olan insan kimidir.[3] Həzrət Davud (ə), həzrət İsa (ə) kimi peyğəmbərlər pisliyə qadağa qoymayanları lənətləmişlər.[4] İmam Hüseyn (ə) yaxşılığa çağırış və pisliyə qadağa üçün qiyam qaldırdı.[5] Hədisdə oxuyuruq: “Yaxşılığa çağırış və pisliyə qadağa yolu ilə bütün dini zərurətlər hərəkətə gələr.[6] Quranda oxuyuruq ki, bir məclisdə ilahi ayələrə istehza olunarsa həmin məclisi tərk edin, qoy mövzu

---

[1] “Ali-İmran”, 110.
[2] “Nəhcül-bəlağə”, h. 252.
[3] “Kənzul-ummal”, c. 3, s. 170.
[4] “Maidə”, 78.
[5] “Bihar”, c. 44, s. 328.
[6] “Kafi”, c. 5, s. 55.

dəyişsin.[1] İnsan günaha görə həm qəlbən narahat olmalı, həm dili ilə çəkindirməli, həm güc və qanun vasitəsi ilə xilaf işin qarşısını almalıdır. Bir insanı yaxşı yola gətirə bilsək, onun yaxşı işlərinin savabına şərik olarıq. Amma fəsad və günah qarşısında sakit dayansaq, fəsadçı və günahkar insanlar bir gün xalqa hakim olar. Günah qarşısında sükut günahı insanların nəzərində adiləşdirir, günahkar daha da ürəklənir. Nəticədə biz biganələşirik, şeytan razı qalır və Allahın qəzəbi nazil olur.

Yaxşılığa çağırış və pisliyə qadağa iki mühüm ilahi vəzifədir. “Başqalarının günahından bizə nə”, “xalqın azadlığını əlindən almaq olmaz”, “mən qorxuram”, “bir güllə bahar olmaz”, “İsanın (ə) öz dini, Musanın (ə) öz dini”, “bizi bir qəbirə qoymayacaqlar”, “bu iş mənə qalmayıb” kimi bəhanələr uyğun vəzifəni öhdəmizdən götürmür. Əlbəttə ki, yaxşılığa çağırış və pisliyə qadağa vəzifəsi agahlıq, canıyananlıq, ağıl, hətta mümkün qədər məxfiliklə həyata keçirilməlidir. Bəzən insan özü bu vəzifəni həyata keçirməli, bəzən sözünün təsirsiz olduğunu görüb başqalarını bu işə sövq etməlidir. Hətta qısa bir müddət günahın qarşısını almaq mümkündürsə, addım atılmalıdır. Xəbərdarlıq təkrarlandıqda nəticəyə çatmaq olarsa, təkrarlamaq zəruridir.

### *AYƏ 18:*

﴿وَلَا تُصَعِّرْ خَدَّكَ لِلنَّاسِ وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا إِنَّ اللَّهَ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ﴾

**“Xalqdan (təkəbbürlə) üz çevirmə, yer üzündə qürurla addım atma. Çünki Allah heç bir təkəbbürlü lovğanı sevməz.”**

**Nöqtələr**

“Təsir” dəvədə olan bir xəstəliyin adıdır. Bu xəstəliyə tutulan dəvənin boynu əyilir. Loğman oğluna deyir ki, təkəbbür üzündən xəstə dəvə kimi xalq qarşısında boynunu (üzünü) çevirmə.

“Mərəh” dedikdə var-dövlət və məqama görə şadlıq mənası anlaşılır. Puç xülyalar əsasında özünü üstün tutan insan “muxtal” adlanır. Qürrələnən insana isə “fəxur” deyilir.

Təkəbbür həm xalqa qarşı təhqirdir, həm keçmiş kin-küdurəti təzələyir, həm də yeni düşmənçiliklər yaradır. Hədisdə oxuyuruq ki, yer üzündə təkəbbürlə addım atan adama həm yer, həm yerin üstündə və altında olanlar lənət oxuyurlar.[2]

**Bildirişlər**

1. İstər müsəlman, istər qeyri-müsəlman insanlarla xoş rəftar edək.

---

[1] “Nisa", 140; “Ənam”, 67.

[2] “Təfsire-Nurus-səqəleyn”.

2. Hətta yol yeriyərkən təkəbbürlə yerimək qadağandır.
3. Allahın razılığını önə çəkib yaxşılığa həvəsləndirək, Allahın qəzəbini önə çəkib pisliklərdən çəkindirək.
4. Özümüzü mövhumat, xülya, qürur xəstəliyinə yoluxdurmayaq.
5. Xalqla təkəbbürlü davranıb lovğalanmayaq.

## *TƏVAZÖ*

Bu ayədə Loğman öz oğluna deyir ki, yer üzündə təkəbbürlə gəzmə. Surələrdən birində isə təvazökar yeriş yaxşı bəndəliyin ilkin nişanəsi sayılır.[1] İnsanın öz vücudundakı ən uca nöqtəni (alnını) səcdə zamanı yerə qoyması namazın əsrarəngizliklərindəndir və Allah qarşısında təkəbbürdən uzaqlığı və təvazönü göstərir. Bütün insanlar qarşısında təvazökarlıq zəruri sayılsa da, valideyn, ustad, möminlər qarşısında təvazö layiqli möminlik nişanələrindəndir.[2]

Peyğəmbərlər yoxsulları onlardan uzaqlaşdırmaq istəyən təkəbbürlülərə belə cavab verirdilər: “Biz heç vaxt onları rədd etmərik.”[3] Torpaqdan, nütfədən yaradılmış zəif insan sonda hərəkətsiz leşə çevrilir. Belə bir varlıq hansı əsasla lovğalanmalıdır? Məgər o öz məhdud elmini bir anda unuda bilməzmi? Məgər o, gözəlliyini, qüdrətini, şöhrət və sərvətini bir anda itirə bilməzmi? Məgər cəmiyyətdəki xəstəlikləri, yoxsulluqları və ölümü görmürmü? Məgər onun bugünkü imkanları puç olub gedəsi deyilmi? Bəs hansı əsasla lovğalanmalıdır? Quran buyurur ki, təkəbbürlə yerimə, yer yarılan deyil; özünü dartma, dağlardan yuxarı qalxası deyilsən.[4]

## *ÖVLİYALARIN TƏVAZÖKARLIQ NÜMUNƏLƏRİ*

1. Yaranışın ən böyük şəxsiyyəti əziz Peyğəmbərdir (s). O əyləşəndə başqalarından seçilməzdi. Məclisə daxil olanlar onu oturduğu yerə görə tanımaz və kimin Peyğəmbər (s) olduğunu soruşardılar.[5]
2. Səfər zamanı hərə bir işi öhdəsinə götürdüyü vaxt həzrət Peyğəmbər (s) “çır-çırpı toplamaq mənim öhdəmə” buyurub işə başladı.[6]
3. Bəzilərinin quru yerdə oturduğunu görən əziz Peyğəmbər (s) döşənəcək əvəzi olaraq öz əbasını onlara verdi.[7]

Sadə geyim, çılpaq ulağa minmək, süd sağmaq, qullarla bir yerdə əyləşmək, uşaqlara salam vermək, ayaqqabısını yamamaq, xalqın dəvətini qəbul etmək, öz

---
[1] “Furqan”, 63.
[2] “Maidə”, 54.
[3] “Hud”, 29.
[4] “İsra”, 38.
[5] “Bihar”, c. 47, s. 47.
[6] “Bihar”, c. 47.
[7] “Bihar”, c. 16, s. 235.

mənzilini süpürmək, hamı ilə əllə görüşmək, istənilən bir təamı bəyənmək həzrət Peyğəmbərin (s) xüsusiyyətlərindən idi.[1]

4. Bəzi şiələr İmam Sadiqə (ə) hörmət əlaməti olaraq hamamı boşaltmaq istədilər. Həzrət icazə verməyib buyurdu: "Bu işə ehtiyac yoxdur. Mömin dəbdəbədən uzaq olan sadə bir həyat keçirir."[2]

5. Səfərdə İmam Rzanı (ə) qullardan aralı aparmaq istəsələr də o həzrət razılaşmadı.[3]

6. İmam Rzanı (ə) tanımayan bir şəxs ona belini kisələtdirmək istədi. Həzrət özünü təqdim etmədən onun xahişini yerinə yetirdi. Sonradan həzrəti tanıyan həmin adam xəcalətdən üzülüb üzr istədi. Həzrət ona ürək-dirək verdi.[4] Təklifi qəbul etmək, başqalarının tənqidini dinləmək, başqalarından aşağıda oturmaq təvazö nişanələrindəndir.

### *AYƏ 19:*

﴿وَاقْصِدْ فِي مَشْيِكَ وَاغْضُضْ مِن صَوْتِكَ إِنَّ أَنكَرَ الْأَصْوَاتِ لَصَوْتُ الْحَمِيرِ﴾

**"Yol yeriyərkən orta həddi gözlə, səsini yavaş çıxar. Çünki səslərin ən xoşagəlməyəni ulağın səsidir."**

**Nöqtələr**

İmam Həsən (ə) buyurur: "İti yeriş mömininin dəyərini azaldır."[5]

Hədisdə oxuyuruq: "Xalqı Allaha doğru dəvət edərkən, Quran oxuyarkən səsi qaldırmağın eybi yoxdur.[6]"

Loğmanın tövsiyələrində doqquz əmr, üç qadağa və uyğun əmr və qadağalarla bağlı yeddi dəlil göstərilmişdir. **Əmrlər:** valideynə yaxşılıq, Allaha və valideynə təşəkkür, valideynə yaxşılıqla müşayiət olunan müsahibə; möminlərin yolunu izləmək, namazı bərpa etmək, yaxşılığa çağırış, pisliyə qadağa, orta həddə hərəkət, danışarkən səsi ucaltmamaq.

**Üç qadağa:** şirkə qadağa, xalqdan üz çevirməyin qadağası, təkəbbürlü yerişin qadağası.

### *YEDDİ DƏLİL:*

1. Şükür etmək insanın özünə faydalı olduğundan şükrü yerinə yetirin.
2. Şirk böyük zülm olduğundan şirkdən çəkinin.
3. Hamı Allaha doğru qayıdasıdır. Sorğu günü varsa, valideynə ehtiram göstərin.
4. Allah hər şeydən agahdır, öz əməllərinizə qarşı diqqətli olun.

---

[1] "Bihar", c. 16, s. 155; c. 73, s. 208.
[2] "Bihar", c. 47, s. 47.
[3] Fəlsəfi, "Kudək", c. 2, s. 457.
[4] "Bihar", c. 49, s. 99.
[5] "Təfsire-Nurus-səqəleyn".
[6] "Təfsire-Nurus-səqəleyn".

5. Səbir və dözüm əhəmiyyətli səciyyədir, səbirli olun.
6. Allah təkəbbürlüləri sevmir, təkəbbürdən uzaq olun.
7. Ən pis səs ulağın səsidir, səsinizi ucaltmayın.

**Bildirişlər**

1. İslam kompleks bir dindir. Bu dində hətta yerişlə bağlı göstərişlər var.
2. İlahi ayinlərdə əqidə və əxlaq məsələləri yanaşı bəyan olunur.
3. Orta hədd ifrat və təfritdən uzaqlıq Quran göstərişidir.
4. Təkcə yol gedərkən yox, bütün işlərdə orta həddi gözləyək.
5. Səsimizi qaldırmayaq. Yersiz fəryadlardan çəkinək. Yumşaq və aram danışaq.
6. Fəryad çəkmək və səsi qaldırmaq bəyənilməyən və məzəmmət olunmuş işdir.

***AYƏ 20:***

﴿أَلَمْ تَرَوْا أَنَّ اللَّهَ سَخَّرَ لَكُم مَّا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَأَسْبَغَ عَلَيْكُمْ نِعَمَهُ ظَاهِرَةً وَبَاطِنَةً وَمِنَ النَّاسِ مَن يُجَادِلُ فِي اللَّهِ بِغَيْرِ عِلْمٍ وَلَا هُدًى وَلَا كِتَابٍ مُّنِيرٍ﴾

**“Görmədinizmi ki, Allah göylərdə və yerdə nə varsa sizin üçün ram etdi, öz zahiri və batini nemətlərini ixtiyarınıza verdi?! Amma insanların bəziləri heç bir elm, hidayət və aydın kitab olmadan Allah haqqında höcətləşməyə başlayır.”**

**Nöqtələr**

“İsbağ” dedikdə genişləndirmək mənası anlaşılır.

Ayədə iki növ nemətə işarə olunur: sağlamlıq, ruzi, gözəllik kimi zahiri nemətlər və iman, mərifət, yəqinlik, xoş xasiyyət, qeybi yardımlar, elm, fitrət və vilayət kimi batini nemətlər.

Ola bilsin ki, ayədə elm dedikdə əqli dəlillər, hidayət dedikdə fitri hidayət, kitab dedikdə ilahi vəhy nəzərdə tutulmuşdur. Bəziləri ağıl, fitrət və vəhyə əsaslanmadan Allah haqqında danışıb fikir bildirir.

**Bildirişlər**

1. Yaranmışlara və onların bəşər həyatındakı roluna diqqətsizlik məzəmmətə səbəb olur.

***Bir dəlil görərsən haraya baxsan,***
***Müqəvvalar üçün yox belə imkan.***

2. Yaranmışlar məqsədli yaradılmışdır və insana xidmət edir.
3. İnsan göylərdə və yerdə olanları ram etməyə qadirdir.
4. İlahi nemətlər həm boldur, həm əl altındadır, həm də çeşidlidir.

5. Allahın batini nemətlərindən qəflətdə qalmamalıyıq.

6. İlahi nemətlər nə qədər bol olsa da, insan Allah haqqında höcətləşməklə nankorluq edir.

7. Məntiqi mübahisə faydalıdır.[1] Amma elmi əsası olmayan, ilahi hidayətdən uzaq və Allah kitabına zidd mübahisə zərərlidir. (Molla Sədra "Əsfar" kitabında deyir: "Məhv olsun Allah kitabı və peyğəmbər sünnəsinə zidd fəlsəfə!")

8. İlahi dünyagörüşündə yalnız ağıl, fitrət və vəhy mötəbər mənbə sayılır.

***AYƏ 21:***

﴿وَإِذَا قِيلَ لَهُمُ اتَّبِعُوا مَا أَنزَلَ اللَّهُ قَالُوا بَلْ نَتَّبِعُ مَا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا أَوَلَوْ كَانَ
الشَّيْطَانُ يَدْعُوهُمْ إِلَى عَذَابِ السَّعِيرِ﴾

**"Onlara "Allahın nazil etdiyinə tabe olun" buyurulduqda, deyərlər ki, biz atalarımızın getdiyi yola tabe olacağıq. Yoxsa şeytan onları şölələnmiş əzaba doğru çağırsa (yenə ona tabe olacaqlar)?!"**

**Nöqtələr**

"Qilə" sözü kafirlərin təəssübdə ifratçılığını göstərir. Onlar istənilən bir şəxsin dilindən çıxan haqq sözə qarşı inadkarlıq göstərir və haqqı qəbul etmirlər.

**Bildirişlər**

1. Ata-babaların batil düşüncələrinin təəssübünü çəkmək yersiz mübahisə nümunələrindəndir.

2. Vəhyə və Allah tərəfindən nazil edilənə tabe olmaq lazımdır.

3. Azğınları haqqa dəvət etməklə xəbərdarlığı başa çatdıraq (höccəti tamamlayaq).

4. İnsan üçün iki yol var: Allah yolu və şeytan yolu.

5. Ata-babaların əqidəsi gələcək nəsillərin taleyinə təsir göstərir.

6. Kor-koranə təqlid və təəssüb qadağandır. (Yersiz qohumluq təəssübü haqqın qəbuluna və düşüncənin inkişafına mane olur.)

7. Mühit, cəmiyyət və tarix yol seçimində təsirli amillərdir. (İnsan elm, ağıl və vəhy işığında hərəkət etməli, mühitdə, cəmiyyətdə və tarixdə rastlaşdığı azğınlıqlardan çəkinməlidir.)

8. Millətpərəstlik və ata-babaların əqidəsi yox, həqiqi məntiq əsasdır.

9. Şeytan ardıcıl şəkildə insanı batilə çağırır.

10. Vəhydən savay istənilən bir yol uçuruma aparır, cəhənnəm əzabı ilə sonuclanır.

11. Ata-babaların puç düşüncələrinə tabeçiliyin sonu cəhənnəmdir.

---

[1] "Nəhl", 125.

### *AYƏ 22:*

﴿وَمَن يُسْلِمْ وَجْهَهُ إِلَى اللَّهِ وَهُوَ مُحْسِنٌ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِ الْوُثْقَى وَإِلَى اللَّهِ عَاقِبَةُ الْأُمُورِ﴾

**“Üzünü Allaha doğru tutmuş hər kəs xeyir əməl sahibi olsa, şübhəsiz, möhkəm bir dəstəkdən) yapışmışdır. Bütün işlərin sonu Ona doğrudur.”**

**Nöqtələr**

“Silm” kökündən olan sözlər Quranda 140 dəfə istifadə olunmuşdur. “Səlam”, “İslam”, “müslim” sözləri həmin kökdəndir.

Ötən ayədə oxuduq ki, bəziləri azğın ata-babalarına bağlanıb onların yolunu gedirdilər. Bu ayədə oxuyuruq ki, xeyir əməl sahibləri və paklar Allah-təalaya bağlansınlar, Ona üz tutsunlar. Ötən ayədə şeytanın çağırışından, onun insanları cəhənnəmə sürükləməsindən danışıldı. Bu ayədə Allah qarşısında təslimçilik və xeyir əməl şeytan vəsvəsələrindən qurtuluş yolu kimi tanıtdırılır.

Allahdan qeyrisinə təslimçilik əsarətdir. Allaha təslim olanlar isə əsil hürriyyət və tərəqqiyə çatırlar. Əgər bütün varlıq aləmi Allaha təslim olmuşsa, nə üçün biz təslim olmayaq?![1] Göylərdə və yerdə olanlar Allaha təslim ikən nə üçün biz Allahdan qeyrilərinin sorağına gedək?![2]

Allah bəşəriyyətə təslim olmaq əmri vermişdir.[3] Bu əmr peyğəmbərə də aiddir.[4] Bu ayədə isə Allaha ixlasla üz tutmuş xeyir əməl sahibi möhkəm ipdən yapışmış kimi tanıtdırılır. Başqa bir ayədə ixlasla təslim olanlara böyük mükafat vəd olunur.[5] Axı Allaha təslim olandan üstünü kimdir?![6]

İnsan qurtuluş və qələbə üçün güvənc yeri və dəstək sorağındadır. Onun arxa saydığı güc, var-dövlət, vəzifə, qohum-əqrəba, dost, nəsil kimi iplər bir gün qırılıb boşalasıdır. Yeganə etibarlı qurtuluş yolu Allahın möhkəm ipindən yapışmaqdır. Qadir Allaha təslim olub saleh işlər görmək yeganə qurtuluşdur.

Rəvayətdə oxuyuruq: “Məsum rəhbərlər, Peyğəmbər Əhli-beyti (ə), onlara əlaqə və məhəbbət Allahın möhkəm və qırılmaz ipidir.[7]

**Bildirişlər**

1. Allaha təslimçilik ixtiyari bir işdir və bu işdə məcburiyyət yoxdur.
2. Allaha təslimçilik əməldə özünü göstərməlidir.
3. Təkcə xeyir iş bəs etmir, əməldə ixlas (səmimiyyət) zəruridir.

---

1 “Cin”, 14.
2 “Ali-İmran”, 83.
3 “Həcc”, 34.
4 “Ənam”, 14.
5 “Bəqərə”, 112.
6 “Nisa", 125.
7 “Bihar”, c. 26, s. 260; c. 24, s. 85.

4. Mənəvi nöqtələri aydınlaşdırmaq üçün anlaşılası misallar çəkək. (Xalis əməl möhkəm dəstəyə bənzədilir.)

5. Məada diqqət və bu barədə düşünməklə özümüzə yol seçək.

6. Varlıq aləmi, hər bir mövcud yeganə məqsədə doğru hərəkətdədir.

*AYƏ 23:*

﴿وَمَن كَفَرَ فَلَا يَحْزُنكَ كُفْرُهُ إِلَيْنَا مَرْجِعُهُمْ فَنُنَبِّئُهُم بِمَا عَمِلُوا إِنَّ اللَّهَ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ﴾

**“(Ey Peyğəmbər,) küfr edənin küfrü səni qəmləndirməsin. Onların qayıdışı yalnız Bizə doğrudur. Biz onları öz əməllərindən xəbərdar edəcəyik. Şübhəsiz, Allah qəlblərdə olanlardan xəbərdardır.”**

*AYƏ 24:*

﴿نُمَتِّعُهُمْ قَلِيلًا ثُمَّ نَضْطَرُّهُمْ إِلَى عَذَابٍ غَلِيظٍ﴾

**“Onları (dünyada) azca bəhrələndirər, sonra ağır əzaba düçar edərik.”**

**Nöqtələr**

23-cü ayədə Peyğəmbərə (s) tapşırılır ki, kafirlərin küfrünə görə qəmlənməsin. Bu göstərişin bir neçə səbəbi ola bilər:

a) Küfr edənlərdə o dəyər yoxdur ki, onların küfrü Peyğəmbəri (s) qəmləndirsin.

b) Onların küfrünə görə qəm-qüssə Peyğəmbəri (s) başqa işlərindən ayıra bilər.

v) Onların küfrünün peyğəmbərə heç bir zərəri yoxdur.

q) Peyğəmbər təbliğ və moizədə səhlənkarlıq göstərməyib ki, buna görə qəmlənsin.

d) Kafirlər Allaha doğru qayıdasıdırlar və onların qaçmağa yolları yoxdur.

“İləyna” sözünün “mərciuhum” sözündən öncə gəlməsi göstərir ki, yeganə qayıdış yeri Allahdır, başlanğıc da Ondandır.

**Bildirişlər**

1. Yaxşıların pislərlə müqayisəsi mərifət və seçim yollarından biridir.

***Küfrün də, dinin də müştərisi var,***
***Kimi küfrə, kimi imana qaçar.***

2. Peyğəmbər (s) hamıya can yandırırdı, hətta müxaliflərin belə azğınlığı ona əziyyət verirdi.

3. Peyğəmbərlərin ilahi təsəlliyə ehtiyacı var.

4. Dini rəhbərlərin vəzifəsi nəticə əldə etmək yox, xalqı doğru yola çağırmaqdır.

5. İnsanların küfrü onların öz taleyinə təsirlidir.

6. Kafirlər sevinməsin, nə qədər vurnuxsalar da Allah hüzurunda dayanasıdırlar.

7. İnsanların əvvəli Allahdandır, qayıdışları da Allaha doğrudur.

8. Möminlərin nigarançılığı iki yolla aradan qaldırılır: Allahın elminə (xəbərdarlığına) diqqət və məada diqqət. (Əgər Allah hər şeydən xəbərdardırsa və hamının qayıdışı Ona doğrudursa, nigarançılığa yer yoxdur.)

9. Qiyamətdə insan öz əməlləri ilə üzbəüzdür.

10. Allah niyyətlərimizdən xəbərdardır və bu niyyətlər Qiyamətdə zahir olasıdır.

11. Qiyamət gününün rüsvayçılığına diqqət insanı inadkarlıqdan, küfrdə isrardan uzaqlaşdıra bilər.

12. Axirət nemətləri ilə müqayisədə heç bir dəyəri olmayan dünya nemətləri bizi aldatmasın.

13. İşin sonunu nəzərə alaraq işi dəyərləndirək.

14. Küfr yolunu özləri seçmiş kafirlər məcburi olaraq cəhənnəmə sürüklənərlər.

15. Maddi rifah xoşbəxtlik göstəricisi deyildir.

### *AYƏ 25:*

﴿وَلَئِن سَأَلْتَهُم مَّنْ خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ لَيَقُولُنَّ اللَّهُ قُلِ الْحَمْدُ لِلَّهِ بَلْ
أَكْثَرُهُمْ لَا يَعْلَمُونَ﴾

**“Əgər onlardan soruşsan ki, göyləri və yeri kim yaradıb, hökmən “Allah” deyə cavab verəcəklər. De ki, sitayiş Allaha məxsusdur, amma insanların çoxu bilməz.”**

**Nöqtələr**

Quranın başqa ayələrində də oxşar təbirlərlə rastlaşırıq.[1] Belə ayələrdən aydın olur ki, müşriklər varlıq aləminin Allah tərəfindən yaradılmasını inkar etməmişlər. Onların səhvi bütlərin Allaha şərik qoşulması, bütlərdən şəfaət dilənməsi idi.[2] Hansı ki, həmin bütlər müşriklər tərəfindən hazırlanmışdı.

İmam Baqir (ə) müşriklərin ayədəki cavablarına əsaslanaraq bildirir ki, tövhid fitri bir inancdır.[3]

**Bildirişlər**

1. Allahın xaliqliyi müşriklərə də məlumdur.

2. Müşriklər müəyyən məqamlarda öz azğınlıqlarını etiraf edirlər.

---

[1] “Ənkəbut”, 61- 63; “Zumər”, 38; “Zuxruf”, 9.

[2] “Zumər”, 3.

[3] “Təfsire-Nurus-səqəleyn”.

3. Bütün varlıq aləmi Allah tərəfindən yaradılmışdır, yalnız Ona sitayiş edək.
4. Allaha təşəkkürü dilə gətirək.
5. Müşriklərin azğınlığı adətən onların cahilliyindən qaynaqlanır.

*AYƏ 26:*

﴿لِلَّهِ مَا فِي السَّمَاوَاتِ وَالْأَرْضِ إِنَّ اللَّهَ هُوَ الْغَنِيُّ الْحَمِيدُ﴾

**“Göylərdə və yerdə nə varsa Allaha məxsusdur. Həqiqətən, Allah ehtiyacsızdır və həmd olunmuşdur.”**

**Bildirişlər**

1. Allah nə yaratmaqda, nə də yaratdığını idarə etməkdə kimsəyə ehtiyac duymur.
2. Yaranmışların yeganə xaliqi və maliki Allahdır. Odur ehtiyacsız və sitayişə layiq!
3. Allaha təşəkkür və sitayiş göstərişi Onun ehtiyaclı olduğunu göstərmir.

*AYƏ 27:*

﴿وَلَوْ أَنَّمَا فِي الْأَرْضِ مِن شَجَرَةٍ أَقْلَامٌ وَالْبَحْرُ يَمُدُّهُ مِن بَعْدِهِ سَبْعَةُ أَبْحُرٍ مَّا نَفِدَتْ كَلِمَاتُ اللَّهِ إِنَّ اللَّهَ عَزِيزٌ حَكِيمٌ﴾

**“Yer üzündəki ağaclar qələm olsa, dərya və daha yeddi dərya köməyə gəlsə (Allahın sözlərini yazmaq üçün mürəkkəb olsa), Allahın sözləri tükənməz. Həqiqətən, Allah yenilməzdir və hikmət sahibidir.”**

**Nöqtələr**

“Kəhf” surəsinin 109-cu ayəsində də oxşar təbirlərlə rastlaşırıq. Ayədə bildirilir ki, dəryalar mürəkkəb olarsa, Allahın sözləri sona çatmamış dəryalar tükənər.

“Səbətu əbhur” (yeddi dərya) dedikdə çoxluq nəzərdə tutula bilər. Yəni bütün dəryalar mürəkkəb olsa belə Allahın nemətlərini yazıb qurtara bilməz.

**Bildirişlər**

1. Peyğəmbər məktəbi insanı sadəlövhlük və dar baxışdan xilas edib sonsuzluqla əlaqələndirir.
2. Allahın kəlmələrini sayıb qurtarmaq olmaz.

## *“KƏLİMƏTULLAH” (ALLAHIN KƏLMƏLƏRİ”) NƏ DEMƏKDİR?*

Allahın kəlmələri dedikdə Onun nemətləri[1], Allahın sünnələri[2], v Allahın xüsusi yaratdıqları[3], insanın sınağa çəkildiyi hadisələr[4], Allahın ayələri[5], haqqın batilə qələbə vasitələri nəzərdə tutulur[6].

Deyilənlərdən aydın olur ki, “kəlimə” dedikdə yalnız söz nəzərdə tutulmur. Beləcə, bütün ağaclar qələm, bütün dəryalar mürəkkəb olarsa Allahın kəlmələrini yazıb qurtara bilməz. Yəni Allahın lütf və sünnələrini sonadək yazmaq qüdrətində olan heç bir varlıq yoxdur.

Rəvayətdə oxuyuruq: “İmam Kazim (ə) buyurdu: “Bizik “kəlimətullah” nümunələri. Bizim fəzilətlərimizi dərk edib saymaq olmaz.”[7] Bəli, Allahın övliyaları Onun müqəddəs zatı tərəfindən feyzi üçün vasitədir. Allahın lütfü övliyalar vasitəsi ilə başqalarına çatır.

### *AYƏ 28:*

﴿مَّا خَلْقُكُمْ وَلَا بَعْثُكُمْ إِلَّا كَنَفْسٍ وَاحِدَةٍ إِنَّ اللَّهَ سَمِيعٌ بَصِيرٌ﴾

**“Sizi yaratmaq və diriltmək (Allah üçün) bir nəfəri yaratmaq və diriltmək kimidir. Həqiqətən, Allah eşidən və görəndir.”**

**Nöqtələr**

Məada şübhənin kökü nədir? Soruşulur ki, ölülər uzun bir müddətdən sonra necə dirilə bilər? Çürümüş, ətrafa səpələnmiş sümüklər necə bərpa olar? Ölülər yenidən dirildikdən sonra bütün insanların əməllərini hesaba çəkmək olarmı? Allah-təala hazırkı ayədə bütün suallara cavab verməklə şübhələri aradan qaldırır. Buyurulur ki, bütün insanları diriltmək Allah üçün bir nəfəri yaratmaq kimidir. Vaxt bu işdə maneə deyil. Allah zümzümələri eşidir, baş verənləri görür, bütün rəftar və əməllərdən xəbər tutur və hamı ilə hesab çəkir.

**Bildirişlər**

1. Kəmiyyət və cəmiyyətin, zaman və məkanın, aşkar və gizlinin Allahın elm və qüdrətinə heç bir təsiri yoxdur.

---

[1] “Kəhf”, 109.
[2] “Saffat”, 171, 172; “Şura”, 21.
[3] “Nisa", 171.
[4] “Bəqərə”, 124.
[5] “Təhrim”, 12.
[6] “Ənfal”, 7; “Şura”, 24.
[7] “Təfsire-Nurus-səqəleyn”.

*AYƏ 29:*

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ يُولِجُ اللَّيْلَ فِي النَّهَارِ وَيُولِجُ النَّهَارَ فِي اللَّيْلِ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ كُلٌّ يَجْرِي إِلَى أَجَلٍ مُّسَمًّى وَأَنَّ اللَّهَ بِمَا تَعْمَلُونَ خَبِيرٌ﴾

**"Görmədinmi ki, Allah gecəni gündüzə, gündüzü gecəyə qovuşdurur, günəş və ayı ram edir və onların hər biri müəyyən vaxtadək hərəkətdədir?! Həqiqətən, Allah gördüyünüz işlərdən xəbərdardır."**

**Nöqtələr**

Gecə və gündüzün qısalıb-uzanması və bu işin tədricən baş verməsi qaranlıq və işığa ehtiyaclı canlıların həyatında mühüm rol oynayır.

Ayədə gecə-gündüzün qısalıb-uzanmasından, günəş və ayın ram edilməsindən danışılır. Sonra onların hər birinin müəyyən bir müddət hərəkətdə olacağı qeyd edilir. Ayənin sonunda bildirilir ki, Allah insanların bütün işlərindən agahdır. Yəni bütün varlıq aləmi və ondakı dəyişikliklərin qayəsi insanların əməlləridir. Gəlin Allahın razılığına uyğun işlər görək.

***Bulud da, külək də, günəş də, ay da,***
***Sənə xidmət edir bu gen sarayda.***
***Hər biri Allaha əyilmiş ikən,***
***Rəvadırmı tabe olmayasan sən?!***

Quranın əziz Peyğəmbərə (s) əksər müraciətləri bütün insanlara ünvanlanmışdır. Məsələn, Peyğəmbərə (s) buyurulur ki, qocalmış ata-anaya "uf" deyib onları narahat etmə."[1] Halbuki əziz Peyğəmbər (s) öz ata-anasını uşaqlıq dövründə itirmiş idi. Deməli, Allah Peyğəmbərin (s) simasında bütün bəşəriyyətə müraciət edir. Hazırkı ayədə də son cümlə ayənin bütün xalqa şamil olduğunu göstərir.

**Bildirişlər**

1.Təbiətin mütaliəsi və varlıq aləminin sirləri ilə tanışlıq Allahı tanımaq yollarındandır.

2. Gecə və gündüzün uzanıb-qısalmasını təsadüfi saymayaq. Allahın bütün işləri nizamlıdır.

3. Günəş də hərəkətdədir.

4. Səma cismlərinin hərəkəti nizamlanmışdır.

---

[1] "İsra", 23.

5. Gecə ilə gündüzün yerdəyişməsi, günəş və ayın ram olunması insanın bəhrələnməsi üçündür. (İnsanın da əməl və rəftarları məqsədli və faydalı olmalıdır.)

*AYƏ 30:*

﴿ذَلِكَ بِأَنَّ اللَّهَ هُوَ الْحَقُّ وَأَنَّ مَا يَدْعُونَ مِن دُونِهِ الْبَاطِلُ وَأَنَّ اللَّهَ هُوَ الْعَلِيُّ الْكَبِيرُ﴾

**"Bütün bunlar Allahın haqq, Ondan qeyri çağırılanların batil olmasını göstərir. Həqiqətən, Allah uca məqamlı və böyükdür."**

**Nöqtələr**

24-30-cu ayələrdə Allahın on sifəti bəyan olundu: "Ğəniyy", "Həmid", "Əziz", "Həkim", "Səmi", "Bəsir", "Xəbir", "Həqq", "Əliyy", "Kəbir". Hər ayədə müəyyən nöqtələrə işarə olundu. Məsələn, 25-ci ayədə Allahın xaliqliyi, 27-ci ayədə Allahın nemətləri, 28-ci ayədə yaranış və məadda Allahın mütləq qüdrəti yada salındı.

Yalnız Allah, Onun tərəfindən olanlar və ya Ona bağlı olanlar haqdır. Allahdan qeyriləri və ya həmin puç məbudlara bağlı olanlar batil və davamsızdır.

**Bildirişlər**

1. Allahın bütün iş və sifətlərinin mənşəyi Onun sabit və davamlı olmasıdır.
2. Seçim meyarı haqq və batildir. Təqlid, təbliğ, hədə-qorxu seçim üçün əsas ola bilməz.
3. Həqiqəti aydın və qəti şəkildə bəyan edək.

*AYƏ 31:*

﴿أَلَمْ تَرَ أَنَّ الْفُلْكَ تَجْرِي فِي الْبَحْرِ بِنِعْمَتِ اللَّهِ لِيُرِيَكُم مِّنْ آيَاتِهِ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّكُلِّ صَبَّارٍ شَكُورٍ﴾

**"Görmürsənmi ki, gəmilər Allahın neməti sayəsində dəryada hərəkət edir? Bununla Allah qüdrət nişanələrindən bir hissəsini sizə göstərir. Həqiqətən, bunda (gəmilərin hərəkətində) səbirli və şükür edən insanlar üçün nişanələr var."**

**Nöqtələr**

Dənizdə gəminin hərəkəti ilahi nemətlər məcmusunun nəticəsidir. Külək, xüsusi çəki, suyun təzyiqi cisimlərin üzməsini təmin edən şərtlərdir. Bundan əlavə, dəniz təbii, xərcsiz və ümumi yoldur. Yer üzünün torpaq sahələri sular vasitəsi ilə əlaqələnir. Hava nəqliyyatı nə qədər inkişaf etsə də, yüklərin çoxu gəmilərlə daşınır.

Quranda müxtəlif məqamlarda səbir və şükür yanaşı zikr olunur. İnsan öz ətrafında baş verən hadisələrə görə ya şükür etməli, ya da səbirli olmalıdır. Demək, insan daim ya səbir, ya da şükür halında olmalıdır. Əks-təqdirdə onu küfr və qəflət gözləyir.

**Bildirişlər**

1. Səmadakı nişanələrdən əlavə, yerdəki nişanələrə qarşı da diqqətli olaq. Ötən ayələrdə Günəş və Aydan, bu ayədə dəniz və gəmiçilikdən danışıldı.
2. Allaha doğru çağırarkən, Onun nemətləri haqqında danışarkən təbii və göz qabağında olan nümunələrdən istifadə edək.
3. Yaranmışlara sadə baxmayaq. Ətrafdakılar Allahın ayələridir.
4. Gəminin suda hərəkəti Allahın əsrarəngiz nemətlərindəndir.
5. Əgər daha çox ilahi qüdrət nişanələri görmək və daha çox ilahi nemətdən bəhrələnmək istəyiriksə, daha da hövsələli olmalıyıq. Verilmiş nemətlərdən ən gözəl şəkildə bəhrələnməli və daim şükür etməliyik.

### *AYƏ 32:*

﴿وَإِذَا غَشِيَهُم مَّوْجٌ كَالظُّلَلِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّاهُمْ إِلَى الْبَرِّ
فَمِنْهُم مُّقْتَصِدٌ وَمَا يَجْحَدُ بِآيَاتِنَا إِلَّا كُلُّ خَتَّارٍ كَفُورٍ﴾

**“Onları buludlar tək (coşqun) dalğalar bürüdüyü vaxt Allahı xalisanə itaətlə çağırarlar. Elə ki, Allah onları quruya çıxardı, bəziləri orta yolu tutar (bəziləri azğınlığa uğrayar). Nankor xainlərdən başqa ayələrimizi kimsə inkar etməz.”**

**Nöqtələr**

“Zullə” sözünün cəm forması olan “zuləl” sözü kölgə salan buludlar mənasını bildirir. Xoşagəlməz bir məsələ ilə rastlaşdıqda bu sözdən istifadə olunur. “Muqtəsid” dedikdə orta hədd, əhdə vəfa nəzərdə tutulur.

“Xəttar” sözü əhdi çox pozan mənasını bildirir. Müşriklər və günahkarlar bəla vaxtı dərhal Allaha üz tutur, əhd bağlayırlar. Elə ki, hadisələr ötüb-keçdi, əhdi pozurlar. Allah onları “xəttar” adlandırır.

Bəzilərinin imanı daimi, bəzilərinki isə müvəqqətidir. Yəni beləri yalnız rahatlığını itirdikdə Allahı yada salırlar. Onların bu münasibəti fövqəladə vəziyyət zamanı hazırlığı yada salır.

**Bildirişlər**

1. İnsan fitrətən Allahşünasdır. Amma maddiyyata meyillər fitrətin qarşısına pərdə çəkir. Hadisələr və təhlükələr isə bu pərdəni kənarlaşdırır.
2. Maddi rifah yuxuya verir, təhlükələr yatanı oyadır.
3. Maddi vasitələrdən ümidi üzmək ixlas əldə etmək yollarındandır.

4. Övliyalar üçün qəflət, Allahdan uzaq düşənlər üçün ixlas ötəridir.[1]

5. Xalisanə dua qəbul olunmağa yaxındır.

6. İnsan ixtiyar sahibidir. (Bəziləri çətinlik ötüb-keçdikdən sonra haqq yolda qalır, bəziləri isə şirkə və azğınlığa qayıdır. Bu seçim insanın azad olduğunu göstərir.)

7. Orta hədd iman şərtidir.

8. Əhdi pozmaq və nankorluq insanı küfrə sürükləyir.

## *İXLAS*

İxlas dedikdə işin tam Allah üçün görülməsi nəzərdə tutulur. Əgər insanın niyyətində bir faiz Allahdan qeyrisi varsa, bu ibadət batil və ya nöqsanlıdır. Bəzi nümunələr göstərək:

–İnsan namaz üçün elə bir yer seçir ki, onun namaz qıldığını görsünlər və ya çəkilişə düşsün;

–İnsan namaz üçün elə bir vaxt seçir ki, onun namaz qıldığı müşahidə olunsun;

–Əgər insan namaz vaxtı kimlərinsə zövqünü oxşamaq üçün müəyyən libas geysə, həmişəkindən başqa halda namaz qılsa, Allahdan qeyrisini razı salmaq istəsə namaz batildir, riyakarlıq səbəbindən günah da qazanmışdır.

İxlas odur ki, insan nəfs istəklərini, zalım hakimləri, siyasi meyilləri nəzərə almasın, yalnız Allaha itaət etmək, vəzifəsini yerinə yetirmək üçün çalışsın.

Yalnız ilahi yardımlarla ixlasa çatmaq olar. Hazırkı ayədə oxuduq ki, təhlükə zamanı insan ixlasla Allahı çağırır, təhlükələr ötüb-keçdikdən sonra yalnız bəziləri orta yol tutur.

## *İXLAS ƏLDƏ ETMƏK YOLLARI*

1. Allahın elm və qüdrətinə diqqət–əgər izzət və qüdrət, ruzi və rifahın yalnız Allahın əlində olduğuna inansaq, heç vaxt başqasının sorağınca qaçmarıq. Bilməliyik ki, mövcudlar Allahın iradəsi ilə yaranır, Onun iradəsi ilə məhv olur. Bilməliyik ki, yaradan da, öldürən də Allahdır. Allah həzrət Məryəm üçün quru ağacda tər xurmalar yetirdi. Allah od-alovu həzrət İbrahim üçün gülüstana çevirdi.

Quranın yüzlərlə ayələri və əhvalatları insanları ilahi qüdrətin seyrinə çağırır. Ümid odur ki, bəşəriyyət Allahdan qeyrilərindən əl çəkib, xalisanə halda Ona üz tutsun.

2. İxlasın bərəkətlərinə diqqət–müxlis (yalnız Allah razılığı üçün çalışan) insanın bir hədəfi var və bu hədəf Allahın razılığıdır. Allahın razılığı üçün çalışan insan başqalarının təşviqi ilə həvəslənmir, başqalarının məzəmməti onu həvəsdən salmır. O tənhalıqdan qorxmur, tutduğu yoldan geri çəkilmir, heç vaxt peşman olmur, xalqın etinasızlığı onu həvəsdən salmır, getdiyi yolda yoldaşlarının azlığı və ya çoxluğu onu narahat etmir.

---

[1] Əraf", 201.

Quran buyurur ki, müxlis mücahidlər üçün düşməni öldürmək və ya Allah yolunda şəhid olmağın fərqi yoxdur. İmam Hüseyn (ə) Kərbəla səfərindən öncə buyurdu: “Şəhid də olsaq, qalib də gəlsək, Kərbəlaya gedirik. Məqsədimiz yalnız vəzifəmizi yerinə yetirməkdir.”

3. İlahi lütflərə diqqət–bizi ixlasa sövq edən yollardan biri də ilahi lütfləri xatırlamaqdır. Yaddan çıxartmayaq ki, Allah bizi yoxdan, torpaqdan, nütfədən yaratdı. Bir müddət ana bətnində qaldıq, təkamül yolu keçib insan şəklində dünyaya gəldik. Həmin vaxt insan süd əmməkdən savay bir iş bacarmırdı. Bu süd onun orqanizminin bütün ehtiyaclarını ödəyirdi. Ana südü, ana məhəbbəti çarəsiz körpəni ərsəyə gətirdi. 24 saat bu körpənin qulluğunda dayanan ana! Oyaq vicdan icazə verərmi ki, bir bu qədər nemətdən sonra insan özünə başqa tanrı seçsin?! Nə üçün özümüzü yaranışımızda və həyatımızda heç bir haqqı olmayan, bizə heç bir lütf göstərməmiş yalançı məbudlara sataq?!

4. Allahın istəyinə diqqət–əgər bilsək ki, qəlblər Allahın əlindədir, yalnız Allah üçün çalışarıq. Əgər insanların himayəsinə ehtiyacımız varsa, Allahdan diləyək və Allah onların qəlbində bizə qarşı istək yaratsın.

Həzrət İbrahim (ə) Hicazın qaynar səhralarında Kəbəni ucaltdı. O, Allahdan dilədi ki, insanların qəlbini onun ailəsinə qarşı mərhəmətli buyursun. Həmin hadisədən 1000 illər ötmüşdür. Hər il milyonlarla aşiq pərvanə tək Kəbə ətrafında dövrə vurur.

Çoxları ətrafdakıları razı salmaq üçün özlərini oda-suya vururlar. Amma yenə də xalqın məhəbbətini qazana bilmirlər. Halbuki bəzi aşiqlər gözlərini xalqdan, maddiyyatdan, ad-sandan, məqamdan çəkib yalnız Allaha üz tutduqları vaxt, həm də xalq tərəfindən böyük məhəbbətlə sevilir, nəzərdə tutmadıqları nemətlərə çatırlar. Bəli, məqsəd xalqın yox, Allahın razılığı olmalıdır.

5. İşin davamlılığına diqqət–Allah üçün görülən iş davamlıdır. Bu iş özünə ilahi rəng götürdüyündən daim təravətli qalır. Allah üçün görülməyən işi zaman silib-süpürür. Quranda buyurulur ki, heç bir ağıllı insan fanini əbədidən üstün tutmaz.[1]

6. Mükafatların müqayisəsi–Allahın ətası qeyri-məhdud, insanın ətası məhduddur. Məsələn, insanların mükafatı gözəl libas, dadlı təam, təm-təraqlı məskən ola bilər. Halbuki bütün bu nemətlər məhduddur və ləyaqətsiz insanlar da gözəl libas, dadlı təam, təm-təraqlı məskən əldə edə bilərlər. Amma Allahın razılığı üçün çalışan insanı nəhayətsiz maddi və mənəvi mükafatlar gözləyir. Bu barədə dərindən düşünsək, sonsuz mükafatı məhdud və nöqsanlı mükafatlara dəyişmərik.

[1] “Nəhl”, 96.

*AYƏ 33:*

﴿يَا أَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمْ وَاخْشَوْا يَوْمًا لَّا يَجْزِي وَالِدٌ عَن وَلَدِهِ وَلَا مَوْلُودٌ هُوَ جَازٍ عَن وَالِدِهِ شَيْئًا إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ فَلَا تَغُرَّنَّكُمُ الْحَيَاةُ الدُّنْيَا وَلَا يَغُرَّنَّكُم بِاللَّهِ الْغَرُورُ﴾

**"Ey insanlar! Rəbbinizdən qorxun. Qorxun o gündən ki, heç bir ata övladının məsuliyyətini öhdəsinə götürməz, heç bir övlad atasının əvəzinə məsuliyyət qəbul etməz. Şübhəsiz, Allahın vədi haqdır, dünya həyatı sizi aldatmasın. Yalançı (şeytan) Allaha münasibətdə başınızı qatmasın."**

**Nöqtələr**

"La yəczi" dedikdə həm cəza, həm də təminat mənaları anlaşılır. Ayədə ikinci məna nəzərdə tutulmuşdur. "Ğərur" sözü çox yalançı mənasını bildirir. Bu söz üçün bariz nümunə şeytandır. İnsanı aldadan istənilən bir şey və ya kəs "ğərur" adlandırılır.

**Bildirişlər**

1. Hamımız Allahdan qorxmalı, əqidə, əxlaq və əməl sahəsindəki müxtəlif büdrəmələrdən çəkinməliyik.
2. Ata-oğulun bir-birinə yardım edə bilməyəcəyi gün üçün ən yaxşı azuqə təqvadır.
3. Qiyamət təhlükəsi ciddidir. Bu səbəbdən də ardıcıl xəbərdarlıqlara ehtiyac duyulur.
4. Qiyamət günü böyük bir gündür.
5. Qiyamətdə hərə öz əməlinə görə cavab verər.
6. Dünya və şeytan insanı Qiyamətdən qəflətdə saxlayır.
7. Qiyamətdə əsil-nəcabətin səmərəsi yoxdur. (Ata və oğul bir-birlərinin fəryadına yetişə bilmirsə, başqalarından danışmağa belə dəyməz.)
8. Qiyamət qorxusu insanı dünyaya aldanışdan qoruyur.
9. Şeytan bəzi vaxtlar hətta ən müqəddəs işlərdə insanları aldatmaq üçün yararlanır.

## *QİYAMƏT TƏNHALIQ GÜNÜDÜR*

Allah hikmət sahibidir və hikmət sahibi olan Allah Öz yaratdığını məhv etməz. Dünya bir evdir ki, bu evin mühəndisi daha yaxşısını tikmək üçün onu uçurur. Rəvayətlərə əsasən, ölüm libası, mənzili dəyişmək, təkamül və əbədi həyat üçün müqəddimədir.

Bundan əlavə, Qiyaməti zəruri edən amillərdən biri Allahın ədalətidir. Biz şahidik ki, dünya həyatında yaxşılar mükafatlandırılmır, pislər cəzalandırılmır. Demək, ədalətli Allah mükafat və cəza üçün başqa bir yer müəyyənləşdirmişdir.

İnsan dünya həyatında öz əməllərinin kiçik bir hissəsinin əvəzini alır. Əməllər bütövlükdə Qiyamətdə dəyərləndirilir. Bəzən əməlin əvəzini dünya həyatında vermək olmur. Məsələn, Allah yolunda şəhid olan insan dünyada necə mükafatlandırıla bilər?! Əksinə, yüz nəfəri qətlə yetirmiş şəxsi dünya həyatında bir dəfə öldürmək olar. Bunu da qeyd edək ki, günahkara dünya həyatında verilən cəza onun günahsız yaxınlarına da təsirsiz ötüşmür. Demək, mükafat və cəza başqalarına sirayət etməyəsi bir yerdə verilməlidir.

Ölülərin çürümüş bədənlərinin zərrələrini bir yerə toplamaq Allah üçün çətin deyil. Nehrəni yellədikcə onun içində öncə nəzərə çarpmayan zərrələrdən yağ kütləsi əmələ gəlir. Allah da torpağı möhkəm silkələməklə ölülərin səpələnmiş cisimlərini bir yerə toplayar.[1] Əgər insan bircə hüceyrədən yaranmışsa, bu hüceyrə də torpaq zərrələrindəndir. Həmin zərrələr nə vaxtsa buğdaya, düyüyə, bitkiyə çevrilmiş, sonra qida şəklində valideynin orqanizminə daxil olmuş, daha sonra həmin qidadan nütfə yaranmış, nəhayət kamil insan formalaşmışdır.

Bu ayədə diqqət mərkəzində olan məsələlərdən biri də, atanın öz oğlu üçün bir iş görə bilməyəcəyi Qiyamət məsələsidir. Başqa ayələrdə də Qiyamət səhnəsindən danışılmışdır. Əgər bütün bu ayələri nəzərdən keçirsək, həmin səhnədə insanın qəribliyini, zəlilliyini, həyəcanını dərk edərik: həmin gün nə var-dövlət, nə də övlad fəryada çatmaz[2]; həmin gün ən səmimi dostlar bir-birinin halını soruşmaz[3]; həmin gün peşmançılığın və üzrxahlığın faydası yoxdur[4]; həmin gün qohumluq və tanışlığın faydası yoxdur[5]; həmin gün vasitələr və səbəblər işdən düşər.[6]

Bəli, həmin gün insanın qəriblik və tənhalıq günüdür.

### *AYƏ 34:*

﴿إِنَّ اللَّهَ عِندَهُ عِلْمُ السَّاعَةِ وَيُنَزِّلُ الْغَيْثَ وَيَعْلَمُ مَا فِي الْأَرْحَامِ وَمَا تَدْرِي نَفْسٌ
مَّاذَا تَكْسِبُ غَدًا وَمَا تَدْرِي نَفْسٌ بِأَيِّ أَرْضٍ تَمُوتُ إِنَّ اللَّهَ عَلِيمٌ خَبِيرٌ﴾

---

[1] "Zilzal", 1, 2.
[2] "Şuəra", 88.
[3] "Məaric", 10.
[4] "Mursəlat", 36.
[5] "Muminun", 101.
[6] "Bəqərə", 166.

**“Şübhəsiz, vaxtdan xəbərdarlıq Allaha məxsusdur. Odur yağışı nazil edən. O, bətnlərdə olanlardan xəbərdardır. Kimsə sabahkı qazancını bilmir. Kimsə harada öləcəyindən xəbərdar deyil. Həqiqətən, Allah bilən və agahdır.”**

**Nöqtələr**

Ölüm və Qiyamət vaxtı yalnız Allaha məlumdur. İnsanlar ölüm və Qiyamət vaxtını bilsəydilər, arxayınlaşıb bir çox günahlara batardılar. Əksinə, az sonra Qiyamətin qopacağından xəbərdar olan insan iş-gücdən əl çəkər, guşənişin olardı. Bir sözlə, ölüm və Qiyamətin vaxtını bilməyən insan daim hazır olmalıdır.

Bətnlərdə olandan yalnız Allah xəbərdardır. Bu gün bətndəki körpənin oğlan və ya qız olduğunu müəyyənləşdirən cihazlar ixtira olunub. Əlbəttə ki, bətnindəki körpə ilə bağlı məlumat əldə etmək istəyənlərin bir hissəsi bu cihazın dəqiqliyini inkar edir. Uyğun cihaz tam dəqiq məlumat verərsə belə, Allahın elmi əzəli və nəhayətsizdir. Allahın bətnlərdə olanlardan xəbərdarlığı dedikdə təkcə körpənin oğlan və ya qız olması nəzərdə tutulmur. Bətndəki körpənin istedadlarından, ruhiyyəsindən və digər səciyyələrindən yalnız Allah xəbərdardır. Bütün bu səciyyələri müəyyənləşdirmək insan üçün əlçatmazdır.

Həzrət Əli (ə) buyurur: “Allahı iradələrin qırılması və qərarların dəyişməsi ilə tanıdım.”[1]

Həzrət hazırkı ayə ilə bağlı buyurur: “Bir addım atan insan növbəti addımından xəbərsizdir.”[2]

**Bildirişlər**

1. Bəşəriyyətin elmi məhduddur və bu elm Allahın sonsuz elmi ilə müqayisə oluna bilməz.
2. İnsan öz işlərini tənzimləməlidir. Amma unutmaq olmaz ki, insanın fövqündə bir qüdrət var və insan sabah nə baş verəcəyini proqnozlaşdıra bilməz.
3. Kimsə öz ölüm vaxtından və ölüm yerindən xəbərdar deyil. (Rəvayətlərdə bildirilir ki, Allah övliyalarından bəzisi öz ölüm yerini və ölüm vaxtını öncədən bildirib. Belə bir məlumat qeybi yolla əldə olunur.)
4. Kahinlərə, falçılara, ovuca baxanlara, gələcəkdən danışanlara etimad göstərməyək.
5. Ölümündən və sabah nə baş verəcəyindən xəbərsiz olan insan nə üçün qürrələnməlidir?!
6. İnsan daim səhnəyə çıxmağa və sorğuya hazır olmalıdır.

Pərvərdigara! Quranı bizim üçün nur, qanun, ümid, məntiq, təfəkkür qaynağı, moizə, şəfa, aramlıq, nicat qərar ver! Amin Rəbbəl-aləmin...

[1] “Nəhcül-bəlağə”, h. 250.
[2] “Mən la yəhzur...”, c. 1, s. 139.

## “SƏCDƏ” SURƏSİ

### *(32-Cİ SURƏ, 30 AYƏ)*

### *İyirmi birinci cüz*

### *“SƏCDƏ” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 30 ayədən ibarətdir. “Səcdə” surəsi müqəttəə hərflərlə başlamış 29 surədən biridir. Uyğun hərflərdən sonra Quranın əzəməti qeyd olunur. Surə vacib səcdəli ayəsi olan dörd surədəndir. “Məcməul-bəyanda” nəql olunmuş bir hədisə əsasən, əziz Peyğəmbər (s) hər gecə yatmazdan qabaq bu surəni “Mulk” surəsi ilə birlikdə tilavət etmişdir.

Digər Məkkə surələri kimi bu surədə də yaranış, məad və kafirlərin aqibəti ilə bağlı geniş məlumat verilir. Bu mövzular möminlərin imanını gücləndirir, onların düşmən qarşısında müqavimətini artırır. Surənin 15-ci ayəsində gecə vaxtı insanlar yuxuda olduğu zaman insanın rüku və səcdə etməsi həqiqi möminlik sifəti kimi yada salınır. Uyğun ayədən sonra səcdə vacibdir.

﴾بسم الله الرحمن الرحيم﴿

**“Rəhman və rəhim Allahın adı ilə”**

***AYƏ 1, 2:***

﴾الم * تَنزِيلُ الْكِتَابِ لَا رَيْبَ فِيهِ مِن رَّبِّ الْعَالَمِينَ﴿

**“Əlif, lam, mim; heç bir şəkk-şübhə olmayan bu Kitab aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir.”**

**Nöqtələr**

“Bəqərə” surəsi haqqında danışarkən müqəttəə hərflər haqqında geniş məlumat verdik. Bəzi rəvayətlərə əsasən, müqəttəə hərflər yalnız Allah və Onun övliyalarına bəlli olan mütəşabih ayələrdir.[1]

**Sual:** Quran müxaliflərinin bu ilahi kitaba qarşı şəkk-şübhələri ayələrdə də təsdiqlənir. Bəs necə olur ki, bu ayədə “şəkk yoxdur” buyurulur?

**Cavab:** Ayədə buyurulur ki, Quranın həqiqiliyinə, göstərişlərinə və maarifinə şəkk-şübhəyə yer yoxdur. Ayədə konkret kiminsə şübhəsi nəzərdə tutulmur. “Bəqərə” surəsinin 23-cü ayəsində buyurulur ki, əgər şəkkiniz varsa, Quranın surələri kimi bir surə hazırlayın. “Fi zilalil-Quran” təfsirində qeyd olunduğu kimi, süni gül təbii gülün yerini verməz. Təbii gül özü onun təbiiliyinə şübhəni aradan qaldıran şahiddir.

---

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Nurus-səqəleyn”.

Quranın Allah tərəfindən göndərilməsi ayələrdə dəfələrlə təkrarlanır.[1] Bəli, Quranı varlıq aləminə sahib, hakim, yenilməz, rəhim, hikmət sahibi, elm sahibi və həmd olunmuş Allah nazil etmişdir.

**Bildirişlər**

1. Quran nazil olduğu əsrdə kitab şəklinə gətirilmişdir.
2. Quranın həqiqiliyinə heç bir şübhə yoxdur, çünki bu kitab aləmlərin Rəbbi tərəfindəndir.
3. Heç bir şübhə olmayan səmavi kitab Allahın rübubiyyət (varlıq aləmini idarə etməsi) tələblərindəndir.
4. Şəriət kitabı təbiət nizamına uyğundur.
5. İlahi kitab inkişaf və kamillik üçün nazil olmuşdur. Quran bütün varlıq aləminin inkişaf və kamilləşməsini nəzərdə tutur.

*AYƏ 3:*

﴿أَمْ يَقُولُونَ افْتَرَاهُ بَلْ هُوَ الْحَقُّ مِن رَّبِّكَ لِتُنذِرَ قَوْمًا مَّا أَتَاهُم مِّن نَّذِيرٍ مِّن قَبْلِكَ لَعَلَّهُمْ يَهْتَدُونَ﴾

**“Yoxsa deyirlər ki, (peyğəmbər) Quranı yalandan uydurmuşdur? Əslində o (Quran) səndən öncə heç bir xəbərdarlıq edəni olmamış qövmü qorxutmağın üçün Rəbbin tərəfindən olan xüsusi bir haqdır. Bəlkə, hidayət olalar.”**

**Nöqtələr**

“İnzar” sözündən olan “nəzir” sözü agahlıqla yanaşı qorxutmaq mənasını bildirir. Bu söz xəbərdarlıq kimi də anlaşıla bilər.

**Sual:** Quran bütün ümmətlərə peyğəmbər göndərildiyini bildirir.[2] Bəs necə olur ki, bu ayədə “səndən öncə peyğəmbəri olmayan qövm” buyurulur?

**Cavab:** Ərəbistan əhalisi, eləcə də Məkkə əhli İslamdan öncə ümmət formasında deyildi və pərakəndə vəziyyətdə yaşayırdı.

**Bildirişlər**

1. Rədd etmək məqsədi ilə dinə qarşı şübhə və batil sözləri təkrarlamağın eybi yoxdur.
2. Quranın təkzibi kafirlərin daimi işidir. Amma siz haqqı deyin və onların hidayətindən ümidinizi üzməyin.
3. Kafirlərin məntiqi yoxdur, onlar həmişə zora əl atırlar.
4. Müxaliflərin haqqı zəiflətmək məqsədli təlaşları qarşısında haqq və haqq ardıcıllarını gücləndirmək lazımdır.
5. Həqiqət qaynağı bir olan Allahdır.

---

[1] “Şuəra”, 192; “Yasin”, 5; “Zumər”, 1; “Ğafir”, 2; “Fussilət”, 2; “Fussilət”, 42; “Taha”, 4.

[2] “Fatir”, 24.

6. Allah əziz Peyğəmbərə (s) xüsusi lütf göstərmişdir.
7. Xalqa xəbərdarlıq peyğəmbərin gəlişində əsas məqsədlərdəndir.
8. Təbliğatçı müraciət etdiyi tərəfin keçmişi ilə tanış olmalıdır.
9. Xəbərdarlıq hidayət üçündür.
10. İnsanın hidayəti üçün kitab və peyğəmbər bəs etmir, insan özü zəmin hazırlamalı, düzgün seçim aparmalıdır.

*AYƏ 4:*

﴿اللَّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ مَا لَكُم مِّن دُونِهِ مِن وَلِيٍّ وَلَا شَفِيعٍ أَفَلَا تَتَذَكَّرُونَ﴾

**"Göyləri və yeri, onlar arasında olanı altı gündə yaradan və sonra ərşi hökmü altına alan Allahdır. Sizin üçün Ondan başqa yardımçı və şəfaətçi yoxdur. Yoxsa öyüd götürmürsünüz?"**

**Nöqtələr**

Ərəb dilində iki söz – "nəhar" və "yəvm" sözləri - "gün" mənasını bildirir. "Nəhar" dedikdə gündüz, "yəvm" dedikdə sutka nəzərdə tutulur.

Allah göyü və yeri bir anda yaratmağa qadir olsa da, yaranışda tədriciliyə önəm verdi. Ayədə bildirilir ki, göylər və yerlər altı gün ərzində formalaşdı.

**Bildirişlər**

1. Şirkin məhvi üçün Allahın sonsuz qüdrətindən, göylərin və yerin yaranışından danışmaq lazımdır.
2. Yaradılış və varlığın idarəsi bir-birindən ayrı deyildir.
3. Ərş varlıq aləmini idarə etmə mərkəzidir.
4. Maddi və qeyri ilahi güvənc yerlərinin səmərəsiz olduğunu bildirmək xəbərdarlıq yollarından biridir.
5. Xəbərdarlıq yollarından biri nemətləri xatırlatmaqdır.

***Torpaq da, səma da danışır ondan,***
***Həqiqəti tapar dinləyən insan.***

6. İnsan həqiqəti öz fitrətində tapır, sadəcə xatırlatmaya ehtiyaclıdır.

*AYƏ 5:*

﴿يُدَبِّرُ الْأَمْرَ مِنَ السَّمَاءِ إِلَى الْأَرْضِ ثُمَّ يَعْرُجُ إِلَيْهِ فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ أَلْفَ سَنَةٍ مِّمَّا تَعُدُّونَ﴾

**“(Allah dünyaya aid) işləri göydən yerə doğru idarə edir. Sonra saydığınız illərdən 1000 ilə bərabər bir gündə (bu dünyanın nizamı pozular və) Ona doğru yüksələr.”**

**Nöqtələr**

**Sual:** “Məaric” surəsinin dördüncü ayəsində buyurulur ki, mələklərlə ruh 50000 illik bir gündə Ona doğru yüksələr. Bu ayədə isə 1000 ilə bərabər bir gündən danışılır. Burada ziddiyyət yoxdurmu?

**Cavab:** Hədisdə qeyd olunur ki, Qiyamətin 50 dayanacağı var və hər dayanacaq dünyanın 1000 ili qədər uzanır. Ayədə yalnız bir dayanacağa işarə olunmuşdur.[1] Qeyd olunan ayədə mələklərin, bu ayədə isə işin yüksəlişindən danışılır. Ola bilsin ki, “əmr” Qiyamətdə yox, 1000 illik bir gündə yüksələsidir. Mələklərin yüksəlişi isə 50000 ilə bərabər Qiyamət gününə aiddir.

**Bildirişlər**

1. Yer üzünə müdiriyyət mərkəzi səmadır. Proqramlar oradan nazil olur və oraya dönür.
2. Allahın rübubiyyətindəki (idarəçiliyindəki) tövhid Onun xaliqiyyətindəki tövhiddən ayrı deyil.
3. Allahın tədbiri müvəqqəti yox, daimidir.
4. Hər şeyin yaranışı Ondan və Ona doğru olduğu kimi, işlərin tədbiri də Ondan və Ona doğrudur.

*AYƏ 6:*

﴿ذَلِكَ عَالِمُ الْغَيْبِ وَالشَّهَادَةِ الْعَزِيزُ الرَّحِيمُ﴾

**“Gizlindən və aşkardan agah, yenilməz və mehriban olan Odur.”**

*AYƏ 7:*

﴿الَّذِي أَحْسَنَ كُلَّ شَيْءٍ خَلَقَهُ وَبَدَأَ خَلْقَ الْإِنسَانِ مِن طِينٍ﴾

**“Odur yaratdığını gözəl yaradan, insanın yaranışına gildən başlayan.”**

*AYƏ 8:*

﴿ثُمَّ جَعَلَ نَسْلَهُ مِن سُلَالَةٍ مِّن مَّاء مَّهِينٍ﴾

**“Sonra onun (qalan) nəslini bulaşıq və cüzi sudan yaratdı.”**

---

[1] “Təfsiri-nümunə”.

### *AYƏ 9:*

﴿ثُمَّ سَوَّاهُ وَنَفَخَ فِيهِ مِن رُّوحِهِ وَجَعَلَ لَكُمُ السَّمْعَ وَالْأَبْصَارَ وَالْأَفْئِدَةَ قَلِيلًا مَّا تَشْكُرُونَ﴾

**“Sonra ona mütənasiblik verdi və Öz ruhundan üfürdü. (Allah) sizin üçün qulaq, göz və qəlb qərar verdi. (Amma) az qisminiz şükür edirsiniz.”**

**Nöqtələr**

“Səvva” dedikdə tarazlıq, mütənasiblik yaratmaq nəzərdə tutulur.

Aləmdəki həqiqətlər bizim üçün iki qrupa bölünür: görünənlər və görünməyənlər. Amma Allahdan gizli heç nə yoxdur.

**Bildirişlər**

1. Varlıq aləminə hakim qanunlar Allahın sonsuz elminə əsaslanır. (Bəli, hər bir toplumun idarəsi üçün ondan xəbərdar olmaq lazımdır.)
2. Allah üçün aşkarda olan da, xəlvət də eyni dərəcədə məlumdur.
3. Allahın qüdrəti Onun mərhəməti ilə müşayiət olunur.
4. Bütün yaranmışlar gözəldir. (Hətta ilanın canındakı zəhər də dəyərlidir. İnsanın ağzındakı su da belədir. Bu su nə qədər ki, ağızdadır, nemətdir, elə ki, ağızdan atıldı, təhqir sayılır.)
5. Hər şey Allah tərəfindən yaradılmışdır.
6. İnsanın ayrıca zikr olunması onun xüsusi əhəmiyyət və dəyərini göstərir.
7. Nütfəyə çevrilən təkcə bir hüceyrə, spermadır.
8. Əsil hünər sahibi Allahdır. O, bir damla bulaşıq sudan şərafətli və dəyərli mövcud yaradır.
9. Həzrət Adəmin yaranışı onun nəslindən olanların yaranışından fərqlənir. (Həzrət Adəm torpaqdan, onun nəsli isə nütfədən xəlq olunmuşdur.)
10. İlahi kamilliklər əldə etmək üçün hazırlıq və mütənasibliyə ehtiyac var. (Öncə mütənasib qamət, sonra ilahi ruhun üfürülməsi.)
11. İnsana ilahi ruh üfürülməsi onun şərafətini göstərir.
12. İnsanın ilkin yaranışı tədrici olmuşdur.
13. İnsanın görmə qabiliyyəti eşitmə qabiliyyətindən daha əhatəlidir. (İnsan eyni vaxtda iki səsi ayırd edə bilmədiyi vaxt, bir neçə şeyə tamaşa edə bilir. Əgər qulaq yalnız səs eşidirsə, göz mövqeyini, rəngi, həcmi, hərəkəti müəyyənləşdirən vasitədir.)
14. Əzalar arasında insanı ətrafla tanış edən əza daha mühümdür. (Müxtəlif əzalar arasından yalnız qulaq, göz və qəlb yada salınır.)
15. İnsanın yaranış dövrünə diqqət insanın özünü və Allahı tanımasına, şükürə aparan bir yoldur.
16. Şükür etməyən insan məzəmmətə layiqdir.

## *AYƏ 10:*

﴿وَقَالُوا أَئِذَا ضَلَلْنَا فِي الْأَرْضِ أَئِنَّا لَفِي خَلْقٍ جَدِيدٍ بَلْ هُم بِلِقَاء رَبِّهِمْ كَافِرُونَ﴾

**"Dedilər: "Torpaqda itib-batdıqdan sonra yenidənmi yaradılacağıq?" Bəli, onlar Rəbləri ilə görüşü inkar edənlərdir."**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, Allah insana göz, qulaq və qəlb kimi idrak vasitələri verdiyi halda şükür edənlər azdır. Ayə naşükürlük nümunələrindən birini bəyan edir, saysız qüdrət nişanələrini görən insanın Qiyamətə şübhəsi məzəmmət olunur.

**Bildirişlər**

1. Müxaliflərin şübhələrini nəql edib qəti cavablar verməklə möminləri sığortalayaq.
2. Qiyaməti inkar edənləri tərəddüdə salan məadın cismani olmasıdır.
3. Aşkar dəlillərlə şəkk-şübhələrinizi aradan qaldırın. Onlara fürsət verməyin.
4. Kafirlər də Allahın tədbirinə tabedir.

## *AYƏ 11:*

﴿قُلْ يَتَوَفَّاكُم مَّلَكُ الْمَوْتِ الَّذِي وُكِّلَ بِكُمْ ثُمَّ إِلَى رَبِّكُمْ تُرْجَعُونَ﴾

**"De ki, sizə təhkim olunmuş ölüm mələyi canınızı alar. Sonra Rəbbinizə doğru qaytarılarsınız."**

**Nöqtələr**

"Təvəffa" dedikdə tam şəkildə geri almaq mənası anlaşılır. Əgər dünyasını dəyişən insanın cəsədi qəbirdə qalırsa, demək tam şəkildə alınan ruhdur. Əgər ruh yoxsa, demək, insan yoxdur. Ruh müstəqil və davamlıdır. Qiyamət günü həmin ruh cismə növbəti dəfə qayıtmaqla insan ayağa qaldırılar.

### *QURANDA RUHUN ÇIXARILMASI İLƏ BAĞLI ÜÇ TƏBİR VAR:*

a) İnsanın canını və ruhunu mələklər alar.[1]

b) Hazırkı ayədə ruhu çıxaran məmur mələk "ölüm mələyi" adı ilə tanıtdırılır.

v) "Zumər" surəsinin 42-ci ayəsində bu işin Allah tərəfindən görüldüyü bildirilir.

Uyğun üç bildirişdən belə bir nəticə çıxarmaq olar ki, mələklər ruhu çıxarır, ölüm mələyi onu təhvil alır və Allah-təalanın hüzuruna çatdırır. İmam Sadiqdən (ə) soruşurlar ki, eyni vaxtda saysız adamlar dünyasını dəyişirsə, ölüm mələyi

---

[1] "Nəhl", 28.

bir anda hamının canını necə alır? Həzrət buyurur: “Onun mələklər arasında yardımçıları var. Onlar insanların ruhunu çıxarıb ölüm mələyinə təhvil verirlər.”[1] Ola bilsin ki, insanların səviyyəsi onların ölüm formasına təsir göstərir. Yəni adi insanların ruhunu mələklər, təqvalı insanların ruhunu ölüm mələyi, övliyaların ruhunu Allah çıxarır.

**Bildirişlər**

1. Şübhələri cavabsız buraxmayın.
2. İnsanın mahiyyəti onun ruhundan ibarətdir. Ruh çıxarıldısa, artıq insanlıq alındı.
3. Mələklər vəzifələrindən boyun qaçırmırlar.
4. Mələklərin işi onlara tapşırılmış göstərişlərə əsaslanır.
5. İnsanın ölümü və dəfni onun növbəti dəfə dirilməsinə doğru atılmış bir addımdır. Necə ki, toxumu torpağa basdırmaq onun cücərməsinə doğru atılan bir addımdır.
6. Ruhları alan Allah bir gün bütün insanları Özünə doğru qaytarasıdır.

*AYƏ 12:*

﴿وَلَوْ تَرَى إِذِ الْمُجْرِمُونَ نَاكِسُوا رُؤُوسِهِمْ عِندَ رَبِّهِمْ رَبَّنَا أَبْصَرْنَا وَسَمِعْنَا فَارْجِعْنَا نَعْمَلْ صَالِحًا إِنَّا مُوقِنُونَ﴾

**“Günahkarları Rəblərinin yanında başlarını aşağı salmış, “Pərvərdigara, gördük və eşitdik; bizi qaytar ki, saleh işlər görək; həqiqətən, biz yəqinə çatmışıq” deyən halda görəydin!”**

**Nöqtələr**

Bu ayədə günahkarlar dünyaya qayıdıb saleh işlər görməyi arzulasalar da, həqiqət başqadır. “Ənam” surəsinin 28-ci ayəsində bildirilir ki, onlar dünyaya qayıtsalar da xilaf iş görəsidirlər.

**Bildirişlər**

1. Günahkarların bugünkü özbaşınalığının Qiyamət günü peşmançılığı var. Bu həqiqət Peyğəmbər (s) və möminlər üçün təsəllidir.
2. Qiyamət günahkarların xəcalətdən üzüldüyü gündür.
3. Qiyamət günü peşmançılıq və etiraf günüdür.
4. Qiyamət günü həqiqətlər açılar, gözlər görər, qulaqlar eşidər. (Haqqı görməyə kor, eşitməyə kar olanlar Qiyamət günü “gördük”, “eşitdik” deyərlər.)
5. İnsanın yalnız dünyadakı saleh əməli Qiyamətdə ona nicat verə bilər.
6. Qiyamətə inamsızlıq günaha səbəb olur.

[1] “Təfsire-Nurus-səqəleyn”.

*AYƏ 13:*

﴿وَلَوْ شِئْنَا لَآتَيْنَا كُلَّ نَفْسٍ هُدَاهَا وَلَكِنْ حَقَّ الْقَوْلُ مِنِّي لَأَمْلَأَنَّ جَهَنَّمَ مِنَ الْجِنَّةِ وَالنَّاسِ أَجْمَعِينَ﴾

**"Əgər istəsəydik, hamını (məcburi olaraq) doğru yola gətirərdik. (Amma istəyimiz budur ki, hər kəs özü özünə yol seçsin.) Amma (kafirlər bilsin) qəti qərarım budur ki, cəhənnəmi (imansız və günahkar) cin və inslə doldurum."**

**Bildirişlər**

1. Allahın işləri Onun iradəsi ilə həyata keçir.
2. İnsan doğru yolu məcburi yox, ixtiyari şəkildə qəbul etməlidir.
3. İnsanlar fərqlidir, hərənin xüsusi bir hidayəti var.
4. Allahın mərhəməti Onun qəzəbinə mane olmur.
5. Cinlər də insanlar kimi vəzifəlidirlər, onlar üçün də mərhəmət və qəzəb var.

*AYƏ 14:*

﴿فَذُوقُوا بِمَا نَسِيتُمْ لِقَاء يَوْمِكُمْ هَذَا إِنَّا نَسِينَاكُمْ وَذُوقُوا عَذَابَ الْخُلْدِ بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**"Belə bir günü görəcəyinizi unutduğunuzdan (əzabı) dadın. Biz (də) sizi yaddan çıxararıq. Gördüyünüz işlərə görə daimi əzabı dadın."**

**Nöqtələr**

Ötən iki ayədə günahkarlar dünyaya qayıtmaq dilədilər. Ola bilsin ki, bu ayədə onlara rədd cavabı verilir.

Allah heç nəyi unutmur. Sadəcə nəzərə çatdırılır ki, Biz Qiyaməti yaddan çıxaran sizlərlə sizi yaddan çıxaranlar kimi rəftar edərik.

**Bildirişlər**

1. Günahkarlara cəza səbəbini anladaq.
2. İlahi cəzalar ədalətli və əmələ münasibdir.
3. Məadı yada salmaq qurtuluş açarıdır. Məaddan xəbərsizlik bəla səbəbidir.
4. Xətaların səbəbi məaddan xəbərsizlikdir.
5. Pis əməlin davamı cəhənnəmdə davamlı əzaba səbəb olur.
6. Hər bir əmələ görə münasib əvəz nəzərdə tutulur.

## *AYƏ 15:*

﴿إِنَّمَا يُؤْمِنُ بِآيَاتِنَا الَّذِينَ إِذَا ذُكِّرُوا بِهَا خَرُّوا سُجَّدًا وَسَبَّحُوا بِحَمْدِ رَبِّهِمْ وَهُمْ لَا يَسْتَكْبِرُونَ﴾

**“Ayələrimizə yalnız o kəslər iman gətirmişdir ki, bu ayələr onlara oxunduqda üzü üstə səcdəyə düşər, Rəblərinə təsbih deyərlər. Onlar təkəbbür göstərməzlər.”**

**Nöqtələr**

Quranın dörd surəsində müəyyən ayələri oxuduqdan sonra səcdə etmək vacibdir. Həmin dörd surə “Fussilət”, “Nəcm”, “Ələq”, “Səcdə” surələridir. Bu surələr “əzaim” surələri adlanır. Əhli-beyt (ə) məktəbinə əsasən, namazda həmddən sonra bu dörd surəni oxumaq caiz deyil. Cənabətli və ya heyzli vəziyyətdə olanlar bu surələrdən hətta bir ayə belə oxuya bilməzlər.

**Bildirişlər**

1. Aşiqanə səcdə və Allaha həmd-səna möminin nişanəsidir.
2. Quran təbliğ və haqqa çağırışda günahkarları tanıtdırmaqla yanaşı möminlərin sifətlərini bəyan edir.
3. İnsanların bir qrupu təkəbbürləri səbəbindən ilahi hidayətdən məhrum olur.
4. İlahi ayələr insanın fitrət və düşüncəsinə uyğundur. İnsan yalnız xatırlatmaya ehtiyaclıdır.
5. Möminlər təkcə namaz vaxtı səcdə etmir.
6. İbadətdə həm zaman, həm zəmin, həm də əməl şərti var.
7. İnsan bütün vücudu torpağa sərilmiş kimi aşiqanə səcdə etməlidir.
8. Səcdə halında ən yaxşı zikr sitayişlə müşahidə olunan təsbihdir.
9. Qürur və təkəbbürdən uzaq səcdə dəyərlidir.

## *AYƏ 16:*

﴿تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَطَمَعًا وَمِمَّا رَزَقْنَاهُمْ يُنفِقُونَ﴾

**“(Möminlərin gecə vaxtı) çiyinləri yataq görməz, qorxu və ümidlə Rəblərini çağırarlar. Onlara verdiyimizdən infaq edərlər.”**

**Bildirişlər**

1. Sübh oyanış, yuxuya əsir olmamaq möminlərin digər bir nişanəsidir.
2. Çətinliklə müşayiət olunan ibadətlər daha dəyərlidir.
3. Mömin nə ümidini itirir, nə də qürrələnir. O, qorxu və ümid içindədir.

4. Təvazö, sübh oyanışı və infaq möminlərin daimi xislətləridir.

5. Allahla gündəlik rabitə məhrumlara yardımla müşayiət olunmalıdır.

6. Təkcə maldan infaq olunmur. Elm və hörmət də insanın ixtiyarındakı sərmayələrdəndir.

*AYƏ 17:*

﴿فَلَا تَعْلَمُ نَفْسٌ مَّا أُخْفِيَ لَهُم مِّن قُرَّةِ أَعْيُنٍ جَزَاء بِمَا كَانُوا يَعْمَلُونَ﴾

**"Kimsə bilmir ki, onları gözlərinə işıq olası hansı mühüm mükafat gözləyir. Bu, onların əməllərinin mükafatıdır."**

**Nöqtələr**

Quranda ilahi mükafatlarla bağlı bir neçə təbir var. Bu mükafat bəzən iki qat[1], bəzən bir neçə qat[2], bəzən on qat, bəzən isə 700 qat[3] qeyd olunur. Amma bu ayədə kəmiyyəti üstələyən bir nöqtəyə toxunulur. Buyurulur ki, kimsə gecə namazı və infaq əhlinin mükafatından agah deyil.

İmam Sadiq (ə) buyurur: "Quranda gecə namazından başqa bütün yaxşı işlərin savabı bəyan olunmuşdur. Gecə namazının savabını Allahdan savay kimsə bilməz." Sonra həzrət hazırkı ayəni tilavət edir.[4]

**Bildirişlər**

1. Sübh oyanışı, gecə namazı, məhrumlara kömək müqabilində ən üstün mükafatlar nəzərdə tutulur.

2. Bəzi mükafatlar insan düşüncəsinin fövqündədir.

3. Tərbiyə prosesində bəzən mükafatın miqdarını məxfi saxlamaq lazım gəlir.

4. Məxfi ibadətlərin məxfi mükafatları var.

5. Hesabsız mükafat əldə etmək üçün insan özünü erkən oyanmağa vadar etməlidir.

6. "Ey Sədi, danışmaq olsa da peşən; Sözdən bir şey çıxmaz, olmasa işin."

*AYƏ 18:*

﴿أَفَمَن كَانَ مُؤْمِنًا كَمَن كَانَ فَاسِقًا لَّا يَسْتَوُونَ﴾

**"Məgər mömin insan fasiqlə (həddi aşanla) eynidirmi?! (Bu iki dəstə) bərabər deyil."**

---

[1] "Əraf", 38.

[2] "Bəqərə", 245.

[3] "Bəqərə", 261.

[4] "Təfsire-Məcməül-bəyan"; "Təfsire-Əl-mizan".

**Bildirişlər**

1. Haqqı bəyan edərkən suallar ünvanlamaqla insanların vicdanından kömək alaq.
2. Ən yaxşı təlim-tərbiyə üsullarından biri müqayisə aparmaqdır.
3. Təkcə kafirlər yox, həm də fasiqlər möminlərə müxalifdirlər.
4. Xalqdan soruşun, amma öz haqq baxışınızı da elan edin.

*AYƏ 19:*

﴿أَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ فَلَهُمْ جَنَّاتُ الْمَأْوَى نُزُلًا بِمَا كَانُوا يَعْمَلُونَ﴾

**“Amma iman gətirib saleh işlər görənlərin qəbulu üçün gördükləri işə xatir xüsusi (“məva”) bağlar hazırlanıb.”**

*AYƏ 20:*

﴿وَأَمَّا الَّذِينَ فَسَقُوا فَمَأْوَاهُمُ النَّارُ كُلَّمَا أَرَادُوا أَن يَخْرُجُوا مِنْهَا أُعِيدُوا فِيهَا وَقِيلَ لَهُمْ ذُوقُوا عَذَابَ النَّارِ الَّذِي كُنتُم بِهِ تُكَذِّبُونَ﴾

**“Amma fasiqlərin yeri oddur. Hər dəfə oradan çıxmaq istədikdə geri qaytarılarlar və onlara deyilər: “Daim təkzib etdiyiniz odun əzabını dadın.”**

**Nöqtələr**

18-ci ayədə qapalı şəkildə buyuruldu ki, möminlə fasiq eynidirmi? Bu ayədə hər iki dəstənin taleyi ətraflı bəyan olunur.

**Bildirişlər**

1. İman əməldən ayrı deyil.
2. Möminin bütün işləri bəyənilmiş olmalıdır.
3. Behişt bağları möminlərin istiqbalı üçündür.
4. Qiyaməti inkar edən fasiq daim cəhənnəmdə qalasıdır.
5. Cəhənnəm əhli fiziki əzabla yanaşı ruhi sıxıntı çəkir.

*AYƏ 21:*

﴿وَلَنُذِيقَنَّهُمْ مِنَ الْعَذَابِ الْأَدْنَى دُونَ الْعَذَابِ الْأَكْبَرِ لَعَلَّهُمْ يَرْجِعُونَ﴾

**“Əlbəttə, Biz onlara (Qiyamətdəki) böyük əzabdan əlavə, (dünyada) yaxın bir əzab daddırarıq. Ola bilsin ki, Allaha doğru qayıdalar.”**

**Nöqtələr**

Dünya əzabı həm yaxın, həm də kiçikdir. Axirət əzabı isə həm uzaqdır, həm də böyük. Qaydaya görə, “yaxın” sözünə əks mənada “uzaq” sözü işlədilməlidir. Amma Allahın qəzəbini uzaq saymaq mümkün olmadığından,

“uzaq” əvəzinə “böyük” sözü işlədilmişdir. Digər bir tərəfdən “böyük” sözünün antonimi “kiçik” olsa da, Allahın qəzəbini kiçik saymaq mümkün olmadığından, “kiçik” əvəzinə “yaxın” sözü işlədilmişdir.

Allahın Rəsulu (s) buyurur: “Yaxın əzab dedikdə insanın dünyada düçar olduğu müsibətlər, xəstəliklər və əziyyətlər nəzərdə tutulur.”[1]

**Bildirişlər**

1. Günahkarı tövbə məqsədi ilə çətinliyə salmaq ilahi sünnələrdən biridir.
2. Tərbiyədə bəzən məhəbbət yox, sərtlik səmərəli olur.
3. Axirət əzabı bütün dünyəvi əzablardan böyükdür.
4. Dünyəvi acılıqlar oyanış siqnalı, tövbə zəmini olmalıdır. (Qayıdış yolu günahkarlar üçün də açıqdır.)
5. Dünyəvi acılıqlar Allahın ədalətinə zidd deyil. Çünki bu iş hikmətə əsaslanır və insanların islahı üçündür.
6. Təbliğ və tərbiyədə təsir ehtimalı olsa yetər və əminliyə ehtiyac yoxdur.
7. Dünyəvi acılıqlar daddırılsa da, günahkarlar doğru yola qayıdışa məcbur edilmirlər.

### *AYƏ 22:*

﴿وَمَنْ أَظْلَمُ مِمَّن ذُكِّرَ بِآيَاتِ رَبِّهِ ثُمَّ أَعْرَضَ عَنْهَا إِنَّا مِنَ الْمُجْرِمِينَ مُنتَقِمُونَ﴾

**“Rəbbinin ayələri nəzərinə çatdırılan, amma bu ayələrdən üz döndərən insandan da sitəmkarı kimdir?! Əlbəttə, Biz günahkarlardan intiqam alırıq.”**

**Nöqtələr**

15-ci ayədə oxuduq ki, möminlər Allahın ayələrini eşitdikləri vaxt yubanmadan səcdəyə düşürlər. Əksinə, başqa bir qrup insan Allahın ayələrini eşitdikdə üz çevirib gedirlər.

**Bildirişlər**

1. İlahi xatırlatmalardan üz çevirmək insanın özünə və cəmiyyətə ən böyük zülmüdür.
2. Allah mömini bir yolla, qeyri-mömini başqa bir yolla xəbərdar edir.
3. Günahkarın xatırlatmaya etinasızlığı günahdan da pisdir.
4. Allahın mehriban və bağışlayan olması Onun qəhr-qəzəbinə zidd deyil.
5. Allahın ayələrindən üz çevirmək günahdır və günahkardan intiqam alınır.
6. Xatırlatma və məhəbbət bəs etmir, günahkarı tənbeh etmək lazımdır.

[1] “Təfsire-Nurus-səqələyn”; “Təfsire-kənzud-dəqaiq”.

*AYƏ 23:*

﴿وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ فَلَا تَكُن فِي مِرْيَةٍ مِّن لِّقَائِهِ وَجَعَلْنَاهُ هُدًى لِّبَنِي إِسْرَائِيلَ﴾

**“Həqiqətən, Biz Musaya (ə) (səmavi) kitab verdik. Onun (Allahla) görüşünə şəkk etmə. Biz onu (həmin kitabı) Bəni-İsrail üçün hidayət səbəbi qərar verdik.”**

**Nöqtələr**

“Onun görüşünə şəkk etmə” cümləsi ilə bağlı bir neçə ehtimal var:

a) Həzrət Musanın (ə) Allahla görüş zamanı ona vəhy nazil olmasına şəkk etmə;

b) Quran və vəhylə görüşə şəkk etmə;

v) Qiyamətlə görüşə şəkk etmə;

**Bildirişlər**

1. İslam Peyğəmbərinin (s) risaləti və səmavi kitabın nazil olması yeni bir iş deyil.
2. Peyğəmbərlərin tarixindən xəbərdarlıq təsəlli və arxayınlıq səbəbidir.
3. Səmavi rəhbərə münasibətdə şəkk-şübhəyə yer yoxdur.
4. Tövrat bütün bəşəriyyətin yox, Bəni-İsrailin hidayəti üçün nazil olmuşdu.

*AYƏ 24:*

﴿وَجَعَلْنَا مِنْهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا لَمَّا صَبَرُوا وَكَانُوا بِآيَاتِنَا يُوقِنُونَ﴾

**“Bizim göstərişimizlə (xalqı) hidayət etsinlər deyə, Bəni-İsrail arasından rəhbərlər seçdik. Çünki onlar həm səbir edirdilər, həm də ayələrimizə əmin idilər.”**

**Bildirişlər**

1. Rəhbər təyin etmək haqqı Allaha məxsusdur.
2. Hidayətin məzmununu, üsulunu və çərçivəsini Allah təyin edir. (Bu işdə xalqın seçim haqqı yoxdur.[1]
3. Yəqin və səbir rəhbərlik üçün iki zəruri şərtdir. (Rəhbər məqsədə inanmalı, son anadək müqavimət göstərməlidir.)

*AYƏ 25:*

﴿إِنَّ رَبَّكَ هُوَ يَفْصِلُ بَيْنَهُمْ يَوْمَ الْقِيَامَةِ فِيمَا كَانُوا فِيهِ يَخْتَلِفُونَ﴾

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

**“Həqiqətən, Rəbbin Qiyamətdə xalq arasındakı ixtilaflar barədə hökm verəcək.”**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, Allah layiqli insanları rəhbər və imam seçir. Bu ayədə oxuyuruq ki, Allah Qiyamətdə xalq arasındakı ixtilafları ayırd edər. Ola bilsin ki, ixtilaf dedikdə, rəhbər məsələsinə münasibətdəki ixtilaf nəzərdə tutulur. İnsanlar təyin olunmuş ilahi rəhbərə münasibətdə inadkarlıq göstərdiyindən, bu məsələ Qiyamətdə araşdırılar. Ayədə ilahi rəhbərə qarşı müxalifət bayrağı qaldıranlar hədələnirlər.

**Bildirişlər**

1. İxtilaflarla bağlı mühakimə Allahın Qiyamətdəki rübubiyyət şənindəndir.
2. Qiyamətdə bütün ixtilaflar ayırd edilər.
3. Dini ixtilaflar dünyada həll olası deyildir.
4.Tarix boyu insanlar arasında ixtilaflar olub.
5. Dini rəhbərlər öz işinə və xalqın hidayətinə heç vaxt soyuq yanaşmasınlar. Çünki ixtilaflar həmişə olmuşdur.

*AYƏ 26:*

﴿أَوَلَمْ يَهْدِ لَهُمْ كَمْ أَهْلَكْنَا مِن قَبْلِهِم مِّنَ الْقُرُونِ يَمْشُونَ فِي مَسَاكِنِهِمْ إِنَّ فِي ذَٰلِكَ لَآيَاتٍ أَفَلَا يَسْمَعُونَ﴾

**“Onlardan öncə bir çox qəbilələri həlak etdiyimiz onlara aydın deyilmi? Hansı ki, bunlar həlak olanların evlərinə get-gəldədirlər. Əlbəttə, bunda (fəlakətlərdə) nişanələr var. Yoxsa eşitmirlər?”**

**Nöqtələr**

“Qərn” sözünün cəm forması olan “qurun” sözü eyni bir dövrdə yaşamış qövmlər və millətlər mənasını bildirir.

Bu ayədə keçmiş qövmlərin məhvi məsələsinə toxunulur. Həmin tarixi gerçəkliklər eşitməklə dərk olunur. Ona görə də ayənin sonunda “yoxsa eşitmirlər” deyə sorulur. Növbəti ayədə quru torpağın cücərməsindən danışıldığı üçün, sonda “yoxsa görmürlər” deyə qarşı tərəf qınanır.

**Bildirişlər**

1. Məkkə əhli keçmiş qövmlərin başına gələnlərdən xəbərdar idilər. Onlar keçmişin qalıqlarını görür, amma ibrət götürmürdülər.
2. Tarixi hadisələr qanuna uyğundur. (Keçmiş qövmlərin məhvi haqqında məlumat və başqalarının ibrətə çağırılması göstərir ki, tarixi hadisələr təsadüfi deyil, onlarda ibrət götürüləsi məqamlar var.)
3. Azğın qəbilələrin süqutu gələcək insanların hidayəti üçün ən təsirli vasitələrdəndir.
4. Tarixdə azğın və məhvə düçar olmuş qəbilələr çoxdur.

5. İslam tövsiyə edir ki, insanlar qədim tarixi yerlərlə, qədim insan məskənləri ilə tanış olsunlar. Amma bu tanışlıqda məqsəd ibrət götürmək olmalıdır.

6. İnsanın iştirak etdiyi səhnələr daha ibrətamizdir.

7. Əcdadların tarixi izləri ilə tanışlıq gələcək nəsillərin ibrət götürməsi üçün zəruridir.

8. Keçmiş qövmlərin izzət və zillət səbəbini araşdırın və ibrət götürün.

9. Millətlərin və mədəniyyətlərin süqutu ilahi nişanələrin cilvəsidir.

10. İnsanın (qəlbən) eşidən qulağı olsa, lal xarabalıqların da bizə sözü var.

### *AYƏ 27:*

﴿أَوَلَمْ يَرَوْا أَنَّا نَسُوقُ الْمَاء إِلَى الْأَرْضِ الْجُرُزِ فَنُخْرِجُ بِهِ زَرْعًا تَأْكُلُ مِنْهُ أَنْعَامُهُمْ وَأَنفُسُهُمْ أَفَلَا يُبْصِرُونَ﴾

**“Görmədilərmi ki, Biz suyu otsuz yerlərə doğru axıdırıq, heyvanları və özləri qidalansın deyə onun vasitəsi ilə otlar cücərdirik? Yoxsa görmürlər?”**

**Nöqtələr**

Ot-ələfin kökü kəsilmiş quru torpağa “curuz” deyilir.[1]

Ötən ayədə azğınların məhvi, bu ayədə isə yerin abadlığı ilahi qüdrət nişanəsi sayıldı.

**Bildirişlər**

1. Təbiət hadisələrindən insanların hidayəti üçün istifadə Quranın tərbiyə üsullarındandır.

2. Buludların dənizdən uzaq torpaqlara doğru hərəkəti və yağış təsadüfi deyil. Bütün bu işlər Allahın hikmətli iradəsinə əsaslanır.

3. Torpaq su vasitəsi ilə məhsul verir. Amma bəzi qəlblər ibrətamiz ayələr hesabına da dirilmir!

4. Maddi ehtiyac baxımından heyvanlar insandan öndə gəlir.(Heyvanların biş-düşə ehtiyacı yoxdur, daha çox və daha rahat qidalanırlar!)

5. Bəsirəti olmayan insan dördayaqlılardan sonra yada salınsa daha yaxşı olar.

6. Yağış və bitkilərin cücərməsindəki nizama qarşı diqqətsiz olmayın.

### *AYƏ 28:*

﴿وَيَقُولُونَ مَتَى هَذَا الْفَتْحُ إِن كُنتُمْ صَادِقِينَ﴾

---

[1] “Mufrədati-Rağib”.

**“Kafirlər soruşurlar: “Əgər doğru deyirsinizsə, bu qələbə nə vaxt olacaq?”**

***AYƏ 29:***

﴿قُلْ يَوْمَ الْفَتْحِ لَا يَنفَعُ الَّذِينَ كَفَرُوا إِيمَانُهُمْ وَلَا هُمْ يُنظَرُونَ﴾

**“De ki, küfr edənlərin qələbə günü iman gətirməsinin onların halına faydası olmayacaq, onlara möhlət verilməyəcək.”**

***AYƏ 30:***

﴿فَأَعْرِضْ عَنْهُمْ وَانتَظِرْ إِنَّهُم مُّنتَظِرُونَ﴾

**“Onlardan üz çevir və gözlə. Onlar da gözləyirlər.”**

**Nöqtələr**

Allah-təala əvvəlki ayələrdə buyurdu ki, günahkarlardan intiqam alınar, onlar öz əməllərinin cəzasına çatdırılarlar. Kafirlər istehza ilə soruşarlar ki, qələbə günü, bizdən intiqam alınacaq gün hansı gündür? Allah onların işinə və sözünə cavab verir.

**Bildirişlər**

1. Başqa müxaliflərin də sözünə cavab verək.
2. Çıxılmaz vəziyyətə düşdükdə iman gətirməyin faydası yoxdur.
3. Möhlət verilməsi ilahi sünnələrdəndir.[1] Amma bu istiqamətdə də məhdudiyyət var.
4. Dəlillər göstərib xəbərdarlıq etdikdən sonra son addımda müxaliflərdən üz çevirmək lazımdır.
5. Zaman ötdükdə haqq və batil ardıcılları arasındakı ixtilaflar aydınlaşır.
6. Rəhbər gələcəyə münasibətdə nikbin və qayğılı olmalıdır.
7. Kafirlər daim müsəlmanların məğlubiyyəti intizarındadırlar.

[1] “Tariq”, 17.

# “ƏHZAB” SURƏSİ

## *(33-CÜ SURƏ, 73 AYƏ)*

### *İyirmi bir, iyirmi ikinci cüzlər*

### *“ƏHZAB” SURƏSİNİN SİMASI*

Mədinədə nazil olmuş bu surə 73 ayədən ibarətdir. Hicri 5-ci ildə (İslam Peyğəmbərinin (s) Mədinəyə hicrətindən 5 il sonra) Mədinə yəhudiləri, Məkkə müşrikləri və müsəlmanlar arasındakı münafiqlər müsəlmanlarla savaş üçün əl-ələ verdilər. Peyğəmbər və onun ardıcılları müdafiə üçün Mədinə ətrafında xəndək qazdılar.

Düşmən cəbhəsi müxtəlif dəstələrdən təşkil olunduğu üçün savaş “əhzab” (“firqələr”) savaşı kimi tanınmışdır. Müharibədən öncə müsəlmanlar müdafiə xəndəkləri qazdıqlarından müharibə həm də “Xəndək” müharibəsi adı ilə qeyd olunur.

Surənin 70 ayəsi “Əhzab” savaşı haqqındadır. Surənin 2 və 22-ci ayələrində “əhzab” sözü üç dəfə təkrarlandığından surə “Əhzab” surəsi adlandırılmışdır.

Surədə “Əhzab” savaşından əlavə, cahiliyyət dövründəki “zihar” və talaq, oğurluğun hökmləri, hicab və məada diqqət mövzuları nəzərdən keçirilmişdir.

(بسم الله الرحمن الرحيم)

**“Rəhman və rəhim Allahın adı ilə”**

***AYƏ 1:***

﴿يَا أَيُّهَا النَّبِيُّ اتَّقِ اللَّهَ وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ إِنَّ اللَّهَ كَانَ عَلِيمًا حَكِيمًا﴾

**“Ey peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə. Şübhəsiz, Allah elm və hikmət sahibidir.”**

**Nöqtələr**

“Ya” nidasının ardınca “əyyuha” sözünün gəlməsi deyilənlərin təkcə müraciət olunan şəxsə yox, başqalarına da aid olduğunu göstərir. “Ya Rəsuləllah” deyə müraciət olunduqda söz təkcə Peyğəmbərə (s) aiddir. Amma “ya əyyuhər Rəsul” müraciəti bir növ “ey xalq, mən peyğəmbəri çağırıram” mənasında işlənir.[1]

**Bildirişlər**

1. İslam Peyğəmbərinin (s) Allah hüzurunda xüsusi məqamı var. (Quranda başqa peyğəmbərlər sadəcə adı ilə çağırılırsa, İslam Peyğəmbərinə (s) adla müraciət olunmur.)
2. Əziz Peyğəmbərin (s) də ilahi nəsihətlərə ehtiyacı var.
3. Peyğəmbərə müraciət əslində onun ardıcıllarına müraciətdir.
4. Xeyir əmələ önəm verməklə pis əməllərin qarşısını alaq. (Öncə Allaha itaət sonra kafirlər və münafiqlərdən uzaqlıq.)
5. Kafirlərə və münafiqlərə itaət təqvasızlıqdır.
6. Kafirlər və münafiqlər istənilən bir yolla dini rəhbərin diqqətini cəlb etmək istəyir.
7. İnsan güclü iman və təqvaya malik olduğu vaxt azğınlıqlar və sazişçi təkliflərlə mübarizə apara bilər.
8. Kafirlər və münafiqlər eyni xətdədirlər.
9. Elm və hikmət sahibi olan Allaha itaətin dəlilləri var. Bəs elm və hikmətdən məhrum olan kafir və münafiqlərə ardıcıllıq necə izah olunur?
10. Kafirlər və münafiqlərə tabe olmamaq göstərişi Allahın elm və hikmətinə əsaslanır.

[1] “Təfsire-Kəbire-Fəxr Razi”.

*AYƏ 2:*

﴿وَاتَّبِعْ مَا يُوحَى إِلَيْكَ مِن رَّبِّكَ إِنَّ اللَّهَ كَانَ بِمَا تَعْمَلُونَ خَبِيرًا﴾

**“Rəbbindən sənə vəhy edilənə tabe ol. Allah gördüyünüz işlərdən xəbərdardır.”**

**Bildirişlər**

1. Əyri yolu bağlayan vaxt düz yolu açıq saxlayın.
2. Vəhylər peyğəmbəri də nəzərdə tutur, o da bu göstərişlərə əməl etməlidir.
3. Təqva əldə etməyin yeganə yolu vəhyə tabeçilikdir.
4. Vəhy Allahın rübubiyyət şənlərindəndir. (Vəhyə tabeçilik inkişaf və tərbiyə vasitəsidir.)
5. İlahi elmə iman vəhyə tabeçilik üçün ən güclü vasitədir.

*AYƏ 3:*

﴿وَتَوَكَّلْ عَلَى اللَّهِ وَكَفَى بِاللَّهِ وَكِيلًا﴾

**“Allaha təvəkkül et. Təkcə Onun (sənə) vəkil olması bəs edər.”**

*AYƏ 4:*

﴿مَّا جَعَلَ اللَّهُ لِرَجُلٍ مِّن قَلْبَيْنِ فِي جَوْفِهِ وَمَا جَعَلَ أَزْوَاجَكُمُ اللَّائِي تُظَاهِرُونَ مِنْهُنَّ أُمَّهَاتِكُمْ وَمَا جَعَلَ أَدْعِيَاءَكُمْ أَبْنَاءَكُمْ ذَلِكُمْ قَوْلُكُم بِأَفْوَاهِكُمْ وَاللَّهُ يَقُولُ الْحَقَّ وَهُوَ يَهْدِي السَّبِيلَ﴾

**“Allah heç bir kişinin köksündə iki qəlb yaratmayıb. Zihar etdiyiniz zövcələr sizin üçün ana, oğulluqlarınız sizin üçün oğul olmaz. Bu (zövcəyə ana, oğulluğa oğul kimi yanaşma) dildə danışdığınız bir sözdür. Allah haqqı buyurur və doğru yola hidayət edən Odur.”**

**Nöqtələr**

“Ədiya” dedikdə övlad və ya başqa bir şeyi kimlərəsə aid etmək nəzərdə tutulur.

Cahiliyyət dövründə kişilər öz arvadına “sən anam kimi mənə haramsan” deməklə onu boşayardılar. Onların bu işi “zihar” adlanır. İslam fiqhində zihar haramdır və bu işə görə kəffarə nəzərdə tutulur. Daha ətraflı məlumat əldə etmək üçün fiqh kitablarına müraciət edin.

Quran insan qəlbinin hissiyyatlı, mərhəmətli və təmayüllü olduğunu bildirir.

**Bildirişlər**

1. Kafirlər və münafiqlərə itaətsizliyin, vəhyə tabeçiliyin müəyyən çətinlikləri var. Bu çətinliklərlə mübarizə üçün Allaha təvəkkül etmək lazımdır.

2. Əmrləri bəyan edərkən dəlillər göstərməyə çalışaq. (Allahı olanın nəyi yoxdur?!)

3. İnsanın öz qəlb və fitri meyillərinə qarşı rəftarları Allahın iradəsindən yox, onun özündən qaynaqlanır.

4. Bir qəlbdə iki zidd məhəbbət cəmləşə bilməz. (Vəhyə itaət kafirlər və münafiqlərə itaətlə bir araya sığmır.)

5. Ata-ananın övlada məhəbbəti rəsmi yox, təbii bir məhəbbətdir. (Nə zövcə ana olasıdır, nə də oğulluq oğul!)

6. Peyğəmbərlik vəzifələrindən biri cəmiyyətdəki xürafatları aradan qaldırmaqdır.

7. Haqq və batil arasında meyar adət-ənənə yox, ilahi vəhydir.

***AYƏ 5:***

﴿ادْعُوهُمْ لِآبَائِهِمْ هُوَ أَقْسَطُ عِندَ اللَّهِ فَإِن لَّمْ تَعْلَمُوا آبَاءهُمْ فَإِخْوَانُكُمْ فِي الدِّينِ وَمَوَالِيكُمْ وَلَيْسَ عَلَيْكُمْ جُنَاحٌ فِيمَا أَخْطَأْتُم بِهِ وَلَكِن مَّا تَعَمَّدَتْ قُلُوبُكُمْ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا﴾

**“Onları (oğulluğa götürdüklərinizi) atalarının adı ilə çağırın. Bu, Allah yanında daha ədalətli sayılar. Əgər atalarını tanımasanız, onlar sizin din qardaşlarınız və yaxınlarınızdır. (Bu vaxtadək) nədə xətaya yol vermisinizsə, sizin üçün günah sayılmaz. Amma qəsdən, bilərəkdən gördüyünüz işlərə görə (məsulsunuz). Allah bağışlayan və mehribandır.”**

**Bildirişlər**

1. Övladların öz həqiqi ataları ilə qohumluq rabitələrini hifz edək. (Şəxsiyyət vəsiqəsində insanın öz atasının adı qeyd olunmalıdır.)

2. Atasını tanımadığınız insanlarla hörmətlə, mərhəmətlə və qardaşcasına rəftar edək. (Bəziləri müsəlmanlara əsir düşdükdən sonra İslamı qəbul edirdilər. Amma müsəlmanlar onların atalarını tanımırdılar.)

3. “Din qardaşı” Quran terminlərindəndir.

4. Atası tanınmayan azad edilmiş qulları dost və yaxın sayın.

5. İnsanın məqsədli şəkildə, bilərəkdən günaha yol verməsi sorğu zamanı təsirlidir.

6. Şəxsiyyət vəsiqəsini bilərəkdən saxtalaşdırmaq, əsil-nəsili dəyişmək günahdır.

7. Bilmədən yol verilən günahların bağışlanması Allahın bağışlayan və mehriban olmasına əsaslanır.

8. Allah mehribanlıq və şəfqətlə bağışlayır.

### *AYƏ 6:*

﴿النَّبِيُّ أَوْلَى بِالْمُؤْمِنِينَ مِنْ أَنفُسِهِمْ وَأَزْوَاجُهُ أُمَّهَاتُهُمْ وَأُوْلُو الْأَرْحَامِ بَعْضُهُمْ أَوْلَى
بِبَعْضٍ فِي كِتَابِ اللَّهِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُهَاجِرِينَ إِلَّا أَن تَفْعَلُوا إِلَى أَوْلِيَائِكُم مَّعْرُوفًا
كَانَ ذَلِكَ فِي الْكِتَابِ مَسْطُورًا﴾

**“Peyğəmbər möminlərə onların özündən də yaxındır. Onun zövcələri möminlərə ana sayılır. Allahın kitabında qohumlar bir-birinə möminlər və mühacirlərdən daha yaxındırlar. Dostlarınıza yaxşılıq etmək istəyəcəyiniz hal istisnadır. (Mal-mülkünüzdən onlara vəsiyyət edə bilərsiniz.) Bu (hökm) kitabda yazılmışdır.”**

**Nöqtələr**

“Məcməul-bəyan” təfsirində oxuyuruq: “Əziz Peyğəmbər (s) müsəlmanlar (ənsar və mühacirlər) arasında qardaşlıq əqdi müəyyənləşdirmişdi. Onlar da doğma qardaş kimi bir-birlərinə irs qoyurdular. Mühacirlər (Mədinəyə hicrət edənlər) vətənlərindən, var-dövlətlərindən, qohum-əqrəbalarından uzaq düşmüşdü. Qardaşlıq əqdi bu boşluğu doldururdu. Nəhayət ayə nazil oldu, uyğun irs ləğv edildi və yeganə irs meyarı kimi qohumluq münasibətləri tanındı.

Peyğəmbər Təbuk savaşı üçün əmr verdiyi vaxt bəziləri dedilər: “Biz valideynlərimizdən icazə almalıyıq.” Həmin vaxt “Peyğəmbər möminlərə onların özlərindən də yaxındır” ayəsi nazil oldu.[1]

Əziz Peyğəmbər (s) Qədir-Xum günü Allahın əmri ilə Həzrət Əlini (ə) özünə canişin elan etməzdən öncə “mən sizə özünüzdən daha yaxın deyiləmmi” deyə soruşdu. Oradakılar hamılıqla bildirdilər: “Bəli.” Sonra Peyğəmbər (s) buyurdu: “Mən kimin mövlasıyamsa, Əli (ə) də onun mövlasıdır.”[2]

Peyğəmbər ictimai-siyasi, fərdi və bütün digər işlərdə möminlərə onların özündən yaxındır. Ayələrdən birində oxuyuruq ki, peyğəmbərin mühakiməsi müqabilində heç bir imanlı qadın və kişinin seçim haqqı yoxdur.[3] Bir çox rəvayətlərdə bildirilir ki, əziz Peyğəmbər (s) bu yaxınlıq məqamının məsum imamlara da aid olduğunu bildirmişdir.[4]

Hədisdə oxuyuruq: “Allahın rəsulu (s) buyurdu: “And olsun canım əlində olan Allaha, məni canınızdan, malınızdan, övladlarınızdan, bütün insanlardan daha çox sevməyənədək imanınız kamil olmayacaq.”[5]

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Bihar”, c. 21, s. 387.
[3] “Əhzab”, 36.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Təfsiri-nümunə”.

**Bildirişlər**

1. Peyğəmbər bütün möminlər üzərində ixtiyar sahibidir (kamil vilayətə malikdir). Həzrətin insanlar üzərində vilayəti onların öz işləri üzərindəki vilayətindən üstündür.

2. Allah rəsulunun vilayətini (hakimiyyətini) qəbul etmək Allaha iman şərtidir.

3. Peyğəmbərin (s) zövcələrinə ehtiram göstərmək zəruridir. (Peyğəmbər (s) dünyadan köçdükdən sonra da kimsə Peyğəmbər (s) zövcələri ilə izdivac edə bilməz.)

4. Peyğəmbər (s) zövcələrinin ana kimi qəbul olunması onları xalqın malına varis etmir.

5. Ailə və qohumluq rabitələri önəmlilik gətirir.

6. Sabit irs qanunları məhrum dostlara yardıma mane olmasın.

7. Vəsiyyətə əməl olunduqdan sonra irsə münasibətdə qohumluq əlaqələri nəzərə alınır. (Əgər bir şəxs malının bir hissəsini dostlarına vəsiyyət etmişsə, əvvəlcə vəsiyyətə əməl olmalı, sonra qalan hissə bölünməlidir.)

8. Ailə işlərində hökmlərə və hüquqi məsələlərə ciddi yanaşaq.

9. İşlər Allah tərəfindən qeydə alınır.

***AYƏ 7:***

﴿وَإِذْ أَخَذْنَا مِنَ النَّبِيِّينَ مِيثَاقَهُمْ وَمِنكَ وَمِن نُّوحٍ وَإِبْرَاهِيمَ وَمُوسَى وَعِيسَى ابْنِ مَرْيَمَ وَأَخَذْنَا مِنْهُم مِّيثَاقًا غَلِيظًا﴾

**“(Xatırla) bir vaxt Biz peyğəmbərlərdən əhd aldıq. (Eləcə də) səndən, Nuhdan, İbrahimdən, Musadan, Məryəm oğlu İsadan və onların hamısından möhkəm bir əhd aldıq (ki, vəzifələrini əzmlə yerinə yetirsinlər).”**

**Nöqtələr**

Peyğəmbərlər arasında beş peyğəmbər “ülul-əzm” adlandırılır və bu peyğəmbərlər kitab və şəriət sahibləridirlər. Onların Allah hüzurunda xüsusi məqamları var. Ayədə həmin peyğəmbərlərin adı xüsusi qeyd olunur.

İslam Peyğəmbərinin (s) adının əvvəldə çəkilməsi əzəmət göstəricisidir.[1] Ayədə həzrət İsanın (ə) anasının adının çəkilməsi bu qadının xüsusi məqamına, həzrət İsanın (ə) dünyaya möcüzəli gəlişinə işarədir.

**Bildirişlər**

1. Ruhi və tərbiyəvi hazırlıq üçün tarix və ilahi sünnələrlə tanış olmaq lazımdır.

2. Əgər peyğəmbər başqalarından önəmlidirsə, məsuliyyət və çətinlik də onun öhdəsinədir. (Üstün məqama malik olan insanın vəzifəsi də ağırdır. Allah

---

[1] “Bihar”, c. 5, s. 236.

bütün peyğəmbərlərdən əhd alsa da, ülul-əzm peyğəmbərlərdən daha çətin əhd almışdır.)

### *AYƏ 8:*

﴿لِيَسْأَلَ الصَّادِقِينَ عَن صِدْقِهِمْ وَأَعَدَّ لِلْكَافِرِينَ عَذَابًا أَلِيمًا﴾

**“(Allah peyğəmbərlərdən möhkəm əhd aldı ki,) doğru danışanların sədaqətini soruşsun və kafirlər üçün dərdli əzab hazırlamışdır.”**

**Nöqtələr**

“Sadiqin” dedikdə peyğəmbərlər nəzərdə tutula bilər. Yəni Allah peyğəmbərlərdən əhd aldı ki, Qiyamətdə həmin əhd əsasında sorğu aparsın. Belə bir məna da nəzərdə tutula bilər ki, Allah insanların sədaqət və ya küfrünü sorğuya çəkmək üçün peyğəmbərlərdən ilahi vəhyin bəyanı ilə bağlı əhd aldı.

İmam Sadiq (ə) buyurur: “Əgər doğru danışan doğru sözü ilə bağlı sorğuya çəkiləcəksə, yalançının halı necə olacaq?!”[1]

Ayədə kafirlərlə əks cəbhədə dayananlar “mömin” yox, “sadiq” kimi zikr olunmuşdur. Yəni sədaqət imanın dəyişməz şərtidir.

**Bildirişlər**

1. Allah məqsədli şəkildə əhd alır. Məqsəd sədaqətliləri kafirlərdən seçməkdir.
2. Sədaqətsizlik küfrə yaxındır.

### *AYƏ 9:*

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا نِعْمَةَ اللَّهِ عَلَيْكُمْ إِذْ جَاءتْكُمْ جُنُودٌ فَأَرْسَلْنَا عَلَيْهِمْ رِيحًا وَجُنُودًا لَّمْ تَرَوْهَا وَكَانَ اللَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرًا﴾

**“Ey iman gətirənlər! Allahın sizə olan nemətini yada salın. Qohumlar sorağınıza gəldiyi vaxt Biz ağır yel əsdirib onların üzərinə sizin görmədiyiniz qoşunlar göndərdik. Allah sizin işlərinizi görür.”**

**Nöqtələr**

Bu və bundan sonrakı 16 ayə Əhzab döyüşünə aiddir. Bu döyüş hicri 5-ci ildə baş verdi. Yəhudilər, müşriklər və münafiqlər Mədinəni tutmaq məqsədi ilə əl-ələ vermişdilər. Müsəlmanlar Salman Farsinin təklifi və Peyğəmbərin (s) razılığı ilə Mədinə ətrafında xəndək qazdılar. Yerə birinci külüng vuran həzrət Peyğəmbər (s) oldu. Külüng hər dəfə daşdan qığılcım çıxaranda həzrət

---

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsiri-bürhan”.

Peyğəmbər (s) İslamın dünyaya qələbəsini müjdə verirdi. Allah bu savaşda tünd yel əsdirmək və mələkləri nazil etməklə müsəlmanlara əl tutdu.

**Bildirişlər**

1. İlahi yardımlardan faydalanmaq üçün iman və təlaş zəruridir. (Müsəlmanlar müdafiə üçün hazırlaşaraq xəndək qazdılar və ilahi yardımdan faydalandılar.)
2. Nemətlərin yada salınması Allahın tapşırığıdır. İlahi yardımların xatırlanması döyüşçülərin ruhiyyəsini gücləndirir.
3. İnsan üçün nemətləri unutmaq təhlükəsi var və o, xatırlatmaya ehtiyaclıdır.
4. Qoşuna qoşunla cavab verilməlidir.
5. Qələbələrin Allah tərəfindən olduğuna inanaq. (Mərhum İmam buyururdu: “Xürrəmşəhri Allah azad etdi.”)
6. Allahın iradəsi ilə küləklər də döyüşçüyə çevrilir.
7. Mələklər həm möminlərə dua edir, həm də onları müjdələyib yardım göstərirlər.
8. İnsan vəzifəsinə əməl etdikdə Allah qeybi yardımlarını nazil edir.

*AYƏ 10:*

﴿إِذْ جَاؤُوكُم مِّن فَوْقِكُمْ وَمِنْ أَسْفَلَ مِنكُمْ وَإِذْ زَاغَتِ الْأَبْصَارُ وَبَلَغَتِ الْقُلُوبُ الْحَنَاجِرَ وَتَظُنُّونَ بِاللَّهِ الظُّنُونَا﴾

**“Düşmənlər yuxarıdan və aşağıdan sorağınıza gəldikləri vaxt, gözlər qorxudan bərəldiyi və canlar boğazlara yığıldığı zaman Allah haqqında min fikrə düşdünüz.”**

*AYƏ 11:*

﴿هُنَالِكَ ابْتُلِيَ الْمُؤْمِنُونَ وَزُلْزِلُوا زِلْزَالًا شَدِيدًا﴾

**“Həmin vaxt möminlər sınağa çəkildi və ağır titrəyişə düçar oldular.”**

**Bildirişlər**

1. Yalnız acı səhnələri yaşadıqdan sonra ilahi lütfləri dadarsınız.
2. Müsəlmanlar məmləkətin bütün sərhədlərini qorumalıdırlar.
3. Psixoloji durum orqanizmə təsir göstərir. (Qorxudan göz bərəlir, ürək titrəyir.)
4. Bəzi möminlər çətinliyə düşdükləri vaxt Allahın qüdrətinə şübhə ilə yanaşırlar.
5. Mömin üçün sınaq var.
6. Müharibə, qorxu, dəhşət və çətin şəraitlər sınaq vasitələridir.

7. İnsanlar çətinlik zamanı tanınır və bir-birindən seçilir. (Ziyalınüma və münafiqləri savaş meydanında görməzsən.)

8. İnsanın möhkəmliyi onun ruhiyyəsinin möhkəmliyindən asılıdır. (Ruha zərbə dəydikdə insan silkələnir.)

***AYƏ 12:***

﴿وَإِذْ يَقُولُ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ مَّا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ إِلَّا غُرُورًا﴾

**“Həmin vaxt münafiqlər və ruhlarında xəstəlik olanlar dedilər: “Allah və Onun rəsulu bizə yalnız yalan vədlər verdilər.”**

**Bildirişlər**

1. Münafiqlərin təbliğat səyləri daimidir.

2. Döyüşçüləri ruhdan salmaq, onların iradəsini zəiflətmək azğınlıq və nifaq göstəricisidir.

3. Peyğəmbərin ətrafındakılardan bəziləri şəkk-şübhəyə düşmüş, bəziləri nifaqa düçar olmuşdu.

***AYƏ 13:***

﴿وَإِذْ قَالَت طَّائِفَةٌ مِّنْهُمْ يَا أَهْلَ يَثْرِبَ لَا مُقَامَ لَكُمْ فَارْجِعُوا وَيَسْتَأْذِنُ فَرِيقٌ مِّنْهُمُ النَّبِيَّ يَقُولُونَ إِنَّ بُيُوتَنَا عَوْرَةٌ وَمَا هِيَ بِعَوْرَةٍ إِن يُرِيدُونَ إِلَّا فِرَارًا﴾

**“Həmin vaxt onlardan bir dəstəsi dedi: “Ey Mədinə əhli! (Savaş səhnəsində) qalmağınızın yeri yoxdu, qayıdın.” Onlardan bəziləri peyğəmbərdən (qayıtmaq üçün) icazə istədilər və dedilər: “Həqiqətən, evlərimiz sahibsiz qalıb.” Halbuki (onların evləri) sahibsiz deyildi və onlar yalnız (savaş meydanından) qaçmaq istəyirdilər.”**

**Bildirişlər**

1. Münafiqlərdən bir qismi şayiə yaymaqla, digər bir qismi cəbhədən qaçmaqla möminlərin ruhiyyəsini zəiflətmək istəyirdi.

2. Münafiqlər möminləri dini ənənələrdən, hətta dini adlar qoymaqdan çəkindirmək istəyirlər. (Onlar “Mədinə” əvəzinə “Yəsrib” deyirdilər.)

3. Münafiqlərin döyüşçüləri həvəsdən salan təbliğatlarından qəflətdə qalmayaq.

4. Döyüşə şəxsən əziz Peyğəmbər (s) komandanlıq edirdi.

5. Silahlı qüvvələr o qədər intizamlı olmalıdır ki, kimsə qoşunu icazəsiz tərk etməsin.

6. Döyüşçünün öz ailəsindən arxayınlığı o qədər zəruri məsələdir ki, münafiqlər bu mövzunu özlərinə hədəf seçmişdilər.

7. Ailə-məişət məsələlərinə əsarətdən qurtulmamış müvəffəqiyyət əldə etmək olmaz.

8. Münafiqlər qorxaq və bəhanəçidirlər.

9. Düşmən dindən din ziddinə istifadə edir. (Münafiqlər namusun hifzi ilə bağlı dini göstərişləri bəhanə gətirirdilər.)

10. Vəhy münafiqlərin çirkin düşüncələrini aşkarlayır və onları rüsvay edir.

*AYƏ 14:*

﴿وَلَوْ دُخِلَتْ عَلَيْهِم مِّنْ أَقْطَارِهَا ثُمَّ سُئِلُوا الْفِتْنَةَ لَآتَوْهَا وَمَا تَلَبَّثُوا بِهَا إِلَّا يَسِيرًا﴾

**“(Münafiqlər və xəstə qəlblilər elə bir halda idilər ki,) Mədinə ətrafından (düşmənlər) onlara yaxınlaşıb fitnəkarlıq təklif etdikdə tez qəbul edir və çox yubanmırdılar.”**

*AYƏ 15:*

﴿وَلَقَدْ كَانُوا عَاهَدُوا اللَّهَ مِن قَبْلُ لَا يُوَلُّونَ الْأَدْبَارَ وَكَانَ عَهْدُ اللَّهِ مَسْؤُولًا﴾

**“Halbuki onlar bundan öncə Allahla əhd bağlamışdılar ki, (düşmənə) arxa çevirməyəcəklər. İlahi əhd sorğuya çəkiləsidir.”**

**Nöqtələr**

Cəbhə və savaşdan qaçmamaq Allah və Onun rəsuluna iman şərtlərindəndir. Allah buyurur ki, bu əhd haqqında sorğu-sual olunacaq.

**Bildirişlər**

1. Düşmən fitnə salmaq üçün daxildəki münafiqlərdən istifadə edir.

2. Münafiqlər asanlıqla haqdan üz döndərib, düşmənə üz tutur və fitnə qoparırlar.

3. Kafirlərin təklifinin tələsik və götür-qoysuz qəbulu şəxsiyyətsizliyi göstərir.

4. Əhd bağlamaq yox, əhdə vəfalı qalmaq mühümdür.

5. Allahın əhdinə səthi yanaşmayaq, bu barədə hökmən sorğu-suala çəkiləsiyik.

*AYƏ 16:*

﴿قُل لَّن يَنفَعَكُمُ الْفِرَارُ إِن فَرَرْتُم مِّنَ الْمَوْتِ أَوِ الْقَتْلِ وَإِذًا لَّا تُمَتَّعُونَ إِلَّا قَلِيلًا﴾

**“De ki, əgər ölümdən və ya öldürülməkdən qaçsanız, bu cəhdiniz sizin üçün heç vaxt fayda verməz. (Hətta faydalansanız) uyğun halda cüzi fayda götürərsiniz.”**

**Bildirişlər**

1. Ölüm kimi qəti müqəddəratlardan qaçmaq mümkünsüzdür.

2. Ötəri ləzzətlərə görə əbədi səadəti əldən verməyin.

### *AYƏ17:*

﴿قُلْ مَن ذَا الَّذِي يَعْصِمُكُم مِّنَ اللَّهِ إِنْ أَرَادَ بِكُمْ سُوءًا أَوْ أَرَادَ بِكُمْ رَحْمَةً وَلَا
يَجِدُونَ لَهُم مِّن دُونِ اللَّهِ وَلِيًّا وَلَا نَصِيرًا﴾

**“De ki, Allah sizə əziyyət və ya mərhəmət istəsə, Onun qarşısında sizi kim qoruya bilər? Əslində onlar özləri üçün Allahdan savay nə iş düzəldən, nə də yardımçı tapırlar.”**

**Nöqtələr**

Allah insanı heç bir səbəb olmadan çətinliyə salmır. İnsan ixtiyari şəkildə, öz pis əməllərinə görə ilahi qəzəb oduna doğru sürüklənir. Sadəcə, varlıq aləmində bütün işlər Allahın iradəsi ilə baş verdiyindən insanın rastlaşdığı çətinliklər də Allaha aid edilir.

**Bildirişlər**

1. Vicdanları suallar ünvanlamaqla oyadın.
2. Mərhəmət və əzab, şirinlik və acılıq Allahın iradəsi mehvərində insana yetişir. (Əlbəttə, Allahın iradəsi hikmətə əsaslanır.)

### *AYƏ 18:*

﴿قَدْ يَعْلَمُ اللَّهُ الْمُعَوِّقِينَ مِنكُمْ وَالْقَائِلِينَ لِإِخْوَانِهِمْ هَلُمَّ إِلَيْنَا وَلَا يَأْتُونَ الْبَأْسَ إِلَّا
قَلِيلًا﴾

**“Şübhəsiz, Allah insanları (cəbhə və cihaddan) saxlayanlarınızı və qardaşlarına “bizə qoşulun” deyən kəsləri yaxşı tanıyır. Onların kiçik bir hissəsi cəbhəyə gedər.”**

**Nöqtələr**

“Muəvviq” dedikdə ayıran, “bəs” dedikdə çətinlik və savaş meydanı nəzərdə tutulur.

Quranda bir neçə növ qardaşlığa işarə olunmuşdur: ailədəki təbii qardaşlıq, dini qardaşlıq[1], bu ayədə işarə olunmuş firqə qardaşlığı, tabeçiliklə həyata keçən rəftar qardaşlığı. (Məsələn, israfçılar şeytanın qardaşları kimi tanıtdırılır.[2])

Ayədəki “vəl qailinə li ixvanihim” ifadəsi münafiqlərin zəif imanlı müsəlmanları cəbhədən uzaqlaşdırmaq dəvətinə işarədir.

**Bildirişlər**

1. Allah düşmənlərin pozucu hərəkətlərindən və əks-təbliğatlarından agahdır.

---

[1] “Hucurat”, 10.

[2] “İsra”, 27.

2. Cəbhədən qaçan qorxaq münafiqlər başqalarının da savaşda iştirakına mane olurlar.
3. Döyüşçünü istənilən bir şəkildə həvəsdən salmaq günahdır.
4. Cəbhəyə getmək yox, cəbhədə qalmaq mühümdür.

### *AYƏ 19:*

﴿أَشِحَّةً عَلَيْكُمْ فَإِذَا جَاء الْخَوْفُ رَأَيْتَهُمْ يَنظُرُونَ إِلَيْكَ تَدُورُ أَعْيُنُهُمْ كَالَّذِي يُغْشَى عَلَيْهِ مِنَ الْمَوْتِ فَإِذَا ذَهَبَ الْخَوْفُ سَلَقُوكُم بِأَلْسِنَةٍ حِدَادٍ أَشِحَّةً عَلَى الْخَيْرِ أُوْلَئِكَ لَمْ يُؤْمِنُوا فَأَحْبَطَ اللَّهُ أَعْمَالَهُمْ وَكَانَ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرًا﴾

**“Onlar sizə kömək göstərməkdə xəsisdirlər. Qorxu yarandıqda ölüm yaxalamış kəs kimi gözləri (hədəqədə) dolanan halda sənə baxdıqlarını görərsən. Elə ki, qorxu sovuşdu sizə qarşı sərt və acı dillərini işə salarlar. Halbuki xeyirə münasibətdə xəsisdirlər. Onların imanı yoxdur, Allah əməllərini məhv etmişdir. Allah üçün bu iş asandır.”**

**Nöqtələr**

“Əşihhə” dedikdə hərisliklə müşayiət olunan xəsislik mənası anlaşılır. “Sələqukum” sözü məğlub etmək mənasını bildirir. Yəni onlar təbliğat və dil yarası ilə müsəlmanları məğlub etmək istəyirlər. “Hidad” sözü iti, qaba mənasını ifadə edir.

**Bildirişlər**

1. Münafiqlər heç vaxt sizə xeyir arzulamırlar. Onlar təhlükə zamanı cəbhədə iştirakdan və cəbhəyə köməkdən qaçırlar. Təhlükə sovuşduqdan sonra qənimətə tamah salırlar.
2. Münafiqlər peyğəmbər və müsəlmanları mövcud ağrıların səbəbkarı sayırlar.
3. Münafiqlər böhranlı vəziyyətlərdə aramlığını itirir.
4. Ruhi vəziyyət insanın çöhrəsində hiss olunur.
5. Münafiqlər az iş görür, çox danışırlar. Savaş vaxtı və çətinliklər zamanı ən çox qorxan, asayiş zamanı ən çox tələb edənlər münafiqlərdirlər.
6. Qorxu, xəsislik, dil yarası, yersiz tələb münafiqliyin bariz nişanələrindəndir.
7. Günahkarların yaxşı əməlləri hikmət əsasında puça çıxır və bu işdə onlar özləri müqəssirdirlər.
8. Nifaq xeyir əməlləri puça çıxaran səbəbdir.
9. Münafiqlərin rəftarı Allahın iradəsinə mane ola bilməz.

### *AYƏ 20:*

﴿يَحْسَبُونَ الْأَحْزَابَ لَمْ يَذْهَبُوا وَإِن يَأْتِ الْأَحْزَابُ يَوَدُّوا لَوْ أَنَّهُم بَادُونَ فِي
الْأَعْرَابِ يَسْأَلُونَ عَنْ أَنبَائِكُمْ وَلَوْ كَانُوا فِيكُم مَّا قَاتَلُوا إِلَّا قَلِيلًا﴾

**“(Onlar dəhşətə gəldiklərindən) Əhzabın (müşrik, yəhudi və hücum çəkənlərin) dağılıb getmədiklərini zənn edirlər. (Növbəti dəfə) düşmən dəstələri gəlsə onlar arzu edərlər ki, kaş köçəri ərəblər arasında qalaydılar. Onlar yalnız sizə aid xəbərlərlə maraqlanardılar. Əgər aranızda olsaydılar, çox döyüşməzdilər.”**

**Nöqtələr**

Şəhərdə yaşayan ərəblərə “ərəbi”, bədəvi ərəblərə “ərabi” deyirdilər. “Badun” dedikdə səhrada yaşayanlar nəzərdə tutulur.

**Bildirişlər**

1. Qorxaq və zəif imanlı insanlar düşmənləri müsəlmanlardan güclü sayırlar. (Münafiqlər düşünürdülər ki, düşmən Mədinəni fəth etməmiş getməyəcək.)
2. İnsanın özünü itirməsi onun düşüncə qabiliyyətini əlindən alır.
3. Zəif imanlı insanlar ucqarda yaşamağı dini cəmiyyətdə yaşamaqdan üstün tuturlar.
4. Zəif imanlı insanlar savaş və mübarizə əhli deyil.

### *AYƏ 21:*

﴿لَقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ اللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُو اللَّهَ وَالْيَوْمَ الْآخِرَ
وَذَكَرَ اللَّهَ كَثِيرًا﴾

**“Həqiqətən, Allahın rəsulu sizin üçün gözəl nümunədir. Əlbəttə, Allaha və Qiyamət gününə ümid bağlayan və Allahı çox zikr edənlər üçün!”**

**Nöqtələr**

“Usvə” dedikdə başqalarının yaxşı işlərinə ardıcıllıq nəzərdə tutulur. Quranda bu söz iki dəfə işlədilmişdir: Həzrət İbrahim (ə) haqqında və İslam Peyğəmbəri (s) haqqında. Maraqlıdır ki, şirklə mübarizədə həzrət İbrahim, düşmən qarşısında müqavimətdə İslam Peyğəmbəri (s) nümunə göstərilir.

Əhzab döyüşündə Peyğəmbərin (s) rolu komandanlar üçün nümunədir. Həzrət qoşuna yol göstərir, ümid verir, xəndək qazır, zarafatlaşır, ruhiyyə yaradan şüarlar deyir, düşmənə yaxınlaşır, sabitqədəmlik göstərir. Həzrət Əli (ə) buyurur: “Savaş zamanı əziz Peyğəmbərə (s) sığınırdıq. O, düşmənə hamıdan yaxın idi.”[1]

---

[1] “Nəhcül-bəlağə”, h. 260.

Əhzab savaşı barəsində nazil olmuş ayələr arasında olmasına baxmayaraq, bu ayə təkcə savaşa aid deyil. Əziz Peyğəmbər (s) möminlər üçün bütün sahələrdə nümunədir.

**Bildirişlər**

1. Peyğəmbərin nümunə olmasına şübhə ilə yanaşmayın.
2. Peyğəmbər daimi bir nümunədir.
3. Peyğəmbərin mənalı danışığı, rəftarı və sükutu bir dərsdir.
4. Nümunə göstərmək tərbiyə üsullarından biridir.
5. Müsbət nümunələr təqdim edək ki, xalq saxta nümunələr sorağınca getməsin.
6. Ən üstün təbliğ forması əməli (nümunə göstərməklə) dəvətdir.
7. Yalnız qəlbi iman və Allah zikri ilə zinətlənmiş insanlar əziz Peyğəmbəri (s) nümunə götürə bilərlər.
8. Nümunələr nə qədər əziz olsa da, insan Allahı yaddan çıxarmamalıdır.

***AYƏ 22:***

﴿وَلَمَّا رَأَى الْمُؤْمِنُونَ الْأَحْزَابَ قَالُوا هَذَا مَا وَعَدَنَا اللَّهُ وَرَسُولُهُ وَصَدَقَ اللَّهُ
وَرَسُولُهُ وَمَا زَادَهُمْ إِلَّا إِيمَانًا وَتَسْلِيمًا﴾

**“Möminlər (düşmən) dəstələri görüb dedilər: “Bu həmin Allah və Onun rəsulunun bizə vəd etdiyidir. Allah və Onun rəsulu doğru dedilər.” (Düşmənlə görüş) yalnız onların iman və (Allah qarşısında) təslimçiliyini artırdı.”**

**Nöqtələr**

12-ci ayədə oxuduq ki, münafiqlər və qəlbi xəstələr Peyğəmbərin (s) vədlərini yalan sayırdılar. Bu ayədə isə möminlərin uyğun vədləri gerçək və sədaqətli qəbul etdikləri bildirilir.

Əvvəlki ayələrdə oxuduq ki, zəif imanlı müsəlmanlar düşmənlə rastlaşan zaman cəbhədən uzaqda olmağı arzulayırdılar. Bu ayədə isə buyurulur ki, möminlər düşməni görən zaman onların imanı və Allah qarşısında təslimçiliyi gücləndi.

**Bildirişlər**

1. İman qüdrət amilidir.
2. Münafiqlər gəlib çatmamış düşməni öz qarşılarında hiss edirlər. Möminlər isə qarşılarında dayanmış  düşmənləri heç nə sayırlar.
3. Əl-ələ vermiş düşmənlərin hücumu möminlər üçün gözlənilməz deyil.
4. Allah rəsulunun sözü elə Allahın sözüdür.
5. İslam Peyğəmbəri (s) müsəlmanlara Əhzab savaşı haqqında məlumat vermişdi.
6. Möminlər əmindirlər ki, Allah və Onun rəsulunun vədləri gerçəkləşəcək.
7. Mömin üçün cəbhə və savaş tərəqqi meydanıdır.

8. Möminlər düşmənlərin sayından və mütəşəkkilliyindən qorxmurlar.

9. İman və təslimçiliyin dərəcələri, mərtəbələri var.

10. Allah və Onun rəsulunun vədlərinin gerçəkləşməsi möminlərin imanını artırır.

*AYƏ 23:*

﴿مِنَ الْمُؤْمِنِينَ رِجَالٌ صَدَقُوا مَا عَاهَدُوا اللَّهَ عَلَيْهِ فَمِنْهُم مَّن قَضَى نَحْبَهُ وَمِنْهُم مَّن يَنتَظِرُ وَمَا بَدَّلُوا تَبْدِيلًا﴾

**“Möminlər arasında elə kişilər var ki, Allahla bağladıqları əhdə vəfa qılırlar. (Özlərini cihada hazırlayırlar.) Onlardan bəziləri əhdlərinə əməl edirlər. (Şəhadətə çatırlar). Bəziləri isə (şəhadət üçün) intizardadırlar və heç vaxt dəyişməzlər.”**

**Nöqtələr**

“Nəhb” sözünün fərqli mənaları var. Amma burada uyğun söz nəzir, əhd-peyman mənasında işlədilmişdir. Nəzirə, əhd-peymana vəfa ölüm və böyük təhlükə ilə sonuclana bilər.

Bəziləri rifah sorağında olduğu vaxt, bir başqaları şəhadət intizarındadırlar.[1]

İmam Hüseyn (ə) Kərbəlada səhabələri ilə vidalaşarkən və bəzən şəhidlərin başı üstə bu ayəni oxuyardı.[2]

**Bildirişlər**

1. Nə peyğəmbərin səhabələri eyni dərəcədə idi, nə də möminlər eyni dərəcədədirlər.
2. Başqalarının kamilliklərini nəql etmək tərbiyə yollarından biridir.
3. Şəhadət anınadək haqqın müdafiəsi imanda sədaqət nişanəsidir.
4. Əhdə sadiq qalıb ona əməl etmək sədaqət göstəricisidir.
5. Şəhidlərin uca tutulması Quranın göstəriş və dərslərindəndir.
6. Şəhadət intizarında olmaq da bir dəyərdir. Allahla görüşə hazırlıq möminlik sifətlərindəndir.
7. Şəhadət qapısı açıqdır.
8. Bəzi möminlərin şəhadəti başqa möminlərin geri çəkilməsinə və ya həvəsdən düşməsinə səbəb olmur. (Öz dostlarının və əzizlərinin şəhadətini görən mömin yenə şəhadət arzulayır.)
9. Həqiqi möminlər öz əhd-peymanlarına sadiqdirlər, hətta dostların və əzizlərin şəhadəti də onların ruhiyyəsini dəyişmir.

[1] “Əhzab”, 20.

[2] “Təfsire-kənzud-dəqaiq”.

*AYƏ 24:*

﴿لِيَجْزِيَ اللَّهُ الصَّادِقِينَ بِصِدْقِهِمْ وَيُعَذِّبَ الْمُنَافِقِينَ إِن شَاء أَوْ يَتُوبَ عَلَيْهِمْ إِنَّ اللَّهَ كَانَ غَفُورًا رَّحِيمًا﴾

**“Beləcə, Allah sadiqləri sədaqətlərinə görə mükafatlandırsın, münafiqlərə istəsə əzab versin, ya da (tövbə etsələr) lütfünü onlara qaytarsın. Çünki Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

“İla” şəkilçisi ilə işlədilmiş tövbə sözü bəndələrin Allah dərgahına tövbəsini, “əla” şəkilçisi ilə işlədilmiş tövbə sözü Allah lütfünün bəndələrə qayıtması mənasını bildirir.

**Bildirişlər**

1. Acı və çətin hadisələrdə məqsəd var. Bu hadisələr insanların istedadlarını çiçəkləndirir, insan çalışmaqla mükafat əldə edir.
2. Doğruçuları mükafatlandırmaqla hamını sədaqətli olmağa həvəsləndirək.
3. Qurtuluş doğruçuluqdadır.
4. İnsan əməldə sədaqət əsasında mükafata çatır.
5. Öncə müjdə, sonra xəbərdarlıq!
6. Əvəzsiz bir iş yoxdur. (Sadiqlər sədaqətinə, münafiqlər nifaqına görə əvəz alırlar.)
7. Allahın lütfü münafiqlərdən də uzaq deyil. Bir şərtlə ki, onlar özləri bunu istəsinlər.
8. Tövbələrin qəbulu Allahın lütfü ilə müşayiət olunur.

*AYƏ 25:*

﴿وَرَدَّ اللَّهُ الَّذِينَ كَفَرُوا بِغَيْظِهِمْ لَمْ يَنَالُوا خَيْرًا وَكَفَى اللَّهُ الْمُؤْمِنِينَ الْقِتَالَ وَكَانَ اللَّهُ قَوِيًّا عَزِيزًا﴾

**“Allah küfr edənləri qəlbləri qəzəblə dolu halda, əllərinə heç bir xeyir gəlməmiş qaytardı. Allah mömінləri savaşda ehtiyacsız etdi (onları qələbəyə çatdırdı). Allah qüvvətli və yenilməzdir.”**

**Nöqtələr**

Əhzab savaşında Həzrət Əli (ə) xəndəyi adlamış məşhur ərəb pəhlivanı Əmr ibn Əbdüvədi qətlə yetirdikdən sonra düşmənlər işlərini bilib geri döndülər.

**Bildirişlər**

1. Düşmənlərin birliyindən qorxmayaq. Əhzab savaşında müşriklər, yəhudilər və münafiqlər əl-ələ versələr də, qələbə və qənimət əldə etmədən geri döndülər.

2. Savaşlardakı qələbə və məğlubiyyətlər Allahın iradəsinə tabedir.

3. Əhzab savaşında qeybi yardımlar rol oynayırdı.

4. Bəzən müxalif mövqedən danışmaq lazım gəlir. İslam üzərində qələbə və qənimət ələ keçirilməsi kafirlərin nəzərincə xeyir idi.

5. Düşmən qalib gəlmək, qənimət əldə etmək, yeni torpaqlar ələ keçirmək və şəxsi mənafeləri qorumaq üçün vuruşur. Müsəlmanlar isə ya dini vəzifələrini yerinə yetirmək, qafilləri doğru yola çağırmaq və haqq yoldakı maneələri aradan qaldırmaq üçün, ya da şəhadət və Allahla görüş naminə vuruşurlar.

6. Müsəlmanların izzət və qüdrət qaynağı Allahdır.

*AYƏ 26:*

﴿وَأَنزَلَ الَّذِينَ ظَاهَرُوهُم مِّنْ أَهْلِ الْكِتَابِ مِن صَيَاصِيهِمْ وَقَذَفَ فِي قُلُوبِهِمُ الرُّعْبَ فَرِيقًا تَقْتُلُونَ وَتَأْسِرُونَ فَرِيقًا﴾

**“Allah müşrik ərəblərə arxa duran kitab əhlini (yəhudiləri) uca qalalarından endirdi, onların qəlbinə vahimə saldı. (Nəticədə siz müsəlmanlar) bir dəstəni öldürdünüz, bir dəstəni əsir götürdünüz.”**

*AYƏ 27:*

﴿وَأَوْرَثَكُمْ أَرْضَهُمْ وَدِيَارَهُمْ وَأَمْوَالَهُمْ وَأَرْضًا لَّمْ تَطَؤُوهَا وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ قَدِيرًا﴾

**“(Allah) onların yerlərini, evlərini, mal-mülklərini, ayağınız dəyməmiş bir torpağı sizin ixtiyarınıza verdi. Allah hər işə qadirdir.”**

**Nöqtələr**

“Səyasi” dedikdə möhkəm qalalar nəzərdə tutulur. İstənilən bir müdafiə vasitəsi, o cümlədən öküzün buynuzu, xoruzun mahmızı bu qəbildəndir.

Ayədə Bəni-Qürəyzə savaşına işarə olunur. Bəni-Qürəyzə yəhudiləri Əhzab savaşında qələbə ümidi ilə müsəlmanlarla müqavilələrini pozub Məkkə müşrikləri üçün beşinci sütun rolunu oynayırdılar. Amma rüsvayçılıqla məğlubiyyətə uğrayıb təslim oldular.

Mədinədə üç yəhudi tayfası vardı: Bəni-Qeyniqa, Bəni-Nəzir, Bəni-Qürəyzə. Hər üç qəbilə müsəlmanlarla müqavilə bağlamışdı. Hicri ikinci ildə Bəni-Qeyniqa qəbiləsi müsəlmanlarla müqaviləni pozub savaşa başladı. Məğlubiyyətə uğramış qəbilə Mədinədən çıxıb Şama üz tutdu. Hicri 4-cü ildə

Bəni Nəzir qəbiləsi savaşa qalxdı. Bu qəbilə də məğlubiyyətə uğrayıb Şama getdi. Nəticədə Xeybər və Mədinə boşaldı. Hicri 5-ci ildə Bəni Qürəyzə qəbiləsi müqaviləni pozub müşriklərə qoşuldu. Onlar Əhzab döyüşündə müsəlmanlara məğlub olub rahatlıqlarını itirdilər. Müsəlmanlar Əhzab savaşında qalib gəldikdən sonra yəhudilərin qalalarını mühasirəyə aldılar. 25 gündən sonra qəbilə Mədinədən çıxarıldı və bu şəhər həmişəlik olaraq xəyanətkar yəhudi qəbilələrindən təmizləndi.[1]

Bəni Qürəyzə savaşının bir çox faydaları oldu: son yəhudi qövmü həmişəlik olaraq Mədinəni tərk etdi, müsəlmanlar böyük bir sərvət əldə etdi, aydın oldu ki, müsəlmanlarla əhdi pozan bədbəxt olur.

**Bildirişlər**

1. Nüfuzedici qüvvələrdən, düşmənin beşinci sütunundan qəflətdə qalmaq olmaz.
2. Kitab əhli ilə dinc-yanaşı yaşayış, onlar müxaliflərə yardım göstərənədək mümkündür.
3. Qələbə Allahdandır.
4. Düşmənin möhkəm və uca qalaları fəth oluna bilər.
5. Kitab əhlindən olan yəhudilərin müsəlmanlarla Allahpərəstlik və məada iman kimi müştərək əqidələri olsa da, onlar müşrikləri himayə etdilər.
6. Təkcə qarşı-qarşıya dayandığınız düşmən barədə yox, həm də düşmənin hamiləri haqqında düşünün.
7. Savaş zamanı Allahın qeybi yardımlarından biri düşmənlərin qəlbində qorxu yaratmaqdır.
8. Döyüşçünün ruhiyyəsi savaşda mühüm rol oynayır.

### *AYƏ 28:*

﴿يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ إِن كُنتُنَّ تُرِدْنَ الْحَيَاةَ الدُّنْيَا وَزِينَتَهَا فَتَعَالَيْنَ أُمَتِّعْكُنَّ وَأُسَرِّحْكُنَّ سَرَاحًا جَمِيلًا﴾

**“Ey peyğəmbər! Zövcələrinə de ki, əgər siz dünya həyatı və onun zinətini istəyirsinizsə, gəlin sizi (mehriyyənizi ödəməklə) təmin edim və gözəl bir şəkildə boşayım.”**

**Nöqtələr**

Müsəlmanlar savaşlarda qənimət əldə etdikdən sonra həzrət Peyğəmbərin (s) zövcələrində rifah marağı oyandı. Həzrət Peyğəmbər (s) bu istəyə qarşı çıxıb bir ay zövcələrindən uzaqlaşdı. Nəhayət hazırkı ayələr nazil oldu.

**Bildirişlər**

1. Müsəlmanların rəhbəri sadə tərzdə yaşamalıdır. (Dini və ictimai məsuliyyət insan üçün xüsusi vəzifələr yaradır.)

[1] “Təfsiri-nümunə”.

2. Müsəlmanların rəhbəri zövcələrin yersiz istəklərinə təslim olmamalıdır.

3. Beytül-mal gəlirinin artımı rəhbərin yaxınlarını tamahsılandırmamalıdır.

4. Təkcə rəhbər yox, onun qohum-əqrəbası da xalqın diqqət mərkəzindədir.

5. İlahi məsuliyyətlər ailə məsuliyyətlərinin fövqündədir. (Bəzən rəhbərlik məsuliyyətinə xatir yaxınların istəyinə mənfi cavab vermək lazım gəlir.)

6. Qadın azaddır. O həm sadə şəkildə xoşbəxt həyat tərzini, həm də ailədən uzaq dəbdəbəli yaşayışı seçə bilər. Hər yolun öz sonluğu var.

7. Həyat yoldaşının yersiz istəklərinə qəti və aydın cavab verin. (Həm qətiyyət, həm də mehribanlıq və ədalət əsasında yersiz istəklərə yox deyin.)

8. Beytul-mal və qənimət əldə etdikdə ailə və yaxınların yersiz istəkləri müqabilində qəti münasibət bildirək.

9. Qadın sadə və sağlam həyatla kifayətlənmirsə, ədalət və insaf əsasında onu boşayın, xoşlamadığı həyat tərzinə vadar etməyin.

10. Dünyapərəstlik təhlükəsi hətta Peyğəmbər (s) ailəsini hədələyir.

11. Dünyanın bər-bəzəyindən ləzzət almaq haram deyil. Amma bu iş Peyğəmbər (s) ailəsinin şəninə uyğun gəlmir.

12. Boşamağa məcbur olduğunuz vaxt bu işi insaf və ədalətlə həyata keçirin.

***AYƏ 29:***

﴿وَإِن كُنتُنَّ تُرِدْنَ اللَّهَ وَرَسُولَهُ وَالدَّارَ الْآخِرَةَ فَإِنَّ اللَّهَ أَعَدَّ لِلْمُحْسِنَاتِ مِنكُنَّ أَجْرًا عَظِيمًا﴾

**“Əgər Allahı, Onun rəsulunu və axirət evini istəyirsinizsə, (bilin ki,) şübhəsiz Allah sizin xeyir iş görənləriniz üçün böyük bir mükafat hazırlamışdır.”**

**Bildirişlər**

1. Dünya və axirət sevgisi bir araya sığmır. Amma halal nemətlərdən istifadə axirət istəyinə zidd deyil.

2. İnsan fani dünya və əbədi axirət məhəbbətlərindən birini seçməlidir.

3. Qənaət, zahidlik və sadəlik təklikdə bəs etmir, xeyir əmələ də ehtiyac var.

4. İlahi vədlərin qəti olduğunu qəbul edək.

5. Allah din rəhbərlərinin ailələrində sadə həyat tərzinin hakim olmasını münasib sayır.

6. Peyğəmbərin arvadı olmaq kamillik deyil. Əsas məsələ xeyirxah olmaqdır.

7. Peyğəmbərin zövcələri bir-birlərindən fərqlənmişlər.

8. Dəyərsiz dünyaya göz yuman böyük mükafata çatacaq.

### *AYƏ 30:*

﴿يَا نِسَاء النَّبِيِّ مَن يَأْتِ مِنكُنَّ بِفَاحِشَةٍ مُّبَيِّنَةٍ يُضَاعَفْ لَهَا الْعَذَابُ ضِعْفَيْنِ وَكَانَ ذَلِكَ عَلَى اللَّهِ يَسِيرًا﴾

**“Ey peyğəmbər zövcələri! Sizlərdən aşkar pis iş görən kəsin əzabı ikiqat olacaq. Bu iş Allah üçün asandır. ”**

**Nöqtələr**

***Əziz Peyğəmbərin (s) zövcələrinə ünvanlanmış göstərişlər risalət məqamı vasitəsi ilə çatdırılır. Amma həzrət Məryəmin (ə) özünə xitab olundu.[1]

Günahlar iki qrupa bölünür: Kəbirə (böyük) və səğirə (kiçik) uyğun bölgü “Nisa” surəsinin 31-ci ayəsinə əsaslanır. Ayədə buyurulur ki, əgər siz böyük günahlardan çəkinsəniz, biz sizin kiçik günahlarınızı bağışlayarıq. Amma kiçik günah özü müəyyən məqamlarda böyük günah sayılır. Məsələn, kiçik günaha görə ramazan ayında böyük cəza nəzərdə tutulur. Günahın xüsusi bir məkanda baş verməsi, təkrarlanması, şadlıqla müşayiət olunması, aşkar şəkildə baş verməsi, peyğəmbərin zövcələri kimi xüsusi fərdlər tərəfindən həyata keçməsi onun cəzasını ağırlaşdırır. İstənilən bir halda günahı və onun cəzasını ağırlaşdıran amillər var.

Rəvayətdə bildirilir ki, böyük şəxsiyyətlərdən baş verən günahların xüsusi hesabı var. Peyğəmbərlər hətta yaxşı bir işi tərk etdikləri üçün tənbeh olunur. Məşhur bir hədisdə deyilir: “Alimin bir günahı bağışlanmamış cahilin 70 günahı bağışlanar.[2]

**Bildirişlər**

1. Əsil-nəcabətin cəza və mükafata təsiri yoxdur. Günaha yol verən cəzalandırılmalıdır.
2. Peyğəmbər zövcələrinin paklığı sığortalanmayıb. (Bəli, insanı sığortalayan peyğəmbər evində olmaq yox, təqvalı olmaqdır.)
3. Aşkar günahların hesabı gizli günahların hesabından fərqlidir.
4. Çirkin iş bilavasitə cəza doğurur.
5. Cəza və mükafat dərəcəsi əməlin fərdi və ictimai təsirlərindən asılıdır.
6. İctimai mövqeyi olan və başqalarına nümunə sayılan insanın günahı daha ağır cəzalandırılır.
7. Dini rəhbərin ailə və qohum-əqrəbası bilməlidir ki, yol verdiyi günaha görə başqalarından artıq cəzalandırılacaq.
8. Əgər rəhbərin yaxınları günaha yol verdikdə ağır cəzalandırılırsa, rəhbər özü səhvə yol verdikdə onu nə gözləyir?! (Quran peyğəmbər haqqında buyurur ki, əgər rəva olmayan bir sözü bizə aid etsə, onun boyun damarlarını kəsərik.)
9. Günaha yol verənləri cəzalandırmaq Allah üçün asandır.

---

[1] “Ali-İmran”, 42, 43.

[2] “Kafi”, c. 1, s. 47.

## İYİRMİ İKİNCİ CÜZ

### *AYƏ 31:*

﴿وَمَن يَقْنُتْ مِنكُنَّ لِلَّهِ وَرَسُولِهِ وَتَعْمَلْ صَالِحًا نُّؤْتِهَا أَجْرَهَا مَرَّتَيْنِ وَأَعْتَدْنَا لَهَا رِزْقًا كَرِيمًا﴾

**“Sizlərdən hər kim Allah və Onun rəsulu qarşısında əyilib saleh iş görsə, mükafatını ikiqat verərik. Onun üçün bol və dəyərli ruzi hazırlamışıq.”**

**Nöqtələr**

“Qunut” dedikdə təvazö və boyun əyməklə müşayiət olunan itaət nəzərdə tutulur.

Bir şəxs İmam Səccada (ə) belə ərz etdi: “Siz peyğəmbər Əhli-beyti bağışlanmışsınız.” İmam narahatçılıqla buyurdu: “Peyğəmbərin zövcələri haqqında buyurulmuş ayələr bizə də aiddir. Əgər günaha yol versək cəzamız, yaxşı iş görsək mükafatımız ikiqatdır.” Sonra həzrət bu və bundan öncəki ayəni oxudu.[1]

Allahın rəsulu buyurdu: “Əlinin (ə) xəndək savaşı günü zərbəsi cin və insin ibadətindən üstündür.[2]

**Bildirişlər**

1. Təşviq və xəbərdarlıq yanaşı olduqda səmərə verir.
2. Mərifət və eşqə əsaslanan, təvazökarlıqla müşayiət olunan itaət dəyərlidir.
3. Həm Allahın, həm də onun rəsulunun göstərişlərinə itaət etmək lazımdır.
4. Bir saleh əməl bəs etmir, davamlı saleh əmələ ehtiyac var.
5. Peyğəmbər zövcəsi olmaq kafi deyil, xeyir əmələ ehtiyac var.
6. Əməlin böyük-kiçikliyi yox, saleh olması şərtdir.
7. Allah biz bəndələri təşviq etmək üçün öz tərəfindən mükafat vəd edir.
8. İnsanın məqamı, əməlin fərdi və ictimai təsirləri əsasında mükafat fərqlənə bilər.

### *AYƏ 32:*

﴿يَا نِسَاءَ النَّبِيِّ لَسْتُنَّ كَأَحَدٍ مِّنَ النِّسَاءِ إِنِ اتَّقَيْتُنَّ فَلَا تَخْضَعْنَ بِالْقَوْلِ فَيَطْمَعَ الَّذِي فِي قَلْبِهِ مَرَضٌ وَقُلْنَ قَوْلًا مَّعْرُوفًا﴾

**“Ey peyğəmbər! Zövcələri! Siz (adi) qadınlardan biri kimi deyilsiniz. Əgər təqvalısınızsa, yumşaq və naz-qəmzə ilə danışmayın ki, qəlbində xəstəliyi olan kəs tamah salar. Gözəl və ləyaqətli danışın.”**

---

[1] “Təfsire-kənzud-dəqaiq”.

[2] “Əl-Ğədir”, c. 7, s. 206.

**Bildirişlər**

1. Dini rəhbərlərin ailəsi ilə hesab başqa ailələrlə hesabdan fərqlənir. Məsulların ailələri öz rəftarlarına çox diqqətli olmalıdır. (İctimai mövqe insan üçün məhdudiyyətlər yaradır.)

2. Əksəri yaşı ötmüş qadınlar olan peyğəmbər zövcələrinə müraciət olunarkən gənc və gözəl zövcələr nəzərdə tutulur.

3. Qadının naz-qəmzə ilə danışması onun təqvasızlığını göstərir.

4. Quranda danışıq qaydaları da bəyan olunmuşdur.

5. Qadının özünə nəzarət etməsi üçün ciddi bir qərar olmasa da, xəstə qəlblilərin tamahı yetərli səbəbdir.

6. Çirkaba batanlar müqəddəsliklərə də tamah salır.

7. Qadının danışıq və rəftarı təhrik edici olmamalıdır.

8. Peyğəmbər (s) cəmiyyətində də qeyri-sağlam fərdlər olmuşdur.

9. Hətta bir nəfəri günaha sövq edən işə yol verməməliyik.

10. Şorgözlük və həvəsbazlıq ruhi bir xəstəlikdir.

11. Qarşı tərəfin qəlbi xəstə olsa da, biz onu təhrik edən işə yol verməməliyik.

12. Həm məzmunlu, həm də sağlam tərzdə danışın.

***AYƏDƏ PİSLİYƏ QADAĞA VƏZİFƏSİ İLƏ BAĞLI NÖQTƏLƏR***

1. Fərdlərin ailədəki mövqeyindən istifadə edək.
2. Fərdlərin ictimai mövqeyindən istifadə edək.
3. Hamının xoşladığı adları işlədək.
4. Ən sadə işlərdən başlayaq.
5. Öncə böyüklərdən və özümüzdən danışaq.
6. Günah qaynağına sədd çəkək.
7. Kiçik rəftarlardan və büdrəmələrdən qəflətdə qalmayaq.
8. Fəsad və azğınlığın acı nəticələrini bəyan edək.
9. Yaxşılığa çağırış və pisliyə qadağa yanaşı həyata keçirilməlidir.
10. Bir pis işin qarşısını almaq üçün fərddən başlayaq.
11. Nəinki günahla, günaha maraqla mübarizə aparaq.

***AYƏ 33:***

﴿وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا﴾

**“Evlərinizdə qərar tutun, ilkin cahiliyyət dövründəki kimi özünüzü bəzəyib zahir olmayın. Namazı bərpa edin, zəkat ödəyin. Allaha və onun**

**rəsuluna itaət edin. Həqiqətən, Allah siz Əhli-beytdən çirkinliyi uzaqlaşdırmaq, sizi tam pak etmək istəmişdir.”**

**Nöqtələr**

“Qərn” sözü həm “vüqar”, həm də “qərar” sözündən ola bilər. Hər iki söz eyni mənanı bildirir. Yəni özünüzü göstərmək üçün evlərinizdən xaric olmayın.

“Təbərruc” dedikdə özünü göstərmək mənası anlaşılır. “Təbərruc” sözü “bürc” sözündəndir. Bürc nəzərdə tutulduğu kimi tikililər arasından boylanır.

İlkin cahiliyyət bu gün şahidi olduğumuz son cahiliyyətin zühur göstəricisidir. Hədisdə deyilir ki, tezliklə başqa bir cahiliyyət özünü göstərər.[1] Əgər ilkin cahiliyyət dövründə qızlar diri-diri torpağa gömülürdüsə, bu gün abortlarla həm qız həm də oğlan övladlar məhv edilir. Əgər ilkin cahiliyyət dövründə qətillər baş alıb gedirdisə, bugünkü müharibələrdə milyonlarla insanın həyatına son quyulur. İlkin cahiliyyət dövründə təhsil ocaqları yox idi. Bu gün isə milyonlarla universitetlər fəaliyyət göstərdiyi zamanda insan haqları ayaq altına alınır. İlkin cahiliyyət dövründə fəsad və zina günah sayılırdı. Bu gün isə dünyanın inkişaf etmiş ölkələrində hətta həmcinsbazlara azadlıq verilir.

## *“TƏTHİR” AYƏSİ HAQQINDA SÖHBƏT*

Ayədə buyurulur: “Həqiqətən, Allah siz Əhli-beytdən çirkinliyi uzaqlaşdırmaq və sizi tam pak etmək istəmişdir.” Ayə “təthir ayəsi” adı ilə məşhurdur. Ayədəki bəzi nöqtələrə nəzər salaq:

–Ayədəki “innəma” sözü Əhli-beytə (ə) olduqca mühüm bir nemət verilməsinə işarədir.

–Buradakı “yuridu” feli təkvini (təbii) iradəni bildirir (yəni nəzərdə tutulan iş mütləq baş verəcək). Çünki Allahın təşrii (şəri) iradəsi hamıya aid olub, yalnız istək və tələb mənasını daşıyır.

–“Rics” dedikdə istənilən növ zahiri və batini çirkinlik nəzərdə tutulur.[2]

–“Əhli-beyt” (ə) ifadəsi peyğəmbərin bütün ailəsinə yox, onların bəzi üzvlərinə aiddir. Bu adlar şiə və sünni rəvayətlərində nəql olunmuşdur. Əhli-beyt dedikdə Əli, Fatimə, Həsən və Hüseyn nəzərdə tutulmuşdur.

Sual: Nə üçün ayə peyğəmbərin zövcələrinə və ya bütün ailəsinə şamil olunmur?

Cavab:

1. Bu barədə peyğəmbərin öz zövcələrindən rəvayətlər nəql olunmuşdur. Ayişə və Ümmü-Sələmədən belə nəql olunur: Bir gün Allahın rəsulundan soruşduq ki, biz də Əhli-beytdən sayılırıqmı? Peyğəmbər buyurdu ki, xeyr!”

2. Çoxsaylı rəvayətlərdə nəql olunur ki, girami Peyğəmbər (s) əbasını özü də daxil olmaqla bu beş nəfərin üstünə çəkdiyi vaxt buyurdu: “Bunlar mənim Əhli-beytimdir.”

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “Təfsiri-bürhan”.

3. Girami Peyğəmbər (s) yalnız bu beş nəfərin Əhli-beytə aid olmasını sübuta yetirmək üçün 6 ay (bəzi rəvayətlərə əsasən, 8 və 9 ay) sübh namazı vaxtı Fatimənin (ə.h.) evinin yanından keçərək, bu ayəni tilavət edib onları namaza çağırarmış.

"İhqaqul-həqq" kitabında məşhur sünni mənbələrindən ayənin həmin beş nəfərə aid olması ilə bağlı 70-dən çox hədis nəql olunmuşdur. "Sünnə əhlinin məşhur mənbələrindən olan "Şəvahidut-tənzil" kitabında 130-dan çox rəvayətdə bu həqiqət təsdiqlənir.[1] Hər halda bu ayə peyğəmbər zövcələrinə aid deyil. Peyğəmbər zövcələri bəzən günaha yol verirdilər. "Təhrim" surəsində oxuyuruq ki, Peyğəmbərin zövcələri arasında əmanət sözü başqalarına açanlar vardı. Quran bu əməli günah sayır.[2]

Peyğəmbərin zövcəsi Ayişə Həzrət Əliyə (ə) qarşı Cəməl savaşını qızışdırdı və sonradan peşman oldu. Bu savaşda bir çox müsəlmanlar qətlə yetirildi.

## *BİR NEÇƏ SUAL*

1. Ayədəki "yutəhhirəkum" sözündən belə anlaşılmırmı ki, Əhli-beytdə bulaşıqlıq vardı və Allah onları paka çıxardı?

**Cavab:** Paklıq üçün öncə bulaşıqlı olmaq şərt deyil. Çünki Allah heç bir bulaşıqlığı olmayan behişt huriləri haqqında da "mutəhhərə" sözünü işlədir. Başqa sözlə "yutəhhirəkum" sözü "paklamaq" yox, "pak saxlamaq" mənasını bildirir.

2. Əgər Əhli-beyt (ə) yalnız beş nəfərdən ibarətdirsə, nə üçün Peyğəmbərin (s) zövcələrindən danışıldığı vaxt bu məsələyə toxunulur?

**Cavab:** Əvvəla, "Həqiqətən, Allah..." cümləsi ayrıca nazil olmuş, yalnız Quran bir yerə toplanarkən hazırkı sırada yerləşdirilmişdir. İkincisi, "Məcməul-bəyan" təfsirində qeyd olunur ki, adi söhbət əsnasında təsiri gücləndirmək üçün yeni və mühüm sözlər demək ərəb ədəbiyyatında ənənə şəkilini almışdı. Məsələn, televiziyada hər hansı verlişi aparan diktor bir an dayanıb mühüm bir xəbər də çatdıracağını bildirərsə, tamaşaçı sözün davamını həyəcanla izləyir. "Maidə" surəsinin 3-cü ayəsi də bu ayənin oxşarıdır. Həmin ayədə vilayət, imamət, dinin kamilləşməsi kimi mövzular donuz əti və qan mövzuları ilə bir arada zikr olunur. Ayələrin bu sayaq sıralanması Quranın biganələrdən hifz olunma rəmzidir. Bir vaxt qadınlar evdən çıxarkən zinət əşyalarını biganələrdən qorumaq üçün onları pambıq arasında yerləşdirərdilər. Hansı ki, qızılla panbıq arasında heç bir rabitə yoxdur. Üçüncüsü, peyğəmbər zövcələrinə müraciət

---

[1] "Təfsire-Nurus-səqəleyn". "Təfsiri-nümunə".

[2] "Təhrim", 4.

olunarkən bildirilir ki, Əhli-beytin paklığı ilə bağlı Allahın xüsusi istəyi var. Yəni, ey Peyğəmbər zövcələri, siz məsum insanların evindəsiniz və hökmən təqvalı olmalısınız. Nəhayət, Əhli-beyt (ə) haqqında danışılarkən kişi cinsinə aid cəm əvəzlik işlədilir. Bu isə nəzərdə tutulan toplumda kişilərin daha çox olduğunu göstərir. Hansı ki, başqa ayələrdə konkret Peyğəmbər zövcələri haqqında danışılarkən qadın cinsinə aid cəm işarə əvəzliyi işlədilmişdir.

Ayədə peyğəmbər zövcələrinə xitab olunsa da bütün müsəlman qadınlar nəzərdə tutulur və onlar hamılıqla uyğun göstərişlərə əməl etməlidirlər.

**Bildirişlər**

1. Qadın ya evdə olmalı, ya da bayıra çıxdıqda özünü göstərməməlidir.
2. Cahiliyyət dövrünə qayıdış qadağandır.
3. Özünü nümayiş mədəniyyət yox, cahiliyyət nişanəsidir.
4. Namaz və zəkat bir-birindən ayrılmaz vəzifələrdir və bir-biri üçün şərtdir.
5. Allaha itaətlə yanaşı Onun rəsuluna itaət etmək vacibdir.
6. Günah ruhun çirkinliyidir. Peyğəmbər ailəsi bu sayaq çirkinlikdən uzaq olmalıdır.

***AYƏ 34:***

﴿وَاذْكُرْنَ مَا يُتْلَى فِي بُيُوتِكُنَّ مِنْ آيَاتِ اللَّهِ وَالْحِكْمَةِ إِنَّ اللَّهَ كَانَ لَطِيفًا خَبِيرًا﴾

**“Evlərinizdə oxunan Allah ayələri və hikməti yada salın. Həqiqətən, Allah lütf sahibidir və xəbərdardır.”**

**Nöqtələr**

“Zikr” sözü iki cür mənalandırıla bilər: Yada salmaq və dilə gətirmək. “Vəzkurnə” dedikdə iki məna anlaşıla bilər: “Ey peyğəmbər zövcələri, unutmayın ki, vəhy sizin evinizdə nazil olub; “Evinizdə oxunan ilahi ayələri öyrənin və başqalarına bəyan edin.”

**Bildirişlər**

1. Evdə Quran tilavət və ev əhlinin oxunanları təkrarlaması Quran göstərişidir.
2. Batil mədəniyyətləri kənara qoyub ilahi dəyərlər sorağınca gedin.
3. Qadının evdə qalması və özünü nümayiş etdirməməsi onun elm və hikmətdən geri qalması deyil.
4. Xeyir əməllərə münasibətdə peyğəmbər ailəsi daha çox məsuldur.
5. Qadının evdə qalması və özünü göstərməməsi, namaz, zəkat, ayələrin zikri göstərişini yerinə yetirməsi Allahın qadınlara lütfündən və onlardan xəbərdar olmasından qaynaqlanır.

*AYƏ 35:*

﴿إِنَّ الْمُسْلِمِينَ وَالْمُسْلِمَاتِ وَالْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَالْقَانِتِينَ وَالْقَانِتَاتِ
وَالصَّادِقِينَ وَالصَّادِقَاتِ وَالصَّابِرِينَ وَالصَّابِرَاتِ وَالْخَاشِعِينَ وَالْخَاشِعَاتِ
وَالْمُتَصَدِّقِينَ وَالْمُتَصَدِّقَاتِ وَالصَّائِمِينَ وَالصَّائِمَاتِ وَالْحَافِظِينَ فُرُوجَهُمْ
وَالْحَافِظَاتِ وَالذَّاكِرِينَ اللَّهَ كَثِيرًا وَالذَّاكِرَاتِ أَعَدَّ اللَّهُ لَهُم مَّغْفِرَةً وَأَجْرًا عَظِيمًا﴾

**“Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, imanlı kişilər və imanlı qadınlar, müti kişilər və müti qadınlar, doğruçu kişilər və doğruçu qadınlar dözümlü kişilər və dözümlü qadınlar, təvazökar kişilər və təvazökar qadınlar, infaq edən kişilər və infaq edən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, pak kişilər və pak qadınlar, Allahı çox zikr edən kişilər və Allahı çox zikr edən qadınlar üçün Allah bağışlanma, dəyərli və böyük mükafat hazırlamışdır.”**

**Nöqtələr**

Peyğəmbər zövcələrinə göstərişlərin ardınca hazırkı ayədə bütün qadınlar və kişilər üçün etiqad, əxlaq və əməllə bağlı on kamillik sadalanmışdır.

Bu ayənin dəyərini, onun bəşəriyyətə gətirdiyi səadəti anlamaq üçün ayədən öncə ərəb və əcəmin qadına münasibəti ilə tanış olmaq, qadının İslamdan öncəki üzücü vəziyyətini mütaliə etmək lazımdır.

Qadın və kişi fiziki baxımdan bir-birindən fərqlənir. Onların ruhu bir-birindən fərqlənmir. Eyni bir kamilliyə həm kişi, həm də qadın çata bilər. Bütün bunları nəzərə alaraq uyğun ayədə qadınla kişi arasında fərq qoymadan kamilliklər sadalanır.

**Bildirişlər**

1. İnsan bir kamala yox, bütün kamilliklərə yiyələndikdə kamil sayılır.

2. Etiqad, əxlaq, əməl sahələrinin hər biri üçün kamillik nəzərdə tutması İslamın kompleksliyini göstərir.

3. Yaxşılığı öyməklə başqalarını bu istiqamətə həvəsləndirək.

4. İnsan pillə-pillə, addım-addım inkişaf edir. (Öncə dillə İslamın qəbulu, sonra qəlb imanı, daha sonra itaət, sədaqət, səbr...)

5. Kamil insan İslamı dildə qəbul edib qəlbən iman gətirdikdən sonra qarnını, şəhvətini, dilni qorumalıdır. Belə bir nəzarət üçün yollar göstərilir: Oruc tutmaqla qarına nəzarət, sədaqətli olmaqla dilə nəzarət, haramdan uzaqlıqla şəhvətə nəzarət, təvazökar olmaqla təkəbbürə nəzarət, Allah zikri vasitəsi ilə qəfləti aradan qaldırmaq, səbir və dözümlə acılıqlara müqavimət, infaq etməklə məhrumlara diqqətli olmaq.

6. İslamda həm kəmiyyətə, həm də keyfiyyətə diqqət yetirilir. (Daha çox zikr etmək, təvazökarlıqla yanaşı itaət əmr olunur.)

7. Qadının mülkiyyət hüququ var, o öz malından bağışlaya bilər.

8. Öz nailiyyətlərimizi Allahdan bilək. (Bütün kamilliklərin sonunda Allah zikri qeyd olunur.)

9. Qadın və kişi mənəvi kamilləşmədə və mükafatlandırma zamanı bərabərdir.

10. İlahi bəxşişin açarı yaxşı əməldir.

11. Öncə bağışlanma, sonra ilahi mükafat!

***AYƏ 36:***

﴿وَمَا كَانَ لِمُؤْمِنٍ وَلَا مُؤْمِنَةٍ إِذَا قَضَى اللَّهُ وَرَسُولُهُ أَمْرًا أَن يَكُونَ لَهُمُ الْخِيَرَةُ مِنْ
أَمْرِهِمْ وَمَن يَعْصِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ ضَلَّ ضَلَالًا مُّبِينًا﴾

**“Heç bir imanlı kişi və qadının haqqı yoxdur ki, Allah və onun rəsulu bir iş əmr etdiyi vaxt başqa bir yol seçsin. Allah və Onun rəsuluna itaətsizlik edən kəs heç şübhəsiz, aşkar azğınlığa düçar olmuşdur.”**

**Nöqtələr**

Əgər müsəlmanlar Allahın bu əmrinə təslim olsaydılar, Qədir-Xumda girami Peyğəmbər (s) Allah əmri əsasında Əlini (ə) canişin edən vaxt bir başqasına üstünlük verməzdilər.

Bu ayə növbəti ayə üçün zəminə hazırlayır. Həmin ayədə buyurulur ki, sən yanlış sünnələri aradan qaldırmalısan və xalq Allahın istəyinə qarşı çıxa bilməz.

Allah və onun rəsulunun göstərişinə qarşı çıxmağa qadağa qoyan ayə kimsəni təəccübləndirməməlidir. Həkim xəstəsinə elan edir ki, sən pəhriz saxlamalı və yalnız təyin olunmuş dərmanlardan istifadə etməlisən. Allah da şəxsi baxışlar əsasında, Allah göstərişlərinə zidd qərarlar çıxarmağı insana qadağan edir. Çünki, bəşəriyyətin xoşbəxtlik yolunu hamıdan yaxşı bilən Allahdır.

Rəvayətdə oxuyuruq ki, girami Peyğəmbər (s) buyurmuşdur: “Ey Allahın bəndələri! Siz xəstə kimisiniz, Allah isə təbib kimi. Xəstənin xeyiri istəklərinə yox, təbibin göstərişlərinə əməl etməkdir. Nicat tapmaq üçün Allahın əmrinə təslim olun.”[1]

Dini nizamda demokratiya və humanizmə Allahpərəstlik hakimdir. Yalnız Allah hökmünə zidd olmayan baxışlar məqbuldur.

**Bildirişlər**

1. Yaş, savad, milliyyət, qüdrət, sərvət, şöhrət, qəbilə, himayə, beynəlmiləl təşkilatların rəyi ilahi qanunlara qarşı çıxmaq üçün əsas ola bilməz.
2. Allah və Onun rəsulu qarşısında itaət iman nişanəsidir.
3. Təslimçilik və bəndəlikdə qadın və kişi arasında fərq yoxdur.
4. Allah və peyğəmbər göstərişinə qarşı çıxıb yeni bir söz deyən insan öz imanına şəkk etsin.
5. Girami Peyğəmbərin (s) göstərişləri də Allahın göstərişləri kimi hökmən yerinə yetirilməlidir.
6. Allah və Onun rəsulu xalq üzərində tam hakimiyyətə malikdir.
7. Aşkar hökm qarşısında fərqli söz demək qadağandır.
8. İnsan ilahi qanunlar çərçivəsində azaddır.
9. Ağıl vəhyə, şəxsi səliqə vəzifəyə tabedir.
10. Allah qanunlarına zidd istənilən bir seçim və nəzəriyyə günah və aşkar azğınlıqdır.

***AYƏ 37:***

﴿وَإِذْ تَقُولُ لِلَّذِي أَنْعَمَ اللَّهُ عَلَيْهِ وَأَنْعَمْتَ عَلَيْهِ أَمْسِكْ عَلَيْكَ زَوْجَكَ وَاتَّقِ اللَّهَ
وَتُخْفِي فِي نَفْسِكَ مَا اللَّهُ مُبْدِيهِ وَتَخْشَى النَّاسَ وَاللَّهُ أَحَقُّ أَن تَخْشَاهُ فَلَمَّا قَضَى
زَيْدٌ مِّنْهَا وَطَرًا زَوَّجْنَاكَهَا لِكَيْ لَا يَكُونَ عَلَى الْمُؤْمِنِينَ حَرَجٌ فِي أَزْوَاجِ أَدْعِيَائِهِمْ
إِذَا قَضَوْا مِنْهُنَّ وَطَرًا وَكَانَ أَمْرُ اللَّهِ مَفْعُولًا﴾

**“(Xatırla) bir zaman Allahın nemət (İslam və iman) bəxş etdiyi və sənin nemət (azadlıq) verdiyin kəsə (Zeyd ibn Harisəyə) deyirdin: “Zövcəni saxla (onu boşama), Allahdan qorx.” Qəlbində gizli saxladığını Allah aşkarladı. Sən xalqdan qorxurdun. Amma daha yaxşı olar ki, Allahdan qorxasan. Zeydin öz zövcəsi ilə həyatı başa çatdıqdan sonra onu (Zeynəbi) sənə zövcə etdik ki, möminlər öz oğulluqlarının boşadıqları qadınlarla evlənməkdə çətinlik çəkməsinlər. Allahın hökmü yerinə yetəsidir.”**

**Nöqtələr**

“Ədiya” dedikdə oğulluqlar mənası başa düşülür. “Vətər” sözü ehtiyac mənasını bildirir.

---

[1] “Mizanul-hikmə”, c. 4, s. 545.

Əksər təfsirçi və tarixçilərin nəzərincə ayə Zeyid ibn Harisə haqqındadır. Zeyd bir qul idi və Xədicə tərəfindən Peyğəmbərə (s) bağışlanmışdı. Həzrət Peyğəmbər (s) Zeydi azad etdi. Zeydin qəbiləsi onu yanından qovdu. Peyğəmbər (s) Zeydi oğulluğa götürdü. Zeyd İslamı qəbul edib layiqli müsəlmanlardan oldu. Döyüşlərdən birində komandanlıq məsuliyyəti tapşırılmış Zeyd şəhadətə çatdı. Həzrət Peyğəmbər (s) Zeydi oğulluğa götürdükdən sonra öz əmisi qızı Zeynəbi, Əbdül-Mütəllibin nəvələrindən olan bu layiqli qadını Zeydə ərə verdi. Həmin vaxtadək azad qadın qula ərə verilmədiyindən Peyğəmbərin (s) Zeyd üçün elçiliyi Zeynəbi narahat etmişdi. Ailə həyatı qurduqdan sonra Zeydlə Zeynəb arasında narazılıqlar yarandı. Zeyd qərara gəldi ki, Zeynəbi boşasın. Həzrət Peyğəmbər (s) dəfələrlə onu bu fikirdən daşındırdı. Nəhayət, Zeyd Zeynəbin talağını verdi. Zeynəb iki zərbə aldı: Qula ərə verilməsi ilə bağlı mənəvi zərbə və boşanması ilə bağlı ictimai zərbə. Bəli, haqqında danışılan dövrdə qul arvadı olmaq və boşanmaq bəyənilmirdi.

Girami Peyğəmbər (s) Allahın əmri əsasında iki cəhalət ənənəsini aradan qaldırdı: Oğulluğa götürdüyü şəxsin boşadığı arvadı almaqla cahiliyyət dövrünün uyğun ənənəsinə son qoydu; qulun boşadığı arvadı almaqla həmin zümrədən olan qadınlara münasibəti dəyişdi.

Girami Peyğəmbər (s) Zeynəblə izdivac etdiyi vaxt o biri izdivaclar zamanı açmadığı süfrəni açdı. Çünki bu izdivac Allah əmrinə əsaslanırdı və cəhalət ənənələrini aradan qaldırırdı. Zeynəb fəxr edirdi ki, onun Peyğəmbərlə (s) izdivacı Allahın əmri əsasında baş tutmuşdur.

**Sual:** Ayədə buyurulur ki, sənin qəlbində gizli saxladığını Allah aşkarladı. Söhbət nədən gedir?

**Cavab:** İmam Riza (ə) Məmunun uyğun mövzu ilə bağlı sualını belə cavablandırdı. Allah öncədən Peyğəmbərə (s) onun zövcələrinin adını bildirmişdi. Bu adlar arasında Zeynəb adı da vardı. Peyğəmbər (s) anlamırdı ki, Zeydin zövcəsi onunla necə izdivac edə bilər? Bəli, bu nöqtə Peyğəmbərin (s) qəlbində gizli qalmışdı. Allah Zeynəblə izdivacı əmr etməklə həmin nöqtəni aşkarladı.[1] Bəli, girami Peyğəmbər (s) peyğəmbərlik məqamına layiq olmayan heç bir iş görməmişdir. Həzrət evləndiyi qadınlardan heç biri ilə öncədən maraqlanmamışdır. Onun Zeynəbə meylli olması tamamilə əsassız cəfəngiyatdır!

Əmrlər iki qismdir: Hökmən əməl olunası əmrlər və həyata keçməsi insanın xeyirinə olan dəvətlər. Peyğəmbər (s) Zeydə xeyir istədiyindən ona Zeynəbi boşamamasını məsləhət gördü. Yoxsa nemət verilmiş bir kəs (yəni Zeyd) peyğəmbərin göstərişindən çıxmazdı.

Girami Peyğəmbər (s) Zeynəblə izdivaca rəğbət göstərmirdi. Onun Zeydə Zeynəbi boşamamaqla bağlı tövsiyəsi bu həqiqəti təsdiqləyir.

---

[1] "Təfsire-Əl-mizan". "Təfsire-Nurus-səqəleyn". "Uyunul-Əxbar", c. 1, s. 281.

Ötən iki ayədə buyuruldu ki, həqiqi təbliğatçılar Allahdan savay kimsədən qorxmaz. Haqqında danışılan hadisə zamanı peyğəmbər dinin genişlənməsi üçün zəruri olan ictimai mövqelərinə zərbə dəyəcəyindən qorxurdu. Xalq deyə bilərdi ki, peyğəmbər bir qulun və ya oğulluğunun boşadığı qadınla evlənib.

**Bildirişlər**

1. Xalq rastlaşdığı problemlərin həlli üçün peyğəmbərə üz tuturdu. (Zeyd ibn Harisə zövcəsini boşamaq istədiyini dəfələrlə Peyğəmbərə (s) elan etmişdi. Amma Peyğəmbər (s) daim onu səbirə çağırırdı.)
2. Əlimizdəki nemətlər Allah və Onun rəsulu tərəfindəndir.
3. Nemətləri sadalayarkən öncə mənəvi və ilahi nemətləri, sonra maddi və dünyəvi nemətləri yada salın. Zeydə verilən nemətlər sırasında da öncə iman, sonra azadlıq gəlir.
4. İslam və azadlıq iki böyük nemətdir.
5. Bir şəxsin adını yox, hansısa səciyyəsini dilə gətirmək istədikdə ən yaxşı səciyyəsini zikr edin.
6. Əgər bir şəxs öz ailəsindən şikayətlənərsə ona dərhal boşanmaq təklifi verməyin. (İslam ailə bünövrəsinin qorunması tərəfdarıdır.)
7. Yaxşılığa dəvət edərkən insandakı mərhəmət hislərindən, təqvadan istifadə edin.
8. Təqva ailə bağlılığını möhkəmləndirən səbəbdir.
9. Nemət verən tərəfin əmr və qadağa haqqı var.
10. Hətta geniş ictimai dəstək qazanmış puç və azğın düşüncələrlə qəti mübarizə aparaq.
11. Yanlış ictimai adətləri xalqın hay-huyundan qorxmadan aradan götürün.
12. Allah əmrlərinin icrasında beynəlmiləl təşkilatların xeyir-duasını gözləməyin.
13. Boşanma qadının azğın sayılması üçün dəlil deyil.
14. Ailə həyatı insanın mühüm ehtiyaclarındandır.
15. Ailə məsələləri haqqında üstü örtülü danışın.
16. Dini rəhbərlər puç adət-ənənələrin aradan qaldırılmasında öncül olmalıdır. (başqaları üçün haqq yolu asanlaşdırmaq bir dəyərdir.)
17. Dul qadınlar möhtərəmdir və onlarla evlənmək əskiklik sayılmamalıdır. Allah buyurur ki, bu izdivacı biz qərar verdik.
18. Qeyri-ilahi adət-ənənələrə bağlılıq həyatı iflic edir.
19. Oğulluq arvadını boşadıqdan sonra həmin qadınla evlənmək olar.

***AYƏ 38:***

﴿مَّا كَانَ عَلَى النَّبِيِّ مِنْ حَرَجٍ فِيمَا فَرَضَ اللَّهُ لَهُ سُنَّةَ اللَّهِ فِي الَّذِينَ خَلَوْا مِن قَبْلُ وَكَانَ أَمْرُ اللَّهِ قَدَرًا مَّقْدُورًا﴾

**“Allahın təyin etdiklərində peyğəmbər üçün heç bir çətinlik və qorxu yoxdur. Allah əvvəlki peyğəmbərlər üçün də belə bir sünnə**

**müəyyənləşdirmişdi. (Onlara da əmr olunmuşdu ki, cahiliyyət ənənələrini aradan qaldırsınlar) Allahın əmrləri ölçülüb-biçilmişdir.”**

**Nöqtələr**

Bu ayə əvvəlki ayənin qətnaməsi kimidir. Dini rəhbər maneələri adlamalı, məzəmmətlərdən qorxmamalı, onun-bunun razılığını güdməməlidir.

İmam Riza (ə) buyurur: “Allah bilirdi ki, münafiqlər peyğəmbərin Zeydin boşanmış zövcəsi ilə izdivacını ona irad tutacaqlar. Bu səbəbdən həmin ayə nazil oldu.”[1]

**Bildirişlər**

1. Peyğəmbər ilahi əmrləri yerinə yetirərkən yersiz irad və böhtanlara etina göstərməməlidir.
2. Peyğəmbərin xüsusi vəzifə və tapşırıqları da ola bilər.
3. Bütün peyğəmbərlər azğın təfəkkürlə mübarizə aparmışlar.
4. Yanlış ənənələri aradan qaldırmaq Allahın sünnəsidir.
5. İlahi göstərişlər hesab-kitablıdır və bu göstərişlərə əməl etmək lazımdır.

***AYƏ 39:***

﴿الَّذِينَ يُبَلِّغُونَ رِسَالَاتِ اللَّهِ وَيَخْشَوْنَهُ وَلَا يَخْشَوْنَ أَحَدًا إِلَّا اللَّهَ وَكَفَى بِاللَّهِ حَسِيبًا﴾

**“İlahi göstərişləri bəyan edib Allahdan qorxanların ondan savay kimsədən qorxusu yoxdur. Hesab üçün Allah yetər.”**

**Nöqtələr**

Ayədə təbliğatçının qətiyyət və şücaətindən danışıldı. Amma bilməliyik ki, müəyyən məqamlarda qarşı tərəfi cəzb etmək üçün müdara, yumşaqlıq və sükuta ehtiyac var.

“Xəşyət” qorxudan fərqlənir. “Xəşyət” dedikdə bir işin əzəmətindən qəlbin həyəcanlanması nəzərdə tutulur. Qorxu isə xoşa gəlməyən bir işlə üzləşmək ehtimalından yaranır və insanın kənara çəkilməsi ilə sonuclanır. Peyğəmbərləri Allahdan savay kimsənin böyüklüyü həyəcanlandırmamışdır. Çünki onlar yalnız Allahı böyük sayırdılar.

**Bildirişlər**

1. Təbliğdə müvəffəq olmaq üçün müəyyən şərtlər var: Davamlılıq, əməldə təqva, şücaət və qətiyyət, Allaha təvəkkül.
2. Təbliğ təkcə danışıqla həyata keçmir. Bəzən Allahın hökmünü əməli şəkildə aydınlaşdırmaq lazım gəlir. (Ötən iki ayədə əmr olundu ki, Zeydin boşanmış zövcəsini almaqla mövcud xürafatı aradan qaldır.)
3. Din təbliğatçılarının daim hədə-qorxu gələn və qaba düşmənləri olmuşdu.
4. Allah qorxusu şücaət və fədakarlıq üçün müqəddimədir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “Uyunul-Əxbar”, c. 1, s. 203.

5. Din təbliğatçıları bilsinlər ki, onların bu yoldakı səbir və dözümü Allah tərəfindən qiymətləndiriləcək.

### *AYƏ 40:*

﴿مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيمًا﴾

**“Məhəmməd sizlərdən kimsənin atası deyil. O Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur. Allah hər şeydən agahdır.”**

**Nöqtələr**

Bu ayədə həm “rəsul”, həm də “nəbiyy” sözləri işlədilmişdir. “Rəsul” dedikdə kitab sahibi, “nəbiyy” dedikdə xəbər gətirən mənaları anlaşılır. Başqa sözlə, vəhy gətirən rəsul, risaləti yerinə yetirən isə nəbidir.[1]

“Xatəm” dedikdə üzərinə şəxsin adı həkk olunmuş və möhür kimi istifadə olunan üzük nəzərdə tutulur. Uyğun söz ayədə peyğəmbərin sonuncu olmasına işarədir.

Həzrət Məhəmmədin (s) sonuncu peyğəmbər olduğunu bir çox ayələr, mütəvatir hədisləri təsdiqləyir.[2] Hazırkı ayə uyğun həqiqətin ən aydın dəlilidir.

Bu ayə yeganə ayədir ki, həm Peyğəmbərin (s) adı çəkilir, həm də onun “rəsul” və “nəbiyy” olması göstərilir.

### *BİR NEÇƏ SUAL*

1. Nə üçün İslam Peyğəmbərindən (s) sonra bəşəriyyətin yeni bir peyğəmbərə ehtiyacı yoxdur?

**Cavab:** Peyğəmbərlərin gəlişini zəruri edən iki səbəb vardı: Öncəki din və səmavi kitabın təhrif olunması və bəşəriyyətin təkamül yolu keçib yeni qanunlara ehtiyac duyması. Amma İslam Peyğəmbərindən (s) sonra nə onun gətirdiyi kitab təhrif olunmuşdur, nə də Qiyamət gününədək başqa qanunlara ehtiyac duyulur. Bircə kəlmə sözü dəyişməmiş Quran Allahın elmi əsasında bəşəriyyətin bütün ehtiyaclarına cavab verir.

2. İnsanların dəyişən ehtiyacları peyğəmbərliyə nöqtə qoyulması ilə bir araya sığırmı?

**Cavab:** İnsan öz təhsilində ictihad və ya doktorluq dərəcəsinə çatanadək müəllimə ehtiyac duyur. Sonra elə bir mərhələ başlayır ki, o öz ehtiyaclarını öncə əldə etdiyi biliklər hesabına təmin etməli olur. İctihad qapısı açıqdır. İnsan mövcud ümumbəşəri ilahi qanunlardan ehtiyacına uyğun çıxarışlar edə bilər.

[1] “Məcəmul-füruqul-lüğəviyyə”.

[2] “Furqan”, 1; “Ənam”, 19; “Səba”, 28; “Kafi”, c. 1, s. 58.

Əlbəttə ki, bu iş fəqihlərin çıxarış üçün nəzərdə tutduğu prinsiplər əsasında həyata keçməlidir.

3. Nə üçün bəşəriyyətin qeyb aləmi ilə rabitəsi qırıldı?

**Cavab:** Vəhy nazil olmasa da, qeyblə rabitə yerindədir. Məsum imam var, ilahi mələklər ona nazil olur.[1] Ləyaqətli insanlar hazırda da qeybi yardımlardan faydalanır. Hətta adi fərdlər təqvalı olarsa ilahi nur əldə edər və Allah bir yolla doğru yolu onlara göstərər.[2]

**Bildirişlər**

1. Oğulluq oğul, atalıq ata sayıla bilməz. Atalıq oğulluğun boşadığı qadınla heç bir maneəsiz evlənə bilər.

2. Peyğəmbər zövcələrinin xalq üçün ana olması hökmü peyğəmbərin xalqa ata olması hökmünə dəlil deyil.

3. İslam Peyğəmbərinin (s) son peyğəmbər olması ilahi elm və hikmətə əsaslanır.

***AYƏ 41:***

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللَّهَ ذِكْرًا كَثِيرًا﴾

**“Ey iman gətirənlər! Allaha çox zikr edin.”**

***AYƏ 42:***

﴿وَسَبِّحُوهُ بُكْرَةً وَأَصِيلًا﴾

**“Ona səhər-axşam təsbih deyin (paklığına görə öyün).”**

**Nöqtələr**

Allah zikri təkcə dilə aid deyil. İnsan düşüncəsində, işində və hərəkətində Allahın razılığını nəzərdə tutmalıdır. Quran Allah zikrinin bir çox təsirlərə və bərəkətlərə malik olduğunu bildirir. Namazı zəruri edən dəlillərdən biri Allah zikridir.[3] Allah zikri qəlblərin yeganə aramlıq vasitəsidir.[4] Aram ruh və arxayın nəfs pərvaz edib haqqa yüksəlir.[5] Allah zikrindən uzaqlıq insanı bədbəxtliyə düçar edir.[6]

Bildirilir ki, həzrət Zəhranın (ə) təsbihatı (34 “Əllahu əkbər”, 33 “əlhəmdulillah”, 33 “sübhanəllah”) çox zikrin bir nümunəsidir.[7]

---

[1] “Üsuli-kafi”, imamət bəhsi.
[2] “Hədid”, 28.
[3] “Taha”, 14.
[4] “Rəd”, 28.
[5] “Fəcr”, 27, 28.
[6] “Taha”, 124.
[7] “Kafi”, c. 2, s. 500.

Girami Peyğəmbər (s) buyurur: "Zikr edən dil olan insana dünya və axirət xeyiri əta olunmuşdur." İmam Sadiq (ə) buyurur: "Allah zikrindən savay hər şeyin həddi var."

Hədisdə oxuyuruq: "Qəlb və ruh dəmir kimi pas atır. Allah zikri qəlbin işıqlıq və zila vasitəsidir.

Rəvayətdə deyilir: Allah zikri təkcə dilə aid deyil. Həqiqi zikr odur ki, halal –haramla üzləşdikdə Allahı yada salıb günahdan çəkinəsən.[1]

**Bildirişlər**

1. Gözəl və məhrəmanə müraciət cəzb etmə vasitəsi və qəbul olma zəminəsidir.
2. Allah zikri ardıcıl və çox olduqda səmərə verir.
3. Ən üstün zikr Allaha təsbih, onu pak bilməkdir.
4. Günümüzü Allaha təsbih və zikrlə başlayıb eyni qaydada başa vuraq.

***AYƏ 43:***

﴿هُوَ الَّذِي يُصَلِّي عَلَيْكُمْ وَمَلَائِكَتُهُ لِيُخْرِجَكُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَكَانَ بِالْمُؤْمِنِينَ رَحِيمًا﴾

**"O sizə salam göndərən kəsdir. Onun mələkləri (sizi qaranlıqlardan nura çıxarmaq üçün (salamlayır). O möminlərə mehribandır."**

**Nöqtələr**

Ötən ayədə buyuruldu ki, Allahı çox zikr edin. Bu ayədə isə Allahın möminlərə salam göndərməsi bildirilir. Sanki Allahın salamı elə sizin çox zikrinizdir.[2]

**Bildirişlər**

1. Dinə dəvət yolu salam və mehribanlıqdan keçir.
2. Mələklər möminlərə həm salam göndərir, həm də onlar üçün bağışlanma diləyir.[3]
3. İnsan zülmətlərdən qurtuluş üçün ilahi yardımlara möhtacdır. Bu işdə ağıl və bilik bəs etmir.
4. Cəhalət, şirk, təfriqə, qəflət, xurafat qaranlığı kimi qaranlıqlar çoxdur.
5. Allaha iman və ilahi həqiqətlər insan üçün çıraqdır.
6. Yalnız iman vasitəsi ilə xüsusi ilahi mərhəmət əldə etmək olar.

---

[1] "Mizanul-hikmə". "Səfinətül-bihar".
[2] "Bəqərə", 152.
[3] "Ğafir", 7.

*AYƏ 44:*

﴿تَحِيَّتُهُمْ يَوْمَ يَلْقَوْنَهُ سَلَامٌ وَأَعَدَّ لَهُمْ أَجْرًا كَرِيمًا﴾

**“Allahla görüş günü onların sözü salamdır. Allah onlar üçün gözəl mükafat hazırlamışdır.”**

**Nöqtələr**

“Təhiyyət” sözü həyat sözündəndir, başqalarının salamatlığı üçün dua mənasını bildirir.

Görüş günü dedikdə qəflət pərdələrinin çəkildiyi, insanın batini şəhadət və bəsirət məqamına çatdığı Qiyamət günü nəzərdə tutulub.[1]

Salam həm Allah tərəfindəndir.[2] Salam həm salamatlıq nişanəsidir.[3] Həm də behişt əhlinin bir-biri ilə rəsmi danışığıdır.[4]

**Bildirişlər**

1. Salam behiştə aid və behişt əhlinin görüşüdür.
2. İlahi mükafatlar həm böyükdür, həm də böyüklüklə əta olunur.[5]

*AYƏ 45:*

﴿يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَرْسَلْنَاكَ شَاهِدًا وَمُبَشِّرًا وَنَذِيرًا﴾

**“Ey peyğəmbər! Həqiqətən, biz səni şahid, müjdəçi və qorxudan kimi göndərdik.”**

*AYƏ 46:*

﴿وَدَاعِيًا إِلَى اللَّهِ بِإِذْنِهِ وَسِرَاجًا مُّنِيرًا﴾

**“(Eləcə də) Allahın əmri ilə Ona doğru dəvət edən şəxs və şölələnən çırağ (qərar verdik).”**

**Nöqtələr**

Bu iki ayədə girami Peyğəmbərin (s) cəmiyyətdəki rolu açıqlanır. Peyğəmbər insanları Allaha doğru çağırır. Bu dəvətdə onun üsulu müjdə və xəbərdarlıqdır. Amma peyğəmbər dillə deməklə yanaşı, əməli olaraq xalq üçün dəlil və nümunədir.

**Bildirişlər**

1. Fərdlərin rolunu və məsuliyyətini onlara və cəmiyyətə elan etmək lazımdır.

---

[1] “Təfsiri-nümunə”.
[2] “Rəd”, 24.
[3] “Hicr”, 46.
[4] “Vaqiə”, 26.
[5] “Nisa", 40.

2. Düşmənin acı sözləri və əzab-əziyyəti qarşısında möhkəm dayanmaq lazımdır.

3. Peyğəmbər insanların əməllərinə şahiddir.

4. Yalnız xalqın əməl və rəftarlarından xəbərdar olan kəs şəhadət verə bilər.

5. Təbliğ və tərbiyədə həm müjdə vermək həm də qorxutmaq lazımdır.

6. Müjdə və xəbərdarlıq peyğəmbərlərin dəvət vasitəsidir.

7. Peyğəmbərlər insanları özlərinə yox, Allaha itaətə çağırırlar.

8. Peyğəmbərlər müstəqil deyil, onlar Allahın izni ilə hərəkət edir.

9. Peyğəmbər cəmiyyət üçün hidayət çırağıdır. İnsanlar bu çırağın nurunda yüksəlir, hərəkət edir, yaxşını pisdən seçir.

*AYƏ 47:*

﴿وَبَشِّرِ الْمُؤْمِنِينَ بِأَنَّ لَهُم مِّنَ اللَّهِ فَضْلًا كَبِيرًا﴾

**"Möminlərə müjdə ver ki, onlar üçün Allah tərəfindən böyük bəxşiş var."**

*AYƏ 48:*

﴿وَلَا تُطِعِ الْكَافِرِينَ وَالْمُنَافِقِينَ وَدَعْ أَذَاهُمْ وَتَوَكَّلْ عَلَى اللَّهِ وَكَفَى بِاللَّهِ وَكِيلًا﴾

**"Kafirlər və münafiqlərə itaət etmə, onların əzab-əziyyətlərinə məhəl qoyma. Allaha təvəkkül et, vəkillik üçün Allah yetər."**

**Nöqtələr**

Düşmənlərin əzab-əziyyətinə etinasızlıq onların müqabilində səhlənkarlıq deyil. Bu etinasızlıq Allaha təvəkkül və Onun mərhəmətinə ümiddən qaynaqlanır.

Peyğəmbərə möminlərə müjdə vermək əmr olunub: Allahın xüsusi lütf və fəzli onlara şamil olasıdır və bu, Allahın ən böyük lütfüdür.

Hazırkı ayə ötən ayəni aydınlaşdıran bir nümunədir.

**Bildirişlər**

1. İman xüsusi ilahi lütf əldə etmək üçün şərtdir.

2. Rəhbər möminləri müjdələməlidir.

3. Allah möminlərlə öz fəzli əsasında rəftar edir. Şübhəsiz, Allahın fəzl və lütfünün dərəcə və mərtəbələri var.

4. Qəlbi ilahi qüdrət hərarəti ilə qızınan insan azğınlardan ayrıla bilər.

5. Kafirlərin və münafiqlərin pozucu işlərinə etinasızlıq, onların istəkləri qarşısında müqavimət üçün təvəkkülə ehtiyac var.

6. Kafirlər və münafiqlər eyni bir xətddədir. Hər iki qrup möminləri incitmək məqsədi güdür.

7. Müəyyən şəraitlərdə rəhbər yalnız doğru yola çağırmalı, müxaliflərdən intiqam almaq fikirinə düşməməlidir.

8. Allaha təvəkkül edək. Çünki o layiqli və yetərli bir vəkildir.

*AYƏ 49:*

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذَا نَكَحْتُمُ الْمُؤْمِنَاتِ ثُمَّ طَلَّقْتُمُوهُنَّ مِن قَبْلِ أَن تَمَسُّوهُنَّ فَمَا لَكُمْ عَلَيْهِنَّ مِنْ عِدَّةٍ تَعْتَدُّونَهَا فَمَتِّعُوهُنَّ وَسَرِّحُوهُنَّ سَرَاحًا جَمِيلًا﴾

**“Ey iman gətirənlər! Əgər imanlı qadınlarla evlənsəniz və yaxınlıq etməzdən öncə onları boşasanız, Onlara görə “iddə” (gözləmə müddəti) saxlayıb hesab aparmağınıza ehtiyac yoxdur. Onları (mehriyyə və münasib hədiyyə ilə) bəhrələndirib ləyaqətli tərzdə azad edin.”**

**Nöqtələr**

“Nikah” dedikdə evlənmə əqdi, “təmas” dedikdə cinsi yaxınlıq mənası nəzərdə tutulur. “Sərahən cəmila” ifadəsi kobudluq və əziyyətlə müşayiət olunmayan talaq mənasını ifadə edir.

“İddə” dedikdə qadının boşandıqdan sonra növbəti dəfə ərə getmək üçün gözləməli olduğu müddət nəzərdə tutulur. Boşanma iddəsi (gözləmə müddəti) üç dəfə aybaşı olub təmizlənməkdir. Əgər qadının əri ölərsə o dörd ay 10 gün iddə saxlamalıdır.

Bir neçə qrup qadın iddə saxlamaya bilər: İzdivacdan sonra cinsi yaxınlıqda olmamış qadınlar, doğmaq qabiliyyətini itirmiş yaşlı qadınlar. (“yaisə”)

“Bəqərə” surəsinin 236-cı ayəsində oxuduq ki, kişi yaxınlıq etmədən boşadığı qadına imkan həddində dəyərli hədiyyə verməlidir.

İmam Baqir (ə) buyurur: “Boşanmış qadınlar iztirab, qəm-qüssə, qınaq içində ata evinə qayıdırlar. Onların qəlbini toxtatmaq üçün imkan çatan qədər dəyərli hədiyyə verin.”

**Bildirişlər**

1. İlahi göstərişlərə əməl etmək iman şərtidir.
2. Talaq kişinin ixtiyarındadır. Yalnız şəriətdə nəzərdə tutulmuş xüsusi hallar istisnadır.
3. İman izdivac üçün ən mühüm şərtdir.
4. Boşanma dini uğursuzluq göstəricisi deyil.

5. Kişi iddə müddətində boşanma fikirindən daşına bilər. Amma yaxınlıqdan öncə talaq verildikdə kişinin qayıdış haqqı yoxdur.

6. Psixoloji zərbələr müəyyən yollarla aradan qaldırılmalıdır. İzdivacdan sonra talaq zamanı qadının ruhi sarsılır. Münasib mehriyyə ödəməklə bu sarsıntını bir qədər yüngülləşdirmək olar.

7. Ayrılıq və boşanma kin-küdurət, düşmənçilik mənasında qəbul olunmamalıdır.

### *AYƏ 50:*

﴿يَا أَيُّهَا النَّبِيُّ إِنَّا أَحْلَلْنَا لَكَ أَزْوَاجَكَ اللَّاتِي آتَيْتَ أُجُورَهُنَّ وَمَا مَلَكَتْ يَمِينُكَ
مِمَّا أَفَاءَ اللَّهُ عَلَيْكَ وَبَنَاتِ عَمِّكَ وَبَنَاتِ عَمَّاتِكَ وَبَنَاتِ خَالِكَ وَبَنَاتِ خَالَاتِكَ
اللَّاتِي هَاجَرْنَ مَعَكَ وَامْرَأَةً مُّؤْمِنَةً إِن وَهَبَتْ نَفْسَهَا لِلنَّبِيِّ إِنْ أَرَادَ النَّبِيُّ أَن
يَسْتَنكِحَهَا خَالِصَةً لَّكَ مِن دُونِ الْمُؤْمِنِينَ قَدْ عَلِمْنَا مَا فَرَضْنَا عَلَيْهِمْ فِي أَزْوَاجِهِمْ
وَمَا مَلَكَتْ أَيْمَانُهُمْ لِكَيْلَا يَكُونَ عَلَيْكَ حَرَجٌ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا﴾

**“Ey peyğəmbər! Mehriyyəsini ödədiyin zövcələrini, Allahın sənə bəxş etdiyi və sahib olduğun kənizləri, səninlə hicrət etmiş əmi qızlarınla, bibi qızlarınla, dayı qızlarınla, xala qızlarınla evlənməyi sənə halal etdik. Peyğəmbər özünü (mehriyyə istəmədən) peyğəmbərə bağışlamış imanlı qadınla da evlənə bilər. (Mehriyyəsiz əqd) təkcə sənə məxsusdur, başqa möminlərə yox! Şübhəsiz biz möminlərə zövcələr və kənizlərlə bağlı nə hökm etdiyimizi bilirik. Sənin üçün çətinlik istəmirik. Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

Müsəlmanların savaşsız əldə etdiyi mülk “əfaə” adlanır. “Əmm”, “xal” sözləri ərəblər arasında cins mənasında işlədilir və bütün əmilərə və dayılara şamil olunur. Amma “əmmə” və “xalə” sözləri cəm formada istifadə olunur.

İslamda üç növ nikah (izdivac) mövcuddur: (istər daimi olsun, istər müvəqqəti) mehriyyəli nikah; kənizə malik olmaqla həyata keçən nikah; qadının özünü kişiyə bağışlaması ilə gerçəkləşən mehriyyəsiz nikah.

Birinci və ikinci növ nikahlar hamı üçündür, üçüncü növ nikah isə yalnız girami peyğəmbərə aiddir. Bir gün Ayişə dedi: “Ey Allahın rəsulu! Allah səni üstün tutur.” Peyğəmbər (s) buyurdu: “Əgər sən də Allaha müti olsan imtiyaz əldə edərsən.”[1]

---

[1] “Bihar”, c. 22, s. 180.

Peyğəmbərə (s) təkbaşına cihad vacib idi.[1] Peyğəmbərə gecə namazı vacib idi. Peyğəmbərə başqalarına vacib olmayan bir çox vəzifələr vacib idi! Bütün bu çətinliklər müqabilində bir imtiyaz çox deyil. (Girami Peyğəmbər (s) buyurur ki, heç bir peyğəmbərə mənim qədər əziyyət verilməyib.

Sual: Nə üçün girami Peyğəmbərin (s) bir neçə zövcəsi vardı?

Cavab: Əvvəla, Allahın rəsulu şəhvani meyllər əsasında evlənməmişdir. Həzrət 25 yaşından 53 yaşını qədər yalnız Xədicə ilə nikahda olmuşdur. Həzrət 15 yaş özündən böyük qadınla evləndiyi halda o dünyasını dəyişənədək başqası ilə ailə həyatı qurmamışdır. İkincisi, bütün qəbilələr İslama qarşı idi. Peyğəmbər dəqiq planlar əsasında bu birliyi pozdu. Düşmən cəbhəsini parçalamaq üçün ən təbii və sadə yol onlarla qohumluq idi. Uyğun dövrün adət ənənələrinə əsasən qəbilələr öz yeznəsini himayə etməyə borclu sayılırdı. Peyğəmbər müxtəlif qəbilələrlə qohum olmaqla İslam yolundakı problemləri aradan qaldırdı. Üçüncüsü, peyğəmbər bəzən cahiliyyət ənənələrini aradan qaldırmaq üçün evlənmişdir. Məsələn həzrətin əmisi qızı Zeynəblə izdivacı iki zərərli adəti aradan qaldırmışdır. Dördüncüsü, peyğəmbər bəzi qadınlarla yalnız izdivac əqdinə girmiş, bəzilərinə yalnız elçilik etmişdi. Yəni adı peyğəmbər zövcələri sırasında çəkilənlərdən bir hissəsi ilə heç bir yaxınlıq olmamışdı. Beşincisi, əgər məqsəd şəhvət olsaydı peyğəmbərin çoxsaylı övladları olardı. Altıncısı, peyğəmbərlə izdivac əqdinə girərkən Ayişə çox kiçik idi. O illərcə sonra faktiki ailə həyatına başladı. Cinsi maraqlar güdən insan uşaqla izdivac edib uzun illər gözləməz. Nəhayət, biz peyğəmbəri özümüzlə müqayisə etməməliyik. Təkcə bir qadınla qurduğumuz ailə həyatı bizi bir çox kamilliklərdən məhrum edir. Amma girami Peyğəmbər (s) zövcələrinin çoxsaylı olmasına baxmayaraq ürfan dəryasında qərq olmuşdu, minacat və təbliği dayandırmırdı. Allah-təala həzrətə buyurur ki, nə üçün xalqın hidayətinə bir bu qədər harisdir, nə üçün özünü məşəqqətə salır?[2] Bəli, mərifət nəsimi hərzət Peyğəmbərin (s) varlıq xeyməsini o qədər ucaltmışdı ki, bir bu qədər zövcə onu haqqa doğru pərvazdan saxlaya bilmirdi.

Qeyd edək ki, peyğəmbər yalnız 53 yaşından sonra çoxsaylı əqdlərə girmiş və adətən dul və tərk olunmuş qadınlarla evlənmişdir. Bu qadınların əksəri peyğəmbərlə izdivaca səy göstərmiş və onların heç bir haqqı peyğəmbər tərəfindən tapdanmamışdır. Bütün bunlardan əlavə, peyğəmbərin yaşadığı dövrdə bir neçə arvad almaq qəbahət sayılmamışdır. Peyğəmbər dövründə kişi üçün elçiliyə adətən onun əvvəlki zövcəsi gedərmiş. Hazırda sadalamağa imkanımız olmayan qənaətbəxş cavablar çoxdur.

**Bildirişlər**

1. Halal-haramı müəyyənləşdirmək Allahın ixtiyarındadır. (Peyğəmbər də fərdi məsələlərdə ilahi qanunlara tabe idi.)
2. Qadın üçün mehriyyə zəruridir və kişi mehriyyə ödəməyə borcludur.

---

[1] "Nisa", 84.

[2] "Şuəra", 3; "Taha", 2.

3. Cinsi istəklərə ciddi yanaşmaq lazımdır və bu istiqamətdə kənizlər də yaddan çıxarılmamalıdır.

4. İzdivacda tərəflərin razılığı şərtdir.

5. İslamda peyğəmbər üçün müstəsna vəzifələr və imtiyazlar nəzərdə tutulur.

6. Hansı qadınlarla evlənmək mümkün olduğunu Allah təyin edir.

7. Allah öz peyğəmbərini sıxıntıya salmaq istəmir.

### *AYƏ 51:*

﴿تُرْجِي مَن تَشَاء مِنْهُنَّ وَتُؤْوِي إِلَيْكَ مَن تَشَاء وَمَنِ ابْتَغَيْتَ مِمَّنْ عَزَلْتَ فَلَا
جُنَاحَ عَلَيْكَ ذَلِكَ أَدْنَى أَن تَقَرَّ أَعْيُنُهُنَّ وَلَا يَحْزَنَّ وَيَرْضَيْنَ بِمَا آتَيْتَهُنَّ كُلُّهُنَّ
وَاللَّهُ يَعْلَمُ مَا فِي قُلُوبِكُمْ وَكَانَ اللَّهُ عَلِيمًا حَلِيمًا﴾

**“Zövcələrindən istədiyini yubadıb, istədiyinə yanında yer verə bilərsən. Tərk etdiyini yenidən tələb etməyində sənin üçün qorxu yoxdur. Bu hökm onların gözünün işıqlanması, narahat olmamaları, ixtiyarına verdiklərindən razı qalmaları üçün daha münasibdir. Allah qəlbinizdə olanları bilir. Allah elm sahibi və həlimdir.”**

**Nöqtələr**

“Turci” sözü təxirə salmaq, “tuvi” sözü yer vermək mənasını bildirir. Bu iki söz talağa, yaxınlığın təxirə salınması və ya önə keçirilməsinə işarədir.

Zövcələr arasında ədalətli olmaq vacibdir. Amma girami Peyğəmbər (s) bir sıra problemlərə, düşmənlərlə cihada, ictimai fəaliyyətlərə görə zövcələri növbələşdirməkdə azad idi. Həzrət bəzən bir neçə gün zövcələrindən birinin evində qalmalı olurdu.[1] Bəzi təfsirçilərin nəzərincə ayədə zövcələrin xərcinin artırıb-əskildilməsi, onların istəklərinin qəbul olunub-olunmaması, ilkin talaq və yenidən qayıdış məsələləri nəzərdə tutula bilər.

**Bildirişlər**

1. Ağır məsuliyyəti olanlara xüsusi ixtiyarlar verilməlidir. (Ədalət və təqvası şübhə doğurmayan insanlar uyğun çərçivədə dəyişikliklər apara bilər. Necə ki, peyğəmbərə ədalət çərçivəsində zövcələri ilə rəftar etmək azadlığı verilmişdir.)

2. Peyğəmbərə ixtiyar verilməsi ona zövcələrinə münasibətdə biganəlik haqqı vermir.

3. İki şey zövcənin gözünü işıqlandırır qəm-qüssədən uzaqlıq və qəlbən razılıq.

4. Qadını təkcə ailə həyatının ilkin mərhələsində razı salmaq bəs etmir. Ömür boyu zövcəni razı salmaq üçün səy göstərilməlidir.

5. Bir neçə zövcəni tam razı salmaq mümkünsüzdür. Amma buna nail olmaq üçün plan cızılmalıdır.

---

[1] “Kafi”, c. 5, s. 388.

6. Kişi bütün zövcələrini razı salmaq fikirində olmalıdır.

7. Hər qəlbdə bir istək olsa da, ilahi hökmlər ailədə ədalət və hüquq bərabərliyinin təmininə yönəlib.

8. İslamın ailə hökmləri ilahi elmdən qaynaqlanır.

*AYƏ 52:*

﴿لَا يَحِلُّ لَكَ النِّسَاء مِن بَعْدُ وَلَا أَن تَبَدَّلَ بِهِنَّ مِنْ أَزْوَاجٍ وَلَوْ أَعْجَبَكَ حُسْنُهُنَّ إِلَّا مَا مَلَكَتْ يَمِينُكَ وَكَانَ اللَّهُ عَلَى كُلِّ شَيْءٍ رَّقِيبًا﴾

**"Bundan əlavə heç bir qadın sənə halal deyil. (Zövcələrini boşayıb) onların yerinə gözəlliyi səni valeh etsə də başqalarını almamalısan. Yalnız malik olduğun kənizlər istisnadır. Allah hər şeyə nəzarət edir."**

**Nöqtələr**

Girami Peyğəmbər (s) bəzi qəbilələr tərəfindən təzyiqə məruz qalırdı. Yalnız onlarla qohumluq əlaqəsi qurduqdan sonra bu sıxıntılar aradan qalxdı. Həmin qəbilələr fəxr edirdilər ki, Allahın rəsulu onların yeznəsidir. Peyğəmbər dinin məsləhəti əsasında bu sayaq qohumluq əlaqələri qururdu. Amma hazırkı ayə bu işin davamına qadağa qoydu.

"Ləv" şəkilçisi o zaman işlənir ki, mümkünsüz bir iş şərt qoyulmuş olsun. Deməк, ayədə peyğəmbərin kiminsə gözəlliyinə valeh olması mümkün olmayan bir iş kimi şərt qoyulur.

**Bildirişlər**

1. Quranda sabit və dəyişən hökmlər mövcuddur. Bəli, zaman hökmün icrasına təsir göstərə bilər.

2. Peyğəmbər üçün də izdivacda məhdudiyyətlər var.

3. Evlənmək istəyən insan nəzərdə tutduğu qadınla evlənə bilər.

4. Həyat yoldaşı seçimində gözəllik meyar götürülməməlidir.

5. Allah gözəlliyinə görə ikinci qadınla evlənmək istəyənlərə nəzarət edir.

6. Peyğəmbər halal-haram göstərişlərini Allahdan almağa vəzifəlidir.

*AYƏ 53:*

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَدْخُلُوا بُيُوتَ النَّبِيِّ إِلَّا أَن يُؤْذَنَ لَكُمْ إِلَى طَعَامٍ غَيْرَ نَاظِرِينَ إِنَاهُ وَلَكِنْ إِذَا دُعِيتُمْ فَادْخُلُوا فَإِذَا طَعِمْتُمْ فَانتَشِرُوا وَلَا مُسْتَأْنِسِينَ لِحَدِيثٍ إِنَّ ذَلِكُمْ كَانَ يُؤْذِي النَّبِيَّ فَيَسْتَحْيِي مِنكُمْ وَاللَّهُ لَا يَسْتَحْيِي مِنَ الْحَقِّ وَإِذَا سَأَلْتُمُوهُنَّ مَتَاعًا فَاسْأَلُوهُنَّ مِن وَرَاء حِجَابٍ ذَلِكُمْ أَطْهَرُ لِقُلُوبِكُمْ وَقُلُوبِهِنَّ وَمَا

كَانَ لَكُمْ أَن تُؤْذُوا رَسُولَ اللَّهِ وَلَا أَن تَنكِحُوا أَزْوَاجَهُ مِن بَعْدِهِ أَبَدًا إِنَّ ذَلِكُمْ كَانَ عِندَ اللَّهِ عَظِيمًا﴾

**"Ey iman gətirənlər! Sizə təam yemək üçün icazə verilməmiş peyğəmbərin evinə daxil olmayın. (Oturub) yemək vaxtını gözləməyin. Dəvət edildiyiniz halda daxil olun, yedikdən sonra dağılışın. Yeyəndən sonra söhbətə başlamayın. Həqiqətən, bu (danışıqlar) peyğəmbərə əziyyət verir, amma o sizdən utanır. Amma Allah haqqı deməkdən çəkinməz. Peyğəmbərin zövcələrindən bir şey istədikdə pərdə arxasından istəyin. Belə bir rəftar sizin və onların qəlblərinin paklığı üçündür. Haqqınız yoxdur ki, Allahın rəsuluna əziyyət verəsiniz və dünyasını dəyişdikdən sonra onun zövcələri ilə evlənəsiniz. Bu iş Allah yanında böyük bir günahdır."**

**Nöqtələr**

Təkcə peyğəmbərin evinə yox, bütün evlərə daxil olmazdan öncə icazə almaq lazımdır.[1]

Bu ayədə bəzi qonaqlıq qaydaları bəyan olunur. Digər ayələrdə də bu mövzu ilə bağlı göstərişlər var: Daxil olarkən salam verin[2]; rədd cavabı aldıqda narahat olmayıb gedin[3]; qonaq çağırdığınız vaxt yaxşı tərzdə qəbul edin[4]; qonağı süfrə başına aparmayın, süfrəni qonağın yanına gətirin[5]. Bu barədə rəvayətlərdə də çoxsaylı göstərişlər var.

"İnah" dedikdə vaxt, saat nəzərdə tutulur. "Ğəyrə" nəzirinə inahu", yəni qonaq nəzərdə tutulmuş vaxtdan qabaq gəlib, yemək gözləməməlidir.

Peyğəmbər zövcələrinin hər birinin öz otağı vardı.

Peyğəmbər zövcələri ilə bağlı gəlmiş bəyanatlar əslində bütün müsəlman qadınlara aiddir. Çünki Allah bütün qadın və kişilərin paklığı istəyindədir.

Peyğəmbərin zövcələrindən pis məqsədlərlə istifadə edilməsi təhlükəsi böyükdür. Bu səbəbdən qadınlara peyğəmbərdən sonra kiməsə ərə getmək icazəsi verilmir. İmam Baqir (ə) ətrafındakılardan soruşdu: "Atanın yaxınlıq etmədən boşadığı qadını oğulun alması yaxşıdırmı?" Cavab verirlər ki, yox! Sonra həzrət buyurur: "Peyğəmbərə ehtiram ataya ehtiramdan önəmlidir."[6]

**Bildirişlər**

1. İman ictimai adət-ənənələrə riayət olunmasını tələb edir.
2. Hamının öz evində istirahət etmək hüququ var. Peyğəmbər də istisna deyil.

---

[1] "Nur", 27.
[2] "Nur", 61.
[3] "Nur", 28.
[4] "Hud", 69.
[5] "Zariyat", 27.
[6] "Kafi", c. 5, s. 42.

3. Qonağı mehmanxanada yox, evdə qəbul etmək yaxşıdır.

4. Ev sahibi kiməsə giriş üçün icazə verməyə bilər.

5. Evə daxil olmaq üçün şəxsən ev sahibindən icazə almaq zəruri deyil. Evdəkilərin də icazə verməsi yetər. (Yəni ev sahibinin istənilən bir yolla razılığı kifayətdir.)

6. Qonağa hörmət girami Peyğəmbərin (s) səciyyələrindən idi.

7. Əsas məsələ nə bişirmək yox, qonaq çağırmaqdır.

8. Qonaq yemək gözləməməlidir. (Əlbəttə, ev sahibi də qonağı intizarda saxlamamalıdır. Həzrət İbrahim haqqında buyurulur ki, onun yemək hazırlaması çox çəkmədi;[1]

9. Həm qonaqlıq kimi cüzi, həm də hakimiyyət kimi mühüm məsələlərlə bağlı proqrama malik olan din kompleks dindir.

10. Dəvət olunmamış qonaq getməyin.

11. Dəvəti rədd etməyin.

12. İslamda adi fərdlərin dini şəxsiyyətin evinə get-gəli, hətta qonaq olması mümkündür.

13. Yedikdən sonra durub getmək qonaqlıq qaydalarındandır. Qonaq olduğunuz evdə söhbətə aludə olmayın.

14. Ev sahibini incitmək qadağandır. (Çağırıldığın yerə övladları və tanışları aparmaq ev sahibinin narazılığına səbəb ola bilər. Süfrədəki qidaları dəyərsiz saymaq qarşı tərəfə əziyyətdir.)

15. Vaxtın hədərə verməsi, yersiz söhbətlər peyğəmbərə əziyyət verirdi.

16. Əziyyət dedikdə təkcə fiziki əziyyət nəzərdə tutulmur. Əxlaqi və ruhi sıxıntı da bir növ əziyyətdir.

17. Ev sahibini çıxılmaz vəziyyətə salmayın.

18. Ev sihbinin utanaraq susması onun razılığını göstərmir.

19. Girami Peyğəmbər (s) həyalı bir şəxsiyyət idi.

20. Qadınların hicablı şəkildə alış-veriş etməsi qadağan deyil.

21. Peyğəmbər zövcələrinin yaxınlarla əlaqələri vardı. (Hicabı hifz etmək şərti ilə peyğəmbər zövcələrindən nəsə istəmək olar.)

22. Əgər bir şəxs müəyyən səbəbdən həya edib susursa, başqaları sükutu pozub haqqı deməli və həmin şəxsi sıxıntılı vəziyyətdən çıxarmalıdır.

23. Hicabla bağlı elə dəlillər göstərin ki, hamı tərəfindən qəbul olunsun.

24. Qadınlarla kişilər arasındakı rabitə təqva və qərəzsizliyə əsaslanmalıdır.

25. Naməhrəmlərin bir-birinə baxması onların qəlbinə təsir edir.

*Aman bu gözlərin, qəlbin əlindən,*
*Gözün gördüyünə qəlb qaçır hökmən.*

26. Hicabı qorumadan naməhrəmlə əlaqə girami Peyğəmbər (s) üçün ağırdır.

27. Peyğəmbəri incitmək böyük günahlardandır.

---

[1] "Hud", 69.

*AYƏ 54:*

﴿إِن تُبْدُوا شَيْئًا أَوْ تُخْفُوهُ فَإِنَّ اللَّهَ كَانَ بِكُلِّ شَيْءٍ عَلِيمًا﴾

**"Bir şeyi aşkarlasanız da, gizləsəniz də, şübhəsiz, Allah hər şeyi bilir."**

**Bildirişlər**

1. Allah təkcə bizim əməllərimizdən yox hər şeydən agahdır.
2. Allah gizlindən də, aşkardan da tam xəbərdardır.
3. Əgər Allahın hər şeydən xəbərdar olduğunu biliriksə, riyakarlığa nə ehtiyac?!
4. Zahirdə hicaba bürünüb xəlvətdə hicabsız rabitə saxlamaq Allahın hər şeydən xəbərdarlığına inamsızlığı göstərir.

*AYƏ 55:*

﴿لَّا جُنَاحَ عَلَيْهِنَّ فِي آبَائِهِنَّ وَلَا أَبْنَائِهِنَّ وَلَا إِخْوَانِهِنَّ وَلَا أَبْنَاءِ إِخْوَانِهِنَّ وَلَا أَبْنَاءِ أَخَوَاتِهِنَّ وَلَا نِسَائِهِنَّ وَلَا مَا مَلَكَتْ أَيْمَانُهُنَّ وَاتَّقِينَ اللَّهَ إِنَّ اللَّهَ كَانَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدًا﴾

**"Atalarına, oğlanlarına, qardaşlarına, qardaşı oğlanlarına, bacısı oğlanlarına, digər müsəlman qadınlara və öz kənizlərinə görünmək qadınlar üçün günah deyil. Təqvalı olun, çünki Allah hər şeyə şahiddir."**

**Nöqtələr**

Ayədə qadına qohumluq əlaqələri vasitəsi ilə məhrəm olanların adı çəkilir amma yeznə, süd qardaşı, eləcə də buluğ həddinə çatmamış və cinsi məsələləri anlamayan uşaqlar da qadına məhrəmdir.

Bəziləri bu ayənin yalnız peyğəmbər zövcələrinə aid olduğunu bildirir. Amma ayədə bütün qadınların nəzərdə tutulduğu daha inandırıcı görünür.

**Bildirişlər**

1. İslamda çətinlik yoxdur. Evə daim get-gəldə olan birinci dərəcəli yaxınlar bir-birinə məhrəmdir.

2. Müsəlman qadının digər müsəlman qadınların hüzurunda hicablı olması zəruri deyil. Amma müsəlman qadın qeyri-müsəlman qadınların hüzurunda hicablı olmalıdır.

3. Məhrəm olmaq qorunmamaq mənasında deyil.

4. Allahın bütün əməllərimizə şahid olması təqvaya riayət üçün ən üstün amildir.

***AYƏ 56:***

﴿إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا﴾

**“Həqiqətən, Allah və Onun mələkləri peyğəmbərə salam göndərir. Ey iman gətirənlər! Siz də ona salam göndərin, təslimçiliklə yanaşı bir salam!”**

**Nöqtələr**

Sünnə əhlinin mötəbər kitablarında nəql olunur ki, girami Peyğəmbərdən (s) soruşdular: “Necə salavat göndərək? Həzrət buyurdu: “Deyin ki, Əllahummə səlli əla Muhəmmədin və ali Muhəmməd” uyğun hədis “Səhih-buxari”də belə nəql olunur: Məhəmməd səllallahu ələyhi vəsəlləm salavatla bağlı suala belə cavab verdi: “Deyin ki, Əllahummə səlli əla Məhəmmədin və əla ali Məhəmməd”[1]

Peyğəmbərin adı çəkilən zaman salavat zikr etmək mühümdür. Həzrət Peyğəmbər (s) buyurur: “Kim kitabda və yazıda mənə salavat qeyd etsə, salavat yazısı durduqca ona mükafat verilər.”[2]

Hədisdə oxuyuruq: “Həzrət Məhəmmədə (s) bir salavat göndərənə Allah on salavat göndərər, onun on büdrəməsini örtər.[3]

Salavat duaların qəbul açarı, Qiyamətdə möminlik ölçüsünü ağırlaşdıran səbəblərdəndir.

Allah Quranda öz peyğəmbərinə buyurur ki, zəkat verənlərə salavat göndər.[4] Bu ayədə xalqa tapşırılır ki, peyğəmbərə salavat göndərilsin. Bəli, İslamda rəhbərlə xalq arasındakı rabitə salavat-salam rabitəsidir. Necə ki, “Ənam” surəsinin 54-cü ayəsində peyğəmbərə göstəriş verilir ki, onun görüşünə gələnlərə salam versin.

---

[1] “Səhih Buxari”, hədis 5880.

[2] “Təfsire-Ruhul-bəyan”.

[3] “Təfsire-Məcməül-bəyan”.

[4] “Tövbə”, 103.

İmam Sadiq (ə) buyurur: “Allahın salamı dedikdə Onun mərhəməti, mələklərin salamı dedikdə təsbih, xalqın salamı dedikdə dua nəzərdə tutulur.”[1]

**Bildirişlər**

1. Əgər başqalarını bir xeyir işə dəvət etmək istəsəniz öncə özünüzdən və tabeçiliyinizdə olanlardan başlayın. (Allah insanlara salavat göstərişi verərkən öncə özünün və mələklərin salavatını yada salır!”
2. Allah və mələklərin salavatı daimidir.
3. Peyğəmbərə salavat göndərmək iman şərtidir və möminlərin vəzifələrindəndir.
4. Dildə salam söyləmək bəs etmir, əməldə təslim olmaq lazımdır.
5. İlahi hökumətdə xalqla rəhbər arasındakı rabitə salam-salavat üzərində qurulmuşdur. (Qəlb sevgisi bəs etmir, sevgini izhar etmək lazımdır.)

*AYƏ 57:*

﴿إِنَّ الَّذِينَ يُؤْذُونَ اللَّهَ وَرَسُولَهُ لَعَنَهُمُ اللَّهُ فِي الدُّنْيَا وَالْآخِرَةِ وَأَعَدَّ لَهُمْ عَذَابًا مُّهِينًا﴾

**“Həqiqətən, Allah və onun rəsulunu incidənləri Allah dünya və axirətdə lənətləyir. Onlar üçün zəliledici əzab hazırlamışdır.”**

**Nöqtələr**

Allaha əziyyət dedikdə Onun istək və razılığına zidd işlər nəzərdə tutulur. Belə işlər Allahın mərhəmətinə yox, qəzəb və lənətinə səbəb olur.

Olsun ki, Allaha əziyyət dedikdə Allahın bəndələrinə əziyyət nəzərdə tutulur. Necə ki, Allaha borc vermək dedikdə onun bəndələrinə borc vermək nəzərdə tutulur. Peyğəmbərə əziyyət dedikdə onun təkzibi, ona böhtan, onunla ədəbsiz rəftar və onun Əhli-beytinə əziyyət nəzərdə tutulur. Rəvayətdə nəql olunur ki, girami Peyğəmbər (s) buyurmuşdur: “Fatimə tənimin parasıdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir.”[2]

**Bildirişlər**

1. Təkcə bir əziyyət kəbirə günah ola bilərsə də bu səciyyənin xarakterə çevrilməsi daha təhlükəlidir.
2. Xalis bəndə bir məqama yüksəlir ki, onun incidilməsi Allahın incidilməsi sayılır.
3. İman əhlinə qarşı təhqir və əzab-əziyyətin bir hissəsi bu dünyadaca gerçəkləşir.
4. Əziyyət verənin məqsədi alçaltmaq olduğundan, onun axirət cəzası alçaqlıqdır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “Səhih Buxari”, c. 5, s. 26. “Səhih Müslüm”, c. 4, s. 1903.

*AYƏ 58:*

﴿وَالَّذِينَ يُؤْذُونَ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ بِغَيْرِ مَا اكْتَسَبُوا فَقَدِ احْتَمَلُوا بُهْتَانًا وَإِثْمًا مُّبِينًا﴾

**“İmanlı kişiləri və qadınları bir iş görmədikləri halda incidənlər, şübhəsiz, boyunlarına aşkar bir böhtan və günah götürmüşlər.”**

**Nöqtələr**

Fiziki zərərlərə görə qisas nəzərdə tutulur.[1] Amma psixoloji zərbələrə görə qisas almaq caiz deyil. Quran icazə vermir ki, böhtan atana böhtanla cavab verilsin. Bu günaha görə xəbərdarlıq olunub, zəruri hallarda həmin şəxs şəri hakim tərəfindən cəzalandırılır.

Ayədən aydın olur ki, xilaf işə yol vermiş müsəlman qanun çərçivəsində cəzalandırıla bilər.

**Bildirişlər**

1. Günahın təkrarı onun çirkab və cəzasını artırır.
2. Mömin qadın və mömin kişinin şəxsiyyəti möhtərəmdir, onları ləkələmək böyük günahdır.
3. Bilərəkdən yol verilən günaha görə cəza nəzərdə tutulur.
4. Günah insanın yükünü ağırlaşdırır.
5. Ən pis əziyyət dil yarası və böhtandır.
6. Ətrafdakıların istənilən bir şəkildə incidilməsi Allahın qəzəbi ilə sonuclanan günahlardandır.

*AYƏ 59:*

﴿يَا أَيُّهَا النَّبِيُّ قُل لِّأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاء الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِن جَلَابِيبِهِنَّ ذَلِكَ أَدْنَى أَن يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا﴾

**“Ey peyğəmbər! Zövcələrinə, qızlarına və mömin qadınlara de ki, örpəklərini başlarına salsınlar. (İffətləri ilə tanınmaları, əziyyətə düşməmələri üçün bu daha münasibdir. Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

“Cəlabibi” dedikdə baş və boyunu örtən yaylıqlar nəzərdə tutulur.[2] Bütün bədəni bürüyən böyük parça da belə adlandırılır.[3]

Ötən ayələrdə möminlərin münafiqlər tərəfindən incidilməsindən danışıldı. Ayədə buyurulur ki, mömin qadınlar əziyyətə düçar olmamaları üçün örtünməli və özlərinə qarşı hörmətsizlik üçün zəminə yaratmamalıdırlar.

---

[1] “Maidə”, 45.

[2] “Təfsire-Məcməül-bəyan”.

[3] “Təfsire-Əl-mizan”.

Bu ayəyə əsasən, nəzərdə tutulan dövrdə qadınlar müəyyən örtükdən istifadə edirdilər. Amma onlar naməhrəm hüzurunda hicab məsələsinə diqqət yetirmirdilər. Ona görə də ayə ənənə əsasında sadəcə örtünməklə kifayətlənməyib hicaba ciddi riayət etməyi tapşırır.

Bu ayədə hicab göstərişi sərtliklə bəyan olunmur, sadəcə hicabın fəlsəfəsi açıqlanır. Bildirilir ki, təcavüzdən, təhqirdən, böhtandan, hədyandan amanda qalmaq istəyən qadınlar və qızlar hökmən örtünməlidirlər.

## *HİCABSIZLIĞIN BƏLALARI*

Hicabsızlığın bir sıra bəlaları var: Şorgözlüyün və həvəsbazlığın genişlənməsi; fitnəkarlıq və fahişəliyin artımı; sui-qəsd və namusa təcavüz; qeyri-qanuni hamiləlik və abortlar; psixoloji və zöhrəvi xəstəliklər; intihar və evdən kənarlaşma; şorgöz kişilərin öz zövcələrinə biganəliyi; boşanmaların sayının artımı; ailə bünövrəsinin süstləşməsi; dəbdəbə rəqabəti; pak ailələr üçün sıxıntılı fəza.

**Bildirişlər**

1. Yaxşılığa çağırışa öncə yaxınlarımızdan başlayaq.
2. İlahi hökmlər istər peyğəmbərin zövcə və qızları, istərsə də başqa qadınlar üçün eynidir.
3. Qadın iffət və abırını qorumaq üçün şəxsiyyətini tanıtdıran geyim geyməlidir.
4. Xəstəqəlbli, başqalarının namusuna göz dikən insanlara bəhanə verməyin. (Ötən ayələrdə başqalarına əziyyət verənlərə xəbərdarlıq olundu. Bu ayədə isə əziyyətə məruz qalanların vəzifəsi bəyan olunur.)
5. Qadın iffətini qorumaqla evdən bayıra çıxa bilər.
6. Yaxşılığa çağırış və pisliyə qadağa zamanı əmr və qadağanın səbəbini bəyan edin.
7. İnsanların geyimi onların şəxsiyyəti, əqidəsini və məqsədlərini tanıtdıra bilər.
8. Qadınlara qarşı bir çox zorakı hərəkətlərin səbəbi onların geyim növüdür.
9. Hicablı qadınlar cəmiyyətdə görünməklə ümumi iffət fəzasını qorumalı, həvəsbazların manevr imkanlarını məhdudlaşdırmalıdırlar.
10. Hicaba riayət etmək qərarına gəlmiş qadına öncəki səhlənkarlığı bağışlana bilər.
11. Allahın əfvi Onun mərhəməti ilə yanaşıdır.

## *AYƏ 60:*

﴿لَئِن لَّمْ يَنتَهِ الْمُنَافِقُونَ وَالَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ وَالْمُرْجِفُونَ فِي الْمَدِينَةِ لَنُغْرِيَنَّكَ بِهِمْ ثُمَّ لَا يُجَاوِرُونَكَ فِيهَا إِلَّا قَلِيلًا﴾

**“Əgər münafiqlər, qəlblərində xəstəlik olanlar və Mədinədə şayiə yayanlar (öz işlərindən) əl çəkməsələr hökmən səni onlara qarşı qaldırarıq. Onda bu şəhərdə sənin yanında yalnız qısa bir müddət qala bilərlər.”**

**Nöqtələr**

“İncaf” sözündən olan “murcifun” sözü şayiə yaymaqla İslam cəmiyyətində narahatlıq yaradan şəxslərə işarədir. Bu qəbildə olanlar cəbhəyə getməyib şəhərdə şayiə yayırdılar ki, müsəlmanlar məğlub olub, kafirlər qələbə çalıb və ya İslam Peyğəmbəri (s) şəhadətə çatıb. Onlar bu sayaq rəftarları ilə cəmiyyətdəki asayişi pozurdular.

“İğra” sözündən olan “lənuğriyənnəkə” sözü yapışdırmaq mənasını bildirir və hər tərəfli qələbəyə işarədir.

Əgər bu ayəni öncəki ayənin ardınca nəzərdən keçirsək məlum olar ki, Mədinə münafiqləri və qəlbixəstə insanlar mömin qadınları incidirmişlər. Ötən ayədə Allah qadınlara kamil örtünmək göstərişi verdi. Bu ayədə isə qəlbi xəstə insanlara xəbərdarlıq olunur. Əlbəttə, bu ayə müstəqil də ola bilər. Nəzərdə tutula bilər ki, soyuq müharibə aparan və şayiə yayan fitnəkarlarla mübarizə aparıb onları məhv etmək lazımdır.

Şaiyə yayıb İslam cəmiyyətinə zərbə vuranlarla bağlı ayə sərt bəyanatlar versə də fiqh kitablarında bu mövzuya bir o qədər də diqqət yetirilməmişdir. Hətta uzun illər qazi olmuş müctəhidlərdən biri deyir: “Mən 54 fiqh kitabını araşdırdım və “ircaf” adlı bir fəsil tapmadım.”

Ayənin son hissəsini iki cür mənalandırmaq olar:

a) Səni onlara qarşı bir şəkildə qaldırarıq ki, darmadağın olarlar və az bir hissəsi sənin yanında qalar;

b) Onları elə tar-mar edərik ki, əksəriyyəti səndən uzaqlaşar.

**Bildirişlər**

1. Müxaliflərə qarşı mübarizəyə başlamazdan öncə xəbərdarlığı başa çatdırın, höccəti tamamlayın.
2. Qəlbigenişliyin də bir həddi var. Bəzən müdara və güzəşt yersiz olur.
3. Qəlbixəstə insanlar münafiqlərin arxasınca gəzir.
4. Müsəlmanların zülm-sitəmə qarşı qiyamı intiqam və ya həvəsə yox, Allahın iradəsinə əsaslanır.
5. Vəfalı ümmət rəhbər qarşısında mütəşəkkil və müti halda dayanmalıdır.
6. Cəmiyyətin əmin-amanlığını pozanlara qarşı hamıdan öncə rəhbər çıxış etməlidir.

7. İslam cəmiyyətdəki asayişi o qədər yüksək dəyərləndirir ki, xalq arasında nigarançılıq yaradanların şəhərdən çıxarılması göstərişini verir.

8. Düşmənləri müsəlmanların mübarizə və qiyamı ilə qorxutmaq lazımdır.

*AYƏ 61:*

﴿مَلْعُونِينَ أَيْنَمَا ثُقِفُوا أُخِذُوا وَقُتِّلُوا تَقْتِيلًا﴾

**"Onlar lənətlənmişlərdir. Ələ keçdikləri yerdəcə tutulmalı, hökmən öldürülməlidirlər."**

*AYƏ 62:*

﴿سُنَّةَ اللَّهِ فِي الَّذِينَ خَلَوْا مِن قَبْلُ وَلَن تَجِدَ لِسُنَّةِ اللَّهِ تَبْدِيلًا﴾

**"Allahın bu sünnəsi (qanunu) bundan öncə olanlara aiddir. (Onlar cəmiyyətdə nigarançılıq yaradırdılar) və bu sünnə heç vaxt dəyişməz."**

**Nöqtələr**

"Siqafə" sözündən olan "suqifu" sözü dəqiq və ustalıqla ələ keçirmək və qalib gəlmək mənasını bildirir. Bu səbəbdən də elm və bilik "siqafə" adlanır.

Bəzi təfsirçilər belə hesab edirlər ki, hazırkı cəzalar ötən ayədə qeyd olunan möminlərə qarşı əziyyət müqabilində nəzərdə tutulur. Amma zənnimizcə, bütün bu cəzalar təkcə xalqın namusuna göz dikənlərə yox, cəmiyyətin asayişini pozub rejimi süquta uğratmaq istəyənlərə aiddir.

**Bildirişlər**

1."Münafiqə ölüm" şüarı Quran şüarıdır.

2. Haqqa qarşı çıxan fitnəkarlar haqqındakı cəza əmri zaman və məkana görə məhdudlaşmır.

3. Cəmiyyətdə fitnə qoparıb həyacan yaradanlar üçün rahat yer tapılmamalıdır.

4. Fitnəkarların baş götürüb qaçması ilə işi başa çatmış hesab etməyin.

5. Düşmənlərin ələ keçirilməsində bütün xalq səfərbər olmalıdır.

6. Xalqın asayişini pozanların yaşamaq haqqı yoxdur.

7. Bəzən düşmənin soyuq müharibəsinə savaşla cavab vermək lazım gəlir.

8. Fitnəkarlığından əl çəkməyənlər zəlilliklə öldürülməlidir.

9. Fitknəkarlara qarşı cihad bütün dinlərdə nəzərdə tutulmuş ilahi sünnədir.

10. Təbliğ zamanı bu sərt işlək qanunları keçmişdəki uyğun qanunlarla əlaqələndirin.[1]

11. İnsanlıq məqamı və cəmiyyətin asayişi ilahi dinlərdə o qədər yüksək dəyərləndirilir ki, bu dəyərlərə zərbə vuranlar üçün ən sərt cəzalar nəzərdə tutulur.

12. Fitnəkarlar və şayiə yayanlar üçün nəzərdə tutulmuş cəza dəyişməzdir.

---

[1] "Bəqərə", 183; "Ali-İmran", 146.

*AYƏ 63:*

﴿يَسْأَلُكَ النَّاسُ عَنِ السَّاعَةِ قُلْ إِنَّمَا عِلْمُهَا عِندَ اللَّهِ وَمَا يُدْرِيكَ لَعَلَّ السَّاعَةَ تَكُونُ قَرِيبًا﴾

**“İnsanlar səndən daim Qiyamətin nə vaxt baş verəcəyi barədə soruşur. De ki, bu məlumat yalnız Allahın yanındadır. Axı nə bilirsən, olsun ki, Qiyamət yaxındadır.”**

**Nöqtələr**

İnsan müxtəlif məqsədlərlə sual verə bilər: Sınamaq üçün (imtahanda sual); istehza üçün (lovğa zorlunun zəifdən sualı); təəccübdən sual (qorxaq insanın şücaətli insana sualı); çıxılmaz vəziyyətə salmaq üçün sual (müstəndiqin müttəhimə sualı); azdırmaq üçün sual (hiyləgərin sadəlövhə sualı); şəkk-şübhə yaratmaq üçün sual (azğınların sulı); nigarançılığı aradan qaldırmaq üçün sual (ananın övladdan sualı); öyrənmək üçün sual (cahilin alimdən sualı); məzəmmət üçün sual (müəllimin şagirdə sualı)

Hazırkı ayədə də Qiyamətlə bağlı sualın müxtəlif səbəbləri ola bilər.

“Qərib” sözü həm kişiyə, həm də qadına aid ola bilər.[1]

**Bildirişlər**

1. Allah öz peyğəmbərlərini qeybdən xəbərdar etsə də, bu xəbərdarlıq məhduddur.[2]
2. Hər şeyi bilmək və hər suala cavab vermək zəruri deyil.
3. Qiyamətin nə vaxt bərpa olacağını bilməmək bu həqiqətə iman və yəqinliyə zərər vurmur.
4. Bəzi elmlər yalnız Allaha məxsusdur.
5. Bəzi şeyləri bilməmək eyb deyil. (Bəlkə də Qiyamətin vaxtını bilsəydik, rahatlığımızı itirərdik.)
6. Tərbiyədə qarşı tərəfi qorxu və ümid arasında saxlamaq lazımdır.
7. Qiyamətə hər an hazır olmaq lazımdır.

*AYƏ 64:*

﴿إِنَّ اللَّهَ لَعَنَ الْكَافِرِينَ وَأَعَدَّ لَهُمْ سَعِيرًا﴾

**“Həqiqətən, Allah kafirləri lənətləmiş onlar üçün şöləl追ən od hazırlamışdır.”**

*AYƏ 65:*

﴿خَالِدِينَ فِيهَا أَبَدًا لَّا يَجِدُونَ وَلِيًّا وَلَا نَصِيرًا﴾

---

[1] Əraf”, 56.

[2] “Cinn”, 26, 27.

**“Onlar həmişəlik onda qalar, dost və yardımçı tapmazlar.”**

**Bildirişlər**

1. Kafirlər hökmən Allahın qəzəbinə gələcək. Cəhənnəm hazırda da mövcuddur.
2. Kafirlərin onları oddan qoruyası hamiləri və xilas edəsi yardımçıları yoxdur.
3. Qiyamət günü bütlər və yalançı məbudlar səmərəsizdir.
4. Kafirlər Qiyamət günü hər tərəfə boylanar. Amma bunun nə faydası!

*AYƏ 66:*

﴿يَوْمَ تُقَلَّبُ وُجُوهُهُمْ فِي النَّارِ يَقُولُونَ يَا لَيْتَنَا أَطَعْنَا اللَّهَ وَأَطَعْنَا الرَّسُولَا﴾

**“Üzləri odda çevrilən gün deyərlər: “Ey kaş, Allaha itaət edib, rəsula tabe olaydıq.”**

**Nöqtələr**

Ayədə belə bir məna nəzərdə tutula bilər ki, kafirlərin çöhrələri odun təsirindən rəngdən-rəngə düşəcək.

**Bildirişlər**

1. Kafirlərin Qiyamət günü nəinki hamisi və yardımçısı yoxdur, hətta çöhrələri də onların ixtiyarında deyil.
2. Məad cismanidir.
3. Qafillər Qiyamət günü qəflət yuxusundan oyanar.
4. Qiyamətdə peşimançılığın faydası yoxdur.
5. Cəhənnəm əhli Allah və Onun rəsuluna itaət arzusunda olar.
6. Allaha itaət Onun rəsuluna itaətlə müşayiət olunduqda səmərə verir.
7. Girami Peyğəmbər (s) Allah əmrlərini bəyan etməklə yanaşı xalqa müəyyən göstərişlər verirdi.
8. Yeganə qurtuluş yolu Allah və onun rəsuluna itaət etməkdir.

*AYƏ 67:*

﴿وَقَالُوا رَبَّنَا إِنَّا أَطَعْنَا سَادَتَنَا وَكُبَرَاءنَا فَأَضَلُّونَا السَّبِيلَا﴾

**“Deyirlər: Pərvərdigara! Həqiqətən, biz ağalarımıza və böyüklərimizə itaət etdik. Bizi yoldan sapdıran onlar oldu.”**

**Nöqtələr**

“Səyyid” sözünün cəm forması olan “sadət” sözü bir cəmiyyətin rəisləri və böyükləri mənasını bildirir. “Kəbir” sözünün cəm forması olan “kumra” sözü yaşca böyüklər, ağsaqqallar mənasını ifadə edir. Bu iki zümrə, adətən, xalqın adət-ənənələrinin formalaşmasında mühüm rol oynayır.

**Bildirişlər**

1. Ömür boyu heç olmaya bir dəfə "Rəbbəna" deməyən kəs Qiyamət günü peşimançılıq və ah-nalə içində "Rəbbəna" deyə çağırar.

2. Günahkarlar öz xətalarına don geyindirir və başqalarını müqəssir sayırlar.

3. Ata-babalara və cəmiyyətin öncə gedənlərinə kor-koranə təqlid peşimançılığa səbəb olur.

4. Kafirlər Qiyamət günü öz xətalarını etiraf edər. Amma bunun nə faydası?!

***AYƏ 68:***

﴿رَبَّنَا آتِهِمْ ضِعْفَيْنِ مِنَ الْعَذَابِ وَالْعَنْهُمْ لَعْنًا كَبِيرًا﴾

**"Pərvərdigara! Onlara ikiqat əzab ver və böyük bir lənətə uğrat."**

***AYƏ 69:***

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا لَا تَكُونُوا كَالَّذِينَ آذَوْا مُوسَى فَبَرَّأَهُ اللَّهُ مِمَّا قَالُوا وَكَانَ عِندَ اللَّهِ وَجِيهًا﴾

**"Ey iman gətirənlər! Musanı incidənlər kimi olmayın. Allah onu (haqqında) deyilənlərdən paka çıxardı və o Allahın yanında abır-həya sahibi idi."**

**Nöqtələr**

57-ci ayədə peyğəmbərə qarşı əziyyətlərdən danışıldı. Bu ayədə Musaya (ə) əziyyət vermiş Bəni-İsrail kimi olmamaq tapşırılır.

Həzrət Musanın (ə) hansı böhtanla üzləşməsi ayədə açıqlanmır və ayənin anlaşılmasında rol oynamır.

Böyük lənət dedikdə "Bəqərə" surəsinin 161-ci ayəsində haqqında danışılan lənət nəzərdə tutula bilər. Ayədə bildirilirdi ki, küfrə uğrayıb, küfr vəziyyətində dünyadan gedənlər Allah, mələklər və bütün insanlar tərəfindən lənətlənəcək.

**Bildirişlər**

1. Cəhənnəm əhlinin yalnız əzabla bağlı duası qəbul olar.[1]

[1] "Təfsire-Ətyəbul-bəyan". Əraf", 37.

2. İlahi rəhbərlər bəzən möminlər tərəfindən böhtan və əziyyətə məruz qalır.
3. Başqalarına böhtandan çəkinmək iman şərtidir.
4. Övliyalara böhtanın təsirsizliyindən ibrət götürün və böhtan atmayın.
5. Allah peyğəmbərlərini düşmənlərinin böhtanlarından qoruyur.
6. İlahi insanları böhtandan qorumaq bəs etmir, onları öymək lazımdır.
7. Rəhbərlikdə müvəffəq olmaq üçün böhtandan pak saxlanılma və abır-həya sahibi olmaq şərtdir.
8. İş tapşırdığınız şəxsi himayə etməlisiniz.

***AYƏ 70:***

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا﴾

**“Ey iman gətirənlər! Təqvalı olun və əsaslı danışın.”**

***AYƏ 71:***

﴿يُصْلِحْ لَكُمْ أَعْمَالَكُمْ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ وَمَن يُطِعِ اللَّهَ وَرَسُولَهُ فَقَدْ فَازَ فَوْزًا عَظِيمًا﴾

**“(Təqvalı olub əsaslı danışın ki,) Allah işlərinizi düzə çəksin və günahlarınızı bağışlasın. Allah və Onun rəsuluna itaət edən kəs, şübhəsiz, böyük qurtuluş əldə etmişdir.”**

**Nöqtələr**

“Qəvlən səqida” dedikdə yalan və riyadan uzaq möhkəm söz nəzərdə tutulur. Belə bir söz möhkəm səd kimi şəkk-şübhələrin və fəsadın qarşısını alır.

**Bildirişlər**

1. Təqva iman, möhkəm və əsaslı söz isə təqva şərtidir.
2. Mömin insan təqva və möhkəm sözə layiqdir.
3. İmanın həm zahiri, həm də batini nişanələri var.
4. Möhkəm və əsaslı söz dedikdə natiqlik yox, dəyərli və əsaslı danışıq nəzərdə tutulur.
5. Dinlənilən hər sözü nəql etməyə dəyməz.
6. İnsan rəftar və əməllərində təqvalı olsa, digər problemləri Allah həll edər.[1]
7. Allah və Onun rəsuluna itaət qurtuluş açarıdır.

---

[1] “Nisa", 31.

## *AYƏ 72:*

﴿إِنَّا عَرَضْنَا الْأَمَانَةَ عَلَى السَّمَاوَاتِ وَالْأَرْضِ وَالْجِبَالِ فَأَبَيْنَ أَن يَحْمِلْنَهَا وَأَشْفَقْنَ مِنْهَا وَحَمَلَهَا الْإِنسَانُ إِنَّهُ كَانَ ظَلُومًا جَهُولًا﴾

**“Həqiqətən, biz (ilahi) əmanəti göylərə və yerə, dağlara təklif etdik, onlar öhdələrinə götürməyə qorxdular. Amma insan onu öhdəsinə götürdü. O, çox sitəmkar və nadandır.”**

**Nöqtələr**

Hədisdə oxuyuruq, namaz vaxtı çatanda həzrət Əlinin (ə) vücudu lərzəyə gələr və o buyurardı: “Namaz vaxtıdır. Namaz dağların və səmaların sahib durmayıb boyun qaçırdığı həmin ilahi əmanətdir.[1] “Camei kəbirə” ziyarətində Əhli-beytə xitabən oxuyuruq: “Siz hifz olunmuş əmanətsiniz.”

“Götürmək” və “götürtmək” arasında fərq var. İnsan ilahi əmanəti götürməyə məcbur edilmədi, özü bu əmanəti qəbul etdi.

Olsun ki, ayədə insanla bağlı hələ ki düşüncəyə sığmayan həqiqətlər var. Amma ayənin zahirindən belə anlaşılır ki, Allah insana göydə və yerdəki mövcudlara vermədiyi imtiyazlar vermişdir. Bu imtiyaz ilahi əmanətdir. Uyğun əmanət insanın öhdəsinə vəzifələr qoyur. Amma çoxları bu əmanətə xəyanət edib, ondan Allah iradəsinə zidd yolda faydalanırlar.

Ağıl və iradə xalqla tanışlıq və haqq yolun seçimində istifadə olunduqda insanın məqamını yüksəldir, onu kamilləşdirir. Amma insan bu əmanətlərdən batil yolda istifadə etməklə zülm-sitəmə uğradı, onun rəftarları cahilanə və düşüncəsiz hesab olundu.

**Bildirişlər**

1. İnsan göylərdən və yerdən üstündür. O Allahın varlıq aləmindəki əmanətçisidir.
2. Varlıq aləminin şüuru var.
3. Ağıl, iradə, fitrət, hidayət kimi ilahi nemətlər insana verilmiş əmanətlərdir. Əmanətə xəyanət etməyək, bu ən böyük zülmlərdəndir.
4. Göy və yerin imtina etdiyi və insanın öz öhdəsinə götürdüyü əmanət qunut, təsbih, səcdə deyil. Təsbih və qunutu göylər və yer də rahatlıqla qəbul edərdi.[2]

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

[2] “İsra”, 34; “Rum”, 26.

*AYƏ 73:*

﴿لِيُعَذِّبَ اللَّهُ الْمُنَافِقِينَ وَالْمُنَافِقَاتِ وَالْمُشْرِكِينَ وَالْمُشْرِكَاتِ وَيَتُوبَ اللَّهُ عَلَى الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ وَكَانَ اللَّهُ غَفُورًا رَّحِيمًا﴾

**“(Əmanət verildi ki) Allah münafiq kişiləri və qadınları, müşrik kişiləri və qadınları (əmanətə xəyanət etdikləri üçün) əzaba salsın, lütfünü imanlı kişilər və qadınlara çevirsin. (Və onların tövbəsini qəbul etsin). Allah bağışlayan və mehribandır.”**

**Nöqtələr**

Allahın bəndələrə tövbəsi dedikdə onları xüsusi lütfündən faydalandırması nəzərdə tutulur. Bəndələrin Allaha doğru qayıdışı isə “əla” yox, “ila” şəkilçisi ilə ifadə olunur.

**Bildirişlər**

1. İlahi əmanət məsuliyyət yaradır. Əmanəti qoruyan mərhəmətə, xəyanət edən cəzaya çatır.
2. Münafiq müşriklər cərgəsindədir.
3. Qadın və kişi mənəvi yüksəliş və ya süqutda eynidir.
4. Allah müşrikləri və münafiqləri cəzalandırsa da, insanlarla bəxşiş və mərhəmət əsasında rəftar edir.

## “SƏBA” SURƏSİ

***(34-CÜ SURƏ, 54 AYƏ)***

***İyirmi ikinci cüz***

***“SƏBA” SURƏSİNİN SİMASI***

Məkkədə nazil olmuş bu surə 54 ayədən ibarətdir. Surədə Cəba qövmü haqqında danışıldığından surə “Səba” adlandırılmışdır. Digər Məkkə surələrində oduğu kimi bu surədə də əqidə məsələlərindən, xüsusi ilə yaranış və məaddan danışılır. “Səba” surəsində həzrət Süleymanın əhvalatı, onun Səba qövmü ilə rəftarı, bəzi ilahi nemətlər. Şükür edənlərin və kafirlərin aqibəti yada salınır.

**“Rəhman və rəhim Allahın adı ilə**

**﴿بسم الله الرحمن الرحيم﴾**

***AYƏ 1:***

**﴿الْحَمْدُ لِلَّهِ الَّذِي لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي الْأَرْضِ وَلَهُ الْحَمْدُ فِي الْآخِرَةِ وَهُوَ الْحَكِيمُ الْخَبِيرُ﴾**

**“Həmd-səna göylərdə və yerdə olanların sahibi Allaha məxsusdur. Axirətdə (də) həmd-səna yalnız Onun üçündür. Odur hikmət sahibi və agah.”**

**Nöqtələr**

Quranda beş surə “Əl-həmdu lillah” cümləsi ilə başlayır.

Ayədə Allahın göylərin və yerin mülkünə qeyd-şərtsiz sahibliyi bəyan olunur. Növbəti ayədə Allahın mütləq elmi qeyd edilir. Nəhayət, üçüncü ayədə məadı inkar edənlərə bildirilir ki, biz Qiyaməti cəza və mükafat üçün bərqərar edə bilərik.

Fəxr Razi deyir: “Əməldə özünü göstərən elm hikmətdir. İşlərin aqibət və əsrarından xəbərdar olan kəs “xəbir” (agah) adlanır.”[1]

**Bildirişlər**

1. Allaha həmd-səna deməyi Onun özündən öyrənək.
2. Kamal, qüdrət, malikiyyət, agahlıq və hikmət qarşısında sitayiş lazımdır.
3. Dünyada Allahdan qeyrilərinə də sitayiş olunur. Amma axirətdə sitayiş yalnız Allaha məxsusdur.
4. Allaha sitayiş üçün heç bir məhdudiyyət yoxdur.[2]
5. Allahın malikiyyəti həm əhatəlidir, həm də hikmət və agahlığa əsaslanır.
6. Varlıq aləmi dünya və axirətdə ilahi hikmət əsasında dolanır.

***AYƏ 2:***

**﴿يَعْلَمُ مَا يَلِجُ فِي الْأَرْضِ وَمَا يَخْرُجُ مِنْهَا وَمَا يَنزِلُ مِنَ السَّمَاء وَمَا يَعْرُجُ فِيهَا وَهُوَ الرَّحِيمُ الْغَفُورُ﴾**

**“O yerə gömüləni də, ondan çıxanı da, səmadan nazil olanı da, ondan yüksələni də bilir. Odur mehriban və bağışlayan!”**

**Nöqtələr**

Ümumi məlumatdan sonra nümunələr göstərmək lazımdır. Allah ümumi şəklidə agahlığını qeyd etdikdən sonra öz elm nümunələrini göstərir. Toxumun

---

[1] “Təfsire-Kəbire-Fəxr Razi”.

[2] “Yunus”, 10.

əkilməsi, onun cücərib torpaqdan qalxması, yağış, quşların səmaya yüksəlişi ayə ilə bağlı nümunələrdəndir.

Qurani-kərimdə “ğəfur” (bağışlayan) və “rəhim” (mehriban) sözləri 49 dəfə yanaşı şəkildə işlədilmişdir. Öncə “ğəfur”, sonra “rəhim” sözü qeyd olunur. Yalnız bu ayədə “rəhim” sözü “ğəfur” sözündən öncə bəyan olunur. Nəzərdə tutulan ayələrin əksərində insanların əməllərindən danışıldığı üçün öncə “ğəfur” sifəti bəyan oluna bilər. Amma bu ayədə diqqət Allahın elm, lütf və rəhmətinə yönəlmişdir. Olsun ki, bu səbəbdən hazırkı ayədə öncə “rəhim”, sonra “ğəfur” sifətləri qeyd olunmuşdur.

**Bildirişlər**

1. Allah təkcə varlıq aləminin sahibi deyil. O varlıq aləmində baş verən ən kiçik işlərdən agahdır.
2. Varlıq aləmində əşyalar hərəkətdədir.
3. Yağışın yağması onun rəhmətini, insanın pis əməllərini faş etməməsi Onun bağışlayan olduğunu göstərir.
4. Allah hər şeydən xəbərdar olsa da insanı rüsvay etmir.

### *AYƏ 3:*

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا لَا تَأْتِينَا السَّاعَةُ قُلْ بَلَى وَرَبِّي لَتَأْتِيَنَّكُمْ عَالِمِ الْغَيْبِ لَا يَعْزُبُ
عَنْهُ مِثْقَالُ ذَرَّةٍ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ وَلَا أَصْغَرُ مِن ذَلِكَ وَلَا أَكْبَرُ إِلَّا فِي
كِتَابٍ مُّبِينٍ﴾

**“Küfrə uğrayanlar dedilər: “Bizi Qiyamət gözləmir. “ De ki, and olsun qeybdən xəbərdar Rəbbimə, Qiyamət sizin sorağınızca gələcək. Göylərdə və yerdə Allaha zərrəcə gizli qalmış şey yoxdur. İstər daha kiçik, istər daha böyük, nə varsa, açıq-aydın kitabdadır.”**

**Bildirişlər**

1. Küfrü aradan qaldırmaq üçün küframiz sözləri nəql etmək olar.
2. Müxaliflərin baxışlarını nəzərdən keçirib rədd etməklə möminləri sığortalayın.
3. Məadı inkar edənlərin iddiaları əsassızdır, onların heç bir dəlili yoxdur.
4. Küframiz sözlərə sərt cavab verilməlidir.
5. Allahın məhdudiyyətsiz elmi əhatəsi Qiyamətin gerçəkləşəcəyinə sübutdur.
6. Qiyamət vaxtı qeybə aid məlumatlardandır.
7. Qiyamət sorğusu Allahın sonsuz elminə əsaslanır.
8. İlahi elmdə əşyaların böyük-kiçikliyinin fərqi yoxdur. (Kiçik bir mıx və uca bir qalaya baxmağın göz üçün fərqi yoxdur. Allahın elmi kiçik və böyük əşyaları eyni dərəcədə əhatə edir.)

*AYƏ 4:*

﴿لِيَجْزِيَ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ أُوْلَئِكَ لَهُم مَّغْفِرَةٌ وَرِزْقٌ كَرِيمٌ﴾

**“(Qiyamət sorğusu ona görədir ki) iman gətirib saleh işlər görənlər mükafatlandırılsın. Əfv və gözəl ruzi onlar üçün qərar verilib.”**

**Nöqtələr**

“Rizqun kərim” dedikdə minnət və zillətdən uzaq, vüsət, kəramət və izzətlə müşayiət olunan ruzi nəzərdə tutulur.

**Bildirişlər**

1. Qiyamət mükafatlandırma üçün nəzərdə tutulub
2. Yalnız hər şeydən xəbərdar olan kəs əməlləri lazımınca dəyərləndirə bilər.
3. Allahın mərhəməti Onun qəzəbindən müqəddəmdir.
4. Mükafat əldə etmək üçün iman və saleh əməldən başqa yol yoxdur.
5. Nemət əldə etmək üçün müqəddimə bağışlanmaqdır.
6. Axirət ruzisi çox geniş, böyük və gözəldir.
7. Həm mənəvi, həm də maddi ilahi mükafatlar var.

*AYƏ 5:*

﴿وَالَّذِينَ سَعَوْا فِي آيَاتِنَا مُعَاجِزِينَ أُوْلَئِكَ لَهُمْ عَذَابٌ مِّن رِّجْزٍ أَلِيمٌ﴾

**“Ayələrimizə qarşı çalışıb bizi çarəsiz qoymaq istəyənlər üçün ağrılı əzab var.”**

**Nöqtələr**

Müqəddəslikləri hədəf seçmiş düşmənlər, ilahi amallara qarşı çıxanlar Allah tərəfindən zəliledici və ağrılı əzabla cəzalandırılar.

**Bildirişlər**

1. Düşmənlər ciddi təlaşdadır siz də qəflətdə qalmayın.
2. İnsan yolunu o qədər aza bilər ki, ilahi ayələrin qarşısına səd çəkmək fikirənə düşər.
3. Saleh möminlərin mükafatını Allah verirsə, kafirlər öz əməllərinin acısını dadır.
4. Xəbərdarlıq və təşviq yanaşı olmalıdır.

*AYƏ 6:*

﴿وَيَرَى الَّذِينَ أُوتُوا الْعِلْمَ الَّذِي أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ هُوَ الْحَقَّ وَيَهْدِي إِلَى صِرَاطِ الْعَزِيزِ الْحَمِيدِ﴾

**“Elm verilənlər Rəbbin tərəfindən sənə nazil edilənin haqq olduğunu, yenilməz və həmd olmuş Allahın yoluna yönəltdiyini görürlər.”**

**Bildirişlər**

1. Elm insanın baxışını itiləşdirir.
2. Tarixi nəql edərkən istər mömin, istər kafir, bütün keçmiş qövmlərin əməllərini yada salaq.
3. Alimlər ixtiyarlarındakı elmin Allah tərəfindən verildiyinə inansınlar.
4. Quranı haqq sayaraq qəbul etmək gerçək elm nişanəsidir. Elm və mərifətsiz Allahı tanımaq mümkün deyil.
5. Həqiqi alim Allah tərəfindən nazil olanı qəbul edir.
6. Vəhy göndərmək Allahın Rübubiyyət şənindəndir.
7. Haqq meyarı vəhy və Qurandır.
8. Peyğəmbərlərin yolu izzət və şərəf yoludur.
9. İlahi yol yenilməzdir və kafirlər boş yerə çalışır.
10. Dünyadakı güc sahibləri adətən sevilmir. Amma Allah sevilib sitayiş olunan iqtidardır.

***AYƏ 7:***

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا هَلْ نَدُلُّكُمْ عَلَى رَجُلٍ يُنَبِّئُكُمْ إِذَا مُزِّقْتُمْ كُلَّ مُمَزَّقٍ إِنَّكُمْ لَفِي خَلْقٍ جَدِيدٍ﴾

**“Küfr edənlər (istehza ilə) dedilər: “Sizə (qəbirlərdə) tam çürüyüb dağıldıqdan sonra (növbəti dəfə) diriləcəyinizi xəbər verən şəxsi göstərəkmi?”**

**Bildirişlər**

1. Kafirlər din və müqəddəsliklərin ziddinə təbliğat aparır. Onlar təhqir və məsğərədən başqa bir iş bacarmır.
2. Kafirlər xalqın dinə gəlişinə mane olur, özlərini xalqa rəhbər sayırlar.
3. Kafirlər xalqı dindən uzaqlaşdırmaq üçün dini şəxsiyyətləri və müqəddəslikləri alçaltmağa çalışırlar.
4. Kafirlər xalqı dini əqidələrdən çəkindirmək üçün dini məfhumların hiss üzvləri yox, düşüncə ilə qavranması xüsusiyyətindən istifadə edirlər.

***AYƏ 8:***

﴿أَفْتَرَى عَلَى اللَّهِ كَذِبًا أَم بِهِ جِنَّةٌ بَلِ الَّذِينَ لَا يُؤْمِنُونَ بِالْآخِرَةِ فِي الْعَذَابِ وَالضَّلَالِ الْبَعِيدِ﴾

**“Görən o (bilərəkdən) Allaha iftira yaxır, yoxsa dəliliyi var? (Xeyir, belə deyil) axirətə inanmayanlar əzabda və (qurtuluş və haqdan) uzaq bir azğınlıq içindədirlər.”**

**Bildirişlər**

1. Bəzi kafirlər Allahı yox, məadı inkar edirlər. Onlar Allaha iftira yaxmağı pis iş sayırlar.
2. Kafirlər bütün azğın yolları tapdağ edir, amma iman gətirmirlər.
3. Axirətə inamsızlıq dünya və axirətdə dadılası əzab növüdür. (Ən böyük dünya əzabı yox olmaq və ölüm qorxusudur.)
4. Qiyaməti qəbul etməyən insan üçün heç bir qurtuluş yolu yoxdur.

*AYƏ 9:*

﴿أَفَلَمْ يَرَوْا إِلَى مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُم مِّنَ السَّمَاء وَالْأَرْضِ إِن نَّشَأْ نَخْسِفْ بِهِمُ الْأَرْضَ أَوْ نُسْقِطْ عَلَيْهِمْ كِسَفًا مِّنَ السَّمَاء إِنَّ فِي ذَلِكَ لَآيَةً لِّكُلِّ عَبْدٍ مُّنِيبٍ﴾

**“Yoxsa göydən və yerdən qarşılarında və arxalarında olanı görmürlər? Əgər istəsək, onları yerə batırar və ya başlarına göy parçaları (daşları) endirərik. Həqiqətən, bunda (bu xəbərdarlıqda) tövbə edən hər bir bəndə üçün ibrət var.”**

**Bildirişlər**

1. Məad və digər qeybi həqiqətlərə iman üçün göz qabağında olanlardan ibrət götürün. Varlıq aləminin əzəməti haqqında düşüncə məada iman qaynağıdır. Ötən ayədə “onların axirətə imanı yoxdur” deyilirdisə, bu ayədə “nə üçün yaranmışlara baxmırlar” deyə soruşulur.
2. Allah varlıq aləmində istənilən bir dəyişiklik aparmağa qadirdir.
3. Məntiqlə yanaşı xəbərdarlıq da lazımdır.
4. Varlıq aləmi haqqında düşüncə bəndəlik və Allah dərgahına yalvarış amilidir.

*AYƏ 10:*

﴿وَلَقَدْ آتَيْنَا دَاوُودَ مِنَّا فَضْلًا يَا جِبَالُ أَوِّبِي مَعَهُ وَالطَّيْرَ وَأَلَنَّا لَهُ الْحَدِيدَ﴾

**“Həqiqətən, Davuda öz tərəfimizdən fəzilət verdik. (Dedik) ey dağlar! Onunla səs-səsə verin. Ey quşlar! (ona qoşulun!) onun üçün dəmiri yumşaltdıq.”**

**Nöqtələr**

Olsun ki, dağların Davudla birgə naləsi dedikdə onların təsbihi nəzərdə tutulur.[1]

Allah hərzət Davuda 12 fəzilət vermişdi: ilahi elm[2]; nübüvvət və risalət[3]; səmavi kitab[4]; xilafət[5]; sabit hakimiyyət[6]; geniş imkan[7]; hikmət[8]; qəzavət (mühakimə)[9]; dəmirin əridilməsi; quşların dilini anlamaq[10]; dağların və quşların onunla səs-səsə verməsi; Süleyman kimi bir övlad[11].

Hədisdə oxuyuruq: "Allah Davuda buyurdu: "Beytül-maldan (təbliğ üçün nəzərdə tutulmuş dini büdcədən) istifadə etməsən yaxşı bəndəsən!" həzrət Davud 40 gün ağladı. Nəhayət, Allah onun əli ilə dəmiri yumşaltdı. Davud gündə bir zireh toxuyub 1000 dirhəmə satırdı. O 360 zireh toxumuşdu.[12]

**Bildirişlər**

1. Allah seçilmiş bəndələrinə xüsusi ətalar edir.
2. Varlıq aləminin şüuru var, Allah bu aləmə xitab edir.
3. Mövcudların minacatı məcazi yox, həqiqi bir işdir.
4. İnsan həm dünya, həm də axirəti əldə edə bilər. (Davud həm peyğəmbərlik məqamına çatmışdı həm də təbiətin işlərinə qatılırdı.)
5. Allahın övliyaları təbii gedişata qatılıb varlıq aləminə təsir edə bilmişlər.
6. Təbiətdən istifadə bir dəyərdir.
7. Allaha görə qəlbini yumşaldan insan üçün dəmir yumşaldılar.
8. Dəmirin əridilməsinin uzun keçmişi var.
9. Allahın övliyaları sənətlə tanış olmuşlar.

***AYƏ 11:***

﴿أَنِ اعْمَلْ سَابِغَاتٍ وَقَدِّرْ فِي السَّرْدِ وَاعْمَلُوا صَالِحًا إِنِّي بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**"(Dedik) kamil və geniş zirehlər düzəlt, toxunuşda düzgün ölçü götür. (Ey iman gətirənlər!) Saleh işlər görün, həqiqətən, mən əməllərinizi görürəm."**

**Nöqtələr**

"Sabiğat" dedikdə kamil və geniş zirehlər mənası anlaşılır.

---

[1] "Sad", 18.
[2] "Nəml", 15.
[3] "Bəqərə", 251.
[4] "İsra", 55.
[5] "Sad", 26.
[6] "Sad", 20.
[7] "Nəml", 16.
[8] "Səff", 20.
[9] "Sad", 26.
[10] "Nəml", 16.
[11] "Sad", 30.
[12] "Kafi", c. 5, s. 74; "Təfsire-Nurus-səqəleyn", c. 3, s. 446.

“Sərd” sözü toxumaq mənasını bildirir. “Vəqqətdir-fis-sərd”, yəni zireh toxuyarkən mütənasibliyə və ölçüyə diqqət yetir.

**Bildirişlər**

1. Sənət xalqa xidmət etməlidir və ona müdiriyyət saleh insanlara tapşırılmalıdır.
2. İlahi insanların əlindən çıxan iş kamil olmalıdır.
3. Sənət diqqət və keyfiyyətlə müşayiət olunmalıdır.
4. Hərbi sənaye təcavüz yox, sülhə xidmət etməlidir.
5. Dəmirçilik və metal əritmənin uzun keçmişi var.
6. Allahın elminə iman saleh əmələ sövq edir.

***AYƏ 12:***

﴿وَلِسُلَيْمَانَ الرِّيحَ غُدُوُّهَا شَهْرٌ وَرَوَاحُهَا شَهْرٌ وَأَسَلْنَا لَهُ عَيْنَ الْقِطْرِ وَمِنَ الْجِنِّ مَن
يَعْمَلُ بَيْنَ يَدَيْهِ بِإِذْنِ رَبِّهِ وَمَن يَزِغْ مِنْهُمْ عَنْ أَمْرِنَا نُذِقْهُ مِنْ عَذَابِ السَّعِيرِ﴾

**“Küləyi Süleyman üçün ram etdik. O bir aylıq yol süblər, bir aylıq yol günortadan sonra gedərdi. Onun üçün mis çeşməsi axıtdıq. Cinlərdən bir dəstəsi Rəbbinin izni ilə Onun qabağında işləyirdi. Onların itaətimizdən çıxanına şölələnən əzab daddırırdıq.”**

**Nöqtələr**

“Ğuduvv” dedikdə sübhə doğru “rəvah” dedikdə günortadan sonra hərəkət nəzərdə tutulur. “Əyn” sözü mis əridilən qab mənasını bildirir.

Allah atası Davud (ə) kimi Süleymana (ə) da xüsusi lütfünü əta etmişdi.

Qurana əsasən, cin vəzifəli, ağıllı, seçim aparan, qüdrətli və çalışqan bir mövcuddur.

“Sad” surəsində buyurulur ki, cinlər Süleyman üçün bənnalıq və üzgüçülük edirdilər.[1]

Küləyin həzrət Süleymana ram olması dedikdə ondan gəmilərin hərəkətində, bitkilərin tozlanmasında, havanın təmizlənməsində istifadə nəzərdə tutulur.

Təhrif olunmuş Tövrat həzrət Süleymanı (ə) qəddar padşah, bütxana tikən bir şəxs, qadınların həvəslərinə təslim olan şəxs kimi tanıtdırır.[2]

**Bildirişlər**

1. Peyğəmbərlər varlıq aləminə, təbiətə hökm etmişlər.
2. Təbiəti ram etmək üçün təkcə təbii təhlillərlə kifayətlənməyin. (Küləklərin hərəkəti Allahın istəyi ilə Süleymanın ixtiyarına verilmişdi.)
3. Allah bütün işlərə eyni dərəcədə qadirdir. (Allah dəmiri həzrət Davuda (ə), küləyi həzrət Süleymana ram etdi.)

---

[1] “Sad”, 37.

[2] “Təfsiri-nümunə”.

4. Allah həzrət Davuda (ə) dəmiri, həzrət Süleymana misi əritmək gücü verdi. (Həzrət Süleymanın dövründə misgərlik vardı.)

5. İnsan cini özünə tabe edə bilər.

6. Cin Allahın istək və iradəsi ilə insan üçün işləyir.

7. Müdiriyyət üçün qüdrət və qətiyyətə ehtiyac var.

8. Cin azaddır, insan kimi o da Allahın əmrindən boyun qaçıra bilər. Əlbəttə, tabe olmayan cin cəzalandırılır.

***AYƏ 13:***

﴿يَعْمَلُونَ لَهُ مَا يَشَاءُ مِن مَّحَارِيبَ وَتَمَاثِيلَ وَجِفَانٍ كَالْجَوَابِ وَقُدُورٍ رَّاسِيَاتٍ اعْمَلُوا آلَ دَاوُودَ شُكْرًا وَقَلِيلٌ مِّنْ عِبَادِيَ الشَّكُورُ﴾

**"Allah Süleymanın istədiyini – mehrablar, mücəssəmələr, hovuz kimi böyük qablar, tərpənməyən qazanlar düzəldirdilər. Ey Davud ailəsi! (Bütün bu nemətlərə görə) şükür edin. Amma bəndələrimdən çox azı şükür edir."**

**Nöqtələr**

"Mehrab" sözünün cəm forması olan "məharib" sözü ibadət yerləri, hərb məhəlləri mənasını bildirir. Qəsrlərin yüksəkliyində müdafiə üçün xüsusi yerlər hazırlanırdı.[1]

"Təmasil" sözü mücəssəmələr mənasını bildirir. Bu söz təbiətdə olan şeylərin zinət üçün düzəldilmiş mücəssəmələrinə işarə ola bilər. İmam Baqir (ə) bir rəvayətdə buyurur ki, təmasil dedikdə insan və heyvanların yox, ağac və bitkilərin mücəssəməsi nəzərdə tutulur.[2] Hovuz kimi çox böyük qablar "cifan" adlandırılır. "Cəvab" sözü hövuz mənasını bildirir. "Qidr" sözünün cəm forması olan "qudur" sözü böyük qazanlar deməkdir. "Rasiyat" sözü sabit mənasını ifadə edir.

Çoxları şükür edir. Amma "şəkaur", yəni daim şükür halında olan insan azdır.

**Süleyman və nemətlər**

1. Süleyman ona verilən nemətlərə görə şükür üçün Allahdan tövfiq, yardım istədi.[3]

2. Süleyman nemətləri sınaq vasitəsi sayırdı.[4]

3. Süleymanı başqalarının hədiyyələri maraqlandırmırdı.[5]

4. Süleymanın dərin elmi düşüncəsi vardı.[6]

---

[1] "Təfsire-rahnoma".
[2] "Təfsire-Əl-mizan".
[3] "Əhqaf", 15.
[4] "Nəml", 40.
[5] "Nəml", 36.
[6] "Ənbiya", 79.

5. Süleyman quşların dilini bilirdi.[1]

6. Qoşun nizamlı şəkildə Süleymanın (ə) hüzurundan keçirdi.[2]

7. Quşlar Süleymanın xidmətində idi.[3]

8. O dini təbliği üçün bütün imkanlardan faydalanırdı.[4]

9. Onun tabeçiliyində olanlar arasında "teyyul-ərz", yəni qeybi yardımla uzun məsafəni bir anda adlayanlar vardı.[5]

10. Onun misilsiz hökuməti vardı.[6]

11. Süleyman xoş aqibətə, Allah yanında uca məqama çatdı.[7]

12. Cinlər onun xidmətində dayanmışdı.[8]

**Bildirişlər**

1. Cinlər mahir, sənətkar mövcudlardır.

2. İşçi müdirin nəzarəti altında olmalıdır.

3. Öncə mənəviyyata, sonra maddiyyata diqqət yetirək.

4. Misgərlik və tökməçiliyin uzun keçmişi var. (Həzrət Süleymanın dövründə əridilmiş misdən qablar hazırlanırdı.)

5. İnsanın ixtiyarına verilmiş imkanlar onun Allaha şükür etməsi üçün zəminə olmalıdır.

6. Şükür təkcə dilə yox, həm də əmələ aiddir.

***AYƏ 14:***

﴿فَلَمَّا قَضَيْنَا عَلَيْهِ الْمَوْتَ مَا دَلَّهُمْ عَلَى مَوْتِهِ إِلَّا دَابَّةُ الْأَرْضِ تَأْكُلُ مِنسَأَتَهُ فَلَمَّا خَرَّ تَبَيَّنَتِ الْجِنُّ أَن لَّوْ كَانُوا يَعْلَمُونَ الْغَيْبَ مَا لَبِثُوا فِي الْعَذَابِ الْمُهِينِ﴾

**"Elə ki, Süleymana ölüm hökmü verdik, bu ölümdən cinlərə onun əsasını yeyən həşəratdan savayı xəbər verən olmadı. Elə ki, Süleyman yerə yıxıldı, cinlər anladılar ki, qeybi bilsəydilər, həmin zəliledici əzabda qalmazdılar."**

**Nöqtələr**

Həzrət Əli (ə) buyurur: "Əgər bir şəxsin əbədi qalmaq üçün yolu olsaydı, ölümdən qaça bilsəydi, həmin şəxs elə Süleyman olardı. Cin və ins ona ram olmuşdu, onun nübüvvət məqamı vardı, uca ilahi məqama malik idi."[9]

---

[1] "Nəml", 16.
[2] "Nəml", 17.
[3] "Nəml", 20.
[4] "Nəml", 28.
[5] "Nəml", 40.
[6] "Sad", 35.
[7] "Sad", 25.
[8] "Sad", 37.
[9] "Nəhcül-bəlağə", x. 182.

“Minsəət” dedikdə əsa nəzərdə tutulur. Rəvayətlərə əsasən, “əl əzabil-muhin” ifadəsi cinlərin məşğul olduğu ağır işlərə işarədir.[1]

**Bildirişlər**

1. Ölüm vaxtı Allahın əlindədir.
2. Ölüm hətta peyğəmbərik və səltənətə malik olanların sorağına gedir.
3. Heyvanlar Allahın əmrinə tabedir.
4. Cin qeybi bilmir. (Süleyman yerə yıxılanda həm cinlər anladılar ki, qeybi bilmirlər, həm insanlar başa düşdülər ki, cinlərin qeyblə bağlı iddiası əsassızdır.)
5. Cinlər üçün izzət və zillət var, onlar çətin işdən qaçırlar.

Heyvanlar Allahın əmrinə tabedir.

1. İnəyin bir parça əti ölünü dirildir və ölü ayağa qalxıb qatilini göstərir.[2]
2. hörümçək peyğəmbəri mağarada qoruyur.[3]
3. Qarğa bəşəriyyətə dərs verir.[4]
4. Hud-hud Süleymanın məktubunu Bəlqisə aparır.[5]
5. Əbabil filə süvar olanları məhv edir.[6]
6. Əcdaha Musanın haqqının sübutu üçün vasitə olur.[7]
7. Nəhəng su canlısı Yunisi tənbeh edir.[8]
8. Kiçik həşərat Süleymanın ölümündən xəbər tutur.[9]
9. İtə əmr olunur ki, Kəhf səhabələrini qorusun.[10]
10. İbrahim dörd quş vasitəsi ilə yəqinlik tapır.[11]
11. Üzeyir ulaq vasitəsi ilə məada əmin olur.[12]
12. Dəvə, inək, qoyun həcc mərasimində dini mahiyyət kəsb edir.[13]
13. Heyvan allahşünaslıq üçün vasitə olur.[14]
14. Heyvan insanın sınağa çəkilməsi üçün vasitə olur.[15]
15. Heyvan ilahi bir möcüzədir.[16]
16. Heyvan ilahi qəzəb vasitəsi olur.[17]

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Bəqərə”, 63, 73.
[3] “Tövbə”, 40.
[4] “Maidə”, 31.
[5] “Nəml”, 28.
[6] “Fil”, 3.
[7] Əraf”, 107.
[8] “Saffat”, 142.
[9] “Səba”, 14.
[10] “Kəhf”, 18.
[11] “Bəqərə”, 260.
[12] “Bəqərə”, 259.
[13] “Həcc”, 36.
[14] “Ğaşiyə”, 17.
[15] “Maidə”, 94.
[16] Əraf”, 73.
[17] Əraf”, 133.

Quranın bir neçə surəsi heyvan adı ilə adlandırılmışdır: “Bəqərə”, “Ənam”, “Nəhl”, “Nəml”, “Ənkəbut” və “Fil”.

### *AYƏ 15:*

﴿لَقَدْ كَانَ لِسَبَإٍ فِي مَسْكَنِهِمْ آيَةٌ جَنَّتَانِ عَن يَمِينٍ وَشِمَالٍ كُلُوا مِن رِّزْقِ رَبِّكُمْ
وَاشْكُرُوا لَهُ بَلْدَةٌ طَيِّبَةٌ وَرَبٌّ غَفُورٌ﴾

**“Həqiqətən Səba qövmü üçün məskunlaşdığı yerdə (ilahi qüdrət və rəhmətdən) nişanə vardı: Sağdan və soldan iki bağ. Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin; pak şəhəriniz və bağışlayan rəbbiniz var.”**

**Nöqtələr**

“Səba” Yəməndə məhsuldar bir məntəqənin adıdır. Bu ad həmin məntəqənin böyük bir şəxsiyyətinin adından götürülmüşdür.

İnsanlar rifah və nemətə çatdıqda iki növ münasibət göstərir: bəziləri Süleyman kimi Allahdan şükür tövfiqi diləyir, bəziləri Səba qövmü kimi nankorluq göstərir.

Quranda harada yeməkdən danışılırsa, bununla yanaşı məsuliyyət qeyd olunur: yeyin və şükür edin, yeyin və yedirdin, yeyin və saleh iş görün, yeyin, amma israf etməyin...[1]

**Bildirişlər**

1. Səba məmləkətində baş verənlər ibrətamizdir.
2. Səba məntəqəsindəki bağların xüsusi bir təravəti vardı.
3. Təbiətin gözəllikləri ilahi ayələrdən (nişanələrdən)biridir.
4. Səba məntəqəsində heç bir nöqsan, bəla, qeyri-sabitlik, günahkarlıq və qıtlıq yox idi.
5. İlahi nemətlər qarşısında şükür etmək lazımdır. İnsan layiqincə şükür etməsə də, Allah onu bağışlayır.
6. Məskən seçərkən həmin yerin abadlığını, paklığını, təmizliyini nəzərə alın.
7. Ruzi, vermək və bağışlamaq Allahın rübubiyyət şənlərindədir.

---

[1] “Bəqərə”, 168; “Həcc”, 28; “Muminun”, 51; Əraf”, 31.

## *AYƏ 16:*

﴿فَأَعْرَضُوا فَأَرْسَلْنَا عَلَيْهِمْ سَيْلَ الْعَرِمِ وَبَدَّلْنَاهُم بِجَنَّتَيْهِمْ جَنَّتَيْنِ ذَوَاتَى أُكُلٍ خَمْطٍ وَأَثْلٍ وَشَيْءٍ مِّن سِدْرٍ قَلِيلٍ﴾

**"(Şükür etmək əvəzinə Allahdan) üz döndərirlər. Biz onların üstünə viranedici "ərim" selini göndərdik. Onların (məhsuldar) iki bağını acı meyvəli, yolğun və bir az da sidr ağaclı bağlara çevirdik."**

**Nöqtələr**

"Ərim" dedikdə ya "qəzəb", ya da "viranedici" mənaları nəzərdə tutulur. Bu söz "səd" mənasını da ifadə edə bilər. Yəni səddi aşmaqla yoluna davam edən bir sel!

"Ukul" sözü yeməli mənasını bildirir. Acı ota "xəmt", yulğun ağaca və tikanlı ağaca "əsl" deyilir.

Quranda xalqın üz döndərməsi dəfələrlə qeyd olunur: Allah zikirindən üz çevirmək[1]; Allahın ayələrindən üz çevirmək[2]; Allahın nemətlərindən üz çevirmək[3]; Allahın rəsulundan üz çevirmək.[4]

**Bildirişlər**

1. Arxa çevirmək və naşükürlük ilahi qəzəblə sonuclanır.

> ***Şükür qılsan artar əlində olan,***
> ***Nankorluqdur neməti edir talan.***

2. Sel, zəlzələ, tufan, şimşək, təsadüfi deyil.
3. Təbiət Allahın qəzəb əmrini yerinə yetirir.
4. Nemət bəzən artır, bəzən azalır, bəzən dəyişir.[5]

## *AYƏ 17:*

﴿ذَلِكَ جَزَيْنَاهُم بِمَا كَفَرُوا وَهَلْ نُجَازِي إِلَّا الْكَفُورَ﴾

**"Nankorluqlarına görə onları belə cəzalandırdıq. Məgər nankorlardan başqasını cəzalandırırıqmı?!"**

**Nöqtələr**

"Cəza" dedikdə həm mükafat, həm də cəza, "mücazat" dedikdə yalnız cəza nəzərdə tutulur.

---

[1] "Taha", 124.
[2] "Qəmər", 2.
[3] "İsra", 83.
[4] "Sad", 67, 68.
[5] "Bəqərə", 261, 155.

**Bildirişlər**

1. Bədbəxtliklərimizin səbəbi öz əməllərimizdir.
2. Allahın cəzaları təkcə Səba qövmünə aid deyil, bütün günahkarları əhatə edir.
3. Küfr və onun davamı ilahi qəzəblə sonuclanır.

***AYƏ 18:***

﴿وَجَعَلْنَا بَيْنَهُمْ وَبَيْنَ الْقُرَى الَّتِي بَارَكْنَا فِيهَا قُرًى ظَاهِرَةً وَقَدَّرْنَا فِيهَا السَّيْرَ سِيرُوا فِيهَا لَيَالِيَ وَأَيَّامًا آمِنِينَ﴾

**“Onlar və bərəkətli qərar verdiyimiz məntəqələr arasında aşkar abadlıqlar vardı. Məntəqələr arasında gediş-gəliş nizamlamışdıq. (Onlara dedik) bu məntəqələrdə gecələr və gündüzlər arxayınlıqla səfərə çıxın.”**

***AYƏ 19:***

﴿فَقَالُوا رَبَّنَا بَاعِدْ بَيْنَ أَسْفَارِنَا وَظَلَمُوا أَنفُسَهُمْ فَجَعَلْنَاهُمْ أَحَادِيثَ وَمَزَّقْنَاهُمْ كُلَّ مُمَزَّقٍ إِنَّ فِي ذَلِكَ لَآيَاتٍ لِّكُلِّ صَبَّارٍ شَكُورٍ﴾

**“(Nankorluqla) dedilər: “Pərvərdigara! Səfərlərimizə ara qoy.” Onlar özlərinə zülm etdilər. Biz onları (başqalarının) ibrət götürməsi üçün) dəlillərdə dastan etdik və pərən-pərən saldıq. Həqiqətən, bunda (onların naşükürlüyü və bizim qəzəbimizdə) hər bir səbir edən və şükür qılan üçün nişanələr var.”**

**Nöqtələr**

“Əhadis” dedikdə xalqın vaxt keçirmək və ya misal göstərmək üçün bir-birinə danışdığı xəbərlər nəzərdə tutulur.

Allah Səba qövmünə bir neçə xüsusi nemət vermişdi: Bərəkətli və məhsuldar məntəqələr; bir-birinə yaxın və baxanda görünən yerlər və məskənlər; gecə və gündüz heç bir maneə olmadığından asan səfər; əmin-amanlıq neməti.

***SƏBA QÖVMÜNÜN ƏHVALATI***

Hazırkı ayələrdən və müəyyən rəvayətlərdən məlum olur ki, Səba qövmü ərəbistan yarmadasının cənub məntəqəsində məskunlaşıbmış. Onların ali və parlaq bir mədəniyyəti olmuşdur.

Bu məntəqədə su hövzəsi olmadığından və yağış suyu bir yerə toplanmadığından, insanlar qərara gəldilər ki, böyük bir bənd tikib suyu bir yerə toplasınlar. Nəhayət, Marib şəhərinin yaxınlığında əzəmətli bir bənd ucaltdılar.

Bu səddi aşan su iki istiqamətdə yönəlib əkin sahələrinin və bağ-bağçaların rövnəqlənməsinə səbəb oldu. Bol sudan faydalanıb gözəlləşmiş kəndlər

arasında olduqca az məsafə vardı. Asayişlə yanaşı bol nemət yaşayış üçün çox münasib şərait yaratmışdı. Amma Səba qövmü Allahı unudub qürrələndi və təbəqələrarası ixtilaflar başladı. Varlılar özlərindən aşağı təbəqə kimi və ya onlarla birlikdə səfərə çıxmaq istəmir, imtiyazlar üçün çalışırdılar.

Nəql olunur ki, səhra mışları qorulmuş bəndə hücum çəkib onu uçurdular və sel böyük Səba mədəniyyətini torpaq altda dəfn etdi. Quranda qeyd olunur ki, həmin abad məmləkətdən acı meyvəli ağaclardan, yolğun və sidrdən başqa bir şey qalmadı.[1]

**Bildirişlər**

1. Səba qövmü Allaha inanırdı və ona "Rəbbəna" deyə müraciət edirdi.
2. Nankorluq insanın özünə zülmüdür.
3. Səba qövmünün məhvi xalq arasında dastana çevrildi, zərbil-məsəl oldu.
4. Nankorluq insanın həyatını puça çıxarır.
5. Fərdlər və millətlər tarixdən ibrət götürüb səbir və şükürlə həyatını davam etdirə bilər.

***AYƏ 20:***

﴿وَلَقَدْ صَدَّقَ عَلَيْهِمْ إِبْلِيسُ ظَنَّهُ فَاتَّبَعُوهُ إِلَّا فَرِيقًا مِّنَ الْمُؤْمِنِينَ﴾

**"Bəli, onlara (Səba qövmünə) münasibətdə öz gümanını (Adəm övladını azdırmaq məqsədini) gerçək gördü. Möminlərdən kiçik bir dəstə istisna olmaqla, hamılıqla ona tabe oldular."**

**Bildirişlər**

1. Nankorluq İblis üçün nüfuz və müvəffəqiyyət yoludur.
2. İblis insanları yoldan çıxaracağına əmin deyil.

***AYƏ 21:***

﴿وَمَا كَانَ لَهُ عَلَيْهِم مِّن سُلْطَانٍ إِلَّا لِنَعْلَمَ مَن يُؤْمِنُ بِالْآخِرَةِ مِمَّنْ هُوَ مِنْهَا فِي شَكٍّ وَرَبُّكَ عَلَى كُلِّ شَيْءٍ حَفِيظٌ﴾

**"İblisin onlar üzərində heç bir ağalığı yox idi. (Onun işi yalnız şübhə toxumu səpməkdir.) belə ki, axirətə iman gətirəni axirətə münasibətdə tərəddüddə olandan fərqləndirək. Rəbbin hər şeyin keşiyindədir."**

**Nöqtələr**

Allahın hər şeydən xəbərdarlığını və hər şeyə şahidliyini nəzərə alsaq "minələmə..." cümləsini müəyyənləşdirmək mənasında qəbul etməliyik. Yəni məqsəd insanlara mömin və kafirin kimliyini göstərmək və ya İblisə tabe olanları möminlərdən ayırmaqdır.

[1] "Təfsiri-nümunə".

**Bildirişlər**

1. Şeytan insanı məcbur edə bilməz, insanlar könüllü olaraq İblisə üz tutur.
2. Qiyamətə iman şeytan qarşısında bir səddir.
3. Şeytanın varlığında məqsəd insan qarşısında bir neçə yol yaratmaqla onu sınağa çəkmək və seçim aparmaqdır.
4. İnsan yersiz tərəddüdlərlə şeytana tabeçilik yolunu seçir.
5. İnsan yol və əməl seçimində azaddır.
6. Ən cüzi şəkk də azğınlıq üçün müqəddimədir.
7. Allahın elmi unutqanlıq və nöqsandan uzaqdır.

***AYƏ 22:***

﴿قُلِ ادْعُوا الَّذِينَ زَعَمْتُم مِّن دُونِ اللَّهِ لَا يَمْلِكُونَ مِثْقَالَ ذَرَّةٍ فِي السَّمَاوَاتِ وَلَا
فِي الْأَرْضِ وَمَا لَهُمْ فِيهِمَا مِن شِرْكٍ وَمَا لَهُ مِنْهُم مِّن ظَهِيرٍ﴾

**“De ki, Allahdan qeyri məbud saydıqlarınızı çağırın. Onlar göydə və yerdə zərrəcə bir şeyə sahib deyillər. (Qoşduğunuz) şəriklərin yerdə və göydə heç bir iştirakı yoxdur və onlar tərəfindən Allaha heç bir yardım göstərilmir.”**

**Bildirişlər**

1. Allahdan qeyriləri puç bir xəyaldır.
2. Müşrikin məntiqi yoxdur.
3. Allahdan qeyriləri nə göydə və yerdə bir şeyə malikdir, nə də Allaha yardımçıdır.

***AYƏ 23:***

﴿وَلَا تَنفَعُ الشَّفَاعَةُ عِندَهُ إِلَّا لِمَنْ أَذِنَ لَهُ حَتَّى إِذَا فُزِّعَ عَن قُلُوبِهِمْ قَالُوا مَاذَا
قَالَ رَبُّكُمْ قَالُوا الْحَقَّ وَهُوَ الْعَلِيُّ الْكَبِيرُ﴾

**“Allah hüzurunda icazə verilmiş kəs istisna olmaqla şəfaət faydasızdır. Qəlblərindən qorxu və iztirab çıxanədək (şəfaət intizarı davam edər). (Günahkarlar) onlardan soruşar: “Rəbbiniz nə dedi? Cavab verərlər: “Haqqı buyurdu, O uca və böyükdür.”**

**Nöqtələr**

“Fuğziə” sözü “ən şəkilçisi ilə işləndikdə naləni aradan qaldırmaq[1], “uyğun şəkilçisiz işləndikdə nalə çəkdirmək mənasını bildirir.

“İllah limən əzinə ləhu” cümləsi iki cür mənalandırıla bilər:

[1] “Mufrədati-rağib”.

a) Allah tərəfindən şəfaət icazəsi olan peyğəmbərlər, övliyalarlar və şəfaət verənlər istisna olmaqla, Allahın hüzurunda şəfaət faydasızdır;

b) Şəfaəti (bağışlanması) üçün övliyalara izn verilənlər istisna olmaqla Allah hüzurunda şəfaət faydasızdır.

“Ətyəbul-bəyan” təfsirində haqqında danışılan ayə belə mənalandırılmışdır: Qiyamətdə şəfaət yalnız Allahın icazə verdiyi insanlar üçün faydalıdır. Həmin gün günahkarlar səsləri kəsilənədək dəhşət və nalə içindədir. Mələklər və ya möminlər günahkarlardan soruşar ki, Rəbbiniz sizə dünyada nə dedi? Deyərlər ki, haqqı dedi, amma biz qulaq asmadıq.

**Bildirişlər**

1. Uydurma məbudlar öz ardıcıllarına şəfaət icazəsi vermir.
2. Şəfaətçiyə şəfaət icazəsi verən Allahdır və onu Allahdan mehriban saymaq olmaz.
3. Şəfaət Allahın iradəsi müqabilində müstəqil bir cərəyan deyil.
4. Qiyamətdə Allahın izni ilə şəfaət mümkündür.
5. Allahın şəfaət etmək (bağışlatdırmaq) və şəfaətə (bağışlanmaya) nail olmaq izni haqqa əsaslanır. Şəfaət edənlər Allaha yaxınlıqlarına görə, şəfaət olunanlar bağışlanma ləyaqəti əldə etdikləri üçün istisna olunurlar.

***AYƏ 24:***

﴿قُلْ مَن يَرْزُقُكُم مِّنَ السَّمَاوَاتِ وَالْأَرْضِ قُلِ اللَّهُ وَإِنَّا أَوْ إِيَّاكُمْ لَعَلَى هُدًى أَوْ فِي ضَلَالٍ مُّبِينٍ﴾

**“(Ey peyğəmbər, müşriklərə) de ki, sizə göylərdən və yerdən ruzi verən kimdir? De ki, Allah; əlbəttə, biz ya da siz, hidayət ya da aşkar zəlalətdəyik.”**

**Bildirişlər**

1. Təlim-tərbiyədə suallar ünvanlamaqla qarşı tərəfin vicdanını oyadaq, düşüncəsini işə salaq.
2. Ruzi sahibinə diqqət pərəstiş amillərindən biridir. Düşünün, sizə ruzi verən kimdir?
3. Nur, istilik, yağış, külək və bulud səmanın, bütün meyvələr və məhsullar yerin ruzisidir.
4. Bütün göylər bizim ruzimizə təsirlidir.
5. Söhbət və mübahisədə insaflı olaq, qarşı tərəflə müdara edək.
6. Hidayət olunanlar (doğru yola yönəldilənlər) minik və ya hər hansı yüksəklikdə dayanmış kəs kimi daha yaxşı görür. Azğınlar isə bataqlıqda çabalayanlar kimidir və azdırıcı amillərlə əhatə olunmuşlar.

*AYƏ 25:*

﴿قُل لَّا تُسْأَلُونَ عَمَّا أَجْرَمْنَا وَلَا نُسْأَلُ عَمَّا تَعْمَلُونَ﴾

**“De ki, bizim əməllərimizə görə siz sorğuya çəkilməyəcəksiniz, bizdən də sizin əməlləriniz soruşulmayacaq.”**

*AYƏ 26:*

﴿قُلْ يَجْمَعُ بَيْنَنَا رَبُّنَا ثُمَّ يَفْتَحُ بَيْنَنَا بِالْحَقِّ وَهُوَ الْفَتَّاحُ الْعَلِيمُ﴾

**“De ki, Rəbbimiz bizi və sizi (qiyamətdə) bir araya gətirər, sonra bizimlə sizin aranızda haqqına hökm verər. Odur hər şeyi bilən hakim (düyünləri açan)”**

**Nöqtələr**

“Fəth” dedikdə dolaşıqlığı açmaq mənası nəzərdə tutulur. Uyğun dolaşıqlığa həm sadə bir qıfıl, həm də düşmənçilik misal ola bilər.[1] Allahın gözəl adlarından biri “Fəttah” adıdır.[2]

**Bildirişlər**

1. İnsanların bağışlanması peyğəmbərlər üçün vəzifə deyil. Onlar sadəcə canıyananlıq göstərərək xalqın əfvinə çalışırlar.
2. Təvazökarlıq və ədəb müvəffəqiyət vasitəsidir. (Özündən danışarkən “günah”, başqalarından danışarkən “əməl” sözü işlədilir.)
3. Əgər haqqa çağırışınıza dünyada cavab verilməsə, narahat olmayın. Çünki Qiyamətdə hər şey hesaba alınacaq.
4. Qiyamət günü həm toplanış, həm də parçalanma günüdür.
5. Qiyamətdə haqq-ədalət əsasında mühakimə aparılır.
6. Məada diqqət insanı müxtəlif məqamlarda hifz edir. (Bir gün bütün hiylələr, nifaqlar, qurğular, siyasi və ictimai qarşıdurmalar açıqlanar və sorğuya çəkilər.)
7. Yalnız Allah bütün dolaşıqlıqları açmağa qadirdir və bütün qurğulardan xəbərdardır.

*AYƏ 27:*

﴿قُلْ أَرُونِي الَّذِينَ أَلْحَقْتُم بِهِ شُرَكَاء كَلَّا بَلْ هُوَ اللَّهُ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“De ki, Allaha şərik qoşduqlarınızı mən göstərin. Əsla belə deyil. Yenilməz və hikmət sahibi olan Allah Odur.”**

[1] “Təfsiri-nümunə”.
[2] “Təfsire-Əl-mizan”.

**Nöqtələr**

Bu və bundan öncəki ayələrdə müxaliflərlə tədrici rəftar üsulu açıqlanır. O cümlədən:

1. 24-cü ayədə təfəkkürə çağırılır: “Göydən və yerdən sizə ruzi verən kimdir?

2. İnsafla rəftar edib deyək: “Ya biz haqq yoldayıq, ya da siz.” Qarşı tərəfi dərhal və qəti şəkildə məhkum etməyək.

3. 25-ci ayədə buyurulur ki, hərə öz əməlinə görə cavab verəsidir. Çağırışımızın qayəsi mərhəmət olmalıdır.

4. 26-cı ayədə buyurulur ki, söhbətlərimizdə haqqın zühur edəcəyi Qiyamət gününü yada salaq.

5. Mübahisə zamanı qarşı tərəfdən dəlil istəyək: “Allaha şərik qoşduğunuz bütlərin nə etdiyini göstərin.”

**Bildirişlər**

1. Yatmış vicdanları oyatmaq üçün qınaqlı suallar bir vasitədir.

2. Məbudlardan heç biri (nə İsa, nə mələklər, nə də bütlər özlərini Allaha şərik bilirlər. Onları Allaha şərik qoşan sizsiniz.

3. Allahın yenilməzliyi puç və saxta məbudların önə çəkilməsinə mane olur.

*AYƏ 28:*

﴿وَمَا أَرْسَلْنَاكَ إِلَّا كَافَّةً لِّلنَّاسِ بَشِيرًا وَنَذِيرًا وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ﴾

**“Biz səni yalnız bütün insanlar üçün müjdə verən və qorxudan bir peyğəmbər göndərdik. Amma xalqın çoxu bilməz.”**

**Nöqtələr**

“Haffət” sözü ilə bağlı, ayə iki cür anlaşıla bilər: İslam Peyğəmbəri (s) bütün insanlar üçün peyğəmbərdir (ayə və rəvayətlər bu mənanı təsdiqləyir); İslam Peyğəmbəri (s) insanları küfr, şirk, günahdan uzaqlaşdıran bir peyğəmbərdir. Birinci məna daha münasib görünür.[1]

**Bildirişlər**

1. Həzrət Məhəmmədin (s) peyğəmbərliyi ümumbəşəridir.

2. Xalqın doğru yola çağırışında peyğəmbərlərin əsas işi müjdə və xəbərdarlıqdır.

[1] “Təfsire-Məcməül-bəyan”.

*AYƏ 29:*

﴿وَيَقُولُونَ مَتَى هَذَا الْوَعْدُ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Onlar (istehza ilə) deyirlər: “Doğru deyirsənsə, bu vəd (qiyamət) nə vaxt olacaq?”**

*AYƏ 30:*

﴿قُل لَّكُم مِّيعَادُ يَوْمٍ لَّا تَسْتَأْخِرُونَ عَنْهُ سَاعَةً وَلَا تَسْتَقْدِمُونَ﴾

**“De ki, sizin üçün nə bir saat təxirə salacağınız, nə də qabaqlayacağınız gün vəd olunub.”**

**Nöqtələr**

Müxtəlif ayələrdə bəyan olunur ki, Qiyamət vaxtını Allahdan savayı kimsə bilmir. Bu məsələdə ilahi bir hikmət var. Qiyamət vaxtından xəbərsiz insan daim hazır olmağa çalışır. Bundan əlavə, xırdalıqları bilməmək böyük həqiqətlərə imana mane olmur. Məsələn, qapının zəngi çalındıqda anlayırsınız ki, kimsə kandarda dayanıb. Siz həmin şəxsin kimliyini, qadın və kişi olmasını, yaşını bilmirsiniz. Amma bu xırdalıqları bilməmək qapıda kiminsə dayanmasına inamı zəiflətmir. Bəli, biz Qiyamət vaxtını bilməsək də bu həqiqətə inanırıq... “Taha” surəsinin 15-ci ayəsində oxuyuruq: “Qiyamət hökmən gələsidir, amma onun vaxtını gizli saxlayıram.”

**Bildirişlər**

1. Hər sualın cavabını bilmək zəruri deyil. Əgər Qiyamət vaxtını soruşsalar, de ki, bilmirəm.
2. Qiyamət mühüm bir gündür.
3. Qiyamət üçün müəyyənləşmiş vaxt dəyişməzdir.

*AYƏ 31:*

﴿وَقَالَ الَّذِينَ كَفَرُوا لَن نُّؤْمِنَ بِهَذَا الْقُرْآنِ وَلَا بِالَّذِي بَيْنَ يَدَيْهِ وَلَوْ تَرَى إِذِ
الظَّالِمُونَ مَوْقُوفُونَ عِندَ رَبِّهِمْ يَرْجِعُ بَعْضُهُمْ إِلَى بَعْضٍ الْقَوْلَ يَقُولُ الَّذِينَ
اسْتُضْعِفُوا لِلَّذِينَ اسْتَكْبَرُوا لَوْلَا أَنتُمْ لَكُنَّا مُؤْمِنِينَ﴾

**“Küfrə uğrayanlar dedilər: “Biz nə Qurana, nə də ondan qabaqkına heç vaxt iman gətirməyəcəyik. Əgər sitəmkarları Allah hüzurunda saxlanmış, bir-birləri ilə höcətləşən vəziyyətdə görsəydin (təəccüb edərdin). Müstəzəflər (miskin vəziyyətə salınanlar) təkəbbürlülərə deyərlər: “Əgər siz olmasaydınız, hökmən mömin olardıq.”**

**Bildirişlər**

1. Kafirlər inadkarlıqlarına görə iman gətirmək istəmir.
2. Kafirlər əslində heç bir səmavi kitabı qəbul etmirdilər.
3. İslam Peyğəmbəri (s) Qurandan öncəki səmavi kitablara da iman gətirməyi tövsiyə edirdi. Kafirlər bunu qulaqardına vururdular.
4. Qiyamət sorğusu çox ağırdır.
5. Müşriklər özlərinə sitəm qılırlar.
6. Müşriklərlə Allah hesab çəkər.
7. Qiyamət səhnəsinin təsviri ən yaxşı tərbiyə vasitəsidir.
8. Təkəbbürlü başçılara tabe olmuş müstəzəflər də cəzalandırılar.
9. Qiyamət səhnəsi danışıq və mübahisə səhnəsidir.
10. Qiyamət səhnəsində günahkarlar günahlarına don geyindirərək öz başçılarına deyərlər: “Əgər siz olmasaydınız, biz bu qədər günaha yol verməzdik.”
11. İman Qiyamətdə qurtuluş amilidir.

*AYƏ 32:*

﴿قَالَ الَّذِينَ اسْتَكْبَرُوا لِلَّذِينَ اسْتُضْعِفُوا أَنَحْنُ صَدَدْنَاكُمْ عَنِ الْهُدَى بَعْدَ إِذْ
جَاءَكُم بَلْ كُنتُم مُّجْرِمِينَ﴾

**“Təkəbbürlülər mütəzəflərə deyər: “Sizi sorağınızca gəlmiş hidayətdən bizmi saxladıq? Siz özünüz günahkar idiniz.”**

**Bildirişlər**

1. Günahkar cəmiyyət və azğın fərdlər insanı zorla günaha çəkmir.

2. Qiyamət günü təkəbbürlü başçılar da anlayar ki, peyğəmbərlərin yolu haqq imiş.

3. Haqdan hamı xəbərlər tutur və hər kəs özü haqqı qəbul etməlidir.

4. Qiyamətdə öz günahını başqalarının boynuna ata bilməzsən.

5. Ən böyük rüsvayçılıq odur ki, azğın başçılar tabeçiliklərində olanları günahkar adlandırar.

*AYƏ 33:*

﴾وَقَالَ الَّذِينَ اسْتُضْعِفُوا لِلَّذِينَ اسْتَكْبَرُوا بَلْ مَكْرُ اللَّيْلِ وَالنَّهَارِ إِذْ تَأْمُرُونَنَا أَن نَّكْفُرَ بِاللَّهِ وَنَجْعَلَ لَهُ أَندَادًا وَأَسَرُّوا النَّدَامَةَ لَمَّا رَأَوُا الْعَذَابَ وَجَعَلْنَا الْأَغْلَالَ فِي أَعْنَاقِ الَّذِينَ كَفَرُوا هَلْ يُجْزَوْنَ إِلَّا مَا كَانُوا يَعْمَلُونَ﴿

**"Müstəzəflər (miskin vəziyyətə salınanlar) təkəbbürlülərə deyər: "Gecə-gündüz hiylələriniz, Allaha qarşı küfr və Ona şərik qoşmaq əmri verməyiniz (bizi azdırdı). Əzabı gördükləri vaxt peşimanlıqlarını gizlədilər. Biz küfrə uğrayanların boynuna zəncir salarıq. Onlara gördükləri işdən başqamı cəza verilər?"**

**Nöqtələr**

Ayədə bildirilir ki, günahkarlar öz peşimançılıqlarını gizləyərlər. Hansı ki, başqa ayələrdə bu peşimançılığın aşkarlandığı bildirilir. Bəli, Qiyamətin dayanacaqları fərqlidir və ayrı-ayrı dayanacaqlarda müxtəlif hallar müşahidə olunur.

Amma "Mufrədati-rağib" mənbəsində bildirilir ki, "vəəsərrun-nədamətə" ifadəsi peşimançılığın həm izharı, həm də gizlədilməsi mənasında işlənə bilər. Amma İmam Sadiqdən (ə) nəql edilmiş rəvayətdən aydın olur ki, nəzərdə peşimançılığın gizlədilməsi tutulmuşdur. İmam Sadiq (ə) bu peşimançılığın səbəbi barəsində buyurur: "Onlar başqalarının qınağına gəlməmək istəyər."[1]

**Bildirişlər**

1. Təkəbbürlü başçılar gecə-gündüz fəaliyyətdədir.

2. Küfr başçıları məkr, hiylə əsasında göstəriş verir.

3. Cəmiyyətdəki düşüncə və mədəniyyət azğınlıqları təkəbbürlü düşmənlərin ardıcıl fəaliyyətinin nəticəsidir.

4. Təkəbbürlülər tabeçiliklərində olanlara əmr edib, qadağa qoyub. Uyğun münasibətlərdə nəsihət və dəvətdən danışmağa dəyməz.

5. Qiyamət peşimançılığının faydası yoxdur.

6. Allahın əzabları kafirlərin əməllərinə uyğundur.

---

[1] "Bihar", c. 7, s. 188.

*AYƏ 34:*

﴿وَمَا أَرْسَلْنَا فِي قَرْيَةٍ مِّن نَّذِيرٍ إِلَّا قَالَ مُتْرَفُوهَا إِنَّا بِمَا أُرْسِلْتُم بِهِ كَافِرُونَ﴾

**“Hansı məmləkətə xəbərdarlıq edən peyğəmbər göndərdiksə, oranın rifah içində yaşayanları dedilər: “Şübhsiz, biz sizinlə göndərilənləri inkar edirik.”**

*AYƏ 35:*

﴿وَقَالُوا نَحْنُ أَكْثَرُ أَمْوَالًا وَأَوْلَادًا وَمَا نَحْنُ بِمُعَذَّبِينَ﴾

**“Dedilər: “Biz var-dövlət, övlad baxımından üstünük və bizə əzab verilməz.”**

**Bildirişlər**

1. İslam Peyğəmbəri (s) ilə müxalifət yeni bir hadisə deyildi. Başqa peyğəmbərlərə qarşı da müxalifət vardı. (Allah öz peyğəmbərinə təsəlli verir.)
2. Rifah içində yaşayanlar müxaliflərin ilk cərgəsində dayanırdı.
3. Rifah istəyi insanı biganə və qəlbidaş edir, təkəbbürə sürükləyir.
4. Peyğəmbərlərə qarşı müxalifət onların özünə yox, gətirdikləri vəhyə qarşı müxalifət idi.
5. Peyğəmbərlərin fəaliyyəti sərmayədarların mənafeyi üçün təhlükə yaradır.
6. Kafirlər dünya rifahını axirətdən ehtiyacsızlıq səbəbi sayırdılar.
7. Sərmayədarlar öz var-dövləti və övladları ilə qürrələnir.
8. Sərvət sahibləri özlərini hamıdan yuxarı tutur.

*AYƏ 36:*

﴿قُلْ إِنَّ رَبِّي يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاءُ وَيَقْدِرُ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لَا يَعْلَمُونَ﴾

**“De ki, həqiqətən, mənim Rəbbim istədiyinin ruzisini artırar, ya da azaldar. Amma insanların çoxu bilmir.”**

**Bildirişlər**

1. Peyğəmbər insanların yanlış düşüncəsini islah etməli, anlatmalıdır ki, nemət ilahi lüft nişanəsi deyil.
2. Nemətin verilməsi və geri alınması ilahi lütf və ya qəzəb göstəricisi deyil. (Allah mömindən alıb, kafirə verə bilər.)
3. Ruzi vermək və ruzini geri almaq Allahın rübubiyyət şənlərindəndir.
4. İnsanların əksəri əlində olanları zəhmətinin bəhrəsi sayıb, Allahdan qəflətdə qalır.
5. Dini cəmiyyətdə iqtisadiyyata da mənəvi və ilahi prizmadan baxmaq lazımdır.

*AYƏ 37:*

﴿وَمَا أَمْوَالُكُمْ وَلَا أَوْلَادُكُم بِالَّتِي تُقَرِّبُكُمْ عِندَنَا زُلْفَى إِلَّا مَنْ آمَنَ وَعَمِلَ صَالِحًا فَأُوْلَئِكَ لَهُمْ جَزَاء الضِّعْفِ بِمَا عَمِلُوا وَهُمْ فِي الْغُرُفَاتِ آمِنُونَ﴾

**“Var-dövlət və övladlar sizi bizim hüzurumuza yaxınlaşdırası deyil. Yalnız iman gətirib saleh iş görənlər istisnadır. Əməllərinə görə ikiqat mükafat alacaq kəslər də onlardır. Behişt guşələrində asudə yaşayacaq kəslər də onlardır.”**

**Nöqtələr**

Allah özünə yaxınlıq üçün iman, saleh əməl, infaq və ixlası vasitə sayır. Bəziləri isə elə düşünür ki, var-dövlət, övladlar, əsil-nəsil xoşbəxtlik səbəbidir.

“Təğabun” surəsinin 15-ci ayəsində oxuyuruq: “Həqiqətən, var-dövlət və övladlar sizin üçün sınaq vasitəsidir. Böyük mükafat Allahın yanındadır. Var-dövlət və övladlar sadəcə bir nümunədir. Əslində iman və saleh əməldən başqa heç bir şey ilahi yaxınlığa səbəb olmur.

Var-dövlət və övladlarla fəxr edənlər bilsinlər ki, bütün bunlar xoşbəxtlik nişanəsi deyil. Allah bəzən insanları var-dövlətlə əzaba salır.[1]

**Bildirişlər**

1. Düşmənlərin yanlış təbliğat və düşüncələrinə cavab verin. 35-ci ayədə kafirlər deyirdilər: “Var-dövlət və övladlarımıza görə bizə əzab verilməz.” Bu ayədə cavab verilir ki, var-dövlət və övladlar əzabın qarşısını almır.
2. Allaha yaxınlıq bəşəriyyət üçün əbədi bir məqsəddir. Amma bəzən insan bu məqama çatmaq üçün yanlış vasitələrə əl atır. Məsələn, bütpərəstlik![2]
3. Var-dövlət, övladlar və digər imkanlar kamillik göstəricisi deyil. Bütün bunlardan düzgün istifadə kamaldır. (Bəli, var-dövlət və övladlar iman və saleh əməl istiqamətinə yönələrsə, yaxınlıq vasitəsi olar.)
4. İkiqat mükafat nəzərdə tutulsa da, səbəb yalnız əməldir.
5. Məskən seçərkən əmin-amanlıqdan başqa xüsusiyyətləri də nəzərə alın: eyvan, yuxarı mərtəbə, gözəl mənzərə, daha çox işıq, təmiz hava...
6. Behiştdə heç bir xəstəlik, qorxu, qəm-qüssə yoxdur.

*AYƏ 38:*

﴿وَالَّذِينَ يَسْعَوْنَ فِي آيَاتِنَا مُعَاجِزِينَ أُوْلَئِكَ فِي الْعَذَابِ مُحْضَرُونَ﴾

**“Bizi aciz qoymaq üçün çalışanlar ilahi əzaba uğradılar.”**

---

[1] “Tövbə”, 55.

[2] “Zumər”, 3.

**Bildirişlər**

1. Öz sərvətini haqqa qarşı yönəldən sərmayədarlar cəzalandırılacaq.
2. Düşmən haqqı aradan qaldırmaq üçün daim təlaşdadır.

*AYƏ 39:*

﴿قُلْ إِنَّ رَبِّي يَبْسُطُ الرِّزْقَ لِمَن يَشَاء مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ وَمَا أَنفَقْتُم مِّن شَيْءٍ فَهُوَ يُخْلِفُهُ وَهُوَ خَيْرُ الرَّازِقِينَ﴾

**"De ki, şübhəsiz, Rəbbim bəndələrindən istədiyinin ruzisini artırar, ya da azaldar. İnfaq etdiyinizin əvəzini verər. O ən üstün ruzi verəndir."**

**Nöqtələr**

Bir şəxs İmam Sadiqdən (ə) soruşdu: "Əgər Allah verilən infaqın əvəzini ödəyirsə, nə üçün mənim verdiyim infaqın yeri boş qalır? İmam (ə) buyurdu: "Əgər halal maldan halal yolda infaq edilsə hökmən əvəzi ödənər."[1] Bundan əlavə, infaqın əvəzi axirətdə də ödənə bilər. Bəzən infaq müqabilində bəl aradan qaldırılır, növbəti nəsilə əvəz ödənir, ya da qeyri-maddi nemət əta olunur.

"Yəqdir" dedikdə həm ölçü götürmək, həm də tələbkarlıq mənaları anlaşılır.[2] Amma ayədəki "yəbsut" sözü ilə bağlı ikinci məna nəzərdə tutulmuşdur.

36-cı ayədə də ruzinin artırılması və ya əskildilməsi məsələsinə toxunulmuşdur. Amma həmin ayədə kafirlərə, hazırkı ayədə isə möminlərə müraciət olunur.

Sərmayəsi üçün təhlükə yaranmış, malını ucuz və ya nisyə vermək fikirində olan tacir yaxşı bir müştərini əldən çıxararsa ağılsızdır. İnsan ömrü də əldən çıxmaqda olan bir sərmayə kimidir. Onu ən baha qiymətə alan Allahdır və bu müamilədən imtina etmək ağılsızlıqdır.

Girami Peyğəmbər (s) buyurur: "Hər gecə nida çəkilir ki, (Pərvərdigara, infaq edənə mükafat ver, xəsisin sərvətini puça çıxar."[3]

Allah ən üstün ruzi verəndir. Çünki hər şey Onun əlindədir, xəsislik ondan uzaqdır. Hamıya bağışlayır, təmənnasız verir, daim bağışlayır, ehtiyaclardan xəbərdardır, Onun verdikləri başqalarının imkanlarının fövqündədir.

**Bildirişlər**

1. Ruzini artırıb-əskildən Odur və bu işdə məqsəd insanın tərbiyəsidir.
2. Əsas məsələ nə qədər infaq etmək yox, infaq etməkdir.
3. İnsan təkcə sərvətindən yox, ixtiyarında olan istənilən bir nemətdən infaq edə bilər.
4. İnfaq müqabilində mükafata əminlik səxavət amilidir.
5. İnsanlara fərqli ruzi verilməsinin səbəbi onların sınağa çəkilməsidir.

---

[1] "Təfsire-Nurus-səqəleyn". "Kafi", c. 2, s. 486.

[2] "Mufrədati-rağib".

[3] "Təfsire-Məcməül-bəyan".

6. Verilən infaqın əvəzi ödənir və bu işə Allah zamindir.
7. İnfaqa görə ən gözəl şəkildə əvəz verilir.

*AYƏ 40:*

﴿وَيَوْمَ يَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ يَقُولُ لِلْمَلَائِكَةِ أَهَؤُلَاءِ إِيَّاكُمْ كَانُوا يَعْبُدُونَ﴾

**"(Yada sal) bir gün Allah hamını səhnəyə gətirər, sonra mələklərə deyər: "Bunlar sizəmi pərəstiş edirdi?"**

**Bildirişlər**

1. Qiyamət günü yolunu azmış abidlər və puç məbudlar bir araya gətirilər.
2. Tarixin bəzi dönəmlərində mələklərə pərəstiş olunub. Olsun ki, bəzi bütlər mələklərin timsalı imiş.
3. Allah Qiyamət günü müşrikləri cəzalandırmaqla yanaşı məbudlardan soruşar: "İnsanları şirkə çağıran siz idinizmi?" Bu sorğuda məqsəd şirkin həmin məbudlar tərəfindən də məhkum edilməsidir. İsaya (ə) deyilər: "Özünü və ananı məbud götürməyi sənmi insanlara dedin?"[1]

*AYƏ 41:*

﴿قَالُوا سُبْحَانَكَ أَنتَ وَلِيُّنَا مِن دُونِهِم بَلْ كَانُوا يَعْبُدُونَ الْجِنَّ أَكْثَرُهُم بِهِم مُّؤْمِنُونَ﴾

**"Mələklər deyər: Pərvərdigara! Sən paksan. Sənsən bizim ixtiyar sahibimiz, onlar yox! Onlar cinlərə pərəstiş edirdilər və çoxları onlara iman gətirmişdi."**

**Nöqtələr**

Bəzi müşriklər xeyir əldə etmək üçün mələklərə pərəstiş edirdilər. Əslində isə onlar cinlərə üz tutmuşdular.[2]

Olsun ki, bu ayədə cin dedikdə şeytan nəzərdə tutulur. Yəni həmin şəxslər mələklərə yox, şeytanlara pərəstiş etmişlər.

**Bildirişlər**

1. Allahla danışıq tərzini mələklərdən öyrənək.
2. Allaha sevgi və yalançı məbudlara nifrət bir-birindən ayrılmaz zərurətlərdir.

---

[1] "Maidə", 116.
[2] "Təfsire-Əl-mizan".

*AYƏ 42:*

﴿فَالْيَوْمَ لَا يَمْلِكُ بَعْضُكُمْ لِبَعْضٍ نَّفْعًا وَلَا ضَرًّا وَنَقُولُ لِلَّذِينَ ظَلَمُوا ذُوقُوا عَذَابَ النَّارِ الَّتِي كُنتُم بِهَا تُكَذِّبُونَ﴾

**"Bu gün bəziləriniz bir-birinizə nə xeyir verə bilərsiniz, nə də ziyana sala bilərsiniz. Sitəm qılanlara deyərik: "Dadın yalan saydığınız odun əzabını!"**

**Bildirişlər**

1. Qiyamətdə hökm və mülk yalnız Allaha məxsusdur. (Yalançı məbudların, cinlərin, mələklərin və başqalarının heç bir iqtidarı yoxdur. Nə məbud abid üçün bir iş görə bilir, nə də abid məbud üçün!)
2. Allahdan qeyrilərinin sorağınca getmək insanın özünə zülmüdür.
3. Daimi və qərəzli təkzib Allahın böyük qəzəbi ilə sonuclanır.

*AYƏ 43:*

﴿وَإِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُنَا بَيِّنَاتٍ قَالُوا مَا هَذَا إِلَّا رَجُلٌ يُرِيدُ أَن يَصُدَّكُمْ عَمَّا كَانَ يَعْبُدُ آبَاؤُكُمْ وَقَالُوا مَا هَذَا إِلَّا إِفْكٌ مُّفْتَرًى وَقَالَ الَّذِينَ كَفَرُوا لِلْحَقِّ لَمَّا جَاءَهُمْ إِنْ هَذَا إِلَّا سِحْرٌ مُّبِينٌ﴾

**"Aşkar ayələrimiz onlara oxunan vaxt deyərlər: "Bu şəxs sizi ylnız ata-babalarınızın pərəstiş etdiyindən uzaqlaşdırmaq istəyir." Deyərlər ki, Quran toxunmuş yalandan başqa bir şey deyil. Haqq küfrə uğrayanların sorağına gələn vaxt dedilər: "Bu aşkar sehr-cadudan başqa bir şey deyil".**

**Nöqtələr**

"Bəyyinə" sözünün cəm forması olan "bəyyinat" sözü aşkar dəlillər mənasını bildirir. "İfk" dedikdə tərsinə çevrilib əsil surətini itirən şey nəzərdə tutulur.

**Bildirişlər**

1. Allahın ayələri aşkardır, amma kafirlər inadkarlıqlarına görə inkara əl atır.
2. Kafirlər rəhbəri təhqir etməklə, böhtan yağdırmaqla, ata-babalarının getdiyi yola istinad etməklə haqqa qarşı çıxır.
3. Kafirlər öz azğın əcdadlarının getdiyi yola uyğun olaraq başqalarını da peyğəmbərlərə qarşı çıxmağa çağırırlar.
4. Kor-koranə təqlid insanın inkişafına mane olur.
5. Kafirlər həm vəhyə, həm də vəhyi gətirənə müxalifdirlər.
6. Kafirlər məqsədlərinə nail olmaq üçün hər növ təbliğ və zora əl atır.

7. Həqiqətlə tanışlıq yolunda maneələrdən biri küfrdür.

*AYƏ 44:*

﴿وَمَا آتَيْنَاهُم مِّن كُتُبٍ يَدْرُسُونَهَا وَمَا أَرْسَلْنَا إِلَيْهِمْ قَبْلَكَ مِن نَّذِيرٍ﴾

**"Hansı ki, onlara (ərəb müşriklərinə) oxuyub öyrənəcəkləri səmavi kitab verməmişdik, qorxudan şəxs göndərməmişdik."**

**Nöqtələr**

Ayə belə anlaşıla bilər: Biz Məkkə müşriklərinə kitab və peyğəmbər göndərməmişdik ki, haqqı-batildən seçə biləlvalər. Onların təkzibi cəhalət və inadkarlıqlarından qaynaqlanır, onlar azğın nəfslərinə və ata-babalarının yoluna tabe olurlar.

**Bildirişlər**

1. İnsan elm və vəhy əsasında nəyisə təsdiqləyib, nəyisə inkar edə bilər. Elm və vəhyə əsaslanmayan rəftarlar azğın nəfs istəyindən başqa şey deyil.

2. Səmavi kitablar təlim-tərbiyə üçündür.

*AYƏ 45:*

﴿وَكَذَّبَ الَّذِينَ مِن قَبْلِهِمْ وَمَا بَلَغُوا مِعْشَارَ مَا آتَيْنَاهُمْ فَكَذَّبُوا رُسُلِي فَكَيْفَ كَانَ نَكِيرِ﴾

**"Onlardan əvvəlkilər də (peyğəmbərləri) təkzib etdilər. Hansı ki, (sənin qövmünün kafirləri) keçmişdəkilərə verilən imkanlardan onda birinə çatmamışdılar. Onlar mənim peyğəmbərlərimi təkzib etdilər. Gör mən (onları) necə inkar etdim!"**

**Nöqtələr**

Başqa surələrdə də oxşar ayələrlə rastlaşırıq. "Ğafir" surəsinin 21-ci ayəsində bildirilir ki, daha böyük qüdrəti olan keçmişdəkilərin aqibətini görsünlər deyə yer üzündə gəzmədilərmi? "Rum" surəsinin 9-cu ayəsində oxuyuruq: "Keçmişdəkilərin abadlıq gücü daha çox idi. Amma peyğəmbərləri təkzib etdikləri üçün məhv oldular. "Bəli, mədəniyyətlər, güclər, sərvətlər, hadisələr daimi inkişaf xəttində deyil. Bəzən keçmişdəkilərin imkan və gücü daha çox ola bilər.

**Bildirişlər**

1.Tarixdən xəbərdarlıq insanı problemlər qarşısında dözümlü edir.

2. Bəzən düşməni alçaltmaq lazım gəlir.

3. Kafirlər öz güc və sərvətlərinə güvənərək haqqı inkar edirdilər. Allah buyurur ki, sizin sərvətiniz əvvəlkilərin sərvətinin onda biri deyil.

4. Peyğəmbərlərin təkzibinə görə böyük cəmiyyətlər və mədəniyyətlər məhv olmuşdur. (Məkkə müşriklərindən qorxmağa dəyməz.)

5. İlahi sünnələr bütün qövmlərə tətbiq olunur.
6. Təlim-tərbiyədə bəzən hədə -qorxu da bir vasitə olur.

### *AYƏ 46:*

﴿قُلْ إِنَّمَا أَعِظُكُم بِوَاحِدَةٍ أَن تَقُومُوا لِلَّهِ مَثْنَى وَفُرَادَى ثُمَّ تَتَفَكَّرُوا مَا بِصَاحِبِكُم
مِّن جِنَّةٍ إِنْ هُوَ إِلَّا نَذِيرٌ لَّكُم بَيْنَ يَدَيْ عَذَابٍ شَدِيدٍ﴾

**“De ki, sizə bir nəsihətim var: Allaha xatir iki-iki, bir-bir ayağa qalxın. Düşünün (və görün) ki, həmsöhbətinizdə (peyğəmbərdə) heç bir divanəlik yoxdur. O sizi yalnız qarşıdakı ağır əzabla qorxudan bir kəsdir.”**

**Bildirişlər**

1. Peyğəmbərlərin vəzifələrindən biri xalqa moizə etməkdir.
2. Təkcə sözlə kifayətlənməyək, ayağa qalxmaq lazımdır.
3. Ən mühümü Allah yolunda xalis qəlblə ayağa qalxmaqdır və bu işdə çoxluq şərt deyil.
4. Uyğun vəzifənin yerinə yetirilməsi üçün ixlas (səmimiyyət), rəhbər, düşüncə və proqrama ehtiyac var.

Nəfs istəklərinə xidmət edən hərəkatlar nəticəsizdir. Yetərli proqram, ilahi rəhbər və səmimiyyət olmayan yerdə davam və bərəkət yoxdur.

5. Peyğəmbərdə zərrəcə ruhi zəiflik yox idi. O, illər boyu xalq arasında yaşamışdı, hamı onu ağıllı və düşüncə sahibi kimi tanıyırdı. Peyğəmbərə qarşı divanəlik ittihamı ittihamçıların düşüncəsizliyini göstərir.
6. İlahi rəhbər xalqla yoldaş və həmsöhbətdir.
7. Allah peyğəmbərləri himayə edir, onlara ünvanlanmış böhtanları puça çıxarır.
8. Peyğəmbərlərin işi müjdə vermək və xəbərdarlıq etmək olsa da, Quran xəbərdarlıq və qorxutmaya daha çox diqqət yetirir. Çünki qafil insanların xəbərdarlığa daha çox ehtiyacı var.
9. Peyğəmbərlərin xəbərdarlıqları xalqın xeyirinədir.
10. Qarşıda əzab təhlükəsi var. Əgər Allah yolunda ayağa qalxmasanız. Həm dünyada, həm də axirətdə sıxıntıya düşəcəksiniz.

## *AYƏ 47:*

﴿قُلْ مَا سَأَلْتُكُم مِّنْ أَجْرٍ فَهُوَ لَكُمْ إِنْ أَجْرِيَ إِلَّا عَلَى اللَّهِ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ﴾

**“De ki, sizdən istədiyim yalnız öz xeyirinizədir. Mənim muzdum yalnız Allah tərəfindəndir. O hər şeydən agahdır.”**

**Nöqtələr**

Quranda dəfələrlə qeyd olunur ki, peyğəmbərlər öz təlaşları müqabilində xalqdan əvəz istəmirdilər. “Şuəra” surəsinin 100-180-cı ayələrində bu nöqtə müxtəlif peyğəmbərlərin dilindən təkrarlanır. Amma İslam Peyğəmbəri (s) iki yerdə muzd məsələsinə toxunur: “Mən əhli-beytimə məhəbbətdən savay muzd istəmirəm.”[1]; Risalətim müqabilində sizdən muzd istəmirəm.”[2]

Yuxarıdakı ayələrdən çıxarılan nəticə budur ki, girami Peyğəmbər (s) zəhməti müqabilində yalnız öz Əhli-beytinə (ə) məhəbbət diləyir və bildirir ki, bu muzd insanların öz xeyirinədir. Çünki peyğəmbər Əhli-beytinə (ə) bağlanan insan onların yolunu gedir. Məsum rəhbərlərin yolunu gedənlər isə Allah yolunu izləmiş olur. Deməli, Əhli-beytə məhəbbət özümüzə faydalıdır. Müəllim şagirdlərinə deyir: “Mən sizdən dərslərə hazır olmağınızdan savayı bir şey istəmirəm və bu sizin öz xeyirinizədir.”

**Bildirişlər**

1. Din təbliğatçıları öz təmənnasızlıqlarını xalqa elan etməlidir.
2. Pislənilən iş müzd tələb etməkdir. Amma xalq özü din təbliğatçısına hədiyyə vermək istəyərsə, bu hədiyyəni qəbul etmək nöqsan deyil.
3. Rəhbərin canıyananlığına və səmimiyyətinə inam onun sözünə xüsusi təsir verir. (Xalqdan maddi umacağı olan rəhbər xalq tərəfindən ikrahla qarşılanır.[3]
4. Allah yolu və Əhli-beytə (ə) sevgi doğrudan da xalqın öz xeyirinədir.
5. Allahı bütün işlərə şahid bilən insan Ondan qeyrisinə göz dikmir.
6. Sui-zənləri aradan qaldırmaq üçün Allahı öz səmimiyyətimizə şahid götürək.

---

[1] “Şura”, 23.
[2] “Furqan”, 57.
[3] “Qələm”, 47.

*AYƏ 48:*

﴿قُلْ إِنَّ رَبِّي يَقْذِفُ بِالْحَقِّ عَلَّامُ الْغُيُوبِ﴾

**“De ki, həqiqətən, batinlərdən yaxşıca xəbərdar olan Rəbbim haqqı (qəlblərə) çatdırar.”**

**Bildirişlər**

1. Haqqın qələbəsi və batilin məhvi Allahın rübubiyyət şənlərindəndir.
2. Haqq batilə hücum çəkməli və onu məhv etməlidir.
3. Haqqın batilə qələbəsi ilahi sünnələrdəndir.
4. Haqqın qələbəsi və batilin məhvi üçün geniş məlumata ehtiyac var.

*AYƏ 49:*

﴿قُلْ جَاء الْحَقُّ وَمَا يُبْدِئُ الْبَاطِلُ وَمَا يُعِيدُ﴾

**“De ki, haqq gəldi və batil bir işə başlayıb, onu təzələyə bilməz.”**

*AYƏ 50:*

﴿قُلْ إِن ضَلَلْتُ فَإِنَّمَا أَضِلُّ عَلَى نَفْسِي وَإِنِ اهْتَدَيْتُ فَبِمَا يُوحِي إِلَيَّ رَبِّي إِنَّهُ سَمِيعٌ قَرِيبٌ﴾

**“De ki, azmış olsam, öz zərərimə azmışam, doğru yol tutsam, bu Rəbbimim mənə vəhyinin bərəkətidir. Həqiqətən, Odur eşidən və yaxın.”**

**Nöqtələr**

Girami Peyğəmbərin (s) səhabələrindən olan İbn Məsud deyir: Məkkədə 360 büt vardı. Məkkənin fəthi günü girami Peyğəmbər (s) onları bir-bir yerə aşırdı. Həzrət həmin vaxt “qul caəl həqqu...” ayəsini oxuyurdu.

Sual: Nə üçün Quran və haqq peyğəmbər gəldiyi halda batil yerindədir?

Cavab: Məntiqi və elmi hakimiyyət əməli və icra hakimiyyətindən fərqlənir. Allahın işi həqiqəti bəyan etmək, bizim işimiz əməl etməkdir. Amma biz haqqa əməl etmirik. Bəli, xəstənin müalicəsi düzgün müayinə və dərmanların düzgün qəbul edilməsindən asılıdır. Bunlardan biri həkimin, digəri xəstənin vəzifəsidir.

**Bildirişlər**

1. Haqq batilə qalibdir.
2. Quran qeyb və gələcəkdən xəbər verir.
3. İlahi vəhysiz hətta peyğəmbər üçün büdrəmə təhlükəsi var.
4. Azğınlıq insanın öz zərərinədir.
5. Allah həm vəhy göndərir, həm də onun bəyanına nəzarət edir.

*AYƏ 51:*

﴿وَلَوْ تَرَى إِذْ فَزِعُوا فَلَا فَوْتَ وَأُخِذُوا مِن مَّكَانٍ قَرِيبٍ﴾

**“Kafirləri (ağır əzabdan) qorxan, qurtuluş yolu qalmayan, yaxınlıqda yaxalanmış halda görsən (təəccüb edəcəksən).”**

*AYƏ 52:*

﴿وَقَالُوا آمَنَّا بِهِ وَأَنَّى لَهُمُ التَّنَاوُشُ مِن مَكَانٍ بَعِيدٍ﴾

**“(Həmin vaxt) Deyərlər: “Ona iman gətirdik.” Uzaqdan imana əl uzatmaları onlara fayda verməyəcək.”**

**Nöqtələr**

Bu ayələrdən başlayaraq surənin sonunadək müşriklərin üzücü halda can verməsi təsvir olunur.

“Tənavuş” dedikdə bir şeyi asanlıqla əldə etmək mənası anlaşılır.

Şiə və sünni təfsirlərindəki rəvayətlərə əsasən, girami Peyğəmbər (s) bu ayələri həzrət Mehdinin (ə) qiyamı zamanı Süfyaninin səhnəyə gəlişi kimi təfsir etmişdir.

Yaxın yer dedikdə dünya, uzaq yer dedikdə axirət nəzərdə tutulur.

**Bildirişlər**

1. Müşriklərin hay-harayı onların problemlərini həll etməz. Onların sığınacaq yeri yoxdur.
2. Bütün kafirlər təhlükəyə düşdükdə iman gətirir. Amma bunun nə faydası?!
3. Ölüm gəldiyi an insanı yaxalayır.
4. Müşriklər elə dünya həyatında cəzalandırılmağa başlayır.
5. Dünyaya qayıdış və pis əməllərin yuyulması mümkünsüzdür.

*AYƏ 53:*

﴿وَقَدْ كَفَرُوا بِهِ مِن قَبْلُ وَيَقْذِفُونَ بِالْغَيْبِ مِن مَّكَانٍ بَعِيدٍ﴾

**“Hansı ki, bundan öncə küfr edir, uzaqdan qaranlığa ox atırdılar. (Peyğəmbərə iftira yaxırdılar.)”**

*AYƏ 54:*

﴿وَحِيلَ بَيْنَهُمْ وَبَيْنَ مَا يَشْتَهُونَ كَمَا فُعِلَ بِأَشْيَاعِهِم مِّن قَبْلُ إِنَّهُمْ كَانُوا فِي شَكٍّ مُّرِيبٍ﴾

**“(Nəhayət) onlarla istəkləri arasında ayrılıq düşdü. Necə ki, keçmişdə də oxşarları ilə belə edilmişdi. Çünki onlar dərin bir şübhə və tərəddüd içində idilər.”**

**Bildirişlər**

1. Dünənədək peyğəmbər və Qurana böhtan atanların çətinliyə düşdüyü vaxt iman gətirməsinin nə faydası?!

2. Kafirlər peyğəmbər və Quranı lazımınca tanımırdılar. Onlar sanki uzaq məsafədən qaranlığa ox atırdılar.

# “FATİR” SURƏSİ

### *(35-Cİ SURƏ, 45 AYƏ)*

### *İyirmi ikinci cüz*

### *“FATİR” SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 45 ayədən ibarətdir. “Fatir” Allahın sifətlərindən biridir və “aradan” mənasını bildirir. Surənin adı onun ilk ayəsindən götürülmüşdür. Həmin ayədə Allah göylərin və yerin yaradıcısı kimi tanıtdırılır. Digər Məkkə surələrində olduğu kimi bu surədə də yaranış, məad, şirklə mübarizə mövzusunda danışılır.

**“Rəhman və rəhim Allahın adı ilə”**

﴿بسم الله الرحمن الرحيم﴾

***AYƏ 1:***

﴿الْحَمْدُ لِلَّهِ فَاطِرِ السَّمَاوَاتِ وَالْأَرْضِ جَاعِلِ الْمَلَائِكَةِ رُسُلًا أُولِي أَجْنِحَةٍ مَّثْنَى وَثُلَاثَ وَرُبَاعَ يَزِيدُ فِي الْخَلْقِ مَا يَشَاءُ إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Sitayiş göyləri və yeri yaratmış, iki-iki, üç-üç, dörd-dörd qanadlı mələkləri elçilər qərar vermiş Allaha məxsusdur. O yaranışa istədiyini artırar. Əlbəttə, Allah hər şeyə qadirdir.”**

**Nöqtələr**

“Fatir” dedikdə ilkin yaradılış, “əcnihə” dedikdə qanad mənası anlaşılır. Qanad sözü qüdrətə işarədir. Adi danışıqda “bir şəxsin qanadları qırılıb” deyərkən onun gücdən düşməsi nəzərdə tutulur.

**Bildirişlər**

1. Sitayiş üçün qarşı tərəfdə dəyər və ləyaqət olmalıdır.
2. Allah qüdrət sahibi olsa da, varlıq nizamını səbəblər üzərində qurmuşdur.
3. Mələklər vəzifə və güc baxımından fərqlənir.
4. Yaranış prosesi davam edir və varlıq aləmi genişlənməkdədir.
5. Aləm yaradıcılıqla xəlq olunub.

### *QURANDA MƏLƏKLƏR HAQQINDA*

Qurani-kərim mələklər haqqında müəyyən məlumatlar verir: Mələklər Allahın girami bəndələridir[1]; mələklər Allaha mütidir[2]; işlərin tədbiri və bölgüsü onların öhdəsindədir[3]; onlar insanların danışığına nəzarət edir[4]; mələklər əməlləri yazır[5]; mələklər savaşda mücahidləri müjdələyir[6]; mələklər insanları övladla müjdələyir[7]; mələklər ölüm məqamında möminləri müjdələyir[8]; onlar günahkarları cəzalandıran məmurlardır[9]; onlar insanları hifz edir[10]; mələklər möminlərə dua edir[11]; onlar insanların bağışlanmasını diləyir,

---

1 “Ənbiya”, 26.
2 “Ənbiya”, 27. “Təhrim”, 6.
3 “Naziat”, 5; “Zariyat”, 4.
4 “Qaf”, 18.
5 “Zuxruf”, 80.
6 “Tövbə”, 40.
7 “Məryəm”, 7.
8 “Fussilət”, 30.
9 “Hud”, 77.
10 “Ənam”, 61.
11 “Ğafir”, 70; “Şura”, 5.

şəfaət edir[1]; mələklər kafirləri lənətləyir[2]; onlar cəbhələrə yardım göstərir [3]; onlar ölüm zamanı günahkarları tənbeh edir[4]; onlar behişt əhlini qarşılayır[5]; mələklər cəhənnəm əzabına məsuldur[6]; onlar ruhları çıxaran məmurlardır[7]; mələklərin dərəcələri var[8]; mələklər vəhy gətirir[9]; mələklər bəzən insan şəkilinə düşür[10]; onlar ibadətdən yorulmur[11]; onlar təkcə peyğəmbərlər yox, başqaları ilə də təmasda olur[12]; seçilmiş mələklər var[13]; mələklərə iman zəruridir[14].

***AYƏ 2:***

﴿مَا يَفْتَحِ اللَّهُ لِلنَّاسِ مِن رَّحْمَةٍ فَلَا مُمْسِكَ لَهَا وَمَا يُمْسِكْ فَلَا مُرْسِلَ لَهُ مِن
بَعْدِهِ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ﴾

**“Allahın xalqa mərhəmətinin qarşısını ala bilən yoxdur. Allahın vermədiyini Ondan başqası göndərəsi deyil. O yenilməz və hikmət sahibidir.”**

**Bildirişlər**

1. Dünyada bütün insanlar ilahi mərhəmətdən faydalanır.
2. Allahın rəhməti Onun qəhr-qəzəbindən öndə gəlir.
3. Allahın bəxşişi də, məhrum etməsi də hikmətə əsaslanır.
4. İlahi nemətlər Onun xəzinəsinin insanın ixtiyarına verilən bir hissəsidir.
5. Allahdan qeyrisinə göz dikmək əbəsdir. Əgər O istəməsə kimsənin əlindən bir iş gəlməz.
6. Allahın iradəsi dəyişməzdir.

---

[1] “Nəzm”, 26.
[2] “Bəqərə”, 161.
[3] “Ali-İmran”, 126; 125.
[4] “Muhəmməd”, 27.
[5] “Zumər”, 73.
[6] “Müddəsir”, 31.
[7] “Ənam”, 61.
[8] “Saffat”, 164.
[9] “Nəhl”, 2.
[10] “Məryəm”, 19.
[11] “Fussilət”, 38.
[12] “Məryəm”, 19.
[13] “Həcc”, 75.
[14] “Bəqərə”, 285; “Nisa", 136.

*AYƏ 3:*

﴿يَا أَيُّهَا النَّاسُ اذْكُرُوا نِعْمَتَ اللَّهِ عَلَيْكُمْ هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ يَرْزُقُكُم مِّنَ السَّمَاء وَالْأَرْضِ لَا إِلَهَ إِلَّا هُوَ فَأَنَّى تُؤْفَكُونَ﴾

**“Ey insanlar! Allahın sizə verdiyi nemətləri yada salın. Allahdan savayı sizə göydən və yerdən ruzi verəsi bir kəs varmı? Ondan savayı məbud yoxdur. Bəs necə olur ki, haqqa arxa çevirib batilə üz tutursunuz?!”**

**Bildirişlər**

1. Hamını ilahi nemətlər haqqında düşüncəyə dəvət edək.
2. Ən üstün allahşünaslıq yolu ilahi nemətlərə diqqətdir.
3. Sual qəflət yuxusundan oyanışın açarıdır.
4. Həm yaranış, həm də həyat Ondandır.
5. Ruzi verən Odur amma təbii vasitələrlə əta edir.
6. Xəbərdarlıqdan öncə məzəmmət yersizdir.
7. Tövhiddən savayı bütün yollar uçuruma aparır.
8. Məbada Allahın ruzisini yeyib ondan özgəsinə üz tutaq.
9. İnsan fitrətən allahpərəstdir. İnsanı azdıran xarici amillərdir.

*AYƏ 4:*

﴿وَإِن يُكَذِّبُوكَ فَقَدْ كُذِّبَتْ رُسُلٌ مِّن قَبْلِكَ وَإِلَى اللَّهِ تُرْجَعُ الأمُورُ﴾

**“Səni inkar etsələr (nigaran olma, bil ki) səndən öncəki peyğəmbərləri də inkar ediblər. Bütün işlər Allaha doğru qayıdasıdır.”**

**Bildirişlər**

1. Bütün peyğəmbərlərin müxalifləri olub. Haqqın təkzibi kafirlərin daimi işidir.
2. Tarix təkrarlanır.
3. Kafirlərin şəxsən peyğəmbərlər yox, onun tutduğu yolla müxalifəti var. Haqqa çağıran insan təkziblə üzləşir.
4. Problemlərin həlli yolunda tarix ən yaxşı təsəllidir.
5. İnsanların təkzibi vəhy həqiqətinə zərbə vurmur. Səndən öncə də göndərdiklərimiz təkzib olundu.
6. Məada diqqət insanı acı hadisələr qarşısında möhkəmləndirir.
7. Müxaliflər bilsinlər ki, onların inadkarlığı unudulmayacaq.

### *AYƏ 5:*

﴿يَا أَيُّهَا النَّاسُ إِنَّ وَعْدَ اللَّهِ حَقٌّ فَلَا تَغُرَّنَّكُمُ الْحَيَاةُ الدُّنْيَا وَلَا يَغُرَّنَّكُم بِاللَّهِ الْغَرُورُ﴾

**“Ey insanlar! Həqiqətən, Allahın vədi haqdır. Dünya həyatı sizi aldatmasın, məbada hiyləgər (şeytan) sizi yoldan çıxarıb Allaha qarşı qürrələndirə.”**

**Nöqtələr**

“Ğərur” dedikdə olduqca hiyləgər şəxs nəzərdə tutulur. Növbəti ayəyə əsasən burda şeytana işarə olunmuşdur.

Allaha qarşı qürrələnmək dedikdə insanın şeytanın təhriki ilə Allahın əfv və bəxşişi müqabilində qürrələnməsi nəzərdə tutula bilər. Uyğun təbirlər insanın təhrif vasitəsi ilə bidətə, səhlənkarlığa sürüklənməsinə, günahın təkrarına vadar edilməsinə işarə ola bilər.

Surə tövhid haqqında söhbətlə başlayır, növbəti ayədə nübüvvədən danışılır və hazırkı ayədə məad məsələsinə toxunulur.

“Loğman” surəsinin 33-cü ayəsi də bu ayənin oxşarıdır.

**Bildirişlər**

1. Bəzilərini maddi və dünyəvi həyat aldadır. Bəziləri isə dünya bəzəyinə aldanmadığı halda şeytan tərəfindən azdırılır.
2. Tərbiyə prosesində xəbərdarlıqlar təkrarlanmalıdır.
3. Məada iman dünyaya aldanışdan saxlayan ən güclü vasitədir.
4. İlahi vədlər haqq, şeytanın vədləri batildir.

### *AYƏ 6:*

﴿إِنَّ الشَّيْطَانَ لَكُمْ عَدُوٌّ فَاتَّخِذُوهُ عَدُوًّا إِنَّمَا يَدْعُو حِزْبَهُ لِيَكُونُوا مِنْ أَصْحَابِ السَّعِيرِ﴾

**“Şübhəsiz, şeytan sizin düşməninizdir. Beləsə, siz də onu düşmən bilin. O öz dəstəsini yalnız cəhənnəm əhli olmağa çağırır.”**

**Nöqtələr**

“Səir” dedikdə şölələnmiş od mənası anlaşılır. Cəhənnəmin adlarından biri “səir”dir.

Şeytanın bəşəriyyətlə düşmənçiliyinin uzun keçmişi var: atamız Adəmi behiştdən çıxardı[1]; o gözə görünməyən bir düşməndir[2]; o bizimlə

---

[1] Əraf”, 27.

[2] Əraf”, 27.

düşmənçiliyə and içmişdir[1]; o insana hər tərəfdən hücum edir[2]; şeytan insanları azdırmaq üçün onları yoxsulluqla qorxudur, günaha sürüklər[3]; onun məqsədi yalnız insanı cəhənnəmə daxil etməkdir. İmam Sadiq (ə) buyurur: "Əgər şeytan düşmənsə, ona nə üçün göz yumulmalıdır?![4]

**Bildirişlər**

1. Şeytanın düşmənçiliyinə ciddi yanaşmasaq aldanasıyıq.
2. Düşmənin proqramlarından və formalaşmasından xəbər tutaq.
3. Şeytan insanları azdırmaq üçün kömək axtarır. Bəs biz, insanları haqqa çağırış üçün nə edirik?

*AYƏ 7:*

﴿الَّذِينَ كَفَرُوا لَهُمْ عَذَابٌ شَدِيدٌ وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ كَبِيرٌ﴾

**"Küfr edənlər üçün ağır əzab var. İman gətirib saleh işlər görənlər üçün isə bağışlanma və böyük mükafat olacaq."**

**Bildirişlər**

1. Allah buyuruqlarını yerinə yetirməyin və ya onları tərk etməyin hesab-kitabı var.
2. Qorxu və ümid ruhiyyəsini hifz etmək üçün müjdə və xəbərdarlıq yanaşı bəyan olunmalıdır.
3. Tərbiyədə diqqəti işin sonuna yönəltmək təsirlidir.
4. İnsanın cəzalandırılması üçün onun küfr etməsi yetər. Amma mükafat əldə etmək üçün imandan əlavə saleh əmələ ehtiyac var.
5. Nə qədər ki günahlar bağışlanmayıb behiştə giriş və mükafat əldə etmək üçün zəminə yaranmır.
6. Öncə xəbərdarlığı başa çatdırmaq (höccəti tamamlamaq), sonra cəza ilə qorxutmaq. (Ötən ayələrdə höccət tamamlandı, bu ayədə cəza və mükafat elan olunur.)

*AYƏ 8:*

﴿أَفَمَن زُيِّنَ لَهُ سُوءُ عَمَلِهِ فَرَآهُ حَسَنًا فَإِنَّ اللَّهَ يُضِلُّ مَن يَشَاءُ وَيَهْدِي مَن يَشَاءُ فَلَا تَذْهَبْ نَفْسُكَ عَلَيْهِمْ حَسَرَاتٍ إِنَّ اللَّهَ عَلِيمٌ بِمَا يَصْنَعُونَ﴾

[1] "Sad", 82.
[2] Əraf", 17.
[3] "Bəqərə", 268.
[4] "Təfsire-Nurus-səqəleyn".

**“Pis əməli gözündə bəzənmiş, onu yaxşı sayan kəs (hidayət olunmuş kəs kimidirmi)? Şübhəsiz, Allah istədiyini (ləyaqətsizliyinə görə) azdırar, istədiyini (ləyaqətinə görə) hidayət edər. Onların həsrəti ilə canını üzülməyə qoyma. Çünki Allah onların gördüyü işlərdən tam xəbərdardır.”**

**Nöqtələr**

İnsanın pis işlərini onun gözündə bəzəyən, tənqid əvəzinə onu tərifləyən varlıq şeytandır.[1]

Məzəmmətli sualları cavabsız qoymaq günahkarlara qarşı hədə və təhqiri göstərir. Allah pis əməl sahiblərini məzəmmət məqsədi ilə sual ünvanlayıb, onu cavabsız buraxır. Buyurulur ki, görən öz pis işini yaxşı sayan... Amma sual cavabsız buraxılır.

İmam Kazım (ə) buyurur: “Pis əməlləri yaxşı saymaq şöhrətpərəstliyin, özündən razılığın (“ücb”) müqəddiməsidir.”[2]

**Bildirişlər**

1. İnsan fitrətən gözəlliyə vurğundur. Şeytan insanın bu meylindən faydalanaraq pis əməlləri bəzəyib ona qəbul etdirir.

2. Pislikləri yaxşı saymaq azğınlıq zəminəsidir.

3. İnsan öncə günaha don geyindirir, sonra işə başlayır. (Pis əməllərin bəzənməsi elə azğınlığa don geyindirməkdir.)

4. Mömin insan həqiqəti görür, özünü tanıyır. Amma kafir zənnə qapılır, aldanır və özündən razıdır. (Ötən ayədə kafirlərdən və möminlərdən, bu ayədə bəsirət və xülyapərəstlikdən danışıldı.)

5. Yaxşılıqlar və pisliklər zənn-güman əsasında yox, ilahi meyarlar əsasında dəyərləndirilməlidir.

6 Yanlış təsəvvür, pisi yaxşı saymaq insanın öyüd götürməsinə, tövbə və təkamülünə mane olur.

7. Hidayət və zəlalət (doğru yola sövq və azdırma) Allah tərəfindən olsa da, insanın əməlləri əsasında gerçəkləşir. Kafirlər inadkarlıq göstərərək azğınlıq yolunu tutur. Allah isə onların azğınlığını artırır.

8. Peyğəmbər insanların doğru yola gəlişini hərisliklə izləyir.

9. Təəssüf və həsrətin də hədd-hüdudu olmalıdır.

10. Günahkarların pis əməllərindən Allahın xəbərdarlığı bizim həyəcanımızı azaldır.

---

[1] “Ənfal”, 48.

[2] “Kafi”, c. 2, s. 313.

*AYƏ 9:*

﴿وَاللَّهُ الَّذِي أَرْسَلَ الرِّيَاحَ فَتُثِيرُ سَحَابًا فَسُقْنَاهُ إِلَى بَلَدٍ مَّيِّتٍ فَأَحْيَيْنَا بِهِ الْأَرْضَ بَعْدَ مَوْتِهَا كَذَلِكَ النُّشُورُ﴾

**"Küləklər göndərib buludu hərəkətə gətirən Allahdır. Onu (buludu) ölü torpaqlara doğru qovduq, onun vasitəsi ilə ölmüş torpağı diriltdik. Dirçəliş də belədir."**

**Nöqtələr**

Külək, yağış vasitəsi ilə torpaq canlandığı və bitkilər cücərdiyi kimi Allahın növbəti iradəsi ilə dəhşətli bir zəlzələ ölüləri torpaqdan qaldırar.

*Xəzandan sonrakı bu şıltaq bahar*
*Qiyamətin bərpasından danışar.*

**Bildirişlər**

1. Allahın iradəsi ilə küləklər əsir, buludlar hərəkət edir, yağış yağır. Bütün bunlar təsadüfi deyil.
2. Varlıq aləminə nizam və müdiriyyət hakimdir.
3. Qeybi anlatmaq üçün göz qabağında olanlardan istifadə edək.

*AYƏ 10:*

﴿مَن كَانَ يُرِيدُ الْعِزَّةَ فَلِلَّهِ الْعِزَّةُ جَمِيعًا إِلَيْهِ يَصْعَدُ الْكَلِمُ الطَّيِّبُ وَالْعَمَلُ الصَّالِحُ يَرْفَعُهُ وَالَّذِينَ يَمْكُرُونَ السَّيِّئَاتِ لَهُمْ عَذَابٌ شَدِيدٌ وَمَكْرُ أُوْلَئِكَ هُوَ يَبُورُ﴾

**"İzzət istəyən varsa, bütün izzət Ona məxsusdur. Ona doğru yüksələn yalnız pak sözdür və onu saleh əməl yuxarı qaldırır. Pis əməllərlə plan cızanlar üçün ağır əzab var və onların hiylələri puça çıxar."**

**Nöqtələr**

"Əlkəlimut-təyyib" dedikdə tövhid, risalət və vilayətə şəhadət nəzərdə tutulur. Rəvayətlərdə göstərilən "la ilahə illəllah və sübhanəllah..." zikrləri də pak sözün bir nümunəsidir.

"Yəbur" sözü puça çıxma, həlak olma mənalarını bildirir.

Hazırkı ayə başqa şəkillərdə də mənalandırılmışdır:

1. Yaxşı söz Allaha doğru yüksələr, amma saleh əməl ona ucalıq və dərəcə verər.
2. Yaxşı söz həm özü yüksələr, həm yaxşı əməlləri yüksəldər.

Kafirlər izzəti ya maddiyyatda axtarar, ya da digər bağlılıqlardan umarlar.[1] Əslində isə izzət yalnız Allaha bağlılıqdadır.

**Bildirişlər**

1. Həqiqi izzət xalqa yox, Allaha bağlılıqdadır.
2. İzzət iman və saleh əməl sayəsində əldə olunur.
3. Əqidə və əməl arasında sıx rabitə var, onlar bir-birinə təsir göstərir.
4. İman və seleh əməldə izzət axtaran möminlərin yolu təkamül yoludur. Yalan və hiylə vasitəsi ilə izzət arayanların yolu batil və puçdur.
5. Kimsə hiylə və günah vasitəsi ilə izzətə çatmayıb.

### *AYƏ 11:*

﴿وَاللَّهُ خَلَقَكُم مِّن تُرَابٍ ثُمَّ مِن نُّطْفَةٍ ثُمَّ جَعَلَكُمْ أَزْوَاجًا وَمَا تَحْمِلُ مِنْ أُنثَى وَلَا
تَضَعُ إِلَّا بِعِلْمِهِ وَمَا يُعَمَّرُ مِن مُّعَمَّرٍ وَلَا يُنقَصُ مِنْ عُمُرِهِ إِلَّا فِي كِتَابٍ إِنَّ ذَلِكَ
عَلَى اللَّهِ يَسِيرٌ﴾

**“Allah sizi torpaqdan, sonra nütfədən yaratdı və bir-birinizə cüt qərar verdi. Ondan xəbərsiz heç bir qadın hamilə olmaz və doğmaz. Kimsəyə kitabda yazıldığından uzun ömür verilməz və ya ömründən kəsilməz. Şübhəsiz, bu iş Allah üçün asandır.”**

**Nöqtələr**

“Muəmmər” dedikdə uzun ömür sahibləri nəzərdə tutulur. “Umr” sözü abadlıq mənasını bildirir. İnsan yaşadığı müddətdə abadlıq yaratmaq imkanına malik olduğundan onun yaşadığı müddət ömür adlanır.

Rəvayətlərə əsasən, sədəqə və qohum-əqrəbanı yoxlamaq (“sileyi-rəhm”) ömrü uzadır. Əksinə qohum-əqrəba ilə əlaqələri kəsmək, valideynin üzünə ağ olmaq ömürün qısalmasına səbəb olur.[2]

**Bildirişlər**

1. Öz yaranışınıza diqqət yetirin ki, həm Allahın qüdrətini anlayasınız, həm qəflət və təkəbbürə düçar olmayasınız.
2. Həzrət Adəm torpaqdan xəlq edildiyi kimi, nütfədən yaranmış insanların da ilk qaynağı torpaqdır.
3. İnsan vücudunun ilkin ünsürləri torpaq və sudur.
4. İnsan üçün cütlüyün (həyat yoldaşının) yaranışı ilahi lütflərdəndir.
5. Allah insan vücudunun yaranışdan öncəki və sonrakı hallarından tam xəbərdardır.
6. İnsan üçün ömür müəyyənləşdirilmişdir. Amma bu ömür müddəti müəyyən səbəblərdən qısala bilər.

---

[1] “Məryəm”, 81; “Nisa", 139.

[2] “Mizanul-hikmə”.

7. İnsan ömrünün bütün anlarının hesab-kitabı var.

8. İnsanı torpaq və nütfədən yaratmaq, onun ömrünün bütün anlarından xəbərdar olmaq Allah üçün asandır.

***AYƏ 12:***

﴿وَمَا يَسْتَوِي الْبَحْرَانِ هَذَا عَذْبٌ فُرَاتٌ سَائِغٌ شَرَابُهُ وَهَذَا مِلْحٌ أُجَاجٌ وَمِن كُلٍّ تَأْكُلُونَ لَحْمًا طَرِيًّا وَتَسْتَخْرِجُونَ حِلْيَةً تَلْبَسُونَهَا وَتَرَى الْفُلْكَ فِيهِ مَوَاخِرَ لِتَبْتَغُوا مِن فَضْلِهِ وَلَعَلَّكُمْ تَشْكُرُونَ﴾

**“İki dəniz eyni deyil: onlardan biri şirin, lətif, içməyə dədlı, o biri şor və təlxdir. Amma siz onların hər ikisindən təzə ət yeyir, zinət əşyaları çıxarıb taxırsınız. Allahın fəzlindən (ruzi) diləyib, şükür edən olasınız deyə gəmilərin dalğaları yardığını görürsən.”**

**Nöqtələr**

“Əzb” dedikdə şirin, “furat” dedikdə lətif, “saiğ” dedikdə dadlı, “məvaxir” dedikdə yarmaq mənaları anlaşılır.

Həyat bəzən şirindir, bəzən acı, bəzən şöhrət gətirir, bəzən adsızlıq, bəzən var-dövlət içində ötüşür, bəzən yoxsulluq, bəzən sağlamlıqla müşayiət olunur, bəzən xəstəlik... Amma insan yaxşı ovçu, üzgüçü və sükançı olsa bütün ziddiyyətli şəraitlərdə müvəffəqiyyətə çata bilər.

Balıq əti, zinət əşyaları, gəmiçilik insan təlaşı ilə əldə olunan bərəkətlərdir. Əslində isə dənizin sayız-hesabsız bərəkətləri var. Məsələn, buxardan buludların yaranışı. Havanın təmizlənməsi, dənizdəki canlı aləm...

**Bildirişlər**

1. Öncə şirinliklərdən danışın. (Əksər dənizlərin suyu şor və təlx olsa da, Quran əvvəlcə şirin suyu yada salır.)
2. İslam ətlə qidalanmadan imtinaya icazə vermir.
3. Dəniz qida, geyim, minik yatağıdır.
4. Qidalanmada təzə ətə üstünlük verilməlidir.
5. İnsan fitrətən gözəlliyə meyllidir. İslam müəyyən şərtlər daxilində zinət əşyalarından istifadəyə icazə verir.
6. İlahi nemətlər bir fəzl, bəxşişdir. Bizim Allahdan alacağımız yoxdur.
7. Allahın ruzi və fəzli səy və təlaş sayəsində əldə olunur.
8. İlahi nemətlərə diqqət insanda şükür ruhiyyəsini çiçəkləndirir.

### *AYƏ 13:*

﴿يُولِجُ اللَّيْلَ فِي النَّهَارِ وَيُولِجُ النَّهَارَ فِي اللَّيْلِ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ كُلٌّ يَجْرِي لِأَجَلٍ مُّسَمًّى ذَلِكُمُ اللَّهُ رَبُّكُمْ لَهُ الْمُلْكُ وَالَّذِينَ تَدْعُونَ مِن دُونِهِ مَا يَمْلِكُونَ مِن قِطْمِيرٍ﴾

**“O (Allah) gecəni gündüzə, gündüzü gecəyə qovuşdurur. (Birindən azaldıb o birini artırır.) O günəş və ayı ram etdi. Onlardan hər biri müəyyən müddət hərəkətdədir. Budur sizin Rəbbiniz olan Allah! Hökm Ona məxsusdur. Onun yerinə çağırdıqlarınız xurma toxumunun qabığına da sahib deyillər.”**

**Nöqtələr**

Gecə və gündüz tədrici olaraq bir-birini əvəz edir. Ani olaraq gecə gündüzə, gündüz gecəyə dönsəydi bunun zərərli təsirləri olardı.

**Bildirişlər**

1. Gecə və gündüzün uzanıb-qısalması və tədricən yerdəyişməsi təsadüfi deyil.
2. Təbiət Allah tərəfindən ram olunmuşdur.
3. Ay və günəşin hərəkəti üçün zaman bölgüsü və bir son var.
4. Nizamlı, məqsədli və proqramlı yaranışa diqqət yetirməklə tövhid əqidənizi möhkəmləndirin.
5. Təbliğdə öncə haqqın simasını aydınlaşdırın, sonra onu batillə müqayisə edin.
6. Dua ən ali məqama ünvanlanmalıdır. Bütlər nə sizdən üstündür, nə də xeyir və zərər sahibidir.
7. İnsan mütləq ilahi qüdrətə arxa çevirib heç bir gücü olmayan mövcudların sorağınca gedir.
8. Təbliğdə hamının istənilən bir vaxt və ya məkanda anlayacağı misallardan istifadə edin.

### *AYƏ 14:*

﴿إِن تَدْعُوهُمْ لَا يَسْمَعُوا دُعَاءَكُمْ وَلَوْ سَمِعُوا مَا اسْتَجَابُوا لَكُمْ وَيَوْمَ الْقِيَامَةِ يَكْفُرُونَ بِشِرْكِكُمْ وَلَا يُنَبِّئُكَ مِثْلُ خَبِيرٍ﴾

**“Əgər onları (bütləri) çağırsanız, duanızı eşitməzlər, eşitsələr belə cavab verməzlər. Onlar Qiyamət günü sizin şirkinizi inkar edəcəklər. Kimsə agah (Allah) kimi səni (həqiqətlərdən) xəbərdar etməz.”**

**Nöqtələr**

Bəzi müsəlman firqələri, o cümlədən vəhhabilər öz əqidələrini sübuta yetirmək üçün bu ayəyə istinad edirlər. Onlar sanki bu ayələrin övliyalar yox, bütlər haqqında nazil olduğunu bilmirlər. Allah öz övliyaları ilə onların ölümündən sonra da danışır. Allah müxtəlif ayələrdə öz peyğəmbərlərinə salam göndərir.[1] Əgər onlar eşitmirsə, Allahın salamı nə üçündür?! Bu firqələr şəhidlərin bərzəx həyatını sanki qəbul etmirlər!

Çoxsaylı rəvayətlərdə bildirilir ki, İslam Peyğəmbəri (s) ölülərlə danışırdı. Həzrət kafirlərin bədr quyusundakı cəsədləri ilə danışarkən bu işə etiraz edənlərə buyurdu: “Siz onlardan yaxşı eşitmirsiniz.”[2]

**Bildirişlər**

1. Şirki aradan qaldırmaq üçün bütün dəlilləri bəyan edir: Onlar xurma dənəsinin qabığına da sahib deyillər (Ötən ayə; onlar sizin danışıqlarınız və nalələrinizi eşitmirlər; eşitsələr belə cavab verməzlər; Qiyamətdə uydurma məbudlar da müşriklərə nifrət edər.[3]
2. Bəşəriyyət o qədər süqut edir ki, eşidən və cavab verən Allaha arxa çevirib, kar, kor xaraktersiz əşyaların sorağınca gedir.
3. Xülya məbudlar Qiyamət günü müşriklərdən üz çevirər. Onlar deyər ki, siz bizə yox, öz həvəslərinizə pərəstiş edirdiniz.[4]
4. Şirkin nə dünyada, nə də axirətdə faydası var.
5. Mühüm xəbərləri mütəxəssislərdən soruşun.
6. Qiyamətlə bağlı məlumatları yalnız vəhy yolu ilə əldə etmək olar.

### *AYƏ 15:*

﴿يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ﴾

**“Ey insanlar! Allaha möhtac olan sizsiniz, Allah ehtiyacsız və həmd olunmuşdur.”**

**Nöqtələr**

Allahın xalqa müraciəti Onun ehtiyaclı olduğunu göstərmir. Əgər insanlar evlərini üzü günəşə tikirsə, bu günəşin yox, onların ehtiyacını göstərir.

Qürur və təkəbbürlə mübarizə yollarından biri insanın Allah dərgahına dəvət olunmasıdır. İnsan zəif, cahil, yoxsul, möhtac olduğunu yalnız bu yolla anlaya bilər.

**Bildirişlər**

1. Kimsə Allahdan ehtiyacsız deyil.

[1] “Saffat”, 109, 120.
[2] Müəllifin “Məad” kitabı.
[3] Hazırkə ayə.
[4] “Yunus”, 28.

2. Bütün mövcudlar möhtacdır. Azğınlıq edən insan isə cilovlanmalıdır.

3. Biz vasitələr və səbəblərin rolunu qəbul edirik. Amma bütün vasitələr və səbəblər Allahdan güc alır.

4. Gerçək, mütləq və kamil ehtiyacsız yalnız Allahdır.

5. Ehtiyacsız və varlı insanlar adətən sevilmir. Amma Allah həm varlı, həm də həmd olunmuşdur.

6. Allah öz varından yaratdıqlarının ehtiyacını təmin etmək üçün istifadə edir. Bu səbəbdən də Ona sitayiş olunur.

***AYƏ 16:***

﴿إِن يَشَأْ يُذْهِبْكُمْ وَيَأْتِ بِخَلْقٍ جَدِيدٍ﴾

**“Əgər istəsə sizi aparıb yeni bir məxluq gətirər.”**

***AYƏ 17:***

﴿وَمَا ذَلِكَ عَلَى اللَّهِ بِعَزِيزٍ﴾

**“Bu iş Allah üçün çətin deyil.”**

**Nöqtələr**

“Ənam” surəsinin 133-cü ayəsi 16-cı ayənin oxşarıdır. Ayədə buyurulur: “Sənin Rəbbin ehtiyacsız və mərhəmət sahibidir. İstəsə sizi aparar və sizdən sonra yerinizə istədiyini gətirər. Necə ki, sizi əvvəlkilərin yerində qərar verdi.”

**Bildirişlər**

1. İnsan ayağının altını sürüşkən görsə aram yeriyər.

2. Yox olmaq imkanı insanın yoxsulluğunu göstərir.

3. Xalqı doğru yola dəvət və azğınlara xəbərdarlıq yollarından biri ilahi qüdrətin bəyanıdır.

4. Allah həm bir qövmü yaratmağa, həm də məhv etməyə qadirdir.

5. Allahın qüdrəti qarşısında heç bir maneə yoxdur.

6. Müdir tabeçiliyində olanların təkəbbür və inhisarçılığının qarşısını almalıdır.

7. Allahın qüdrətinə ciddi yanaşaq.

***AYƏ 18:***

﴿وَلَا تَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى وَإِن تَدْعُ مُثْقَلَةٌ إِلَى حِمْلِهَا لَا يُحْمَلْ مِنْهُ شَيْءٌ وَلَوْ كَانَ ذَا قُرْبَى إِنَّمَا تُنذِرُ الَّذِينَ يَخْشَوْنَ رَبَّهُم بِالغَيْبِ وَأَقَامُوا الصَّلَاةَ وَمَن تَزَكَّى فَإِنَّمَا يَتَزَكَّى لِنَفْسِهِ وَإِلَى اللَّهِ الْمَصِيرُ﴾

**“Heç bir fərd başqasının (günah) yükünü çiynina almaz. Yükü ağır olan şəxs hətta ən yaxınlarının yükündən götürməyə çağırsa onun yükündən daşınmaz. (Kimsə ona rəhm etməz) sən yalnız gizlində Rəbindən qorxanlara və namazı bərpa edənlərə xəbərdarlıq edirsən. Kim (günahdan) paklansa, bu paklıq onun öz xeyirinədir. Dönüş yalnız Allaha doğrudur.”**

**Nöqtələr**

“Vizr” sözü ağırlıq, yük mənasını bildirir. “Musqələt” dedikdə ağır yük mənası anlaşılır. “Himl” sözü çiyin yükü, “həml” sözü qarın yükü mənasını ifadə edir.[1]

Quranda oxuyuruq ki, bəziləri ətrafdakıları aldatmaq üçün onların günah yükünə kömək edəcəklərini bildirirlər. Ayə beləlvarinə cavab verir.

Sual: Bu ayəyə istinadən deyə bilərikmi ki, Qiyamətdə hərə öz yükünü götürəcək və bizim başqa günahkarlarla nə işimiz?

Cavab: Bu ayə pis işlər müqabilində susmağa əsas vermir. Günah müqabilində susmaq özü günahdır. Vəzifəmiz doğru yola çağırmaq və pisliyə qadağa qoymaqdır. Əgər sözümüzü dinləyən olmasa, günahı onun öz boynunadır.

Hərə öz əməlinə cavabdeh olsa da, cəmiyyətdə azğın işlərin bünövrəsini qoyanlar günahkarlarla birlikdə məsuliyyət daşıyır. Çünki günaha yönəltmək həmin günaha şəriklikdir.

**Bildirişlər**

1. Ədalət prinsipinə əsasən hər kəs öz yükünü daşımalıdır.
2. Günahımızı ata-babalarımızın, dostlarımızın və mühitin boynuna atmayaq.
3. Qiyamətdə hər kəslə ayrıca hesab-kitab aparılar.
4. Günah bir yükdür.
5. Qohumluq əlaqələrinin Qiyamət səhnəsində heç bir faydası yoxdur. Yaxınlar insanın günah yükünə kömək etmir.
6. Allah qorxusu və namaz insanı haqqın qəbuluna vadar edir.
7. İnsan təqva və namaz yolu ilə paklanır.
8. İnsanın paklanması onun öz xeyirinədir.
9. İnsan öz paklığından dünyada faydalanmaya da bilər. Amma axirətdə də bu paklığın bəhrəsini hökmən görəsidir.
10. Varlıq aləmi məqsədli yaradılıb və təkamül yolu gedir.

***AYƏ 19:***

﴿وَمَا يَسْتَوِي الْأَعْمَى وَالْبَصِيرُ﴾

**“(Mömin və kafir eyni deyil, necə ki) korla görən eyni deyil.”**

---

[1] “Təfsiri-nümunə”. “Mufrədati-rağib”.

*AYƏ 20:*

﴿وَلَا الظُّلُمَاتُ وَلَا النُّورُ﴾

**“Zülmət və nur da (eyni deyil).”**

**Bildirişlər**

1. Yaxşılıqları, pislikləri, kamillikləri, nöqsanları müqayisə etmək ən yaxşı təlim-tərbiyə yollarındandır.

2. Haqq yol birdən artıq deyil. Azğın yollar isə çoxdur.

*AYƏ 21:*

﴿وَلَا الظِّلُّ وَلَا الْحَرُورُ﴾

**“Kölgə və günəşin istisi (eyni deyil.)”**

*AYƏ 22, 23:*

﴿وَمَا يَسْتَوِي الْأَحْيَاء وَلَا الْأَمْوَاتُ إِنَّ اللَّهَ يُسْمِعُ مَن يَشَاء وَمَا أَنتَ بِمُسْمِعٍ مَّن فِي الْقُبُورِ إِنْ أَنتَ إِلَّا نَذِيرٌ﴾

**“Dirilər və ölülər eyni deyil. Həqiqətən, Allah (haqqı) istədiyinə eşitdirər. Sən heç vaxt gorda olanlara eşitdirə bilməzsən. Sən yalnız bir qorxudansan.”**

**Nöqtələr**

“Zillu” dedikdə kölgə, “hərur” dedikdə isti və yandırıcı külək nəzərdə tutulur.

Bu ayələrdə möminlər və kafirlər arasında dörd müqayisə aparılır. Məlum olur ki, şəxsiyyət baxımından möminlərlə kafirlər eyni deyil: mömin görənə, kafir kora bənzədilir; mömin işığa, kafir zülmətə oxşadılır; mömin kölgə, kafir yandırıcı küləyə bənzədilir; mömin diri, kafir ölü kimi tanıtdırılır.

Mömin təkamül yolundadır. Çünki onun işıqlı və həqiqəti görən gözü var. Möminin nəfsi pak, qəlbi diridir. Kafir isə həqiqəti görmək istəmir, qəlbidaşlıqdan haqqı qəbul etmir. O cəhalət, təəssüb və qəlbidaşlıq səbəbindən haqq yola üz tutmur.

**Bildirişlər**

1. Möminlərin qəlbi diridir və onlar həqiqi bir həyat yaşayır. İman insana və cəmiyyətə həyat verir, küfr fərd və cəmiyyətin ölümünə səbəb olur.

2. Peyğəmbərin risaləti məcburiyyətdən yox, xəbərdarlıqdan ibarətdir.

3. Təbliğdə xalqın hazırlığı şərtdir. Əks-təqdirdə peyğəmbərin təbliği də səmərə verməz.

*AYƏ 24:*

﴿إِنَّا أَرْسَلْنَاكَ بِالْحَقِّ بَشِيرًا وَنَذِيرًا وَإِن مِّنْ أُمَّةٍ إِلَّا خلَا فِيهَا نَذِيرٌ﴾

**“Həqiqətən, biz səni haqq olaraq müjdə və xəbərdarlıq üçün göndərdik. Xəbərdarlıq edəni olmayan ümmət yoxdur.”**

**Bildirişlər**

1. Allah haqdır və peyğəmbərlər vasitəsi ilə tərbiyə nizamı da haqqa əsaslanır.

2. Qorxu və ümid yanaşı olduqda səmərə verir.

3. Peyğəmbərlərin vəzifəsi müjdə və xəbərdarlıq olsa da, xalqın qəfləti səbəbindən peyğəmbərlər daha çox xəbərdarlıq etmişlər.

4. Yer üzü heç vaxt ilahi höccətsiz (xəbərdarlıq edənsiz) olmayıb.

*AYƏ 25:*

﴿وَإِن يُكَذِّبُوكَ فَقَدْ كَذَّبَ الَّذِينَ مِن قَبْلِهِمْ جَاءتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ وَبِالزُّبُرِ وَبِالْكِتَابِ الْمُنِيرِ﴾

**“Səni təkzib etsələr (nigaran olma, çünki) onlardan əvvəlki kafirlər də təkzib etdilər. Peyğəmbərləri onların sorağına möcüzələrlə, aşkar dəlillərlə, yazılar və aydın kitabla gəldilər. (Amma onlar iman gətirmədilər.)”**

*AYƏ 26:*

﴿ثُمَّ أَخَذْتُ الَّذِينَ كَفَرُوا فَكَيْفَ كَانَ نَكِيرِ﴾

**“Sonra küfrə uğrayanları (öz cəzamla) yaxaladım. Necədir mənim cəzam?!”**

**Nöqtələr**

“Zubur” sözü “zəbur” sözünün cəm formasıdır. “Zəbur” sözü müəyyən üstünlüklərə malik kitab mənasını bildirir.

**Bildirişlər**

1. Başqalarının çətinliklərindən xəbərdarlıq insan üçün təsəllidir.

2. Peyğəmbərlər ən üstün hidayət vasitələri ilə təchiz olunmuşdular.

3. Peyğəmbərləri bilərəkdən, inadkarlıq göstərərək, onların dəvətini anlayaraq təkzib edirdilər.

4. Höccət tamamlandıqdan sonra Allahın qəhr-qəzəbi nazil olur.

5. Allahın kafirlərə qəhr-qəzəbinin bəyanı haqq yolda olanlar üçün təsəlli səbəbidir.

6. Bəzən Allahın qəhr-qəzəbi dünyada yetişir. (Kafirlər güman etməsinlər ki, özbaşına buraxılıblar.)

7. Küfr bədbəxtlik amilidir.

8. Qüdrəti nümayiş etdirmək zəruridir. Kafirlərin düçar olduğu əzab dəhşətli və heyrətamiz idi.

9. Küfrə uğramış cəmiyyətlərin taleyindən ibrət götürək.

### *AYƏ 27:*

﴿أَلَمْ تَرَ أَنَّ اللَّهَ أَنزَلَ مِنَ السَّمَاء مَاء فَأَخْرَجْنَا بِهِ ثَمَرَاتٍ مُّخْتَلِفًا أَلْوَانُهَا وَمِنَ الْجِبَالِ جُدَدٌ بِيضٌ وَحُمْرٌ مُّخْتَلِفٌ أَلْوَانُهَا وَغَرَابِيبُ سُودٌ﴾

**"Allahın göydən su endirdiyini görmədinizmi? Onun vasitəsi ilə rəngarəng meyvələr yetirdik. Bəzi dağlardan ağ, qırmızı. Rəngarəng və zil qara yollar (daşlar) çıxardıq."**

**Nöqtələr**

"Cudəd" sözü yollar mənasını bildirir. "Biz" dedikdə ağ, "humr" dedikdə qırmızı, "Sud" dedikdə qara mənaları anlaşılır.

"Ğərabib" sözü zil qara mənasını bildirir. Bu söz ərəblərin qarğanı "ğurab" adlandırması ilə əlaqəli ola bilər.

Bu ayədə dağlarla bağlı üç rəng zikr olunsa da, "müxtəlifun əlvanuha" ifadəsindən başqa rənglərin də olduğu aydınlaşır.

**Bildirişlər**

1. Suallar ünvanlamaqla yatmış vicdanları oyadın.

2. Peyğəmbərə müraciət əslində bütün insanlara müraciətdir.

3. Allah varlıq aləmini səbəblər üzərində qərar vermişdir. Bitkinin cücərməsi üçün su bir səbəbdir.

4. Allah qara torpaq və şəffaf sudan rəngarəng meyvələr yetirir.

5. Dağlardakı rəngarəng zolaqlar və daşlar təsadüfi deyil.

### *AYƏ 28:*

﴿وَمِنَ النَّاسِ وَالدَّوَابِّ وَالْأَنْعَامِ مُخْتَلِفٌ أَلْوَانُهُ كَذَلِكَ إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاء إِنَّ اللَّهَ عَزِيزٌ غَفُورٌ﴾

**“İnsanlar, canlılar və heyvanları da müxtəlif rənglərdə (yaratdıq). Bəndələr arasında yalnız (həqiqi) alimlər Allahdan qorxar. Şübhəsiz, Allah yenilməz və bağışlayandır.”**

**Nöqtələr**

“Ənam” sözü “nəəm” sözünün cəm forması olub dəvələr mənasını bildirir. Amma bu söz inək və qoyuna da aid edilir. Canlılar mənasını bildirən “dəvabb” sözü dəvə, inək, qoyuna şamil olunsa da, bu heyvanlar xüsusi əhəmiyyət daşıdığından onların adı ayrıca (“ənam”) qeyd edilir.

“Xəşyət” dedikdə təzimlə yanaşı, elm və agahlıqdan qaynaqlanan qorxu nəzərdə tutulur.

İmam Sadiq (ə) buyurur: “Rəftarı sözünü təsdiqləyən insan alimdir.[1]

Ayədə buyurulur ki, elm insanda Allah qorxusunun yaranmasına səbəb olur. Surənin 28-ci ayəsində bildirilir ki, Allah qorxusu səbəbindən insan peyğəmbərlərin öyüdünü qəbul edir. Belə bir qənaətə gəlirik ki, elm insanı qəflət yuxusundan oyatmalıdır. Əgər bəzi alimlərin haqqı qəbul etmədiyini və bəzi avamların haqqa təslim olduğunu görürüksə, deməк, Quran elm dedikdə fərqli bir mənanı nəzərdə tutur. Elm dedikdə həqiqət, nuraniyyət, bəsirət və hikmət mənası anlaşılmalıdır. Təqvasız alimlər Quran güzgüsündə cahildir. Onlar Allahın əzəmətindən, risalət və dünyadakı vəzifələrdən, yaranış məqsədindən, tale və Qiyamətdən qəflətdədirlər.

İmam Rizanın (ə) hərəmi kənarında Əllamə Təbatəbai ilə rastlaşdım. Nəzərinə çatdırdım ki, ilkin təhsil illərində namaz qılarkən ağlayırdım, amma hazırda biliyim artsa da, halım başqadır. Alimlərinin qorxusu ilə bağlı ayəni zikr etdim. O buyurdu: “Sizin əldə etdiyiniz elm məlumat və yaddaşlardan ibarətdir. Əgər həqiqi elm olsaydı, bəndəliyiniz güclənərdi.”

**Bildirişlər**

1. İnsanlar və heyvanlar arasındakı rəngarənglik ilahi qüdrət və əzəmət nişanələrindəndir.
2. Fiziki baxımdan insan digər mövcudlarla bir sırada dayanır.
3. Varlıq aləminin sirlərindən xəbərdarlıq Allah qorxusu əldə etmək üçün zəminədir.
4. Təqvasız alimlər gerçək elmə çatmamışlar.
5. İbadət əhli çoxdur, amma yalnız alimlər ilahi qorxu məqamına yetişir.

***AYƏ 29:***

﴿إِنَّ الَّذِينَ يَتْلُونَ كِتَابَ اللَّهِ وَأَقَامُوا الصَّلَاةَ وَأَنفَقُوا مِمَّا رَزَقْنَاهُمْ سِرًّا وَعَلَانِيَةً يَرْجُونَ تِجَارَةً لَّن تَبُورَ﴾

[1] “Kafi”, c. 1, s. 36.

**“Həqiqətən, Allah kitabını oxuyan, namazı bərpa edən, verdiyimiz ruzidən gizlində və aşkarda paylayan kəslər heç vaxt zavala uğramayası ticarətə bağlanıblar.”**

**Nöqtələr**

Ötən ayədə qeyd edildi ki, yalnız alimlərdə ilahi xəşyət olur. Bu ayədə isə həqiqi alimlərin siması açıqlanır: onlar Quranla ünsiyyətdədir, namazı bərpa edir, əldə etdikləri ruzidən paylayır. Onlar həm aşkarda, həm də gizlində infaq edirlər. Əgər riyakar olsaydılar, yalnız aşkar infaq edərdilər.

“Təbur” dedikdə ticarətdə kasadlıq mənası anlaşılır. Belə bir kasadlıq fəsad və məhvə səbəb olduğundan uyğun söz fəlakət mənasını da ifadə edir.

Ötən ayədə qorxudan, bu ayədə ümiddən danışıldı. Bəli, ilahi insanlar qorxu və ümid arasındadır.[1]

Quranda namaz və Quran mövzuları dəfələrlə yanaşı zikr olunur.[2]

## *ALLAHLA MÜAMİLƏNİN İMTİYAZLARI*

1. Əgər sağlamlıq, elm, ömür, hörmət, var-dövlət kimi sərmayələrimiz Allah tərəfindəndirsə, elə onunla da müamilə edək. Bəli, əgər övlad atadan aldığı pulla torpaq alıb ev tikərsə və sonradan bu evi satmaq qərarına gələrsə, ağıl və vicdan hökm edir ki, əgər ata özü bu evi almaq istəsə, başqa müştərilərdən imtiyazlıdır. Çünki bütün var-dövləti atanın hesabına əldə etmiş oğulun hazırda evi biganəyə satması alicənablıqdan uzaqdır.

2. Əgər başqaları insanın sərmayəsini yalnız dünyada və müvəqqəti işlənən pula alırsa. Allah aldığının əvəzində əbədi behişt verir.

3. Əgər başqaları azla kifayətlənmirsə, Allah azı da qəbul edir.

4. Allah öz mərhəməti ilə aldığının eybini açıqlamır. Namazın ardınca duada oxuyuruq: “Pərvərdigara! Əgər namazımın rüku və səcdələrində nöqsan varsa, bağışla. Namazımı qəbul et.” Rəcəb ayının duasında oxuyuruq: “Səndən başqasının qapısını döyənlər uduzdu, səndən başqasını soraqlayanlar ziyana düşdü.”[3]

**Bildirişlər**

1. Quran tilavəti müstəhəb bir iş olsa da, vacib işlərdən öncə zikr olunur.
2. Düşüncə və baxış əməl üçün müqəddimədir.
3. İslamı sevərək qəbul edən insan namaz və infaqdan uzaq qalmır.
4. Namaz məhrumlara yardımla müşayiət olunmalıdır.
5. İnsanın ixtiyarında olanlar Allahın ətalarıdır.
6. Əgər ixtiyarımızda olanların Allah tərəfindən verildiyinə inansaq, infaq–məhrumlara yardımdan çəkinmərik.
7. Allahın verdiklərindən yalnız bir hissəsi infaq olunur.

---

[1] “Təfsire-Ətyəbul-bəyan”,

[2] “Fatir”, 29; Əraf”, 170; “Ənkəbut”, 45.

[3] “Məfatihul-cinan”.

8. İnsan təkcə sərvətindən yox, öz elmindən, hörmətindən, qüdrətindən də infaq edib xalqa əl tuta bilər.

9. İnfaq həm məxfi, həm də aşkar şəkildə gerçəkləşə bilər. (Gizli infaqda insanın ixlası inkişaf edir, aşkar infaqda başqaları bu işə təşviq edilir.) Bununla belə, gizli infaq aşkar infaqdan öncə zikr olunmuşdur.

10. Qurtuluş ümidi düşüncə, əməl və infaqla müşayiət olunmalıdır. Əməlsiz ümid boş xülyadır.

11. Elmə sahib olub Allahdan qorxsanız da, Quran oxuyub namazı bərpa etsəniz də, məhrumlara kömək əli uzatsanız da, özünüzü nemətlərə layiq saymayın, sadəcə ümid edin.

12. Allahla müamilədə zərrəcə ziyan yoxdur.

13. Düşünməyin ki, infaq etdikdə malınız azalacaq.

14. İslam dünyagörüşündə dünya bir bazardır. Bu bazarda satıcı insandır. İlahi nemətlər sərmayə. Müştərini insan özü seçir. O, Allahla müamilə edib böyük xeyir götürə bilər. Allahdan qeyrisi ilə müamilə edib əbədi behiştdən məhrum qala bilər.

### *AYƏ 30:*

﴿لِيُوَفِّيَهُمْ أُجُورَهُمْ وَيَزِيدَهُم مِّن فَضْلِهِ إِنَّهُ غَفُورٌ شَكُورٌ﴾

**“Allah onlara kamil mükafat əta etsin, onlara olan fəzlini artırsın. Axı Allah bağışlayan və qədirdanlıq edəndir.”**

**Nöqtələr**

Ayənin bütün sözlərində Allahın fəzl və lütfü özünü göstərir. İnsana kamil bir mükafat vəd olunur. İnsanın ixtiyarındakı sərmayə və əməl gücü Allah tərəfindən olsa da, Allah aldığı müqabilində ödədiyini “mükafat” adlandırır. Lütf və mükafatların artımı Allah tərəfindəndir.

**Bildirişlər**

1. İlahi mükafat həvəsi ilə həyata keçən əməl ixlasa zidd deyil.

2. Allah həm muzd verir, həm də bu muzdu artırır.

3. Kamil muzd Allahın qədirdanlığından qaynaqlanır.

4. Allah təlaşlara görə mükafat verib, büdrəmələri örtür. Gəlin biz də başqalarının xidmətinə görə təşəkkür edib, onların nöqsanlarını bağışlayaq.

### *AYƏ 31:*

﴿وَالَّذِي أَوْحَيْنَا إِلَيْكَ مِنَ الْكِتَابِ هُوَ الْحَقُّ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ إِنَّ اللَّهَ بِعِبَادِهِ لَخَبِيرٌ بَصِيرٌ﴾

**“Sənə kitabdan vəhy etdiyimiz ondan öncəki kitabları təsdiq edən həqiqətdir. Şübhəsiz, Allah bəndələrinə münasibətdə xəbərdar və görəndir.”**

**Bildirişlər**

1. Quranda batil, xürafat, artıq, məntiqsiz söz yoxdur.
2. Hər bir söz və kitabın dəyər mizanı Qurandır.
3. Səmavi kitablar bir-birini təsdiqləyir.
4. Allah həm insanların vəhyə ehtiyacından, həm də peyğəmbərin vəhyi qəbul etmək ləyaqətindən agahdır.

***AYƏ 32:***

﴿ثُمَّ أَوْرَثْنَا الْكِتَابَ الَّذِينَ اصْطَفَيْنَا مِنْ عِبَادِنَا فَمِنْهُمْ ظَالِمٌ لِّنَفْسِهِ وَمِنْهُم مُّقْتَصِدٌ وَمِنْهُمْ سَابِقٌ بِالْخَيْرَاتِ بِإِذْنِ اللَّهِ ذَلِكَ هُوَ الْفَضْلُ الْكَبِيرُ﴾

**“Bu kitabı (Quranı bəndələrimizdən seçdiyimiz dəstə üçün miras qoyduq. Bəndələrimizdən bəziləri özünə qarşı sitəmkardır, bəziləri orta həddi gözləyir, bəziləri Allahın izni ilə xeyir işlərdə önə keçir. Bu, Allahın həmin böyük fəzlidir.”**

**Nöqtələr**

Bu ayə ilə bağlı çoxsaylı münasibətlərdən seçdiyim və rəvayətlərə uyğun gələn qənaət budur: Quranı Peyğəmbərdən (s) sonra bəndələrimin seçilmişlərinə, həzrət Fatimə (ə) nəslindən olan məsum imamlara miras qoydum, səbəb budur ki, bəndələrimdən bəziləri zalım, bəziləri orta həddi gözləyən, bəziləri (rəvayətlərə əsasən) Peyğəmbər (s) əhli-beytidir. Onlar (əhli-beyt) bütün xeyir işlərdə öndədir... Bəli, seçilmiş qrup yalnız üçüncü qrupdur.

Çoxsaylı rəvayətlərdə oxuyuruq ki, məsum imamlar buyurmuşlar: “Allahın kitaba varis olan seçilmiş bəndələri biz peyğəmbər Əhli-beytiyik.”[1]

**Bildirişlər**

1. Quran təklikdə bəs etmir, hami və icraçıya da ehtiyac var.
2. Bəndələrin halından tam agah olan kəsin seçim və dini məsuliyyət tapşırmaq haqqı var.
3. Quran nurundan məhrum qalmağımızın səbəbkarı özümüzük.
4. Miras olaraq Qurana yiyələnmək üçün bəzi yox, bütün xeyir işlərdə öndə olmaq lazımdır.
5. Allah hikmət əsasında seçir. Xeyir işlərdə öndə olanlar Quran elmlərinə varisdir.
6. İnsan özü özünə zülm edir. Yaxşılıqlarda öncüllük tövfiqi isə Allahın izni ilə gerçəkləşir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

7. Qurana varislik böyük ilahi fəzldir.

*AYƏ 33:*

﴿جَنَّاتُ عَدْنٍ يَدْخُلُونَهَا يُحَلَّوْنَ فِيهَا مِنْ أَسَاوِرَ مِن ذَهَبٍ وَلُؤْلُؤًا وَلِبَاسُهُمْ فِيهَا حَرِيرٌ﴾

**“Onlar “ədn” cənnətlərinə daxil olacaqlar, orada qızıl və mirvari qolbaqlarla bəzənəcəklər. Onların libası ipəkdəndir.”**

**Nöqtələr**

“Sivar” sözünün cəm forması olan “əsavir” sözü qolbaq mənasını bildirir və bu söz ərəb dilinə fars dilindən keçmişdir.[1]

**Bildirişlər**

1. Nemətlərin rəngarəngliyi bir dəyərdir.
2. Təşviq elementlərindən qəflətdə qalmayaq.
3. Müvəqqəti məhrumiyyətin mükafatı daimi həzdir. (qızıl və ipək dünya həyatında kişilərə haram edilsə də, behiştdə onlar bu nemətlərdən faydalanar.)
4. Məad cismanidir. (Qızıl və gümüş maddi bədənə aid zinətlərdir.)

*AYƏ 34:*

﴿وَقَالُوا الْحَمْدُ لِلَّهِ الَّذِي أَذْهَبَ عَنَّا الْحَزَنَ إِنَّ رَبَّنَا لَغَفُورٌ شَكُورٌ﴾

**“Deyərlər ki, həmd olsun bizdən qəm-qüssəni uzaqlaşdıran Allaha. Həqiqətən, bizim Rəbbimiz bağışlayan və qədirbiləndir.”**

**Bildirişlər**

1. Behişt əhlinin şüarı Allaha həmd-sənadır.
2. Behiştdə qəm-qüssə yoxdur.
3. Behiştdə maddi nemətlərlə yanaşı ruhi aramlıq kimi mənəvi nemətlər var.
4. Behişt Allahın bəxşişi və qədirdanlığı sayəsində əta olunar.
5. Büdrəmələri örtmək və bəndələrə münasibətdə qədirdanlıq Allahın rübubiyyət şənlərindəndir.
6. Behişt əhli Allahın qədirdanlığına səbəb olan ləyaqətlərə malikdir.

*AYƏ 35:*

﴿الَّذِي أَحَلَّنَا دَارَ الْمُقَامَةِ مِن فَضْلِهِ لَا يَمَسُّنَا فِيهَا نَصَبٌ وَلَا يَمَسُّنَا فِيهَا لُغُوبٌ﴾

**“Allah öz fəzli ilə bizə əbədi sarayda yer verdi. Orada heç bir əziyyət görmərik, çarəsizliklə üzləşmərik.”**

---

[1] “Təfsire-Əl-mizan”.

**Nöqtələr**

"Nəsəb" dedikdə əzab-əziyyət, "luğub" dedikdə acizlik, bəzən də pərişanlıq nəzərdə tutulur.

İnkişaf etmiş ölkələrdə rifah içində yaşayan ailələrdə hər cür şərait olsa da, qəlb aramlığı yoxdur. Amma behişt əhli həm rifahdadır, həm də qəm-qüssədən uzaqdır.

**Bildirişlər**

1. Behişt əbədidir.
2. Behişt əhli ixtiyarına verilmiş nemətləri öz haqqı yox, Allahın bəxşişi sayır.
3. Qəm-qüssə behişt əhlinin yanından belə ötməz.
4. Əgər uzun ömür dünyada yorucu olursa, behiştdə heç bir yorğunluq və qəm-qüssə yoxdur.
5. Behiştdəki asayiş və aramlıq şüar yox, həqiqətdir.

*AYƏ 36:*

﴿وَالَّذِينَ كَفَرُوا لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَى عَلَيْهِمْ فَيَمُوتُوا وَلَا يُخَفَّفُ عَنْهُم مِّنْ عَذَابِهَا كَذَلِكَ نَجْزِي كُلَّ كَفُورٍ﴾

**"Küfrə uğrayanlar üçün cəhənnəm odu var. Onlara ölmək hökm olunmaz, nə də cəhənnəm əzabları yüngülləşdirilər. Biz nankorluğa görə belə cəzalandırırıq."**

**Nöqtələr**

Behişt müjdələri ilə yanaşı cəhənnəm xəbərdarlıqları bəyan olunur. Beləcə, qorxu və ümid arasında tarazlıq yaranır.

Cəhənnəm əhlinin iki istəyi var: onlar rahatlıq tapmaq üçün ölüm istəyər; cəzalarının yüngülləşdirilməsini diləyərlər. Allah buyurur ki, cəhənnəmdə ölüm yoxdur və cəhənnəm əhlinin cəzası yüngülləşdirilməz.[1]

**Bildirişlər**

1. Kafir insan cəhənnəmə düşdükdən sonra bütün səadət qapıları onun üzünə bağlanır. Orada nə ölüm var, nə də yüngülləşmə.
2. Küfr bir növ nemətlərə qarşı nankorluqdur.
3. Fərd yox, xarakter mühümdür.

*AYƏ 37:*

﴿وَهُمْ يَصْطَرِخُونَ فِيهَا رَبَّنَا أَخْرِجْنَا نَعْمَلْ صَالِحًا غَيْرَ الَّذِي كُنَّا نَعْمَلُ أَوَلَمْ نُعَمِّرْكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّرَ وَجَاءَكُمُ النَّذِيرُ فَذُوقُوا فَمَا لِلظَّالِمِينَ مِن نَّصِيرٍ﴾

---

[1] "Zuxruf", 77; "Ğafir", 49.

**“O kafirlər cəhənnəmdə nalə çəkərlər: “Pərvərdigara! Bizi buradan xaric et, əvvəllər uzaq olduğumuz saleh işləri görək.” (cavab olaraq deyilər) sizə xəbərdar olmaq istəyənin xəbər tutması üçün bəs edəcək ömür vermədikmi? Hələ sorağınızca xəbərdar edən də gəldi. İndi dadın (əzabı) sitəmkarlar üçün heç bir yardımçı yoxdur.”**

**Nöqtələr**

“Surax” dedikdə, yardım istəyi ilə nalə çəkmək mənası anlaşılır.

Ötən iki ayədə bildirildi ki, behişt əhli asayiş və aramlıq içindədir. Bu ayədə bəyan olunur ki, cəhənnəm əhli odda qovrulub nalə çəkir və yardım diləyir.

**Bildirişlər**

1. Hər istəyə və ah-naləyə etina göstərmək vacib deyil. Günahkarın istəyi məqbul deyil.
2. İnsanı cəhənnəmə salan onun qeyri-saleh əməlləridir.
3. Bir gün bütün azğınlar çarəsiz vəziyyətə düşüb nalə çəkəsidir.
4. Axirət əldən verilənləri geri qaytarmaq üçün nəzərdə tutulmayıb.
5. Çoxları düşünürlər ki, saleh əməl sahibidirlər. Amma Qiyamət günü günah yükünü görüb deyəcəklər: “Pərvərdigara! Əgər cəhənnəmdən qurtulsam, saleh işlər görəcəyəm.”
6. Allah bütün insanlara xəbərdarlığın başa çatması üçün yetərli qədər ömür verib.
7. Fürsətlərin əldən buraxılması insanın özünə zülmə səbəb olur.
8. İnsana qəflətdən oyanıb həqiqətdən xəbərdar olmaq üçün ömür verilib. Qafil insan sanki yaşamamışdır.
9. Ardıcıl olmayan xəbərdarlıq səmərə vermir. Bütün günahkarlar bir anlıq ayılır. Amma islah üçün daimi xəbərdarlığa ehtiyac var.
10. Xəbərdarlıq sona çatmayınca qəzəb nazil olmur.
11. Peyğəmbərlərin xəbərdarlıqlarına məhəl qoymayanlar zalımdır.
12. Kafirlər üçün şəfaətin, dua və yalvarışın heç bir səmərəsi yoxdur.

***AYƏ 38:***

﴿إِنَّ اللَّهَ عَالِمُ غَيْبِ السَّمَاوَاتِ وَالْأَرْضِ إِنَّهُ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ﴾

**“Həqiqətən, Allah göylərin və yerin qeybindən xəbərdardır. Şübhəsiz, o qəlblərdəki sirləri bilir.”**

**Nöqtələr**

Ötən ayələrdə oxuduq ki, Allah bəzilərini Qurana varislik üçün seçib, bəzilərini behiştə aparır, bəzilərini isə cəhənnəmə. Bu ayədə isə buyurulur ki, o hər şeydən xəbərdardır, gizlini və aşkarı bilir, zahirdən və batindən agahdır.”

**Bildirişlər**

1. Dünyadakı fürsətləri əldən çıxaranlar axirətdə nalə çəkib cəhənnəmdən qurtuluş istəyərlər. Amma onların saleh əməllə bağlı vədi yalandır.

2. Allahın hər şeydən xəbərdar olmasına iman insanı günahdan çəkindirən ən güclü amildir.

*AYƏ 39:*

﴿هُوَ الَّذِي جَعَلَكُمْ خَلَائِفَ فِي الْأَرْضِ فَمَن كَفَرَ فَعَلَيْهِ كُفْرُهُ وَلَا يَزِيدُ الْكَافِرِينَ
كُفْرُهُمْ عِندَ رَبِّهِمْ إِلَّا مَقْتًا وَلَا يَزِيدُ الْكَافِرِينَ كُفْرُهُمْ إِلَّا خَسَارًا﴾

**“Sizi yer üzündə (əvvəlkilərə) canişin qərar verən Odur. Küfr edənin küfrü öz zərərinədir. Kafirlərin küfrü yalnız Allahın onlara qəzəbini gücləndirər, düşdükləri zərəri artırar.”**

**Nöqtələr**

Bu ayədə insanın xəlifəliyi dedikdə 3 məna nəzərdə tutulur. Millətlərin millətlərə canişinliyi, Adəm övladlarının Adəmdən öncəki insanlara canişinliyi, insanın Allah tərəfindən canişinliyi.

“Məqt” dedikdə şiddətli qəzəb mənası anlaşılır. Quran dörd əməl müqabilində bu sayaq qəzəb nəzərdə tutur: Küfr, zina[1]; deyib əməl etməmək[2]; məntiqsiz danışıq.[3]

**Bildirişlər**

1. İnsanın canişinliyi onu küfrə yox, şükrə sövq etməlidir.
2. İnsanın küfrü Allaha təsirsizdir və onun özünə zərbə vurur.
3. Kafirlər öz küfrünü ata-babalarının və cəmiyyətin boynuna atmasınlar.
4. Küfrün təhlükələri və təsirləri məhdud deyil, hər an artmaqdadır.
5. Küfr bilavasitə xəsarətə səbəb olur. Kafir bir iş görməsə də küfründən zərər çəkir.
6. Günah təhlükələrinin bəyanı günahkarı çəkindirən amillərdəndir.

*AYƏ 40:*

﴿قُلْ أَرَأَيْتُمْ شُرَكَاءَكُمُ الَّذِينَ تَدْعُونَ مِن دُونِ اللَّهِ أَرُونِي مَاذَا خَلَقُوا مِنَ الْأَرْضِ أَمْ
لَهُمْ شِرْكٌ فِي السَّمَاوَاتِ أَمْ آتَيْنَاهُمْ كِتَابًا فَهُمْ عَلَى بَيِّنَةٍ مِّنْهُ بَلْ إِن يَعِدُ الظَّالِمُونَ
بَعْضُهُم بَعْضًا إِلَّا غُرُورًا﴾

**“De ki, Allah əvəzinə çağırdığınız şərikləri görmüsünüzü? Göstərin görüm, yerdən yaratdıqları nədir, səmalarda iştirakları varmı? Yoxsa onlara şirklərinə dəlil göstərilsi kitab vermişik? (Xeyr, elə deyil)**

---

[1] “Nisa", 22.
[2] “Səff”, 3.
[3] “Ğafir”, 35.

**sitəmkarlar yalnız bəzilərinin bəzilərinə verdiyi (yalan) əsasında bir-birlərini aldadırlar.”**

**Bildirişlər**

1. Peyğəmbərə müxaliflərlə danışmaq əmr olunmuşdu.
2. Vicdanları suallarla oyadın.
3. İslam məntiq dinidir.
4. Mübarizlik təkcə şəriət yox, həm də təbiət kitabında var.
5. Müşriklərin nə məntiqi, nə ağlı, nə də kitabı var.
6. Məntiq və dəlil olmayan yerdə yalan var.
7. Müşriklər zalımdır. Zalımların vədi yalan, şüarları aldadıcıdır.
8. Şirk yalançı təbliğat və vədlər üzərində qurulmuşdur.
9. İstənilən bir adamdan yalan gözlənilir. Bəzən zəif və adi fərdlə yağlı dillə böyük şəxsiyyətləri azğınlığa çəkir. Bəzən isə iqtidar sahibləri hədə-qorxu və yalan vədlərlə xalqı özünə itaətə vadar edir.

***AYƏ 41:***

﴿إِنَّ اللَّهَ يُمْسِكُ السَّمَاوَاتِ وَالْأَرْضَ أَن تَزُولَا وَلَئِن زَالَتَا إِنْ أَمْسَكَهُمَا مِنْ أَحَدٍ مِّن بَعْدِهِ إِنَّهُ كَانَ حَلِيمًا غَفُورًا﴾

**“Həqiqətən, Allah göyləri və yeri zavala uğramaqdan qoruyur. Əgər zavala uğrasalar, Ondan qeyrisi saxlaya bilməz. Əlbəttə, o həlim və bağışlayandır.”**

**Nöqtələr**

Allahın varlıq aləminə nəzarəti ilə helmi arasında rabitə var. Necə ki, bizim əqidə və əməllərimizlə varlıq aləminin nizamı arasında rabitə mövcuddur. Bu ayədəki məqama toxunulur və ayə “həlimən-ğəfura” cümləsi ilə başa çatır. Amma “Məryəm” surəsinin 88-90-cı ayələrində belə deyilir: “Müşriklər dedilər ki, Allah özünə övlad götürüb. Bu çirkin sözlərə görə az qaldı göylər, yer və dağlar uçulub dağılsın.”

Allah həm əzəmətli göyləri və yeri hifz edir, həm də kiçik quşları havada saxlayır.[1]

Rəvayətdə oxuyuruq ki, Allah öz övliyaları vasitəsi ilə göyləri və yeri hifz edir. Əgər onlar olmasa varlıq nizamı pozular.[2]

**Bildirişlər**

1. Göylərin və yerin mövqeyi, onların hərəkət və orbiti Allahın iradəsi ilə müəyyənləşir. Bütün bunları hər an qoruyan Allahdır.

---

[1] “Mulk”, 19.

[2] “Təfsire-Nurus-səqəleyn”.

2. Cərəyanların həm yaranması, həm də davamı Allahın qüdrət və lütfünə ehtiyaclıdır.

3. Varlıq aləminə hakim nizam təsadüfi deyil, Allah tərəfindəndir.

4. Əbədiyyət Ona məxsusdur, varlıq aləmi isə zavala uğraya bilər.

5. Allahın helmi olmasa səma cisimləri günahkarların başına ələnər. (Qiyamət qopan zaman günəş, ay, ulduzlar, yer parçalanıb dağılar. Hazırda bu parçalanmanın qarşısını alan Allahın helmidir.)

6. Öz qüdrəti ilə varlıq aləmini hifz edən Allah kafirlərə yalnız helminə görə möhlət verir.

### *AYƏ 42:*

﴿وَأَقْسَمُوا بِاللَّهِ جَهْدَ أَيْمَانِهِمْ لَئِن جَاءهُمْ نَذِيرٌ لَّيَكُونُنَّ أَهْدَى مِنْ إِحْدَى الْأُمَمِ فَلَمَّا جَاءهُمْ نَذِيرٌ مَّا زَادَهُمْ إِلَّا نُفُورًا﴾

**“(Müşriklər) ən ağır andlarla Allaha and içdilər ki, əgər onlara xəbərdarlıq edən peyğəmbər gəlsə, bütün başqa ümmətlərdən daha çox hidayət olunacaqlar. Elə ki, peyğəmbər gəldi, (onun gəlişi) yalnız nifrətlərini artırdı.”**

**Nöqtələr**

Təfsirlərdə oxuyuruq: “Müşriklər yəhudilərə peyğəmbər gələn vaxt onların inadkarlıq göstərdiyini eşidib and içdilər ki, əgər peyğəmbər gəlsə heç bir inadkarlıqsız təslim olacaqlar. Onlar iddia edirdilər ki, doğru yolu başqa ümmətlərdən daha tez və daha ciddi tutacaqlar. Peyğəmbər gəldikdən sonra isə yalnız nifrətlərini bildirdilər.

Allah eləməmiş, həzrət Mehdinin (ə) intizarında olanlar bu gün hazırlıqlarını bildirələr, həzrət gələn vaxt isə ona müxalif olalar!

**Bildirişlər**

1. Müşriklər Allahı qəbul edir, onu müqəddəs sayır, ona and içirdilər.

2. Hər anda inanmaq olmaz.

3. Danışıqla iş düzəlməz. İddia çox, amma əməl az!

4. Xalqın hidayəti üçün həm müjdə, həm də xəbərdarlıq lazımdır. Azğın cəmiyyət üçün isə xəbərdarlıq daha mühümdür.

*AYƏ 43:*

﴿اسْتِكْبَارًا فِي الْأَرْضِ وَمَكْرَ السَّيِّئِ وَلَا يَحِيقُ الْمَكْرُ السَّيِّئُ إِلَّا بِأَهْلِهِ فَهَلْ يَنظُرُونَ إِلَّا سُنَّتَ الْأَوَّلِينَ فَلَن تَجِدَ لِسُنَّتِ اللَّهِ تَبْدِيلًا وَلَن تَجِدَ لِسُنَّتِ اللَّهِ تَحْوِيلًا﴾

**“(Onların haqqa nifrəti) yer üzündə təkəbbürlərinə və pis qurğularına görə idi. Pis qurğu yalnız öz sahibini yaxalayar. Yoxsa onlar keçmişdəkilərin düçar olduğu sünnədən başqa bir şey gözləyir? Hansı ki, heç vaxt ilahi qanuna əvəz tapmaz, onda dəyişiklik görməzsən.”**

**Nöqtələr**

“Təbdil” dedikdə bir şeyi o biri ilə əvəz etmək nəzərdə tutulur. Məsələn, qüsl əvəzinə təyəmmum. “Təhvil” sözü isə bir şeyi dəyişmədən zaman və ya məkana, həmin şeyin forma və ya qəlibinə təsir göstərmək mənasını bildirir.

Əgər xəstə həkimin verdiyi dərmanı qəbul etməyib həkimə “qəbul etdim” deyərsə, o həkimi yox, özünü aldadar.

**Bildirişlər**

1. Peyğəmbər yolundan uzaqlaşmanın və bu yola nifrətin qaynağı təkəbbür və hiylədir.
2. İnsanın hiyləsi onun öz başında çatlayır.

***Pisliyin pisliyi var,***
***Nə əkərsən o çıxar.***

3. Allah-təala cəmiyyətdə sabit qanunlar, sünnələr müəyyənləşdirmişdir. Bütün qövmlər və millətlər bu qanunlara tabedir. Elə bir ümmət yoxdur ki, sınağa çəkilsin, elə bir mömin yoxdur ki, ilahi yardımdan faydalanmasın, elə bir hiyləgər yoxdur ki, cəzalandırılmasın. Bəli, cəmiyyətin xoşbəxilik və bədbəxtliyi ilahi sünnələrə tabeçilikdən asılıdır.
4. Tarixin sabit nizamı və qanunları var.

*AYƏ 44:*

﴿أَوَلَمْ يَسِيرُوا فِي الْأَرْضِ فَيَنظُرُوا كَيْفَ كَانَ عَاقِبَةُ الَّذِينَ مِن قَبْلِهِمْ وَكَانُوا أَشَدَّ مِنْهُمْ قُوَّةً وَمَا كَانَ اللَّهُ لِيُعْجِزَهُ مِن شَيْءٍ فِي السَّمَاوَاتِ وَلَا فِي الْأَرْضِ إِنَّهُ كَانَ عَلِيمًا قَدِيرًا﴾

**“Yer üzünü gəzmədilərmi ki, onlardan öncə olanların, daha böyük qüdrət sahiblərinin aqibətini görələr? Göylərdə və yerdə Allahı aciz qoyası heç nə yoxdur. Əlbəttə, çox agah və qüdrətlidir.”**

**Nöqtələr**

Bu ayə də öncəki ayənin davamı olaraq tarixə hakim ilahi sünnələrlə tanış edir, təkəbbür əhlinin acı aqibətini yada salır.

**Bildirişlər**

1. İslam təcrübə toplamaq məqsədi ilə səfərə çıxmağın tərəfdarıdır.
2. İnsan məqsədli şəkildə səfərə çıxmalıdır.
3. Keçmişdəkilərin tarixi cəmiyyətə hakim qanunlarla tanışlıq üçün bir mənbədir. (Keçmiş gələcək üçün çırağdır.)
4. Tövsiyə olunur ki, qədim mədəniyyətlərin qalıqları ilə tanış olaq.
5. Təkəbbür əhlinin aldadıcı görüntülərinə uymayaq, onların aqibətinə baxaq.
6. Gücümüzlə öyünməyək, bizdən çox-çox güclü olanlar məhv edildi.
7. Allahın iradə və qüdrətinə qalib gələsi bir şey yoxdur.
8. Allah təkəbbürlüləri həm tanıyır, həm də onları yerində oturtmağa qadirdir.

*AYƏ 45:*

﴿وَلَوْ يُؤَاخِذُ اللَّهُ النَّاسَ بِمَا كَسَبُوا مَا تَرَكَ عَلَى ظَهْرِهَا مِن دَابَّةٍ وَلَكِن يُؤَخِّرُهُمْ إِلَى أَجَلٍ مُّسَمًّى فَإِذَا جَاءَ أَجَلُهُمْ فَإِنَّ اللَّهَ كَانَ بِعِبَادِهِ بَصِيرًا﴾

**“Əgər Allah insanları gördükləri işə görə cəzalandırsa, yer üzündə bircə canlı sağ qalmaz. (Amma ilahi sünnə budur ki) insanlara müəyyən müddət möhlət versin. Elə ki, müddət başa çatdı (insanlar cəzalandırılar.) həqiqətən, Allah bəndələrini (onların düşüncə və əməlini) görəndir.”**

**Nöqtələr**

İmam Səccad (ə) öz minacatında deyir: “Pərvərdigara! Hələ ilk günahda mənim cəzam od idi. Sağ qalmağımın səbəbi sənin lütfün və tövbəm üçün verdiyin möhlətdir.”

**Bildirişlər**

1. ”Əgər hökm olunsa, suçlu çapılsın; çətin ki şəhərdə təmiz tapılsın.”

2. Bilərəkdən, qəsdən yol verilən günahın cəzası var.

3. Cəzanın təxirə salınmasında məqsəd bəşər nəslinin və yer üzündə həyatın davamıdır. Əgər günahkar həlak edilsə, yer üzündə bir nəfər olsun qalmaz və bəşər nəsli kəsilər.

4. Allah səbirli, bağışlayan, möhlət verəndir. İnsanlar əməllərinə görə dərhal cəzalandırılmır.

5. Ölümlər və möhlətlər Allahın iradəsinə bağlıdır, hesab-kitab əsasında həyata keçir.

6. İnsanın ömür müddəti öncədən təyin olunmuşdur.

7. Günahkar bəndələrə möhlət verilməsi və onların cəzasının Qiyamətədək təxirə salınması ilahi sünnə və proqramlardandır.

8. Allahın günahkarlara möhlət verməsi helmə əsaslanır. (on milyonlarca insan illərlə günahdan sonra tövbə tövfiqi əldə edir. Əgər Allah bu insanları dərhal cəzalandırarsa, hər biri cəhənnəm əhli olardı.)

# "YASİN" SURƏSİ

***(36-CI SURƏ, 83 AYƏ)***

***İyirmi iki, iyirmi üçüncü cüzlər***

## *"YASİN" SURƏSİNİN SİMASI*

Məkkədə nazil olmuş bu surə 83 ayədən ibarətdir. Surə onun ilk ayəsindəki müqəttəə hərflərlə uyğun olaraq "Ya-sin" adlandırılmışdır.

Surədə əsas mövzu əqidələr və onların övladlara təlimi, Quran qiraəti savabının dünyasını dəyişənlərə hədiyyə edilməsidir.

Surə Allah-təalanın girami İslam Peyğəmbərinin (s) risalətinə şəhadəti ilə başlayır, digər üç ilahi peyğəmbərin risalətinin bəyanı ilə davam edir. Surənin müəyyən ayələrində Allahın varlıq aləmindəki bəzi əzəmət nişanələri tövhid nişanələri kimi yada salınır, digər ayələrdə məad, Qiyamət sorğusu, behişt və cəhənnəmin xüsusiyyətlərindən danışılır.

"Ya-sin" surəsi rəvayətlərdə "Quranın ürəyi" adı ilə təqdim olunur.[1]

[1] "Təfsire-Məcməül-bəyan".

**“Rəhman və rəhim Allahın adı ilə”**

﴿بسم الله الرحمن الرحيم﴾

***AYƏ 1, 2:***

﴿يس﴾ ﴿وَالْقُرْآنِ الْحَكِيمِ﴾

**“Ya-sin”; and olsun hikmət dolu Qurana!”**

***AYƏ 3, 4:***

﴿إِنَّكَ لَمِنَ الْمُرْسَلِينَ﴾ ﴿عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Həqiqətən, sən peyğəmbərlərdənsən; doğru yoldasan.”**

**Nöqtələr**

Rəvayətlərə əsasən “Yasin”, girami Peyğəmbərin (s) mübarək adıdır.[1]

“Həkim” sözü həm də “hikmət dolu”, “möhkəm” mənalarını ifadə edə bilər. Məsələn, “Hud” surəsinin başlanğıc ayəsində “Quran ayələri möhkəmdir” buyurulur.

Elə düşünməyək ki, İslamda dorğu yol başa vurulduqdan sonra insan məqsədə çatır. Xeyir, insan doğru yolda nə qədər irəliləmişsə, bir o qədər də məqsədə çatmışdır. Elm yolu da belədir, insan adladığı yol qədər elmə sahib olur.

Allah peyğəmbərin şair, kahin, sehrbaz, divanə adlandırılması müqabilində hikmət dolu Qurana and içərək peyğəmbərin risalətinə şəhadət verir.

**Bildirişlər**

1. Quranda batil sözə yer yoxdur. Bu ilahi kitab başdan-başa hikmətli və möhkəmdir.
2. Allahın Qurana and içməsi onun əzəmət və müqəddəsliyini göstərir.
3. Böhtanlar və yersiz qınaqların hücumu qarşısında düzgün və hərtərəfli himayə tələb olunur.
4. Bəşər tarixində İslam Peyğəmbəri (s) ilə yanaşı başqa peyğəmbərlər də olub.
5. Peyğəmbər yolu elə Allah yoludur.[2] Doğru yol Allahın və onun rəsulunun yoludur.
6. Müvəffəqiyyətə çatmaq üçün 3 şeyə ehtiyac var: möhkəm və davamlı proqram, agah rəhbər, aydın yol.
7. Ən əsası əqidə möhkəm olmalıdır. (Allah hikmət sahibidir, Quran hikmətlidir, peyğəmbər hikmət öyrədəndir.)

***AYƏ 5:***

﴿تَنزِيلَ الْعَزِيزِ الرَّحِيمِ﴾

**“Quran yenilməz və mehriban Allah tərəfindən nazil olmuşdur.”**

---

[1] “Təfsire-Məcməül-bəyan”.

[2] “Hud”, 56.

*AYƏ 6:*

﴿لِتُنذِرَ قَوْمًا مَّا أُنذِرَ آبَاؤُهُمْ فَهُمْ غَافِلُونَ﴾

**“Ata-babalarına xəbərdarlıq olunmamış insanlara xəbərdarlıq et. Onlar qafillərdir.”**

**Bildirişlər**

1. Allah müxaliflər qarşısında yenilməz, övliyalara münasibətdə mehribandır.
2. Quran qüdrət və rəhmət qaynağından nazil olmuşdur. Qurana bağlanan yenilməzlik və mərhəmətə çatır.
3. Peyğəmbərlərin gəlişində məqsəd xəbərdarlıq, qorxutmadır.
4. Xəbərdarlıq ilahi bir sünnədir.
5. Təbliğ və xəbərdarlıq Quran təlimlərinə əsaslanmalıdır.
6. Quranın xəbərdarlıqları belə Allahın mərhəmətindən qaynaqlanır.

*AYƏ 7:*

﴿لَقَدْ حَقَّ الْقَوْلُ عَلَى أَكْثَرِهِمْ فَهُمْ لَا يُؤْمِنُونَ﴾

**“Şübhəsiz, (əzabla bağlı) bu fərmana onların çoxu layiqdir, çünki iman gətirmirlər.”**

*AYƏ 8:*

﴿إِنَّا جَعَلْنَا فِي أَعْنَاقِهِمْ أَغْلاَلاً فَهِيَ إِلَى الأَذْقَانِ فَهُم مُّقْمَحُونَ﴾

**“Həqiqətən, biz onların boyunlarına çənələrini örtən zəncirlər sarıdıq. Nəticədə başları dik qaldı. (Nə ətrafı, nə də ayaqlarının altını görərlər.)”**

**Nöqtələr**

“Əzqan” dedikdə çənələr, “muqməhum” dedikdə dəvənin başını yuxarı qaldırması mənaları anlaşılır. Dəvəyə su vermək istədikdə başını yuxarı qaldırdığı kimi, bu insanlar da haqqı görüb başlarını dik tutur, təzim etmirlər.

Boyunlara zəncir salınması həm axirət cəzasına[1], həm də insanlara yük olmuş xürafi əqidələrə işarə ola bilər. Necə ki, Əraf” surəsinin 157-ci ayəsində xürafat zəncirlərini xalqın boynundan çıxarmaq peyğəmbər vəzifəsi kimi bəyan olunur. Bəli, peyğəmbərlər bu zəncirləri çıxarmaq istəyir, amma xalq özü razılaşmır.

“Əl qəvlu” təbiri “Səcdə” surəsinin 13-cü ayəsinə əsasən, şeytan ardıcıllarına əzabla bağlı ilahi əmr mənasında anlaşıla bilər.

**Bildirişlər**

1. Xalqın əksəri qəflətdədir və haqqa maraq göstərmir.
2. Müxaliflərin çoxluğu təbliğatçı və rəhbəri həvəsdən salmamalıdır.
3. Qəflət küfr üçün zəminədir.

[1] “Ğafir”, 71.

4. Kafirlərin boynuna zəncir salan Allahsa da, bu işin səbəbkarı onlar özləridir.

*AYƏ 9:*

﴿وَجَعَلْنَا مِن بَيْنِ أَيْدِيهِمْ سَدًّا وَمِنْ خَلْفِهِمْ سَدًّا فَأَغْشَيْنَاهُمْ فَهُمْ لاَ يُبْصِرُونَ﴾

**“Onların qarşılarından və arxalarından səd çəkdik. Onları tamam örtüyə saldıq, belə ki, heç nə görməzlər.”**

**Nöqtələr**

Quran möhkəm və hikmət dolu bir kitab, peyğəmbərin risaləti qəti, din, yolu doğru, Allah yenilməz və mehriban olsa da, xalqın əksəri qafil, imansız və xürafatçı olduğundan dörd bir tərəfdən möhkəm sədlə əhatə olunmuşdur.

Ayədə inadkar fərdlər çox dəqiq və maraqlı təsvir olunmuşdur: Onlar qafildir və nəticədə iman gətirmir; xürafat onları müşkülə salmışdır və tərs dəvə sudan boyun qaçırdığı kimi onlar haqdan boyun qaçırır; onlar qarşıdan və arxadan mühasirədədir, gözlərinə pərdə çəkilmişdir, haqqı görmürlər.

Qarşıdan səd dedikdə insanın uzun-uzadı arzuları, arxadan səd dedikdə keçmişdə baş vermiş günahların unudulması nəzərdə tutula bilər. Uyğun arzular və unutqanlıqlar haqqın qəbulunda iki böyük maneədir.

Ayədə iki böyük azğınlıq müqabilində iki böyük cəza qeyd olunur.

**Bildirişlər**

1. İşıqlı yola arxa çevirib uçuruma üz tutanı boşla, qoy süqut edib cəzasını görsün.
2. İmansız qafillər nə əvvəlki kafirlərin aqibətindən ibrət götürür, nə də möcüzə və dəlillərdən nəticə çıxarır.
3. Kafir çıxılmaz vəziyyətdədir.
4. Təbliğdə əqli həqiqətləri göz qabağında olan işləri misal çəkməklə aydınlaşdırın.

*AYƏ 10:*

﴿وَسَوَاء عَلَيْهِمْ أَأَنذَرْتَهُمْ أَمْ لَمْ تُنذِرْهُمْ لاَ يُؤْمِنُونَ﴾

**“Qorxudub-qorxutmamağının onlar üçün heç bir fərqi yoxdur, iman gətirməzlər.”**

*AYƏ 11:*

﴿إِنَّمَا تُنذِرُ مَنِ اتَّبَعَ الذِّكْرَ وَخَشِيَ الرَّحْمَن بِالْغَيْبِ فَبَشِّرْهُ بِمَغْفِرَةٍ وَأَجْرٍ كَرِيمٍ﴾

**“Yalnız zikrə (Qurana) tabel olan, qeybdə Rəhman Allahdan çəkinən kəsi qorxuda bilərsən. Beləsini bəxşiş və dəyərli mükafatla müjdələ.”**

**Nöqtələr**

Digər ayələri nəzərə alsaq “zikr” dedikdə Quran nəzərdə tutulur.[1]

Kafirlər və müşriklər heç vaxt hidayət olası deyil, peyğəmbərin onlara xəbərdarlığı təsirsizdir.[2]

---

[1] “Hicr”, 9.

[2] “Bəqərə”, 6; Əraf”, 193.

“Qeybdə Rəhmandan çəkinən” dedikdə ya daxili bir qorxu, ya xəlvətdə qorxu, ya da Qiyamət sorğusundan qorxu nəzərdə tutulur.

Əzəmətli şəxsiyyətin heybət və böyüklüyü qarşısında yaranan hal “xəşyət” adlanır. “Xəşyət” adlanan bu qorxu cəza və əzab qorxusundan fərqlənir.

**Bildirişlər**

1. ”Dəmir mıx qayaya batmırsa əgər; Nəsihət daş qəlbə edərmi əsər?”
2. Xəbərdarlığı başa çatdırmağın (höccəti tamamlamağın) bir hesabı var, sözün təsirinin başqa bir hesabı. (Təsir ehtimalı olmasa da peyğəmbər xəbərdarlığı başa çatdırmalıdır.)
3. Quran zikr səbəbidir. Qurana itaət yatmış fitrətin oyanması, unudulmuşların yada salınması üçün bir vasitədir.
4. Allahın geniş rəhməti bizi arxayınlaşdırmamalıdır.
5. Daxili qorxu gerçək iman və xəşyət nişanəsidir.
6. Qorxu və ümidin yanaşı olması zəruridir. Ayədə həm xəşyət, həm də mərhəmət yada salınır.
7. İnsan zahirdə yox, xəlvətdə və daxilən Allahdan qorxmalıdır.
8. Peyğəmbərlər həm xəbərdarlıq etməli, həm də ümd verməlidir.
9. Müjdə peyğəmbərin xəbərdarlığından ayılan insana aiddir.

***AYƏ 12:***

﴿إِنَّا نَحْنُ نُحْيِي الْمَوْتَى وَنَكْتُبُ مَا قَدَّمُوا وَآثَارَهُمْ وَكُلَّ شَيْءٍ أَحْصَيْنَاهُ فِي إِمَامٍ مُبِينٍ﴾

**“Həqiqətən, ölüləri dirildən, öncədən göndərdiklərini, onların əsərlərini qeydə alan bizik. Aşkar (kitab formasında onun ixtiyarına verilir. Bu kitablar üç növdür: şəxsi kitab, ümmətlərin kitabı, ümumi kitab.[1]”**

“İmam” dedikdə həm kitab, həm də şəxs nəzərdə tutula bilər.[2] Rəvayətlərdə bildirilir ki, “imamin mubin” təbirinin ünvanlarından biri Əli ibn Əbu-Talibdir (ə). Bəli, ona kitab elmi verilmişdi.[3]

Bir çox təfsirçilər “imamin-mubin” dedikdə lövhi məhfuzun (ərşdə əməllərin yazıldığı lövhə) nəzərdə tutulduğunu bildirirlər. Bu lövhə Quranda “ümmül-kitab” kimi yada salınır.[4] Bütün biliklər və müqəddəratlar bu kitabda əks olunduğundan onu “imam” adlandırmışlar.[5]

**Bildirişlər**

1. Kafirlərin azdırıcı və inkarçı əqidəsinə qətiyyətlə cavab verin.
2. Qiyamət günü bütün ölülər dirilər.
3. İnsanın əməl naməsi hətta ölümündən sonra, Qiyamət gününədək açıqdır.
4. Təkcə əməllər yox, əməlin bütün təsirləri qeyd olunur və Qiyamət hesabında nəzərə alınır. (həm sədəqə və elm öyrətməyin xeyir təsirləri. Həm əxlaqsızlıq yuvaları yaratmağın şər təsirləri qeydə alınır.)

---

[1] “İsra”, 14; “Casiyə”, 28; “Buruc”, 22.
[2] “Hud”, 17; “Bəqərə”, 124.
[3] “Təfsire-Nurus-səqəleyn”.
[4] “Zuxruf”, 4.
[5] “Təfsire-rahnoma”.

5. Qiyamətdə bizimlə Allah hesab aparar.

6. İnsan təkcə öz əməllərinə yox, həm də əməllərinin sonrakı mənfi təsirlərinə cavabdehdir.

7. Allahın hesabı dəqiqdir.

8. İlahi mühakimə hamının gözü qarşısındadır.

### *AYƏ 13:*

﴿وَاضْرِبْ لَهُم مَّثَلاً أَصْحَابَ الْقَرْيَةِ إِذْ جَاءهَا الْمُرْسَلُونَ﴾

**“Onlara Allah elçilərinin üz tutduğu şəhər əhlini misal çək.”**

**Nöqtələr**

Bu ayədən başlayaraq 17 ayədə xalqının hidayəti üçün göndərilmiş bəzi peyğəmbərlərin əhvalatları nəql olunur.

Təfsirlərdə bildirilir ki, ayədə şəhər dedikdə qədim Rum şəhərlərindən olan Antakiya nəzərdə tutulur. Antakiya hazırda Türkiyə ərazisinə daxildir və ticari şəhərlərdən sayılır. Bu 18 ayədən məlum olur ki, Antakiya əhli bütpərəst imiş və göndərilmiş peyğəmbər onları tövhidə, şirklə mübarizəyə çağırırmış.

**Bildirişlər**

1. Keçmişdə baş vermiş hadisələr gələcək üçün ən üstün dərsdir.

2. Tərbiyəçi və təbliğatçı tarixlə tanış olmalıdır.

3. Cəmiyyətə sabit qanunlar hakimdir, insanların və cəmiyyətin taleyini bu qanunlar əsasında müəyyənləşdirmək olar. Bəli, ilahi sünnələr sabitdir, millətlərin, zaman və məkanın dəyişməsi ilə dəyişmir.

4. Ən üstün misal xəyali yox, gerçək və gözlə görünən misaldır.

5. Dastanın nəqlində ad və say yox, ibrətamiz nöqtələr mühümdür.

6. Peyğəmbərlər xalqın gəlişini gözləmədən onların sorağına gedirdilər.

### *AYƏ 14:*

﴿إِذْ أَرْسَلْنَا إِلَيْهِمُ اثْنَيْنِ فَكَذَّبُوهُمَا فَعَزَّزْنَا بِثَالِثٍ فَقَالُوا إِنَّا إِلَيْكُم مُّرْسَلُونَ﴾

**“Onlara doğru göndərdiyimiz iki nəfəri təkzib etdilər, sonra üçüncü şəxslə (əvvəlki iki nəfəri) təsdiqlədik. Dedilər: “Həqiqətən, biz sizə doğru (Allah tərəfindən) göndərilmişik.”**

### *AYƏ 15:*

﴿قَالُوا مَا أَنتُمْ إِلاَّ بَشَرٌ مِّثْلُنَا وَمَا أَنزَلَ الرَّحْمن مِن شَيْءٍ إِنْ أَنتُمْ إِلاَّ تَكْذِبُونَ﴾

**“Kafirlər dedilər: “Siz də bizim kimi bəşərsiniz, Rəhman Allah bir şey nazil etməyib və siz yalnız yalan danışırsınız.”**

### *AYƏ 16:*

﴿قَالُوا رَبُّنَا يَعْلَمُ إِنَّا إِلَيْكُمْ لَمُرْسَلُونَ﴾

**“Peyğəmbərlər dedilər: “Rəbbimiz bilir ki, biz sizə doğru göndərilmişik.”**

*AYƏ 17:*

﴿وَمَا عَلَيْنَا إِلاَّ الْبَلاَغُ الْمُبِينُ﴾

**"Bizim açıq-aşkar təbliğdən savay vəzifəmiz yoxdur."**

**Nöqtələr**

Bəziləri Allahın varlığına inansalar da, peyğəmbərlik məsələsini qəbul etmirlər. Onlar deyirlər ki, ağıl verilən yerdə vəhyə ehtiyac yoxdur. Onlar Allahı düzgün tanımadıqlarından bu sayaq düşünürlər.[1]

**Bildirişlər**

1. Bəzən haqqa çağırış, yaxşılığa dəvət qrup şəklində həyata keçirilir.
2. İnadkarlıq əlacsız dərddir. (İnadkarlar hətta peyğəmbərləri inkar etdilər.)
3. Düşmənin təkzibi sizi həvəsdən salmasın, ətrafınızı gücləndirin.
4. Bəzən bir qövmə eyni vaxtda bir neçə peyğəmbər göndərilib.
5. Təbliğatçıların sayı cəmiyyətin ehtiyacı əsasında müəyyənləşir.
6. Bir şəxsə iş tapşırdıqda ona arxa dayanıb güc verin.
7. Layiqli insanların çoxluğu izzət səbəbidir.
8. İnsan və ya başqa bir şey vasitə olsa da, izzət və zillət Allahın əlindədir.
9. Müdiriyyətdə daim ehtiyat qüvvəsi saxlayın.
10. Kafirlər bütün kamillikləri görməməzliyə vurub hər şeyə zahiri gözlə baxırlar.
11. Bəziləri vəzifə, əmr və qadağaları ilahi mərhəmətə zidd sayır, güman edirlər ki, mərhəmət qeyd-şərtsiz azadlıqda, insanın özbaşına buraxılmasındadır.
12. Düşmənin ardıcıl inkarları müqabilində qəlbinizə Allah zikri ilə toxtaqlıq verin.
13. Peyğəmbərlərin vəzifəsi agahlıq verən təbliğatdır. Onlar nəticəyə zamin deyillər.

*AYƏ 18:*

﴿قَالُوا إِنَّا تَطَيَّرْنَا بِكُمْ لَئِن لَّمْ تَنتَهُوا لَنَرْجُمَنَّكُمْ وَلَيَمَسَّنَّكُم مِّنَّا عَذَابٌ أَلِيمٌ﴾

**("Kafirlər peyğəmbərlərə) dedilər: "Biz sizi uğursuzluq əlaməti sayırıq. (Sizin varlığınız bizə bədbəxtlik gətirir) Əgər sözlərinizdən əl çəkməsəniz sizi hökmən daş-qalaq edəcəyik, tərəfimizdən sizə ağrılı əzab yetişəcək."**

*AYƏ 19:*

﴿قَالُوا طَائِرُكُمْ مَعَكُمْ أَئِن ذُكِّرْتُم بَلْ أَنتُمْ قَوْمٌ مُّسْرِفُونَ﴾

**"(Peyğəmbərlər cavab olaraq) dedilər: "Bədbəxtliyinizin səbəbkarı özünüzsünüz. Əgər sizə nəsihət verilirsə (bunu uğursuzluqmu saymalısınız)? Siz həddi aşmış bir qövmsünüz."**

**Nöqtələr**

Düşər-düşməz, uzursuzluq əlaməti kimi xürafatlar qədimdə də olub, bu gün də var. İstənilən bir məntəqədə nələrsə uğursuzluq əlaməti sayılır. İslam belə bir əqidəni şirk sayır və rədd edir.[1] Kafirlərsə bu əməli Allaha təvəkkül sayır.[2]

---

[1] "Ənam", 91.

Nələrisə uğursuzluq əlaməti saymağın bir sıra acı nəticələri var: insanlara münasibətdə bədgümanlıq, işlərdə səngimə, məğlubiyyət təlqini... Allah övliyalarının və müqəddəsliklərin uğursuzluq əlaməti sayılması isə daha pisdir.

**Bildirişlər**

1. İstənilən bir azğın sözə aydın cavab verilməlidir.
2. Təkzib, təhqir, hədə kafirlərin qaydasıdır.
3. Uğursuzluq əlamətlərinə inam cahiliyyət adət-ənənələrindəndir.
4. Məntiqi olmayan insan xürafata üz tutur.
5. Düşüncə azğınlığı əməl azğınlığı üçün müqəddimədir.
6. Küfr qəlbidaşlıq mayası, peyğəmbərə qarşı kobudluq zəminəsidir.
7. Peyğəmbərlərin aydın məntiqi qarşısında sözü olmayan kafirlər təkzibdən sonra hədəyə əl atır.
8. Peyğəmbərlərin işi qəfləti aradan qaldırmaq, insanların diqqətini sağlam fitrətə yönəltməkdir.
9. Azğınlıq və tüğyan israf cilvələrindəndir.
10. Bədbəxtliyin kökü Allaha və Onun peyğəmbərlərinə imanda yox, tüğyan və israfdadır.

*AYƏ 20:*

﴿وَجَاء مِنْ أَقْصَى الْمَدِينَةِ رَجُلٌ يَسْعَى قَالَ يَا قَوْمِ اتَّبِعُوا الْمُرْسَلِينَ﴾

**“Bir kişi şəhərin ən uzaq məntəqəsindən tələsik gəlib dedi: “Ey mənim qövmüm! Bu peyğəmbərlərə tabe olun.”**

*AYƏ 21:*

﴿اتَّبِعُوا مَن لاَّ يَسْأَلُكُمْ أَجْرًا وَهُم مُّهْتَدُونَ﴾

**“Muzd istəməyən və özləri doğru yolda olan kəslərə (tabe olun).”**

**Nöqtələr**

On üçüncü ayədə peyğəmbərlərin hüzur məhəlli “əl qəryə” kimi təqdim olunur. Bu ayədə isə uyğun məhəl “əl-mədinə” adlandırılır. Sanki mədəniyyət və ictimai təkamül insanların imanından asılıdır. Əhli kafir olan şəhər kənd sayılır, əhli arasında bircə mömin olan kənd isə inkişaf edib şəhərə çevrilir.

**Bildirişlər**

1. Şəhərdən uzaqlıq mədəniyyətdən uzaqlıq deyil.
2. Haqqın himayəsi sərhəd tanımır.
3. Bəzən təkbaşına hərəkət etmək, fəryad çəkmək lazım gəlir. Həzrət Əli (ə) buyurur: “Haqq yolda ardıcılların azlığı sizi qorxutmasın.”[3]
4. Haqqın himayəsi yolunda məsafənin uzunluğu sədd olmamalıdır.
5. Haqqa tərəfdarlıq üçün ad və ünvan yox, stimul və yanğı lazımdır.
6. Haqqı ciddi, yubanmadan, məntiqi şəkildə və mərhəmətlə himayə etmək lazımdır.

---

[1] “Bihar”, c. 55, s. 322.
[2] “Kafi”, c. 8, s. 198.
[3] “Nəhcül-bəlağə”, x. 201.

7. Azğın mühitlərdə həqiqi rəhbərin himayəsi üçün sükutu pozub fəryad çəkmək Allah tərəfindən mədh olunur.

8. Təbliğdə ixlas, səmimiyyət xalqı cəzb edir. Haqq nidası çəkənlər xalqdan muzd istəməməlidir.

9. Doğru yola çağıran insan özü doğru yolda olmalıdır.

*AYƏ 22:*

﴿وَمَا لِي لاَ أَعْبُدُ الَّذِي فَطَرَنِي وَإِلَيْهِ تُرْجَعُونَ﴾

**“Axı məni yaradana nə üçün ibadət etməməliyəm?! Hamınız ona doğru qaytarılarsınız.”**

*AYƏ 23:*

﴿أَأَتَّخِذُ مِن دُونِهِ آلِهَةً إِن يُرِدْنِ الرَّحْمَن بِضُرٍّ لاَّ تُغْنِ عَنِّي شَفَاعَتُهُمْ شَيْئًا وَلاَ يُنقِذُونِ﴾

**“Yoxsa Onun yerinə elə məbudlar seçim ki, Rəhman Allah mənə bir çətinlik yaratmaq qərarına gələndə onların şəfaətindən zərrəcə fayda görməyim və məni xilas edə bilməsinlər?!”**

*AYƏ 24, 25:*

﴿إِنِّي إِذًا لَّفِي ضَلاَلٍ مُّبِينٍ إِنِّي آمَنتُ بِرَبِّكُمْ فَاسْمَعُونِ﴾

**“Onda aşkar azğınlığa uğramış olaram. (Ey insanlar! Bilin) mən sizin Rəbbinizə iman gətirdim, bunu eşidin!”**

*AYƏ 26:*

﴿قِيلَ ادْخُلِ الْجَنَّةَ قَالَ يَا لَيْتَ قَوْمِي يَعْلَمُونَ﴾

**“(Nəhayət, onu şəhadətə yetirdilər) ona deyildi: “Behiştə daxil ol.” Dedi: “Ey kaş qövmüm biləydi.”**

*AYƏ 27:*

﴿بِمَا غَفَرَ لِي رَبِّي وَجَعَلَنِي مِنَ الْمُكْرَمِينَ﴾

**“(Qövmüm biləydi ki) Rəbbim məni bağışladı və girami tutulanlardan qərar verdi.”**

**Nöqtələr**

“Məcməul-bəyan” təfsirinə əsasən, ayədə həzrət İsanın dövrünə aid bir əhvalatdan danışılır. Həzrət öz həvarilərindən ikisini Antakiya əhlini doğru yola dəvət üçün göndərir. Onlar yolda Həbib Nəccarla rastlaşırlar. Həbib Nəccar bu iki şəxsin göstərdiyi dəlillər əsasında iman gətirir. Həmin iki şəxs şəhərə daxil olur. Amma insanlar onların sözlərini qəbul etmirlər. Həzrət İsa ən böyük həvarisi Şəmunu həmin iki nəfərə köməyə göndərir. Şəmun padşahın qəlbini ələ alır və nəhayət xalqın əksəri Allaha iman gətirir.

Başqa təfsir kitablarında da nəql olunmuş bu rəvayət iki baxımdan Quran mətnlərinə uyğun gəlmir: Əvvəla ayələrdən zahirən belə görünür ki, Allah haqqında danışılan

qövmə doğru öz peyğəmbərini göndərmişdir. Digər tərəfdən, əgər xalqın əksəri iman gətirsəydi, onlara əzab nazil olmazdı.[1]

Rəvayətlərə əsasən, Allah elçilərinin himayəsi üçün Antakiya şəhərinə gələn şəxs Həbib Nəccar idi. Həbib Nəccar Firon ailəsindəki möminlərdən idi və həzrət Musanın himayəsinə qalxanlardan sayılır.[2]

Hələb və İsgəndəriyyə arasında yerləşən Antakiya şəhəri bu gün Türkiyə ərazisinə daxildir. Bu şəhər məsihilərin Beytül-Müqəddəsdən sonra ikinci mühüm şəhəri sayılırdı.

**Bildirişlər**

1. Allah qarşısında bəndəlik etməyən insanlar vicdan məhkəməsində məhkumdur.
2. Ətrafdakıları dəvət yollarından biri məntiqi etiqadların bəyanıdır.
3. Yaranış və məada diqqət bəndəlik qaynağıdır.
4. Təlim-tərbiyədə ən üstün yollardan biri müqayisədir. Məsələn, insan Allah tərəfindən yaradıldığı halda bütlərin ona zərrəcə faydası yoxdur.
5. İnsanın qarşılaşdığı çətinliklər Allahın iradə və mərhəmət dairəsindən xaric deyil.
6. Allaha lazımınca diqqət üçün fövqəladə bir vəziyyəti göz özünə gətirməyimiz yetər.
7. İnsanların qəlbinə toxunmamaq üçün özümüzlə bağlı misallar çəkək.
8. Ən gözəl dəvət əməli dəvətdir.
9. Səmavi rəhbərin müdafiəsi və doğru yola çağırış naminə şəhadətin uzun keçmişi var.
10. Şəhadətlə behişt arasında fasilə yoxdur.
11. İlahi insanlar hətta ölüm və şəhadətdən sonra dünyadakıların aqibəti barədə düşünür.
12. Vəd olunmuş behişt dünya həyatı və bərzəx behiştindən sonra gerçəkləşəcək.
13. Şəhadət insanın bağışlanmasına səbəb olur.

## İYİRMİ ÜÇÜNCÜ CÜZ

***AYƏ 28:***

﴿وَمَا أَنزَلْنَا عَلَى قَوْمِهِ مِن بَعْدِهِ مِنْ جُندٍ مِّنَ السَّمَاءِ وَمَا كُنَّا مُنزِلِينَ﴾

**“Biz (həmin ilahi şəxsin şəhadətindən) sonra onun qövmünü həlak etmək üçün səmadan heç bir qoşun endirmədik. Əslində bundan öncə də belə bir sünnəmiz yox idi. (Yer əhlinə əzab üçün göydən qoşun endirməzdik.)”**

***AYƏ 29:***

﴿إِن كَانَتْ إِلاَّ صَيْحَةً وَاحِدَةً فَإِذَا هُمْ خَامِدُونَ﴾

**“Yalnız dəhşətli bir səs (haray)! (Ardınca) qəfil hamılıqla məhv oldular.”**

**Nöqtələr**

Ötən ayələrdə ilahi peyğəmbərlərin müdafiəsi üçün təkbaşına ayağa qalxmış bir şəxsin əhvalatı danışıldı. Bu şəxs haqqın müdafiəsi üçün fəryad çəkdi və bu yolda

[1] “Təfsiri-nümunə”.
[2] “Təfsire-Məcməül-bəyan”. “Təfsire-Nurus-səqəleyn”.

şəhadətə çatdı. Hazırkı ayədə isə peyğəmbərləri təkzib etmiş, həmin ilahi insanı şəhadətə yetirmiş kafirlərin acı aqibətindən söhbət açılır.

"Xamid" dedikdə alov şölələrinin keçməsi (sönməsi) mənası nəzərdə tutulur. Hazırkı ayədə uğun söz fəlakət və ölüm mənasını bildirir.

**Bildirişlər**

1. Mələklər Allahın qəzəb və ya mərhəmət məmurlarıdır. Onların enib-enməməsi Allahın əmrindən asılıdır.

2. Allahın qəhr-qəzəbi qəfil nazil olur–qəflətdə qalmayaq!

3. Bəzən günahsız bir möminin, din təbliğatçısının ölümünə görə bütöv bir məntəqə məhv edilir.

4. Bir gün öncə qüdrətini nümayiş etdirən zorlular səhəri gün yalnız bir səslə məhv oldular.

***AYƏ 30:***

﴿يَا حَسْرَةً عَلَى الْعِبَادِ مَا يَأْتِيهِم مِّن رَّسُولٍ إِلاَّ كَانُوا بِهِ يَسْتَهْزِؤُون﴾

**"Heyf olsun bu bəndələrə! Onlar soraqlarına gəlmiş bütün peyğəmbərlərə istehza etdilər."**

**Bildirişlər**

1. Düzgün mövqe tutub, haqqın səsinə səs verə bilən, peyğəmbərlərə tabeçiliklə xoşbəxt olmaq imkanına malik insan öz inadkarlığı ilə Allahın qəhr-qəzəbinə düçar olur.

2. İnadkarlıq təkamül zəminəsinin aradan qalxma səbəbi, peşimançılıqlar üçün müqəddimədir.

3. Tarixin acı hadisələrindən xəbərdarlıq insanı sığortalayır.

4. Peyğəmbərlərə istehza kafirlərin tarixi səciyyəsidir.

5. Bütün peyğəmbərlərə qarşı istehza olunub. (Demək, din təbliğatçıları dil yarasına hazır olmalıdır.)

***AYƏ 31:***

﴿أَلَمْ يَرَوْا كَمْ أَهْلَكْنَا قَبْلَهُم مِّنْ الْقُرُونِ أَنَّهُمْ إِلَيْهِمْ لاَ يَرْجِعُونَ﴾

**"Onlardan öncə bir çox nəsilləri həlak etdiyimizi və onların bu kafirlərə doğru dönməyəcəyini görmədilərmi?!"**

***AYƏ 32:***

﴿وَإِن كُلٌّ لَّمَّا جَمِيعٌ لَّدَيْنَا مُحْضَرُونَ﴾

**"Hamı bizim hüzurumuzda saxlanılacaq."**

**Nöqtələr**

"Təfsiri-nümunə"yə əsasən, "qərn" dedikdə həm uzun bir dövr, həm də eyni bir dövrdə yaşamış insanlar nəzərdə tutulur.

**Bildirişlər**

1. Tarixi araşdırmayan, keçmişdəkilərin aqibətindən ibrət götürməyən insanlar qınanasıdır.

2. Tarixdə ilahi sünnələr sabitdir, talelər oxşardır və bir səhnə o biri səhnə üçün ibrət ola bilər.

3. Tarixin nəqli günahkarlar üçün xəbərdarlıq, haqq yolda olanlar üçün təsəllidir.

4. Peyğəmbərlərə qarşı istehzanın sonu bədbəxtçilikdir.

5. Allahın qəzəbi nazil olandan sonra qayıdış yolu qalmır. Fürsətləri əldən buraxmayaq.

6. Kafirlərin ölümü işin sonu yox, onlara əzabın başlanğıcıdır.

7. Qiyamət səhnəsində xalq bir yerə toplanar.

*AYƏ 33:*

﴿وَآيَةٌ لَّهُمُ الْأَرْضُ الْمَيْتَةُ أَحْيَيْنَاهَا وَأَخْرَجْنَا مِنْهَا حَبًّا فَمِنْهُ يَأْكُلُونَ﴾

**“Ölü torpağı diriltdik və bu gün yedikləri dənləri ondan cücərtdik. Bu ölü torpaqda onlar üçün nişanə var.”**

**Nöqtələr**

Ötən ayədə oxuduq ki, Qiyamət günü bütün insanlar dirildilər və Rəbbinin hüzurunda saxlanılar. Bu ayə məad və dirçəliş dəlilini bəyan edir.

**Bildirişlər**

1. Torpaqdan cücərən istənilən bir toxum Qiyamətdə gordan qalxacaq ölü kimidir.

2. Sözümüzün doğruçuluğunu sübuta yetirmək üçün nümunələr göstərək.

3. İnsanlar üçün ən yaxşı dəlil daimi, ümumi, inkar olunmayası, sadə dəlildir.

4. Məada münasibətdə ən üstün iman yolu yaranmışlara diqqətdir.

5. Qidalarımızın böyük bir hissəsini bitki toxumları təşkil edir. Bu toxumlara diqqət allahşünaslıq yoludur.

*AYƏ 34:*

﴿وَجَعَلْنَا فِيهَا جَنَّاتٍ مِن نَّخِيلٍ وَأَعْنَابٍ وَفَجَّرْنَا فِيهَا مِنْ الْعُيُونِ﴾

**“Onda xurma və üzüm acağları olan bağlar qərar verdik, bulaqlar çıxarıb axıtdıq.”**

*AYƏ 35:*

﴿لِيَأْكُلُوا مِن ثَمَرِهِ وَمَا عَمِلَتْهُ أَيْدِيهِمْ أَفَلَا يَشْكُرُونَ﴾

**“Beləcə, onun meyvələrindən və əlləri ilə ərsəyə gətirdiklərindən yesinlər. Bəs nə üçün şükür etmirlər?”**

**Nöqtələr**

Quranda meyvələr arasından üzüm və xurmanın adı daha çox çəkilir. Uyğun imtiyazın səbəbi bu iki meyvənin tərkib baxımından zənginliyi, asanlıqla əldə edilməsi, çeşidliyi, həm qurusundan, həm də tərindən istifadəsinin mümkünlüyü ola bilər.

Ayədə üzüm və xurma sözləri cəm formada işlədilmişdir. Çünki hər iki nemətin xeyli növü var.

**Bildirişlər**

1. Qidalanmada birinci yerdə toxumlar, ikinci yerdə meyvələr dayanır.
2. Nemətlər müqabilində şükür bir vəzifədir. (Allah ölü torpağı dirildib otlar və meyvələr cücərdir ki, insan bu nemətlərdən faydalanıb şükür etsin.)
3. Quran meyvələrdən müxtəlif qidaların hazırlanmasını mümkün sayır.
4. Nemətlərin bəyanı insanda şükür ruhiyyəsi yaradır.

*AYƏ 36:*

﴿سُبْحَانَ الَّذِي خَلَقَ الْأَزْوَاجَ كُلَّهَا مِمَّا تُنبِتُ الْأَرْضُ وَمِنْ أَنفُسِهِمْ وَمِمَّا لَا يَعْلَمُونَ﴾

**"Yerin cücərtilərindən, insanların özündən və onların tanımadıqlarından cütlər yaradan Allah pak-pakizədir."**

**Nöqtələr**

Zövciyyət (cütlük) qanunu Quranın elmi möcüzələrindəndir. Bəli, zaman ötdükdə varlıq aləmindəki cütlər kəşf olunur. Quran nazil olan vaxt insanlar xurma ağacındakı zövciyyətdən xəbərdar idilər. Amma bu gün kəşf olunub ki, bütün təbiət aləmində uyğun qanun cərəyandadır.

**Bildirişlər**

1. Allah insanın təşəkkürünə ehtiyac duymur, təşəkkür insanın təkamül nişanəsidir.
2. Yaranmışlar arasındakı zövciyyət qanununu Allaha tətbiq etməyək. Allah yeganə və oxşarsızdır.
3. Yaradılmışlar və yaranmışlar Allahın qüdrət, iradə və hikmət nişanəsidir.
4. Toxum və meyvə zövciyyət yolu ilə ərsəyə gəlir.
5. İnsan fiziki və cinsi baxımdan digər yaranmışlarla bir sırada dayanır.
6. Varlıq aləmində cütlüyü bəşəriyyət üçün qaranlıq qalmış mövcudlar var.

*AYƏ 37:*

﴿وَآيَةٌ لَّهُمُ اللَّيْلُ نَسْلَخُ مِنْهُ النَّهَارَ فَإِذَا هُم مُّظْلِمُونَ﴾

**"Onlar üçün digər bir nişanə gecədir. Biz gündüzü (dəri kimi) ondan çıxarırıq və onlar zülmətə qərq olur."**

*AYƏ 38:*

﴿وَالشَّمْسُ تَجْرِي لِمُسْتَقَرٍّ لَّهَا ذَٰلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ﴾

**"Günəş öz mənzilinə hərəkətdədir. Bu nizam yenilməz və bilən Allahın təqdiridir."**

*AYƏ 39:*

﴿وَالْقَمَرَ قَدَّرْنَاهُ مَنَازِلَ حَتَّى عَادَ كَالْعُرْجُونِ الْقَدِيمِ﴾

**“Ay üçün də mənzillər müəyyənləşdirmişik. O sonda qurumuş xurma budağı kimi olar.”**

*AYƏ 40:*

﴿لَا الشَّمْسُ يَنبَغِي لَهَا أَن تُدْرِكَ الْقَمَرَ وَلَا اللَّيْلُ سَابِقُ النَّهَارِ وَكُلٌّ فِي فَلَكٍ يَسْبَحُونَ﴾

**“Nə günəş aya çatasıdır, nə də gecə gündüzü qabaqlayası. Onların hər biri müəyyənləşmiş orbitində üzməkdədir.”**

**Nöqtələr**

“Urcun” dedikdə ağaca bitişik, zaman ötdükcə qövs şəkli alan xurma budağı nəzərdə tutulur.

Bu ayələrdən aydın olur ki, Allahın varlığının sübut dəlillərindən biri də mövcud nizamdır.

Diqqətin günəş, ay, gecə-gündüz, aydakı dəyişikliklər, səma cisimlərinin hərəkəti, bu cismlərin orbiti, elm və hikmətə əsaslanan nizama yönəldilməsi İslamın astronomiya elmini əhəmiyyətli saymasını göstərir. Bu münasibət tarix boyu alimlərin araşdırmaları üçün zəminə olmuşdur.

**Bildirişlər**

1. Gecə Allahın qüdrəti və hikmət nişanələrindəndir.
2. Tarix boyu sabit şəkildə davam edən proqram hikmət və elm sahibi olan yaradıcıdan danışır.
3. Gecə və gündüz Allahın işidir, təsadüfi sayılmamalıdır.
4. Günəş və ayın hərəkət yolu elə nizamlanmışdır ki, gecə və gündüz dəqiq şəkildə bir-birini əvəz edir və hər hansı toqquşma baş vermir.
5. Quran nazil olana qədər alimlər günəşin hərəkətsiz olduğunu güman edirdi. Amma Quran günəşin istiqamətli bir hərəkətdə olduğunu bildirdi.
6. Varlıq aləminə hakim nizama kimsə əl uzada bilməz.
7. Quran təşbehləri daim aktualdır. Ayın hərəkəti xurma budağının hərəkətinə bənzədilir.
8. Bütün səma cisimləri öz orbitində hərəkətdədir.
9. Səma cisimləri öz orbitində sürətlə hərəkət edir.

*AYƏ 41:*

﴿وَآيَةٌ لَّهُمْ أَنَّا حَمَلْنَا ذُرِّيَّتَهُمْ فِي الْفُلْكِ الْمَشْحُونِ﴾

**“Onlar üçün digər bir nişanə budur ki, övladlarını yüklə dolu gəmiyə süvar etdik.”**

*AYƏ 42:*

﴿وَخَلَقْنَا لَهُم مِّن مِّثْلِهِ مَا يَرْكَبُونَ﴾

**“Onlar üçün bunun (at, dəvə..) kimi başqa miniklər də yaratdıq.”**

*AYƏ 43:*

﴿وَإِن نَّشَأْ نُغْرِقْهُمْ فَلَا صَرِيخَ لَهُمْ وَلَا هُمْ يُنقَذُونَ﴾

**“İstəsək onları qərq edərik. Belə ki, nə fəryadlarına çatan olar, nə də (dənizdən) xilas edən.”**

*AYƏ 44:*

﴿إِلَّا رَحْمَةً مِّنَّا وَمَتَاعًا إِلَى حِينٍ﴾

**“(Xilas edərik ki) yalnız növbəti dəfə onlara mərhəmət edək və bir müddət (həyatdan) faydalansınlar.”**

**Nöqtələr**

Gəmilərdən və heyvanlardan bəhrələnmə Quranda dəfələrlə ilahi nemətlər kimi yada salınır. Bu ayədə isə övladların hərəkəti məsələsinə toxunulur ki, insan ağıl və qəlbi ilə ilahi nemətləri dərk etsin.

Əgər bu gün su hövzələrindəki tankerlər və bərələr dayanarsa, gündəlik həyat iflic olar. Bundan əlavə, gəmi nəqliyyatı həcmli və ağır yüklərin daşınması üçün ən ucuz nəqliyyatdır.

**Bildirişlər**

1. Su hövzələrini gəmilərin hərəkətinə münasib yaradan Allahdır. Bu hərəkət ilahi qüdrət nişanələrindəndir.
2. Bəşər həyatının zəruriyyətlərindən olan minik və nəqliyyat vasitələri xüsusi bir nemət, ilahi lütf və tədbir göstəricisidir.
3. Allahın qəhr-qəzəb imkanı qeyri-məhduddur. Gəlin qürrələnməyək.
4. Allahın qəzəbi nazil olsa, kimsə fəryadımıza çatmaz. Özümüzü tam əmin-amanlıqda hiss etməməliyik.
5. Öz qurtuluşumuzu maddi vasitələrdən asılı saymayaq.
6. Hər bir insanın əcəli var və ömrümüz məhduddur.

*AYƏ 45:*

﴿وَإِذَا قِيلَ لَهُمُ اتَّقُوا مَا بَيْنَ أَيْدِيكُمْ وَمَا خَلْفَكُمْ لَعَلَّكُمْ تُرْحَمُونَ﴾

**“Onlara deyilsə ki, qarşınızda və arxanızda olandan (dünya və axirət cəzasından) qorxun, bəlkə sizə rəhm olundu (üz çevirib gedərlər.)”**

*AYƏ 46:*

﴿وَمَا تَأْتِيهِم مِّنْ آيَةٍ مِّنْ آيَاتِ رَبِّهِمْ إِلَّا كَانُوا عَنْهَا مُعْرِضِينَ﴾

**“Rəbbinin nişanələrindən onlar üçün hansı nişanə gəldisə, üz çevirdilər.”**

**Nöqtələr**

Ötən ayələrdə ilahi nemətlər yada salındı. Diqqət yetirilsə məlum olar ki, bütün bunlar Allahın qüdrət, hikmət və lütf nişanələridir. Ayələrdə buyurulur ki, onlar çox

inadkardırlar, nə nişanələrdən ibrət götürür, nə öyüd-nəsihətə qulaq asırlar. Onlara dünya və axirət əzabı olan işlərdən çəkinmək, bu yolla Allahın bəxşiş və lütfünə çatmaq tapşırılır.

**Bildirişlər**

1. Yaxşılığa çağırışla xəbərdarlığı başa çatdırın.
2. Təqva ilahi mərhəmətə çatmaq rəmzidir.
3. Xəbərdarlığı başa çatdırmaq üçün müxtəlif dəlillər göstərin.
4. Allahın nişanələri çoxsa da, insanlar az qəbul edir.

***AYƏ 47:***

﴿وَإِذَا قِيلَ لَهُمْ أَنفِقُوا مِمَّا رَزَقَكُمُ اللَّهُ قَالَ الَّذِينَ كَفَرُوا لِلَّذِينَ آمَنُوا أَنُطْعِمُ مَن لَّوْ يَشَاء اللَّهُ أَطْعَمَهُ إِنْ أَنتُمْ إِلَّا فِي ضَلَالٍ مُّبِينٍ﴾

**“Onlara Allahın sizə verdiyi ruzidən bağışlayın” deyildikdə küfrə uğrayanlar iman gətirənlərə deyər: “Əgər Allah istəsəydi, özü onlara ruzi verərdi. Belələrinə bizmi ruzi verək?” Siz aşkar bir azğınlıq içindəsiniz.”**

**Nöqtələr**

Bəsirəti olmayan və ya məsuliyyətdən qaçmaq istəyən insanlar bütün nöqsanlarını başqalarının boynuna atırlar:

1. Bəzən deyirlər ki, müqəssir Allahdır, o istəməsəydi, biz müşrik olmazdıq. [1]
2. Bəzən deyirlər ki, günahkar cəmiyyətdir, azğın başçılar olmasaydı, mömin olardıq.[2]
3. Bəzən deyirlər ki, müqəssir bizim ata-babalarımızdır.[3]

Amma bu ayədə deyirlər ki, lazım gəlsəydi Allah özü fəqirləri doyurardı. Onlar unudurlar ki, Allah fəqirləri varlılara tapşırıb.

Nə üçün Allah fəqirlərə ruzi verməyi tapşırır, amma özü onlara ruzi vermir?

Cavab: İnsan güzəşt, isar (ehtiyacı olandan bağışlamaq), səxavət, canıyananlıq, qənaət, ülfət, qarşılıqlı yardım, məhəbbət və hal-əhval tutmaq sayəsində inkişaf edir. Əgər bütün insanlar üçün eyni imkan yaradılsaydı, nə kamillik, nə səbir, nə zöhd, nə də qənaət üçün zəminə qalardı.

**Bildirişlər**

1. İnsan ixtiyarında olanları öz mülkü yox, Allahın ruzisi saysa asanlıqla bağışlayar.
2. Küfr infaqdan çəkindirən səbəbdir.
3. Kafirlər Allahın ruzi sahibi olmasını məsxərəyə qoyur.
4. İnfaq iman göstəricisidir. (İnfaqın tərki kafirə xas səciyyələrdən sayılır.)
5. İnsan o qədər süqut edə bilər ki, küfr və xəsisliyi düzgün, iman və infaqı əyri yol sayar.

***AYƏ 48:***

﴿وَيَقُولُونَ مَتَى هَذَا الْوَعْدُ إِن كُنتُمْ صَادِقِينَ﴾

---

[1] “Ənam”, 148; “Zuxruf”, 20.
[2] “Səba”, 31.
[3] “Zuxruf”, 22.

**“(Kafirlər) deyirlər: “Əgər doğru deyirsənsə, bu vəd nə vaxt yetişəcək?”**

*AYƏ 49:*

﴿مَا يَنظُرُونَ إِلَّا صَيْحَةً وَاحِدَةً تَأْخُذُهُمْ وَهُمْ يَخِصِّمُونَ﴾

**“Onlar başları höcətə qatılmış halda yalnız vücudlarını bürüyəcək (öldürücü) səsin intizarını çəkirlər.”**

*AYƏ 50:*

﴿فَلَا يَسْتَطِيعُونَ تَوْصِيَةً وَلَا إِلَى أَهْلِهِمْ يَرْجِعُونَ﴾

**“Həmin vəziyyətdə nə vəsiyyət edə bilər, nə də ailələrinin yanına qayıda bilərlər.”**

**Bildirişlər**

1. Kafirlərin Qiyaməti inkar etmək üçün dəlilləri yoxdur. Onların işi yalnız “qiyamət nə vaxt olacaq” deyib məsxərəyə qoymaqdır.
2. Bir hadisənin vaxtının bilinməsi onun baş verməyəcəyini göstərmir.
3. Qiyamət ilahi bir vəddir.
4. Kafirlər peyğəmbər və möminləri yalançı sayır.
5. Qiyamət qəfil qopasıdır. Bu qədər qəflət və istehzaya yer varmı?!
6. Qiyamət qopan an dilin danışmaq, ayağın qaçmaq gücü olmaz.
7. Qiyamət öldürücü bir səsdən sonra bərpa olar.
8. İnsanlar gündəlik işlərinə məşğul olan an dünya süquta uğrayar, Qiyamət bərpa olar.
9. Qiyamətin qopması ilə bütün dünya bağlılıqları qırılar.

*AYƏ 51:*

﴿وَنُفِخَ فِي الصُّورِ فَإِذَا هُم مِّنَ الْأَجْدَاثِ إِلَى رَبِّهِمْ يَنسِلُونَ﴾

**“Sur üfürülər, onlar dərhal qəbirlərdən çıxıb tələsik Rəbbinə üz tutar.”**

*AYƏ 52:*

﴿قَالُوا يَا وَيْلَنَا مَن بَعَثَنَا مِن مَّرْقَدِنَا هَذَا مَا وَعَدَ الرَّحْمَنُ وَصَدَقَ الْمُرْسَلُونَ﴾

**“Deyərlər: “Vay halımıza, bizi yatağımızdan kim qaldırdı?” Bu Rəhman Allahın həmin vədidir, peyğəmbərlər doğru dedilər.”**

*AYƏ 53:*

﴿إِن كَانَتْ إِلَّا صَيْحَةً وَاحِدَةً فَإِذَا هُمْ جَمِيعٌ لَّدَيْنَا مُحْضَرُونَ﴾

**“Bəli, yalnız bir səslə hamılıqla qarşımızda hazır olarlar.”**

**Nöqtələr**

Quranda iki sur üfürülməsi qeyd olunur. Bir səs dünya həyatına son qoyur, o biri səslə Qiyamət bərpa olur. Hazırkı ayədə ikinci dirçəlişə işarə olunur.

“Cədəs” sözünün cəm forması olan “əcdas” sözü qəbirlər mənasını bildirir. “Yənsilun” dedikdə sürətlə getmək, “mərqət” dedikdə istirahət yeri (hazırkı ayədə qəbir) nəzərdə tutulur.

İmam Baqir (ə) buyurur: “Mələklər Qiyamət əhlinə müraciət edir.”[1]

**Bildirişlər**

1. Qiyamət surun üfürülməsi ilə ucalan səslə başlayar.
2. Məad cismanidir və bədənlər əsil qəbirlərdən xaric olur.
3. İnsanlar Qiyamətdə sürətlə və asanlıqla dirilər.
4. Qiyamət vaxtı tələsik hərəkət insanların iztirab və həyəcanını göstərir.
5. Qiyamət kafirlər üçün peşmançılıq günüdür.
6. Qiyamət oyanış, etiraf və peşimançılıq səhnəsidir.
7. Qiyamət və sorğu-sualın bərpası Allahın rəhman sifətinin tələbidir.
8. Kafirlər dünya həyatında inkar etdiklərini həmin gün təsdiqləyər.[2]
9. Qiyamətdə bəşəriyyət hamılıqla səhnəyə gətirilər.
10. Qiyamət səhnəsində iştirak könüllü deyil.

*AYƏ 54:*

﴿فَالْيَوْمَ لَا تُظْلَمُ نَفْسٌ شَيْئًا وَلَا تُجْزَوْنَ إِلَّا مَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Belə bir gündə kimsəyə sitəm qılınmaz, yalnız əməlinizin əvəzi verilər.”**

**Nöqtələr**

Bu ayə əməllərin Qiyamətdə təcəssümünü göstərir. Buyurulur ki, cəzanız yalnız öz əməlinizdir. Yəni əməl özü cəza şəklində təcəssüm edir və hansısa ayrıca cəza nəzərdə tutulmur.

**Bildirişlər**

1. Allah ədalətlidir, Qiyamət günü ilahi ədalətin zühur günüdür. (Qiyamətdə ən ağır cəzalar da ədalətə əsaslanır.)
2. Qiyamətdə cəza və mükafat insanın dünya əməllərinə əsaslanır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Furqan”, 60.

*AYƏ 55:*

﴿إِنَّ أَصْحَابَ الْجَنَّةِ الْيَوْمَ فِي شُغُلٍ فَاكِهُونَ﴾

**“Şübhəsiz, behişt əhli həmin gün şadlığa məşğuldur.”**

*AYƏ 56:*

﴿هُمْ وَأَزْوَاجُهُمْ فِي ظِلَالٍ عَلَى الْأَرَائِكِ مُتَّكِؤُونَ﴾

**“Onlar və zövcələri kölgəliklərdə bəzəkli taxtlara söykənər.”**

*AYƏ 57, 58:*

﴿لَهُمْ فِيهَا فَاكِهَةٌ وَلَهُم مَّا يَدَّعُونَ سَلَامٌ قَوْلًا مِن رَّبٍّ رَّحِيمٍ﴾

**“Behiştdə onlar üçün (hər növ) meyvə hazırlanmışdır və istədikləri şey var. Mehriban Rəbbin onlara sözü salamdır.”**

**Nöqtələr**

“Şuğul” dedikdə insanı özünə məşğul edən iş nəzərdə tutulur. “Fakifun” sözü fərəhləndirici söhbət mənasını bildirir.

“Əraik” sözü bəzəkli gəlin taxtı mənasını bildirir.

Behiştdə hər tərəfdən salam eşidilir. Möminləri Allah, mələklər, behişt əhli salamlayır.[1]

**Bildirişlər**

1. Behiştdə işsiz adam yoxdur. Hamı fərəh gətirən işlərə məşğuldur.
2. Behiştdə qəm-qüssə yoxdur.
3. Behiştdə ölümsüz həyat, xəstəliksiz sağlamlıq, qocalıqsız gənclik, zillətsiz izzət, möhnətsiz nemət, fənasız əbədiyyət, qəzəbsiz fərəh, qorxusuz ünsiyyət var.
4. Behiştdə tənhalıq yoxdur.
5. Behişt məskənləri qəlbə aramlıq verir.
6. Taxtda oturmaq yerdə oturmaqdan yaxşıdır.
7. Ən gözəl təamlar behiştdədir.
8. Behiştdə məhdudiyyət yoxdur. Ürəyindən keçəni istə.
9. Məad cismanidir. (Meyvə, zövcə, taxt haqqında söhbətlərdən aydın olur ki, Qiyamətdə hazırkı cismimizdə olasıyıq.)
10. Behiştdə Allahın əzəmətli razılıq və salamı əldə olunur.
11. Allahın salamı behişt əhlinin arzu-istəyidir.

*AYƏ 59:*

﴿وَامْتَازُوا الْيَوْمَ أَيُّهَا الْمُجْرِمُونَ﴾

**“(Deyilər) ey günahkarlar! Bu gün (xeyir əməl sahiblərindən) ayrılın.”**

---

[1] “Rəd”, 24; “Yunus”, 10.

*AYƏ 60, 61:*

وَلَقَدْ أَضَلَّ مِنكُمْ جِبِلًّا كَثِيرًا أَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ﴿ ﴾وَأَنْ اعْبُدُونِي هَذَا صِرَاطٌ مُّسْتَقِيمٌ

**“Ey Adəm övladları! Məgər sizinlə peyman bağlamadımmı ki, şeytana itaət etməyəsiniz?! Həqiqətən, o sizin aşkar düşməninizdir. Yalnız mənə pərəstiş edin, doğru yol budur.”**

*AYƏ 62:*

﴿وَلَقَدْ أَضَلَّ مِنكُمْ جِبِلًّا كَثِيرًا أَفَلَمْ تَكُونُوا تَعْقِلُونَ﴾

**“Amma şeytan sizlərdən böyük bir dəstəni azdırdı. Nə üçün düşünmürsünüz?”**

**Nöqtələr**

Günahkarlar ilahi ədalət qanunu əsasında xeyir əməl sahiblərindən ayrılır. Allah buyurur: “Mömin və kafir eyni deyil.[1] Olsun ki, ayrılmaz dedikdə günahkarların bir-birindən ayrılıb, tənhalıq ağrısı çəkməsi də nəzərdə tutula bilər. Necə ki, dünya həyatında zindana düşmüş günahkarlar bir-birindən ayrılır.

“Cibillən kəsirən” dedikdə dağ kimi əzəmətli böyük toplum nəzərdə tutulur.[2]

Şeytana ibadət dedikdə ona itaət nəzərdə tutulur. Hədisdə oxuyuruq: “Bir şəxsin günah əmrinə itaət edən insan ona bəndəlik etmişdir.[3]

**Bildirişlər**

1. Qiyamət ayrılıq günüdür.
2. Allah (peyğəmbərlər, əql və fitrət vasitəsi ilə) insandan əhd almışdır.
3. Şeytan sizin atanızı aldatdı və siz şeytana aldanan kəsin övladlarısınız.
4. İnsan ya Allaha bəndədir, ya da şeytana, üçüncü hal yoxdur.
5. Şeytanın düşmənçiliyi şübhə doğurmur.
6. Gün uzunu namazda Allahdan istədiyimiz doğru yol Ona itaət-ibadət yoludur.
7. Aldanmışların taleyindən ibrət götürün.
8. Şeytana aldananların acı aqibəti haqqında düşüncə onun vəsvəsələrindən qurtuluş vasitəsidir.

*AYƏ 63:*

﴿هَذِهِ جَهَنَّمُ الَّتِي كُنتُمْ تُوعَدُونَ﴾

**“Bu sizə vəd olunmuş həmin cəhənnəmdir.”**

*AYƏ 64:*

﴿اصْلَوْهَا الْيَوْمَ بِمَا كُنتُمْ تَكْفُرُونَ﴾

**“Bu gün ona daxil olun, küfrünüzə görə onun odunda yanın.”**

---

[1] “Səcdə”, 18.

[2] “Mufrədati-rağib”.

[3] “Vəsail”, c. 18, s. 79.

**Nöqtələr**

"İsləvha" dedikdə od qalayıb ona daxil etmək və gözləmək nəzərdə tutulur.

**Bildirişlər**

1. Allah dəfələrlə cəhənnəmə vəd etsə də, kafirlər inanmadılar.
2. Allah cəhənnəm əhlinə xəbərdarlığı tamamlayıb, ardıcıl şəkildə onları cəhənnəm təhlükəsindən xəbərdar edirdi.
3. Kafirlər cəhənnəmə alçaldılaraq daxil edilər.
4. Kafirlər və cəhənəm əhli heç vaxt oddan ayrılası deyil.

*AYƏ 65:*

﴿الْيَوْمَ نَخْتِمُ عَلَى أَفْوَاهِهِمْ وَتُكَلِّمُنَا أَيْدِيهِمْ وَتَشْهَدُ أَرْجُلُهُمْ بِمَا كَانُوا يَكْسِبُونَ﴾

**"Bu gün onların azğını möhürləyərik və bizimlə əlləri danışar. Ayaqları gördükləri işə şəhadət verər."**

**Nöqtələr**

Yalnız nümunə göstərmək məqsədi ilə əl və ayağın adı çəkilir. Digər ayələrdə oxuyuruq ki, qulaq, göz və qəlb də sorğu-sual olunar.[1] Hətta dəri də insana şahidlik edər.[2] İstənilən bir halda bədənin hər bir üzvü gördüyü işə şəhadət verər.

**Bildirişlər**

1. Allah həm səbəb salır, həm də səbəbi aradan qaldırır. Danışıq vasitəsi olan ağız möhürlənir, danışıq bacarığı olmayan əl və ayaq dilə gəlir.
2. Məad cismanidir.
3. Qiyamətdə bədən üzvləri insanın tabeçiliyində olmur.
4. Məhkəmədə ən güclü şəhadət günahı həyata keçirənin etirafıdır.
5. Bədən üzvlərinin hansısa formada anlağı var və onlar Qiyamət günü şəhadət verə bilir.

*AYƏ 66:*

﴿وَلَوْ نَشَاءُ لَطَمَسْنَا عَلَى أَعْيُنِهِمْ فَاسْتَبَقُوا الصِّرَاطَ فَأَنَّى يُبْصِرُونَ﴾

**"Əgər istəsək, onların gözünün işığını alarıq. Bəs həmin halda yol boyu ötüşərkən necə görəcəklər?"**

*AYƏ 67:*

﴿وَلَوْ نَشَاءُ لَمَسَخْنَاهُمْ عَلَى مَكَانَتِهِمْ فَمَا اسْتَطَاعُوا مُضِيًّا وَلَا يَرْجِعُونَ﴾

**"Əgər istəsək onları yerlərindəcə məsx edərik ( ruhsuz mücəssəməyə çevirərik.) Belə ki, nə yollarına davam edə bilər, nə də geri dönə bilərlər."**

---

[1] "İsra", 36.
[2] "Səcdə",20.

**Nöqtələr**

Əgər bu iki ayəni Qiyamətdə kafirlərin əzabından danışan əvvəlki ayələrin davamı saysaq, demək söhbət kafirlərin behişt yolunu tapa bilməməsindən və məhşər səhrasında avara qalmasından gedir.[1]

**Bildirişlər**

1. Düşünməyin ki, əlinizdə olan həmişəlikdir. Allahın qəhr-qəzəbindən və nemətlərin dəyişməsindən qəflətdə qalmayın.
2. Əzab nazil olmamış çıxış yolu aramaq lazımdır. Qəzəbə gəlməmişdən öncə inadkarlıqdan əl çəkməmə zəruridir.
3. Allahın qəhr-qəzəbi hər yerdə özünü göstərə bilər.
4. Kimsə ilahi qəzəb qarşısında dayanmaq gücündə deyil.
5. İnsanların azad buraxılması ilahi sünnədir. İnsan zorla yox, eşidib-görmək, həqiqətləri dərk etməklə iman gətirməlidir.

*AYƏ 68:*

﴿وَمَنْ نُعَمِّرْهُ نُنَكِّسْهُ فِي الْخَلْقِ أَفَلَا يَعْقِلُونَ﴾

**“Kimə uzun ömür versək onu yaranışca əskildərik. (Yaddaşı zəifləyər, gücünü itirər, qaməti əyilər.) Yoxsa düşünmürsünüz?”**

**Nöqtələr**

Ötən ayələrdə Allah-təala buyururdu ki, əgər istəsək, gözləri kor edər, qiyafələri dəyişərik. Hazırkı ayə yaşlıların simasında uyğun həqiqətlə bağlı nümunə göstərir.

“Nunəkkishu” dedikdə insanın uşaqlıqdakı halına qaytarılması nəzədə tutulur. Belə bir insan bildiklərini unudur, gücünü itirir, tez inciyir, onun həssaslığı və göz yaşları artır.

**Bildirişlər**

1. Ömür Allahın əlindədir.
2.Qocalıqda tənəzzül ilahi bir sünnədir.
3. Uzun ömür Allahın əlindədir. Allah istəsə, insanlar həzrət Nuh (ə), Həzrət Mehdi (ə) kimi uzun ömür sürər.
4. İnsan həm nemətlərin itirilməsi barədə, həm də zəifləməsi haqqında düşünməlidir.

*AYƏ 69:*

﴿وَمَا عَلَّمْنَاهُ الشِّعْرَ وَمَا يَنبَغِي لَهُ إِنْ هُوَ إِلَّا ذِكْرٌ وَقُرْآنٌ مُّبِينٌ﴾

**“Biz ona (peyğəmbərə) şer öyrətmədik və bu (şer) ona layiq də deyil. Ona öyrətdiyimiz yalnız zikr və aydın Qurandır.”**

---

[1] “Təfsiri-nümunə”.

**Nöqtələr**

Girami Peyğəmbər (s) sehrbazlıq, divanəlik, kahinliklə yanaşı şairlikdə ittiham olunurdu. Hansı ki, şer və vəhy yox, təxəyyül məhsuludur, hislərdən qaynaqlanır, vəhydən fərqli olaraq şerdə şişirtmələrə yol verilir. Quran şer kimi ölçülü və fəsahətli olsa da, onun əsasını təxəyyül yox, vəhy təşkil edir.

Quran yalnız zikrdir: Allahın qüdrət və qəhr-qəzəbinin zikri, Onun lütf və nemətlərinin xatırlanması, Onun əfv və bəxşişinin yada salınması, Onun sünnə və qanunlarının xatırlanması, peyğəmbərlərin və övliyaların yada salınması, ibrət dolu tarixdən öyüd götürülməsi, ümmətlərin izzət və süqut amillərinin nəzərə çatdırılması, xeyir əməl sahibləri və doğru yolu tutanların zikri, kafir və günahkarların yada salınması, ixlas və isar kimi, şücaət və infaq kimi səciyyələrin yada salınması, təkəbbürlü və azğın başçıların törətdiyi qətllər və sonda acı aqibətinin zikri, əmr və qadağaların, moizə və nəsihətlərin, varlıq aləmindəki mövcudların nəzərə çatdırılması, gələcəkdə haqq hökumətinin qələbəsi və yer üzündə ədalətin bərpa olmasının zikri, Qiyamət səhnələrinin xatırlanması, cəhənnəm əzabı və behişt nemətlərinin yada salınması... Bəli, Quran başdan-başa zikr və xatırlatmadır.

**Bildirişlər**

1. Quranda şer yox, peyğəmbərin şairlikdə ittihamı pislənilir.
2. Allah peyğəmbərləri böhtandan müdafiə edir.
3. Şer bilməmək təbliğatçının işinə zərər vurmur.
4. Mədəniyyət adı ilə sırınan azdırıcı fəzalar sizi çaşdırmasın. Peyğəmbər dövründə şer ifrat şəkildə diqqət mərkəzində idi və şairlər məclisin başında əyləşərdi. Hazırkı ayə uyğun yanlış münasibətə son qoydu.
5. Şer təbi Allah tərəfindən verilir.
6. Müəllim ilahi peyğəmbərdir.
7. Hansısa elm hansısa insana layiq olmaya da bilər.
8. Şairanə təxəyyüllərdən azad olmamış ruhumuzda ilahi maarif qərarlaşası deyil.
9. Quran zikr və xatırlatmadır.
10. Quran aydın anlaşılası və əsaslı bir kəlamdır.

***AYƏ 70:***

﴿لِيُنذِرَ مَن كَانَ حَيًّا وَيَحِقَّ الْقَوْلُ عَلَى الْكَافِرِينَ﴾

**“Quran ona görə nazil edilib ki, (qəlbi) diri olan hər kəsə xəbərdarlıq etsin, (höccət tamamlansın) Allahın buyuruğu onlara münasibətdə gerçəkləşsin.”**

**Nöqtələr**

Həyat bir neçə növdür:

1. Nəbati həyat–Allah torpağı dirildir.[1]
2. Heyvani həyat–siz ölü idiniz, O sizi diriltdi.[2]
3.Əqli həyat–Peyğəmbər sizi dirilik gətirəcək şeyə dəvət edir.[3]
4. İctimai həyat – sizin üçün qisasda həyat var.[1]

---

[1] “Rum”, 19.
[2] “Bəqərə”, 28.
[3] “Ənfal”, 24.

5. Mənəvi həyat–Quran diri qəlbli və pak ruhlu insanlara xəbərdarlıq edir.

Bəli, möminlər diri qəlbli və gerçək həyat yaşayan insanlardır. Kafirlər isə gerçək həyatdan məhrum ölülərə bənzəyir.

Rəvayətlərə əsasən, “həyyən” dedikdə aqil insan nəzərdə tutulur.[2]

Ayədəki labüd qəhr-qəzəb “zumər” surəsinin 71-ci ayəsində də yada salınır.

Quranın xəbərdarlıqları ilahi elmdən qaynaqlanır. Bu xəbərdarlıqlar çeşidli, aydın, hikmətlidir. Uyğun xəbərdarlıqlar müjdələrlə müşayiət olunur. Xəbərdarlıq edilərkən hiss üzvləri ilə dərk olunası nümunələr göstərilir.

Ayədə qorxudan tərəf həm Quran, həm də girami Peyğəmbər (s) ola bilər.

**Bildirişlər**

1. Quran xəbərdarlıqları ibrət və tənbeh amilidir.
2. Quran xəbərdarlıqlarının qəbulu qəlbin diriliyini göstərir.
3. Quranın doğru yola çağırışından bütün millətlər və irqlər faydalana bilər.
4. Vəhylə peyğəmbərlərin gəlişində məqsəd qəlbidiri insanları oyatmaq, qəlbi ölü insanlara xəbərdarlığı tamamlamaqdır.
5. Qəlbi daş insanlara hətta ilahi kəlam da təsir etmir.
6. Kafirlər və haqqı qəbul etməyənlər ölü kimi bir şeydir.
7. Kafirlərə ilahi qəzəb vədi Allahın dəyişməz vədidir.

### *AYƏ 71:*

﴿أَوَلَمْ يَرَوْا أَنَّا خَلَقْنَا لَهُمْ مِمَّا عَمِلَتْ أَيْدِينَا أَنْعَامًا فَهُمْ لَهَا مَالِكُونَ﴾

**“Öz qüdrətimizlə onlar üçün davar yaratdığımızı və bu davara sahib olduqlarını görmürlərmi?!”**

**Bildirişlər**

1. İnsan öz ətrafındakı mövcudları nəzərdən keçirməklə Allahın qüdrəti ilə tanış ola bilər.
2. Dəvə, inək, qoyun kimi dördayaqlıların yaranışı insan üçündür.
3. Bitki və meyvələrin ərsəyə gəlməsində insanır rolu var.[3] Davarın yaranışında isə insanın heç bir iştirakı yoxdur.
4. Allah öz məxluqunu təqlid yox, yaradıcılıqla ərsəyə gətirir.
5. Əgər günəş, bitki örtüyü və dənizdən bütün canlılar bəhrələnirsə, davardan yalnız insan faydalanır.
6. İnsanın mal-qaraya rahatlıqla sahib olması ilahi lütf nişanələrindəndir.
7. İslam mülkiyyət hüququnu qəbul edir.

### *AYƏ 72:*

﴿وَذَلَّلْنَاهَا لَهُمْ فَمِنْهَا رَكُوبُهُمْ وَمِنْهَا يَأْكُلُونَ﴾

**“Dördayaqlıları onlar üçün ram etdik, bəzilərinə süvar olar, bəzilərindən qidalanarlar.”**

---

[1] “Bəqərə”, 179.
[2] “Təfsire-Nurus-səqəleyn”.
[3] “Yasin”, 35.

*AYƏ 73:*

﴿وَلَهُمْ فِيهَا مَنَافِعُ وَمَشَارِبُ أَفَلَا يَشْكُرُونَ﴾

**“Onlarda (dəri və yun kimi) başqa faydalar və içiləsi mayelər var. Bəs nə üçün şükür etmirlər?!”**

**Bildirişlər**

1. Əgər inək və qoyun vəhşi olsaydı, insanlar çox faydalı süd məhsullarından məhrum olardı.
2. Əgər bütün heyvanlar vəhşi olsaydı, insanlar səmərəli bir minik vasitəsindən məhrum olardı.
3. Həm torpaq, həm də heyvanlar ram edilmişdir.[1] Amma həm torpağa, həm də heyvanlara ehtiyaclı insan itaətsizlik göstərir.[2]
4. Bütün məxluqlar məqsədli yaradılmışdır.
5. İslamda ətdən istifadə ilə bağlı göstərişlər var.
6. Süd müqabilində şükür olunası xüsusi nemətlərdəndir.
7. İnsan düşüncə və mərifət əsasında şükür etməlidir.

*AYƏ 74:*

﴿وَاتَّخَذُوا مِن دُونِ اللَّهِ آلِهَةً لَعَلَّهُمْ يُنصَرُونَ﴾

**“Yardım almaq ümidi ilə Allahdan qeyri məbudlar seçdilər.”**

*AYƏ 75:*

﴿لَا يَسْتَطِيعُونَ نَصْرَهُمْ وَهُمْ لَهُمْ جُندٌ مُّحْضَرُونَ﴾

**“Bu məbudlarda onlara yardım gücü yoxdur. Onlar (qiyamətdə) bütlərin qoşunu kimi səhnəyə gətirilər.”**

*AYƏ 76:*

﴿فَلَا يَحْزُنكَ قَوْلُهُمْ إِنَّا نَعْلَمُ مَا يُسِرُّونَ وَمَا يُعْلِنُونَ﴾

**“Müşriklərin sözləri səni qəmləndirməsin. Biz onların gizlətdiyini də, aşkarladığını da bilirik.”**

**Nöqtələr**

İnsan heyvanların yunundan libas, döşənəcək hazırlayır. Ayaqqabı da heyvan dərisindəndir. Toxuculuq fabrikləri, süd məhsulları kanbinatı, dəri-gön emalı fabrikləri, ayaqqabı fabrikləri heyvandarlıq sahəsinin hesabına fəaliyyət göstərir. İnsan heyvanın yun və dərisindən istifadə etdiyi kimi, süd və ətindən də faydalanır.

Heyvanların əkinçilikdə də mühüm rolu var.

---

[1] “Mulk”, 15.
[2] “Ələq”, 6.

**Bildirişlər**

1. Şirk və bütpərəstlik nankorluqdur.
2. Bütpərəstlər yalnız təxəyyül və mövhumata əsaslanır.
3. Azğınlarla söhbətdə onların əqidə qaynağını hədəfə alın.
4. Allaha təşəkkür əvəzinə bütlərə üz tutan insanın cəzası cəhənnəmə giriş üçün saxlanılmadır.
5. Güclü ruhiyyəyə peyğəmbərlərin də ehtiyacı var. Allah peyğəmbərlərə təsəlli verir.
6. Uca məqsədləri olan insan hücumlara məruz qalır.
7. Allahın elm və agahlığına diqqət mömin üçün aramlıq, kafir üçün qorxu səbəbidir.
8. Düşmənlər aşkar və gizlində qurğu qurur.

*AYƏ 77:*

﴿أَوَلَمْ يَرَ الْإِنسَانُ أَنَّا خَلَقْنَاهُ مِن نُّطْفَةٍ فَإِذَا هُوَ خَصِيمٌ مُّبِينٌ﴾

**“İnsan onu nütfədən yaratdığımızı görmədimi? İndi də aşkar düşmənçilik edir.”**

*AYƏ 78:*

﴿وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ﴾

**“Öz yaranışını unudub bizə məsəl də çəkdi. Dedi: “Bu sümüklər çürüdüyü halda onları kim dirildəcək?”**

*AYƏ 79:*

﴿قُلْ يُحْيِيهَا الَّذِي أَنشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ﴾

**“(Ona) de ki, onu ilk dəfə yaradan (yenidən) dirildəcək və o hər bir yaranmışdan agahdır.”**

*AYƏ 80:*

﴿الَّذِي جَعَلَ لَكُم مِّنَ الشَّجَرِ الْأَخْضَرِ نَارًا فَإِذَا أَنتُم مِّنْهُ تُوقِدُونَ﴾

**“Odur yaşıl ağacdan sizin üçün od yaradan. İstədiyiniz vaxt ondan od qalayırsınız.”**

**Nöqtələr**

Müşriklərdən biri çürümüş sümük parçasını ovub yerə tökdü və peyğəmbərə dedi: “Bu çürümüş sümükləri kim dirildər?” Uyğun sualın cavabında hazırkı ayələr nazil oldu.[1]

Ayədə ağac dedikdə mərx və əfar çubuqları nəzərdə tutulmuşdur. Ərəblər onlardan birini o birinə sürtməklə od əldə edirdilər.[2]

Yaşıl ağacdan od əldə olunması avamların anlayacağı bir misaldır. Alimlər də öz növbəsində ağacdakı enerji ehtiyatına elmi izah verə bilir.

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] “Təfsire-rahnoma”.

**Bildirişlər**

1. Öz zəifliyini və heçliyini anlayan insan heç vaxt asilik göstərmir.
2. İnsanın nütfədən yaranmasına diqqət məada imanı gücləndirir.
3. Düşmənçilik hissindən də pis bu düşmənçiliyi aşkarlamaqdır.
4. İnsanın Allahla düşmənçiliyi gözlənilməyən və dəhşətli bir haldır.
5. Cavab vermək məqsədi ilə batil düşüncəni təkrarlamağın eybi yoxdur.
6. Allahın qüdrətinə şübhəli münasibətin kökü yetərli nümunələrə diqqətsizlik və ilkin yaranışı unutmaqdır.
7. Məadı inkar edənlərin heç bir dəlili yoxdur, onların danışığı boş təxəyyüldür.
8. Allah və məadı inkar edənlərin rəhbər qarşısında öz fikrini ifadə edə bilməsi İslamdakı azadlığı göstərir.
9. Sual yox, qərəzli və inadkarlığa əsaslanan sual pisdir.
10. Əqidə ilə bağlı bəzi şübhələrin kökü insanla Allahın qüdrətinin yersiz müqayisəsidir.
11. Əqidə ilə bağlı şübhələrə cavab verilməlidir. Hətta bir nəfərin şübhəsinə biganə qalmaq olmaz.
12. Məad cismanidir.
13. Məadın gerçəkləşməsi üçün iki şeyə ehtiyac var: Allahın insanları yenidən diriltdə bilməsi və Onun insanların əməllərindən xəbərdarlığı. Ayədə hər iki nöqtəyə toxunulur.
14. Allah iki ziddiyyətli şeyi bir araya gətirə bilir. Əslində su və od bir-birinə uyuşmur.

***AYƏ 81:***

﴿أَوَلَيْسَ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالْأَرْضَ بِقَادِرٍ عَلَى أَنْ يَخْلُقَ مِثْلَهُم بَلَى وَهُوَ الْخَلَّاقُ الْعَلِيمُ﴾

**“Göyləri və yeri yaradan kəs onların mislini xəlq edə bilməzmi?! Bəli, O hər şeyi bilən xaliqdir.”**

**Nöqtələr**

İnsan cisim və ruhdan təşkil olunmuşdur. Cisim ölümlə puç olub gedir. O ömür boyu dəyişməkdədir. Amma insanın ruhu və şəxsiyyəti sabitdir. Qiyamət səhnəsinə gətirilən insanın dünyadakı ruhudur. Amma cisim dünyəvi cismə oxşar bir qəlibdə olar.

**Bildirişlər**

1. Bəzən suala sualla cavab vermək lazım gəlir.
2. Vicdanları oyatmaq üçün sual da bir yoldur.
3. İnkarçılarla danışarkən kiçik məsələlərdən başlayaq.
4. Yüzədək sayan üçün doxsanadək saymaq çətin deyil. Göyləri və yeri yaradan kəs insanı yenidən xəlq edə bilər.
5. İstər dünyada, istər Qiyamətdə Allahın işi yaratmaqdır.
6. Məadın ilahi hikmət və ədalətdən əlavə qüdrət və elm dəlilləri də var.

*AYƏ 82:*

**﴿إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئًا أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ﴾**

**"Bir şeyi (yaratmaq) istəsə, O, buyurar və o da dərhal olar."**

*AYƏ 83:*

**﴿فَسُبْحَانَ الَّذِي بِيَدِهِ مَلَكُوتُ كُلِّ شَيْءٍ وَإِلَيْهِ تُرْجَعُونَ﴾**

**"Hökm və mülk əlində olan kəs pakdır, Ona doğru qaytarılarsınız."**

**Nöqtələr**

Məada iman çox ciddi və möhkəm olmalıdır. Bütün şübhələr aradan qaldırılmalı və insan zehnində zərrəcə tərəddüd qalmamalıdır. Allah çürümüş sümüyü ovub yerə tökən kəsə bir neçə cavab ünvanlayır.

Allahın istək və iradəsi ani həyata keçir və bu işdə zaman məhdudiyyəti yoxdur.[1]

Allahın "ol" deməyə də ehtiyacı yoxdur. Çünki bir kəlməni demək də ehtiyacdır və bu hal Allahın şənindən uzaqdır. Demək, "ol" sözü sadəcə Allahın iradə və hökmünü bildirir.[2]

**Bildirişlər**

1. Allah üçün istənilən bir şeyi yaratmaq asandır.
2. Allah yaradarkan vasitəyə, köməyə ehtiyac duymur.
3. Allahın istəyi ilə bu istəyin həyata keçməsi arasında fasilə yoxdur.
4. İstənilən bir acizlik və gücsüzlükdən uzaq olan Allahı Qiyamətin bərpasında necə aciz saymaq olar?!
5. Həm varlıq qaynağı onun əlindədir, həm də hər şeyin qayıdışı Ona doğrudur.

Əlhəmdulillahi Rəbbil-aləmin

[1] "Qəmər", 50.

[2] "Nəhcül-bəlağə", x. 186.